# AZƏRBAYCAN RESPUBLİKASI MƏSCİDLƏRİNİN ENSİKLOPEDİYASI

*İran İslam Respublikasının Azərbaycandakı*

*Səfirliyinin Mədəniyyət Mərkəzi*

Azərbaycan Respublikası Prezidentinin
İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

*BAKI - 2001*

(آذربایجانین رسپوبلیکاسی مسجیدلریفین...)
Azarbaycan respublikasi masidlarinin ensiklopediyasi / Iran Islam Respublikasinin azarbaycandnki safirliyinin madaniyyat markazi. ـ تهران: الهدی، ۱۳۸۲ = ۲۰۰۳م.
ISBN 964 - 8121 - 59 - 1
۳۰۹ ص.: مصور (رنگی).
فهرستنویسی بر اساس اطلاعات فیپا.
ترکی آذربایجانی (خط لاتینی).
۱. مسجدها ـ ـ آذربایجان (جمهوری) ـ ـ باکو. ۲. معماری مسجدها ـ ـ آذربایجان (جمهوری) ـ ـ باکو. الف. ایران. رایزنی فرهنگی جمهوری اسلامی ایران (باکو). ب. عنوان: Azarbaycan respublikasi mascidlarinin ensiklopediyasi
NA ۴۶۷۰/ آ ۵ ۷۲۶/ ۲۰۹۴۷۵۴
۱۳۸۲
کتابخانه ملی ایران م۸۲ـ۳۰۳۵۰

## ALLAHIN ADI İLƏ!

*Hörmətli oxucular! əlinizdəki Azərbaycan məscidlərinin ensiklopediyası İran İslam Respublikasının Azərbaycan Respublikasındakı Səfirliyinin Mədəniyyət Mərkəzinin vasitəsi və Qafqaz müsəlmanları idarəsinin rəhbəri cənab Allahşükür Paşazadənin yardımı ilə tərtib edilmişdir. Kitabın elmi, bədii və texniki işləri İİR-nın Bakıdakı Səfirliyinin Mədəniyyət Mərkəzinin idarəçiliyi Altında yaranmış redaksiya heyəti vasitəsilə yerinə yetirilmişdir və 2001-ci ildə çap üçün beynəlxalq Əlhuda nəşriyyatının Bakıdakı nümayəndəliyinə verilmişdir. Həmin nəşriyyat kitabı çap proqramına daxil edərək nəhayət birinci dəfə olaraq yüksək çap üsülü ilə 1000 tirajda A-4 vərəq formunda rəngli şəkildə çap etdirmişdir.*

*İzahat verilir ki, Azərbaycan Respublikasının işğal olunmuş torpaqlarındakı-Qarabağdakı bir sıra məscidlər və türbələrin şəkillərini hazırlamaq mümkün olmadığına görə həmin kitabda dərc edilmədi. Ümüd edilir ki, Qarabağ torpaqları işğalçıların əlindən azad olduğundan sonra gələcək caplarda bu nöqsan aradan qaldırılacaq. Bu böyük işin görülməsində ardıcıl fəaliyyət göstərən redaksiya heyətinin üzvləri bunlardan ibarətdir:*

| | |
|---|---|
| *Redaksiya rəhbəri:* | *Seyyid Əliəkbər Ocaqnəjad* |
| *Redaktor:* | *Əlibala Hacızadə* |
| *Tərtibçi:* | *Seyyid Əliəsgər Behbudlu* |
| *Korrektor:* | *Sevda Ayaz qızı* |
| *Elmi nəzarətçi:* | *Mirvəli Musəvi* |
| *Texniki qrupun rəhbəri:* | *Asəf Xəndani* |
| *Fotoqraflar:* | *Məşədi Hacı Qəniyev, Hacı Şahin Məmədov, Elçin Arifoğlu* |
| *Taypist:* | *Hicran Hüseynova* |

***ISNB 964 – 8121 – 59 -1***

Beynəlxalq Əlhuda Nəşriyyatı-Bakı

***M. R. Ismailzadə***



*BİSMİLLAHİR-RƏHMANİR-RƏHİM!*

## *MÜQƏDDİMƏ*

Azərbaycan müstəqilliyini qazandıqdan sonra İslamın inkişafı, milli və mənəvi dəyərlərimizin bərpası sahəsində böyük irəliləyiş mərhələsi başlandı. Bu gün artıq Sovet rejiminin illərlə əsarətdə saxladığı məscidlər dindarların üzünə açılır, təqib və qadağalara məruz qalan islami ədəbiyyat nəşr olunur, zəvvarlarımız bağlı sərhədləri aşaraq müqəddəs yerlərin ziyarətinə gedirlər. Həqiqətən: "Doğru yol, Allahın yoludur!" ("Ali-İmran", 73) və bu yolda addım atan hər bir kəsin savabı böyük, əcri intəhasızdır.

Bu gün əlinizə alıb vərəqlədiyiniz bu kitab ağır zəhmətin, gərgin axtarışların nəticəsi olmaqla bərabər, həm də müqəddəs dinimizə ehtiramın əlamətidir. İndiyə qədər Azərbaycan məscidlərinin tam külliyyatı nəşr olunmamışdır. Düzdür, ünlü tarixçilərimiz, memarlarımız, yazıçılarımız ara-sıra öz elmi və ya bədii əsərlərində hər hansı bir məscid haqqında məlumat verirdilər, lakin bu bilgilər adətən bütün ərazilərin məscid və pirlərini əhatə etmirdi. Bu mənada, İran İslam Respublikasının Azərbaycandakı Səfirliyinin Mədəniyyət Mərkəzinin əməkdaşlarının hazırladıqları kitab Azərbaycan məscidləri ensiklopediyası adlana bilər.

Kitabda əlifba sırası ilə ölkəmizin ərazisində yerləşən bütün məscid və pirlər haqqında arayış toplanmışdır. Burada ibadətgahların tikiliş, tarixi ilə yanaşı, onların memarı, görünüşü barədə də məlumat verilir, bəzən tikililərin yaranma tarixçəsi ilə də oxucu tanış olur. Əlbəttə, kitab müəyyən qüsurlardan da xali deyildir. Lakin ilk qaranquş kimi onun əhəmiyyəti əvəzsizdir.

Mən əminəm ki, müqəddəs kitabımızda deyildiyi kimi: "Əldə etdiklərini Allahın razılığını qazanmaq və imanlarını sabitqədəm etmək yolunda sərf edənlər uca təpənin üstündə olan bir bağa bənzərlər ki, ora düşən bol yağış onun meyvələrini ikiqat artırar. Əgər bol yağış yağmasa, az bir şəbnəm də kifayət edər". ("Bəqərə", 265)

Bu ilk ensiklopediyanın yaradıcılarına və oxucularına xeyir-dua diləyir, inşallah, əməklərinin bəhrəsinin səmərəli olmasını arzulayıram.

Vəs-səlamu əleykum və rəhmətullahi və bərəkatuh.

**Şeyxülislam Hacı Allahşükür Paşazadə**
***Qafqaz Müsəlmanları Ruhani İdarəsinin sədri***

*ALLAHIN ADI İLƏ!*

# ÖN SÖZ

Zaman və məkan anlayışlarının real həyatda heç bir fərqli cəhəti olmasına baxmayaraq, bəzi vaxtlarda əyər məkan və zaman müəyyən bir möhtərəm şəxsiyyətin adı ilə bağlı olarsa, onda zaman və məkanın dəyəri artar və müqəddəsləşər. Torpaq sahələri arasında isə heç bir fərq yoxdur. Lakin əyər bu torpaqlar ulu Tanrının adı ilə bağlı olarsa və yaxud peyğəmbər və övliyalar həmin torpaqda dəfn edilərsə, o zaman torpaq peyğəmbəri və övliyaları qoynuna aldığı üçün daha yüksək şərafət və fəzilətə malik olur və buna görə də həmin torpağa ehtiram edilməsi vacib, hörmətsizlik isə haramdır.

Məscidin inşa edildiyi məkan başqa yerlərdən heç də fərqlənmir. Lakin bu yer Allahın adı ilə bağlıdır və Allah bəndələri burada mənəvi borclarını yerinə yetirərək ulu Tanrı ilə təmasda olurlar. Ona görə də bu müqəddəs yerə nəinki hörmətsizlik etmək haramdır, hətta onun dağıdılması böyük günahdır.

İbrahim Xəlilullah Allah evini tikdiyi zaman ayağının altına qoyduğu və bu gün "İbrahimin məqamı" adlanan bir daşa Allah böyük ehtiramla yanaşmış və hətta bu hadisə Quranda böyük hörmətlə yad edilir. Necə ola bilər ki, ulu Tanrı Yer kürəsində bütün yaranmışların əşrəfi sayılan və Allahın xəlifəsi hesab olunan Həzrət Məhəmməd (s) dəfn edildiyi Məscidül-nəbi torpağına hörmətlə yanaşmasın?!

Peyğəmbər (s) və böyük övliyaların dəfn edildiyi yerlər ona görə qiymətli və müqəddəsdir ki, bu yerlər həmin müqəddəs insanların pak cisimlərini ağuşuna alıb. Həzrət Peyğəmbər (s) məşhur hədislərinin birində bu böyük insanların məzarlarını mələkələrin ziyarətgahı adlandırmışdı. Qurani-Kərim bu ilahi şəxsiyyətlərin pak cismini və ruhunun mələkələr tərəfindən qarşılanacağını vəd edib. Qurani-Kərimin "Hicr" surəsinin 46-cı ayəsində buyurulur: "Allahın mələkələri pak və müqəddəs insanlara belə buyuracaq:Sağlam bədən və əmin-amanlıqla bağlara daxil olun".

Doğrudan da ulu Tanrının yüksək hörmət və ehtiramla yad etdiyi hər bir şeyə hörmətlə yanaşmaq onun bəndələrinin Allaha ibadət və sitayiş etməsi deməkdir.

Şoran, quru torpaq, cansız bir daş ulu Tanrının, onun şərafətli övliyalarının, peyğəmbərlərinin adı ilə bağlı olarsa, o zaman bu cisimlər ruha elə təsir göstərər və qiymətsiz daş o qədər qiymətli olar ki, ona baxmaq bir ibadət sayılar. Peyğəmbərin hədisində deyilir:"Kəbəyə baxmaq ibadətdir".

O Həzrət başqa bir hədisində buyurur: "Qəbrim və minbərimin arası behişt bağlarından biridir".

Nə üçün Məscidül-həram bu qədər şərafətlidir ki, orada qılınan bir rükət namaz başqa yerlərdə qılınan yüz min rükət namaza bərabərdir? Nə üçün Kəbəyə baxmaq ibadət sayılır? Nəyə görə həzrət Peyğəmbərin(s) qəbrinin minbərinə qədər olan məsafə behişt bağlarından biri kimi qiymətləndirilir və minlərlə digər fəzilətlər məscidlər haqqında deyilir?

İslama görə iki nəsnə bütün peyğəmbərlərin diqqət mərkəzində olub:

- İnsanları qaranlıqdan və əyri yoldan çəkindirib nurlu və düz yola dəvət etmək;
- İnsanlar arasındakı birlik və cəmiyyətdə düzgün nizam-intizam yaratmaq.

Əgər diqqət etsək, bu iki nəsnənin məsciddə yarandığının şahidi olarıq. Yəni insanlar məscidlərdə hidayət olunur və yol azmaqdan, xurafata inanmaqdan, fəsaddan, günahdan, cansız və ruhsuz bütlərə sitayiş etməkdən xilas olurlar. Digər tərəfdən təfriqədən, ixtilaflardan, fikir ayrılığından uzaqlaşıb vəhdətə, birliyə doğru yönəlirlər. Odur ki, Qurani-Kərimin "Tövbə" surəsinin 17-ci ayəsində belə buyurulur: "O adam Allahın evini abad edir ki, Allaha və qiyamət gününə iman gətirir".

Məscidin abadlığı necə olmalı və nə ilə bağlıdır? Məscidə o zaman abad demək olar ki, müsəlmanlar buraya gəlib nurla dolu qəlblər, güclü birlik və vəhdətlə ulu Tanrının göylərdən göndərilmiş hökmlərini Allahı dərindən dərk edənlərdən öyrənib Qurani-Kərimin ayələrini və İslam dininin maarifini insanların həqiqi müəllimlərindən, Quranı dərindən bilənlərdən, əhli-beyt (ə) davamçılarından öyrənsinlər və Quranın pak, şəffaf təfsirini Quran natiqlərinin bəlağətli və fəsahətli dilindən eşidib Allahın qarşısında təzim etsinlər. Həmçinin, möminlər düşmən gözünü kor edən camaat namazları təşkil edib əlləri, ürəkləri və dilləri imanla dolu olduğu bir halda Allahın hüzurunda böyük və kiçik günahlarının bağışlanmasını diləsinlər. Bax belə bir gün məscidin abadlığı sayılır və həmin gündə Allaha və qiyamət gününə inam insanların hərəkət, əməl və danışıqlarında əks olunacaq.



Allaha çox şükür edirəm ki, böyük və məsuliyyətli bir işin görülməsi bizə nəsib oldu. Bu iş Azərbaycanda məscidlərin ensiklopediyasının hazırlanıb çap edilməsidir. İlk əvvəllər bu işin böyüklüyü və çətinliyi nəzərə çarpmasa da, işlər öz məcrasına yönələndən sonra bunun nə qədər çətin və məsuliyyətli olduğu aşkar edildi. Bu işin görülməsi üçün illərlə vaxt və minlərlə saat tələb olundu. İslam ölkəsi olan Azərbaycanın müxtəlif rayon və kəndlərinə səfərlər edildi və bu zaman isti-soyuğa, çətinliklərə baxmayaraq, Allaha və əhli-beytə (ə) olan ehtiram və məhəbbət bütün işlərin çətinliyini aradan götürüb yolları bizim üçün rahat və hamar etdi.

Ensiklopediyada Azərbaycan Respublikasının ayrı-ayrı bölgələrinə məxsus məscid, imamzadə, ziyarətgah, türbə və pirlər haqqında qısa məlumat verilib. Bu kitaba daxil edilmiş materiallar 1997-ci ilin əvvəllərindən 1999-cu ilin payız aylarınadək davam edən tədqiqatın nəticəsidir. Onu da qeyd edək ki, ensiklopediya məhz qeyd olunan illərədək inşa olunmuş, eləcə də bünövrəsi qoyulmuş abidələrdən bəhs edir.

Heç şübhəsiz ki, Azərbaycan Respublikasının bütün yaşayış məntəqələrindəki məscidlər bu kitabda öz əksini tapmayıb. Odur ki, bu işin gələcəkdə tədqiqatçılar tərəfindən davam etdiriləcəyinə əminliyimizi vurğulamaqla yanaşı, məscidləri bu kitaba daxil edilməmiş ucqar kənd sakinlərindən üzrxahlığımızı bildiririk.

Qeyd etmək çox yerinə düşərdi ki, bu müqəddəs və qiymətli iş Qafqaz Müsəlmanları Ruhani İdarəsinin təşviqi və Şeyxülislam Hacı Allahşükür Paşazadə həzrətlərinin xeyir-duası ilə həyata keçirilib.

Həmçinin, İran İslam Respublikası Səfirliyinin Azərbaycandakı Mədəniyyət Mərkəzinin hörmətli əməkdaşları, Azərbaycanın mütəfəkkir və ziyalıları bu işdə bizə yardımçı olublar.

Son olaraq bütün rayon və kənd məscidlərinin ağsaqqallarına, Azərbaycanın yazıçılarına və qələm sahiblərinə, xüsusilə bu kitabın hazırlanıb üzə çıxmasında böyük zəhmətlər çəkmiş və dəyərli işlər görmüş Seyid Əliəsgər Behbudluya öz dərin, sonsuz minnətdarlığımı bildirib, bütün qardaşlara və dünya müsəlmanlarına, həqiqət yolunda çalışan din xadimlərinin hamısına gündəlik işlərində müvəffəqiyyətlər, izzət, bu dünyada və axirətdə Allahdan səadət diləyirəm.

Vəs-səlamu əleykum və rəhmətullah.

*SEYYİD ƏLİƏKBƏR OCAQNƏJAD*

*İran İslam Respublikasının*
*Azərbaycandakı Səfirliyinin*
*Mədəniyyət Mərkəzinin sədri*
*Məhərrəm ayının 14-ü, 1422-ci il.*
*Miladi : 9 aprel 2001-ci il*

***AZƏRBAYCAN RESPUBLİKASI***

***MƏSCİDLƏRİNİN ENSİKLOPEDİYASI***

# ABŞERON RAYON MƏSCİDLƏRİ

## XIRDALAN QƏSƏBƏ MƏSCİDİ



Məscid Abşeron rayonunun mərkəzində - Xırdalanda yerləşir.

Hicri-qəməri təqvimi ilə 1263-cü ildə inşa olunub. Əsas ibadət zalının sahəsi 12x15 metrdir.

Xırdalan qəsəbə məscidinin divarları daşdan hörülüb. Mehrabı yonulmuş daşlardan inşa edilib. Mehrabın hündürlüyü 4 metrdir. Minbəri qoz ağacından düzəldilib, yeddi pillədir və üstündə hicri-qəməri ilə 1324-cü il tarixi göstərilib. Burada verilən başqa bir məlumata görə, minbər usta Hacı Əbdülbaqi Hacı Hüseyn Əli oğlu tərəfindən düzəldilib. Məscidin tavanı iri sal daşlardan hörülmüş sütunlar üzərində dayanıb. Sütunlar tağlara birləşdirilmişdir. Məscidin qadınlar şöbəsi ikinci mərtəbədə yerləşib. Onun sahəsi 4x12 metrdir.



Xırdalan qəsəbə məscidinin tavanadək hündürlüyü 7 metr, yerdən günbəzədək isə 12 metrdir. Günbəzin diametri 4 metrdir. Günbəzin dairəvi hissəsində Kəlmeyi-təyyubə (La İlahə İlləllah, Mühəmmədən Rəsulallah, Əliyyən Vəliyullah) yazılıb. Qeyd edək ki, bu sözlər günbəzdə beş dəfə təkrar edilir. Günbəzdə 4 pəncərə qoyulub. Pəncərələr naxışlı və rəngli şüşələrlə işlənib.

Məscid üçün hal-hazırda minarə də tikilir. Artıq minarənin 7 metri ucaldılıb, plana görə isə onun 32 metr olması nəzərdə tutulur. Onu da xatırladaq ki, vaxtilə bu məscidin minarəsi də olub. Ancaq 1937-ci ildə sökülüb, onun materialından isə məktəb tikintisində istifadə edilib.

Bu məscid sovetlər dövründə anbar kimi istifadə olunub. Sovetlər dağılandan sonra burada təmir işləri aparılaraq məscid kimi fəaliyyəti bərpa edilib.

Məscidin mollası Teyyub Qafaroğludur.

## SEYİD İMRAN AĞA ZİYARƏTGAHI



Ziyarətgah Abşeron rayonunun Hökməli qəsəbəsindədir.

Seyid İmran ağa (1860-1918) kənd sakini olub. Onun qəbri üzərində tikilən ilk tikili çox kiçik olduğundan sonralar burada kompleks inşa olunub. Ziyarətgah qəsəbə camaatı tərəfindən tikilib. Giriş qapısının üstündə Kəlmeyi-təyyubə yazılıb. Ziyrətgahın günbəzi (3 metr) də var. Ziyarətgahın içərisində Seyid İmran ağa, qızı Xeyransa xanım və əmisi oğlu Mircavad ağanın qəbirləri yerləşib.

# ABŞERON RAYON MƏSCİDLƏRİ

## XIRDALAN QƏSƏBƏ MƏSCİDİ



Məscid Abşeron rayonunun mərkəzində - Xırdalanda yerləşir.

Hicri-qəməri təqvimi ilə 1263-cü ildə inşa olunub. Əsas ibadət zalının sahəsi 12x15 metrdir.

Xırdalan qəsəbə məscidinin divarları daşdan hörülüb. Mehrabı yonulmuş daşlardan inşa edilib. Mehrabın hündürlüyü 4 metrdir. Minbəri qoz ağacından düzəldilib, yeddi pilləlidir və üstündə hicri-qəməri ilə 1324-cü il tarixi göstərilib. Burada verilən başqa bir məlumata görə, minbər usta Hacı Əbdülbaqi Hacı Hüseyn Əli oğlu tərəfindən düzəldilib. Məscidin tavanı iri sal daşlardan hörülmüş sütunlar üzərində dayanıb. Sütunlar tağlara birləşdirilmişdir. Məscidin qadınlar şöbəsi ikinci mərtəbədə yerləşib. Onun sahəsi 4x12 metrdir.



Xırdalan qəsəbə məscidinin tavanadək hündürlüyü 7 metr, yerdən günbəzədək isə 12 metrdir. Günbəzin diametri 4 metrdir. Günbəzin dairəvi hissəsində Kəlmeyi-təyyubə (La İlahə İlləllah, Mühəmmədən Rəsulallah, Əliyyən Vəliyullah) yazılıb. Qeyd edək ki, bu sözlər günbəzdə beş dəfə təkrar edilir. Günbəzdə 4 pəncərə qoyulub. Pəncərələr naxışlı və rəngli şüşələrlə işlənib.

Məscid üçün hal-hazırda minarə də tikilir. Artıq minarənin 7 metri ucaldılıb, plana görə isə onun 32 metr olması nəzərdə tutulur. Onu da xatırladaq ki, vaxtilə bu məscidin minarəsi də olub. Ancaq 1937-ci ildə sökülüb, onun materialından isə məktəb tikintisində istifadə edilib.

Bu məscid sovetlər dövründə anbar kimi istifadə olunub. Sovetlər dağılandan sonra burada təmir işləri aparılaraq məscid kimi fəaliyyəti bərpa edilib.

Məscidin mollası Teyyub Qafaroğludur.

## SEYİD İMRAN AĞA ZİYARƏTGAHI

Ziyarətgah Abşeron rayonunun Hökməli qəsəbəsindədir.

Seyid İmran ağa (1860-1918) kənd sakini olub. Onun qəbri üzərində tikilən ilk tikili çox kiçik olduğundan sonralar burada kompleks inşa olunub. Ziyarətgah qəsəbə camaatı tərəfindən tikilib. Giriş qapısının üstündə Kəlmeyi-təyyubə yazılıb. Ziyrətgahın günbəzi (3 metr) də var. Ziyarətgahın içərisində Seyid İmran ağa, qızı Xeyransa xanım və əmisi oğlu Mircavad ağanın qəbirləri yerləşib.



## QOBU QƏSƏBƏ MƏSCİDİ



Məscid Abşeron rayonunun Qobu qəsəbəsində tikilib. Bünövrəsi 1987-ci ildə qoyulub. İç sahəsi 21x6 metrdir.

Məscidin divarları mişar daşından hörülüb.Tavanı beton, döşəməsi daşdandır. Minarəsi dəmir borudan olub, kənarları mişar daşı ilə hörülmüşdür. Minarənin hündürlüyü 6 metrdir. Məscidin hündürlüyü yerdən tavanadək 3,5 metrdir.

Bu məscidin yaxınlığında vaxtilə böyük bir məscid də olub. Həmin məscid 1937-i ildə sökülüb.

## HÖKMƏLİ QƏSƏBƏ CÜMƏ MƏSCİDİ



Məscid Abşeron rayonunun Hökməli qəsəbəsinin Nəsimi küçəsində yerləşib.

Hökməli qəsəbə Cümə məscidinin divarları sal daşlarla işlənib. Giriş qapısı üstündə daş üzərində "Kəlmeyi-təyyubə" yazılıb. Qapıdan içəridə sahəsi 32 kv. metr olan dəhliz yerləşib. Məscidin döşəməsindən tavana qədər hündürlüyü 5 metr, günbəzə qədər isə 8 metrdir. Günbəzdə üç gözlük qoyulub. Mehrabı mərkəzdə yerləşib və hündürlüyü 3 metrdir. Mehrabın üstündə ərəbcə "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn" sözləri yazılıb.

1997-ci ildə məscid üçün mişar daşından minarə də tikilib. Onun hündürlüyü 15 metrdir. Minarənin üstündə səkkizguşəli ulduz və aypara rəmzi qoyulub.

## CEYRANBATAN QƏSƏBƏ MƏSCİDİ



Məscid Abşeron rayonunun Ceyranbatan qəsəbəsindədir. 1997-ci ildə inşa olunub. Əsas ibadət zalının sahəsi 140 kv. metrdir.

Məscidin divarları mişar daşından hörülüb. Əsas giriş qapısından içəridə iki dəhliz yerləşib. Onlardan birinin sahəsi 6 kv.metr, digərinin isə 4 kv.metrdir.

Ceyranbatan qəsəbə məscidinin hündürlüyü döşəməsindən tavanınadək 4 metr, günbəzədək hündürlüyü 8 metrdir. Günbəzin diametri 6 metrdir və onda on iki pəncərə qoyulub. Mehrabın eni 2 metr, hündürlüyü 3,5 metrdir. Mehrabın sağ və sol tərəfində iki hücrə var. Onların hər birinin sahəsi 12 kv.metrdir.

Məscidin minarəsi bişmiş kərpicdən tikilib və hündürlüyü 15 metrdir.

Ceyranbatan qəsəbə məscidinin tavanı beton plitələrdən, döşəməsi isə parketdən işlənib.



## GÜZDƏK QƏSƏBƏ MƏSCİDİ



Abşeron rayonunun Güzdək qəsəbəsində yerləşən bu məscidin inşa tarixi h.q.təqvimi ilə 1287-ci ilə aiddir. Həyətyanı sahəsi 290 kv.metr, iç sahəsi isə 16x5 metrdir.

Güzdək qəsəbə məscidinin divarları yonulmuş daşlardan hörülüb. Divarların qalınlığı 1 metrdir. Döşəməsindən tavanınadək hündürlüyü 5 metr, günbəzədək hündürlüyü isə 8,5 metrdir. Günbəzdə üç pəncərə qoyulub. Tavan dörd tağ üzərində dayanıb. Tağlar günbəzdə bir-biri ilə qovuşub. Mehrab sadədir və hündürlüyü 2 metrdir.

Güzdək qəsəbə məscidi öz tarixiliyi baxımından abidə hesab edilir. Sovetlər dövründə anbar və klub kimi istifadə olunub. 1990-cı ildən fəaliyyəti bərpa edilib.

## HACI MƏHƏMMƏD HƏSƏN BƏY MƏSCİDİ



Məscid Abşeron rayonunun Hökməli qəsəbəsinin Seyidlər məhəlləsindədir. Bünövrəsi hicri-qəməri təqvimi ilə 1312-ci ildə qoyulub. Əsas ibadət zalının sahəsi 14x6 metrdir.

Bu məscidə vaxtilə kənddə yaşayan Hacı Məhəmməd Həsən bəyin xatirəsinə hörmət əlaməti olaraq onun adı verilib. Belə ki, giriş qapısının üstündə kiril əlifbası ilə "Hacı Məhəmməd Həsən bəy cümə məscidi" sözləri qeyd olunub. Mehrabın üstündə "Kəlmeyi-təyyubə" yazılıb və 1323-cü il tarixi göstərilib. Məscid iki mərtəbədən ibarətdir. İkinci mərtəbə eyvan formasındadır. Günbəzin diametri 5 metrdir və onda üç pəncərə qoyulub. Bunlar gündoğan və qiblə tərəfi göstərir. Hündürlüyü yerdən tavanadək 5,5 metr, yerdən günbəzədək 10 metrdir. Məscid üçün minarə və eyvan da tikilir. Məscidin nəzdində mədrəsə də fəaliyyət göstərir.



Vaxtilə bu məsciddə İslam Şərqinin dini universitetlərində təhsil almış nüfuzlu din xadimləri axundluq ediblər.

## SARAY MƏSCİDİ



Abşeron rayonunun Saray qəsəbəsindəki bu məscidin bünövrəsi 1993-cü ildə qoyulub. İç sahəsi 23x17 metrdir.

Saray məscidi mişar daşından inşa olunub və forma etibarilə düzbucaqlı şəklindədir. Məscidin yerdən tavanadək hündürlüyü 7 metr, yerdən günbəzədək hündürlüyü 17 metrdir. Günbəz dəmir təbəqə ilə örtülüb və onda səkkiz pəncərə qoyulub. Tavan səkkiz sütun üzərində dayanıb. Döşəməsi metlax, tavanı isə taxta ilə işlənib. Məscidin ətrafı asfaltla döşənib. Qadınlar şöbəsi məscidin ikinci mərtəbəsində yerləşib. Buranın sahəsi 17x7 metrdir. Şöbəyə məscidin arxa tərəfindən giriş qapısı qoyulub.

## FATMAYI KƏND İMAM HÜSEYN MƏSCİDİ





Məscid Abşeron rayonunun Fatmayı kəndində yerləşir. 1988-1989-cu illərdə inşa olunub. İç sahəsi 132 kv.metr, həyətyanı sahəsi 170 kv.metrdir.

Fatmayı kənd İmam Hüseyn məscidi mişar daşından tikilib. Tavanı və döşəməsi betondandır. Tavan sütunlar üzərində dayanıb. Bundan əlavə, kişilər və qadınlar şöbəsini ayıran iki tağ da üç kiçik sütun üzərində dayanıb. Günbəzin diametri 4 metrdir və onda dörd gözlük qoyulub.

Məscidin yerdən tavanınadək hündürlüyü 4 metr, günbəzədək hündürlüyü isə 8 metrdir. Mehrab nəbati ornamentlərlə işlənib. Məscidin interyeri nəfis şəkildə işlənib. Pəncərələri taxtadandır və sivri ucludur.

## HACI HEYBƏT MƏSCİDİ



Məscid Abşeron rayonunun Fatmayı kəndindədir. Onun bünövrəsi XVII əsrdə qoyulub. Həyətyanı sahəsi 200 kv.metrdir.

Əsas ibadət zalı dörd tağdan ibarətdir. Məscid iki giriş qapısına və iki pəncərəyə malikdir. Mehrabının yuxarı hissəsində səkkizguşəli ulduz qoyulub və kənarları müxtəlif ornamentlərlə işlənib. Mehrabın sağ tərəfində kiçik bir daş kitabə həkk olunub. Məscidin eyvanı da var.

Məscid tarixi abidə hesab olunur.

## FATMAYI KƏND ƏLBƏDDİ MƏSCİDİ



Məscid Abşeron rayonunun Fatmayı kəndində tikilib. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1295-ci ilə aiddir. Kişilər şöbəsinin sahəsi 3x10 metr, qadınlar şöbəsinin sahəsi 3x5 metrdir.

Fatmayı kənd Əlbəddi məscidinin giriş qapısının üstündə onun tarixi haqda daş kitabə vardır. Yerdən tavanadək hündürlüyü 4 metr, günbəzədək hündürlüyü 7 metrdir.

Bu məscidin özünəməxsus konstruksiyası var. Onun memarlıq üslubu Digah kənd məscidi ilə eyniyyət təşkil edir.





## MEHDİABAD CÜMƏ MƏSCİDİ



Cümə məscidi Abşeron rayonunun Mehdiabad qəsəbəsində yerləşir. Qəsəbənin mərkəzində olan bu məscidin tikintisinə 1994-cü ildə başlanıb. Türkiyənin Diyanət Vəqfi tərəfindən inşa olunan məscidin tikintisi artıq başa çatdırılıb və məscid yerli möminlərin ixtiyarına verilib. Son dərəcə füsunkar və geniş bir ərazidə yerləşən bu məscidin ətrafı yaşıllıqlara bürünüb. Məscidin tikintisində əsas etibarilə betondan və üzlük daş plitələrdən istifadə olunub. Osmanlı memarlıq üslubunda tikilən bu məscid böyük minarəyə, eləcə də günbəzlərə malikdir.

## MƏMMƏDLİ KƏND CÜMƏ MƏSCİDİ



Məscid Abşeron rayonunun Məmmədli kəndində yerləşir. Hicri-qəməri təqvimi ilə 1233-cü ildə inşa olunub. İç sahəsi 5x14, həyətyanı sahəsi isə 90 kv. metrdir.

Məmmədli kənd cümə məscidi düzbucaqlı formaya malikdir. Divarlarının qalınlığı 1 metrdir. Əsas giriş qapısından içəridə dəhliz, çöldə isə eyvan yerləşib. Damı qırla örtülüb. Məscidin ətrafı daş plitə və asfaltla döşənib.

Giriş qapısının üstündə onun tarixi haqda məlumat verən daş kitabə həkk olunub. Qapıdan sol tərəfdə, habelə mehrabın üstündə də daş kitabə vardır. Məscidin hündürlüyü 4 metrdir.

Sovetlər dövründə bağlanmış və anbar kimi istifadə edilmişdir. 1989-cu ildən sonra təmir-bərpa işləri aparılaraq məscid kimi fəaliyyətə başlayıb. Məscid memarlığı baxımından çox sadə konstruksiyaya malikdir.

## KÖHNƏ SARAY CÜMƏ MƏSCİDİ



Məscid Abşeron rayonunun Köhnə Saray qəsəbəsindədir. Hicri-qəməri təqvimi ilə 1322-ci ildə tikilib. İç sahəsi 23x14 metrdir.

Köhnə Saray Cümə məscidi birmərtəbəlidir. Divarları mişar daşından hörülüb. Tavanı altı sütun üzərində dayanıb. Sütunlardan dördü dairəvi, ikisi isə düzbucaqlı formadadır. Sütunlar tağlarla bir-birinə birləşib.

Yerdən tavanadək hündürlüyü 8 metr, günbəzədək hündürlüyü 13 metrdir. Günbəzin diametri 5 metrdir. Günbəzdə 4 dəmir pəncərə qoyulub. Mehrab (hündürlüyü 3 metr) daş plitələrlə işlənib. Minbər taxtadan düzəldilib və altıpilləlidir. Məscidin döşəməsi betondur.

Fasad tərəfdə, qapının üstündə ərəbcə daş kitabə yazılıb. Mehrabda da kitabələr var. Mehrabdakı kitabədə 1322-ci il tarixi göstərilib.

## HƏMZƏ MƏSCİDİ



Abşeron rayonunun Novxanı kəndində yerləşən bu məscidin inşa tarixi 1994-1996-cı illərə aiddir. Ümumi sahəsi 35x40 metr (1400 kv.metr), əsas ibadət zalının sahəsi 10x7 metr, qadınlar şöbəsinin sahəsi 7x2,5 metrdir.

Həmzə məscidi Kərbəlayı Adil İmaməli oğlu tərəfindən tikilib. Forma etibarilə kvadratşəkilli olan bu məscidin hündürlüyü 8 metrdir. İbadət salonunun 4 sütunu vardır. Sütunlar tağlar vasitəsilə əlaqələnib. Günbəz daşdan işlənib və üstünə suvaq çəkilib. Günbəz sadə formaya malikdir. Məscidin pəncərələri Şərq memarlıq üslubunda hazırlanıb. Onların yuxarısı qövsvari şəkildə işlənib.

Məscidin interyeri sadə konstruksiyaya malikdir. Həyətdə dəstəmazxana, qonaq otağı, mürdəşirxana da var. Qoşa minarələr məscidə xüsusi yaraşıq verir. Minarələrin hər biri tək şərəfəyə malikdir. Minarələr çox sadə quruluşda tikilib və hündürlüyü 8 metrdir.

## MASAZIR KƏND CÜMƏ MƏSCİDİ



Məscid Abşeron rayonunun Masazır kəndində yerləşib. 1988-ci ildə inşa olunub. İç sahəsi 27x5 metr, ümumi həyətyanı sahəsi 27x25 metrdir.

Divarları mişar daşından hörülüb və qalınlığı 70-80 sm-dir. Döşəmə kərpiclə işlənib. Məscidin yerdən tavanadək hündürlüyü 5,5 metrdir.

Günbəzin həm hündürlüyü, həm diametri 5 metrdir. Günbəzdə 6 dəmir pəncərə qoyulub.

Masazır kənd Cümə məscidi iki mərtəbədən ibarətdir. İkinci mərtəbə eyvan şəkillidir və qadınlar üçün nəzərdə tutulub. Məscidin həyəti asfaltla örtülüb.

Vaxtilə burada mövcud olan məscidin tarixi h.q.təqvimi ilə 1112-ci ilə aid olub. Məscid bərbad vəziyyətdə olduğundan onu söküb hazırkı məscidi tikiblər.

## GÖRƏDİL KƏND MƏSCİDİ





Məscid Abşeron rayonunun Görədil kəndində inşa edilib. İç sahəsi təqribən 70 kv. metrdir. İlkin tarixi hicri-qəməri təqvimi ilə 1278-ci ildir. Lakin 1323-cü ildə də burada tikinti işləri aparılıb və buna görə də həm ilkin tikintini, həm də sonrakını göstərən daş kitabə həkk olunub.

Görədil kənd məscidinin iki giriş qapısı var. Giriş qapılarının önündə eyvan yerləşib. Məscidin sol tərəfində üç yardımçı otaq var. Otaqların qarşı tərəfində daha bir eyvan tikilir.

Görədil kənd məscidinin damı qırla örtülüb. Əsas ibadət zalında iki pəncərə qoyulub. Zal dörd tağdan ibarətdir. Tağlar günbəzə qovuşub. Günbəzdə dörd düzbucaqlı şəkilli pəncərə qoyulub.

Məscidin h.q.tarixi ilə 1278-ci ildə tikilən hissəsinin sahəsi 11x4 metr, sonrakı hissəsinin sahəsi isə 12x5 metrdir.



5126

## FATMAYI KƏND POLADLI MƏSCİDİ



Məscid Abşeron rayonunun Fatmayı kəndindədir. Fatmayı kənd Poladlı məscidinin kişilər şöbəsinin sahəsi 11x8 metr, qadınlar şöbəsinin sahəsi isə 4x6 metrdir.

Döşəməsi daş plitələrlə işlənib. Əsas ibadət zalı dörd tağdan ibarətdir. Tağlar sferik günbəzlə qovuşub. Günbəzin diametri 5 metrdir və onda üç gözlük qoyulub. Məscidin qarşısında açıqşəkilli eyvan yerləşib.

## MƏMMƏDLİ KƏND MƏSCİDİ



Məscid Abşeron rayonunun Məmmədli kəndində inşa olunub. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1325-ci ilə aiddir. İç sahəsi 65 kv.metr, həyətyanı sahəsi isə təqribən 600-700 kv.metrdir.

İnteryer tağvari formaya malikdir. Divarları yonulmuş sal daşlardan tikilib və qalınlığı 1 metrdir. İki giriş qapısı var. Əsas giriş qapısı birbaşa ibadət zalına aparır. Əsas giriş qapısından yuxarıda məscidin tarixini göstərən daş kitabə həkk olunub. Mehrabı məscidin ortasında yerləşib. Əsas ibadət zalında doqquz taxça da var. Döşəmə daş plitə ilə işlənib.

Məscidin interyeri çox sadə konstruksiyaya malikdir.

## HACI SƏFƏRƏLİ MƏSCİDİ



Abşeron rayonunun Novxanı kəndində yerləşən bu məscidin inşa tarixi 1912-ci ilə aiddir. Ümumi sahəsi 45x58 metr, ibadət zalının sahəsi isə 16x20 metrdir.

Kvadrat şəklinə malik məscidin ön tərəfində dörd kitabə var. Məscidin minarəsi dəmir-betondan inşa olunub və hündürlüyü 31 metrdir.

Hacı Səfərəli məscidi iki hissəyə-kişilər və qadınlar şöbəsinə ayrılıb. Qadınlar şöbəsi birinci və ikinci mərtəbədə yerləşib. Məscidin döşəməsindən günbəzədək hündürlüyü 11 metrdir. Məscidin içərisində dörd sütun vardır. Sütunları tağlar bir-biri ilə əlaqələndirir. Günbəz də sanki sütunların üzərində qərar tutub. Günbəz hissədə səkkiz kvadrat şəkilli pəncərə var.

Bu məscidi kənd sakini, varlı və dindar bir adam olan Hacı Səfərəli tikdirib. Sovet hakimiyyəti illərində məscid bağlanaraq anbar kimi istifadə olunub və 1987-ci ildə yenidən fəaliyyətə başlayıb.



Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi
PREZİDENT KİTABXANASI

## DİGAH QƏSƏBƏ MƏSCİDİ



Məscid Abşeron rayonunun Digah qəsəbəsində inşa edilib.

Digah qəsəbə məscidinin inşa tarixi dəqiq məlum deyil. Lakin qapısının üstündəki kitabələrdə 129 və 227-ci il tarixləri göstərilib. İlkin sahəsi 54 kv.metr, XIX əsrin əvvəllərində əlavə edilmiş sahə 81 kv.metr və nəhayət, 1988-1989-cu illərdə qadınlar üçün tikilmiş hissəsinin sahəsi 96 kv.metrdir.

Məscidin divarlarının qalınlığı 1 metrdir. Yerdən tavanadək hündürlüyü 5 metr, yerdən günbəzədək hündürlüyü 10 metrdir. Məscid karxana daşları ilə tikilib. Günbəzi 4 sütun üzərində dayanıb. Sütunlar tağlarla birləşib. Damı dəmir təbəqə ilə örtülüb. Həyətdə dəstəmazxana və yardımçı otaqlar tikilib. Məscid sadə konstruksiyaya malikdir.

# AĞCABƏDİ RAYON MƏSCİDLƏRİ

## AĞCABƏDİ ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Məscid Ağcabədi şəhərindədir. İnşa tarixi XIX əsrin ikinci yarısına aiddir. Həyətyanı sahəsi 800 kv.metrdir. Məscidin əvvəlki hissəsinin iç sahəsi 22x9 metr, yeni tikilmiş binasının iç sahəsi 15x10 metrdir.

Bu məscid iki hissədən ibarətdir. Əvvəlki hissəsi 118 il bundan əvvəl tikilib. Məscidin əsas giriş qapısının sol tərəfində, divarda daş kitabələr həkk olunub. Bu kitabələrdə qeyd olunduğuna görə, məscidi Ağcabədi rayonunun Qaradolaq kəndinin sakini, varlı şəxs olan Hacı Səfər tikdirib. Əvvəlki məscid yalnız bişmiş kərpiclə işlənib. Deyilənlərə görə, məscidin hündürlüyü 27 metr olan tək minarəsi olmuşdur. Həmin minarə sovetlər dövründə dağıdılıb. 1990-cı ildə Ağcabədi şəhər əhalisinin təşəbbüsü və vəsaiti hesabına burada təmir-bərpa işləri başlanıb. Məscidin yeni hissəsinin layihəsi rayonun icra hakimiyyətinin memarlıq şöbəsi tərəfindən verilib. Yeni layihəyə uyğun olaraq hazırkı məscidin əsas giriş qapısının ön tərəfində yeni tikili ucaldılmalıdır. Bu tikilinin ikimərtəbəli olması nəzərdə tutulub. Bundan başqa, hündürlüyü 27 metr olan qoşa minarənin ucaldılması da layihələşdirilib.

Köhnə məscid iki hissəyə bölünmüşdür. Əsas giriş qapısından ön tərəfdə və sol tərəfdə qadınlar şöbəsi yerləşib. Bura iki mərtəbədən ibarətdir. Məscidin günbəzi taxtadan olub 8 pilləlidir. İbadət zalında cəmisi 10 ədəd pəncərə qoyulub. Pəncərələr taxtadandır. Mehrab əsas giriş qapısı ilə üzbəüz divarda yerləşib. Mehrab tağvari formadadır, hündürlüyü 2 metrdir. Məscidin divarlarının qalınlığı 1m.20 sm-dir. Sovetlər dövründə gübrə anbarı kimi istifadə edilib.

Məscidin axundu Kərbəlayı Həsənbala Həmid oğludur.



## RƏNCBƏR KƏND MƏSCİDİ



Məscid Ağcabədi rayonunun Rəncbər kəndində tikilib. Hicri-qəməri təqvimi ilə 1330-cu ildə inşa edilmişdir. İç sahəsi 8x12 metrdir. Məscid başdan-başa bişmiş kərpiclə tikilib. Dam örtüyü şiferlə işlənib. Giriş qapısının üstündə 2 ədəd daş kitabə həkk olunmuşdur. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Mehrabı divarın içərisində olub, palçıqla suvanıb. İbadət zalında iki ədəd (düzbucaqlı formada) qapı və 6 ədəd (düzbucaqlı formada ) pəncərə qoyulub. Məscid yerli kənd sakinlərinin vəsaiti hesabına tikilib.

## HİNDARXI KƏND MƏŞƏDİ ƏDİL MƏSCİDİ



Məscid Ağcabədi rayonunun Hindarxı kəndində inşa edilib. Hicri-qəməri tarixi ilə 1328-ci ildə yerli sakin Məşədi Ədil Hacı Rzaqulu oğlunun başçılığı ilə tikilmişdir. İç sahəsi 12x17 metrdir.

Hindarxı kənd Məşədi Ədil məscidi bişmiş kərpiclə hörülmüşdür. İç divarları qum-sement məhlulu ilə suvanmışdır. Minbəri taxtadandır, doqquz pilləlidir. Məscidin döşəməsi və tavanı da taxtadandır. Tavan 7 ədəd dəmir boru sütun üzərində dayanıb.

Hindarxı kənd Məşədi Ədil məscidi sovetlər dövründə hərbi kazarma, daha sonra isə anbar kimi istifadə edilmişdir. 1990-cı ilin yanvarında məscidin damı yerli kənd sakinləri tərəfindən təmir edilib. Bu zaman iç divarları da suvanıb.

## HÜSÜLÜ KƏND MƏSCİDİ



Ağcabədi rayonunun Hüsülü kəndində yerləşən bu məscidin giriş qapısının sağ tərəfində daş kitabə həkk edilib. Bu daş kitabədən məlum olur ki, onun tikilmə tarixi təqribən XVIII əsrin axırlarına aiddir. 1993-cü ildə məscid sökülüb və yenidən tikilib. Həyətyanı sahəsi 500 kv.metrdir, iç sahəsi 9x9 metrdir.

Hüsülü kənd məscidi mişar daşı və qırmızı kərpiclə tikilib. Məscidin giriş qapısının sağ və sol tərəflərində minarələr ucaldılıb. Minarələr dəyirmi formadadır, hündürlüyü 12 metrdir. Minarələrin qübbəsi ağ dəmir təbəqə ilə işlənib. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanıb. Məscidin bir giriş qapısı və dörd pəncərəsi vardır. Pəncərələr və qapı taxtadan olub, tağvari formadadır. Sovet dövründə məscid istifadə edilməmişdir.

Hüsülü kənd məscidinin sökülüb yenidən tikilməsində yerli sakin İbrahimov Yusif xüsusi təşəbbüs göstərmişdir.

## XOCAVƏND KƏND MƏSCİDİ

Ağcabədi rayonunun Xocavənd kəndindəki bu məscidin inşa tarixi məlum deyil. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi isə 11x5 metrdir.

Xocavənd kənd məscidi düzbucaqlı formada olub, başdan-başa mişar daşı ilə hörülmüşdür. Məscidin dam örtüyü şiferdəndir. Günbəzi dəyirmi formadadır, ağ dəmir təbəqə ilə işlənmişdir. Günbəzin üstündə ağ dəmir təbəqədən aypara və səkkizguşəli ulduz rəmzi qoyulub.

Xocavənd məscidinin həyətyanı sahəsi dəmir hasara alınmışdır. Giriş qapısının çöl tərəfində açıqşəkilli eyvan (sahəsi 11x4 metr) yerləşib. Məscidin bir giriş qapısı və iki pəncərəsi var.

Hal-hazırda burada təmir-bərpa işləri davam etdirilir.



## OVŞAR KƏND MƏSCİDİ

Məscid Ağcabədi rayonunun Ovşar kəndindədir. İnşa tarixi 1997-ci ilə aiddir. Məscidin iç sahəsi 14x8 metr, həyətyanı sahəsi 8000 kv.metrdir.

Ovşar kənd məscidi düzbucaqlı formada olub, mişar daşı ilə tikilib. Damın örtüyü şiferlə işlənmişdir. Məscidin giriş qapılarının sağ və sol tərəfində minarələr ucaldılıb. Minarələrin və məscidin damının üstündə aypara rəmzi qoyulmuşdur. Məscidin döşəməsi torpaq, tavanı isə fanerdəndir. Məscidin içərisində taxtadan hazırlanmış iki ədəd pəncərə qoyulub.





# AĞDAŞ RAYON MƏSCİDLƏRİ

## HACI OSMAN MƏSCİDİ



Məscid Ağdaş şəhərinin mərkəzindədir. İç sahəsi 14x30 metrdir. Məscid səkkizguşəli formada olub, divarları bişmiş kərpiclə hörülmüşdür. Damının örtüyü dəmir təbəqə ilə işlənmişdir. Döşəməsi qırmızı kərpicdəndir. Məscidin sağ tərəfində hündürlüyü 18 metr olan minarə ucaldılmışdır. Minarə ənənəvi şərq memarlığı üslubunda tikilmişdir. Məscidin divarları həm fasad, həm də iç tərəfdən suvanmışdır. Minbəri taxtadandır, yeddipillədir. Mehrabı divarın içindədir, hündürlüyü 3 metrdir. Məscidin tavanı taxtadan olub, 5 taxta sütun üzərində dayanmışdır. İbadət zalında 3 giriş qapısı və 12 pəncərə qoyulmuşdur. Pəncərələr tağvari formadadır. İbadət zalında 3 mehrab qoyulmuşdur. Minarənin üstündə aypara və beşguşəli ulduz rəmzi qoyulmuşdur. Həyətyanı sahə asfaltla döşənmişdir.

Bu məscid repressiya illərindən 1988-ci ilə qədər klub, yataqxana, fabrik, anbar, məktəb kimi istifadə edilib. 1989-cu ildə yerli sakin Hacı Əbdürrəhman Nurməhəmməd oğlunun təşəbbüsü ilə bərpa edilib. 1989-cu ildən 1993-cü ilə qədər burada yerli sakinlərin, habelə Türkiyənin Bakıdakı Gənclərə Yardım Fondu və Misir Yardım Komitəsinin maliyyə vəsaiti hesabına təmir-bərpa işləri aparılıb.

## AĞDAŞ İSLAM MƏSCİD - MƏDRƏSƏSİ



Bu memarlıq abidəsi hicri-qəməri təqvimi ilə 1311-ci ildə tikilib.

Abidə bütünlüklə bişmiş kərpiclə tikilib. Damının örtüyü qırmızı kirəmitdir. Binanın üç giriş qapısı var. Qapılar taxtadandır. Giriş qapısının üstündə daş kitabə həkk olunub. Məscidin minarəsi yerdən tikilib. Minarənin məhəccərə qədər olan hissəsi bişmiş kərpiclə işlənib.

Ağdaş İslam məscid-mədrəsəsi vaxtilə məscid kimi istifadə edilsə də, hal-hazırda mədrəsə kimi fəaliyyət göstərir.





## QARADEYİN KƏND MƏSCİDİ

edil Ağdaş rayonunun Qaradeyin kəndində yerləşən bu məscid 1989-cu ildə inşa olunub. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 7x20 metrdir.



Qaradeyin kənd məscidi bişmiş kərpiclə inşa edilib. Giriş qapısının ön tərəfində açıqşəkilli eyvan yerləşib. Eyvanın sahəsi 3x20 metrdir. Həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, beton plitə ilə hasara alınıb. Eyvan 6 dəmir boru sütun üzərində dayanıb. Məscidin dam örtüyü şiferdəndir. Minbəri beşpilləlidir və taxtadan işlənib. Qaradeyin məscidinin tavanı taxtadandır və düzbucaqlı formadadır. Tavan 3 taxta sütun üzərində dayanıb. Məscidin 3 giriş qapısı və 10 tağvari formada pəncərəsi var. Məsciddə tikinti işləri hələlik başa çatmamışdır.

İndiki məscidin yerində başqa məscid mövcud olmuşdur. Həmin məscid hicri-qəməri təqvimi ilə 1302-ci ildə tikilib. Sözügedən məscid sovetlər dövründə məktəb, anbar, idarə, tibb məntəqəsi kimi istifadə edilmiş və 1978-ci ildə öz-özünə sökülüb dağılmış -bərbad vəziyyətə düşmüşdür. Yeni məscidin tikintisində həmin məscidin materiallarından istifadə edilib.

## HACI İSMAYIL MƏSCİDİ



Məscid Ağdaş şəhərinin Padar məhəlləsində yerləşib. 1883-cü ildə Hacı İsmayıl bəy tərəfindən tikilib. Məscidin həyətyanı sahəsi 3000 kv. metr, iç sahəsi isə 37x14 metrdir.

Hacı İsmayıl məscidi bütünlüklə bişmiş kərpiclə tikilib. Giriş qapısının ön tərəfində eyvan yerləşib. Eyvanın sahəsi 34x3,5 metrdir. Məscidin döşəmədən tavana qədər hündürlüyü 5 metrdir. Əsas giriş qapılarının sağ və sol tərəfində minarələr ucaldılıb. Minarələrin (hündürlüyü 12 metr) qübbəsi ağ dəmir təbəqədəndir. Məscidin döşəməsi daş plitələrlə, tavanı isə taxta ilə işlənib. Tavan düzbucaqlı formada olub, taxta ilə üzlənmiş 4 dəmir boru sütun üzərində dayanıb. Minbər taxtadandır və yeddipilləlidir. Mehrab divarın içərisindədir və hündürlüyü 3,5 metrdir. İbadət zalında 3 mehrab qoyulub. Məscidin 3 giriş qapısı və 12 pəncərəsi var. Minarələrə giriş ibadət zalındandır.

Hacı İsmayıl məscidinin tikilməsinin təşəbbüskarı olan Hacı İsmayıl zəngin bir adam olub. O, 1893-cü ildə Osmanlı dövlətinə müraciət edərək buraya dərs demək üçün müəllimlər göndərilməsini xahiş etmişdir. Məscidin nəzdindəki mədrəsə uzun müddət təhsil müəssisəsi kimi fəaliyyət göstərib. Mədrəsənin binası sovetlər dövründə dağılmışdır. Sovetlər dövründə məscid özü hərbi sursat anbarı kimi istifadə edilib. 1986-cı ildən məscidin fəaliyyəti bərpa edilib. Həmin dövrdən etibarən məsciddə təmir-bərpa işlərinə başlanmışdır. Təmir-bərpa işlərini Türkiyə Diyanət Vəqfi aparıb. Təmir-bərpa işləri zamanı binanın xarici görkəmində heç bir dəyişikliklərə yol verilməmişdir.



## MAŞAT KƏND MƏSCİDİ



Məscid Ağdaş rayonunun Maşat kəndindədir. İnşa tarixi 1995-ci ilə aiddir. İç sahəsi 15x15 metr, döşəmədən tavana qədər hündürlüyü 6 metrdir.

Maşat kənd məscidi əsasən mişar daşı və qismən bişmiş kərpiclə tikilib. Məscidin əsas binası düzbucaqlı formada olub, fasad tərəfi daş plitə ilə üzlənib. İç divarları suvanıb və rənglənib. Məscidin günbəzi mişar daşından tikilmiş dörd sütun üzərində dayanıb. Minarə (hündürlüyü 20 metr) də mişar daşı ilə hörülərək daş plitələrlə üzlənib. Səkkizguşəli minarənin qübbəsi ağ dəmir təbəqə ilə işlənib. Məscid yerli memarlıq üslubunda tikilib.

Maşat kənd məscidi yerli sakin Fəzail Ağəli oğlunun şəxsi vəsaiti hesabına inşa edilib.

## HACIBULUD PİRİ



Ağdaş rayonunun Xosrov kəndindəki bu pirin inşa tarixi 1998-ci ilə aiddir. İç sahəsi 5x5 metrdir. Türbə səkkizguşəlidir, hündürlüyü 8 metrdir.

Yerli camaatın qeyd etdiyinə görə, Hacıbulud mahaçqalalı olub. O, Mahaçqaladan Ağdaşa gəlmiş və Ərəbkənddə məskunlaşmışdır. Daha sonralar o, Xosrova köçmüş və orada məskunlaşmışdır. Onun buraya gəlmə tarixi dəqiq məlum deyildir. Camaat ona dərin ehtiram bəslədiyindən qəbrini ziyarətgaha çevirib.

Türbə 1998-ci ildən etibarən yerli sakin Nurəddin Camal oğlunun təşəbbüsü ilə yerli rayon icra hakimiyyətinin başçısı Cüleyman Mustafa oğlu Rəşidovun şəxsi vəsaiti hasabına tikilib.

Bişmiş kərpiclə tikilmiş türbənin dam örtüyü ağ dəmir təbəqə ilə işlənib.

Türbənin içərisində Hacıbulud babanın qəbri yerləşib. Burada ikinci bir qəbir də var.

## XOSROV KƏND MƏSCİDİ



Məscid Ağdaş rayonunun Xosrov kəndində inşa edilib. İnşa tarixi isə 1992-ci ildir. Həyətyanı sahəsi 5000 kv.metr, İç sahəsi 15x15 kv.metrdir.

Xosrov kənd məscidi və onun minarəsi başdan-başa bişmiş kərpiclə tikilib. Damının örtüyü ağ dəmir təbəqədəndir. Minarənin hündürlüyü 24 metrdir və Osmanlı memarlıq üslubundadır. Məscidin həyətyanı sahəsində 1992-ci ildən mədrəsə tikintisinə başlanıb. 1993-cü ildən etibarən mədrəsə fəaliyyətə başlayıb. Mədrəsədə yalnız oğlan uşaqlarına dini təhsil verilir. Tədrisi aparanlar Türkiyə Respublikasından gəlmiş müəllimlər və ya təhsilini orada almış respublika vətəndaşlarıdır.

Xosrov kənd məscidinin günbəzinin diametri 5 metrdir. Günbəzin fasad hissəsi ağ dəmir təbəqə ilə işlənib. Günbəzdə 12 gözlük qoyulub. Onlar taxtadan olub, tağvari formadadır. Günbəz mişar daşından hörülmüş 4 sütun üzərində dayanıb.

## BİNƏLƏR KƏND MƏSCİDİ





Yerli camaatın verdiyi məlumata görə, burada vaxtilə həcmcə kiçik bir məscid olub. Lakin həmin məscid çiy kərpicdən tikildiyindən, sonradan sökülüb dağılıb. Ağdaş rayonunun Binələr kəndindəki indiki məscidin tikintisinə isə 1989-cu ildə başlanıb. Hələlik tikinti davam edir. Həyətyanı sahəsi 1500 kv.metr, ibadət zalının sahəsi isə 13-14 metrdir.

Düzbucaqlı formalı məscid əsasən çaylaq daşı və qismən bişmiş kərpiclə tikilib. Məscidin günbəzi ağ dəmir təbəqə ilə işlənib. Günbəzin diametri 13 metr, döşəmədən tavanadək 5 metrdir. Günbəz içəridən fanerlə işlənib. Günbəzdə 19 pəncərə qoyulub. İbadət zalında 6 pəncərə qoyulub. Pəncərələr taxtadan düzəldilib və tağvari formadadır. Məscidin (hündürlüyü 18 metr) tək minarəsi vardır.

Binələr kənd məscidi yerli sakin Əliyev Hörmət Məhəmməd oğlunun təşəbbüsü və şəxsi vəsaiti ilə tikilməyə başlanmışdır. O, həm də məscidin layihəsinin müəllifidir. Məscidin ustaları Osman və Süleyman Hüseynoğludur.

Bu məscidin əsas ibadət zalının giriş qapısı Xan çinar ağacından düzəldilib. Qapının ustası isə Azər Vahidoğludur. Giriş qapısının yuxarı hissəsində "La İlahə İllellah. Mühəmmədən Rəsulallah" sözləri yazılıb. Qapının ön tərəfində "İxlas", və "Əl-həmd" surələri, arxa tərəfində isə Məkkə və İbrahim (ə) məscidlərinin əksi diqqəti cəlb edir. Qeyd edək ki, qapının üstündəki yazılar ərəbcə, həm də taxta üzərində işləmədir. Qapı həmçinin müxtəlif nəbati ornamentlərlə işlənib. Usta Azər Vahidoğlu bu qapının hazırlanmasına isə 1 il 8 ay vaxt sərf edib. Qapıda buta naxışlarından kifayət qədər istifadə olunub.

## ÜVEYS ƏL-QƏRANİ PİRİ



Ağdaş rayonunda yerləşən pirin ətrafındakı divarlar hicri-qəməri təqvimi ilə 1339-cu ildə tikilmişdir. İç sahəsi 5x6 metrdir.

Üveys əl-Qərani pirinin mərkəzi hissəsində Üveys əl-Qəraninin qəbri yerləşmişdir. Qəbrin üstü ağ mərmərlə işlənib. Bu qəbrin sol tərəfində başqa bir qəbir də vardır. Onun üzərində heç bir yazı mövcud deyildir. Üveys əl-Qəraninin qəbrinin sağ tərəfində daha iki qəbir yerləşmişdir. Camaatın bildirdiyinə görə, bu qəbirlər Üveyslə birgə şəhid olmuş şəxslərin qəbirləridir. Üveys əl-Qərani VII əsrdə İslamı yaymaq üçün bura gəlmiş və əslən yəmənli olmuşdur. Bu pirə zaman-zaman müxtəlif ərəb ölkələrindən, Türkiyədən, Çeçenistandan, Dağıstandan ziyarətə gəlmişlər.



## LƏKİ KƏND MƏHƏMMƏDƏLİ MƏSCİDİ (I)



Məscid Ağdaş rayonunun Ləki kəndində yerləşib. 1993-cü ildə inşa olunub. Həyətyanı sahəsi 1000 kv.metr, İç sahəsi isə 16x10 metrdir.

Ləki kənd Məhəmmədəli məscidi bişmiş kərpiclə inşa edilmişdir. Dam örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Məscidin əsas giriş qapısı dəmir təbəqədən olub, tağvari formadadır. Tək minarəyə malikdir. Minarə başdan-başa bişmiş kərpiclə işlənmişdir. Minarənin (hündürlüyü 14 metr) qübbəsi ağ dəmir təbəqə ilə işlənmişdir. Minarə və günbəzin üstündə ağ dəmir təbəqədən düzəldilmiş aypara və səkkizguşəli ulduz rəmzi qoyulmuşdur. Məscidin 12 tağvari formalı pəncərəsi vardır. Günbəzin diametri 5 metr, yerdən günbəzədək 8,5 metrdir. Məscid yerli sakin Hacı Məhəmməd Baqi Məhəmmədəli oğlunun şəxsi vəsaiti hesabına tikilib.

*Qeyd:*

Kənddə bu vaxta qədər bir sıra məscidlər də olmuşdur. Onların bəziləri dağılıb sıradan çıxsa da, bəzilərində bərpa işləri aparılır. Bundan əlavə, burada Türkiyənin Gintaş A.Ş. tərəfindən yeni bir məscid də tikilməkdədir.

## LƏKİ KƏND MƏHƏMMƏDƏLİ MƏSCİDİ (II)



Ağdaş rayonunun Ləki kəndində yuxarıda qeyd olunan iki məsciddən əlavə üçüncü məscid də fəaliyyət göstərir. Qeyd edək ki, bu məscid 1905-ci ildə tikilib. 1996-cı ildən etibarən burada yerli kənd sakini Məhəmmməd Mirzə oğlunun təşəbbüsü və yerli camaatın vəsaiti hesabına təmir-bərpa işləri aparılıb. Başdan-başa qırmızı kərpiclə işlənmiş bu məscidin damının örtüyü isə dəmir təbəqə ilə işlənib.

*Qeyd:*

Ağdaş rayonunun daha 24 kəndində-Qolqəti, Korarx, Aşağı Nəvətabad, Şəkilikənd, Ərəbocağı, Qaradağlı, Cardam, Ağzıbir, Pirəzə, Dəhnə, Qarağan, Qumlax, Şəmsabad, Yeycə, Şıxlı, Zeynəddin, Tofiqi, Gürcüva, Aran-1, Kükəl, Qəsil, Şor Dəhnə, Cücük və Yuxarı Nəvətabadda hal-hazırda məscidlər fəaliyyətdədir.

# AĞDAM RAYON MƏSCİDLƏRİ

## AĞDAM ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Ağdam şəhər Cümə məscidi Qarabağ rayonuna aid edilən məscidlər silsiləsinə daxildir. Bu məscid 1868-1870-ci illərdə tikilib istifadəyə verilib. Məscid formaca kvadratşəkilli olub, iki mərtəbəli qalereyaya məxsusdur. Bu məsciddə memar tərəfindən Qarabağ rayonuna məxsus dini abidələrə aid bütün xarakterik cəhətlər öz əksini tapıb. Bununla yanaşı, Ağdam məscidinə məxsus olan sadəlik və eyni zamanda ciddilik də diqqəti cəlb edir. Burada həmçinin yerli tikinti ənənələri özünü bariz şəkildə göstərir. Məscidə diqqət yetirərkən onun istər-istəməz memarın öz şəxsi fantaziyası əsasında tikildiyi də diqqəti cəlb etməyə bilməz.

## MİRƏŞƏLLİ KƏND MƏSCİDİ



Ağdam rayonunun Mirəşəlli kəndində yerləşən bu məscidin həyətyanı sahəsi 600 kv. metr, iç sahəsi isə 7x6 metrdir. Formaca düzbucaqlı olan məscid bişmiş kərpicdən tikilib. İnşa tarixi 1323-cü ilə aiddir.Mirəşəlli kənd məscidinin damının örtüyü şiferlə işlənmişdir. Güldəstə formasında olan günbəzi isə dördguşəli olub, damı dəmir təbəqə ilə işlənib. Döşəməsi torpaq, tavanı taxtadandır. İç divarları sement məhlulu ilə suvanıb.

Məscid sovetlər dövründə anbar kimi istifadə olunub. Hal-hazırda məscid demək olar ki, istifadə edilmir və onun təmirə böyük ehtiyacı var.

## SEYİD LAZIM AĞA TÜRBƏSİ



Türbə Ağdam rayonunun Çəmənli kəndində, məscidin həyətində yerləşib. Türbə 1994-cü ildə tikilib. Seyid Lazım ağa Ağdamın Şıxbaba kəndində (hal-hazırda bu kənd erməni işğalı altındadır) yaşayıb və 1993-cü ilin payızında vəfat edib. Bütün Ağdamda və Qarabağda məşhur olan bu insanın xatirəsinə hörmət əlaməti olaraq məscidin həyətində türbə tikilib. Düzbucaqlı formada olan bu abidə mişar daşından tikilib və mərmərlə işlənib. Türbənin içərisində yerləşən qəbrin üstü də mərmərlə işlənib. Seyid Lazım ağa türbəsinin üstünü günbəz və dörd bir tərəfində qoyulmuş kiçik həcmli minarələr bəzəyir.

Türbə Bəxtiyarov Hacı Bəkir Rəşid oğlu tərəfindən tikilib.

## ZƏNGİŞALI KƏND MƏSCİDİ

Məscid Ağdam rayonunun Zəngişalı kəndindədir. Həyətyanı sahəsi 400 kv.metr, əsas ibadət zalının sahəsi 16x18 metr, hündürlüyü 4 metrdir.

Zəngişalı kənd məscidi forma etibarilə düzbucaqlı olub, sal daşlardan tikilib. Əsas giriş qapısının üstündə və yan divarlarında həkk olunan daş kitabədə məscidin inşa tarixi (1317 h.q.=1899 miladi.) haqda məlumat verilib. Damın örtüyü dəmir təbəqə ilə işlənib. Döşəmə və tavan taxtadan işlənib. Əsas ibadət zalındakı pəncərələr (10) tağvari formadadır. Zəngişanlı kənd məscidinin önündə açıqşəkilli eyvanı da var.



## ÇƏMƏNLİ KƏND "CÜMŞÜD" MƏSCİDİ



Məscid Ağdam rayonunun Çəmənli kəndində inşa edilib. Məscid binası 1990-cı ildə Çəmənli kənd sakini Bəxtiyarov Hacı Bəkir Rəşid oğlunun vəsaiti ilə (1990-cı ildə vəfat etmiş qardaşı Cümşüdün xatirəsini əbədiləşdirmək münasibətilə) inşa olunub. Buna görə də məscidi "Cümşüd" məscidi də adlandırırlar. Məscid düzbucaqlı formada olub, yerli mişar daşından tikilib. Minarələr isə başdan-başa odadavamlı bişmiş kərpiclə işlənmişdir. Minarələrdən biri məscidin ön tərəfində, digəri isə arxa tərəfində yerləşib (hündürlükləri 15 metr). Məscidin iç divarları sement məhlulu ilə suvanıb və müxtəlif rənglərlə işlənib. Divarlara Quran ayələri də yazılıb. Fasad divarlar ağ mərmərlə üzlənib. Damın örtüyü ağ dəmir təbəqə ilə işlənib. Məscidin iç sahəsi 10x12 metr, hündürlüyü 6 metr, həyətyanı sahəsi 10.000 kv.metrdir.

## MAHRIZLI KƏND MƏSCİDİ



Məscid Ağdam rayonunun Mahrızlı kəndində inşa olunub. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi 12x6 metrdir.

Düzbucaqlı formaya malik bu məscidin damının örtüyü ağ dəmir təbəqə ilə işlənib. Giriş qapısının üstündə məscidin inşa tarixi (h.q.1288-1315) (1871-1897) göstərilib. Qapının ön tərəfində sahəsi 2x12 metr olan açıqşəkilli eyvan yerləşib. Bütün qapı və pəncərələr tağvari formada işlənib.

Mahrızlı kənd məscidinin divarları bişmiş kərpiclə hörülüb. Tavan və döşəmə taxta ilə işlənib. Məscidin arxa tərəfində də bir tikili var. Bura (sahəsi 6x12 m.) da ibadət otağı kimi istifadə olunur.

## ƏHMƏDAĞALI KƏND MƏSCİDİ



Məscid Ağdam rayonunun Əhmədağalı kəndində yerləşmişdir. Həyətyanı sahəsi 1000 kv. metr, iç sahəsi 11x11 metrdir.

Düzbucaqlı formada olan bu məscid 1990-cı ildə yerli sakin mərhum Soltan Quliyev tərəfindən tikilib. Məscid binasının divarları mişar daşından hörülüb. Dam örtüyü dəmir təbəqə ilə işlənib. Minarə bişmiş kərpicdən olub, hündürlüyü 14 metrdir. Minarənin üstü dəmir təbəqə ilə işlənib. Bütün qapı və pəncərələr tağvari formalıdır və taxtadan işlənib.

### XINDIRISTAN KƏND MƏSCİDİ



Məscid Ağdam rayonunun Xındırıstan kəndindədir. Düzbucaqlı formada olan bu məscidin iç sahəsi 12x14 metrdir. Məscid binası bişmiş kərpicdən tikilib.

Giriş qapısından sol tərəfdə daş kitabə həkk olunub. Burada ərəbcə məscidin tikilmə tarixi ilə yanaşı, aşağıdakı sözlər yazılmışdır: "Şükür olsun Allaha, aləmlərin rəbbinə. Allahın salavat və salamı olsun onun elçisi Məhəmmədə (ə) və onun bütün nəslinə. 29 şəvval. 1328-ci il"

Xındırıstan kənd məscidinin damı dəmir təbəqə ilə örtülüb. Döşəmə daş plitədən, tavan isə taxtadan işlənib. İkinci mərtəbədə qadınlar şöbəsi (sahəsi 12x4 metr) yerləşib.

Xındırıstan kənd məscidi sovetlər dövründə əvvəlcə zavod, daha sonra muzey kimi istifadə olunub. 1990-cı ildən etibarən fəaliyyəti bərpa olunub.

# ASTARA RAYON MƏSCİDLƏRİ

### ASTARA ŞƏHƏR QUM MƏSCİDİ



Məscid Astara rayonunun Qum küçəsindədir. Hicri-qəməri təqvimi ilə 1325-ci ildə inşa edilib. Həyətyanı sahəsi 1200 kv.metr, kişilər üçün nəzərdə tutulmuş ibadət zalının sahəsi 13x7 metrdir. Qadınlar şöbəsi isə üç hissədən ibarət olub, hər birinin ayrı-ayrılıqda sahəsi 7x4 metrdir.

Astara şəhər Qum məscidinin əsas binası bişmiş kərpicdən inşa olunub. İçərisi qum-sement məhlulu ilə suvanıb və əhənglə ağardılıb. Tavanı taxta və fanerdəndir. Döşəmədən tavana qədər 5,5 metrdir. Mehrabının hündürlüyü 4,5 metrdir. Minbəri taxtadandır və 5 pillədən ibarətdir. İbadət zalında beş tağvari pəncərə qoyulub. Məscidin əsas giriş qapısının üstündə daş kitabə həkk olunub. Orada məscidin inşa tarixi qeyd edilib. Belə ki, burada məscidin hicri-qəməri ilə 1325-ci il cəmadi əl-axər ayında tikildiyi göstərilib. Məscidin həyətində yardımçı otaqlar yerləşib. Məscidin damının örtüyü qırmızı kirəmitdəndir. Məscidin güldəstə formasında olan günbəzi səkkizguşəli olub, şəbəkələrlə işlənmişdir. Həyətyanı sahə asfaltla döşənib. Məscid binası onun yerləşdiyi küçə camaatının vəsaiti ilə tikilib. Bundan başqa, onun tikintisinə H.Z.Tağıyevin də maddi yardım göstərdiyi qeyd olunur.

Sovetlər dövründə bu məscid bağlanmamış və bir çox məscidlər kimi, öz fəaliyyətini davam etdirmişdir. 1992-ci ildə burada təmir-bərpa işləri aparılıb.

Məscidin axundu Kərbəlayı Mirallahyar Mirşirzad oğludur. O, 1996-cı ilin yanvar ayından etibarən burada axundluq edir.



### SUPARİBAĞ KƏND MƏSCİDİ



Məscid Astara rayonunun Suparibağ kəndindədir. İnşa tarixi dəqiq məlum deyil. Lakin XX əsrin əvvəllərində tikilməsi ehtimal olunur. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi 5x16 metrdir.

Suparibağ kənd məscidi formaca düzbucaqlıdır və bişmiş kərpicdən tikilib. Döşəməsi torpaq, tavanı isə taxtadır. Damı kirəmitlə örtülüb. Günbəzi səkkiz guşəlidir. Günbəz dəmir təbəqə ilə işlənib. Məscidin iki giriş qapısı var. Qapılardan biri kişilər, o biri isə qadınlar şöbəsinə aiddir. İbadət zalında dörd ədəd pəncərə qoyulub. İç divarları sement məhlulu ilə suvanıb və əhənglə ağardılıb. Məscid hündürlüyü 1 metr olan səki üzərində yerləşib.

### MAŞXAN KƏND SEYİD KƏRİM TÜRBƏSİ



Türbə Astara rayonunun Maşxan kəndində yerləşib. Mişar daşından tikilib. Sahəsi 3,20x4,40 metrdir. Hündürlüyü 2,20 metrdir. Damı qırmızı kirəmitlə örtülüb. Türbənin içərisi yalnız sərdabə hissədən ibarətdir. Burada Seyid Kərimin qəbri yerləşib. Seyid Kərim camaat arasında hörmət-izzəti olan seyidlərdən olub.

Türbənin XIX əsrin əvvəllərində tikildiyi qeyd olunur. 1995-ci ildə bu türbə yenidən tikilmişdir.

### RUDƏKƏNAR KƏND MƏSCİDİ



Astara rayonunun Rudəkənar kəndində yerləşən bu məscid 1988-ci ildə inşa edilib. Həyətyanı sahəsi 30 kv.metr, iç sahəsi 11x9 metrdir.

Formaca düzbucaqlıdır və əsas etibarilə bişmiş kərpicdən tikilib. Divarların qalınlığı 0,60 metrdir. Məscidin iç divarları sement məhlulu ilə suvanıb və əhənglə ağardılıb. Döşəməsi torpaq, tavanı taxtadandır. Damın örtüyü qırmızı kirəmitdəndir. Minbəri taxtadan düzəldilib və dördpilləlidir. Mehrab sadə formaya malikdir və əhənglə ağardılıb. Məscid hündürlüyü 1,20 metr olan səki üzərində yerləşib.

Həyətyanı sahəsi asfaltla döşənib və hasara alınıb. Məscid kənd camaatının vəsaiti hesabına tikilib.

## MƏSCİD - MƏHƏLLƏ KƏND MƏSCİDİ



Məscid Astara rayonunun Məscid- Məhəllə kəndindədir. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 18x6 metrdir.

Məscid- Məhəllə kənd məscidi düzbucaqlı formadadır və başdan-başa qırmızı kərpicdən tikilib. İki giriş qapısı vardır. Biri kişilər şöbəsinə, o biri isə qadınlar şöbəsinə aiddir. İbadət zalında altı pəncərə qoyulub. Mehrab sadə olub, hündürlüyü 2,20 metrdir. Mehrab əhənglə ağardılıb. Minbər üç pilləlidir, taxtadan düzəldilib.

Sovetlər dövründə anbar kimi istifadə olunub.

1960-cı ildə məscidin fəaliyyəti bərpa edilmişdir.

## SƏNCƏRƏDİ KƏND MƏSCİDİ



Məscid Astara rayonunun Səncərədi kəndində tikilib. 1990-cı ildə inşa edilib. Həyətyanı sahəsi 6000 kv.metr, iç sahəsi 16x8,5 metrdir.

Səncərədi kənd məscidi düzbucaqlı formadadır və daşdan tikilib. Döşəməsi torpaqdan, tavanı isə taxta və fanerdən işlənib. Minbər ikipilləlidir, kərpicdən tikilib. Damı qırmızı kirəmitdir. Günbəz düzbucaqlı formadadır, hündürlüyü 2,5 metrdir. Tavanı 4 azbest boru sütun üzərində dayanıb.

Həyətyanı sahəsi yaşıllıq içərisindədir. Məscid hündürlüyü 1,20 metr olan səki üzərində yerləşib.

Səncərədi kənd məscidi yerli camaat tərəfindən tikilib.

## SELƏKƏRAN KƏND MƏSCİDİ



Məscid Astara rayonunun Seləkəran kəndində yerləşib. İnşa tarixi dəqiq məlum deyil. Həyətyanı sahəsi 3500 kv.metr, iç sahəsi 50 kv.metrdir.

Seləkəran kənd məscidi fasad tərəfdən düzbucaqlı formaya malikdir, divarları bişmiş kərpicdən hörülüb. Damı qırmızı kirəmitlə örtülüb. Döşəməsi torpaq, tavanı isə taxtadır. Divarları iç və fasad tərəfdən sement məhlulu ilə suvanıb. İç divarlar göy rənglə işlənib. Minbər dörpilləlidir və taxtadan düzəldilib. Məscidin iki qapısı və üç pəncərəsi var.

Həyətyanı sahəsi yaşıllıq içərisindədir.



## BABA CƏBRAYIL TÜRBƏSİ



Türbə Astara rayonunun Təngərud kəndinin qəbristanlığındadır.

Düzbucaqlı formadadır və divarları qırmızı kərpicdən hörülüb. Damı kirəmitlə örtülüb. Bir giriş qapısı və bir pəncərəsi var. Sahəsi 4,5x5,5 metrdir, hündürlüyü isə 2 metrdir.

Türbə yalnız bir otaqdan ibarətdir. Burada Baba Cəbrayılın qəbri yerləşib. Camaatın qeyd etdiyinə görə, Baba Cəbrayıl seyid olmaqla yanaşı, vaxtilə baş götürüb buraya gəlmiş əshabələrdən biri olub. Türbədə 1993-cü ildə inşaat işləri aparılıb.

## SIĞALUNİN KƏND MƏSCİDİ



Məscid Astara rayonunun Sığalunin kəndindədir. 1995-ci ildə inşa edilib. İç sahəsi 9x15 metrdir. Düzbucaqlı formaya malikdir və qırmızı kərpicdən tikilib. İç divarları qum-sement məhlulu ilə suvanıb və əhənglə ağardılıb. Əsas ibadət zalı iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir. Şöbələr taxta arakəsmə ilə ayrılıb. Məscidin iki (giriş) qapısı və dörd pəncərəsi var. Döşəməsi torpaq, tavanı isə taxta və fanerlə işlənib.

Sığalunin kənd məscidinin hündürlüyü 1,70 metr olan səki üzərində yerləşib. Məscidin hündürlüyü 12 metr olan qoşa minarəsi var. Minarələr qırmızı kərpicdən tikilib, qübbəsi dəmir təbəqə ilə işlənib.

Məscid kənd sakini Xanağa tərəfindən tikilib.

## SİYAKUH KƏND MƏSCİDİ



Astara rayonunun Siyakuh kəndindəki bu məscidin inşa tarixi məlum deyil. Həyətyanı sahəsi 1000 kv. metr, iç sahəsi isə 7x22 metrdir.

Siyakuh kənd məscidi bişmiş kərpicdən tikilib. Döşəməsi torpaq, tavanı isə taxta və fanerlə işlənib. Divarların qalınlığı 0,70 metrdir. Tavan üç taxta sütun üzərində dayanıb. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanıb. Bir giriş qapısı və yeddi pəncərəsi vardır. Mehrabın hündürlüyü 3 metrdir və sement məhlulu ilə suvanıb. Minbəri taxtadan düzəldilib və üçpilləlidir. Məscidin damı qırmızı kirəmitlə örtülüb. Günbəz dördguşəlidir və üstü kirəmitlə örtülüb. Məscid açıqşəkilli eyvana da malikdir.

Məscid hündürlüyü 1,50 metr olan səki üzərində yerləşib. Həyətində mədrəsə də fəaliyyət göstərir. Sovetlər dövründə anbar kimi istifadə olunub. 1987-ci ildə kənd camaatının vəsaiti hesabına təmir-bərpa işləri aparılıb.

## PENSAR KƏND MƏSCİDİ (I)



Məscid Astara rayonunun Pensar kəndində yerləşib. Hicri-qəməri təqvimilə 1314-cü ildə inşa edilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi isə 23x8 metrdir.

Düzbucaqlı formadadır və qırmızı kərpicdən inşa olunub. Əsas ibadət zalının tavanı taxta, döşəməsi isə kərpiclə işlənib. Tavan dörd böyük sütun üzərində dayanıb. Döşəmədən tavana qədər hündürlüyü 4,5 metrdir. İki giriş qapısı var. Məscidin yanında bişmiş kərpicdən tək minarə ucaldılıb. Minarənin hündürlüyü 15 metrdir və üst hissəsi dəmir təbəqə ilə işlənib. Məscidin mehrabı sadə olub, hündürlüyü 2,5 metrdir. Mehrabdan sağ tərəfdə qadınlar şöbəsi yerləşib. Bura iki mərtəbədən ibarətdir. Hər bir mərtəbənin ayrı-ayrılıqda sahəsi 45 kv.metrdir.

Pensar kənd məscidi hündürlüyü 1,20 metr olan səki üzərində yerləşib. Giriş qapı tərəfdə divarda daş kitabə həkk edilib. Burada onun inşa tarixi göstərilib.

## QAPÇİ-MƏHƏLLƏ KƏND MƏSCİDİ



Məscid Astara rayonunun Qapçi-Məhəllə kəndindədir. 1985-ci ildə inşa edilib. Həyətyanı sahəsi 300 kv.metr, iç sahəsi 13x4,5 metrdir.

Qapçi-Məhəllə kənd məscidi forma etibarilə düzbucaqlıdır və divarları bişmiş kərpiclə hörülüb. Divarların qalınlığı 0,70 metrdir. Məscidin iç tərəfdən divarları sement məhlulu ilə suvanaraq ağardılıb. Döşəmə torpaq, tavan isə taxta və fanerlə işlənib. Minbər də taxtadan düzəldilib, beşpilləlidir. Mehrab divarın içindədir, qəhvəyi rənglə rənglənib və taxtadan düzəldilib. Məscidin döşəməsindən tavanadək hündürlüyü 3 metrdir. Günbəz dəmir təbəqə ilə işlənib, hündürlüyü 2 metrdir və 4 gözlüyü var. Məscidin damı qırmızı kirəmitlə örtülüb.

Qapçi-Məhəllə kənd məscidi hündürlüyü 1,20 metr olan səki üzərində yerləşib. Həyətyanı sahəsi daş hasara alınıb. Məscid kənd camaatının vəsaiti hesabına tikilib.

## TƏNGƏRUD KƏND MƏSCİDİ



Məscid Astara rayonunun Təngərud kəndində inşa edilib. 1989-cu ildə inşa edilib. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 20x9 metrdir.

Bişmiş kərpicdən tikilib. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Damı dəmir təbəqə ilə örtülüb. Məscidin hündürlüyü 15 metr olan qoşa minarəsi var. Minarələr də bişmiş kərpicdən inşa olunub. Minarələrin qübbəsinin yuxarı hissəsi dəmir təbəqə ilə işlənib. Məscidin günbəzinin hündürlüyü 2 metrdir. Günbəzin üstündə dəmir təbəqədən aypara rəmzi qoyulub. Məscidin iç divarları sement məhlulu ilə suvanıb. İki giriş qapısı var. Bütün qapı və pəncərələri taxtadan düzəldilib.



## KƏLƏDƏHNƏ KƏND SAHİBƏZZAMAN MƏSCİDİ



Məscid Astara rayonunun Kələdəhnə kəndindədir. Bünövrəsi 1988-ci ildə qoyulub. İç sahəsi 24x8,5 metrdir.

Bişmiş kərpicdən inşa olunub. Damı dəmir təbəqə ilə örtülüb. Məscidin iki qapısı və üç pəncərəsi vardır. Qapı və pəncərələr tağvari formadadır və taxtadan hazırlanıb. Qoşa minarəyə malikdir. Minarələr bişmiş kərpicdən götürülüb. Minarələr dairəvi formadadır, onların yuxarı hissəsi dəmir təbəqə ilə işlənib. Qübbənin üstündə dəmirdən aypara rəmzi qoyulub. Məsciddə tikinti işləri hələlik tam başa çatmayıb.

## SEYİD ƏHMƏD TÜRBƏSİ



Türbə Astara rayonunun Maşxan kəndində, qəbristanlıqda yerləşib. Formaca düzbucaqlıdır və bir giriş qapısına malikdir. Qapıdan içəridə dəhliz (10 kv.metr) yerləşib. Buradan içəri daha bir otaq var. Burada qəbir yerləşib (sahəsi 35 kv.metrdir). Döşəməsi torpaq, tavanı isə taxtadandır.

Seyid Əhməd adından göründüyü kimi, Peyğəmbər (s) nəslindəndir.

Bu türbə son vaxtlara qədər dağılmış vəziyyətdə idi. 1990-cı ildə burada təmir-bərpa işləri aparılıb və türbə normal hala salınıb.

## PENSAR KƏND MƏSCİDİ (II)



Məscid Astara rayonunun Pensar kəndində yerləşir. Hicri-qəməri təqvimi ilə 1304-cü ildə inşa olunub. Həyətyanı sahəsi 800 kv.metr, iç sahəsi isə 9x21 metrdir.

Formaca düzbucaqlıdır və qırmızı kərpicdən tikilib. Döşəməsi də bişmiş kərpic, tavan isə taxta ilə işlənib. Tavan 4 taxta sütun üzərində dayanıb. Məscidin üç qapısı vardır. Qadınlar şöbəsi iki mərtəbədən ibarətdir. Onun sahəsi 4x9 metrdir. Mehrab sadə formaya malikdir və əhənglə ağardılıb. Pəncərələr rəngli şüşələrlə işlənib. Damı kirəmitlə örtülüb. Günbəz dördguşəlidir və güldəstə formasındadır. Günbəzin üst hissəsi kirəmitlə işlənib. Həyətyanı sahəsi hasara alınıb və burada Hüseyniyyə binası da tikilmişdir.

Məscid kənd sakini Hacı Canbaxış tərəfindən tikilib.

## BALACA ŞAHAĞACI KƏND MƏSCİDİ



Astara rayonunun Balaca Şahağacı kəndində yerləşən bu məscidin bünövrəsi 1992-ci ildə qoyulub. İç sahəsi 21x8 metrdir.

Formaca düzbucaqlıdır və əsasən bişmiş kərpiclə, qismən mişar daşı ilə tikilib. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Məscidin iki qapısı və üç pəncərəsi vardır. Qapılar və pəncərələr tağvari formalıdır və taxtadan düzəldilib. Məscidin damı dəmir təbəqə ilə örtülüb. Məscidin sağ və sol tərəfində 2 minarə tikilib. Minarələr (hündürlüyü 13 metr) forma etibarilə dairəvidir. Minarələrin üstü dəmir təbəqə ilə işlənib. Minarəyə çıxış ibadət zalındandır.

## ŞİƏKƏRAN KƏND MƏSCİDİ



Məscid Astara rayonunun Şləkəran kəndindədir. XIX əsrin ortalarında inşa edilib. Həyətyanı sahəsi 4500 kv.metr, iç sahəsi isə 6x18 metrdir.

Düzbucaqlı formadadır və başdan-başa qırmızı kərpiclə inşa olunub. Məscid hündürlüyü 80 sm olan səki üzərində yerləşib. Divarlarının qalınlığı 60 sm.-dir. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan üç taxta sütun üzərində dayanıb. Mehrab sadə formaya malikdir və divarın içindədir. Məscidin damı kirəmitlə örtülüb. Məscidin iki giriş qapısı var. İbadət zalında 2 böyük, 3 kiçik pəncərə qoyulub. Həyətyanı sahə yaşıllıqlar içərisindədir. Sovetlər dövründə anbar kimi istifadə olunub.

## MƏHƏMMƏD HƏNƏFİYYƏ MƏSCİDİ



Məscid Astara rayonunun Ərçivan kəndinin qəbristanlığındadır. İnşa tarixi dəqiq məlum deyil. İç sahəsi 22x6 metrdir.

Divarları bişmiş kərpiclə hörülüb. Məscid iki hissəyə-qadınlar və kişilər şöbəsinə bölünür. Qadınlar şöbəsi iki mərtəbədən ibarətdir. Qadınlar şöbəsinin ayrıca giriş qapısı var. Məscidin döşəməsi qırmızı kərpic, tavanı isə taxtadandır. Mehrabı sadə formaya malik olub, hündürlüyü 3 metrdir. Minbəri taxtadandır və yeddipillelidir. Minbər 1984-1985-ci illərdə düzəldilib. Məscidin həyətində Hüseyniyyə binası da (16x5 metr) yerləşib.

Sovetlər dövründə anbar, hal-hazırda məscidin axundunun oturduğu otaq isə kitabxana kimi istifadə olunub. Hüseyniyyə binası isə anbar, kitabxana və idarə kimi istifadə olunub.

1990-cı ilə qədər məsciddə bərpa işləri aparılmışdır. Bundan sonra məscid və Hüseyniyyə fəaliyyətə başlayıb.



## BÖYÜK ŞAHAĞACI KƏND MƏSCİDİ



Məscid Astara rayonunun Böyük Şahağacı kəndində yerləşib. 1901-ci ildə inşa edilib. Həyətyanı sahəsi 1200 kv.metr, iç sahəsi 8,5x18 metrdir.

Forma etibarilə düzbucaqlıdır və hündürlüyü 1 metr olan səki üzərində yerləşib. Damı kirəmitlə örtülüb. Mehrabı sadə formadadır və ağ rənglə işlənib. Minbəri taxtadan düzəldilib və dördpillelidir. Döşəmə kərpic, tavan isə taxtadandır. Tavan 4 taxta sütün üzərində dayanıb. Məscidin iki qapısı və dörd pəncərəsi vardır. Divarlarının qalınlığı 80 sm.-dir. Minarəsinin hündürlüyü 12 metr olub, dairəvi formadadır və bişmiş kərpiclə işlənmişdir. Bir şərəfəyə malik olan bu minarənin şərəfədən yuxarı hissəsi səkkizguşəlidir. Minarənin qübbəsinin üstü isə qırmızı kirəmitlə örtülüb.

Böyük Şahağacı kənd məscidinin içərisində ayrıca qadınlar şöbəsi vardır. Şöbə iki mərtəbəlidir və sahəsi 3x8,5 metrdir.

Bu məscid özünün ilkin formasını bu günə kimi qoruyub saxlayıb. Sovetlər dövründə isə anbar kimi istifadə olunub. 1987-ci ildə məscidin fəaliyyəti bərpa edilib. 1988-ci ildə burada dövlət tərəfindən təmir işləri aparılıb.

## KAKALUS KƏND MƏSCİDİ



Astara rayonunun Kakalus kəndində yerləşən bu məscidin inşa tarixi XIX əsrin axırlarına aid olunur. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 24x9 metrdir.

Formaca düzbucaqlı olan bu məscid bişmiş kərpicdən tikilib. Məscidin ibadət zalı iki hissəyə - kişilər və qadınlar şöbəsinə bölünüb. Qadınlar şöbəsi iki mərtəbədən ibarətdir. Hər bir mərtəbənin sahəsi 9x4 metrdir. İbadət zalının tavanı taxtadandır. Məscidin içərisində beş pəncərə qoyulub. Dörd qapısı vardır. Qapı və pəncərələr tağvari formalıdır. Damı kirəmitlə örtülüb. Günbəz dördguşəlidir və hündürlüyü iki metrdir. Məscid səki üzərində yerləşib. Sovetlər dövründə anbar kimi istifadə olunub.

## BURZUBƏND KƏND ZOLAZO PİRİ



Bu pir Astara rayonunun Burzubənd kəndində, qəbristanlıqdadır.

Düzbucaqlı formada olan abidə başdan-başa taxta ilə işlənib. Damı dəmir təbəqə ilə örtülüb. Qəbir sərdabənin ortasındadır.

Burada dəfn olunan şəxs İranda yaşamış Şeyx Məhəmmədir. Onun ərəb mənşəli olduğu və təqiblərdən xilas olmaq üçün buraya gəldiyi söylənilir. Lakin onun nə vaxt gəldiyi barədə dəqiq məlumat yoxdur. Bəziləri onun təxminən 1000-1300 il bundan əvvəl gəldiyini qeyd edirlər. Abidənin sahəsi 4x5 metr, hündürlüyü isə 2,20 metrdir.

Pir hər tərəfdən yaşıllıqlarla əhatə olunub.

## GİLƏKƏRAN KƏND MƏSCİDİ



Məscid Astara rayonunun Gilekəran kəndində yerləşib. XIX əsrin axırlarında inşa edilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 22x8 metrdir.

Gilekəran kənd məscidi bişmiş kərpicdən tikilib. Divarlarının qalınlığı 0,60 metrdir. Minbəri taxtadandır, üçpilləlidir. Məscidin iki qapısı vardır (kişilər və qadınlar üçün). İbadət zalında beş pəncərə vardır. Tavan taxta, döşəməsi isə kərpicdən olub üstündən suvaq çəkilmiş və əhənglə ağardılmışdır. Damı kirəmitlə örtülüb. Günbəzi dördguşəlidir, hündürlüyü 2,5 metrdir.

Sovetlər dövründə anbar, kitabxana və s. məqsədlər üçün istifadə olunub. 1990-cı ildə burada təmir-bərpa işləri aparıldıqdan sonra fəaliyyətə başlamışdır.

## MAŞXAN KƏND MƏSCİDİ



Məscid Astara rayonunun Maşxan kəndində tikilib. İnşa tarixi 1885-ci ilə aiddir. Həyətyanı sahəsi 200 kv.metr, iç sahəsi 15x7 metrdir.

Düzbucaqlı formadadır və bişmiş kərpicdən tikilib. Damı kirəmitlə örtülüb. Mehrabı çox sadə formaya malikdir. Tavan taxta ilə işlənib və üç taxta sütun üzərində dayanıb. Məscid iki şöbəyə-qadınlar və kişilər şöbəsinə ayrılıb. Giriş qapılarının sayı ikidir. Məscidin beş pəncərəsi var. Qapı və pəncərələr tağvari formadadır. Günbəzin hündürlüyü 2 metrdir və taxta ilə işlənib. Məscid hündürlüyü 1,5 metr olan səki üzərində yerləşib. Sovetlər dövründə bura anbar kimi istifadə olunub. 1989-cu ildə məsciddə təmir-bərpa işləri aparılıb.

## ARTUPA KƏND MƏSCİDİ



Astara rayonunun Artupa kəndində yerləşən bu məscidin inşa tarixi hicri-qəməri təqvimi ilə 1303-cü ilə aiddir. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 6,5x18 metrdir.

Düzbucaqlı formada olan bu məscid qırmızı kərpicdən tikilib. Divarlarının qalınlığı 0,60 metrdir. Üç qapısı və altı pəncərəsi var. Qapı və pəncərələri tağvari formadadır. Məscidin döşəməsi torpaq, tavanı isə taxta ilə işlənib. Mehrab bişmiş kərpiclə işlənib. Minbər taxtadan olub, beşpilləlidir. Damı kirəmitlə örtülüb. Günbəzin hündürlüyü 2,5 metrdir və dörd guşəyə malikdir. Onun üst hissəsi kirəmitlə işlənib. Məscidin qadınlar şöbəsi iki mərtəbəlidir. Hər bir mərtəbənin sahəsi 6,5x4 metrdir. Birinci və ikinci mərtəbə arasındakı arakəsmə taxtadandır. Şöbənin tavanı 3 taxta sütun üzərində dayanıb.

Artupa kənd məscidi camaatın vəsaiti ilə tikilib və sovetlər dövründə anbar kimi istifadə olunub. 1989-1990-cı illərdə təmir zamanı məscidin dam örtüyü tamamilə dəyişdirilib.



## ŞUVİ KƏND MƏSCİDİ



Məscid Astara rayonunun Şuvi kəndində yerləşib. İç sahəsi 14x7 metr, həyətyanı sahəsi 800 kv.metrdir. Düzbucaqlı formaya malik olan bu məscid 1912-1914-cü illərdə tikilib. Binası və döşəməsi qırmızı kərpiclə, tavanı isə fanerlə işlənmişdir. Damı qırmızı kirəmitlə örtülüb. Sovetlər dövründə anbar kimi istifadə olunub. 1984-cü ildə məscid yenidən inşa edilib.

## PENSAR KƏND SEYİD CAMALƏDDİN PİRİ



Lənkəran-Astara şose yolunun üstündə Pensar (Butəsər) kəndi qəbristanlığında yerli camaat tərəfindən "Seyid Camaləddin piri" adlanan abidə vardır. Deyilənə görə, burada çoxlu mərmər başdaşıları var imiş ki, bunlar da 1918-ci ildə yanğın nəticəsində tələf olmuşdur.

1924-cü il məlumatına görə, Seyid Camal türbəsi iki otaqdan ibarət imiş. Otaqlardan birində Seyid Camal dəfn olunubmuş. İkincisində isə iki qəbir varmış. Sonradan köhnə abidənin yerində bişmiş kərpicdən, daxildən və xaricdən düzbucaqlı plana malik, təzə bir bina tikilmiş və içərisindəki qəbir taxta qutuya alınmışdır. Türbənin içərisindəki dördbucaqlı mərmərdən qadına məxsus başdaşı qoyulmuşdur. Epitafiyaya əsasən abidənin isfəhbod-baş sərkərdə Pir Hüseynin hicri 811-ci (1408-1409) ildə vəfat etmiş qızı Xudavənd xatuna aid olduğunu söyləmək olar.



Seyid Camaləddin abidəsi dövrümüzədək qalmamışdır. O, digər tarixi sənədlərdən məlum olduğuna görə, Aynəzzaman Camaləddin Gilidir (yəni gilanlıdır). Butəsər mahalının Malvan kəndindəndir. O, Şeyx Səfi Ərdəbilinin Şeyx Zahid adıyla tanınmış ustadı- Taceddin İbrahimin mürşüdü olmuşdur. Ömrünün çox hissəsini Astarada yaşayıb sufizmi təbliğ etmiş və öz nəzəriyyəsini Şirvanda yaymaq üçün oğlu və müridi Seyid Sədullanı Bakıya göndərmişdir.

Bakıda, İçərişəhərdə sağlamlıq zonasının poliklinikasının yerləşdiyi binanın baştağında bu barədə məlumat verən XIV-XV əsrə aid maraqlı kitabələr vardır. Seyid Sədulla Bakıda qeyd olunan yerdə xeyriyyə cəmiyyəti yaratmış və sufizmi Şirvan ərazisində yaymaq işinə rəhbərlik etmişdir. Həyətə açılan baştağın üstündəki iki sətrlik ərəbcə nəsx xəttilə yazılmış kitabənin məzmunu belədir:

"Bu xeyriyyə idarəsinin bina olunmasına peyğəmbərliyin məşəli, risalətin tacı Seyid Sədulla əmr etmişdir".

Baştağda daha iki kitabə vardır. Sağ tərəfdəki kitabədə Quranın 33-cü surəsinin 33-cü ayəsi və altıncı surənin 90-cı ayəsi yazılmışdır.

Sol tərəfdəki kitabədə hədis yazılmışdır: "Peyğəmbər -ona salam olsun- dedi: Allaha inananlar ziyarət edilir və Allah onları pis işdən uzaqlaşdırır".

Kompleks, həyətə daxil olanda sağ və sol tərəfdə həyət boyu otaqlardan ibarətdir. Bu otaqların bəziləri sonralar aparılan bərpa və təmir işləri zamanı əvvəlki görkəmini dəyişməsinə baxmayaraq, vaxtilə mühüm sosial-iqtisadi mərkəzlərdən biri olduğunu sübut etməkdədir.

Məscid Astara rayonunun Vaqu kəndindədir. İnşa tarixi XIX əsrin axırlarına aid olunur. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi isə 7,5x20 metrdir. Məscid formaca düzbucaqlıdır və bişmiş kərpicdən inşa olunub. İki giriş qapısı və altı pəncərəsi vardır. Pəncərələr şəbəkə ilə işlənib. Döşəmə bişmiş kərpicdən, tavanı isə taxtadandır. Tavan dörd taxta sütun üzərində dayanıb. Məscidin iç divarları sement məhlulu ilə suvanaraq əhənglə ağardılıb. Qadınlar şöbəsi ikimərtəbəli olub, sahəsi 7,5x4 metrdir.

Məscidin damı qırmızı kirəmitlə örtülüb. Mehrab divarın içindədir və əhənglə işlənib. Günbəz güldəstə formalı və dördguşəlidir, üstü kirəmitlə örtülüb.

Sovetlər dövründə bu məscid anbar kimi istifadə olunub. 1987-1989-cu illərdə burada təmir-bərpa işləri aparılıb.



### SEYİD KƏRİM TÜRBƏSİ

Bu abidə yerli camaatın söylədiyinə görə, 19-cu əsrin əvvəllərində tikilib. Lakin 1995-ci ildə burada yeni bir türbə inşa edilib. Türbənin iç sahəsi 3,5x4,5 metr olub, hündürlüyü 2,20 metrdir. Mişar daşından inşa edilmiş bu abidənin damının örtüyü qırmızı kirəmitlə işlənib. İçərisi yalnız sərdabədən ibarət olan türbədə Seyid Kərimin qəbri yerləşir. Kənd sakinlərinin bildirdiyinə görə, Seyid Kərim Peyğəmbər nəslindəndir.

## AĞSU RAYON MƏSCİDLƏRİ

### AĞSU CÜMƏ MƏSCİDİ

1991-ci ildən məscidin tikintisinə başlanmışdır. Məscid Ağsu şəhər sakinlərinin vəsaiti hesabına tikilir. Hal-hazırda burada tikinti işləri dayandırılıb.

Ağsu rayonunun axundu Hacı İltifat Həsənxanoğlunun bildirdiyinə görə, burada vaxtilə də məscid olmuşdur. Sovetlər dövründə anbar kimi istifadə edilən bu məscid sonralar sökülüb dağılıb.





### AĞSU ŞƏHƏR NURAN XATUN MƏSCİDİ



Məscid Ağsu şəhərinin Köhnə Bazar məhəlləsində (indiki Məhəmməd Əmin Rəsulzadə küçəsi) yerləşib. Bünövrəsi 1996-cı ildə qoyulub. 1997-ci ilin əvvəllərindən fəaliyyətə başlayıb. Həyətyanı sahəsi 2000 kv.metr, iç sahəsi 15x11 metrdir.

Ağsu şəhər Nuran Xatun məscidinin əsas ibadət zalı mişar daşı ilə hörülmüşdür. İbadət zalında 24 (tağvari formada və taxtadan) pəncərə qoyulmuşdur. Məscidin qadınlar şöbəsinin sahəsi 12x7 metrdir. Minarənin hündürlüyü 14 metrdir. Minarə dəmir borudandır. Məscidin döşəməsi beton, tavanı isə taxtadandır. Yerdən günbəzin hündürlüyü 9 metrdir. Mehrabı çox sadə formada olub, hündürlüyü 2,5 metrdir. Məscidin dam örtüyü, günbəzləri, habelə minarənin üstü dəmir təbəqə ilə işlənib. Günbəzin sayı üçdür. Onlardan ikisi kiçik, biri isə böyük ölçüyə malikdir. Minarə osmanlı memarlığı üslubundadır.

Ağsu şəhər Nuran Xatun məscidi Azərbaycan Gəncliyə Yardım Fondunun vəsaiti hesabına tikilib. Məscidin memarı Ağsu rayonunun baş memarı Sərdar Bayramovdur.

### BOZAVAND KƏND MƏSCİDİ

Məscid Ağsu rayonunun Bozavand kəndindədir. Məscidin həyətyanı sahəsi 12x24 metr, iç sahəsi isə 8x19 metrdir.

Bozavand kənd məscidi dördbucaqlı formada olub, dam örtüyü dəmir təbəqələrlə işlənmişdir. İki giriş qapısı vardır. Qapılar düzbucaqlı formadadır. Giriş qapılarının qarşısında eyvan (sahəsi 10x20 metr) yerləşmişdir. Məscidin döşəmədən tavana qədər hündürlüyü 3 metdir. Minarələri dəmir borudandır, hündürlüyü 12 metrdir. Həyətyanı sahəsi daş hasara alınmışdır. Məscidin iç və fasad tərəfdəki divarları qum-sement məhlulu ilə suvanmış və əhənglə ağardılmışdır.



### MİRİSMAYIL AĞA TÜRBƏSİ

Türbə Ağsu rayonunun Bozavand kəndində yerləşir. Türbənin iç sahəsi 6x6 metrdir.

Səkkizguşəli türbə bişmiş kərpiclə işlənib. Türbənin bir giriş qapısı və 7 pəncərəsi vardır. Qapı və pəncərələr dəmirdən olub, tağvari formadadır. Dam örtüyü ağ dəmir təbəqələrlə işlənib. Türbənin yerdən günbəzədək hündürlüyü 7 metrdir. İçərisində bir qəbir yerləşmişdir. Qəbrin üstündə ərəb əlifbası ilə Kərbəlayı Mirismayıl Hacı Seyidməhəmməd oğlunun adı, doğum və ölüm tarixi yazılmışdır.



Qeyd:

Ağsu rayonunun Rəhimli, Kəndoba, Gülməli Padarı, Ləngəbiz, Abbasxanlı və Şahbəyli kəndlərində də (6 kənddə) hal-hazırda məscidlər fəaliyyətdədir.

# AĞSTAFA RAYON MƏSCİDLƏRİ

## ƏLİ İBN ƏBU TALIB MƏSCİDİ



Ağstafa şəhərində (mərkəzində) yerləşən bu məscid 1996-cı ildə inşa olunub. Həyətyanı sahəsi 6500 kv. metr, iç sahəsi 17x17 metrdir.

Əli ibn Əbu Talıb məscidinin binası, eləcə də qoşa minarələri mişar daşı ilə inşa edilmişdir. Məscid düzbucaqlı formada olub, döşəmədən tavana qədər hündürlüyü 5 metr, yerdən günbəzədək hündürlüyü isə 9 metrdir. Məsciddə qadınlar şöbəsi ikinci mərtəbədə yerləşmişdir. Onun sahəsi 34 kv.metrdir. İbadət zalında 10 tağvari formada pəncərə qoyulmuşdur. Mehrabın hündürlüyü 2,5 metrdir. Məscidin iç divarları ağ rənglə işlənmişdir. Əsas ibadət zalının qarşısında-sağ və sol tərəflərdə yardımcı otaqlar yerləşmişdir. Günbəz fasad tərəfdən ağ dəmir təbəqə ilə işlənmişdir. Minarələri (hündürlüyü 17 metr) səkkizguşəli olub, üstü ağ dəmir təbəqə ilə örtülmüşdür. Günbəz və qoşa minarələrin üstündə aypara qoyulmuşdur.

Məscid yerli şəhər sakinlərinin təşəbbüsü və Küveyt İslam İrsinin Dirçəlişi Cəmiyyətinin vəsaiti sayəsində tikilmişdir. Məscidin layihəsinin müəllifi şəhərin baş memarı Sənan Abış oğludur. Əsas ibadət zalının qarşısındakı yardımçı otaqlar mədrəsə üçün nəzərdə tutulmuşdur.

## YUXARI GÖYÇƏLİ KƏND ƏBÜLFƏZL ABBAS MƏSCİDİ



Məscid Ağstafa rayonunun Yuxarı Göyçəli kəndindədir. 1994-cü ildə inşa olunub. Həyətyanı sahəsi 600 kv. metr, ibadət zalının sahəsi isə 8x8 metrdir.

Yuxarı Göyçəli kənd Əbülfəzl Abbas məscidi formaca dördbucaqlı olub, mişar daşı və çaylaq daşı ilə tikilmişdir. Giriş qapısının ön tərəfində baş tağ yerləşmişdir. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanmış və rənglənmişdir. Minarənin hündürlüyü 16 metrdir. Qadınlar üçün nəzərdə tutulmuş ibadət zalı ikinci mərtəbədədir. Onun sahəsi 4x8 metrdir. Məscidin divarlarının qalınlığı 0,70 metrdir. Minbər taxtadandır və altıpilləlidir. Mehrabın hündürlüyü 4 metrdir və üstündə "Fatihə" surəsi yazılmışdır. Günbəzin diametri 6 metr, döşəmədən tavana qədər hündürlüyü 5 metrdir. Döşəmə torpaqdır. Günbəzin dəyirmi hissəsi Quran ayələrilə işlənmişdir. Minarənin yuxarı hissəsi və günbəzin fasad tərəfi ağ dəmirlə işlənmişdir. Minarə və günbəzin üstündə aypara rəmzi qoyulmuşdur.

Yuxarı Göyçəli kənd Əbülfəzl Abbas məscidi Əbülfəzl Məşədi Hənifənin təşəbbüsü ilə tikilmişdir.



## DAĞ KƏSƏMƏNLİ KƏNDİ EYYUB AĞA MƏSCİDİ



Məscid Ağstafa rayonunun Dağ Kəsəmənli kəndində inşa olunub. Yerli sakinlərin məlumatına görə, məscidin inşa tarixi XIX əsrin əvvəllərinə aiddir. Həyətyanı sahəsi 250 kv.metr, iç sahəsi 12x12 metrdir.

Dağ Kəsəmənli kəndi Eyyub Ağa məscidi yerli sakin Əyyub ağa tərəfindən tikdirilmişdir. Onun övladı olmadığından yadigar olaraq məscidi qoyub getmişdir. Məscid binası öz ilkin variantını qoruyub saxlamışdır. Divarları başdan-başa bişmiş kərpiclə hörülmüşdür. Minarələri də bişmiş kərpicdən olub, hündürlüyü 14 metrdir. Məscidin divarlarının qalınlığı 1 metrdir. İç divarları qum-sement məhlulu ilə suvanmış və əhənglə ağardılmışdır. Məscidin yerdən günbəzə qədər hündürlüyü 12 metrdir. Günbəz dörd tağ üzərində dayanmışdır. Mehrabının hündürlüyü 3,5 metrdir, tağvari formadadır. Döşəməsi bişmiş kərpiclə işlənmişdir. Məscidin bir giriş qapısı və altı pəncərəsi vardır. Günbəzin diametri 7 metrdir. Günbəzin fasad tərəfi bişmiş kərpiclə işlənmişdir. Məscidin giriş qapısının sağ tərəfində Əyyub ağanın qəbri yerləşmişdir.

Sovetlər dövründə məscid taxıl anbarı kimi istifadə edilmişdir. 1989-1990-cı illərdə yerli sakinlərin təşəbbüsü sayəsində məscidin fəaliyyəti bərpa edilmişdir. 1990-cı ildə məsciddə Ağstafa rayonunun yerli tikinti idarələri tərəfindən bərpa işləri aparılmışdır.

Qeyd edək ki, Dağ Kəsəmənli kəndi Eyyubb ağa məscidinin divarına həkk olunmuş kitabəyə əsasən bu məscid hicri-qəməri təqvimi ilə 1326-cı ildə Hacı Tağı Kərbəlayı Hüseyn tərəfindən tikdirilib.



# BAKI ŞƏHƏR MƏSCİDLƏRİ

## *TƏZƏ PİR MƏSCİDİ*



Mülki mühəndis Əhmədbəyov Zivər bəy tərəfindən 23 iyul 1905-ci ildə birmərtəbəli yöndəmsiz məscidin yerində hazırkı məscidin bünövrə daşı qoyuldu.

Məscid sənətkarlığı baxımından abidə xarakteri daşıyır. Kompozisiyaların bütövlüyü və ciddiliyi, tikinti işlərinin yüksək keyfiyyəti burada çalışmış mahir ustaların əməyinin bəhrəsidir. Təzə Pir məscidinin tikintisində baş usta Hacı Abbas, usta Hacı Xeyrulla və Məhəmmədhəmid, usta Kərbəlayı Mirzə (1855-1965), Kərbəlayı Məcid və Kərbəlayı Sadıq və başqaları iştirak etmişlər. Məscid 1914-cü ildə tikilib başa çatdırılmışdır. Təzə Pir məscidinin inşası Abşeronda bir çox yeni məscidlərin tikintisinə impuls vermişdir. Məscid öz memarlığı və genişliyi baxımından Abşeron məscidləri arasında xüsusi yer tutur. Kvadratplanlı Təzə Pir məscidinin baş fasadındakı üçtağlı eyvanı, cinahlarındakı minarələr və günbəz aydın və dəbdəbəli memarlıq kompozisiyası əmələ gətirir. Məscidin böyük ibadət zalı (20x20) sferik günbəzlə (diametri 20m) örtülmüşdür. İbadət zalının içməkan quruluşu yerli memarlıq konstruksiyaları ilə işlənmiş, günbəzi saxlayan çatma tağ formalarından istifadə olunmuşdur.

Təzə Pir məscidinin tikintisində Şərq memarlığı monumental formalarının dəbdəbəli üsulları yerli memarlıq ənənələri və elementləri ilə üzvi surətdə əlaqələndirilmişdir.













Məscid İçərişəhər, Asəf Zeynallı (hazırkı Xalça muzeyi) küçəsində inşa olunub.

Bakı Cümə məscidi qalanın içərisindədir. Dördsətirli qabarıq kitabə minarənin bünövrəsində qoyulmuş əhəngdaşının üzərinə həkk olunub. Kitabə kufi xətti ilə yazılıb. Buradakı bəzi hərflərin sonu yuxarı qalxır və palmatta ilə tamamlanır. Başqa hərflərə isə nəbati ornamentlər əlavə edilib. Kitabə qismən zədələnib və tarixi yoxdur. Kitabəni XII əsrə aid etmək olar.

Bakının İçərişəhərində qədimdən mövcud olan bu məscid h.q. 1024 (1615)-ci ildə təmir olunub.

XIX əsrədək saxlanmış bu məscid, bir qayda olaraq, düzbucaqlı formaya malik olan yerli məscidlərdən fərqlənərək, orijinal formaya və mürəkkəb plana malikdir. Cənubi Azərbaycanın dini abidələrinə xas olan cəhətlər burada özünü göstərir. Xüsusilə Cümə məscidinin fasad hissəsinin konstruktiv həlli daha böyük maraq doğurur. Belə ki, burada mərkəzi sahə çadıra oxşar günbəzlə örtülüb. Məscidin fasadı minalanmış yastı daşlarla üzlənib. Məscidin yaxınlığında bu günədək gəlib çıxmış minarə ucaldılıb. Bu minarə neinki XIV əsrin görkəmli abidəsi kimi böyük maraq doğurur, habelə Sınıq qala minarəsindən fərqli olaraq, XI əsrdən XIV əsrədək Şirvan memarlığında baş verən dəyişiklikləri aşkar etmək üçün qiymətli material rolu oynayır. Sınıq qala minarəsindən fərqli olaraq bu minarə daha zərif, daha incədir və bu minarədə demək olar ki, müdafiə qülləsi olan Sınıq qalaya məxsus əlamətlər yoxa çıxmışdır. Buna baxmayaraq onlar arasında müəyyən oxşar cəhətlər də var. Belə ki, minarənin şərəfəsinin alt hissəsində daş üzərində kitabə həkk edilib. Həmçinin, minarədən şərəfəyə keçid hissə də üçqat stalaktitlə həyata keçirilir. Şərəfənin kənarları isə həndəsi fiqurla işlənib.







## ŞAH MƏSCİDİ



Saray məscidi Şirvanşahlar kompleksinin aşağı həyətində yerləşir. Onun iki, azca sivri günbəzlə tamamlanan prizmatiк həcmlərinin lakonikliyi binanın şimal - şərq küncündə ucalan minarənin düz qaməti ilə nəzərə çarpır. Məsciddə iki ibadət zalı vardır, böyük ölçülərdə olan kişilər üçün, kiçik ölçülərdə olan isə qadınlardan ötrü nəzərdə tutulub. Burada eləcə də bir neçə kiçik xidməti otaq vardır. Məscidin düzbucaqlı planındakı otaqların içərisində qadınlar üçün olan ibadət zalı özünün kiçik çıxıntısı ilə seçilir. Məscidin üç girişi vardır. Şimal tərəfdəki əsas giriş portalla işlənib. Portalın hər iki tərəfində ayaqqabılar üçün nəzərdə tutulmuş oyuqlar vardır.

Şərqdən, orta həyət tərəfdən məscidə daha sadə portalı olan ikinci giriş vardır. Qərbdəki giriş keçidi heç nə ilə fərqlənmir. Məscidin mərkəzi zalının yuxarı künclərinə dar boğazları içəriyə - zala doğru yönəldilmiş böyük gil küplər hörülüb. Bu, bir tərəfdən əla rezonans - əks-səda yaradır, digər tərəfdən isə binaya möhkəmlik verən antiseysmik konstruktiv - inşaat üsuludur. Məscidin mərkəzi zalının cənub divarında sadə bəzədilmiş mehrab yerləşir. Onun dərin olmayan oyuğu çatma yarımgünbəzlə örtülüb.



Məscid minarəsinin stalaktit kəmərinin altındakı yazıda deyilir: "Böyük və qüdrətli Allaha həmd, elçisi Məhəmmədə dualarımız olsun. Bu minarənin açılmasını qüdrətli sultan Xəlilullah əmr etdi. Allah onun hakimiyyət və şahlıq günlərini göylərə ucaltsın. 845-ci il (1441-1442)".

## ŞİRVANŞAHLAR TÜRBƏSİ



Şirvanşahların ailəvi türbəsinin planı düzbucaqlı formaya malikdir. O, xarici tərəfdən çoxbucaqlı ulduzlarla bəzədilmiş, altıtinli günbəzlə tamamlanır. Keçmişdə günbəzin hamar səthlərindəki çökəkliklərə mavi şirli kərpiclər düzülmüşdür. Bunu 1733-cü ildə Bakıda olmuş səyyah İ. Laks təsdiq edir. O, yazır:"Günbəzlərin üstü firuzə rəngli daşlarla döşənmişdir."

Giriş keçidinin üzərindəki yazı binanın təyinatından danışır:"Dinin müdafiəçisi, peyğəmbərin adaşı, böyük sultan Şirvanşah Xəlilullah - Allah onun hakimiyyət və şahlığını uca etsin, - bu işıqlı türbəni öz anası və oğlu üçün, - Allah onlara rəhmət etsin, - tikdirməyi əmr etdi. 839-cu il. (1435-1436)".

Giriş keçidi tağının oxu üzərində altıguşəli fiqurun içərisində 12 dəfə təkrarlanan "Əli" sözü həkk edilib. Portalın yuxarısını Qurandan götürülmüş sözlər bəzəyir. Portalın timpanlarına (yan hissələrinə) yerləşdirilmiş 2 damcı şəkilli medalyonda "Memar Əli" sözləri həkk olunub. Hər iki medalyonda eyni yazı iki dəfə təkrarlanır: düzünə və güzgü vasitəsilə oxuna biləcək tərzdə. Memar öz adını şah türbəsində çox böyük məharət və ustalıqla yonmuşdur. Yazı uzun illər gizli qalmış, yalnız 1945-ci ildə Azərbaycan alimləri tərəfindən oxunmuşdur.

Günbəzli dəfn otağı binanın mərkəzini təşkil edir. Bəzi mənbələrdə deyilir ki, 1501-ci ildə, Şirvanşah Fərrux Yəsarın ölümündən sonra Şah İsmayıl qoşunları Bakı qalasını almış və türbədəki cənazələri yandırmışlar. Arxeoloqların 1945-ci ildə apardıqları qazıntılar bu ehtimalı təkzib etmişdir. Qəbirlər olduğu kimi saxlanılmış, yalnız başdaşılar qalmamışdır. Kitabədəki kitablara görə burada Şirvanşah I Xəlilullahın anası və oğlu, eləcə də digər ailə üzvləri dəfn edilmişlər.



## SEYİD YƏHYA BAKUVİ TÜRBƏSİ



Xalq arasında "Dərviş türbəsi" kimi tanınmış Seyid Yəhya Bakuvi məqbərəsi Saray kompleksinin cənub hissəsindədir. Mənbələrin verdiyi məlumata görə, Bakuvi Şirvanşah Xəlilullahın sarayında saray alimi olmuşdur. Şamaxı şəhərində anadan olmuş Seyid Yəhya gənc yaşlarından sufizmin "xəlvəti" təriqətinin başçısı şeyx Sədrəddinin tərəfdarına çevrilmişdir. Şeyx Sədrəddinin ölümündən sonra Seyid Yəhya Bakuvi Bakıya gəlir və ömrünün son günlərinədək burada yaşayır. Digər mənbələrin şəhadətinə görə, o, hicri təqvimi ilə 868-ci ildə (1464-cü il) vəfat etmiş və saray kompleksinin ərazisində dəfn olunmuşdur. Seyid Yəhya Bakuvinin sufi mistik xarakterli təxminən 30 adda əsəri bizim günlərə qədər gəlib çatmışdır. Bu əsərlər Türkiyənin Manisa, İstanbul və Konya şəhərlərində qorunub saxlanılır.

Türbə səkkizguşəli formada olub, səkkiztinli çadırvari tavanla örtülüdür. O, yerüstü və yeraltı hissədən ibarətdir. Yuxarı hissədə dini ayinlər yerinə yetirilərmiş. Aşağıda isə məzar yerləşir. Türbə çox gözəl yonulmuş, bir-birinə kip birləşdirilmiş, enli və ensiz daş sıraları ilə tikilmişdir. Türbənin cənub, şərq və qərb tərəflərində daş şəbəkə ilə örtülü olan 3 kiçik çatma pəncərə var. Bu türbə Şirvan-Abşeron memarlıq məktəbinin həlqələrindən biridir.

## SINIQ QALA-MƏHƏMMƏD MƏSCİDİ



Məscid Bakının İçərişəhərdəki Telman Bağırov küçəsində yerləşib. 1078-1079-cu illərdə tikilib.

Xalq arasında birinci ad (Sınıq Qala) 1723-cü ildə yaranıb. Xəzər sahili boyunca işğalçı yürüşlərə çıxmış I Pyotrun artilleriyası həmin ilin iyunun 26-da Bakını atəşə tutanda şəhərin ən qədim məscidinin minarəsi zədələnir. Top mərmisinə qala bürcü kimi dözən minarəyə el arasında "Sınıq Qala" adı verilib. İlkin araşdırmalara görə, Məhəmməd məscidinin daha əski bina-atəşgah üzərində yenidən tikilməsi rəvayəti qeydə alınmışdır.

Məhəmməd Əbubəkr məscidi xalq arasında "Sınıq Qala" məscidi kimi tanınır. Dörd sətirlik kufi kitabə giriş qapısının sol tərəfində, şimal divarında ahəngdaşı üzərində qabarıq şəkildə həkk olunub. Burada məscidin tarixi də qeyd olunub. (Hicri-qəməri 471-miladi t.1078/1079-cu il).

Bu abidənin memarlıq üslubu onun kifayət qədər uzunmüddətli bir yol keçdiyini göstərir. Bakı qalasının sahil boyu hissəsində yerləşən bu məscidin böyük diqqətlə yonulmuş və daşdan hörülmüş silindr şəkilli qülləsi vardır. Minarənin kompozisiyа həlli onun müşahidəçi qala qülləsi rolunu oynadığını göstərir. Qüllədə istifadə olunan yonulmamış daşlar əhəng məhlulu ilə bir-birinə bərkidilib. Minarənin müxtəlif hissəsində istifadə olunmuş daşların həcmi də müxtəlifdir. Burada daşlar uzununa qoyulub. Bu isə minarəyə möhkəmlik verir. Bunun üçün daş hörmələri sıralarına daxil edilmiş şalbanbaşı daşlardan istifadə olunub. Minarənin yuxarı hissəsində kitabə həkk edilib. Eyvana (şərəfə) keçid üçqat stalaktitlə həyata keçirilib. Minarənin şərəfəsinin kənarları da həndəsi ornamentlərlə işlənib. Belə ki, burada-şərəfənin məhəccərində 28 ədəd tam yonulmuş və qeyri xətti daş lövhələr qoyulmuş və onlar əhəng məhlulu ilə bərkidilmişdir.

Hal-hazırda bu məscid istifadə olunmur.

## AŞUR MƏSCİDİ

Bakının İçərişəhər tarixi mərkəzində Qız qalası ilə Sınıq qala abidələri arasında indi "Ləzgi məscidi" adı ilə tanınan bir abidə yerləşir. Bu ad XIX əsrdə, ya da XX yüz ilin əvvəllərində yaranmışdır. Abidə kiçik ölçülü zirzəmi və üst ibadət salonundan ibarətdir. Bərpa zamanı torpaq altından çıxarılmış zirzəmi tağbənd örtülü, planda uzunsov biçimlidir və yarımdairəvi tağlı iki gözlə bayıra yönəlir. Planda uzunsov biçimli olan, sahəsi 55,0 m-lik ibadət salonunun iki mehrabı var. Salonun oxunda yerləşən mehrab zəngin dekora malikdir. Üstündəki kitabəyə görə, onu hicri-qəməri təqvimi ilə 567-ci ildə, miladi tarixilə isə 1169-cu ildə usta Aşur İbrahim oğlu tikmişdir. İbadət salonu tağbəndlə örtülmüş, ortada bir tağ qurşağı ilə vizual iki bölümə ayrılmışdır. Salonun ensiz divarlarında kiçik tağça, mehrabın üstündə kiçik pəncərə vardır, giriş qapısı künc tərəfdəndir.



Aşur məscidi bayırdan sadə prizmatik tutum şəklindədir. Daş hörgü sistemindən onun üst hissəsinin sonralar yenidən tikildiyi hiss olunur. Daha qədim hörgülü məscid divarlarının alt hissəsində nisbətən iri və müxtəlif ölçülü daşlardan ustalıqla istifadə edilib. Divarların üst qatı kiçik ölçülü daşlarla bərabər hörgü sırasıyla ucaldılmışdır. Məscid içində mehrab olan güney divarı ilə İçərişəhərin baş ticarət küçəsinə yönəlir. Baş fasad saya profilli karnizlə tamamlanır. Onun üstündə baş fasadın simmetriya oxunda sivri biçimli tağvari işlənmiş kiçik bir daş qoyulub, onun tağçası içərisində kufi xətlə "Allah" sözü yonulmuşdur. Bakının ən qədim məscidlərindən olan Aşur məscidinin ikiqatlı quruluşu Məhəmməd məscidi və Xıdır məscidi kimi İçərişəhərin enişli relyefinə uyğun yaranmışdır.

## ŞEYX İBRAHİM MƏSCİDİ

Məscid Bakı şəhərinin İçərişəhər tarixi mərkəzindədir.

Bu məscid miladi tarixi ilə 1415-ci ildə tikilib. Tarixi memarlıq abidəsi kimi dövlət tərəfindən mühafizə olunur. Üzərində ərəb dilində iki daş kitabə həkk olunub. Sahəsi 40 kv.metr olan bu məscid İçərişəhər, Asəf Zeynallı küçəsi 65-də yerləşib.

Şeyx İbrahim məscidi indi bağlıdır.







## BƏYLƏR MƏSCİDİ

Məscid Bakının İçərişəhərində, Məmmədyarov küçəsi 47-də yerləşib. Tarixi XIX əsrə aiddir.

Bəylər məscidi mədənijjət abidəsi kimi dövlət tərəfindən qorunur. Hal-hazırda burada dövlət idarəsi yerləşir.

Abidənin giriş qapısının üstündə daş kitabə həkk olunub. Qapının hündürlüyü 4 metrdir. Məscid yonulmuş sal daşlardan tikilib. Günbəzi və minarəsi də sal daşlarla işlənib. Minarənin hündürlüyü 25 metrdir. O, ayrıca tikilib. Aşağı hissəsi düzbucaqlı, yuxarı hissəsi isə dairəvi formadadır. Minarəyə bayır tərəfdən giriş qapısı vardır. Qapı dəmirdəndir və onun üst tərəfində xırda daş kitabə həkk olunub. Minarənin şərəfə hissəsi də dəmirdəndir.



Son dərəcə özünəməxsus memarlıq üslubuna malik olan bu məscid təəssüflər olsun ki, başqa məqsədlərlə istifadə edilir.



## TƏKİYƏ (I)

Abidə Bakının İçərişəhərində yerləşir. Düzbucaqlı formaya malik olan bu abidə yonulmuş iri sal daşlardan tikilib. Abidənin hündürlüyü 7 metr, sahəsi isə 35 kv.metrdir. Günbəz və minarəsi yoxdur. Giriş qapısından sağ tərəfdə-divardakı kitabəsi pozulub. Pəncərələri yonulmuş daşlarla işlənib. Hal-hazırda mağaza kimi istifadə olunur.

Bazar meydanından yuxarıda yerləşən bu təkiyə XIII əsrin mədəniyyət abidəsi kimi dövlət tərəfindən mühafizə olunur.

## CİN MƏSCİDİ (I)

Məscid Bakının İçərişəhərindədir. Bünövrəsi XIV əsrdə qoyulub. Sahəsi 56 kv.metrdir.

Cin məscidi Şirvanşahlar sarayı kompleksinin şimal qapısı tərəfdə yerləşib. Formaca düzbucaqlı şəkildə olan bu məscid yonulmuş sal daşlardan tikilib. Hündürlüyü 4 metrdir.

Tarixi memarlıq abidəsi kimi dövlət tərəfindən mühafizə olunan bu məscid İçərişəhər, Qala döngəsi 7/9-da yerləşir.



## MƏDRƏSƏ-MƏSCİD

Mədrəsə-məscid Bakının İçərişəhərində, Asəf Zeynallı küçəsi 65-də yerləşir.

Abidənin tarixi hicri-qəməri təqvimi ilə 1301-ci ilə aiddir. Mədrəsə-məscid düzbucaqlı formadadır və sal daşlarla işlənib. Bura hal-hazırda bağlıdır və dövlət tərəfindən mədəniyyət abidəsi kimi mühafizə edilir.



## HƏZRƏT ƏLİ MƏSCİDİ

Bu məscid Bakının İçərişəhər tarixi mərkəzində , Asəf Zeynallı küçəsindədir. Məscid əllə yonulmuş sal daşlardan tikilib. Bir giriş qapısı və düzbucaqlı formaya malik olan 18 pəncərəsi vardır. Pəncərələr şəbəkəli sal daşlarla işlənib.

Məscidin əsas ibadət zalının giriş portalı eynilə Şirvanşahlar sarayının portalına oxşayır. Damın üstündən ucaldılan günbəzə 4 ədəd gözlüklər qoyulub. Günbəz də yonulmuş sal daşlarla işlənib. Özünəməxsus memarlıq xüsusiyyətlərinə malik olan Həzrət Əli məscidi XVII əsrə aid edilir. Qeyd edək ki, bu məsciddən hal-hazırda istifadə edilmir.



## NAMƏLUM MƏSCİD

Məscid İçərişəhərdə M.Maqomayev küçəsi 24-də yerləşib. Yerli camaat bu müqəddəs ocağı Xıdır məscidi kimi də adlandırır. 1301-ci ildə inşa olunan məscid hal-hazırda istifadə olunmur və bərbad vəziyyətdədir. Yonulmuş sal daşlardan tikilən Naməlum məscid yerli camaatın bildirdiyinə görə, Xıdır adlı bir şəxs tərəfindən tikdirilib. Onun bu baxımdan Xıdır məscidi adlandırılması da təsadüfi deyil.





## YİLAYLİ MƏSCİDİ

Yilayli məscidi isə İçərişəhər, Tverski küçəsi 5-də yerləşib. Miladi tarixi ilə 1309-cu ildə inşa olunan bu məscid yonulmuş sal daşlardan tikilib. Hal-hazırda məscid bağlıdır və möminlər tərəfindən istifadə olunmur. Qapı və pəncərələri tağvari formasında olan bu məscidin əsas giriş qapısından sol tərəfdə daş kitabələr həkk olunub. Kitabələrdən birində məscidin tikilmə tarixi göstərilib.



## HACI HEYBƏT MƏSCİDİ

Məscid İçərişəhərdə, 8-ci Kiçik Qala döngəsi 10-da yerləşib. Yerli camaat bu məscidə Kiçik Hacıbanı məscidi də deyir. İç sahəsi 3x4 metr olan bu məscidin yerdən tavana qədər hündürlüyü 4 metrdir. Yonulmuş sal daşlardan tikilən Hacı Heybət məscidinin iç divarları suvanmayıb , fasad tərəfdən isə qum-sement məhlulu ilə suvanıb.

Məscidin fasad, eləcə də iç divarlarında daş kitabələr həkk olunub. Minarəsi, günbəzi, minbəri yoxdur. Mehrabı isə sadə formadadır. Məscidin tikilmə tarixi 1791-ci ildir.



## TƏKİYƏ (II)

Bakının İçərişəhər tarixi mərkəzində, Cümə məscidinin sağ tərəfində daha bir Təkiyə yerləşib. Bu abidənin inşa tarixi 1645-1647-ci illərə aiddir. Hal-hazırda Təkiyə bağlıdır və ondan mağaza kimi istifadə edilir.

Yonulmuş sal daşlardan tikilən bu abidənin hündürlüyü 4,5 metrdir.Fasad tərəfdən düzbucaqlı formaya malik olan bu Təkiyənin iç divarları tağvari formadadır.



## CİN MƏSCİDİ (II)

İçərişəhər, Məmmədyarov küçəsi 40-da daha bir Cin məscidi yerləşir. Şirvanşahlar saray kompleksinin aşağı hissəsində yerləşən bu məscid yonulmuş sal daşlarla ucaldılıb. Düzbucaqlı formaya malik olan Cin məscidi hal-hazırda bağlıdır və ondan istifadə olunmur. Məscidin minarəsi, günbəzi yoxdur. Bir giriş qapısına malikdir. Tavanı düzbucaqlı formada olan Cin məscidinin giriş qapısının üstündə və yan tərəflərində daş kitabələr həkk olunub. Qapının üstündəki kitabə, demək olar ki, oxunmur.

Məscidin tarixi hicri-qəməri təqvimi ilə 1186-cı ilə aiddir.



## HACIBANI MƏSCİDİ

Bakının İçərişəhər tarixi mərkəzində, 8-ci Kiçik Qala döngəsi 20-də yerləşən bu məscid yonulmuş sal daşlardan tikilib. Məscidin giriş qapısının üstündə XVI əsr tarixi qeyd olunub. Giriş qapısının sol tərəfində, divara həkk olunmuş daha bir kitabədə isə 1320-ci il tarixi göstərilib.

Hal-hazırda Hacıbanı məscidi emalatxana kimi istifadə olunur. Məscidin minarəsi və günbəzi yoxdur.



## MİRZƏ ƏHMƏD MƏSCİDİ

Məscid Bakının İçərişəhər tarixi mərkəzində, Hərbçi küçəsi 6-da yerləşib. İnşa tarixi 1345-ci il olan bu məscid yonulmuş sal daşlardan tikilib. Həcmcə kiçik olan Mirzə Əhməd məscidi düzbucaqlı formaya malikdir. Məscidin giriş qapısından sol tərəfdə, divarda daş kitabə həkk olunub. Son dərəcə sadə memarlıq konstruksiyasına malik olan bu məscidin qapı və pəncərəsi tağvari formadadır. Məscid hal-hazırda bağlıdır və ondan istifadə olunmur.





## BALA ƏHMƏD MƏSCİDİ

İçərişəhərdə yerləşən bu məscid də hal-hazırda bağlıdır və möminlər tərəfindən istifadə edilmir. Baxımsız vəziyyətdə qalan Bala Əhməd məscidi son vaxtlar daha bərbad vəziyyətə düşmüş və onun təmirə böyük ehtiyacı var. Həcmcə kiçik, formaca düzbucaqlı olan bu məscid də yonulmuş sal daşlarla işlənib.



## ŞƏHİDLƏR MƏSCİDİ

Bakı şəhərinin Şəhidlər Xiyabanında yerləşən məscidin bünövrəsi 1993-1996-cı illərdə qoyulub.

Bu müqəddəs ocaq Türkiyə Diyanət Vəqfinin "Gintaş" Anonim Şirkəti tərəfindən tikilib. Məscidin lövhəsində bu sözlər yazılıb: "Bu məscid Azərbaycan torpaqlarının müdafiəsində şəhid olub, bu ətrafda yatan qəhrəman əsgərlərin əziz xatirəsini yaşatmaq üçün türk xalqı adından Türkiyə Diyanət Vəqfi tərəfindən tikilib. Şəhidlər məscidi Anadolu türklərinin Azərbaycanlı qardaşlarına bir hədiyyəsidir".

Məscidin tikilməsinə 825 min dollar vəsait sərf edilib. Məscidin öz hündürlüyü 15, minarəsinin hündürlüyü 30 metrdir. Burada bütün dini mərasimlərin keçirilməsi üçün lazımi şərait var.

Məscid Osmanlı memarlıq üslubunda inşa olunub. Baş günbəzində "İxlas" surəsi yazılıb. Məscidin mehrabının üstündə və digər yerlərində yazılar həkk olunub.





## İMAM HÜSEYN MƏSCİDİ

Məscid Bakı şəhəri, Abdulla Şaiq küçəsi 14-də tikilib. Bu məscid Hacı Hacıbabanın şəxsi vəsaiti hesabına tikilib. Məscid 1988-ci ilədək zavod kimi istifadə olunub. 1988-1989-cu illərdə "Tövbə" Cəmiyyətinin təşəbbüsü ilə məscid kimi yenidən fəaliyyətə başlayıb. Elə həmin vaxtdan etibarən Hacı Əbdül bu məscidin axundudur. Burada həmçinin Beynəlxalq Tövbə Cəmiyyəti yerləşir.



## QASIMBƏY CÜMƏ MƏSCİDİ



Məscid Bakı şəhəri, Həzi Aslanov küçəsi 23-də yerləşib. İnşa tarixi 1892-1896-cı illərə aiddir. Ümumi sahəsi 330 kv.m, iç sahəsi 250 kv. metrdir.

Qasımbəy imkanlı bir şəxs olub və öz hesabına həm Maştağada (o, əslən maştağalı olmuşdur), həm də Bakı şəhərində xeyli sayda hamamlar və bir neçə başqa abidələr tikdirmişdir. Qasım bəy bu məscidi öz vəsaiti hesabına inşa etmişdir. Sovet hakimiyyəti qurulduqdan sonra məscid fəaliyyət göstərə bilməmiş və nəhayət, 1992-ci ildə onun fəaliyyəti bərpa olunmuşdur.

Qasımbəy Cümə məscidinin tək minarəsi vardır və onun hündürlüyü 31 metrdir. Minarənin aşağı hissəsi düzbucaqlıdır və eni 2,5 metrdir. Minarənin bu hissəsinin hündürlüyü 6 metrdir. Ondan yuxarıda dairəvi kəmər və daha sonra onun dairəvi forması ucaldılmışdır. Minarə yonulmuş daşlarla tikilib, şərəfənin aşağı hissəsi üçqat stalaktitlərlə işlənib. Ondan aşağı hissədə isə ərəb əlifbası ilə Quran ayəsi yazılmışdır. Şərəfə dəmirdəndir.



Məscidin əsas giriş qapısının sol tərəfindəki divarda 5 mehrab şəkilli pəncərə vardır. Pəncərələr taxtadan olub, hündürlükləri 3 metrdir.

Qasımbəy Cümə məscidinin əsas ibadət zalının giriş qapısının üstündəki eyvan qadınlar üçün nəzərdə tutulub. Şöbəyə giriş üçün həyətdən pilləkən qoyulub.

Qasımbəy Cümə məscidinin əsas ibadət zalı dörd böyük sütun üzərində dayanıb. Sütunların qalınlığı 1 metrdir. Sütunlar bütöv daşlardan olub, on iki nəhəng tağla əlaqələnib.

Məscidin günbəzinin diametri 6 metrdir. Günbəzdə səkkiz düzbucaqlı pəncərə qoyulub. Günbəz və tağlar həndəsi və nəbati ornamentlərlə işlənib. Günbəzin tağlar qovuşan hissəsindən daş üzərində dairəvi formada ərəbcə "Kəlmeyi-şəhadət" həkk edilib. Həmin yazı yeddi dəfə təkrar olunur.

Mehrab məscidin mərkəzi hissəsində yerləşib. Mehrabın üç tərəfində "Cümə" surəsi yazılıb.

Qasımbəy Cümə məscidinin axundu Məhəmmədrza Soltan oğlu Hüseynzadə burada bir sıra təmir-bərpa işləri aparıb. 1992-ci ildən məscidin nəzdində mədrəsə də fəaliyyət göstərir.

Qasımbəy Cümə məscidinin memarı Məşədi Mirzə Qafar İzmayılovdur.

## HACI SULTANƏLİ MƏSCİDİ

Məscid Bakı şəhər Salatın Əsgərova küçəsi 75-də yerləşir. Bünövrəsi 1904-1914-cü ildə qoyulub.

Adından göründüyü kimi, məscid Bakının milyonçularından biri olan Hacı Sultanəlinin vəsaiti hesabına tikilib. Tikinti işləri altı il müddətində həyata keçirilib. Məscidin hündürlüyü 23 metr, minarəsinin hündürlüyü isə 35 metrdir. Minarə 1995-1996-cı illərdə tikilib.

Hacı Sultanəli məscidinin nəzdində mədrəsə də fəaliyyət göstərir.







## İLAHİYYAT FAKÜLTƏSİ MƏSCİDİ

Məscid Bakı, Mətbuat prospekti 36-da tikilib. 1995-ci ildə bünövrəsi qoyulub. Ümumi sahəsi 3500 kv.metr, iç sahəsi isə 500 kv.metrdir.

İlahiyyat fakültəsi məscidi Türkiyənin Diyanət Vəqfi tərəfindən tikilib. Tikinti işləri üçün 1 milyon dollardan çox vəsait xərclənib. Məscid üçün tək minarə (hündürlüyü 27 metr) də tikilib.

Məscid Osmanlı memarlığı üslubundadır. Burada ibadət etmək üçün bütün lazımi şərait yaradılıb. Məscidin interyeri nəfis şəkildə işlənib.





## ŞAHHÜSEYN MƏSCİDİ

Məscid Bakının İsmayıl Qədirli küçəsində inşa edilib. İnşa tarixi XX əsrin əvvəllərinə aiddir. Sahəsi 130 kv.metrdir.

Məscid Şahhüseyn adlı bir şəxs tərəfindən tikilib. Məsciddə eyni zamanda üç yüz adam ibadət edə bilər. Sovetlər dövründə məscid digər məqsədlərlə istifadə edilib. 1993-cü ildən onun məscid kimi fəaliyyəti bərpa edilib.

Şahhüseyn məscidində Quran və ərəb dili tədris olunur.



## QASIMBƏY MƏSCİDİ

Məscid Bakı şəhərinin 1 May küçəsindədir. Formaca kvadrat şəkillidir. Damı şiferlə örtülüb. Ön divarları daş plitə ilə üzlənib. Fasad tərəfdən məscid bir böyük tağdan ibarətdir. Tağın içərisində bir böyük və qövsşəkilli taxta qapı və üstündə iki pəncərə var. Bundan başqa, fasad tərəfdən giriş qapısının sağ tərəfində daha üç böyük pəncərəyə malikdir.

Qasımbəy məscidində heç bir yazı və kitabə yoxdur və hal-hazırda bağlıdır.



## HACI ƏJDƏRBƏY MƏSCİDİ



Məscid Bakının Səməd Vurğun küçəsindədir. Bünövrəsi 1912-1913-cü illərdə qoyulub. İç sahəsi 24x12 metrdir.

Məscid mülki mühəndis Zivər bəy Əhmədbəyovun layihəsi əsasında tikilib. Günbəzi göy rəngdə olduğuna görə ona xalq arasında "Göy məscid" də deyilir. Bu məsciddə görkəmli din alimləri və axundlar mollalıq etmişlər. Məscidin rəisi Hacı Əli İbrahimi Nəcəf şəhərində 22 il dini təhsil alıb.

Bakının digər məscidlərindən fərqli olaraq, bu məsciddə bütün islam məzhəblərinin nümayəndələri ibadət edirlər. Burada bütün dini mərasim və bayramlar mütəşəkkil surətdə keçirilir.



Hacı Əjdərbəy məscidinin içərisində və eləcə də bir çox yerində Qurandan ayə həkk olunub. Məscidin interyeri çox nəfis şəkildə işlənib və nəbati ornamentlərlə bəzədilib.

Sovetlərin ilkin dövrlərində kazarma kimi istifadə olunan bu məscidin 1944-cü ildə Təzə pir məscidi ilə yanaşı fəaliyyəti bərpa olunub.

Məscidin nəzdində dini təhsil də verilir. Burada Quran, ərəb və ingilis dilləri öyrədilməklə yanaşı, kompüter kursları da keçirilir.

Hacı Əjdərbəy İbrahimbəyovun (1275-1341 h.q.) qəbri məscidin girişində yerləşib.

## KƏRBƏLAYI ABDULLA MƏSCİDİ




Məscid Bakı şəhərinin mərkəzində, Dilarə Əliyeva küçəsi 155-də yerləşir. Darvazanın üstündəki daş kitabəyə əsasən, bu məscid hicri-qəməri təqvimi ilə 1336-cı ildə inşa olunub. Lakin məscidin ibadət zalının əsas giriş qapısının üstündə həkk olunan digər kitabədə hicri-qəməri təqvimi ilə 1311-ci il tarixi göstərilib.

Vaxtilə Hacı Pirverdi tərəfindən tikilən bu məscid Sovetlər dövründə turbaza, layihə bürosu, habelə karton fabriki kimi istifadə olunub. 1992-ci ildən etibarən yerli möminlərin təşəbbüsü ilə məscidin fəaliyyəti bərpa edilib.



Məscidin minarəsi yoxdur, minbəri isə dördpillədir. İbadət zalının iç sahəsi 170 kv.metr, yerdən tavana qədər hündürlüyü 5 metrdir. Divarları yonulmuş sal daşlarla işlənmiş bu məscidin divarlarının qalınlığı 1,10 metrdir.

Hal-hazırda məscidin mədrəsəsi üçün nəzərdə tutulmuş bina başqa məqsədlərlə istifadə edilir. Yerli möminlərin təşəbbüsü, eləcə də məscidin Hacı Pirverdi tərəfindən tikildiyi nəzərə alınaraq onun adının dəyişdirilməsi nəzərdə tutulub.

Məscidin axundu Ağasəlim Məmmədağaoğludur.



## HACI CAVAD MƏSCİDİ



Bakı şəhərinin mərkəzində, Ç.Mustafayev küçəsində yerləşən bu məscid düzbucaqlı formaya malikdir. Məscidin minarəsi, minbəri yoxdur. Mehrabı tağvari formada olub, sadədir. İç sahəsi 12x18 metr, yerdən tavana qədər hündürlüyü 6 metr, yerdən günbəzədək isə 9 metrdir. Günbəzində 2 gözlük qoyulub.

Yerli camaatın bildirdiyinə görə, bu məscidi tikdirən Hacı Cavad tacir olub. Məscidin əvvəlki giriş qapısının üstündə isə 3 daş kitabə həkk olunub Həmin kitabələrdən birinə əsasən məscidin inşa tarixi hicri-qəməri təqvimi ilə 1305-ci ilə aiddir.

Divarlarının qalınlığı 1 metr olan bu məscid yonulmuş sal daşlarla tikilib. Fasad divarlar suvanmayıb, iç divarlar isə suvanaraq ağardılıb. Hal-hazırda məscid möminlərin istifadəsində olsa da, bərbad vəziyyətdədir və təmirə böyük ehtiyac duyulur.

Məscidin axundu Hacı Namiq Tofiqoğludur.

## NƏRİMANOV RAYON CÜMƏ MƏSCİDİ



Məscid Nərimanov rayonu, Ülvi Bünyadzadə küçəsi 766-cı məhəllədə yerləşir. 1997-ci ildə bünövrəsi qoyulan bu məscidin tikintisi 1998-ci ildə başa çatdırılıb. Bununla belə, hal-hazırda da burada inşaat işləri davam etdirilir.

Nərimanov rayon Cümə məscidi Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin vəsaiti hesabına inşa edilib. Memarı akademik Tələt Xanlarov olan bu məscid yerli ustalar tərəfindən tikilib.

Bütövlükdə məscidin tikintisində mişar daşı və betondan istifadə olunub. Məscidin alt mərtəbəsinin birinci ibadət zalının iç sahəsi 216 kv.metr, ikincinin iç sahəsi 313,29 kv.metrdir. Məscidin ibadət zalı 625 möminin eyni vaxtda ibadət etməsinə imkan verir.

Qoşa minarəyə malik olan Cümə məscidinin minarələrinin hündürlüyü 31 metrdir. Minarələr də mişar daşından ucaldılıb. Qübbəsi isə betondur. Minarələr həmçinin fasad tərəfdən daş plitələrlə üzlənib. O cümlədən, məscidin əsas binası daş plitələrlə üzlənib. Minarələrin diametri isə 2,60 sm.-dir.

Məscidin ikinci mərtəbəsinin ibadət zalının sahəsi isə 180 kv.metrdir. Burada daha 360 nəfərin ibadət etməsi mümkündür. Xatırladaq ki, ikinci mərtəbə qadınlar üçün nəzərdə tutulub. İbadət zalının zirzəmi hissəsinin sahəsi isə 265 kv.metrdir. Cümə namazı vaxtlarında buradan da istifadə olunur.

Məscidin imamı Qamət Süleymanov, axundu isə Cəbrayıl Əbdüloğludur. Nərimanov rayon Cümə məscidinin sədri isə Eldar Misiroğludur.

## KEŞLƏ QƏSƏBƏ MƏSCİDİ



Məscid Bakının Keşlə qəsəbəsində inşa olunub. İç sahəsi 10x10 metr, ümumi məscidə məxsus sahə 25x45 metrdir.

Keşlə qəsəbə məscidi XVII əsrə aid abidə hesab olunur. O, Şah Abbas tərəfindən tikdirilib. Giriş qapısının üstündə ərəbcə daş kitabə yazılıb. İbadət zalı dörd böyük tağdan ibarətdir. Tağlar məscidin dairəvi formada olan günbəzi ilə qovuşur. Günbəzin aşağı hissəsi 12 guşəlidir. Bu da on iki imama işarə xarakteri daşıyır. Mehrab və minbər yonulmuş sal daşlardan düzəldilib. Məscidin pəncərələri yüksək sənətkarlıqla düzəldilib. İki laydan ibarət olan pəncərələrin birinci layı taxta, ikinci layı isə bütöv yonulmuş daşla işlənib. Daşlar kiçik-kiçik dairəvi boşluqlardan ibarətdir.

Bu məscid də başqa məscidlər kimi sovetlər dövründə fəaliyyət göstərməmiş və yalnız 1989-cu ildən fəaliyyəti bərpa edilmişdir.

## İMAM RZA MƏSCİDİ



Məscid Bakı şəhəri Bakıxanov qəsəbəsinin Sülh küçəsində yerləşir. Bünövrəsi 1993-1994-cü illərdə qoyulub. Ümumi sahəsi 150x70 metr, iç sahəsi isə 80 kv.metrdir.

Forma etibarilə kvadrat şəkillidir. Bu məsciddə 100 nəfər (qadın və kişi) möminin ibadət etməsinə şərait var.

Bundan əlavə, məscidin həyətində yeni bir bina da tikilir. Layihəyə görə, bu bina iki mərtəbəli bir məscid olacaq. Minarəsinin hündürlüyü isə 35 metrə çatacaq. Burada kitabxana, nikah otağı və sair otaqların inşa edilməsi də nəzərdə tutulub. Yeni məscidin layihəsi Tələt Xanlarova məxsusdur.

Hal-hazırda məscidin nəzdində mədrəsə də fəaliyyət göstərir.

## SABUNÇU QƏSƏBƏSİ CÜMƏ MƏSCİDİ



Məscid qəsəbənin qədim hissəsindədir. Məscid binası 1897-ci ildə Əli bəy Aşurbəyov tərəfindən tikilmişdir. Məscidin ibadət zalının iç sahəsi 16x19 metr, yonulmuş sal daşlardan hörülmüş divarların qalınlığı isə 1 metrdir.

Məscid 1937-ci ildən 1992-ci ilədək müxtəlif məqsədlərlə (anbar, sex kimi) istifadə olunmuş və habelə, iki dəfə yanğına məruz qalmışdır. 1992-ci ildən başlayaraq məsciddə təmir-bərpa işləri aparılmaqdadır.

Sabunçu qəsəbəsi Cümə məscidi iki mərtəbədən ibarət olub, kifayət qədər geniş ibadət zalına malikdir. Birinci mərtəbədəki sütunların qalınlığı 2,5 metr olub, sal daşlardan tikilmişdir. Sütunlar 12 ədəd tağla bir-biri ilə birləşib. Mehrabı isə məscidin mərkəz hissəsindədir və hündürlüyü 5 metrdir. Yerdən günbəzədək hündürlüyü 10 metrdir. Günbəzin diametri 6 metrdir. İbadət zalına xüsusi bəzək verən çilçıraq (çəkisi 450 kq-a yaxındır) dərhal diqqəti cəlb edir. Məscidin minbəri usta Abbas tərəfindən düzəldilib.

1992-ci ildən bu günə qədər burada təmir və bərpa işləri aparılır. Tikinti işləri üzrə nəzarətçi İqdam Əlifəhmi oğlu, məscidi təmir və bərpa etdirən isə Məhəmmədkərim Məhəmmədtağı oğludur.



## İMAM CƏFƏR SADİQ MƏSCİDİ



Məscid Bakının Bakıxanov qəsəbəsinin Bünyadzadə-7 küçəsində yerləşib. İnşa tarixi 1995-1997-ci illərə aid olunur. Sahəsi 90 kv.metrdir.

Bu məscid sadə quruluşa malikdir və formaca kvadrat şəklindədir. Məsciddə mehrab əvəzinə Kəbənin təsvirindən istifadə edilib. İbadət zalının sahəsi 40 kv.metrdir. Məscid dörd minarəyə malikdir. Onların hər birinin hündürlüyü 10 metrdir. Minarələrin üst hissəsində yazılar qeyd olunub. Hər bir minarənin başında dəmirdən aypara rəmzi qoyulub.

Məscidin fasad divarlarında müxtəlif kəlamlar yazılıb ki, bunlar da məscidi tikdirən Hacı Fərhada məxsus kəlamlardır.

## HACI SALEH GÜRKAN MƏSCİDİ



Məscid Bakının Bakıxanov qəsəbəsinin Gənclik küçəsində inşa edilib. Tikintisinə 1994-cü ildən başlanıb. Ümumi sahəsi 1400 kv.metr, iç sahəsi 400 kv.metrdir.

Hacı Saleh Gürkan məscidi Türkiyə Diyanət Vəqfinin "Gintaş A-8" müəssisəsi tərəfindən inşa edilib. Məsciddə eyni zamanda 600 nəfər möminin ibadət etməsi mümkündür. Bina Osmanlı memarlıq üslubunda tikilib. Vəqf tərəfindən tikinti işinə 315 min dollar xərclənib. Tikinti üçün Hacı Saleh Gürkan tərəfindən 85 min dollar xərclənmişdir.

Məscidin ön divarında-"Allah, Məhəmməd, Əbubəkr, Ömər", sağ tərəfdə "Osman, Həsən", sol tərəfdə "Əli, Hüseyn" adları yazılıb. Binanın iç divarında 3 metr hündürlükdə "Bəqərə" surəsinin 255-ci ayəsi həkk edilmişdir. Mehrabın üstündə, eləcə də sağ və sol tərəfində də yazılar həkk olunub. Məsciddəki şəbəkəli pəncərələr ona xüsusi gözəllik verir. İçəridə imam üçün otaq da var. Məscidin tavanı nəbati ornamentlərlə işlənib. Mehrabdakı kaşı işləmələr nəzər-diqqəti cəlb edir. Minbər taxtadan düzəldilib və doqquz pillәlidir. Yuxarısında "Allah", aşağısında "Bismillah" qeyd olunub.



Minarənin hündürlüyü 24 metrdir. Minarənin birinci hissəsi (4 metr) kvadrat şəkillidir, sonra səkkizguşəli kəmər, daha sonra isə səkkiz metrlik sütun hissə və nəhayət, yenə də kəmər hissə gəlir. Ondan yuxarı hissə stalaktitlərlə işlənib. Minarənin şərəfə hissəsi bayır tərəfdən həndəsi ornamentlərlə işlənib. Şərəfədən yuxarı da yenə də 4 metrlik sütun və nəhayət, ucu sivri olan dəmir təbəqə ilə örtülüb. Minarənin lap yuxarısında dəmirdən aypara rəmzi qoyulub.

## SAHİBƏZZAMAN MƏSCİDİ



Bakı şəhəri, 8 km. qəsəbəsində yerləşən bu məscidin bünövrəsi 1996-cı ildə qoyulub. Həyətyanı sahəsi 45x75 metr, öz sahəsi isə 27 kv.metrdir.

Sahibəzzaman məscidi forma etibarilə düzbucaqlı şəklindədir. Divarları mişar daşı ilə hörülüb. Günbəzi qırmızı kərpiclə işlənib. Günbəzin diametri 3 metrdir və onda dörd ədəd gözlük qoyulub. Yerdən günbəzədək 6 metrdir. Məscidin öz hündürlüyü isə 4 metrdir. Döşəməsi və tavanı betondur.

Sahibəzzaman məscidində eyni zamanda 40 nəfər adam ibadət edə bilər.

## YENİ SURAXANI QƏSƏBƏSİ CÜMƏ MƏSCİDİ



Məscid Bakının Yeni Suraxanı qəsəbəsindədir. Bünövrəsi 1992-ci ildə qoyulub. Həyətyanı sahəsi 2000 kv.metr, əsas ibadət zalının sahəsi 14x14 metrdir.

Məscid mişar daşlarından tikilərək yonulmuş üzlük daşlarla üzlənib. Minarəsi (hündürlüyü təqribən 25 metrdən çoxdur) də mişar daşından hörülüb və üzlənib. Məscidin layihəsi Azərbaycan Dövlət Layihə İnstitutu tərəfindən hazırlanıb. Məscid kənd ağsaqqallarının təşəbbüsü və camaatın vəsaiti hesabına tikilir. Buradakı inşaat işləri müxtəlif tikinti təşkilatları tərəfindən həyata keçirilir, iş icraçısı isə usta İbrahimovdur.

## ƏHMƏDLİ KƏND CÜMƏ MƏSCİDİ



Məscid Bakının Əhmədli kəndində inşa olunub. İnşa tarixi hicri-qəməri təqvimlə 1324-cü ilə aiddir. Ümumi sahəsi 264 kv.metr, həyətyanı sahəsi 240 kv.metrdir.

Məscidin vaxtilə tikilən variantı kiçik bir sahəyə- 80 kv.metrə malik olub.

Əhmədli kənd Cümə məscidi yonulmuş sal daşlardan tikilib. Divarların qalınlığı 1 metrdir. Kişilər şöbəsinin sahəsi 180 kv.metr, qadınlar şöbəsinin sahəsi 84 kv.metrdir. Sovetlər dövründə məscid müxtəlif məqsədlər üçün istifadə olunub. Bundan sonra təmir-bərpa işləri aparılaraq fəaliyyətə başlayıb. 1997-ci ildə yenidən məsciddə bərpa işlərinə başlanılıb.

Əhmədli kənd Cümə məscidinin interyeri sadə şəkildə işlənib. Günbəzin diametri 5 metrdir. Günbəzin dairəvi hissəsində "Kəlmeyi-təyyubə" yazılıb. Günbəz nəbati ornamentlərlə işlənib. Günbəzdə səkkiz pəncərə qoyulub. Mehrab yonulmuş daşlarla işlənib. Mehrabın üstündə daş kitabə həkk edilib. Məscidin giriş qapısının üst tərəfində dörd daş kitabə həkk olunub. Onlardan birində məscidin tarixi göstərilib. Əsas ibadət zalının tavanı dörd sütun üzərində dayanıb. Sütunlar tağlar vasitəsilə bir-birinə birləşib.

Məscidin üç yardımçı otağı da vardır.





## "ƏLİ AYAĞI" ZİYARƏTGAHI



Ziyarətgah Bakının Yeni Günəşli ilə Zığ kəndi arasındadır.

Camaatın bildirdiyinə görə, ziyarətgah qədəmgahdan və namazxanalardan ibarətdir. Qədəmgah konusşəkilli olub, döşəməsi daş plitə, tavanı isə güzgü ilə işlənib.

1988-ci ildən burada yeni tikinti işlərinə başlanılıb. Belə ki, mətbəx, kitabxana, qadınlar və kişilər üçün hücrələr tikilib. Burada namaz qılınmaqla yanaşı, dini mərasimlər də keçirilir. Qədəmgahın sahəsi 16 kv.metr, hündürlüyü 3,5 metrdir. Qədəmgahda Həzrət Əlinin dəvəsinin ayağının izi qorunub saxlanılır.

## BİLƏCƏRİ QƏSƏBƏ MƏSCİDİ



Məscid Bakının Biləcəri qəsəbəsində yerləşir. Bünövrəsi 1648-ci ildə (XVII əsr) qoyulub. İç sahəsi 148 kv.metr, ümumi sahəsi isə 300 kv.metrdir.

Sovetlər dövründə bağlanaraq mağaza və anbar kimi istifadə olunub. 1988-ci ildə məscidin fəaliyyəti bərpa edilib. Bu zaman məsciddə təmir-bərpa işləri aparılıb.

Biləcəri qəsəbə məscidinin divarları hər iki tərəfdən qum-sementlə üzlənib.

Məsciddə üç daş kitabə həkk olunub. Bundan əlavə, məscidin həyət qapısından sağ tərəfdə-divarda daha bir kitabə vardır.

## BİNƏQƏDİ KƏND CÜMƏ MƏSCİDİ



Məscid Bakı şəhərinin Ramazan küçəsində tikilib. Məscidin giriş hissəsindəki kitabədə h.q. 1327-ci il, mehrabın üstündəki kitabədə 1324-cü il tarixi, minarədə isə 1333-cü il tarixi qeyd olunub. Mehrabın üstündəki kitabədə "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən və Hüseyn" sözləri yazılıb. Əsas ibadət zalının sahəsi 225 kv.metr, qadınlar şöbəsinin sahəsi isə 75 kv.metrdir.

Bu məscid 1937-ci ildə bağlanaraq sovxozun sərəncamına verilib və anbar qismində istifadə olunub. Daha sonra xalça sexinə çevrilib. 1973-cü ildə isə yandırılıb. 1985-ci ildə məscid kimi fəaliyyəti bərpa olunub. 1987-1992-ci illərdə burada təmir-bərpa işləri aparılıb. Təmir və bərpa işləri kənd sakinlərinin təşəbbüsü və mərhum Hacı Məhəmmədin (66 yaşında rəhmətə gedib) başçılığı ilə həyata keçirilib. Qeyd edək ki, vaxtilə Milli Məclisin deputatı olan mömin Hacı Madər də bu məscidin tikintisinə yaxından köməklik edib. O, həmçinin məscidə 13 kiçik və 1 böyük çılçıraq, habelə 42 xalça hədiyyə etmişdir ki, indi həmin məsciddə istifadə olunur.



Məscidin içərisində dörd sütun vardır. Sütunlar tağlarla bir-birinə birləşib. Sanki günbəz də bu sütunlar üzərində dayanıb. Minbəri səkkizpillədir. Məscidin minarəsinin hündürlüyü 32 metrdir. Minarənin şərəfəsinin altında Qurandan ayələr həkk olunub. Burada həmçinin, "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn" sözləri həkk edilib. Minarə 1918-ci ildə ermənilər tərəfindən top atəşinə məruz qalaraq zədələnib. Zədənin əlaməti indi də görünür.

Məscidin axundu Hacı Şahbala Şahbaba oğludur.

## BUZOVNA CÜMƏ MƏSCİDİ



Bu məscid Bakının Buzovna qəsəbəsinin mərkəzində yerləşib. Məscidin ilk dəfə olaraq tikintisinə 1900-cü ildə kənd sakini İmralı tərəfindən başlanılıb. Lakin həmin dövrdə baş vermiş erməni -müsəlman müharibəsi bu məscidin tikintisinin başa çatdırılmasına imkan verməyib. İkinci dəfə məscidin tikintisinə 1918-ci ildə başlanılmış, ancaq yenə də yarımçıq qalmışdır. Üçüncü dəfə 1990-cı ildə bu məscidin tikintisinə başlanılsa da, hələ də inşaat işləri başa çatdırılmayıb. İndinin özündə də məsciddə tikinti işləri aparılmır və bu məscid demək olar ki, istifadəsiz qalıb.

Bütün bunlara baxmayaraq memarlıq üslubu nöqteyi-nəzərindən Buzovna Cümə məscidi özünəməxsus xüsusiyyətlərə malikdir. Məscid bütövlükdə sal daşlardan tikilib, fasad tərəfdən isə daş plitələrlə üzlənib. Bu məscidin minarəsi və günbəzi yoxdur. Tavanı düzbucaqlı formada olub, damının örtüyü qırla işlənib. Məsciddə aparılan sonrakı təmir-bərpa işləri zamanı onun memarlıq üslubuna da xələl gətirilib. Bunu məscidin mehrabının yuxarı hissəsinin damın üstündə qalması da sübut edir. Bu məscidin fasad tərəfində, eləcə də iç divarlarında ərəbcə daş kitabələr həkk edilib. Mehrabın üstündə isə "La İlahə İlləllah, Məhəmmədən rəsulullah" sözləri yazılıb.

## SEYİD QASIM TÜRBƏSİ



Türbə Buzovna qəsəbəsində (qəbristanlıqda) inşa olunub.

Giriş qapısı üstündə daş kitabə həkk olunub. Kvadrat formaya malik olan bu türbə yonulmuş daşlardan tikilib. Sahəsi 3,5x5 metr, yerdən tavanadək olan hündürlüyü 3,5 metrdir. Günbəzin diametri 2,5 metrdir.

Türbənin sərdabə hissəsinin ortasında Seyid Qasımın qəbri yerləşib. Ondan başqa, burada daha üç qəbir yerləşib. Qəbirlərin üstündə daş kitabələr yazılıb.

Bu türbəyə xalq arasında Seyid Qasım türbəsi deyilir. Deyilənə görə, Seyid Qasım yeddinci İmam Museyi Kazimin oğludur.

Seyid Qasım türbəsini 1641-ci ildə usta Pərviz inşa edib. Onu tikdirən isə buzovnalı qadın Bəkixan olub.

## TƏRSA PİRİ



Məscid Buzovna qəsəbəsində yerləşir. Xalq arasında "Tərsa piri" və "Nəsrani məscidi" adlandırılan bu abidə III əsrə aid olunur.

Bu pir hazırda sökülüb dağılıb. Onun yerində yalnız xarabalıqları-iki sökük tağ qalıb. Bu abidə Abşeronda Qafqaz Albaniyasına aid yeganə məbəd hesab olunur.



## HACI SEYİD ƏLİ TÜRBƏSİ



Türbə Buzovna qəsəbəsinin qəbristanlığındadır.

Düzbucaqlı formaya malikdir və yonulmuş sal daşlardan tikilib.

Abidənin sahəsi 3x3 metrdir. Yerdən günbəzədək hündürlüyü təxminən 5 metrdir. Giriş qapısının üstündə daş kitabə həkk olunub. Əli və onun həyat yoldaşı Hacı Xədicə Baba qızına məxsusdur.

## MƏŞƏDİ QƏRİB MƏSCİDİ



Məscid Buzovna kəndində, Natəvan küçəsi 73-də inşa olunub. İnşa tarixi 1876-cı ilə (XIX əsr) aiddir. İç sahəsi 17x7 metrdir.

Buzovnalı xeyriyyəçi Məşədi Qərib tərəfindən tikilib. Məscid 1933-cü ilə qədər fəaliyyət göstərib. Məscid düzbucaqlı formaya malikdir. Tavanı 4 sütun üzərində dayanıb. Giriş qapısının üzərində ərəb əlifbası ilə yazılmış kitabə ilkin formasını saxlayıb. Kitabədə "Kəlmeyi-teyyubə" və məscidi inşa edən ustanın adı qeyd edilib. Divarda "Ayətül-Kürsü" yazılıb. Divarlarda başqa yazılar da var. Məscidin hündürlüyü 5 metrdir. Tavanı taxta, döşəməsi isə əhənglə işlənib. Damın örtüyü şiferdir.

## İMAM HƏSƏN MƏSCİDİ



Məscid Bakının Buzovna kəndinin yuxarı məhəlləsində tikilib. Miladi təqvimlə 1840-cı ildə inşa olunub. İç sahəsi 4x21 metrdir.

Məscidin divarları yonulmuş sal daşlardan hörülüb. Divarların qalınlığı 1 metrdir. Məscidin içərisində heç bir kitabə yoxdur. Əsas giriş qapısının üstündə iki daş kitabə həkk olunub. Məscidin iki giriş qapısı və üç pəncərəsi var. Qadınlar şöbəsi ikinci mərtəbədədir. Qadınlar şöbəsinin altında yardımçı otaqlar yerləşib. Məscidin interyeri sadə quruluşa malikdir. 1937-ci ildən 1994-cü ilə qədər məscid bağlı olmuş və istifadə edilməmişdir. 1993-cü ildən etibarən burada təmir-bərpa və abadlıq işləri aparılıb. Bu zaman eyvan, dəstəmazxana və s. tikilib.

## İMAM HÜSEYN MƏSCİDİ



Məscid Buzovna kəndinin Naxır bulağı məhəllesindədir. İnşa tarixi XVII əsrə aiddir. İç sahəsi 24x5 metrdir.

İmam Hüseyn məscidinin divarları yonulmuş sal daşlardan işlənib. Divarların qalınlığı 1,10 metrdir. Məscidin interyeri çox sadə rekonstruksiyada olub, iki giriş qapısına və üç pəncərəyə malikdir. Əsas qapıdan içəridə dəhliz yerləşib. Məscidin ön tərəfində geniş eyvan var. Onun sahəsi 4x18 metrdir. Mehrabın hündürlüyü 2 metrdir. Mehrabın üstündə rənglə ərəbcə "Allah, Məhəmməd" sözləri, daha yuxarıda isə "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn" sözləri yazılıb. Ortada da ərəbcə yazılar həkk olunub.

Məscidin giriş qapısının fasad tərəfində ərəb və kiril əlifbası ilə "İmam Hüseyn" məscidi sözləri yazılıb.

## "ƏLİ- AYAĞI" MƏSCİD- ZİYARƏTGAHI





Ziyarətgah Bakı şəhərinin şəhər tipli qəsəbəsi olan Buzovnada yerləşir.

Qeyd edək ki, son illər xalqımızın həyatında özünü dərketmə məscidlərin, dini məbədgahların bərpası kimi proseslərin güclənməsi ilə səciyyələnir. Belə məscid-ziyarətgahlardan biri də məhz bu qəsəbədə yerləşən və müsəlman aləmində böyük nüfuzu olan Həzrət Əli (ə) qədəmgahı, "Əli-ayağı" məscid-ziyarətgahıdır. Vaxtilə burada dindarların namaz və başqa dini ayinləri icra etmələri üçün məscid, habelə zəvvarlar üçün karvansaralar fəaliyyət göstərib. Qədəmgaha vaxtilə Təbriz, Dəməşq, Səmərqənd, Daşkənd, Kəlkütte və dünyanın digər iri ticarət - iqtisadi məskənlərindən gələrmişlər.

Xalq arasında qədəmgah barəsində müxtəlif tarixi rəvayətlər və xatirələr danışılır. 30-cu illərin kütləvi repressiyaları isə milli mədəniyyətimizə böyük ziyan vurmuşdur. Əksər dini abidələr kimi, buradakı tikililər də vəhşicəsinə dağıdılmışdır. Lakin bütün səylərə baxmayaraq, Həzrət Əli (ə) ləpiri olan kiçik tikilini məhv etməyə nail ola bilməmişlər. Qədəmgahın bu günədək qorunub saxlanılmasında yerli insanların da böyük rolu olmuşdur.

Bu qədəmgaha ziyarətə gələnlər Həzrət Əlinin (ə) ayaq ləpirinin izini öpməklə və dua etməklə müxtəlif xəstəliklərdən şəfa tapırlar.

1987-ci ildə yerli camaatın təşəbbüsü ilə qədəmgahda bərpa və yenidənqurma işlərini aparmaq üçün buzovnalı Məşədi Arif Əhməd oğlu bu müqəddəs ziyarətgahın şeyxi təyin olunur. Məhz şeyxin və xalqımızın xeyirxah övladlarının köməyi sayəsində burada məscid, zəvvarlar üçün yataq otaqları, hər cür məişət avadanlıqları ilə təmin olunmuş mətbəx, dərs otaqları, zəngin kitabxana, sallaqxana, qaraj, qadınlar və kişilər üçün dəstəmazxana və s. lazımi xidmət otaqları istifadəyə verilib.



## SAHİBƏZZAMAN MƏSCİDİ



Məscid Buzovna qəsəbəsində inşa edilib. İnşa tarixi XVII əsrə aiddir. İç sahəsi 125 kv.metrdir.

Sahibəzzaman məscidi düzbucaqlı formaya malikdir. Damı şiferlə örtülüb. Yerdən tavanadək hündürlüyü 4 metr, yerdən günbəzədək 7,8 metrdir. Günbəzin diametri 3,5 metrdir. Günbəzdə üç pəncərə qoyulub.

Bu məscid də başqa məscidlər kimi, sovetlər dövründə bağlı qalıb. 1991-ci ildə burada təmir-bərpa işləri aparılmış və məscid fəaliyyətə başlamışdır.

Məscid Abbasqulu ağa Bakıxanovun ana babası Hacı Məlik Məmmədxan Hacı Əmir Məhəmməd oğlu tərəfindən tikilib.

## ŞEYX CAVAD TÜRBƏSİ





Türbə Buzovna qəsəbəsinin mərkəzi hissəsində (Orta məhəllədə) yerləşir.

Abidə düzbucaqlı formaya malikdir və mişar daşından tikilib. İçərisində Şeyx Axund Cavadın qəbri və başqa bir qəbir yerləşib. Burada bir daş kitabə həkk olunub. Bundan əlavə, giriş qapısı ilə üzbəüz divarda-mərmər üzərində kəsmə üsulu ilə daş kitabə də həkk olunub. Abidənin iç sahəsi 3x3 metr, yerdən tavanadək hündürlüyü 3,5 metr, yerdən günbəzədək hündürlüyü 6 metrdir.

## SEYİD GÜLŞƏN TÜRBƏSİ



Türbə Buzovna qəsəbəsinin qəbristanlığındadır. Düzbucaqlı formaya malikdir. Abidə jonulmuş daşlardan tikilib. İç sahəsi 10 kv.metrdir. Giriş qapısının üstündə ərəb və kiril əlifbası ilə "Seyid Gülşən" sözləri yazılıb. İçəridə bir qəbir yerləşib. Qəbrin baş və sinə daşında heç bir kitabə yoxdur . Seyid Gülşən türbəsinin yerdən tavanadək hündürlüyü 2,5 metr, günbəzədək hündürlüyü isə 4,5 metrdir.

## QARAPALTAR PİRİ



Türbə Buzovna qəsəbəsində inşa olunub. Yerli əhali türbəni bu gün "Qarapaltar" piri adlandırır. Pirin tarixi 1306-cı ilə aid olunur.

Formaca düzbucaqlı şəklində olan pir-abidə həjətdə yerləşib. Giriş qapısında daş kitabə var.

Camaatın bildirdiyinə görə, vaxtilə burada-pirin içərisində qəbirlər olub. Lakin hal-hazırda qəbirlərdən əsər-əlamət belə yoxdur.

## CİN MƏSCİDİ

Yerli camaatın bildirdiyinə görə, vaxtilə Buzovna kəndində Cin məscidi də olub. Buraya yerli sakinlər "Püstə ağacı" da deyərmişlər. Bu məscid təxminən keçən əsrin 60-cı illərində yerlə-yeksan edilib. Hazırda məscidin yerində onun yalnız daş qalıqları qalır.

## BİNƏ KƏND HACI SƏLİM MƏSCİDİ



Məscid Bakının Binə kəndinin mərkəzindədir. İnşa tarixi dəqiq məlum deyil. Belə ki, mövcud kitabələrdən birində h.q. təqvimi ilə 1299-cu il, o birində isə 1333-cü il göstərilib. İç sahəsi 14x15 metrdir.

Binə kənd Hacı Səlim məscidi özünəməxsus memarlıq üslubunda tikilib. Belə ki, burada divarlar sütun rolunu oynayır. Günbəz də divarların üzərində dayanıb. Yerdən günbəzədək hündürlüyü 19 metrdir. Günbəzin diametri 14 metrdir. Onda 16 dairəvi pəncərə qoyulub. İbadət zalında da səkkiz tağşəkilli pəncərə var. Məscidin minbəri yeddipilləli olub, daşdan düzəldilmişdir. Minbərin üzərində hicri-qəməri tarixi ilə 1330-cu il qeyd edilib. Minbərin ustası isə usta Sadiqdir. Mehrabı isə yonulmuş sal daşlardan işlənib və hündürlüyü 6 metrdir. Mehrabın yuxarı hissəsi isə stalaktitlərlə işlənib.

Binə kənd Hacı Səlim məscidi iki mərtəbədən ibarətdir. İkinci mərtəbə qadınlar üçün nəzərdə tutulub və sahəsi 40 kv.metrdir. Birinci mərtəbədə də qadınlar üçün yer ayrılıb. Binə kənd Hacı Səlim məscidi Səlim Mövsümov tərəfindən tikilib və onun adını daşıyır.





## FATİMEYİ-ZƏHRA MƏSCİDİ



Fatimeyi-Zəhra məscidi aeroporta çatmamış yolun sağ tərəfində yerləşir. Məscidin bünövrəsi 1996-cı ildə qoyulub. Kişilər şöbəsinin sahəsi 140 kv.metr, qadınlar şöbəsinin sahəsi isə 65 kv.metrdir.

Məscid və habelə günbəzi mişar daşından tikilib. Günbəzin hündürlüyü 9 metr, yerdən günbəzədək də 9 metrdir. Beləliklə, yerdən günbəzin yuxarısına qədər hündürlüyü 18 metrdir. Minarə (hündürlüyü 32 metrdir) də mişar daşından hörülüb.

Fatimeyi-Zəhra məscidinin bəzi özünəməxsus cəhətləri vardır. Belə ki, onun günbəzi mövcud məscidlərin günbəzindən xeyli böyükdür. Günbəzdə iki təbəqəli pəncərələr qoyulub.

## MƏŞƏDİ KAZIM MƏSCİDİ



Binə kəndində yerləşən bu məscidin tarixi hicri-qəməri təqvimlə 1260-cı ilə aiddir. Sahəsi 9x4,5 metrdir.

Məşədi Kazım məscidinin adı onu tikdirən Məşədi Kazımla bağlıdır. Məscid binası yonulmuş sal daşlardan tikilib.

Hal-hazırda məscidin yeni hissəsi tikilməyə başlayıb. Onun sahəsi 10x10 metrdir.

## PİR HƏFTƏXAR



Pir köhnə Bilgəh kəndinin qurtaracağındadır. Abidə düzbucaqlı formadadır. Abidənin içərisində iki qəbir var. Deyilənlərə görə, bu qəbirlər İmam Museyi-Kazımın qızı Leyla və İmam Rzanın üç yaşlı qızının qəbridir. Pir uzun müddət bağlı olmuş və nəhayət, 1988-ci ildə təmir işləri aparılaraq əvvəlki kimi ziyarətgaha çevrilmişdir.

Pirin həyətyanı sahəsi 350 kv.metr, iç sahəsi isə 85 kv.metrdir. Son təmir zamanı buradakı tikililərin sahəsi xeyli genişlənmiş və abadlaşmışdır.

Abidənin tarixi hicri-qəməri təqvimi ilə 220-ci ilə aid olunur. Abidənin divar daşlarından onun çox qədimliyini hiss etmək mümkündür. Buraya Azərbaycanın müxtəlif yerlərindən, habelə İrandan ziyarətə gəlirlər.

## BİLGƏH KƏND MƏSCİDİ



Məscid Bakının Bilgəh kəndindədir. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1310-cu ilə aiddir. Əsas ibadət zalının sahəsi 12x12 metrdir.

Bilgəh kənd məscidi yonulmuş sal daşlardan tikilib. Məscidin əsas giriş qapısından içəridə dəhliz yerləşib. Dəhlizin sağ və sol tərəfində yardımçı otaqlar yerləşib. İbadət zalı iki hissəyə-kişilər və qadınlar şöbəsinə ayrılıb. Qadınlar şöbəsi iki mərtəbəlidir. Hər mərtəbənin sahəsi 36 kv.metrdir. Tavan sütunlar üzərində dayanıb. Sütunlar tağlarla bir-birinə birləşib. Yerdən tavanadək hündürlüyü 7 metr, yerdən günbəzədək isə 10 metrdir. Günbəzdə iki gözlük qoyulub. Məscidin mehrabı üzərində ərəb dilində daş kitabə həkk olunub.

Sovetlər dövründə bağlanaraq anbar kimi istifadə olunub. 1989-cu ildə məscid təmir olunaraq fəaliyyəti bərpa edilib. Təmir-bərpa işləri zamanı məscid üçün eyvan da tikilib.

## YUXARI MƏSCİD



Məscid Bilgəh kəndində yerləşir. İnşa tarixi XIX əsrə aiddir.

Həyətyanı sahəsi 600 kv.metr, İç sahəsi 15x4 metrdir.

Yuxarı məscid düzbucaqlı formadadır. Divarlarının qalınlığı 80 sm.-dir. Məscidin interyeri, eləcə də günbəzi sadə konstruksiyaya malikdir. Günbəz iki tağ üzərində dayanıb. Diametri 4 metrdir. Yerdən tavanadək hündürlüyü 3,5 metr, yerdən günbəzədək isə 6 metrdir. Günbəzdə üç pəncərə qoyulub.

Məscidin içəri hissəsi iki yerə-kişilər və qadınlar şöbəsinə bölünüb. Qadınlar şöbəsinin sahəsi 4x4 metrdir (16 kv.metrdir).

Məscidin əsas giriş qapısının üstündə daş kitabə həkk olunub. Daş kitabədə hicri-qəməri təqvimi ilə 1323-cü il, məscidin ön divarlarına vurulmuş dəmir lövhədə isə XIX əsr abidəsi olduğu göstərilib.

## BALAXANI KƏND CÜMƏ MƏSCİDİ



Məscid Bakının Balaxanı kəndindədir.

Əsas ibadət zalının sahəsi 16x11 metr, qadınlar şöbəsinin sahəsi 11x9 metrdir.

Həyətyanı sahəsi yaşıllıqlara qərq olub. Məscid binası və həyətində yüksək səliqə-səhman yaradılıb. Həyət daş plitələrlə döşənib.

Balaxanı kənd Cümə məscidinin ilkin variantında minarə olmamışdır. Hazırkı minarə yonulmuş sal daşlardan tikilib və 1995-1996-cı illərdə ucaldılıb.

Məscidin qadınlar və kişilər şöbəsinin arakəsməsi taxta şəbəkə ilə işlənib. Mehrab nəbati ornamentlərlə bəzənib və üzərində səkkizguşəli ulduzlar işlənib. Minbər 1994-cü ildə düzəldilib və taxtadandır.

Əsas ibadət zalının divarlarında "Fatihə" və "Bəqərə" surələrindən ayələr yazılıb.

Məscidin İçərisində qorunub saxlanan daş kitabədə 1290-cı il tarixi həkk olunub. Bu məscid 1937-1989-cu illərdə mədəniyyət evi kimi fəaliyyət göstərib. 1989-cu ildən etibarən fəaliyyəti bərpa olunub.



## QƏRİBLƏR MƏSCİDİ



Məscid Bakının Bülbülə kəndinin Lahıclar məhəllesindədir. 1988-ci ildən tikintisinə başlanıb. Sahəsi 12x11 metrdir.

Qəriblər məscidinin divarları mişar daşı ilə hörülüb. Tavanı taxtadandır. Döşəmədən tavana qədər hündürlüyü 5 metrdir. Döşəmə daş plitə ilə döşənib. Dam dəmir təbəqə ilə örtülüb. Məscidin ikinci mərtəbəsində-əsas giriş qapısının sağ tərəfində inşa tarixi ərəb əlifbası ilə yazılıb. Mehrabda da daş kitabə həkk olunub. Orada "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn" sözləri (ərəb əlifbası ilə) qeyd olunub.

Məsciddə tikinti işləri davam etdirilir.

## BÜLBÜLƏ KƏND XOMEYNİ MƏSCİDİ



Məscid Bülbülə kəndində inşa edilib. Bünövrəsi 1989-1990-cı illərdə qoyulub. Kişilər üçün nəzərdə tutulmuş sahə 120 kv.metr, qadınlar üçün isə 40 kv. metrdir.

Bülbülə kənd Xomeyni məscidi kəndin yuxarı tərəfində yerləşib. Məscidin giriş tərəfində onun tarixi ilə bağlı məlumat qeyd olunub. Məscidin eyvanı da var. Günbəzi metlaxla üzlənib. Yerdən tavanadək hündürlüyü 4 metr, günbəzədək isə 8 metrdir. Günbəz səkkiz guşəyə və səkkiz pəncərəyə malikdir.

Məscidin iki tərəfində hündürlüyü 2 metr olan qübbələr tikilib. Tavan dörd beton sütun üzərində dayanıb. Mehrabın hündürlüyü 3 metrdir və üstündə rənglə "La İlahə İlləllah Məhəmmədən rəsulullah" sözləri yazılıb.

## MƏHƏMMƏD SADİQ İMAMZADƏSİ



Bu imamzadə Bakının Bülbülə kəndində yerləşir. Dağıdılmış, yerlə-yeksan edilmiş bu memarlıq abidəsi insanların iman gətirdiyi müqəddəs yerlərdən biridir. Bildirildiyinə görə, burada beşinci imam Məhəmməd Bağırın (ə) nəvəsi Məhəmməd Sadiqin məzarı olub. Hal-hazırda imamzadə kompleksindən yadigar qalan təkcə bir yazılı daşdır ki, o da Bakıda Qız qalası ilə üzbəüz açıq sərgidə nümayiş etdirilir. Ərəbcə gözəl süls xətti ilə yazılmış bu kitabədə deyilir: "Bu böyük abidənin tikilməsinə əzəmətli sultan Şah Abbas əl-Hüseyni vaxtında Şeyx Kamalın oğlu Şeyx Nəcməddin əmr etmişdir. 1033 (1623-1624)". İmamzadə kompleksi 4 binadan ibarət olub, müqəddəs imam övladının dəfn olunduğu düzbucaqlı plana malik türbə binasının tavanı qismən çatma, qismən isə günbəzlə örtülübmüş. Qəbrin üzərində daş sənduqə (2-10x0,73 metr) varmış. Türbənin şərq divarından açılan qapıdan daxil olunan 2-ci otağın planı düzbucaqlı imiş. Burada isə 3 qəbir varmış ki, imamın nökərləri dəfn olunubmuş. Hər iki türbə xalça ilə döşənmiş, qəbirlər örtüyə bürünmüş və ələmlərlə bəzədilmişdi. Türbənin şimal divarına bitişik məscid binası (8,77x9,55 m.) varmış. Məscidin tavanı 4 sütun və arkalar üzərində oturdulmuş günbəzlə örtülübmüş.

Bülbülə İmamzadəsinin türbə binasının əsası 12-13-cü əsrlərdə qoyulsa da, sonralar burada bərpa və təmir işləri aparılıb. Nəhayət, onu da qeyd edək ki, bu imamzadə kompleksi 1937-ci ildə dağıdılıb. İmamzadənin rəisi Mübariz Nurməhəmməd oğlunun və yerli camaatın təşəbbüsü ilə bu kompleksin yenidən bərpası məsələsi irəli sürülüb.

## KƏRBƏLAYI AĞABALABƏY MƏSCİDİ



Məscid Bülbülə kəndində tikilib. İnşa tarixi XIX əsrə aiddir. Kişilər şöbəsinin sahəsi 12x14 metr, qadınlar şöbəsi (hər iki mərtəbədə birlikdə) 100 kv.metrdir.

Kərbəlayı Ağabalabəy məscidi XIX əsrdə Ağabalabəy tərəfindən inşa edilib. Bu, məscidin giriş qapısının qarşısındakı eyvanın tağının üstündə olan lövhədə qeyd olunub. Məscidin həyəti daş plitələrlə döşənib. Həyətdə yardımçı otaqlar da yerləşib.

Məscid iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir. Qadınlar şöbəsi iki mərtəbədə yerləşib. Kişilər şöbəsinin divarlarında Quran ayələri yazılıb. Məscidin döşəməsindən tavanadək hündürlüyü 6 metr, günbəzədək isə 10 metrdir. Günbəzin diametri 4 metrdir və ona səkkiz pəncərə qoyulub. Minbər taxtadan düzəldilib və şəbəkə ilə işlənib. Minbərdə ərəbcə yazılar vardır.

## ƏBU BƏKR SIDDIQ MƏSCİDİ



Məscid Qaradağ rayonunun Ələt-Körpü məntəqəsindədir. 1982-1991-ci illərdə inşa edilib. Həyətyanı sahəsi 1500 kv.metr, əsas ibadət zalının sahəsi 12x12 metrdir.

Əbu Bəkr Sıddıq məscidinin giriş qapısından içəridə dəhliz yerləşib. Dəhlizin sahəsi 4x12 metrdir. Dəhlizdən sonra əsas ibadət zalı gəlir. İbadət zalında iki qapı və yeddi pəncərə qoyulub. Məscidin günbəzinin orta hissəsində taxtadan səkkizguşəli ulduz işlənib. Məscidin divarları fasad tərəfdən suvanmış və göy rənglə işlənmişdir. Dam və günbəz dəmir təbəqə ilə örtülüb. Damın üstündə dəmirdən aypara rəmzi qoyulub. Həyət daş plitə ilə döşənib.

1997-ci ildə məsciddə təmir-bərpa işlərinə başlanıb.

## SOFİ HƏMİD PİRİ



Pir Umbakı kəndi ilə Əzim kəndi arasında, yoldan 3 km. kənardakı qəbristanlıqdadır.

Bu pirin iç sahəsi 4,5x4 metr, həyətyanı sahəsi 15x12 metrdir. Abidənin hündürlüyü 4 metrdir. Bu müqəddəs ocaqda İmam Museyi-Kazımın övladlarından birinin qəbri yerləşib. Deyilənə görə, bu, imamın yeddinci nəvəsi Sofi Həmidin qəbridir. Pirin həyətində daşdan düzəldilmiş dəvə də var.



## SAHİL QƏSƏBƏSİ İMAM HÜSEYN MƏSCİDİ



Məscid Sahil qəsəbəsindədir. 1991-ci ildə bünövrəsi qoyulub. Həyətyanı sahəsi 5000 kv.metr, iç sahəsi 17x8 metrdir.

Sahil qəsəbəsi İmam Hüseyn məscidi mişar daşlarından tikilib. Buradakı tikililər kompleksinə məscidlə yanaşı mədrəsə, hüseyniyyə binası, dəstəmazxana daxildir. Məscidin minarəsi də mişar daşı ilə tikilib. Onun hündürlüyü 25 metrdir. Həm minarə, həm də məscid binası daş plitə ilə üzlənib. Məscidin betondan iki günbəzi var.

Sahil qəsəbəsi İmam Hüseyn məscidinin bir giriş qapısı və dörd pəncərəsi var. Qapı və pəncərələr taxtadan hazırlanıb.

Məscidin həyəti daş plitələrlə döşənib. 1994-cü ildən etibarən fəaliyyətə başlayıb.

## ŞIXLAR MƏSCİDİ



Məscid Bakının Qobustan qəsəbəsində yerləşir. Bünövrəsi 1990-1997-ci illərdə qoyulub. İç sahə 14x25 metrdir.

Şıxlar məscidi mişar daşından tikilib. Tavanı beton plitə, döşəməsi isə daş plitədəndir. Tavan bir beton sütun üzərində dayanıb. Məscidin iki giriş qapısı var. Mehrab sadə formaya malikdir. Günbəz çöl tərəfdəndir və hündürlüyü 3,5 metrdir.

Şıxlar məscidi kənd camaatının vəsaiti hesabına tikilib.

## QOBUSTAN QƏSƏBƏSİ ƏBU BƏKR SIDDIQ MƏSCİDİ



Məscid Bakının Qobustan qəsəbəsinin Şamlı məhəlləsində inşa olunub. İnşa 1992-ci ilə aiddir. Həyətyanı sahəsi 15x25 metr, iç sahəsi 10x15 metrdir.

Qobustan qəsəbəsi Əbu Bəkr Sıddıq məscidi mişar daşından tikilib. İçəri divarları qum-sement məhlulu ilə suvanıb. Tavan beton plitə, döşəmə isə gil-torpaqdandır. Döşəmədən tavanadək hündürlüyü 4,5 metrdir. Günbəz betondan tikilib və hündürlüyü 3 metrdir. Mehrab divarın çöl tərəfindədir və haşiyə ilə işlənib.

Qobustan qəsəbəsi Əbu Bəkr Sıddıq məscidində tikinti işləri davam edir.

## QOBUSTAN CÜMƏ MƏSCİDİ



Məscid Qobustan qəsəbəsində yerləşir. Bünövrəsi 1990-cı ildə qoyulan bu məscid Şeyx Üzeyirin təşəbbüsü ilə yerli camaat tərəfindən tikilib. İç sahəsi 33x18 kv.metr, hündürlüyü isə 4 metrdir.

Qobustan Cümə məscidi mişar daşından tikilib. Divarların qalınlığı 70 sm-dir. Damının örtüyü dəmir təbəqə ilə işlənib. Döşəməsi taxta, tavanı isə beton plitədəndir. Əsas ibadət zalının tavanı mişar daşından tikilmiş 7 sütun üzərində dayanıb. Əsas ibadət zalında 13 tağvari formalı pəncərə var. Məscidin əsas korpusu isə düzbucaqlı formaya malikdir. Minarəsi, minbəri və mehrabı yoxdur. Məscidin güldəstə formasında olan günbəzi altıguşəli olub, dəmir təbəqə ilə işlənmişdir. Güldəstənin üstündə isə dəmir təbəqədən aypara rəmzi qoyulub. Məscid formaca düzbucaqlı olub, fasad tərəfdən suvanmamışdır.

## SƏNGƏÇAL QƏSƏBƏ MƏSCİDİ



Bu məscid Qaradağ rayonunun Səngəçal qəsəbəsindədir. Məscid yerli sakin Hacı Fazil tərəfindən tikilib.

## XOCAHƏSƏN KƏND MƏSCİDİ



Məscid Bakının Xocahəsən kəndində yerləşir. 1988-1990-cı illərdə inşa olunub İç sahəsi 16x8 metrdir.

Xocahəsən kənd məscidi mişar daşı ilə inşa edilib. Qoşa minarəyə malikdir. Minarələr bişmiş kərpiclə işlənib. Məscidin ön tərəfində eyvan yerləşib. Məscid iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir. Əsas ibadət zalının döşəməsindən tavanadək hündürlüyü 5 metr, günbəzədək hündürlüyü 11 metrdir. Tavan 4 dəmir dirək üzərində dayanıb. Bu məscid kənd camaatının vəsaiti hesabına tikilib.

Burada vaxtilə də məscid olmuş və 1937-ci ildə sökülmüşdür. Həmin məscidin yerində hazırkı məscid tikilib.



## QALA KƏND CÜMƏ MƏSCİDİ



Məscid Qala kəndinin Aşağı məhəlləsində tikilib. Hicri-qəməri təqvimi ilə 1329-cu ildə inşa olunub. Həyətyanı sahəsi 800 kv.metr, ibatdət zalının sahəsi 12x12 metrdir.

Qala kənd Cümə məscidinin giriş qapısının üstündə onun tarixi haqda daş kitabə həkk olunub. Giriş qapısından içəridə dəhliz yerləşib. Dəhlizin sol tərəfində əsas ibadət zalı yerləşib. Yerdən tavanadək hündürlüyü 7 metr, günbəzədək hündürlüyü 12 metrdir. Tavanla günbəz 4 böyük sütun üzərində dayanıb. Sütunlar tağlarla bir-birinə birləşib. Günbəzdə səkkiz pəncərə qoyulub. Əsas ibadət zalında isə 6 pəncərə vardır. Pəncərələrin yuxarı hissəsi dairəvi formadadır. Mehrabın (hündürlüyü 3,5 metrdir) üstündə daş kitabə vardır. Minbər yeddipilləlidir və taxtadan düzəldilib.

Qala kənd Cümə məscidi kişi və qadınlar üçün nəzərdə tutulmuş şöbələrə ayrılıb.

## QALA KƏND MƏSCİDİ



Məscid Qala kəndindədir. Düzbucaqlı formaya malikdir. Divarları yonulmuş sal daşlardan tikilib. Günbəz (hündürlüyü 2 metr) dörd ədəd tağ üzərində dayanıb. Yerdən tavanadək hündürlüyü 4 metrdir. Məscidin içərisində-divarlarda 9 taxça qoyulub. Mehrabın hündürlüyü 2 metrdir. Minbəri qədimdir və taxtadan düzəldilib.

Bu məscid hal-hazırda bağlıdır və istifadə olunmur.

## QALA KƏND QALA MƏSCİDİ



Məscid Qala kəndində yerləşib. Ümumi iç sahəsi 120 kv.metrdir. Abidə yonulmuş sal daşlardan tikilib. Divarlarının qalınlığı 1 metrdir. Məscidin içərisində üç mehrab vardır. Döşəmə torpaqdandır. Məscidin günbəzi də vardır. Yerdən günbəzədək hündürlüyü 7 metr, tavanadək hündürlüyü 4 metrdir.

## QALA KƏND SÜLEYMAN MƏSCİDİ



Məscid Qala kəndindədir. Sahəsi 5x12 metr, həyətyanı sahəsi isə 500 kv.metrdir.

Qala kənd Süleyman məscidi yonulmuş sal daşlardan inşa olunub. Divarların qalınlığı 1 metrdir. Yerdən günbəzədək hündürlüyü 8 metrdir. Günbəzdə üç ədəd pəncərə vardır. Mehrabın hündürlüyü 2,5 metrdir.

Məsciddə hazırda təmir işləri gedir. Bu məscid kənd sakini Süleymanın təşəbbüsü ilə tikilib.

## QALA KƏND MƏHƏLLƏ MƏSCİDİ



Məscid Qala kəndində yerləşib. İç sahəsi 9x9 metrdir. Məscid yonulmuş sal daşlardan tikilib. Döşəməsi torpaqdır. Məscidin içərisində dörd böyük tağ vardır. Sferiktipli günbəz bu tağların üzərində dayanıb. Günbəzdə üç gözlük qoyulub.Yerdən günbəzədək hündürlüyü 7 metrdir. Giriş qapısının üstündə onun tarixini göstərən daş kitabə həkk edilib. Tağların qovuşduğu hissədə küplərdən istifadə olunub ki, bu da akustika yaratmaq üçündür.

Məscidin dörd tərəfində hücrələr tikilib.

## MURTUZA MUXTAR MƏSCİDİ





Məscid Əmircan kəndinin Vaqif küçəsində tikilib. İnşa tarixi 1908-ci ilə aiddir. Kişilər şöbəsinin sahəsi 14x14 metr, qadınlar şöbəsinin sahəsi 84 kv.metrdir. Məscidin memarı Zivər bəy Əhmədbəyov, ustası isə məşhur sənətkar Kərbəlayı Əhməd Səməd oğludur. Məscidin ikinci ustası isə Mirzə Məlik Abbasquludur.

Murtuza Muxtar məscidinin giriş qapısının sol tərəfində kiril əlifbası ilə "Murtuza Muxtar məscidi", sağ tərəfində isə həmin sözlər ərəb əlifbası ilə yazılıb. Məscid qoşa minarəyə malikdir. Minarələrinin hündürlüyü 47 metrdir. Hər iki minarənin birinci şərəfəsinin aşağısında ərəbcə "Kəlmeyi-təyyubə" yazılıb. Mehrabın hündürlüyü 9 metrdir.

Məscid dörd nəhəng tağ üzərində dayanıb. Divarlarının qalınlığı 1 metrdir. Bu tağlar sanki sütun rolunu oynayır və günbəz həmin tağların üzərində dayanıb. Günbəzin dairəvi hissəsin dək hündürlüyü 16 metr yuxarı hissəsinədək isə 19 metrdir. Məscidin giriş qapısının hündürlüyü 6 metrdir. Qapıdan 3 metr yuxarıda mərmər üzərində iki kitabə həkk olunub. Orada belə yazılıb: "h.q.1317..."

Məscidin həyətində Muxtarov Murtuza Muxtar oğlunun (1855-1920) qəbri yerləşib. Məscidin axundu Hacı Nazim Məmməd oğlu Məhəmmədzadədir.



## ŞEYX NİZAMƏDDİN ƏMİRHAC MƏSCİDİ



Məscid Bakının Əmircan kəndinin mərkəzində yerləşib. 14-cü əsrdə tikilən bu məscidin fasad hissəsi yonulmuş əhəng daşları ilə hörülüb və ağ rənglə işlənib. Məscidin 4 giriş qapısından 3-nün üstündə daş kitabələr həkk olunub. Yerli camaatın verdiyi məlumata görə, bu məscidin ibadət zalı əvvəllər kiçik olsa da, get-gedə böyüdülmüşdür. İndiki məscidin ibadət zalının iç sahəsi 24x6 metr, hündürlüyü isə 5 metrdir. Məscidin mehrabının hündürlüyü 2 metr olub, üstündə, bir neçə yerdə ərəbcə "Allah" sözləri yazılıb. Bundan əlavə, mehrabın üst hissəsindəki daş kitabə başıaşağı vəziyyətdədir. Yerli sakinlərin bildirdiyinə görə, bu, sonralar təmir zamanı ermənilər tərəfindən edilib. Məscidin divarlarının qalınlığı 1 metr, yerdən günbəzədək hündürlüyü 7,5 metrdir. Günbəzin diametri isə 6 metrdir. Məscidin minarəsi yoxdur, günbəzinin hündürlüyü fasad tərəfdən 1,5 metrdir.

Qeyd edək ki, bu məscidin ustası Abbas Əli, məscid üzərindəki kitabələrin müəllifi isə Məhəmməd Tağıdır.

Onu da bildirmək lazımdır ki, məscidin tarixi əhəmiyyəti olduqca böyükdür. Belə ki, bu memarlıq abidəsinin tarixi onun Əmir Nizaməddin Kəsrani Şirvanşahlar dövləti dövründə tikildiyini göstərir.

Məsciddəki ərəb dilində yazılmış kitabələrdən birinin ikinci sətri belə oxunur: "Bu Allah evinin tikilməsini əzəmətli Fəxrəddin oğlu Əmir Nizaməddin Əmirhac əmr etdi - hicri-qəməri 730-cu il (miladi tarixi ilə 1329-1330 )".

20-ci əsrin əvvəllərində bu məscid yenidən təmir olunaraq inşa işləri aparılıb. Belə ki, qərb tərəfdəki eyvanın mərkəzində Nizaməddinin tikdirdiyi qapının qarşısında 4 daş sütundan ibarət giriş yeri düzəldilib. Bu barədə qapının üstündəki ərəb əlifbası ilə yazılmış kitabədə oxuyuruq: "Bu portalı Rizvan oğlu Hacı Xələf bina etmişdir".

## BÜNYADLILAR MƏSCİDİ



Məscid Bakının Əmircan kəndində yerləşib. İç sahəsi 10x12 metrdir.

Bünyadlılar məscidi yonulmuş sal daşlardan inşa olunub və səkkiz tağı vardır. Günbəz də bu tağlar üzərində dayanıb. Günbəzdə 16 pəncərə qoyulub.

Bünyadlılar məscidinin interyeri çox sadədir. Döşəmə metlaxdandır. Yerdən tavanadək hündürlüyü 5 metr, günbəzədək hündürlüyü 13 metrdir. Mehrabın hündürlüyü 3,5 metrdir. Məscidin iki hücrəsi də var. Onların hər birinin sahəsi 5x3 metrdir. Məsciddə onun inşa tarixini göstərən daş kitabə də həkk olunub.

Burada yazılıb: "Hacı Tağının atası Ağa Yusif. 1323-cü il". Bu məscid əsasən qadınlar üçün nəzərdə tutulub.

## TURABİ TÜRBƏSİ



Türbə 1908-ci ildə ev dustağı ikən vəfat etmiş Mirzə Axund Əbu Turabinin qəbri üzərində tikilib. Camaatın qeyd etdiyinə görə, o, Əmircanın mütərəqqi fikirli adamlarından biri olmuşdur. Bağdadda ali ruhani məktəbini bitirən Əbu Turabi riyaziyyat, çoğrafiya, ədəbiyyat, məntiq və s. elmləri, habelə ərəb, fars, türk və rus dillərini mükəmməl bilib. Məhz onun təşəbbüsü ilə kənddə birinci qızlar mədrəsəsi açılıb. O, həmişə gələcək neslin qayğısına qalmış, onları oxumağa, bilik qazanmağa çağırmışdır.

Vəfat etdikdən sonra Əmircan camaatı onu Mərdəkan bağları ilə əhatə olunan Pir-Həsən qəbristanlığında dəfn etmişlər. Qəbrin üzərində tikilən türbə Azərbaycanın mədəniyyət abidəsi kimi dövlət tərəfindən qorunur. Türbənin mərkəzi hissəsində qəbir yerləşib. Daş sənduqənin üstündə və hər iki tərəfində ərəb dilində yazılar vardır.

Turabi türbəsi səkkizguşəli tağlardan ibarətdir. Tağlar yuxarıda-günbəzdə birləşmişdir. Türbənin hündürlüyü 9 metrdir. Tağlar dəyirmi sütunlar üzərində dayanıb. Döşəmə yonulmuş daş plitələrdən işlənib. Abidə fasad tərəfdən nəbati ornamentlərlə işlənib. Türbə dəmir hasara alınmış və içəridə gül-çiçək əkilmişdir.

## ZABRAT KƏND İMAM ZAMAN MƏSCİDİ



Məscid Bakının Zabrat kəndində (mərkəzində) inşa olunub. İnşa tarixi dəqiq məlum deyil. İç sahəsi 12x8 metrdir.

Məscid yonulmuş sal plitələrdən işlənib. Günbəzi dörd ədəd tağ üzərində dayanıb. Tağların birləşdiyi hissədə-künclərdə dörd ədəd küpdən istifadə olunub. Yerdən tavana qədər hündürlüyü 4 metr, yerdən günbəzədək isə 8 metrdir. Günbəzin diametri də 8 metrdir və onda üç gözlük qoyulub.

Məscid qaya üzərində tikilib. Təzə Pir məscidini tikdirən Nabat xanım vaxtilə bu məscidi təmir etdirmişdir. Sovetlər dövründə buradan anbar kimi istifadə olunub. 1992-ci ildə məscid kənd camaatının köməkliyi nəticəsində bərpa edilmiş və fəaliyyət göstərməyə başlamışdır.

## ZABRAT KƏND MƏSCİDİ



Məscid Bakının Zabrat kəndində yerləşib. XIX əsrdə inşa edilib. İç sahəsi 12x15,5 metrdir.

Zabrat kənd məscidi yonulmuş mişar daşından tikilib. Həyətyanı sahəsi daş plitələrlə döşənib. Divarların qalınlığı 1 metrdir. Məscidin döşəməsi də daş plitədəndir. Əsas ibadət zalında baş pəncərə qoyulub. Mehrab yonulmuş daşlarla işlənib və mərkəz hissədə yerləşib. Minbər səkkizpillelidir və taxtadan düzəldilib. Məscidin qadınlar şöbəsi kişilər şöbəsindən taxta hasarla ayrılıb. Tavan dörd sütun üzərində dayanıb. Sütunlar on iki tağla bir-birinə birləşib. Döşəmədən tavanadək hündürlüyü 7 metr, döşəmədən günbəzədək isə 11 metrdir. Günbəzin diametri 4,5 metrdir və onda səkkiz pəncərə qoyulub. Məscidin bir neçə yerində kitabə həkk olunub. Kitabələrin biri məscidin tarixi haqqında məlumat verir. Bu məscid yerli kənd sakini Hacı Tağı tərəfindən tikilib. Sovetlər dövründə bura anbar, fabrik, əmanət kassası və başqa məqsədlərlə istifadə olunub. 1990-cı illərdə onun fəaliyyəti bərpa olunub, habelə təmir edilərək abad vəziyyətə salınıb.



## ZİRƏ KƏND CÜMƏ MƏSCİDİ



Məscid Zirə kəndində yerləşmişdir. Məscid binasının arxa tərəfində qapı ilə pəncərənin arasında daş kitabə həkk edilmişdir ki, burada da məscidin tarixi (h.q. təqvimi ilə 1296-cı il) və onu inşa edən ustanın adı göstərilmişdir.

Bir çox məscidlər kimi, bu məscid də sovetlər dövründə bir müddət bağlı qalmış və sonradan klub kimi istifadə edilmişdir. 1990-1992-ci illərdə məsciddə rekonstruksiya işləri aparılmış və yeni tikililər əlavə edilmişdir.

## ZIĞ KƏND MƏSCİDİ



Məscid Bakının Zığ kəndində tikilib. Hicri-qəməri təqvimine görə 1240-cı ildə inşa edilib. Ümumi sahəsi 350 kv.metrdir. Bu məscid 1936-cı ildə sökülmüş və yalnız bünövrəsi qalmışdır.

Məscid Məşədi Novruz Ağaxan oğlu (o, ömrünün son illərini Məkkədə keçirmiş və orada da dəfn olunmuşdur) tərəfindən tikilib.

1988-ci ildən etibarən bərpa və inşa edilib və 1990-1991-ci ildən məscid kimi fəaliyyətə başlayıb. Yerdən tavanadək hündürlüyü 5 metr, yerdən günbəzədək isə 10 metrdir. Döşəməsi bişmiş kərpic, tavanı isə betondur. Mehrabın üstündə ərəbcə daş kitabə həkk olunub. Tavan müxtəlif nəbati ornamentlərlə işlənib. 1995-ci ildən məscidin nəzdində mədrəsə də tikilir.

Məscid iki mərtəbədən ibarətdir. İkinci mərtəbədə qadınlar şöbəsi yerləşib. Birinci mərtəbədə də qadınlar üçün ayrılmış 42 kv. metrlik sahə vardır.

Məscidin günbəzində 8 ədəd pəncərə qoyulub. Günbəzdə rənglə səkkizguşəli ulduz şəkli işlənib.

## AŞAĞI MƏSCİD



Məscid Bakının Kürdəxanı kəndində yerləşir. İnşa tarixi XIV əsrə aiddir. İç sahəsi 129 kv.metrdir.

Aşağı məscidin divarları jonulmuş sal daşlardan hörülüb. Günbəz mişar daşı ilə işlənib. Günbəzin diametri 4,5 metrdir. Məscidin yerdən tavanadək hündürlüyü 3,5 metr, günbəzədək isə 7 metrdir. Günbəz dörd tağın üzərində dayanıb. Məscidin kişi və qadın şöbələri arasındakı şəbəkə arakəsmə sonradan düzəldilib. Minbər taxtadandır və şəbəkələrlə işlənib.

XIV əsrin mədəniyyət abidəsi hesab olunan bu məscid orijinal memarlıq xüsusiyyətlərinə malik olub, Bakı kəndlərindəki bu dövrə aid digər məscidləri xatırladır.

## SEYİD KAMİL AĞA TÜRBƏSİ



Türbə Bakının Maştağa kəndindədir. Bu türbə "Aqil baba" adı ilə tanınan Seyid Kamil ağanın türbəsidir. Türbə düzbucaqlı formaya malikdir və divarları yonulmuş daşlardan hörülüb. Sahəsi 4x4 metr, hündürlüyü isə 4,5 metrdir. Döşəməsi kafellə döşənib. Fasad tərəfdən günbəzi yonulmuş daşlarla işlənib. Türbənin içərisində Seyid Kamil ağanın qəbri yerləşib. Onun ərəb mənşəli olduğu və Ərəbistandan bura gəldiyi söylənir. Bundan başqa, Seyid Kamil ağanın üç qardaşı olub. Onların qəbirləri qəbristanlığın müxtəlif yerlərindədir.

## MAŞTAĞA KƏND DƏRƏ MƏHƏLLƏ MƏSCİDİ



Məscid Maştağa kəndinin Dərə məhəlləsində yerləşir. 1291-ci ildə (hicri-qəməri təqvimi ilə) inşa olunub. İç sahəsi 16x8 metrdir.

Məscid düzbucaqlı formadadır. Döşəməsi torpaq-gildir və daş plitə ilə döşənib. Tavanı üç sütun üzərində dayanıb. Sütunlar tağlarla bir-birinə birləşib. Tavan eyni zamanda bu tağlar üzərində dayanıb. Sütunlar sal daşlardan tikilib. Mehrab divarın içərisindədir və nəbati ornamentlərlə işlənib. Mehrabın yuxarısında daş kitabə həkk edilib. Məscidin əsas giriş qapısı üzərində də iki daş kitabə həkk olunub. Yeddipilləli minbər taxtadan düzəldilib. Əsas ibadət zalında beş pəncərə və altı taxça vardır.

Məscidin divarları çöl tərəfdən qum-sement məhlulu ilə suvanıb və ağardılıb. Dam qırla örtülüb. Sovetlər dövründə anbar kimi istifadə olunub.

## HACI ƏZİZ MƏSCİDİ



Məscid Maştağa kəndinin Xunxar məhəlləsində yerləşir. XIX əsrdə inşa olunub. İç sahəsi 4x9 metrdir.

Hacı Əziz məscidinin divarları yonulmuş sal daşlardan tikilib. Divarlar içəri tərəfdən suvanıb və ağardılıb. Məscidin əsas giriş qapısı dəmirdəndir. Ondan sonra dəhliz yerləşib. Onun sahəsi 2x2,5 metrdir. Döşəməsi torpaqdır. Mehrabın hündürlüyü 2,50 metrdir və üstündə iki daş kitabə həkk olunub. Kitabələrdən birində hicri-qəməri təqvimi ilə 1329-cu il göstərilib. Əsas ibadət zalının iki pəncərəsi və iki taxçası var. Məscidin damı qırla örtülüb.

Məscidin giriş qapısının üstündəki sərlövhədə "Hacı Əziz məscidi. XIX əsr. Bu mədəniyyət abidəsi dövlət tərəfindən qorunur." sözləri yazılıb.

Məscid binası Sovetlər dövründə sex kimi fəaliyyət göstərmişdir.



## MAŞTAĞA KƏND İMAM ZAMAN MƏSCİDİ





Məscid Maştağa kəndində inşa edilib. Bünövrəsi hicri-qəməri təqvimi ilə 1293-cü ildə qoyulub.

Məscidin divarları yonulmuş daşlardan tikilib. Giriş qapısının sağ tərəfindəki divarda-qapı üstündə məscidin inşa tarixi haqda məlumat verən daş kitabə həkk olunub. Minbər beşpilləlidir və taxtadan düzəldilib. Döşəmə daş plitələrlə işlənib. Tavan 8 ədəd daş sütun üzərində dayanıb. Günbəzin diametri 3 metrdir və üstü yaşıl rənglə rənglənib. Günbəzdə 4 tağvari formalı pəncərə qoyulub. Mehrabın (hündürlüyü 2,80 metr) üstündə ərəbcə yazılar vardır.

Maştağa kənd İmam Zaman məscidi iki hissəyə-kişilər və qadınlar şöbəsinə bölünüb. Qadınlar şöbəsi iki mərtəbədən ibarətdir. Şöbələr arasındakı arakəsmə şəbəkə ilə işlənib.

Məscidin içərisində bir neçə yardımçı otaq da var.

Sovetlər dövründə (1937-1989) anbar kimi istifadə olunub. Məscidin nəzdində vaxtilə mədrəsə olub. Lakin həmin mədrəsənin binası hazırda başqa məqsədlə istifadə olunur.

## HACI SULTANƏLİ MƏSCİDİ



Məscid Maştağa kəndindədir. Hicri-qəməri təqvimi ilə 1327-ci ildə inşa edilib. İç sahəsi 130 kv.metrdir.

Məscid yonulmuş sal daşlardan tikilib. Döşəmədən tavana qədər hündürlüyü 5 metr, döşəmədən günbəzədək 9 metr, günbəzin diametri isə 3,5 metrdir. Tavanı altı sütun üzərində dayanıb. Sütunlar sal daşlardan hörülüb.

Bu məscid hal-hazırda çox bərbad vəziyyətdədir. Belə ki, divarları, xüsusən tavanının bir hissəsi uçub-dağılıb.

Məscid Hacı Sultanəli Aşumov tərəfindən tikdirilib. O, 1951-ci ildə Balaxanı kəndində kasıb bir ailədə dünyaya gəlib. Sonralar məşhur sahibkara çevrilən bu adam müxtəlif xeyriyyə işləri ilə məşğul olmuş və habelə üç məscid tikdirmişdir.

## XOCA ASLAN MƏSCİDİ



Məscid Maştağa kəndinin Hacıağa meydanında tikilib. Tarixi XVIII əsrə aiddir. İç sahəsi 4x5,5 metrdir.

Xoca Aslan məscidi yonulmuş sal daşlardan tikilib. Damının üstü qırla örtülüb. Döşəməsi torpaqdandır. Divarları iç tərəfdən qum-sement məhlulu ilə suvanıb və ağardılıb. Giriş qapısından içəridə kiçik bir dəhliz yerləşib. Dəhlizdən məscidin üst tərəfinə çıxmaq üçün yer var. Mehrabı yonulmuş daşdandır və üstündə daş kitabə həkk olunub. Ümumiyyətlə, məsciddə bir neçə yerdə daş kitabə var.

Xoca Aslan məscidi mədəniyyət abidəsi kimi dövlət tərəfindən mühafizə olunur.

## MAŞTAĞA KƏND CÜMƏ MƏSCİDİ



Məscid Maştağa kəndinin mərkəzi hissəsindədir. Bünövrəsi hicri-qəməri təqvimi ilə 1129-cu ildə inşa olunub. İç sahəsi 20x17 metrdir.

Maştağa kənd Cümə məscidi iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir. Qadınlar şöbəsi iki mərtəbəlidir və hər mərtəbənin sahəsi 16x8 metrdir. Tavan 20 daş sütun üzərində dayanıb. Sütunlar tağlarla bir-birinə birləşib. Günbəzin diametri 3,5 metrdir. Günbəzdə səkkiz pəncərə qoyulub. Məscidin iki giriş qapısı və yeddi böyük pəncərəsi var. Mehrabı sadə formaya malikdir və divarın içindədir. Minbəri taxtadandır və yeddipilləlidir. Döşəmə mərmərlə üzlənib. Minarənin hündürlüyü 46 metrdir. O, yonulmuş sal daşlarla tikilib və daş plitələrlə üzlənib. Məscidin əvvəlki minarəsi 1936-cı ildə sökülmüşdür. Məscidin önündə açıq eyvan yerləşib. Burada kitabələr həkk olunub.

Bu məscid sovetlər dövründə bir müddət bağlı qalmış, qalan digər vaxtlarda öz fəaliyyətini davam etdirmişdir.

## SEYİDLƏR MƏHƏLLƏ MƏSCİDİ



Məscid Maştağa kəndinin Seyidlər məhəlləsində yerləşir.

Seyidlər məhəllə məscidi birmərtəbəli olub, geniş sahəyə malikdir. Forma etibarilə düzbucaqlıdır. İnteryeri olduğu kimi qorunub saxlanmışdır. Hal-hazırda bu məscid orta məktəb kimi istifadə olunur.



## SEYİD İBAD AĞA TÜRBƏSİ



Türbə Maştağa kəndinin "Aqil baba" qəbristanlığındadır.

Sahəsi 3x2,5 metr, hündürlüyü 2,5 metrdir. Abidə fasad tərəfdən qum-sement məhlulu ilə suvanıb. Qəbrin üstündə kitabələr həkk edilib.

Camaatın bildirdiyinə görə, Seyid İbad ağa sadə və xeyirxah bir adam kimi kənddə məşhur olmuş və hörmət qazanmışdır.

## GÖVHƏRABAD MƏSCİDİ



Məscid Maştağa kəndinin Xunxar məhəlləsindədir. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1316-cı ilə aiddir. İç sahəsi 12x12 metrdir.

Gövhərabad məscidinin binası sal daşlardan, günbəzi isə mişar daşından tikilib. Bir giriş qapısı var. Tavan dörd sütun üzərində dayanıb. Sütunlar dörd böyük tağla günbəzə birləşib.

Giriş qapısının üstündə məscidin inşa tarixini göstərən daş kitabə həkk olunub.

Bu məscidə camaat arasında "Gövhərbikə" məscidi də deyilir.



## MƏMMƏDYAROV MƏHƏLLƏ MƏSCİDİ



Məscid Maştağa kəndində (bazarın yanında) yerləşir. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1292-ci ilə aiddir. Kişilər şöbəsinin sahəsi 14x15, qadınlar şöbəsinin sahəsi isə 14x6 metrdir.

Məmmədyarov məhəllə məscidinin divarları yonulmuş daşlardan hörülüb. Damı əvvəlcə qırla örtülüb və üstünə tol çəkilib. Döşəmə plitədəndir. Döşəmədən tavana qədər hündürlüyü 4,5 metr, döşəmədən günbəzədək isə 10 metrdir.

Günbəzin diametri 10 metrdir. Əsas giriş qapısının qarşısında eyvan yerləşib.

Məmmədyarov məhəllə məscidi yanında sal daşlardan minarə tikilir. Məscidin bir neçə yerində daş kitabələr həkk olunub.

## XOCA AYDƏMİR MƏSCİDİ



Məscid Maştağa kəndinin Xunxar məhəlləsində tikilib. İnşa tarixi XIX əsrə aiddir. İç sahəsi 4,5x9 metrdir.

Xoca Aydəmir məscidi yonulmuş sal daşlardan tikilib. Divarların qalınlığı 90 sm. olub, iç tərəfdən qum-sement məhlulu ilə suvanıb və ağardılıb. Dam qırla örtülüb. Mehrabı daşdandır, hündürlüyü 2,5 metrdir. Divarlar çöl tərəfdən daş plitələrlə üzlənib. Məscidin içərisində 4 pəncərəsi və 4 taxçası var. Məscidin giriş tərəfində kiril əlifbası ilə "Xoca Aydəmir Məscidi, XIX əsr" sözləri yazılıb. Bura sovetlər dövründə də həmişə fəaliyyət göstərib.

## ƏLİ MİRHƏBİBAĞA TÜRBƏSİ



Türbə Maştağa kəndinin "Aqil baba" qəbristanlığındadır.

Əli Mirhəbibağa türbəsi formaca düzbucaqlıdır və divarları yonulmuş sal daşlardan tikilib. Türbənin iç sahəsi 16 kv.metr, hündürlüyü isə 5 metrdir. Abidənin fasad tərəfi qum-sement məhlulu ilə suvanıb.

Türbədə iki qəbir yerləşib. Qəbirlərdən biri Əli Mirhəbibağa və yanındakı qəbir isə oğlu Balaca Ağaya məxsusdur.

Əli Mirhəbibağa türbəsinin giriş qapısının üstündə daş kitabə həkk edilib. Burada hicri-qəməri təqvimi ilə 1346-cı il göstərilib.

## HƏSƏNBƏY MƏSCİDİ



Məscid Maştağa kəndinin Seyidlər məhəlləsindədir. İnşa tarixi XVIII əsrə aid olunur. Həyətyanı sahəsi 160 kv.metr, iç sahəsi isə 4x10 metrdir.

Məscid fasad tərəfdən düzbucaqlı formadadır. Divarları yonulmuş sal daşlardan hörülüb. Divarların qalınlığı 1 metrdir.

Camaat arasında bu məscidə "Qasxan" məscidi də deyilir.



## TUBUŞAH MƏSCİDİ



Məscid Mərdəkan kəndinin mərkəzində yerləşir. Tarixi qədim olsa da, bu barədə dəqiq məlumat yoxdur.

Tubuşah məscidinin divarları yonulmuş sal daşlardan tikilib. Divarların qalınlığı 1 metrdir. Məscidin yerdən günbəzədək hündürlüyü 8,5 metr, günbəzin diametri 4 metrdir. İbadət zalı 4 böyük tağdan təşkil olunub. Günbəz bu tağların üzərində dayanıb. Məscidin 4 tərəfində hücrələr yerləşib. Hücrələrin sahəsi 6 kv.metrdir.

Tubuşah məscidinin bir neçə daş kitabəsi vardır. Kitabələr ərəb və fars dillərində həkk olunub.

Mərdəkan qalasının tarixi XIV əsrə aiddir. Deyilənə görə, bu məscidin tarixi qalanın tarixindən daha qədimdir. Bu halda belə nəticə çıxarmaq olar ki, məscidin təxminən 600 illik tarixi var.

## HEYDƏR MƏSCİDİ



Məscid Mərdəkan qəsəbəsinin mərkəzində tikilib. İnşa tarixi 1893-cü ilə aiddir. Həyətyanı sahəsi 135 kv.metr, iç sahəsi 144 kv.metrdir.

Məscid yonulmuş sal daşlardın tikilib. İç hissəsi qum-sement məhlulu ilə suvanıb. Günbəz dörd sütun üzərində dayanıb. Yerdən günbəzədək hündürlüyü 25 metrdir. Günbəzin diametri 3 metrdir. Sütunlar tağla bir-birinə birləşib. Məscidin damı qırla örtülüb. Döşəmə daş plitələrlə işlənib. Həyətə də daş plitələr döşənib. Həyətdə həmçinin yardımçı otaqlar və digər tikililər inşa edilib. Minbər 1993-cü ildə düzəldilib. Heydər məscidi 1937-ci ildən bağlanaraq kolxoza verilib. Belə ki, əvvəlcə kolxoz anbarı, daha sonra isə qaz idarəsi kimi istifadə edilib. 1991-ci ildə məscid kənd sakinlərinin təşəbbüsü ilə fəaliyyətə başlayıb. Çox bərbad vəziyyətdə olduğundan, burada təmir-bərpa işləri aparılmış və məscid abadlaşdırılmışdır.

Məscid əslən mərdəkanlı olan Heydər tərəfindən tikilmişdir. Deyilənə görə, onun balıq vətəkələri olub. Heydərin Neftçalada da məscid tikdirməsi söylənir.

## HƏSƏN PİRİ



Pir Mərdəkan kəndində yerləşir. Abidə dəhliz və sərdabə hissəsindən ibarətdir. Abidənin sahəsi 3,5x3,5 metr, hündürlüyü də 3,5 metrdir. Giriş qapısının üstündə iki daş kitabə həkk olunub. Onlardan birinin yazıları silinib. Sərdabə dörd tağ şəklindədir. Qəbrin hər tərəfi mərmərlə üzlənib. Tağlar günbəzlə birləşib. Abidədə bir neçə dəfə təmir-bərpa işləri getməsinə baxmayaraq, öz əvvəlki formasını qoruyub saxlamışdır. Hal-hazırda da burada inşaat işləri aparılır-namazxana, mətbəx, qonaq otaqları tikilir. Abidə XV əsrə aid olunur.

Camaatın bildirdiyinə görə, pirin adını daşıdığı Həsən seyid olmuş və burada dəfn edilmişdir.

## NARDARAN KƏND CÜMƏ MƏSCİDİ



Məscid Nardaran kəndinin Ağa məhəlləsində inşa olunub. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 14x22 metrdir.

Məscid yonulmuş sal daşlardan tikilib. Damı torpaq-gildən olub, üstünə tol çəkilmişdir. Döşəmə daş plitələrlə döşənib. Döşəmədən tavana qədər hündürlüyü 4 metr, döşəmədən günbəzədək isə 8 metrdir. Tavan səkkiz sütun üzərində dayanıb. Sütunlar sal daşlardandır və tağlar vasitəsilə bir-birinə birləşib. Məscidin iki giriş qapısı, yuxarı hissəsində 11 pəncərə, aşağı hissəsində 5 pəncərə vardır. Günbəzin diametri 5 metrdir. Günbəzdə 3 tağvari pəncərə qoyulub. Mehrabı divarın içindədir və mərmərlə üzlənib. Yeddipilləli minbər daşdan düzəldilib və mərmərlə üzlənib. Məscid divarlarının qalınlığı 80 sm.-dir.

Nardaran kənd Cümə məscidinin həyətyanı sahəsi yaşıllıqlar içərisindədir. Həyətyanı sahədə mədrəsə var. Bura 1992-ci ildən fəaliyyət göstərir.

Bu məscid sovetlər dövründə bağlı olub və istifadə edilməyib. Fəaliyyəti 1986-cı ildən etibarən bərpa edilib.

## NARDARAN PİRİ



Yerli camaatın verdiyi məlumata görə, Nardaran piri miladi tarixlə VIII əsrə aiddir. Bu pir-kompleks Nardaran kəndinin şimal hissəsində yerləşir. Pirdə Həzrət İmam Rzanın (ə) bacısı Rəhimə xanımın qəbri yerləşib. O, Harun ər-Rəşid və Məmunun dövründə Azərbaycana pənah gətirən Peyğəmbər övladlarından biridir. Kənd sakini Hacı Ədalət Əlizadənin söylədiyinə görə, Rəhimə xanım yerli sakin Seyid Yusif ağanın qonağı olmuşdur. O öz ailəsi ilə birgə bu kəndə pənah gətirərək burada yaşamış və elə buradaca dəfn olunmuşdur.

Lakin sonralar Rəhimə xanımın qəbri yerləşən Pir təbiət hadisələri ilə əlaqədar olaraq itib-batmışdır. Yeni Xəzər dənizinin XIII-XIV əsrlərdə yerinə çəkilməsi nəticəsində kəndin şimal hissəsində boşluq əmələ gəlmiş və şimal küləklərinin gətirdiyi qum qəbrin üstünü örtmüşdür. Lakin əsrin əvvəllərində kənd sakini Şeyx Yunisin təşəbbüsü ilə burada qazıntı işləri aparılmış və ziyarətgah bərpa olunmuşdur. Azərbaycan müstəqillik qazanandan sonra Nardaran kənd sakinləri Hacı Hafizin rəhbərliyi ilə burada yenidən bərpa və tikinti işləri apararaq, hal-hazırkı pir-kompleks möminlərin ixtiyarına verilmişdir. Bu yeni tikintiyə 1994-cü ildə Peyğəmbərin mövlud günündə başlanılıb. Tikinti işləri isə yerli ustalar tərəfindən həyata keçirilir. Məscid ikimərtəbəli olub, birinci mərtəbəsi ziyarətgah kimi saxlanılır. Məscidin iç sahəsi 30x17 metr, hündürlüyü 26 metrdir. Məsciddəki 4 minarənin hər birinin hündürlüyü isə 41 metrdir. Günbəzinin diametri 17 metr, hündürlüyü isə 16 metrdir. Məscidin əsas ibadət zalı 2 günbəzə malikdir. Hal-hazırda Nardaran pir-kompleksində iki hissədən ibarət Hüseyniyyə üçün nəzərdə tutulan binanın tikintisi davam etdirilir.



Qeyd edək ki, Nardaran ziyarətgahında eyni vaxtda 1500 möminin ziyarət etməsi mümkündür.



## AĞA MƏSCİDİ



Məscid Nardaran kəndinin Ağa məhəlləsində yerləşir. Hicri-qəməri təqvimi ilə 1317-ci ildə tikilib. Kişilər üçün ayrılmış sahə 170 kv. metr, qadınlar üçün nəzərdə tutulmuş sahə 60 kv.metrdir.

Məscid düzbucaqlı formadadır. Divarlar yonulmuş sal daşlardan tikilib. Fasad tərəfdən divarlara suvaq çəkilməyib. Tavan dörd böyük sütun üzərində dayanıb. Sütunlar tağlarla bir-birinə birləşib. Yerdən tavana qədər hündürlüyü 6 metr, yerdən günbəzədək hündürlüyü 9 metrdir. Günbəzdə dörd pəncərə vardır. Minbər daşdan düzəldilib və çox nəfis şəkildə işlənib. Məscidin minarəsi (hündürlüyü 16 metr) yarımçıqdır.



Ağa məscidinin kişilər və qadınlar şöbəsi birinci mərtəbədə yerləşib. İkinci mərtəbədə isə mədrəsədir.

Bu məscid Şıx Ağa tərəfindən tikdirilib. Sovetlər dövründə (1937-1987) anbar kimi istifadə olunub. Sonralar məscidin fəaliyyəti bərpa olunub.

## HACI QULAMƏLİ MƏSCİDİ



Məscid Nardaran kəndinin Qənbər məhəlləsində tikilib. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1310-cu ilə aid olunur. Sahəsi 10x12 metrdir.

Məscidin divarları yonulmuş daşlardan hörülüb. Divarlar içəri tərəfdən qum-sement məhlulu ilə suvanıb. Döşəmədən tavanadək hündürlüyü 6 metr, döşəmədən günbəzədək 9 metr, günbəzin diametri 3 metrdir. Günbəzin və məscidin içərisi göy rənglə işlənib. Günbəzdə 4 pəncərə var.

Hacı Qulaməli məscidi formaca düzbucaqlıdır. Damı qır və tolla örtülüb. Günbəz betondan olub, qum-sement məhlulu ilə suvanmışdır. Mehrabı divarın içərisindədir və nəfis şəkildə işlənib.



Hacı Qulaməli məscidinin tavanı altı sütun üzərində dayanıb. Sütunlar tağlar vasitəsilə bir-birinə qovuşub. Tağların qovuşduğu yerdə-küplər qoyulub. İnteryer çox sadə olub, heç bir ornamentlə bəzədilməyib. Minbərin üstündə ərəb əlifbası ilə "La İlahə İllallah" sözləri yazılıb.

Sovetlər dövründə (1937-1988) uşaq bağçası və anbar kimi istifadə edilib. Məscidin fəaliyyəti bərpa ediləndən sonra camaatın vəsaiti hesabına yenidən təmir olunub.

## MƏSCİD- MƏDRƏSƏ

Məscid-mədrəsə Nardaran kəndində yerləşir. İç sahəsi 4x6 metrdir.

Məscid divarları yonulmuş sal daşlardan hörülüb. Giriş qapısının üstündə daş kitabə həkk olunub. Giriş qapısının girəcəyində isə eyvan yerləşib.

Məscidin divarlarının qalınlığı 90 sm.-dir. Mehrabının hündürlüyü 2,80 metrdir. Giriş qapısından içəridə dəhliz yerləşib. Onun sahəsi 2,5x2,5 metrdir. Dam gil-torpaqla örtülüb və üstündən tol çəkilib. Döşəmə daş plitələrlə işlənib. Məscidin içərisində iki pəncərə və bir gözlük var.

Bura sovetlər dövründə bağlı qalıb və istifadə edilməyib.



## MƏHƏLLƏ MƏSCİDİ

Məscid Nardaran kəndinin Diriboy məhəlləsindədir. İnşaat tarixi məlum deyil.

Məhəllə məscidi yonulmuş daşlardan tikilib. Divarların qalınlığı 1 metrdir. Divarlar iç tərəfdən qum-sement məhlulu ilə suvanıb.

Bu məscid tam tikilib başa çatmayıb.



## HACI BAXIŞ MƏSCİDİ

Məscid Bakının Nardaran kəndində yerləşib. Məscidin əsas ibadət zalının sahəsi 7x7 metr, yerdən günbəzədək hündürlüyü 7 metrdir. Tavan dörd sütun üzərində dayanmışdır. Sütunlar tağlarla bir-birinə birləşmişdir. Sütunlar sal daşlarla işlənmişdir.

Məscidin mehrabının hündürlüyü 2 metr 70 cm.-dir. Məscidin mehrabı və günbəzi sadədir. Minbəri, minarəsi yoxdur. Bu məscidin açıq ibadət zalı da vardır. Açıq ibadət zalı yay mövsümü üçün nəzərdə tutulub.

Məscidin giriş qapısının üstündə iki daş kitabə həkk edilib. Kitabədə 1285-ci il tarixi qeyd olunmuşdur.







## PİRŞAĞI KƏND CÜMƏ MƏSCİDİ

Məscid Bakının Pirşağı kəndində yerləşir. Həyətyanı sahəsi 600 kv.metr, kişilər şöbəsinin sahəsi 89 kv.metr, qadınlar şöbəsinin sahəsi isə 26 kv.metrdir.

Düzbucaqlı formaya malikdir. Günbəzi 4 tağ üzərində dayanıb. Minbər taxtadan düzəldilib və üstündə 1344-cü il tarixi qeyd olunub. Məscidin ön tərəfində eyvan yerləşib. Qadınlar şöbəsi iki mərtəbəlidir. Qadınlar şöbəsi kişilər şöbəsindən şəbəkə ilə ayrılıb.

Məscidin həyətyanı sahəsi yaşıllıqlar içərisindədir. Həyəti asfaltla döşənib.

Bu məsciddə daha iki kitabə vardır. Onlardan biri məscidin giriş qapısından sol tərəfdəki kitabədir ki, onun üzərində 1326-cı il tarixi göstərilib. Digər kitabə məscidin içərisində-dərs otağının qapısının üstündədir və onun üstündə 1305-ci il tarixi göstərilib.



## PİRŞAĞI TATAR PİRİ

Pir Bakının Pirşağı kəndində-qəbristanlıqdadır.

Abidənin 1996-cı ildə açılışı olub. Onun ilkin tikilişi sovetlər dövründə sökülüb-dağılıb. Sonradan (sahəsi 36 kv.metrdir, 6x6metr) pir bərpa olunub.

Pirin sərdabə hissəsində iki qəbir yerləşib. Qəbirlər haqda müxtəlif məlumatlar mövcuddur. Abidənin içərisi, eləcə də sərdabə hissəsi mərmərlə döşənib. Damı və günbəzi dəmir təbəqə ilə örtülüb. Günbəzin üstündə dəmir təbəqədən hazırlanmış aypara və səkkizguşəli ulduz işlənib.



## RAMANA KƏND CÜMƏ MƏSCİDİ

Məscid Ramana kəndində yerləşib.

1912-1914-cü illərdə inşa olunub. Əsas ibadət zalının sahəsi 14x14 metrdir.

Məscid əsas ibadət zalı, dəhliz və üç yardımçı otaqdan ibarətdir. Əsas ibadət zalının tavanı dörd böyük sütun üzərində dayanıb. Sütunlar yonulmuş sal daşlardan işlənib. Tavan və sütunların qovuşan hissəsi nəbati ornamentlərlə işlənib. Döşəmə daş plitələrlə döşənib. Bütün qapı və pəncərələr haşiyələrlə bəzənib. Məscidin mehrabı bərbad vəziyyətdə olduğundan onun üzərində bərpa və təmir işləri aparılır. Məscidin giriş qapısı üstündəki portal eynən Sabunçu məscidinin portalını xatırladır. Portalın hündürlüyü məscidin öz hündürlüyü qədər-təxminən yeddi metrdir. Məscidin damı qırla örtülüb.



Məscid sovetlər dövründə fəaliyyət göstərməyib.

Bu məscidin layihəsi 1912-ci ildə hazırlanıb və memarı Zivərbəy Əhmədbəyovdur.

## NƏRİMAN MƏSCİDİ



Məscid Bakının Ramana kəndində hicri-qəməri təqvimi ilə 1320-ci ildə inşa edilib. Həyətyanı sahəsi 170 kv.metr, əsas ibadət zalının sahəsi 120 kv.metrdir.

Düzbucaqlı formada olub, bir mərtəbədən ibarətdir. Divarlarının qalınlığı 80 sm.-dir. Tavan beton, döşəmə daş plitədəndir. Tavan dörd sütun üzərində dayanıb. Mehrabı əsas giriş qapısından sağ tərəfdə-ibadət zalının mərkəzində yerləşib və onun hündürlüyü 3 metr 20 sm.-dir. Mehrab yonulmuş daşlardan, minbəri isə taxtadan işlənib.

Bu məscid çox sadə konstruksiyaya malikdir. Burada xüsusi bir memarlıq üslubu nəzərə çarpmır.

Nəriman məscidinin giriş qapısının üstündə onun tarixini göstərən daş kitabə vardır. Həyətyanı sahəsi yaşıllıqlar içərisindədir və hasara alınıb.

## RAMANA QALA MƏSCİDİ



Bakının Ramana kəndində yerləşən bu məscidin əsas giriş qapısının üstündəki dəmir lövhədə XVII əsr tarixi göstərilib. Lakin məscidin giriş qapısından sağ tərəfdəki daş kitabədə hicri-qəməri təqvimi ilə 1256-cı il yazılıb. Əsas giriş qapısının üstündəki daş kitabədə isə 1056-cı il tarixi qeyd olunur. Odur ki, bu məscidin dəqiq tarixi barədə məlumat vermək çətinlik törədir.

Qeyd edək ki, Ramana Qala məscidi qayaların üstündə tikilib. Əsas ibadət zalı bir mərtəbədən ibarət olub, sahəsi 4x12,5 metrdir. Məscidin hündürlüyü isə 4 metrdir. Məscidin pəncərələrinin birinci layı taxta, ikinci layı isə daşla işlənib.

## TÜRKAN KƏND MƏSCİDİ



Məscid Bakının Türkan kəndinin yaylaq hissəsində yerləşir. Tarixi hicri-qəməri təqvimi ilə 1324-cü ilə aiddir. Sahəsi 5x17 metrdir.

Türkan kənd məscidi yol kənarında yerləşib və çox bərbad vəziyyətdədir. Belə ki, tavanı və günbəzi uçub dağılıb. Qalınlığı 1 metr olan divarlar yonulmuş sal daşlardan işlənib. Məscidin hündürlüyü 5 metrdir.



## TÜRKAN MƏSCİDİ



Məscid Bakının Türkan kəndindədir. Hicri-qəməri təqvimi ilə 1322-ci ildə inşa edilib. İç sahəsi 17x18 metr, həyətyanı sahəsi 600 kv.metrdir.

Giriş qapısının üstündə fars dilində məscidin tarixi haqda kitabə həkk olunub. Giriş qapısından içəridə dəhliz yerləşib. Dəhlizdən qadınlar və kişilər şöbəsinə giriş vardır.

Türkan məscidinin döşəməsi betondur. Mehrabı (hündürlüyü 4 metr) yonulmuş daşdan düzəldilib. Günbəzin diametri 5 metrdir və dörd pəncərəyə malikdir. Yerdən günbəzədək hündürlüyü 14 metr, yerdən tavanadək hündürlüyü 9 metrdir. Tavan və günbəz sütunlar üzərində dayanıb. Sütunlar tağlarla bir-birinə bitişikdir. Dəhlizin üstündə ikinci mərtəbə yerləşib. Bura qadınlar üçün nəzərdə tutulub. Məscidin minbəri altıpillələdir və taxtadan düzəldilib.

Türkan məscidinin həyəti asfaltla döşənib.

## HÖVSAN KƏND SAHİBƏZZAMAN MƏSCİDİ



Məscid Bakının Hövsan kəndindədir. İnşa tarixi XX əsrin əvvəllərinə aid edilir. Həyətyanı sahəsi 600 kv.metr, əsas ibadət zalının sahəsi isə 16x12 metrdir.

Hövsan kənd Sahibəzzaman məscidinin interyeri çox sadə konstruksiyaya malikdir. Bu baxımdan Əmircan kəndinin Cümə məscidini xatırladır. Məscid iki mərtəbədən ibarətdir. İkinci mərtəbə eyvan şəklindədir və burada qadınlar şöbəsi yerləşib.

Məscidin döşəməsindən günbəzədək hündürlüyü 15 metrdir. Günbəzdə səkkiz pəncərə qoyulub. Məscidin divarlarının qalınlığı 1 metrdir.

## HÖVSAN KƏND CÜMƏ MƏSCİDİ



Məscid Hövsan kəndində yerləşir. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1229-cu ilə aiddir. Həyətyanı sahəsi 4000 kv.metrdir.

Məscid düzbucaqlı formaya malikdir. Divarları yonulmuş sal daşlardan tikilib. Divarlarının qalınlığı 1 metrdir. Döşəmədən tavanadək hündürlüyü 5 metr, günbəzədək isə 8 metrdir. Günbəzdə dörd pəncərə qoyulub. Günbəzin dairəvi hissəsində "Ayətül-kürsi" yazılıb. Bu məscidin bir neçə yerində daş kitabə həkk olunub.

Məscid sovetlər dövründə bağlı qalmışdır. 1987-ci ildə kənd camaatının təşəbbüsü nəticəsində yenidən fəaliyyətə başlayıb.

## BİBİHEYBƏT MƏSCİDİ (PİRİ)



Müqəddəs Bibiheybət pir kompleksi Bakı şəhərinin yaxınlığında - Şıx kəndində olmuşdur. Rəvayətə görə, kompleks şiələrin səkkizinci imamı Rzanın (ə) orada dəfn olunmuş bacısının məqbərəsi ətrafında meydana gəlmişdir. Burada Şirvan-Abşeron memarlığının ən görkəmli nümunələri-minarələr, günbəz örtüklərinə malik geniş salonlu came, ikinci kiçik məscid, yardımçı binalar, məqbərə, sərdabələr və s. olmuşdur.

Yazılı mənbə və sənədlər kompleks haqqında bir sıra məlumat verir. Kitabələrin birində kompleksin memarı Mahmud ibn Sədin adı çəkilir. Həmin memarın adına XII əsrdə tikilmiş bir sıra dini tikililərdə rast gəlinir. Bu da kompleksin XIII əsrə aid olduğunu göstərir.





Bibiheybət kompleksindən hazırda Qız qalası yaxınlığında tarixi-memarlıq abidəsində yerləşən daşyonma əsərləri sərgisində pirin tarixi və fəaliyyəti ilə bağlı bir kitabə nümayiş etdirilir. İki sətirlik gözəl nəsx xəttilə ərəbcə yazılmış bu kitabədə deyilir: "Bu şərəfli imarətin və pak yerin bina olunmasını Şeyx Abidin oğlu Hacı Şərif min iyirmi səkkizinci (1618/1613) ildə və qeyd olunan şeyxin rahatlıq yerini (məqbərəsini) min qırx altıncı (1636/1637) ildə əmr etdi".

Kitabədən göründüyü kimi, Hacı Şeyx Şərif Bibiheybət imamzadəsində yaşamış və fəaliyyət göstərmişdir. Vəfatından sonra özü tikdirdiyi və fəaliyyət göstərdiyi hücrəsində dəfn olunmuşdur. Onun əsli Nişaburdandır. Məlum olduğu kimi, Nişabur sufiliyin mərkəzlərindən biri olmuşdur. Şeyx Şərif Nişaburda təhsil aldıqdan sonra sufizmi yaymaqdan ötrü qeyd olunan imamzadəyə gəlmişdir. İmamzadənin Əli (ə) nəsli, şiəlik və Səfəvilərlə bağlı bir mərkəz olmasını digər kitabələr də göstərir. Kitabələrdə Səfəvi padşahlarından Şah Təhmasib və Şah Abbas vaxtı həmin mərkəzdə daha geniş tikinti və abadlıq işlərinin aparılmasından söhbət gedir. Bibiheybət kompleksinin Səfəvilərlə bağlılığı, oranın daima Səfəvi hökmdarlarının diqqət mərkəzində olmasını məqbərədə qalmış sənədlər də sübut etməkdədir. Kompleksə bağlı kitabələrin birinin tərcüməsi şərqşünas B.Dornun fondunda qalmışdır. Kitabənin tərcüməsi belədir: "Bu mübarək şərəfli darvazanın bina olmasına əl-Hüseyni Şah Abbasın -Allah onun hakimiyyətini əbədiləşdirsin-qalibiyyətli hökmdarlığı vaxtında, min on səkkizinci il tarixində (1609/1610) əmr olunmuşdur".



Neçə əsrlik tarixi izləri, sənədləri, əsrlərin daş yaddaşlarını özündə qoruyub saxlamış bu zəngin mədəni irsimiz Şərq memarlığının nümunələri, bədii daşyonma, xəttatlıq, nəqqaşlıq, ornament incəsənətini nümayiş etdirir. Bu müqəddəs məkan, zəngin kitabxanası, əlyazmaları, sənədləri, epiqrafik kitabələri ilə birlikdə yerlə-yeksan edilmiş, amansızcasına dağıdılmış, dəhşətli repressiya illərinin qurbanı olmuşdur.

1997-ci il iyunun 23-də məscidin tikintisinə yenidən başlanıb. Hal-hazırda tikintisi başa çatmamış bu iki mərtəbəli məscidi iki nəhəng minarə və üç günbəz bəzəyir. Məscidin ümumi görünüşü çox əzəmətli olub uzaqdan nəzər-diqqəti cəlb edir. Böyük maliyyə vəsaiti hesabına tikilən bu məscidin layihəsini Azərbaycan Mənzil Kommunal Layihə İnstitutu hazırlayıb. Məscidin hər bir mərtəbəsinin sahəsi 1200 kv.metr olub, eyni zamanda 1600 nəfər mömininin ibadət etməsinə kifayət edər. Hər bir mərtəbədə iki mehrab qoyulub. 1998-ci il iyulun 23-də məscidin açılışı olub.

Bibiheybət məscidi ənənəvi Bakı-Abşeron memarlığı üslubunda tikilib. Hal-hazırda görülən bəzək işləri hökumət dairələrinin himayəsi altında həyata keçirilir.

Məscidin axundu Hacı Hikmət İsmayıloğludur. O, 1994-cü ildən burada axundluq edir.



## ŞAĞAN TÜRBƏSİ



Türbə Bakının Buzovna və Şağan kəndi arasındadır. Düzbucaqlı formaya malik bu abidənin sahəsi 2,5x3 metrdir. Yonulmuş sal daşdan tikilmiş türbənin üstünü hündürlüyü iki metr olan və göy rənglə işlənmiş günbəz bəzəyir.

Şağan türbəsinin içərisində qəbir yerləşib. Qəbrin başdaşında, habelə türbənin giriş qapısının üstündə daş kitabə həkk edilib.

## ŞAĞAN KƏND MUSEYİ-KAZIM MƏSCİDİ



Məscid Bakının Şağan kəndinin Aşağı məhəlləsində yerləşir. XIX əsrin axırlarında inşa olunub. Həyətyanı sahəsi 100 kv.metr, iç sahəsi 12x14 metrdir.

Məscidin divarları sal daşlardan tikilib. Günbəz də daşdan tikilib və qum-sement məhlulu ilə suvanıb. Damı qırla örtülüb. Döşəməyə daş plitə döşənib. Yerdən tavanadək hündürlüyü 6 metr, günbəzədək hündürlüyü 9 metrdir.

Günbəzin diametri 3 metrdir. Günbəzdə üç pəncərə qoyulub. Mehrab yonulmuş daşlarla işlənib və hündürlüyü 2,5 metrdir.

Şağan kənd Museyi-Kazım məscidi 1937-ci ildən 1994-cü ilə qədər anbar kimi istifadə olunub. Bundan sonra burada kənd camaatının təşəbbüsü və vəsaiti hesabına rekonstruksiya işləri aparılıb. Bütün bunlara baxmayaraq, məscid öz ilkin formasını qoruyub saxlayıb.

## ŞÜVƏLAN CÜMƏ MƏSCİDİ



Məscid Bakının Şüvəlan qəsəbəsində inşa olunub.

Əsas ibadət zalı 10x10 metr, qadınlar şöbəsinin sahəsi 4x10 metrdir. Məscid düzbucaqlı formaya malikdir. Yerdən tavanadək hündürlüyü 5 metrdir. Günbəzin hündürlüyü 3 metr, diametri isə 4 metrdir. Günbəzdə üç pəncərə qoyulub.

Məscid iki hissəyə-kişilər və qadınlar şöbəsinə bölünüb. Kişilər şöbəsində on iki tağ, qadınlar şöbəsində isə iki tağ var. Tağlar günbəzdə bir-birinə qovuşub. Məscidin interyeri çox sadədir və heç bir kitabə və yazısı yoxdur. Məscidin giriş qapısının üstündə "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn", eləcə də "Bəyverdi ibn Yəqub oğlu, 1310-cu il" yazılıb.

### MİR MÖVSÜMAĞA ZİYARƏTGAHI



Ziyarətgah Bakının Şüvəlan qəsəbəsində, yolun sağ tərəfində - qəbristanlıqda yerləşib. Adından da göründüyü kimi, ziyarətgah-bina Mir Mövsümağanın qəbri üzərində 1992-1994-cü illərdə inşa edilib. Ziyarətgah dəhliz və sərdabə hissədən ibarətdir. Sərdabə hissəsində Mir Böyükağa Mir Əbutalıb oğlu Mir Mövsümzadənin (1883-1950) və bacısı Səkinə xanım Mir Əbutalıb qızı Mir Mövsümzadənin (1885-1948) qəbrləri yerləşir. Onun qardaşı Mir Kazım Mir Əbutalıb oğlu Mir Mövsümzadənin (1886-1960) qəbri isə çöl tərəfdədir.

Mir Mövsümağa ziyarətgahının sərdabə hissəsinin iç sahəsi 12x4,5 metr olub, giriş və çıxış qapıları qoyulmuşdur. Qəbirlərin yerləşdiyi sərdabənin hündürlüyü isə 10 metrdir. Sərdabə başdan-başa güzgülərlə işlənib.



Qeyd edək ki, burada indi də bəzi tikinti işləri davam etdirilir. Belə ki, ziyarətgahda möminlərin ibadəti üçün məscid, habelə kimsəsiz uşaqlara yardım məqsədilə yeməkxana tikilməkdədir. Buradakı bütün tikinti işləri, ümumiyyətlə, ziyarətgahın öz işçiləri tərəfindən həyata keçirilir. Tikintiyə sərf olunan vəsait isə bilavasitə ziyarətgaha gələn insanların nəzir-niyazları hesabına əldə edilir.

Ziyarətgahın rəisi Hacı Nizam Həbib oğlunun bildirdiyinə görə, Abşeronda Mir Mövsümağa qədər məşhur seyid olmamışdır.





# BALAKƏN RAYON MƏSCİDLƏRİ

### BALAKƏN ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Məscid Balakən şəhərində tikilib. Hicri-qəməri təqvimi ilə 1292-ci ildə inşa edilib. Həyətyanı sahəsi 3000 kv.metr, iç sahəsi isə 40x23 metrdir.

Məscid binası çaylaq daşı ilə, minarəsi isə bişmiş kərpiclə inşa edilmişdir. Minarəsi səkkizguşəli olub, nəbati ornamentlərlə işlənmişdir. Onun hündürlüyü 44 metrdir. Məscidin həyətyanı sahəsi yaşıllıqlar içərisindədir və bişmiş kərpicdən hörülmüş hasara alınmışdır. Məscidin döşəmədən tavana qədər hündürlüyü 8 metrdir. Giriş qapılarının ön tərəfində eyvan yerləşmişdir. Eyvan (sahəsi 40x3 metr) altı sütundan və yeddi tağdan ibarətdir. Məscidin ibadət zalında 12 sütun və 26 tağ vardır. Sütunlar bişmiş kərpicdəndir. Məscidin üç giriş qapısı vardır. İbadət zalında 16 pəncərə qoyulmuşdur. Məscidin giriş qapılarının üstündə kitabələr həkk olunmuşdur. Balakən şəhər Cümə məscidinin minbəri taxtadandır, nəfis şəkildə işlənmişdir. Mehrabın da işlənməsi yüksək səviyyədədir.





1947-ci ilədək məscid anbar kimi istifadə edilmişdir. 1947-ci ildən etibarən məscid fəaliyyətə başlamışdır. 1955-ci ildə, 1980-ci ildə və 1996-cı ildə məsciddə təmir işləri aparılmışdır. Təmir işləri Bakıda yaşayan İlham Kərimovun şəxsi vəsaiti hesabına aparılıb.

Balakən şəhər Cümə məscidinin imamı Hacı İbrahim Carullahoğludur. O, 10 ildir ki, bu məsciddə imamlıq edir.

### BALAKƏN ŞƏHƏR MƏSCİDİ



Məscid Balakən şəhərinin Veysovlar məhəlləsində yerləşir. Hicri-qəməri təqvimi ilə 1283-cü ildə inşa edilib. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi 12,5x6,5 metrdir.

Formaca dördbucaqlı olan bu məscid çaylaq daşı ilə tikilmişdir. Həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, daş hasara alınmışdır. 1992-ci ildə məsciddə dəmir borudan minarə (hündürlüyü 17 metr) ucaldılmışdır. 1991 və 1994-cü illərdə məsciddə təmir işləri aparılmışdır. Bu işlər məscidə daxil olan nəzir-niyaz hesabına həyata keçirilmişdir.

Balakən şəhər məscidi sovetlər dövründə bağlı qalmış və 1991-ci ildən etibarən fəaliyyətə başlamışdır.

## İTİTALA KƏND MƏSCİDİ



Məscid Balakən rayonunun İtitala kəndindədir. Hicri-qəməri təqvimi ilə 1330-cu ildə inşa olunub. İç sahəsi 18x10 metr, həyətyanı sahəsi 1000 kv.metrdir.

Məscid dördbucaqlı formada olub, başdan-başa bişmiş kərpiclə tikilmişdir. Həyətyanı sahəsi yaşıllıqlar içərisindədir, daş hasara alınmışdır. Damı ağ dəmir təbəqə ilə örtülmüşdür. Minarə məsciddən xeyli aralıdadır, dəmirdən hazırlanıb. Məscidin üç giriş qapısı var. Giriş qapılarının ön tərəfində eyvan yerləşmişdir. Eyvanın sahəsi 20x3 metrdir. Eyvan 7 tağdan ibarətdir, bişmiş kərpicdən inşa edilmişdir.

Məscidin döşəməsi və tavanı taxtadandır. Döşəmədən tavana qədər hündürlüyü 7 metrdir. Tavan düzbucaqlı formadadır, dörd böyük sütun üzərində dayanmışdır. Sütunlar bişmiş kərpiclə hörülmüşdür. Minbər taxtadandır və yeddipillədir.



İbadət zalının aşağı hissəsində 10, yuxarı hissəsində isə 12 pəncərə qoyulmuşdur. Pəncərələr tağvari formada olub, taxtadan düzəldilmişdir. Məscidin iç divarları yaşıl, ağ və göy rənglə işlənmişdir.

Sovetlər dövründə məscid bağlanaraq anbar kimi istifadə edilmişdir. Məscidin fəaliyyəti 1989-cu ildə yerli sakinlərin təşəbbüsü ilə bərpa edilmişdir. Həmin dövrdə burada təmir işləri aparılmışdır. Təmir işləri yerli camaatın vəsaiti hesabına həyata keçirilmişdir.

## KATEX KƏND MƏSCİDİ (I)



Məscid Balakən rayonunun Katex kəndinin R.Qeybullayev küçəsində yerləşib. İnşa tarixi dəqiq məlum deyil. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi isə 13x18 metrdir.

Katex kənd məscidi çaylaq daşı və bişmiş kərpiclə inşa edilmişdir. Damının örtüyü qırmızı kirəmitdəndir. Giriş qapısının ön tərəfində eyvan yerləşmişdir. Eyvan (sahəsi 18x4 metr) tamamilə bişmiş kərpiclə işlənmişdir. Həyətyanı sahəsi daş hasara alınmışdır. Məscidin tavanı düzbucaqlı formada olub, faner və taxta ilə işlənmişdir. Tavan 8 sütun üzərində dayanmışdır. Sütunlar çaylaq daşları ilə hörülmüşdür və səkkizguşəlidir. İbadət zalında üç giriş qapısı və on iki pəncərə qoyulmuşdur. Onlar hamısı taxtadan düzəldilmişdir. Minbəri taxtadandır, beşpilləlidir. Minbərin üstündə və yan tərəfində taxta üzərində ərəbcə yazılar vardır. Minbərin üstündə 1328-ci il tarixi göstərilmişdir.

Sovetlər dövründə məscid anbar kimi istifadə edilmişdir. 1986-cı ildə yerli sakinlərin təşəbbüsü ilə məscid qismən də olsa təmir edilmiş və istifadəyə verilmişdir.



## KATEX KƏND MƏSCİDİ (II)

Məscid Balakən rayonunun Katex kəndinin Qarahacılı məhəlləsində yerləşib.



## KATEX KƏND MƏSCİDİ (III)

Məscid Balakən rayonunun Katex kəndinin Mirzə Ələkbər Sabir küçəsində yerləşib. Bu məscid XIV əsrə aid tarixi abidə hesab olunur.



## MAHAMALAR KƏND MƏSCİDİ



Məscid Balakən rayonunun Mahamalar kəndində yerləşir. Hicri-qəməri təqvimi ilə 1272-ci ildə inşa edilmişdir. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi 22x11 metrdir.

Mahamalar kənd məscidi çaylaq daşı ilə tikilmişdir. Məscidin arxa divarında qara çaylaq daşının üstündə oyma üsulu ilə həkk olunmuş daş kitabə vardır. Həyətyanı sahəsi yaşıllıqlar içərisindədir. Giriş qapısının ön tərəfində eyvan (sahəsi 11x2) metr yerləşmişdir. Döşəməsi asfalt, tavanı isə fanerdəndir. Mehrabı çox sadə şəkildə işlənmişdir. Damının və minarəsinin üstündə ağ dəmir təbəqədən aypara və səkkizguşəli ulduz rəmzi qoyulmuşdur. Məsciddə oğlan və qızlara dini təhsil də verilir.

Sovetlər dövründə məscid anbar kimi istifadə edilmişdir. 1988-ci ildə yerli kənd camaatının təşəbbüsü ilə məscidin fəaliyyəti bərpa edilmişdir. 1988-1994-cü ilədək burada təmir-bərpa işləri aparılmışdır. Məscidin dam örtüyü dəyişdirilərək ağ dəmir təbəqə ilə işlənmişdir. Bu zaman məscidin həyətyanı sahəsində yardımçı otaqlar da tikilmişdir. Bundan əlavə, həyətyanı sahədə minarə də ucaldılmışdır. Minarə dəmirdən olub, hündürlüyü 11 metrdir. Bütün bu işlər yerli camaatın vəsaiti hesabına həyata keçirilmişdir.

## QABAQÇÖL QƏSƏBƏ MƏSCİDİ

Məscid Balakən rayonunun Qabaqçöl qəsəbəsində yerləşib. Hicri-qəməri təqvimi ilə XIII əsrdə inşa edilib. Həyətyanı sahəsi 300 kv.metr, iç sahəsi isə 21x34 metrdir.

Məscid formaca dördbucaqlı olub, çaylaq daşı ilə tikilmişdir. Həyətyanı sahəsi bişmiş kərpicdən tikilmiş hasara alınmışdır. Məscid yerli memarlıq üslubunda inşa edilmişdir. Damın örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Giriş qapısı üçdür. Giriş qapılarının ön tərəfində eyvan (sahəsi 34x3 metr) yerləşmişdir. Minbəri taxtadandır və yeddipilləlidir. İbadət zalının döşəməsi asfalt, tavanı isə fanerdir. Tavan 14 səkkizguşəli sütun üstündə dayanmışdır. Sütunlar qara çaylaq daşları ilə hörülmüşdür. İbadət zalında 9 taxta pəncərə qoyulmuşdur.



## GEREHLİ KƏND MƏSCİDİ

Məscid Balakən rayonunun Gerehli kəndinin qəbristanlığındadır. Bünövrəsi hicri-qəməri təqvimi ilə 1288-ci ildə qoyulub. İç sahəsi 15x6 metrdir, həyətyanı sahəsi yoxdur.

O, başdan-başa çaylaq daşı ilə tikilmişdir. Giriş qapısının sağ tərəfində iki daş kitabə həkk edilmişdir. Minarəsi dəmir borudandır və hündürlüyü 14 metrdir. Minarə 1993-cü ildə məsciddə təmir işləri aparılarkən ucaldılmışdır. Döşəmədən tavana qədər olan hündürlüyü 3,5 metrdir. Qadınlar və kişilər şöbəsi divarla ayrılmışdır.



## BIÇAQLAR KƏND MƏSCİDİ

Məscid Balakən rayonunun Bıçaqlar kəndinin qəbristanlığında yerləşir. Hicri-qəməri təqvimi ilə 1230-cu ildə inşa olunub. İç sahəsi 16x10 metr, həyətyanı sahəsi isə 300 kv.metrdir.

Divarları çaylaq daşı ilə tikilmişdir. Damının örtüyü ağ dəmir təbəqədəndir. İki giriş qapısı vardır. Giriş qapılarının ön tərəfində eyvan (sahəsi 18x3) metr yerləşmişdir. Eyvanının döşəməsi asfalt, üstü isə ağ dəmir təbəqə ilə işlənmişdir. Məscidin həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, daş hasara alınmışdır. Məscidin döşəməsi beton, tavanı isə fanerdəndir.





## HATOVLAR KƏND MƏSCİDİ

Məscid Balakən rayonunun Hatovlar kəndində tikilib. 1966-cı ildə inşa olunub. İç sahəsi 4x8 metrdir.

Məscid düzbucaqlı formada olub, çaylaq daşı ilə tikilmişdir. Damın örtüyü şiferdəndir. Minarəsi dəmir borudandır. Minarə 1995-ci ildə ucaldılmışdır, hündürlüyü 12 metrdir. Giriş qapısının ön tərəfində eyvan (sahəsi 13x2 metr) yerləşmişdir. Eyvanının üstü ağ dəmir təbəqə ilə işlənmişdir.



## PÜŞTƏTALA KƏND MƏSCİDİ

Məscid Balakən rayonunun Püştətala kəndində yerləşir. İnşa tarixi kitabəyə əsasən hicri-qəməri təqvimi ilə 1340-cı ilə aid olunur. Həyətyanı sahəsi 900 kv.metrdir. Püştətala kənd məscidi çaylaq daşı və bişmiş kərpiclə tikilmişdir. Damının örtüyü şiferdəndir. Giriş qapısının ön tərəfində eyvan yerləşmişdir.
Məscidin hündürlüyü 5 metrdir. Dördbucaqlı formadadır. İnteryeri nəfis şəkildə işlənmişdir. Həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, daş hasara alınmışdır.

Püştətala kənd məscidi 1993-cü ildə kənd camaatı tərəfindən bərpa olunmuşdur. Sovetlər dövründə anbar və məktəb kimi istifadə edilmişdir.



## QARAVƏLLİ KƏND MƏSCİDİ

Formaca dördbucaqlı olan bu məscid Balakən rayonunun Qaravəlli kəndində inşa edilib. Yerli camaat bu məscidə Sofu Hənifə məscidi də deyirlər.



__*Qeyd:*__

Balakən rayonunun Qullar, Tülü, Talalar, Şambulbikə, Muradlar, Cinlik, Bedəğar, Gülüzanbikə, Sarbulaq, Cedarovtala, Qazbikə, Veysovlar, Sumbatoba, Paraşlar, Çatban, Katliyevlər kəndlərində də (16 kənd) məscidlər fəaliyyətdədir.

# BEYLƏQAN RAYON MƏSCİDLƏRİ

## CƏRCİS PEYĞƏMBƏR ZİYARƏTGAHI



Ziyarətgah Beyləqan rayonunun yaxınlığında yerləşmişdir. Abidə fasad tərəfdən dairəvi formalı olub, divarları bişmiş kərpiclə işlənmişdir. Divarların qalınlığı 1,20 metrdir. Giriş qapısı taxtadan olub (1x2m), düzbucaqlı formadadır. Ziyarətgahın hündürlüyü 7 metrdir. Abidənin yuxarı hissəsi günbəz şəklindədir.

Günbəz də bişmiş kərpiclə işlənmişdir. Günbəzdə dörd gözlük (0,20x0,40m) vardır və onlar tağvari formadadır. Bundan əlavə, abidənin aşağı qatında daha iki pəncərə (1x1,40m) qoyulmuşdur. Döşəməsi torpaqdır və hal-hazırda burada təmir işləri aparılır.

Ziyarətgahın mərkəzi hissəsində qəbir vardır. Qəbir ağ mərmərlə üzlənmiş və baş daşında kiril, latın və ərəb əlifbası ilə "Həzrət Cərcis Peyğəmbər" sözləri həkk olunmuşdur. Ziyarətgahın iç divarları dövrələmə səkkiz guşədən ibarətdir.



Əsas giriş qapısından içəridə dəhliz yerləşmişdir. Dəhlizin sahəsi 3x4 metr olub, hündürlüyü 6 metrdir. Dəhlizin sağ və sol tərəflərindən damın üstünə çıxmaq üçün iki daş pilləkən qoyulmuşdur.

Rəvayətlərə görə, Həzrət Cərcis peyğəmbər olmuşdur. O, dini təbliğ etdiyindən çox böyük əzab-əziyyətlər çəkmişdir. Ziyarətgah hicri-qəməri tarixi ilə 1328-ci ildə təbrizli usta Həsən tərəfindən tikilmişdir.

Ziyarətgahın müdiri Cəfərqulu Xasay oğlu Quliyevin bildirdiyinə görə, bu müqəddəs ocağın əvvəlki vəziyyəti çox bərbad olmuşdur. Bura heç bir vaxt bağlı qalmamış və həmişə xalqın ziyarət etdiyi yer kimi istifadə edilmişdir.



1989-cu ildən ziyarətgah təmir edilməyə başlamışdır. 1997-ci ildə burada yenidən təmir işləri davam etdirilmişdir. Bu işlər ocağa daxil olan nəzir-niyaz hesabına həyata keçirilir.

## AŞKARLAR KƏND HEYDƏRBABA MƏSCİDİ



Məscid Beyləqan rayonunun Aşkarlar kəndindədir. Həyətyanı sahəsi 10.000 kv.metr, iç sahəsi 10x20 metrdir.

Gözəl memarlığı ilə seçilən bu məscid 1994-cü ildə xeyriyyəçi İlham Səfərəli oğlu Qasımov tərəfindən tikdirilib. Məscid binası və onun yan tərəflərində olan iki minarə mişar daşı ilə inşa olunub. Minarələrin hündürlüyü 8 metrdir. Deyirmi formalı olan minarələrin qübbəsi dəmirlə işlənib. Məscidin günbəzi ağ dəmir təbəqə ilə örtülüb və hündürlüyü 3 metrdir. Tavan düzbucaqlı formaya malik olub, üç dəmir boru sütun üzərində dayanıb.

Məscidin ön tərəfindəki divarda "Heydərbaba məscidi"ni tikdirən xeyriyyəçi İlham Səfərəli oğlu Qasımovdur. 1994" sözləri yazılmışdır.



## KƏRBƏLAYI SEYİD ƏMİNƏ XATUN MƏSCİDİ



Məscid Beyləqan rayonunun Binnətli kəndində yerləşmişdir. Məscidi Kərbəlayı Seyid Əminə Xatun öz şəxsi vəsaiti ilə 1992-1994-cü illərdə tikdirib. O, bir çox başqa xeyriyyə işləri ilə də məşğul olur. Qeyd edək ki, Seyid Əminə Xatun məscidin həyətində həmçinin türbə də tikdirib. Bu türbə də onun şəxsi vəsaiti ilə inşa olunub. Yerli camaatın bildirdiyinə görə, türbə Seyid Əminə Xatunun özü üçün nəzərdə tutulub.

Düzbucaqlı formalı məscid binası mişar daşından tikilib. Məscidin qoşa minarələri də mişar daşı və bişmiş kərpiclə işlənib. Hündürlüyü 17 metr olan minarələr tək şərəfəyə malikdir.



Məscid binası səki (1,5 metr) üzərində tikilib. İç sahəsi 9x6 metr, eyvanın sahəsi 2x8 metr, hündürlüyü 4 metrdir. Minbəri taxtadan olub, doqquzpilləlidir. Döşəməsi daş plitələrlə işlənib. Məscidin yerdən günbəzədək hündürlüyü 7 metrdir. Günbəzin diametri isə 6 metrdir. İbadət zalının giriş qapısından sağ və sol tərəfdə minarələrə daxil olmaq üçün dəmir qapılar qoyulub.

Məscidin bənnası Nurəddin Quliyev, mühəndisi Salah Feyziyev, iş icraçısı isə Cabbar Mədətovdur.

Məscidin mollası Masallıda dini təhsil almış Azər İslamoğludur.

## MİR YUSİFAĞA TÜRBƏSİ



Türbə Beyləqan rayonunun Qaradağlı kəndindədir. Geniş bir həyətdə yerləşən bu abidədə vaxtilə İrandan köçüb gəlmiş Mir Abbasağanın oğlu Mir Yusifağanın qəbri yerləşib. Abidə 1970-ci ildə tikilib. Qeyd edək ki, Mir Yusifağa 1880-1967-ci illərdə yaşayıb. Bu barədə türbənin giriş qapısının üstündə kiril hərflərilə yazılıb.

Türbə mişar daşı ilə tikilib və düzbucaqlı formaya malikdir. İç sahəsi 3,5x3,5 metr, hündürlüyü isə 3 metrdir. Abidənin günbəzi ağ dəmir təbəqə ilə işlənib. Günbəzdə "Q.Yusifdən Mir Yusifağama yadigar" sözləri yazılıb.

Türbənin ustası kənd sakini usta Səməddir.

# BİLƏSUVAR RAYON MƏSCİDLƏRİ

## BİLƏSUVAR ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Məscid Biləsuvar şəhərinin mərkəzində yerləşib. 1992-ci ildə inşa olunub. Həyətyanı sahəsi 3000 kv.metrdir. İç sahəsi iki hissədən ibarətdir: kişilər şöbəsi 12x12 metr, qadınlar şöbəsi 8x8 metr.

Biləsuvar şəhər Cümə məscidinin tikintisində keçmiş icra hakimiyyətinin başçısı Yusif Mehtiyev, Axund Əlifağa Böyükağa oğlu, Tanrıverən Tanrıverdi oğlu, Hacı İzzət Qarayev, Avtandil Quliyev xüsusi təşəbbüs göstərmişlər.

1994-cü ildən etibarən rayonun yeni icra başçısı Əli Bədir Babayevin başçılığı altında tikinti işləri davam etdirilib. Məscidin tikintisinə qoyulan vəsait ümumi şəhər əhalisinə məxsusdur. 1997-ci ilin iyununda məscid Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Məscidin əsas binasının günbəzi ağ dəmir təbəqədən işlənmişdir. Burada eyni zamanda mədrəsə də tikilmişdir ki, onun da sahəsi 8x8 metrdir. Tikilməkdə olan minarələrin hündürlüyü 15 metrə çatacaq. Məscidin günbəzinin diametri 8 metrdir. Pəncərələr tağvari formada olub, taxtadan düzəldilib. Məscidin tağvari formalı üç giriş qapısı var. Əsas ibadət zalı və mədrəsə dairəvi formadadır. Məscidin minbəri taxtadan olub, yeddipillədir. Ustaları Xankişi Mirzəyev, Şakir Həsənov, Qəribağa Murtuzov, iş icraçısı isə Allahşükür Şirinovdur.

Məscidin axundu Əlifağa Böyükağaoğludur.

## ƏSGƏRABAD KƏND MƏSCİDİ



Məscid Biləsuvar rayonunun Əsgərabad kəndində tikilib. Bünövrəsi 1968-ci ildə qoyulmuş və 1995-ci ildə kənd sakinlərinin təşəbbüsü ilə başa çatdırılmışdır. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 8x18 metrdir.

Əsgərabad kənd məscidi mişar daşları ilə tikilmişdir. Divarları iç və fasad tərəfdən sement məhlulu ilə suvanmışdır. İç divarları əhənglə ağardılmışdır. Döşəməsi torpaq, tavanı isə taxtadır. Tavan düzbucaqlı formada olub, iki dəmir boru üstündə dayanmışdır. Dam örtüyü şiferdəndir. Günbəzi altıguşəlidir, dəmir təbəqə ilə işlənmişdir.

## AĞALIKƏND MƏSCİDİ



Məscid Biləsuvar rayonunun Ağalı kəndindədir. 1990-cı ildə inşa edilib. Həyətyanı sahəsi 5000 kv.metr, iç sahəsi 5,5x20 metr, hündürlüyü 3,8 metrdir.

Ağalıkənd məscidi vaxtilə kolxoz sədri olmuş Əlisa Əzizov tərəfindən tikilmişdir. Yerli camaat da məscidin tikintisində yaxından iştirak etmişdir. Məscidin döşəməsi beton, tavanı isə beton plitədəndir. Giriş qapısından içəridə dəhliz (sahəsi 8x3 metr) yerləşmişdir. Dəhlizin döşəməsi kafel, tavanı isə taxtadandır. Məscidin əsas binası bişmiş kərpicdən hörülmüşdür. Hər iki tərəfində qoşa minarələr ucaldılmışdır. Minarələr dəmir borudan olub, hündürlüyü 14 metrdir. Minarələrin üstündə dəmir təbəqədən aypara və səkkizguşəli ulduz rəmzi qoyulmuşdur. Məscidin günbəzi altıguşəlidir. Minarələrin və günbəzin üstü ağ dəmir təbəqə ilə işlənmişdir. Əsas ibadət zalının bir giriş qapısı və 10 tağvari formada olan pəncərəsi vardır.



## YUXARI CÜRƏLİ KƏND MƏSCİDİ



Biləsuvar rayonunun Yuxarı Cürəli kəndində yerləşən məscid 1993-cü ildə inşa edilib. Məscidin həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi 22x12 metrdir.

Məscid bişmiş kərpiclə tikilmişdir və düzbucaqlı formadadır. Dam örtüyü şiferdəndir. Günbəzi güldəstə formasında olub, altıguşəlidir. Günbəzin üstü ağ dəmir təbəqə ilə işlənmişdir. Məscidin iki əsas giriş qapısı var. Minarəsi mişar daşı və dəmirlə işlənib, hündürlüyü 28 metrdir. Məscidin tavanı taxta, döşəməsi isə torpaqdır. Tavan 3 ədəd dəmir boru üzərində dayanmışdır. Əsas ibadət zalı pərdə ilə iki hissəyə-kişilər və qadınlar şöbəsinə bölünüb.

Məscid yerli kənd camaatının istəyi ilə tikilmişdir. Kənddə inşa tarixi 1964-cü ilə aid başqa bir məscid də vardır.

## BAĞBANLAR KƏND MƏSCİDİ



Məscid Biləsuvar rayonunun Bağbanlar kəndindədir. 1993-cü ildə inşa edilib. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi 10x22 metrdir.

Bağbanlar kənd məscidi əsasən mişar daşı və qismən bişmiş kərpiclə tikilmişdir. Məscidi tikdirən yerli sakin Mikayıl İbrahim oğludur. Bu məscid tikilənə qədər kənddə məscid olmamışdır. Məscidin tikintisi hal-hazırda da davam etdirilir. Məscidin damının örtüyü kirəmitdəndir. Dördguşəli günbəzi güldəstə formasındadır. Günbəzin üstü ağ dəmir təbəqə ilə işlənmişdir. Məscidin əsas giriş qapısının ön tərəfində eyvan yerləşmişdir. Eyvan on tağdan ibarətdir. Tağlar bişmiş kərpiclə hörülmüşdür. Döşəmə torpaq, tavan taxtadandır. Tavan dördbucaqlı formasındadır və üç sütun üzərində dayanmışdır. Məscidin qapı və pəncərələri taxtadan hazırlanmışdır. Qadınlar və kişilər şöbəsi arasındakı arakəsmə mişar daşı ilə hörülmüşdür.

## ZƏHMƏTABAD KƏND MƏSCİDİ



Məscid Biləsuvar rayonunun Zəhmətabad kəndində yerləşib. 1991-ci ildə inşa edilib. Həyətyanı sahəsi 1200 kv.metr, iç sahəsi 12x28 metrdir.

Zəhmətabad kənd məscidinin divarları mişar daşından hörülmüşdür. Damı isə şiferlə örtülmüşdür. Məscid düzbucaqlı formada olub, iç və fasad divarları qum-sementlə suvanmışdır. Tavanı və döşəməsi taxtadır. Əsas ibadət zalı iki hissədən ibarətdir. İbadət zalında iki qapı və 14 pəncərə vardır. Pəncərələr tağvari, qapılar isə düzbucaqlı formadadır. Tavan altı dəmir boru üzərində dayanmışdır. Sütunlar taxta ilə üzlənmişdir. Minbər taxtadandır. Məscidin ön tərəfində dəhliz yerləşmişdir. Dəhlizə giriş qapısı dəmirdəndir. Dəhlizin ön tərəfində dəmir borudan minarə (hündürlüyü 12 metr) ucaldılmışdır.

## AŞAĞI CÜRƏLİ KƏND MƏSCİDİ



Məscid Biləsuvar rayonunun Aşağı Cürəli kəndində tikilib 1986-cı ildə inşa olunub. İç sahəsi 12x20 metr, ön tərəfindəki eyvanın sahəsi 20x4 metrdir.

Məscid tamamilə bişmiş kərpicdən tikilmişdir. O, yerli sakin Mirəhməd Cəfərovun təşəbbüsü nəticəsində və yerli kənd sakinlərinin maliyyə vəsaiti hesabına başa gəlmişdir. Məscidin qoşa minarəsi (hər birinin hündürlüyü 14 metr) vardır. Minarələr dəmir borudandır. 1986-cı ildə məscid yanğına məruz qalmış və yenidən bərpa edilmişdir. Məscidin döşəməsindən tavana qədər hündürlüyü 10 metrdir. Döşəmə taxtadandır. Tağvari formalı üç giriş qapısı var. Dam örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Məscidin iç divarları sementlə suvanmışdır. Günbəz və minarənin üstündə dəmir təbəqədən aypara rəmzi qoyulmuşdur. Məscidin eyvanının döşəməsi bişmiş kərpic, tavanı isə taxtadır. Eyvan on dəmir boru sütun üzərində dayanmışdır.

*Qeyd:*

Biləsuvar rayonunun daha 13 kəndində- Xırmandalı, Səmədabad, Əzizbəyov, Nəsimi, İsmətli, Mahmudlu, Əliabad, Təzəkənd, Nərimankənd, Şəhriyar, Aşağı Cürəli, Günəşli və Bəydirlidə də məscidlər fəaliyyətdədir.

# BƏRDƏ RAYON MƏSCİDLƏRİ

## BƏRDƏ ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Bu məscid Bərdə şəhərinin mərkəzində yerləşmişdir. Əsas giriş qapısının üstündə ərəb rəqəmi ilə 1324-cü il tarixi göstərilib. Ehtimal ki, bu, məscidin bərpa edildiyi tarixdir. Məscidin kim tərəfindən tikildiyi barədə dəqiq məlumat yoxdur. Bu məscid əsrin əvvəllərindən 1990-cı ilə qədər gübrə anbarı, məktəb və arxiv binası kimi istifadə olunub. Lakin 1990-cı ildən sonra bu məscid yerli sakin Məşədi Ramazanın şəxsi təşəbbüsü və yerli camaatın vəsaiti hesabına təmir etdirilib.

Düzbucaqlı formada olan məscid binası başdan-başa bişmiş kərpiclə işlənib. İbadət zalının sahəsi 14x12 metr, hündürlüyü 5 metrdir. Məscidin minbəri yeddipilləli olub, taxtadan düzəldilmişdir. Mehrabının hündürlüyü isə 2,5 metrdir və tağvari formadadır. Damın örtüyü ağ dəmir təbəqədəndir. Məscidin minarələri də bişmiş kərpicdən olub, damdan ucaldılmışdır (5 metrdir). Minarələr dəyirmi formada olub, qübbəsi ağ dəmir təbəqə ilə işlənib.

Məscidin ön tərəfində açıqşəkilli eyvan yerləşib. Məscidin qadınlar şöbəsi birinci və ikinci mərtəbədədir. İkinci mərtəbənin sahəsi 12x4 metrdir.

Bərdə şəhər Cümə məscidinin axundu Məşədi Ramazan Muxtar oğludur.



## BƏRDƏ TÜRBƏSİ



Bərdə şəhərində yerləşən bu tarixi memarlıq abidəsini hicri-qəməri təqvimi ilə 1332-ci ildə memar Əhməd ibn əl-Hafiz Naxçıvani tikib. Türbə dövrünün görkəmli şəxsiyyətlərinin xatirəsini əbədiləşdirmək üçün tikilən bürcvari türbələr qrupuna daxildir. Hündürlüyü 12,5 metr olan Bərdə türbəsi silindrik gövdədən və konusşəkilli günbəzdən ibarətdir. Abidənin oturacağı daşdan hörülmüş kürsü formasındadır. Türbənin çoxrəngli kəsmə mozaikadan quraşdırılıb, zəngin ornamentlə bəzədilmiş iki baş tağı onun sadə və aydın kompozisiyasını dolğunlaşdırır. Abidənin bütün səthi üzərinə firuzə rəngli kaşı çəkilib və kərpiclə naxışlanıb. Bu cür orijinal hörgünün kərpic naxışlarında "Allah" sözü mütənasib surətdə təkrarlanır. Bərdə türbəsi bürcvari Azərbaycan türbələri üçün xarakterik olan yeraltı və yerüstü hissələrə bölünür. Yeraltı hissə isə türbənin dəfn üçün ayrılmış sərdabəsi, yerüstü hissə isə xatirə abidəsi olub, monumental xarakter daşıyır.

Abidənin müvafiq kitabəsi uçub dağıldığından onun kimin şərəfinə tikildiyi məlum deyil. Lakin onun Elxanilər sülaləsindən bir nəfər üçün tikildiyi ehtimal olunur.

Abidəyə camaat arasında "Nüşabə qalası" da deyirlər. Formaca dəyirmi olan bu abidə başdan-başa bişmiş kərpiclə işlənmişdir.

## BƏRDƏ ŞƏHƏR İMAMZADƏSİ



Abidə imam Cəfər Sadiqin (ə) qız nəvəsi İsmailın qəbri ilə əlaqədardır. Bərdə tarixi ipək yolunun üstündə olduğundan, tacirlər daim buradan keçmişlər. Deyilənə görə, buradan keçən İbrahim adlı bir tacir həmin yeri görmüş və XII əsrdə burada türbə tikdirmişdir. Sonralar bu türbə böyüdülmüş və geniş imamzadəyə (1868) çevrilmişdir.

İmamzadə başdan-başa bişmiş kərpiclə tikilmişdir. Həyətyanı sahəsi 70x80 metrdir. Əsas binası düzbucaqlı formada olub, bişmiş kərpiclə işlənib. İmamzadə dörd minarəyə malikdir. Onlardan ikisinin hündürlüyü 12 metr, digər ikisinin hündürlüyü isə 15 metrdir. Minarələr də bişmiş kərpicdən inşa edilib.

İmamzadənin əsas hissəsində qəbir yerləşib. Alt hissədə sərdabə var. Burada müxtəlif qəbirlər mövcuddur. Əsas hissədə yerləşən qəbir rəmzi xarakter daşıyır və dəmirdən işlənib. Abidənin bu hissəsi dörd tağdan ibarətdir. Tağlar üzərində günbəz yerləşib. Yerdən günbəzədək 8 metrdir. Abidənin əsas hissəsindən sağ və sol tərəfdə iki hücrə yerləşib. Biri kişilər, o biri qadınlar üçün nəzərdə tutulub.

İmamzadə 1974-cü ilədək bağlı qalıb. 80-ci illərdən bura yenidən ziyarətgaha çevrilib.

1994-cü ildə xeyriyyəçi Vidadi Əli oğlu öz vəsaiti ilə imamzadə ətrafında inşaat işlərinə başlayıb. Bu zaman dini mərasimlərin keçirilməsi üçün iki tikili inşa olunub.

## SEYİD TÜRBƏSİ



Türbə Bərdə şəhər imamzadəsinin giriş qapısından sağ tərəfdə yerləşib. Dördbucaqlı formada olan bu türbə başdan-başa bişmiş kərpiclə tikilmişdir. Dam örtüyü də kərpicdəndir. Abidənin günbəz hissəsində dördguşəli ulduz işlənib.

Türbənin iç sahəsi 3x2,5 metrdir. İçəridə iki qəbir yerləşib. Burada fars dilində yazı da vardır.

### ƏMİRLİ KƏND MƏSCİDİ



Məscid Bərdə rayonunun Əmirli kəndindədir. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi isə 7x14 metrdir.

Düzbucaqlı formada olan bu məscid başdan-başa bişmiş kərpicdən tikilib. Məscidin tarixi hicri-qəməri tarixi ilə 1333-cü ilə aiddir. Əsas giriş qapısının qarşısında açıqşəkilli eyvan vardır (14x3 metr).

Döşəmə torpaq, tavan isə taxtadandır. Düzbucaqlı formada olan tavan dörd taxta sütun üzərində dayanıb. Mehrab tağvari şəkildədir və divarın içərisində yerləşib.

### BƏHMƏN MİRZƏ TÜRBƏSİ



Bu türbə Bərdə İmamzadəsinin həyətində yerləşmişdir. Türbə başdan-başa bişmiş kərpicdən inşa olunmuşdur.

Türbənin bəzi yerlərində xüsusi memarlıq nümunələri hiss olunur. Qəbir yerləşən otağında altı daş kitabə həkk olunub. Döşəmədən günbəzədək hündürlüyü 1 metrdir.

Türbənin divarlarının qalınlığı 1 metrdir.

### UĞURBƏYLİ KƏND MƏSCİDİ



Məscid Bərdə rayonunun Uğurbəyli kəndində tikilib. İlkin tarixi XX əsrin əvvəllərinə aiddir. Sovetlər dövründə əvvəlcə anbar kimi istifadə edilən, daha sonra bağlı qalan bu məscid çox bərbad vəziyyətə düşmüş və camaat tərəfindən sökülərək yerində yeni məscid tikilmişdir.

Məscidin minarəsi (hündürlüyü 12 metrdir) bişmiş kərpicdəndir. Döşəmə də bişmiş kərpiclə işlənib. Divarlar içəridən suvanmışdır. Damın örtüyü şiferlə işlənib.

Məscidin yanında türbə də mövcuddur. Türbə də bişmiş kərpicdən işlənib.

*Qeyd:*

Bərdə rayonunun Mollalı, 32-lər, Gərənə və Dilənçilər kəndlərində də hal-hazırda məscidlər fealiyyət göstərir.



## QAX RAYON MƏSCİDLƏRİ

### QAX ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Məscid Qax şəhərinin mərkəzində yerləşib. Giriş qapısının sol tərəfində divarda oyma üsulu ilə daş kitabə həkk olunmuşdur ki, bu da məscidin hicri-qəməri təqvimi ilə 1220-ci ildə tikildiyini göstərir. Həyətyanı sahəsi 700 kv.metr, əsas ibadət zalının sahəsi 20x10 metrdir.

Qax şəhər Cümə məscidinin həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, daş hasara alınmışdır. Məscid formaca dördbucaqlıdır. Dam örtüyü qırmızı kirəmitlə işlənmişdir.

Minarəsi dəyirmi formada olub, bişmiş kərpiclə işlənmişdir. Hündürlüyü 16 metrdir. Minarəsi hicri-qəməri təqvimi ilə 1288-ci ildə ucaldılmışdır. Minarənin üstündə aypara və beşguşəli ulduz rəmzi qoyulmuşdur.

Məscidin üç giriş qapısı vardır. Dördbucaqlı formada olan qapılar taxtadan düzəldilib.

Məscidin giriş qapısı tərəfdə eyvan yerləşmişdir. Döşəməsi bişmiş kərpic, tavanı isə taxtadandır. Eyvanın sahəsi 2x16 metrdir. Məscidin əsas ibadət zalının hündürlüyü 4 metrdir. Tavanı taxtadan olub, dördbucaqlı formadadır. Tavan altı taxta sütun üzərində yerləşmişdir. Mehrabı çox sadə formadadır, hündürlüyü 3 metrdir. Minbəri taxtadandır, yeddipilləlidir.

İbadət zalında 16 pəncərə qoyulmuşdur. Pəncərələr taxtadan düzəldilərək şəbəkə və rəngli şüşədən işlənmişdir.

Məscid sovetlər dövründə anbar və muzey qismində istifadə edilmişdir. 1990-cı ildən etibarən bərpa olunmuş və məscid kimi istifadəyə verilmişdir.

Qax şəhər Cümə məscidinin imamı Novruz Əfəndi Ramazanoğludur. Mollası isə Molla Hüseyndir.

### QAX ŞƏHƏR QUBƏ MƏSCİDİ



Məscid Qax şəhərinin mərkəzi hissəsindədir. Bünövrəsi 1995-1996-cı illərdə qoyulmuşdur. Həyətyanı sahəsi 10.000 kv.metr, iç sahəsi 9x15 metrdir.

Qax şəhər Qubə məscidinin tikintisi Qatar Xeyriyyə Cəmiyyəti tərəfindən maliyyələşdirilmişdir. Memarı Fərman Laçınovdur.

Məscid bişmiş kərpiclə işlənmişdir. Həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, daş hasara alınmışdır.

Formaca düzbucaqlı şəklindədir. Minarəsi bişmiş kərpicdən götürülmüşdür. Minarənin qübbəsi ağ dəmir təbəqədən işlənib. Məscidin damı və günbəzi ağ dəmir təbəqə ilə örtülmüşdür. Minarə və günbəzin üstündə ağ dəmirlə aypara rəmzi qoyulmuşdur. Məscidin ətrafı asfaltla döşənmişdir. Minarənin hündürlüyü 21 metr, məscidin döşəmədən tavanadək hündürlüyü isə 12 metrdir. Günbəz iç tərəfdən taxta ilə işlənmişdir.

## İLİSU KƏND MƏSCİDİ (I)



Məscid Qax rayonunun İlisu kəndinin Bucaq məhəlləsində yerləşib. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1269-cu ilə aiddir. Həyətyanı sahəsi 300 kv.metr, iç sahəsi isə 22x8 metrdir.

Məscid dördbucaqlı formada olub, çaylaq daşı ilə tikilmişdir. Dam örtüyü qırmızı kirəmitlə işlənmişdir. Giriş qapısı bir ədəddir. Qapı dördbucaqlı formada olub, taxtadan düzəldilmişdir. Döşəmə və tavan taxtadandır. Məscidin divarları iç tərəfdən qum-sement məhlulu ilə suvanmışdır. Minarəsi (4 pilləlidir) taxtadan düzəldilib.

Məscidin üstündəki digər kitabəyə əsasən burada hicri-qəməri tarixi ilə 1304-cü ildə təmir işləri aparılıb.

## LƏKİT CAMİSİ



Qax rayonunun Ləkit camisinin üzərində kitabə yoxdur. Məscidin ətrafında dəfn olunmuş şəxslərin epitafiyalarındakı tarixlərə əsasən onun tarixini müəyyənləşdirmək mümkün olmuşdur. Məscidin binasından solda mövcud olan qəbirlər üzərində çaylaq daşlarından düzəldilmiş başdaşılar qoyulmuşdur. Abidələr mürəkkəb kompozisiyalı nəbati ornament və kitabə motivləri ilə çox nəfis surətdə işlənmiş, gözəl süls elementli nəsx xətləri ilə yazılmış kitabələrə malikdir. Birinci qəbirdə Hacı Vəli (vəfatı hicri 1192(1778), ikinci qəbirdə Hacı Ramazan İsmayıl (vəfatı hicri 1202(1787-88) dəfn edilmişdir.

Məscidin cənub-şərq fasadında, yerdən üç başdaşı hörülmüşdür ki, bu da həmin yerdə alimlərin dəfn olunduğunu göstərir. Sağ tərəfdən birinci başdaşının ərəbcə olan kitabəsində deyilir:

"Bu qəbir mərhum zaxurlu alim Ramazan Əfəndinin oğlu, mərhum alim Hacı Yaqub Əfəndinindir." Hicri 1275(1858-1859)-ci ildə bu fani dünyadan axirət evinə köçmüşdür.

Cami önündə dəfn olunmuş üç alimin-Hacı Yaqub Əfəndi, Qazi Məhəmməd Əfəndi və Molla Sultanın başdaşındakı yazılarda verilmiş şəcərələrdən bir neçə arxa alimlərin adlarını aşkar etmək mümkün olmuşdur. Kitabədə Ləkitdə yaşayıb Camidə fəaliyyət göstərmiş alimlərin şəcərəsi də verilib.





## QUM KƏND MƏSCİDİ



Məscid Qax rayonunun Qum kəndində yerləşib. İnşa tarixi dəqiq məlum deyil. Məscidin həyətyanı sahəsi 1200 kv.metr, İç sahəsi isə 28x13 metrdir.

Qum kənd məscidi çaylaq daşı və bişmiş kərpiclə inşa edilmişdir. Döşəməsi torpaq, tavanı plastik materialdandır. Tavan 7 boru sütun üzərində dayanmışdır. Həyətyanı sahəsi daş hasara alınmışdır. Formaca dördbucaqlı olan bu məscidin damının örtüyü dəmir təbəqədən işlənmişdir. Günbəzi dəyirmi formada olub, ağ dəmir təbəqə ilə örtülmüşdür. Günbəzin üstündə aypara və beşguşəli ulduz rəmzi də vardır. Məscidin üç giriş qapısı var. Giriş qapılarının önündə eyvan (sahəsi 28x2 metr) yerləşmişdir.

İbadət zalının hündürlüyü 5 metrdir. Məscidin minbəri taxtadandır, beşpilləlidir. Mehrabı çox sadə olub, hündürlüyü 4 metrdir. İbadət zalında (tağvari formada) 18 pəncərə qoyulmuşdur.

Sovetlər dövründə anbar kimi istifadə edilmişdir. 1988-ci ildə məscid öz fəaliyyətini bərpa etmişdir.

## QARADOLAQ MƏHƏLLƏ MƏSCİDİ



Məscid Qax rayonunun İlisu kəndinin Qaradolaq məhəlləsində tikilib. Məscidin inşa tarixi hicri-qəməri təqvimi ilə 1201-ci ilə aiddir. Hal-hazırda çox bərbad vəziyyətdədir. Demək olar ki, sökülüb dağılmışdır. Tavanı, divarları uçub tökülmüşdür.

Məscidin əsaslı surətdə bərpa olunmasına tələbat vardır.

## ƏNBƏRÇƏ CAMİSİ

Cami Qax rayonunun Ənbərçə kəndindədir. Bu məscidin kənddə olması vaxtilə mədəni-maarif işlərinin inkişaf etdiyini göstərir. Bu fikri məscid yanında Seyid Məhəmmədin (XVII əsrdə məşhur alim olmuşdur) bir neçə arxa övladlarından olan alimlərin dəfn olunması da sübut edir.

Məsciddən solda qəbirlərdən birinin üzərindəki çaylaq daşından, nəbati ornament və kitabə motivləri ilə işlənmiş başdaşıya (1,22x0,43 metr) qabarıq süls elementləri, nəsx xəttilə ərəbcə yazılmış kitabədə bu sözlər oxunur.

"Ölüm elə bir kasa, hamı ondan içməlidir,
Qəbr elə bir qapı, hamı ondan keçməlidir."

Kənddə hazırda məzarları ziyarətgaha çevrilmiş Seyid Məhəmməd Əfəndi, onun oğlu Molla Yusif, nəvələri (Yusifin oğulları) Molla Fətəli, Molla Nəsir, nəticəsi (Molla Fətəlinin oğlu) Molla Məhəmmədin qəbir kitabələrinə əsasən caminin 300 il ərzində fəaliyyəti haqqında fikir yürütmək olar. Adları çəkilənlər Ənbərçə camisinin nəzdindəki mədrəsənin müdirləri olmuşlar.

## İLİSU KƏND MƏSCİDİ



Məscid Qax rayonunun İlisu kəndində yerləşib. Giriş qapısının üstündə-sağ və sol tərəfdə daş kitabələr həkk olunmuşdur. Bu kitabələrin birində məscidin inşa tarixi 1142-ci il göstərilir. Məscidin iç sahəsi 23x14 metrdir.

İlisu kənd məscidi bütünlükdə bişmiş kərpicdən tikilmişdir. Tavanı düzbucaqlı formada olub, səkkiz sütun üzərində dayanmışdır. Sütunlar bişmiş kərpicdəndir.



Böyük tarixə malik olan bu məscid hazırda bərbad vəziyyətdədir. Təmirə böyük ehtiyac duyulur. Məscid istifadə olunmur.

## GÜLLÜK KƏND MƏSCİDİ



Məscid Qax rayonunun Güllük kəndində inşa edilib. İnşa tarixi 1309-cu ilə aiddir. Bu barədə giriş qapısının sağ tərəfində divarda oyma üsulu ilə yazı həkk olunmuşdur. Həyətyanı sahəsi 2000 kv.metr, iç sahəsi isə 21x12 metrdir.

Güllük kənd məscidi çaylaq daşı və bişmiş kərpiclə işlənmişdir. Dam örtüyü ağ dəmir təbəqədəndir. Həyətyanı sahəsi daş hasara alınmışdır. Giriş qapısının önündə eyvan yerləşmişdir. Eyvan (sahəsi 12x4 metr) üç tağdan ibarətdir. Məscidin döşəməsi və tavanı taxtadandır. Məscidin həm birinci, həm də ikinci mərtəbəsində yardımçı otaqlar vardır. Məscid formaca düzbucaqlıdır. Tavanı da düzbucaqlı formada olub, 12 sütun üzərində dayanmışdır. Döşəmədən tavana qədər hündürlüyü 5 metrdir. İbadət zalında 12 (tağvari formalı) pəncərə qoyulmuşdur. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanmışdır. Mehrabı sadədir və hündürlüyü 4 metrdir. Minbəri taxtadandır, 3 pilləlidir. Məscidin sütunları səkkizguşəlidir.

Sovetlər dövründə anbar qismində istifadə olunmuşdur. 1992-ci ildə məscid yerli camaatın vəsaiti hesabına bərpa olunaraq möminlərin ixtiyarına verilmişdir.

*Qeyd:*

Qax rayonunun daha 10 kəndində- Ənbərçay, Zərnə, Tasmalı, Çinarlı, Zəyəm, Qaşqaçay, Qıpçaq, Əmircan, Marsan və Almalı kəndlərində də hazırda məscidlər vardır.



# QƏBƏLƏ RAYON MƏSCİDLƏRİ

## QƏBƏLƏ ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Məscid Qəbələ şəhərinin mərkəzində yerləşir. Bişmiş kərpic və çay daşından tikilən bu məscidin inşasına 1896-cı ildə başlanmış və 1906-cı ildə başa çatmışdır. İç sahəsi 42x20 metrdir. Məscidin günbəzi yoxdur, minarəsi isə dəyirmi formada olub, bişmiş kərpiclə işlənmişdir. Minarənin qübbəsi ağ dəmir təbəqə ilə işlənib və səkkizguşəyə malikdir. Məscidin damının örtüyü də ağ dəmir təbəqə ilə işlənib.

Məscid 1906-cı ildən 1921-ci ilə qədər fəaliyyət göstərmişdir. Bundan sonra o, anbar, kinoteatr, mədəniyyət evi, klub, məhkəmə və iclas zalı kimi istifadə olunmuşdur. 1983-cü ildə artıq məscidin binası çox bərbad vəziyyətə düşmüşdür. Elə həmin il məscid xüsusi olaraq Qəbələ rayon Tarix Diyarşünaslıq muzeyi üçün təmir edilməyə başlanmışdə. 1983-1985-ci illərdə Azərbaycan Mədəniyyət Nazirliyinin Elmi-Bərpa İstehsalat İdarəsi tərəfindən həyata keçirilmişdir. Bərpa üzrə layihənin müəllifi şəhərin baş memarı Azər Süleymanovdur. 1985-1986-cı illərdə Qəbələ rayonu Tarix Diyarşünaslıq Muzeyi bu binaya köçmüş və indiyədək fəaliyyət göstərir. Təmir-bərpa işləri zamanı məscid əsaslı surətdə rekonstruksiya edilmişdir. Bərpa işləri Qəbələ Bərpaçı İdarəsinin rəisi D.Bayramovun rəhbərliyi altında həyata keçirilib.

## QƏBƏLƏ ŞƏHƏR "SƏKKİZGUŞƏLİ" MƏSCİDİ



Məscid Qəbələ şəhərinin Həzi Aslanov küçəsindədir. İnşa tarixi XVIII əsrin axırlarına aid olunur.

Qəbələ şəhər "Səkkizguşəli" məscidi formaca səkkizguşəli olub, çaylaq daşı və bişmiş kərpiclə tikilmişdir. Damının örtüyü qırmızı kirəmitlə işlənmişdir. Giriş qapısı taxtadandır və düzbucaqlı formaya malikdir. Məscidin hər guşəsində bir pəncərə qoyulmuşdur. Pəncərələr tağvari şəkillidir. Giriş qapısının ön tərəfində eyvan yerləşmişdir. Eyvan 8 ədəd dəmir boru sütun üzərində dayanmışdır.

Məscid sovetlər dövründə pendir zavodu kimi istifadə edilmişdir.

1985-1986-cı illərdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Bərpa İdarəsi tərəfindən təmir edilmiş və möminlərin ixtiyarına verilmişdir.

Məscidin mollası Ağasəlim Umudəliyev, imamı isə İlham Bilaloğludur.

## ŞEYX MƏHƏMMƏD TÜRBƏSİ

Türbə Qəbələ rayonunun Həzrə kəndində yerləşir.

Türbə yonulmuş sal daşlardan hörülmüşdür. Hündürlüyü 10 metr, iç sahəsi isə 4x4 metrdir. Giriş qapısının üstündə 1 böyük və sağ tərəfində daha 1 kiçik kitabə həkk olunmuşdur. Qapı tağvari formadadır. Günbəzi sivri ucludur. Türbənin döşəməsi daş plitədəndir. Qəbir döşəmənin altında yerləşmişdir.



## ŞEYX MÖVLANA BƏKİR TÜRBƏSİ

Türbə Qəbələ rayonunun Həzrə kəndinin qəbristanlığındadır.

Hündürlüyü 12 metr olan bu abidə səkkizguşəlidir. Giriş qapısının üstündə sol tərəfdə kiçik bir kitabə həkk edilmişdir. Türbə yonulmuş sal daşlardan tikilmişdir. İç sahəsi 3,5x3,5 metrdir. Döşəməsi daş plitələrlə döşənmişdir. Qəbir döşəmənin altında yerləşmişdir.



## ŞEYX BƏDRƏDDİN TÜRBƏSİ

Türbə Qəbələ rayonunun Həzrə kəndində inşa olunub.

Abidə sal daşlarla tikilmişdir. İç sahəsi 3,5x3,5 metrdir. Bir giriş qapısı vardır. Türbənin döşəməsi daş plitələrlə döşənmişdir. Qəbir döşəmənin altındadır. Giriş qapısının üstündə kitabələr həkk edilmişdir. Türbənin hündürlüyü 10 metrdir.





## ŞEYX MƏNSUR TÜRBƏSİ

Türbə Qəbələ rayonunun Həzrə kəndində jerləşir.

Səkkizguşəli formada olub, günbəzi sivri ucludur. Yonulmuş sal daşlarla tikilmişdir. Bir ədəd giriş qapısı vardır. Qapı tağvari formadadır. Qapının üstündə üçpilləli daş kitabə həkk edilmişdir. Türbənin iç sahəsi 3,5x3,5 metrdir. Hündürlüyü isə 10 metrdir. Döşəməsi plitədəndir. Qəbir döşəmənin altındadır. Türbə qəbirdə uyuyan Şeyx Mənsurun adını daşıyır. Onun gənc ikən vəfat etdiyi göstərilir. Bu haqda türbədə yazılar da həkk olunmuşdur.



## HACI MUSA ƏFƏNDİ MƏSCİDİ

Məscid Qəbələ rayonunun Tüntül kəndindədir. Tikintisi 1995-ci ildən başlanmışdır.

Məscid yerli sakin Hüseyn Əfəndinin təşəbbüsü ilə tikilir. Hal-hazırda inşaat işləri davam edir. Məscid başdan-başa mişar daşı ilə tikilir. Tikintini Türkiyə Gənclərə Yardım Fondu maliyyələşdirir.



## ŞEYX MOLLA MƏHƏMMƏD BABA PİRİ

Pir Qəbələ rayonunun Həmzəli kənd qəbristanlığındadır. İnşa tarixi dəqiq məlum deyil. Lakin pirin giriş qapısının sol tərəfində çaylaq daşının üstündə 1329-cu il tarixi göstərilmişdir.

Pir-abidənin iç sahəsi 10x3 metr, divarlarının qalınlığı 1m 20 sm-dir. Damının örtüyü qırmızı kirəmitdəndir.

Camaat arasında bu abidəyə "Şıx Baba" piri də deyilir. Pirin içərisində Şıx Babanın qəbri və digər iki qəbir qoyulmuşdur.



## VƏNDAM KƏND MƏSCİDİ



Məscid Qəbələ rayonunun Vəndam kəndində yerləşib. 1996-1997-ci illərdə inşa olunub. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi isə 16x8 metrdir.

Vəndam kənd məscidi formaca düzbucaqlı olub, bişmiş kərpiclə inşa edilmişdir. Damının örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Günbəzi güldəstə formasındadır və altıguşəlidir. Günbəzin hündürlüyü 4 metrdir, üstündə aypara və səkkizguşəli ulduz rəmzi qoyulmuşdur. Məscidin bir giriş qapısı vardır. Tağvari formalı qapı taxtadan düzəldilmiş və nəfis şəkildə işlənmişdir. Qapının üstündəki taxta üzərində məscidin inşa tarixi göstərilmişdir. Məscidin ön tərəfində (sahəsi 17x2 metr) eyvan yerləşmişdir.

Məscidin tavanı düzbucaqlı formada olub, taxta ilə işlənmişdir. Tavan altı dəmir boru sütun üstündə dayanmışdır. İbadət zalında 8 tağvari formalı pəncərə qoyulmuşdur. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanmışdır. Həyətyanı sahəsi hasara alınmışdır.

Məscid Birləşmiş Ərəb Əmirliklərindən olan bir xeyriyyəçi təşkilat tərəfindən tikilmişdir.

*Qeyd:*

Giriş qapısının sol tərəfində-divarda hicri-qəməri təqvimi ilə 1334-cü il tarixi göstərilmişdir. Camaatın qeyd etdiyinə görə, bu məscidin yerində başqa bir məscid olmuşdur. Həmin məscid Sovetlər dövründə anbar kimi istifadə edilmişdir. Lakin sonralar həmin köhnə məscid sökülmüş və yerində indiki məscid tikilmişdir.

## NOHUR QIŞLAQ MƏSCİDİ



Məscid Qəbələ rayonunun Nohur Qışlaq kəndində inşa edilib. 1989-cu ildə inşa olunub. İç sahəsi 20x6 metr, həyətyanı sahəsi 5000 kv.metrdir.

Nohur Qışlaq məscidi mişar və çaylaq daşı ilə tikilmişdir. Formaca dördbucaqlı olan bu məscidin döşəməsi taxta, tavanı isə fanerdəndir. Mehrabı divarın içərisində olub, hündürlüyü 2 metrdir. Döşəmədən tavana qədər 3 metrdir. Tavan 4 dəmir boru üstündə dayanmışdır. Damının örtüyü şifer və qırmızı kirəmitlə işlənmişdir. Həyətyanı sahəsi dəmir hasara alınmışdır. Günbəzi güldəstə formasında olub, hündürlüyü 2 metrdir. Günbəz dördguşəlidir və üstü ağ dəmir təbəqə ilə işlənmişdir. Məscid Murad Əmrahovun təşəbbüsü ilə usta mirzə tərəfindən inşa edilmişdir.

## HƏMZƏLİ KƏND MƏSCİDİ



Məscid Qəbələ rayonunun Həmzəli kəndində yerləşir. Məscidin tikintisinə 1998-ci ilin mart ayında başlanmış və 1998-ci ilin iyul ayında istifadəyə verilmişdir. İç sahəsi 9x7 metrdir.

Həmzəli kənd məscidi mişar daşı ilə tikilmişdir. Döşəməsi taxta, tavanı isə fanerdir. Düzbucaqlı formada olan bu məscidin damının örtüyü və günbəzi ağ dəmir təbəqə ilə işlənmişdir. İç divarları qum-sement məhlulu ilə suvanmışdır. İbadət zalında 6 pəncərə qoyulmuşdur. Onlar taxtadan olub, tağvari formadadır. Günbəzin üstündə aypara və səkkizguşəli ulduz rəmzi qoyulmuşdur.

Amerika müsəlmanlarının Beynəlxalq Xeyriyyə Fondu tərəfindən tikilib istifadəyə verilmişdir. Qeyd edək ki, Qərb ölkələrində və xüsusən Amerikada yaşayan müsəlmanların bu qəbil bir çox xeyriyyə fondları vardır.



## BUM KƏND CÜMƏ MƏSCİDİ



Məscid Qəbələ rayonunun Bum kəndində tikilib. Hicri-qəməri təqvimi ilə 1304-cü ildə (1885) inşa olunub. İç sahəsi 30x11 metr, həyətyanı sahəsi 3000 kv.metrdir.

Bum kənd Cümə məscidinin bütün binası bişmiş kərpic və çaylaq daşı ilə işlənmişdir. Məscidin divarlarının hörülməsində sement əvəzinə əhəng-kirəc materialından istifadə olunmuşdur. Giriş qapısının önündə eyvan yerləşmişdir. Üç giriş qapısı vardır. Qapılar tağvari formalıdır. Məscidin hündürlüyü 4,5 metrdir. Döşəməsi taxtadandır. Tavan düzbucaqlı olub, 8 ədəd sütun üstündə dayanmışdır. Sütunlar bir-birləri ilə birləşərək yeddi tağ əmələ gətirmişdir. Damın örtüyü dəmir təbəqədəndir. Həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, daş hasara alınmışdır.



Məscid ilkin formasını qoruyub saxlamışdır. Sovetlər dövründə, daha doğrusu 1936-cı ildən 1986-cı ilə qədər anbar kimi istifadə olunmuşdur. 1986-cı ildə məscid Respublika Nazirlər Kabineti nəzdindəki Tarixi Abidələrin bərpası və Mühafizəsi İdarəsi tərəfindən bərpa edilmişdir. 1988-ci ildə Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir. Axırıncı dəfə burada 1996-cı ildə təmir işləri aparılmışdır.



*Qeyd:*

Qəbələ rayonunun Həzrə və Bunut kəndlərində də (2 kənddə) məscidlər fəaliyyətdədir.

# QAZAX RAYON MƏSCİDLƏRİ

## QAZAX ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Qazax şəhərində yerləşən bu məscid 1901-ci ildə Hacı Axund Zeynalabdin Cəfər oğlunun başçılığı, eləcə də yerli hacılar və digər sakinlərin köməkliyi sayəsində tikilmişdir. Məscidin həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi isə 17x17 metrdir.

Qazax şəhər Cümə məscidinin binası, habelə qoşa minarələri bişmiş kərpicdən inşa edilmişdir. Həyətyanı sahə asfaltla döşənmiş və bişmiş kərpicdən tikilmiş hasara alınmışdır. Minarələrin qülləsi dəmir təbəqə ilə işlənmişdir. Məscidin günbəzi və eləcə də damının örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Döşəmə daş plitə ilə döşənmişdir. İbadət zalı 8 tağdan ibarətdir. Tağların bir-birinə birləşdiyi divarların qalınlığı 2,30 metr, orta divarların qalınlığı isə 1 metrdir. Minbər taxtadandır və səkkizpillədir. Mehrab (hündürlüyü 3 metr) tağvari formadadır. Məscidin 3 giriş qapısı və 12 pəncərəsi vardır. Onlar taxtadan düzəldilib və tağvari formadadır. Minarələrə giriş ibadət zalındandır və onların hündürlüyü 18 metrdir. Günbəzin diametri 13 metrdir.

Məscidin yaxınlığında vaxtilə tikilmiş hamamın bir hissəsi indi mədrəsə qismində istifadə olunur. Burada təxminən 30-35 qız təhsil alır.

Sovetlər dövründə məscid bağlı qalmışdır. Həmin müddətdə yeməkxana, anbar, əczaxana və kitabxana kimi istifadə olunmuşdur. 1990-cı ildə isə dövlət tərəfindən bərpa və təmir edilmişdir. Bərpa dövründə həyətyanı sahədə yardımçı otaqlar-iki sinif otağı, mürdəşirxana, dəstəmazxana və s. tikilmişdir.

Məscidin İmamı bölgə qazisi Mikayıl Əfəndidir.

## HACI MAHMUD ƏFƏNDİ MƏSCİDİ



Məscid Qazax rayonunun Aslanbəyli kəndində yerləşib. Hicri-qəməri təqvimi ilə 1328-ci ildə Həmid Əfəndi tərəfindən tikilmişdir. İç sahəsi 15x10 metrdir.

Hacı Mahmud Əfəndi məscidi 1938-ci ildən 1985-ci ilədək klub kimi istifadə olunmuşdur. 1990-cı ildə yerli sakinlər tərəfindən məscidin təmir-bərpa işlərinə başlanmışdır. Qeyd etmək lazımdır ki, məscidin vaxtilə minarəsi olmuşdur. Taxtadan olan minarə sonralar sökülüb dağıdılmışdır. Məscidin yeni ucaldılan minarəsinin hündürlüyü 18 metr olacaq.

Məscidin dam örtüyü şiferlə işlənmişdir.

Giriş qapısının ön tərəfində eyvan (sahəsi 30 kv.metr) yerləşmişdir. Tavan taxtadan olub, düzbucaqlı formadadır. Minbər də taxtadandır və səkkizpillə.





## HACI MAHMUD ƏFƏNDİ TÜRBƏSİ



Türbə Qazax rayonunun Aslanbəyli kəndindədir. 1888-ci ildə Azərbaycanın qərb zonasında, Borçalıda yaşayan azərbaycanlılar tərəfindən tikilmişdir.

Hacı Mahmud Əfəndi türbəsi (iç sahəsi 4x4 metr) dördbucaqlı formaya malikdir. Türbənin hündürlüyü 6 metrdir. Divarları iç tərəfdən qum-sement məhlulu ilə suvanmış və yaşıl rənglə işlənmişdir. Türbənin bir giriş qapısı və iki pəncərəsi vardır. İçərisində iki qəbir yerləşmişdir. Giriş qapısından içəridə-sol tərəfdə Hacı Mahmud Əfəndinin, sağ tərəfdə isə Seyid Yasin Əfəndinin qəbridir. Baş daşlarında farsca yazılar həkk olunmuşdur. Qeyd etmək lazımdır ki, Seyid Yasin Əfəndi Mahmud Əfəndinin dostu olmuşdur. Türbənin divarları daş plitələrlə üzlənmişdir. Türbə olduğu kimi qorunub saxlanmışdır. Lakin 1987-ci ildə burada təmir işləri aparılmışdır. Təmir işləri türbədə yığılan nezir-niyaz hesabına icra edilmişdir. Türbə dövlət tərəfindən qeydiyyata alınmışdır.



Sovetlər dövründə türbəni ziyarət etmək çox çətin olmuşdur. Hətta repressiya illərində onun üstündə olan qızıl ay və ulduz rəmzi də oğurlanmışdır. Lakin sonralar yerli camaatın vəsaiti hesabına bərpa olunmuşdur.

## KƏMƏRLİ KƏND MƏSCİDİ



Məscid Qazax rayonunun Kəmərli kəndində inşa edilib. İnşa tarixi 1993-1994-cü illərə aiddir.

Kəmərli kənd məscidi mişar daşı ilə hörülmüşdür. Məscid binası ikimərtəbəlidir. Damının örtüyü dəmir təbəqə ilə işlənmişdir. İkinci mərtəbəyə qalxmaq üçün xüsusi pilləkən qoyulmuşdur. Məscidin hər iki mərtəbəsi səkkizguşəlidir.

İxtisasca müəllim olan Şərif Əhməd oğlu öz şəxsi vəsaiti hesabına 1993-cü ildə bu məscidin tikintisinə başlamışdır. Məscid 1998-ci ildən rəsmi olaraq qeydiyyatdan keçmişdir. Nəzərdə tutulduğuna uyğun olaraq birinci mərtəbəsi mədrəsə və kitabxana kimi, ikinci mərtəbəsi isə məscid kimi fəaliyyət göstərəcək. Məsciddə tikinti işləri hələlik tam başa çatmamışdır.

*Qeyd:*

Qazax rayonunun Aslanbəyli, Çaylı, Dəmirçilər və Kosalar kəndlərində də məscidlər fəaliyyət göstərir.

# QOBUSTAN RAYON MƏSCİDLƏRİ

## MƏRƏZƏ KƏND MƏSCİDİ (I)

Məscid Qobustan rayonunun Mərəzə kəndindədir. 1996-cı ildə inşa olunub. İbadət zalının sahəsi 8x11 metrdir.

Mərəzə kənd məscidinin divarları mişar daşı ilə hörülmüşdür. Damının örtüyü və günbəzi ağ dəmir təbəqə ilə işlənmişdir. Günbəzin üstündə aypara rəmzi qoyulmuşdur.



Mərəzə kənd məscidi dördbucaqlı formadadır. Giriş qapısından içəri dəhliz yerləşmişdir. Dəhlizdən sonra ibadət zalı gəlir. Döşəmədən tavana qədər hündürlüyü 4 metrdir. Tavan və döşəmə taxtadandır. Günbəz damın üstündə yerləşmişdir. Minbəri taxtadan olub, üç pillədən ibarətdir. Mehrabı (hündürlüyü 2,5 metr) tağvari formadadır. İbadət zalında bir qapı və 6 pəncərə qoyulmuşdur. İç divarlar qum-sement məhlulu ilə suvanmış və ağ rənglə rənglənmişdir.

## MƏRƏZƏ KƏND MƏSCİDİ (II)

Məscid Qobustan rayonunun Mərəzə kəndində yerləşib. 1996-cı ildə inşa olunub. İç sahəsi 14x24 metrdir.



Formaca dördbucaqlı olan bu məscid başdan-başa mişar daşı ilə tikilib. Damının örtüyü və günbəzləri ağ dəmir təbəqə ilə işlənib. Məscidin əsas giriş qapısının sağ və sol tərəfində qoşa minarələrin bünövrəsi qoyulub. İbadət zalında 12 pəncərə və 12 gözlük var. Günbəz fasad tərəfdəndir. Giriş qapısının sağ və sol tərəfində yardımçı otaqlar yerləşib. Günbəzin üstündə aypara və səkkizguşəli ulduz qoyulub. Tavan 12 dəmir boru sütun üstündə dayanıb. Döşəmə də taxtadandır. İç və fasad divarlar qum-sement məhlulu ilə suvanaraq, əhənglə ağardılıb.

1991-ci ildə yerli sakin Hacı Arifin başçılığı ilə və yerli camaatın vəsaiti hesabına bu məscidin tikintisinə başlanılıb. Lakin vəsait çatışmadığından məscidin tikintisini Birləşmiş Ərəb Əmirliklərinin təşkilatı başa çatdırıb.



## DİRİ BABA TÜRBƏSİ



Türbə Qobustan rayonunun Mərəzə kəndi yaxınlığında, yüksəklikdədir. Türbə miladi təqvimi ilə 1402-ci ildə Şamaxı xanı İbrahim xan tərəfindən tikdirilmişdir.

Diri Baba türbəsi yonulmuş sal daşlarla inşa edilmişdir. Giriş qapısı tağvari formadadır. Qapının sol tərəfində lövhə üzərində türbənin inşa tarixi həkk olunmuşdur.

Diri Baba türbəsi dördbucaqlı formadadır. Birinci mərtəbəsində namaz otağı, ikinci mərtəbədə isə dəhliz və qəbir yerləşmişdir. Türbənin aşağı hissəsi dördbucaqlı, yuxarı hissəsi isə səkkizguşəlidir. Guşələr tağvari formadadır və yonulmuş sal daşlarla tikilmişdir. Divarlar sanki daş kitabələri xatırladır. Yazılar nəbati ornamentlərlə işlənmişdir. Türbənin pəncərələri şəbəkəli daş lövhələrə malikdir. Pəncərələr tağvari formadadır. Mərtəbələr arasındakı keçidlər çox darısqaldır. (Bir nəfər ancaq keçə bilər.) Keçid pilləkəninin eni 70-80 sm-dir.

*Qeyd:*

.Bakı - Şamaxı yolunun kənarında da məscid fəaliyyət göstərir.

# QUBA RAYON MƏSCİDLƏRİ

## QUBA ŞƏHƏR CÜMƏ MƏSCİDİ





Məscid Quba şəhərində tikilib. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1217-ci ilə aiddir. İç sahəsi 16x18 metrdir.

Quba şəhər Cümə məscidinin özünəməxsus memarlıq üslubu var. Divarları bişmiş kərpicdən işlənib. Divarlar iç tərəfdən qum və əhənglə suvanıb. Dam dəmir təbəqə ilə örtülüb. Döşəmə daş plitədəndir. Minarənin (hündürlüyü 43 metr) yarısı beton, digər yarısı isə mişar daşından tikilib. O, Osmanlı memarlıq üslubundadır. Üstündə aypara rəmzi qoyulub. Günbəzdə səkkiz dəyirmi gözlük qoyulub. Yerdən günbəzədək hündürlüyü 25 metrdir. Günbəzin üstündə ay para rəmzi var. Minbər qoz ağacından düzəldilib və onpilləlidir. Mehrabın hündürlüyü 3 metrdir.

Bu məscid İsmayıl Əfəndi tərəfindən tikilib.

Ustası usta İsmayıldır. İçərisi və fasad tərəfi səkkizguşəlidir. Sovetlər dövründə bura dəyirman, muzey kimi istifadə olunub. 1992-ci ildən yenidən məscid kimi fəaliyyətə başlayıb. Elə həmin il burada təmir işləri aparılıb. 1994-cü ildə məscidin həyətində tikinti işlərinə başlanıb. Hal-hazırda dəstəmazxana, mədrəsə, minarə və həyətyanı sahədə təmir-bərpa işləri aparılır. Minarə 248 pillədən ibarətdir. Bu işlər Türkiyə Diyanət Vəqfinin Gintaş Anonim Şirkəti tərəfindən həyata keçirilir.

Məscidin əfəndisi Səmərqənddə dini təhsil almış Ənvər Əfəndidir. O, məhsəti türküdür. 1994-cü ildən etibarən burada əfəndilik edir.

## ƏRDƏBİL MƏSCİDİ



Məscid Quba şəhərinin Fətəlixan küçəsində yerləşib. 1312-ci ildə (hicri-qəməri təqvimi ilə) inşa edilib. Məscidin iç sahəsi 13x15 metrdir.

Ərdəbil məscidinin binası tamamilə bişmiş qırmızı kərpicdən tikilib. Tavanı düzbucaqlı formadadır və taxta ilə işlənib. Tavan dörd taxta sütun üzərində dayanıb. Mehrabın hündürlüyü 2,5 metrdir. Minbəri doqquzpilləlidir və şam ağacından düzəldilib. Məscidin qadınlar şöbəsi ikinci mərtəbədə yerləşib. Sahəsi 3x15 metrdir. Yerdən məscidin günbəzinə qədər hündürlüyü 12 metrdir.

Ərdəbil məscidinin yerində vaxtilə qara kərpicdən tikilmiş başqa bir məscid olub. Sonradan Nadir şahın yürüşü dövründə burada məscid və karvansara olub. Burada daha çox müsafirlər ibadət edərmişlər. Elə o vaxtlar təxminən 40 ərdəbilli ailə buraya köçürülüb. Şəhərdə Ərdəbil məhəlləsinin varlığı da bunu sübut edir.



Bu məscid yerli möminlərin hesabına tikilib. Sovetlər dövründə yataqxana, anbar, arxiv kimi istifadə olunub. 1966-cı ildə isə yandırılıb. 1988-ci ilə qədər bərbad vəziyyətdə qalıb. 1988-ci ildə məscid dövlətin himayəsinə götürülüb. Belə ki, damı örtülüb, pəncərələr qoyulub.

Bundan sonra camaatın təkidi nəticəsində 1989-cu ildə məscid istifadəyə verilib. 1990-cı ildən məsciddə təmir-abadlıq işləri aparılıb.

## QUBA ŞƏHƏR HACI CƏFƏR MƏSCİDİ



Məscid Quba şəhərindədir. İç sahəsi 400 kv.metrdir.

Quba şəhər Hacı Cəfər məscidi 1905-ci ildə yerli dindar Hacı Cəfər tərəfindən tikilmişdir. Bu məscid sovetlər dövründə anbar və yataqxana kimi istifadə olunub. Repressiya illərində məscidin soğanvari günbəzi dağıdılıb. Sonradan günbəz yerli əhalinin vəsaiti hesabına 1943-cü ildə bərpa edilib. Quba şəhər Hacı Cəfər məscidinin tavanı və döşəməsi taxta ilə işlənib. Tavan iki taxta sütun üzərində dayanıb. Mehrab çox sadə quruluşa malik olub, qoz ağacından düzəldilib. Giriş qapısı da qoz ağacındandır.

Quba şəhər Hacı Cəfər məscidi iki mərtəbədən ibarətdir. İkinci mərtəbədə qadınlar şöbəsi yerləşib. 1981-ci ildə məsciddə axırıncı təmir işləri zamanı qadınlar şöbəsini kişilər şöbəsindən ayıran arakəsmə də düzəldilib.

Bu məscidin məşhur axundları olmuşdur: Axund Kərbəlayı Həmdulla (1947-ci ildə ailəsi ilə birlikdə öldürülüb); Mirzə Məhəmməd Kərim, Kərbəlayı Mirsəmədağa (1980-ci ilədək axundluq edib).



## QUBA ŞƏHƏR SƏKİNƏ XANIM MƏSCİDİ





Məscid Quba şəhərində tikilib. İnşa tarixi 1854-cü ilə aiddir. Əsas ibadət zalının sahəsi 14x14 metr, həyətyanı sahəsi 300 kv.metrdir.

Quba şəhər Səkinə xanım məscidi xüsusi memarlıq üslubunda olub, bütün digər məscidlərdən fərqlənir. Döşəməsi daş plitələrlə örtülüb, tavanı dörd böyük sütun üzərində dayanıb. Minbər qoz ağacından düzəldilib və səkkizpilləlidir. Məscidin interyeri çox nəfis şəkildə işlənib. Yerdən günbəzədək 9 metrdir. Günbəzin diametri 4,5 metrdir. Damı və günbəzin üstü dəmir təbəqə ilə örtülüb.

Quba şəhər Səkinə xanım məscidinin nəzdində mədrəsə də var. Mədrəsə 1994-cü ildən fəaliyyət göstərir.

Bu məscid Abbasquluağa Bakıxanovun həyat yoldaşı Səkinə xanım tərəfindən tikdirilib. Sovetlər dövründə tikiş fabriki kimi istifadə olunub. 1991-ci ildən məscid fəaliyyətə başlayıb. 1992-ci ildə məsciddə təmir işləri aparılıb.

## AMSAR KƏND MƏSCİDİ



Quba rayonunun Amsar kəndində yerləşən bu məscid hicri-qəməri təqvimi ilə 1271-ci ildə inşa edilib. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi 13x11 metrdir.

Bu məscidin ilkin forması düzbucaqlı olub, çiy kərpicdən tikilmişdir. Sovetlər dövründə taxıl anbarı kimi istifadə edilmiş və sonralar istifadəsiz qalmışdır. Yerli camaatın təşəbbüsü, Məmmədov Mənsurun şəxsi vəsaiti və habelə Ümumdünya Gənclər İslam Cəmiyyətinin Azərbaycan şöbəsinin köməkliyi ilə rekonstruksiya edilib.

Amsar kənd məscidinin tavanı və döşəməsi taxtadır. Tavan altı ədəd taxta sütun üzərində dayanıb. Divarlar mişar daşı ilə işlənib. Çöl və iç tərəfdən divarlara qum-sement məhlulu ilə suvaq çəkilib. Mehrabı kvadrat şəklindədir. Minbəri dördpilləli olub, taxtadan düzəldilmişdir. Məscidin iç divarlarına kitabələr həkk edilib. Damı dəmir təbəqə ilə örtülüb. Günbəzi güldəstə formasındadır və oraya çıxmaq üçün düzəldilmiş taxta pilləkan 44 pillədir.

Məscidin memarlıq üslubu yerli xarakter daşıyır. Burada ibadət üçün bütün lazımi şərait vardır.

## HACI HÜSEYNLİ KƏND MƏSCİDİ



Məscid Quba rayonunun Hacı Hüseynli kəndində 1995-ci ildə inşa edilib. İç sahəsi 7x11metrdir.

Formaca düzbucaqlı olan bu məscid mişar daşı ilə tikilib. Damı şiferlə, döşəməsi və tavanı taxta ilə işlənib. Məscidin bir giriş qapısı və dörd pəncərəsi vardır. Yerdən minarəyə qədər 6 metrdir. Minarənin üstü dəmir təbəqə ilə işlənib.

Məscid Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin Azərbaycan filialı tərəfindən tikilib.

## ALPAN KƏND MƏSCİDİ



Məscid Quba rayonunun Alpan kəndindədir. Hicri-qəməri tarixi ilə 1323-cü ildə tikilib. İç sahəsi 15x12 metrdir.

Alpan kənd məscidinin binası düzbucaqlı formadadır. Damı dəmir təbəqə ilə örtülüb. Minarə güldəstə formasındadır. Minarənin dörd tərəfində gözlük və üstündə aypara rəmzi qoyulub. Məsciddə bir neçə daş kitabə mövcuddur.

Alpan kənd məscidi sovetlər dövründə taxıl anbarı qismində istifadə olunub. 1990-cı ildən sonra məscid bərbad vəziyyətə düşmüşdü. Burada müəyyən qədər təmir işləri aparılsa da, məscid tam abad vəziyyətə gətirilməyib. Türkiyənin Gənclərə Yardım Fondu, habelə sovxoz və kənd camaatının ayırdığı maliyyə vəsaiti ilə məscidin dam örtüyü və tavanında təmir-bərpa işləri aparılıb.

## QARAÇAY KƏND MƏSCİDİ



Məscid Quba rayonunun Qaraçay kəndində 1995-ci ildə tikilmişdir. İç sahəsi 7x7 metrdir.

Qaraçay kənd məscidi forma etibarilə səkkizguşəlidir və mişar daşından inşa edilib. Bir qapıya və iki pəncərəyə malikdir. Damı və iki günbəzi dəmir təbəqə ilə örtülüb. Yol kənarında yerləşən bu məscid kənd sakini Rafiq Əsədov tərəfindən tikilib.

## QƏÇRƏŞ KƏND MƏSCİDİ



Məscid Quba rayonunun Qəçrəş kəndində yerləşib. İç sahəsi 12x12 metrdir.

Qəçrəş kənd məscidi düzbucaqlı formadadır və divarları çaylaq daşlarından tikilib. Çöl tərəfdən divarlar qum, sementlə suvanıb. Məscidin damı dəmir təbəqə ilə örtülüb. Damın ən yuxarı hissəsində günbəz-minarə qoyulub. Günbəz güldəstə formasındadır. Minarənin ən yuxarı hissəsində aypara rəmzi qoyulub. Məscidin qarşısında açıq eyvan yerləşib.

Sovetlər dövründə anbar kimi istifadə edilib. Bundan sonra bərbad vəziyyətə düşüb. 1992-ci ildə burada təmir-tikinti işlərinə başlanılıb. Məscidin interyeri və fasad tərəfi camaatın vəsaiti hesabına təmir olunub.



## DİGAH KƏND MƏSCİDİ



Məscid Quba rayonunun Digah kəndindədir. XIX əsrdə inşa edilib. Sahəsi 8x11 metrdir.

Digah kənd məscidi düzbucaqlı formadadır. Bir giriş qapısı var. Giriş qapısından içəridə dəhliz yerləşib. Məscidin əsas ibadət zalı iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir. Döşəmə və tavan taxtadandır. Damı dəmir təbəqə ilə örtülüb. Günbəz güldəstə formasındadır və dörd tərəfində pəncərə qoyulub.

## XUCBALA KƏND HƏSƏN MƏSCİDİ



Məscid Quba rayonunun Xucbala kəndində yerləşir. İnşa tarixi 1996-cı ilə aiddir. İç sahəsi 6,5x12 metrdir.

Xucbala kənd Həsən məscidi düzbucaqlı formaya malikdir. Divarları mişar daşından hörülüb. Damı dəmir təbəqə ilə örtülüb. Minarəsi güldəstə formasındadır. Mehrabın hündürlüyü 2,5 metr olub, yuxarı hissəsi sivri şəkildədir. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanıb. İki qapısı və səkkiz pəncərəsi var.

## ZƏRDABİ KƏND MƏSCİDİ



Məscid Quba rayonunun Zərdabi kəndindədir. İnşa tarixi 1992-ci ilə aiddir. Həyətyanı sahəsi 100 kv.metr, ibadət zalının sahəsi 17x18 metrdir.

Zərdabi kənd məscidi bişmiş kərpicdən tikilib. Döşəməsi asfalt, tavanı isə taxtadandır. Tavan dörd böyük sütun üzərində dayanıb. Məscidin içi və sütunları qum-sement məhlulu ilə suvanıb. İbadət zalında 10 tağvari formalı pəncərə qoyulub. Minbəri daşdandır və səkkizpillədir.

Zərdabi kənd məscidi yerli camaat tərəfindən tikilib.

## MOLLA MUSTAFA MƏSCİDİ



Məscid Quba rayonunun Rustov kəndində yerləşib. Hicri-qəməri təqvimi ilə 1320-ci ildə inşa edilib. İç sahəsi 16x19 metrdir.

Molla Mustafa məscidi forma etibarilə düzbucaqlıdır və divarları tamamilə bişmiş kərpicdən götürülüb. Döşəməsi daş plitə, tavanı isə taxtadandır. Tavan doqquz taxta sütun üzərində dayanıb. Divarlarda bir neçə daş kitabə həkk olunub. Onların birində məscidin "Molla Mustafa" məscidi adlanması və habelə inşa tarixi haqda məlumat verilib. Damı dəmir təbəqə ilə örtülüb. Günbəzi güldəstə formasındadır. Bütün qapı və pəncərələri tağvari formadadır. Mehrabın hündürlüyü 5 metrdir.

Molla Mustafa məscidinin qadınlar şöbəsi giriş qapısından içəridə və ikinci mərtəbədə yerləşib. Sovetlər dövründə mağaza və anbar kimi istifadə olunub.

## İKİNCİ NÜGƏDİ KƏND İSLAM MƏSCİDİ



Məscid Quba rayonunun İkinci Nügədi kəndində 1994-cü ildə inşa edilib. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi isə 19x14 metrdir.

İkinci Nügədi kənd İslam məscidi mişar daşı ilə tikilib. İç və çöl tərəfdən divarları qum-sement məhlulu ilə suvanıb. Hündürlüyü 5 metrdir. Qadınlar şöbəsi ikinci mərtəbədə yerləşib. Məscidin damı dəmir təbəqə ilə örtülüb. Günbəzi də dəmir təbəqə ilə örtülüb. Günbəzin hündürlüyü 5 metrdir. Məscidin ətrafı yaşıllıqlarla əhatələnib.

İkinci Nügədi kənd İslam məscidinin üstündə latınca kitabə yazılıb. Burada məscidin 1994-cü ildə Mahmud Molla Əbdüssəmidoğlu tərəfindən camaata hədiyyə edilməsi qeyd edilib. Məscid onun oğlu İslamın şərəfinə İslam məscidi adlanır.

## ZİZİK KƏND MƏSCİDİ



Məscid Quba rayonunun Zizik kəndindədir. Hicri-qəməri təqvimi ilə 1342-ci ildə inşa edilib. Həyətyanı sahəsi 30 kv.metr, iç sahəsi 11x9 metrdir.

Zizik kənd məscidi düzbucaqlı formadadır. Damı dəmir təbəqə ilə örtülüb. Günbəzi güldəstə formasındadır. Güldəstənin üst hissəsində dörd gözlük qoyulub. Üstündə dəmir təbəqədə aypara rəmzi qoyulub. Məscidin əsas ibadət zalının döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan 9 taxta sütun üzərində dayanıb. Məscidin bir giriş qapısı var. Qapıdan içəridə dəhliz yerləşib. Oranın sahəsi 8x2,5 metrdir. Qapının üstündə məscidin tarixini göstərən taxta kitabə var. Zizik kənd məscidi öz ilkin formasını əsasən qoruyub saxlayıb. 1992-1993-cü illərdə burada təmir-bərpa işləri aparılıb.



## BİRİNCİ NÜGƏDİ KƏND MƏSCİDİ



Məscid Quba rayonunun Birinci Nügədi kəndindədir. Məscid hicri-qəməri tarixi ilə 1316-cı ildə Hacı Həcəmməd tərəfindən tikilib. Qeyd edək ki, Hacı Həcəmməd sovetlər dövründə sürgün edilmişdir.

Həyətyanı sahəsi 300 kv.metr olan Birinci Nügədi kənd məscidi düzbucaqlı formada olub, divarları çiy və bişmiş kərpiclə tikilmişdir. Məscidin qabaq tərəfində açıq eyvan yerləşib. Məsciddə bir neçə yerdə daş kitabələr həkk olunub.

Sovetlər dövründə anbar qismində istifadə edilib.

## İKİNCİ NÜGƏDİ HACI SEYİD MƏSCİDİ

Quba rayonunun İkinci Nügədi kəndində yerləşən bu məscidin bünövrəsi 1990-cı ildə qoyulub. Maliyyə çatışmazlığı ucbatından tikinti hələlik dayanıb.

Burada XIX əsrdə tikilmiş başqa bir məscid olub. Bu məscid ikimərtəbəli olub, çaylaq daşı və çiy kərpicdən tikilibmiş. Məscidi tikdirənin adı Hacı Seyid olmuşdur. Həmin məscid çox bərbad vəziyyətdə olduğundan 1989-1990-cı illərdə sökülüb.

## PİRVAHİD KƏND MƏSCİDİ



Məscid Quba rayonunun Pirvahid kəndindədir. 1992-ci ildə tikilib. İç sahəsi 7x7 metrdir.

Pirvahid kənd məscidi formaca düzbucaqlıdır. Bir giriş qapısı və üç pəncərəsi var. Damı dəmir təbəqə ilə örtülüb. Günbəzi güldəstə formasındadır və yuxarı hissəsində dörd gözlük qoyulub.

Bu məscidin yerində vaxtilə də məscid olub. Həmin məscidin tarixi XIX əsrin əvvəllərinə aid olunur. Sovetlər dövründə həmin məscid anbar kimi istifadə olunmuş və 1991-ci ildə dağıdılmışdır.

### MİRMUSTAFA TÜRBƏSİ

Türbə Quba şəhərində (qəbristanlıqda) yerləşib. Abidə bişmiş kərpicdən tikilib.
Qübbəsi dəmir təbəqədəndir. Türbənin sahəsi 9 kv. metr, hündürlüyü isə 3,5 metrdir. Türbənin tavanı taxtadandır. Döşəməsi torpaqdır. Bir qapısı və üç pəncərəsi var. Türbənin ortasında bir qəbir yerləşib. Baş daşında ərəbcə kitabə həkk edilib. Burada hicri-qəməri təqvimi ilə 1328-ci il göstərilib.



### BABA RÜSTƏM TÜRBƏSİ

Türbə Quba şəhərinin qəbristanlığındadır.
Forma etibarilə səkkizguşəli olan bu türbənin sahəsi 9 kv.metr, hündürlüyü isə 3 metrdir. Tavanı düzbucaqlı formaya malikdir. Qübbəsi dəmir təbəqədəndir. Türbə kərpicdən tikilib. İçərisi qum-sement məhlulu ilə suvanıb.
Türbənin içərisində bir böyük və bir kiçik qəbir var.

### AĞAMİR TÜRBƏSİ

Türbə Quba şəhər qəbristanlığının orta hissəsində inşa olunub.
Səkkizguşəli formadadır və bişmiş kərpicdən inşa olunub. İçərisi qum-sement məhlulu ilə suvanıb. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Türbənin ortasında qəbir yerləşib . Qəbrin üstündə heç bir kitabə yoxdur. Türbənin bir qapısı və iki pəncərəsi var. Hündürlüyü 3 metr, iç sahəsi isə 3x3 metrdir.





### İSPİK KƏND MƏSCİDİ

Məscid Quba rayonunun İspik kəndində yerləşib. Hicri-qəməri təqvimi ilə 1321-ci ildə inşa edilib. İç sahəsi 9x9 metrdir.
İspik kənd məscidi düzbucaqlı formadadır və çaylaq daşından tikilib. Damı dəmir təbəqə ilə örtülüb. Döşəmədən tavanadək hündürlüyü 3 metrdir. Tavan düzbucaqlı formadadır və iki böyük daş sütun üzərində dayanıb. Məscidin altı pəncərəsi var. Giriş qapısının üstündə onun tarixini göstərən kitabə də vardır.



## QUSAR RAYON MƏSCİDLƏRİ

### QUSAR ŞƏHƏR MƏSCİDİ

Məscid Qusar şəhərində tikilib. 1993-cü ildə bünövrəsi qoyulub. Əsas ibadət salonunun sahəsi 22x17 metrdir. Yerdən günbəzədək hündürlüyü isə 22 metrdir.
Qusar şəhər məscidi geniş həyətyanı sahəyə malik olub, böyük bir kompleksdən ibarətdir. Məscidin əsas binası mişar daşı və betondan tikilib. Minarə isə yonulmuş sal daşlarla ucaldılıb. Minarənin yuxarı hissəsi qurğuşun təbəqəsi ilə işlənib və sivri ucludur. Minarənin aşağı hissəsi düzbucaqlı, yuxarı hissəsi isə dəyirmi formadadır. Minarə bir şərəfəyə malikdir. Şərəfənin alt hissəsi stalaktitlərlə işlənmiş , məhəccəri isə daşdandır. Onun üstünə aypara rəmzi qoyulub. Məscidin zirzəmisi də var. Zirzəmilərin gələcəkdə yardımçı otaqlar kimi istifadə olunması nəzərdə tutulub. Məscidin tavanı özül divarlar üzərində dayanıb. Günbəz nəbati ornamentlərlə bəzədilib. Günbəzin üstündə aypara rəmzi qoyulub. Məscidin günbəzinin qübbəsində iç tərəfdən "İxlas" surəsi kaşı ilə həkk edilib. Günbəzin dairəvi hissəsində isə rənglə "Allah, Məhəmməd, Əli, Hüseyn, Həsən" sözləri yazılıb. Onu da qeyd edək ki, bu məscidin bir əsas günbəzi və onun ətrafında daha 12 kiçik günbəzi vardır. Əsas ibadət zalına giriş qapısı ilə üzbəüz mehrab yerləşib. Mehrab çox nəfis şəkildə işlənib və kənarlarında kaşı ilə "Ayətəl-kürsü" həkk olunub. Məscidin qadınlar şöbəsi geniş sahəyə malikdir. Məscidin bütün qapı və pəncərələri taxtadan hazırlanıb.
Qusar şəhər məscidi Türkiyə Diyanət Vəqfinin Gintaş Anonim Şirkəti tərəfindən tikilir.



## QUSAR ŞƏHƏR MƏSCİDİ (II)

Məscid Qusar şəhərində yerləşib. İnşa tarixi 1995-ci ilə aid edilir. İç sahəsi 9x11 metrdir.

Qusar şəhər məscidi forma etibarilə düzbucaqlıdır və mişar daşından tikilib. Damı şiferlə örtülüb. Döşəməsi taxta, tavanı isə betondur. Döşəmədən tavanadək hündürlüyü 4 metrdir. Tavan mişar daşından olan bir sütun üzərində dayanıb. Məscidin minarəsinin qübbəsi dəmir təbəqə ilə işlənib. Qübbə hissəsində dörd gözlük də qoyulub. Məscidin iki giriş qapısı və ibadət zalında yeddi pəncərəsi vardır.

Qusar şəhər məscidi Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin Azərbaycan şöbəsinin vəsaiti hesabına tikilib.



## İMANQULU KƏND MƏSCİDİ

Məscid Qusar rayonunun İmanqulu kəndinin mərkəzindədir. Bu, məhəllə tipli məscid olub, düzbucaqlı formadadır və mişar daşı ilə tikilib. Qapı və pəncərələri taxtadandır. Məscidin damının örtüyü şiferlə işlənib və üstündə hündürlüyü 1,5 metr olan minarəsi vardır. Minarə dəmir təbəqə ilə işlənmiş və dörd bir tərəfində gözlüklər qoyulmuşdur.

1995-ci ildə tikilən bu məsciddə inşaat işləri Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin vəsaiti hesabına həyata keçirilib. Sadə görünüşə malik olan İmanqulu kənd məscidinin iç sahəsi 7x11 kv.metr, hündürlüyü isə 4 metrdir. Məscidin mehrabı sadədir və hündürlüyü 3,5 metrdir.



## ƏFƏNDİ PİRİ

Pir Qusar rayonunun Köhnə Xudat kəndində tikilib.

Ocaq düzbucaqlı formadadır və mişar daşından tikilib. İçərisi iki hissədən ibarətdir. Birinci hissə ziyarətə gələnlər üçün nəzərdə tutulub. Buranın sahəsi 4x3 metr, hündürlüyü isə 2,5 metrdir. İkinci hissədə isə iki qəbir yerləşib. Buranın sahəsi də 12 kv.metr, hündürlüyü 2,5 metrdir.

Camaat bu yeri müqəddəs ocaq kimi qəbul edir və onu ziyarət edirlər. Buraya Qusar rayonu və habelə qonşu rayonlardan ziyarətə gəlirlər.





## URVA KƏND MƏSCİDİ

Qusar rayonunun Urva kəndində yerləşən bu məscidin inşa tarixi 1995-ci ilə aiddir. İç sahəsi 10x14 metrdir.

Urva kənd məscidi formaca düzbucaqlıdır və mişar daşından inşa olunub. Bir əsas giriş qapısı var. Giriş qapısından sol tərəfdə üç tağdan ibarət açıq eyvan yerləşib. Eyvanın yuxarı hissəsi qadınlar üçün nəzərdə tutulub. Əsas ibadət zalında on iki, qadınlar şöbəsində isə iki pəncərə qoyulub. Günbəzi və minarələri ağ dəmir təbəqə ilə işlənib. Minarələrin hündürlüyü 10 metrdir.

Urva kənd məscidi Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin Azərbaycan bölməsi tərəfindən tikilib.



## KİRİK KƏND MƏSCİDİ

Məscid Qusar rayonunun Kirik kəndində yerləşib.

Yerli camaatın qeyd etdiyinə görə, hicri-qəməri təqvimi ilə 1309-cu ildə tikilmişdir. Forma etibarilə düzbucaqlı olan bu məscid çaylaq daşlarından inşa olunub. Məscidin üzərində daş kitabə də mövcuddur. Kirik kənd məscidi çox bərbad vəziyyətdədir və tavanı tamamilə sökülüb dağılıb.



## DƏRVİŞ MƏHƏMMƏD PİRİ

Pir Qusar rayonunun Kirik kəndində, yüksək bir yerdə yerləşib.

Pir-abidə çaylaq daşlarından tikilib. Yerli camaatın qeyd etdiyinə görə, bu ocaq yüz ildən artıqdır ki, mövcuddur. Forma etibarilə düzbucaqlıdır. Yuxarı hissəsi tağvari formadadır. Pirə yerli camaat və habelə ətraf kəndlərdən ziyarətə gəlirlər.



## QALAOBA KƏND MƏSCİDİ



Məscid Qusar rayonunun Qalaoba kəndində inşa edilib. Həyətyanı sahəsi 400 kv. metr, iç sahəsi 8x12 metrdir. Hündürlüyü isə 3 metrdir.

Qalaoba kənd məscidi düzbucaqlı formadadır və çiy kərpicdən tikilib. Döşəməsi və tavanı taxtadandır. Tavan üç dəmir sütun üzərində dayanıb. Məscidin divarları iç və fasad tərəfdən samanlı palçıqla suvanıb. Divarlarının qalınlığı 80 sm.-dir. Damı dəmir təbəqə ilə örtülüb. Güldəstə formasında olan günbəzi də dəmir təbəqə ilə işlənib. Mehrabı divarın içindədir və göy rənglə işlənib. İki giriş qapısı (qadınlar və kişilər üçün) var. Minarəsi yoxdur, minbəri taxtadandır və üçpilləlidir. Məscidin önündə dəhliz yerləşib. Dəhlizin sahəsi 9 kv.metrdir. Məscidin həyəti asfaltla örtülüb, həyətyanı sahəsi isə yaşıllıqlar içərisindədir.

## MURAQ KƏND PİRİ

Pir Qusar rayonunun Muraq kəndindədir.

Kəndin yüksək bir yerində yerləşən bu ocaq düzbucaqlıdır və çaylaq daşından tikilib. Abidənin damı qübbə formasındadır və dəmir təbəqə ilə örtülüb. Dörd bir tərəfdən dəmir hasara alınıb. Tarixi haqda dəqiq məlumat yoxdur.

## GÜNDÜZQALA KƏND MƏSCİDİ



Məscid Qusar rayonunun Gündüzqala kəndində 1916-cı ildə inşa edilib. İç sahəsi 11x13 metrdir.

Düzbucaqlı formadadır. Divarları çaylaq daşından tikilib. Damı ağ dəmir təbəqə ilə örtülüb. Döşəmə taxta, tavanı isə taxta və şiferlə işlənib. Tavan iki taxta sütun üzərində dayanıb. Məscidin yeddi pəncərəsi var. Pəncərələr düzbucaqlı formadadır. Məscidin hündürlüyü 5 metr, yerdən günbəzin ən yuxarı hissəsinə qədər hündürlüyü 15 metrdir.

Gündüzqala kənd məscidinin iki tərəfində açıq eyvan yerləşib. Buranın sahəsi 24x1,60 metrdir.

Sovetlər dövründə məktəb, anbar kimi istifadə olunub. 1985-ci ildə məscidin təmirinə başlansa da, imkansızlıq ucbatından bu işin yerinə yetirilməsi mümkün olmayıb.



## BÖYÜK MURAQ KƏND MƏSCİDİ

Qusar rayonunun Böyük Muraq kəndində yerləşən bu məscidin bünövrəsi 1993-cü ildə qoyulub. İç sahəsi 10x10 metrdir.

Böyük Muraq kənd məscidi çaylaq daşından tikilib. Tavanı taxtadandır və dörd taxta sütun üzərində dayanıb. Məscidin hündürlüyü 4 metrdir. Bir giriş qapısı və dörd pəncərəsi var. Günbəzi ağ dəmir təbəqə ilə örtülüb. Yerdən günbəzə qədər olan hündürlüyü 15 metrdir. Məscid yerli memarlıq üslubunda tikilib.

Burada vaxtilə başqa bir məscid də olub. Həmin məscid çox bərbad vəziyyətdə olduğundan indiki məscidi tikmək zərurəti meydana çıxmışdır.

## HƏZRƏT ŞEYX CÜNEYD TÜRBƏSİ



Türbə Qusar rayonunun Həzrə kəndindədir. Çox ehtimal ki, kənd öz adını Şeyx Cüneydin "Həzrət" ləqəbindən almışdır. Bişmiş kərpicdən inşa edilən türbə binası daxildən və xaricdən düzbucaqlı plana malikdir. Şeyx Cüneydin qəbri üzərindəki səndunə bərk ağacdan nəfis şəkildə işlənmiş şəbəkəli çərçivə içərisinə alınıb. Türbə böyük bir günbəzlə örtülmüşdür. Yeddi sətirdən ibarət ərəb dilində nəsx xəttilə həkk olunmuş kitabə türbənin qərb qapısı üzərindədir: "Bu mübarək və şərəfli imarətin uca sultan, kəramətli və ədalətli xaqan, fars və ərəb hökmdarlarının ağası-Allah onun kölgəsini yerlərdən əskik eləməsin-qurunun və suyun qəhrəmanı, dini, dünyanı, xilafəti və səltənəti əzizləyən, Mustafaya (Məhəmməd peyğəmbərə) mənsub olan şəriət qaydalarını yayan, Murtəzəvi təriqətinin (yəni şiəliyin) əsasını qoyan, minnət və ehsan edən, Allah tərəfindən müvəffəqiyyətlənmiş, ehtiyacsız Allaha təvəkkül edən, Sultan oğlu Sultan Əbülmüzəffər şah Təhmasib əl-Hüseyni Bahadur xanın-Allah onun hökmdarlığını və sultanlığını daimi etsin və hər iki dünyanı onun yaxşı işləri və ehsanı ilə faizləndirsin, öz qəlbini, biliyini Allaha və bəşər aləminə həsr etməkliyilə həzrətlərindən saysın - hökmranlığı zamanında səadət və əzizlik sahiblərinin ən fəxrlisi, vahid Allahın rəhmətinə qovuşmuş Xacə Fəxrəddin Əhməd Fərəhaninin-uca Allah onun şükürlərini, səylərini və yaxşı işlərini qəbul etsin-oğlu, qəbilələrin ümidgahı olan böyük vəzir həzrətləri, Allah rəhmətinə getmiş Ziyəddin Nizamülmülk oğlu ən yüksək vəzirlərin vəziri, hökmdar və valilərin bəyənilmiş, xalqın yaxşı işlərinə zamin olan əmmamə sahiblərinin xidmətkarı, kəramət sahiblərinin itaət olunmuşu, yaxşı işlər binalarının banisi, ehsan və səy edənlərin çalışqanı, vahid Allahın mehribanlığı ilə seçilmiş əzizlik və vəzirlik fələkinin günəşi Ağa Məhəmməd, kəramət sahiblərinin sultanı, yetişmiş və bəyənilmişlərin rəhbəri, ariflərin rəisi, düz yolla gedənlərin yol göstərəni, təriqət məsləkində vahid yol saçmış həqiqət məmləkətlərinin sahibi, öz fəziləti ilə eyni məslək istəyənlərin müridi, kainatın sahibi, öz fəziləti ilə dövlətli olan Sultan Şeyx Cüneyd Səfəvinin-Allah onun qəbrini işıqlandırsın və şəhid olduğu yeri haqq eləsin-qəbri üzərində doqquz yüz əlli birinci ilin axırlarında tikilməsinə müvəffəq olmuşdur". Hicri 951-ci il, 1544-1545-ci il miladi ilinə müvafiqdir. Kitabədən göründüyü kimi, abidəni, məscid-türbəni hicri 951-ci (1544-45) ilin axırlarında I Şah Təhmasibin hökmdarlığı dövründə onun vəziri Xacə Fəxrəddin Ağa Məhəmməd tikdirmişdir. Türbədə dəfn olunmuş Şeyx Cüneyd məlum olduğu kimi, Səfəvi şeyxlərindən biri və Ərdəbil hakimi olmuşdur. Kitabədən məlum olduğu kimi, Şeyx Cüneyd və Şeyx Heydər hökmdar kimi Sultan titulu daşımışlar.



## KÖHNƏ XUDAT MƏSCİDİ



Məscid Qusar rayonunda yerləşib. 1996-cı ildə inşa edilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 14,5x10 metrdir.

Köhnə Xudat məscidi mişar daşından tikilib və forma etibarilə düzbucaqlıdır. Döşəməsi beton, tavanı isə taxtadandır. Damı ağ dəmir təbəqə ilə örtülüb. Minarəsinin hündürlüyü 15 metrdir.

Məscidin bir giriş qapısı var. Qapıdan bayır tərəfdə açıq eyvan yerləşib. Eyvanın ikinci mərtəbəsi qadınlar üçün nəzərdə tutulub. Buranın sahəsi 5x9 metrdir.

Yerli camaatın dediklərinə görə, burada vaxtilə başqa bir məscid olub. Sonralar həmin məscid uçub dağılmışdır.

*Qeyd:*

Köhnə Xudatda başqa bir məscid 1857-ci ildə tikilib. Həmin məscid də uçub-dağılmaq üzrədir.

## HİL KƏND MƏSCİDİ



Məscid Qusar rayonunun Hil kəndində tikilib. Hicri-qəməri təqvimi ilə 1330-cu ildə inşa edilib.

Məscidin divarları çiy kərpicdən hörülüb. Divarlar fasad tərəfdən samanlı palçıqla suvanıb. Məscidin giriş qapısında lövhə vurulub. Lövhədə məscidin XIX əsrin abidəsi kimi qorunduğu göstərilib.

Hil kənd məscidinin damı dəmir təbəqə ilə örtülüb. Günbəzdən başqa, məscidin dörd küncündə dörd dəmir təbəqədən minarə qoyulub. Onların hər birinin hündürlüyü təqribən 4 metrdir. Günbəz və minarələrin qübbəsi dəyirmi formadadır. Məscidin döşəməsi torpaqdır. Divarlarında bir sıra yazılar var.

# DƏVƏÇİ RAYON MƏSCİDLƏRİ

## DƏVƏÇİ ŞƏHƏR XIDIR-ZİNDƏ MƏSCİDİ



Məscid Dəvəçi rayonunun mərkəzindədir. Yerli əhalinin təşəbbüsü və camaatın vəsaiti ilə burada 1990-cı ildə məscidin tikintisinə başlanılıb. Həyətyanı sahəsi 10.000 kv.metrdir.

Dəvəçi şəhər Xıdır-Zində məscidi formaca düzbucaqlı olub, divarları mişar daşından və bişmiş kərpicdən tikilib. Minarəsinin hündürlüyü 18 metrdir. Minarələr tək şərəfəlidir və şərəfələrin məhəccər hissəsi dəmirdəndir. Məscidin döşəməsindən tavana qədər hündürlüyü 6 metrdir. Damın örtüyü dəmir təbəqədəndir. Günbəz də dəmir təbəqə ilə işlənib. Döşəmə daş plitə, tavan isə fanarla işlənib.

Məsciddə tikinti işləri tam başa çatmayıb. Buradakı inşaat işlərinə rayonun bəzi təşkilatları və bir sıra xüsusi şəxslər köməklik göstərmişlər. Məscidin memarı rayonun baş memarı Nazir Süleymanovdur. Ustası Tofiq Abdullayev, minarəni ucaldanlar isə Paşa və Soltan Babayev qardaşlarıdır. Məscidin tikintisinin təşəbbüsçüsü isə Əhməd bəy Mirzəbəy oğludur.

Dəvəçi şəhər Xıdır-Zində məscidinin axundu isə Kərbəlayı Ağacavad Mirələkbər oğludur. O, 1991-ci ildən etibarən axundluq edir, 1993-cü ildən isə rayonun dini icmasının sədridir.



## DƏVƏÇİ RAYON MƏSCİDİ



Dəvəçi rayonunun Üçsotlar məhəlləsində yerləşən məscidin bünövrəsi 1994-cü ildə qoyulub. Həyətyanı sahəsi 8000 kv.metr, iç sahəsi isə 16x10 metrdir.

Məscid düzbucaqlı fomadadır və divarları mişar daşından tikilib. Tavanı betondandır və bir ədəd sütun üzərində dayanıb. Döşəmə taxtadandır. Damı şiferlə örtülüb. Məscidin içərisi çox sadədir. Məscidin ön tərəfində eyvan yerləşib. Eyvan üç tağvari sütundan təşkil edilib. Onun yuxarı tərəfində daş kitabə həkk olunub. Məscid binasına bitişik olan və minarə kimi istifadə edilən bir tikili də var. Onun hündürlüyü isə 8 metrdir.

## MOLLA KAMALLI KƏND MƏSCİDİ



Məscid Dəvəçi rayonunun Molla Kamallı kəndindədir. 1995-ci ildə inşa edilib. İç sahəsi 20x16 metrdir.

Düzbucaqlı formada olan bu məscid mişar daşı ilə inşa edilib. Damı dəmir təbəqə ilə örtülüb. Məscidin içərisi ibadət zalından və dəhlizdən ibarətdir. Əsas giriş qapısı dəmirdəndir. İbadət zalında 4 pəncərə vardır. Bundan əlavə, giriş qapısının sağ və sol tərəfində də iki böyük pəncərə qoyulub. İç divarları qum-sement məhlulu ilə suvanıb. Günbəz dördguşəlidir və hündürlüyü 2 metr olub, dəmir təbəqə ilə işlənmişdir. Günbəzin üstündə aypara qoyulub.

Məscid yerli sakin Atabala Hüseynağa oğlu Hüseynov tərəfindən tikdirilib.

Yerli camaatın bildirdiyinə görə, bu kənddə vaxtilə də məscid olub. Həmin məscid çiy kərpicdən inşa edilibmiş. O, 1960-cı ildə dağıdılıb.

## UZUNBOYAT KƏND MƏSCİDİ

Məscid Dəvəçi rayonunun Uzunboyat kəndindədir. 1996-cı ildə tikintisi başlanılıb.

Uzunboyat kənd məscidi mişar daşından tikilir. Bu, kənddə olan əvvəlki məsciddən xeyli geniş olacaq.

Burada başqa bir məscid də mövcuddur. Həmin məscidin dəqiq tarixi məlum deyil. Sovetlər dövründə anbar kimi istifadə edilib. Hal-hazırda bu məscid uçub-dağıldığından yuxarıda qeyd etdiyimiz yeni məscid tikilir.

## ZEYVƏ KƏND MƏSCİDİ

Məscid Dəvəçi rayonunun Zeyvə kəndində yerləşir. Hicri-qəməri təqvimi ilə 1344-cü ildə inşa edilib. İç sahəsi 10x11 metrdir.

Məscid yonulmuş çaylaq daşlarından tikilib. Damı və günbəzi dəmir təbəqə ilə örtülüb. Giriş qapısının üstündə və yan divarda daş kitabələr həkk edilib. Kitabələrin birində məscidin inşa tarixi göstərilib. Giriş qapısından sağ tərəfdə ikimərtəbəli şöbə yerləşib. Bura qadınlar üçün nəzərdə tutulub.

Sovetlər dövründə anbar kimi istifadə olunub.



## ŞAHNƏZƏRLİ KƏND MƏSCİDİ

Məscid Dəvəçi rayonunun Şahnəzərli kəndində inşa edilib. İnşa tarixi XIX əsrin əvvəllərinə (camaatın dediyinə görə) aid edilir. İç sahəsi 10x10 kv.metr, həyətyanı sahəsi yoxdur.

Şahnəzərli kənd məscidinin divarları çiy kərpicdən tikilib. Döşəməsi gil-torpaq, tavanı isə fanerdir. Tavan beş sütun üzərində yerləşib. Əsas giriş qapısının çöl tərəfində bağlı eyvan var. Onun sahəsi 16x4 metrdir. Məsciddə iki yardımçı otaq da var. Otaqların hər birinin sahəsi 3x5 metrdir. Məscidin damı və günbəzi ağ dəmir təbəqə ilə örtülüb.

1937-ci ildən 1990-cı ilə qədər məktəb, poçt idarəsi, anbar və klub kimi istifadə olunub.



1990-cı ildə məscidin fəaliyyəti bərpa olunub. Bundan sonra burada camaatın vəsaiti hesabına təmir-bərpa işləri aparılıb.

## MOLLA KAMALLI KƏND MƏSCİDİ

Məscid Dəvəçi rayonunun Molla Kamallı kəndindədir. 1993-cü ildə bünövrəsi qoyulub. İç sahəsi 18x14 metrdir.

Məscid əsasən hazırdır. Lakin tikinti işləri davam etdirilir. Bir giriş qapısı və altı pəncərəsi var. Damı və günbəzi dəmir təbəqə ilə örtülüb.

Molla Kamallıdakı əvvəlki məscid XIX əsrin axırlarında tikilib. Sovetlər dövründə həmin məscid anbar kimi istifadə edilib və çox bərbad vəziyyətdə olduğundan 1960-cı ildə uçub-dağılıb.



## PİRƏBƏDİL KƏND MƏSCİDİ

Məscid Dəvəçi rayonunun Pirəbədil kəndində yerləşib. İnşa tarixi 1996-1997-ci illərə aid edilir. İç sahəsi 11,5x7 metr, həyətyanı sahəsi 3000 kv.metrdir.

Pirəbədil kənd məscidi düzbucaqlı formaya malikdir və mişar daşından tikilib. Giriş qapısının önündə açıq eyvan yerləşib. Eyvan üç tağdan ibarətdir. Məscidin damı şiferlə örtülüb. Döşəməsi betondur və üstündən taxta işlənib. Tavanı taxtadandır. Minarəsinin ətrafı asfaltla döşənib.

Məscid Küveytin Xeyriyyə Cəmiyyəti tərəfindən tikilib.



## XƏLFƏLƏR KƏND MƏSCİDİ

Məscid Dəvəçi rayonunun Xəlfələr kəndində tikilib. İnşa tarixi dəqiq məlum deyil. Lakin XIX əsrə aid olunur. Məscidin həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 7x10 metrdir.

Düzbucaqlı formada olan bu məscid çaylaq daşı və sal daşlardan tikilib. Damı şiferlə örtülüb. Məscidin giriş qapısının ön tərəfində kiçik bir dəhliz yerləşib. Dəhlizin sahəsi 12 kv.metrdir. Məscidin döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan doqquz taxta sütun üzərində dayanıb. Məscidin iç divarları samanlı palçıqla suvanaraq əhənglə ağardılıb. Divarların qalınlığı 0,80 metrdir. Məscid sovetlər dövründə-1934-cü ildən 1990-cı ilə qədər anbar kimi istifadə olunub.



## DƏVƏÇİ KƏND MƏSCİDİ

Məscid Dəvəçi rayonunun Dəvəçi kəndində yerləşib. 1884-cü ildə inşa edilib. İç sahəsi 11x8 kv.metr, həyətyanı sahəsi 300 kv.metrdir.

Məscid formaca düzbucaqlıdır. Divarları çiy kərpicdən tikilib və palçıqla suvanıb. Yalnız bir divarı bişmiş kərpicdən tikilib. Dam və günbəzi dəmir təbəqə ilə işlənib. Minbəri taxtadan düzəldilib və beşpilləlidir. Məscidin tavanı da taxtadandır. Tavan dörd taxta sütun üzərində dayanıb. Həyətyanı sahə daş hasara alınıb.

Bu məscid sovetlər dövründə anbar kimi istifadə olunub. 1988-ci ildə burada təmir-bərpa işləri aparılıb. Bərpa zamanı məscidin giriş qapısı önündə bağlı eyvan tikilmiş, habelə döşəməsi taxta ilə işlənmişdir.



### TACDI NƏNƏ PİRİ

Bu ocaq Dəvəçi rayonunun Əmirxanlı kəndinin yaxınlığındadır.

Pir dörd tərəfdən kərpiclə hasara alınıb. İçəridə ağac dibində qəbir yerləşib. Bura Azərbaycanın müxtəlif yerlərindən ziyarətə gəlirlər.



### AYGÜNLÜ KƏND FATİMEYİ-ZƏHRA MƏSCİDİ

Dəvəçi rayonunun Aygünlü kəndində yerləşib. Məscidin 1989-cu ildə bünövrəsi qoyulub. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 100 kv.metrdir.

Məscidin divarları çaylaq daşından tikilib. Damı şifer, günbəzi isə ağ dəmir təbəqə ilə örtülüb. Tavanı taxtadandır. Məscidin bir giriş qapısı və dörd pəncərəsi var. Qapı və pəncərələr taxtadan düzəldilib. Məscid forma etibarilə düzbucaqlıdır.

Burada vaxtilə məscid olub. Həmin məscidin XIX əsrə aid olduğu söylənilir. Sonradan həmin məscid uçub dağılıb.



### BAŞ ƏMİRXANLI MƏSCİDİ

Məscid Dəvəçi rayonunun Baş Əmirxanlı kəndində inşa edilib. İnşa tarixi XX əsrin əvvəllərinə aid olunur. İç sahəsi 11x10 metrdir.

Məscidin divarları çaylaq daşı və gillə hörülüb. Döşəmə və tavanı taxtadandır. Tavan bir ədəd taxta sütun üzərində dayanıb. Əsas giriş qapısının ön tərəfində eyvan yerləşib. Eyvanın sahəsi 3x11 metrdir. Məscidin damı dəmir təbəqə ilə örtülüb. Günbəzi də dəmir təbəqədəndir. Minbər yeddipilləlidir və taxtadan düzəldilib. Mehrabın hündürlüyü 2,80 metrdir.





### DÜZBİKİCİ KƏND MƏSCİDİ

Məscid Dəvəçi rayonunun Düzbikici kəndində yerləşir. Hicri-qəməri təqvimi ilə 1327-ci ildə inşa edilib. Həyətyanı sahəsi 150 kv.metr, iç sahəsi 9x8 metrdir.

Düzbucaqlı formadadır və çiy kərpiclə tikilib. Damın örtüyü dəmir təbəqədəndir. Günbəz dördguşəli formadadır. Hündürlüyü 12 metrdir. Giriş qapısının üstündə-divarda onun inşa tarixini əks etdirən daş kitabə həkk edilib. Döşəmə torpaq, tavan isə taxtadır. İç divarları samanlı palçıqla suvanıb və əhənglə ağardılıb.

Məscid kənd camaatı tərəfindən tikilib. Sovetlər dövründə məktəb kimi istifadə olunub.



### YELƏKƏSƏN KƏND MƏSCİDİ

Məscid Dəvəçi rayonunun Yeləkəsən kəndində 1914-cü ildə inşa edilib. İç sahəsi 11x10 metr, həyətyanı sahəsi 600 kv.metrdir.

Düzbucaqlı formadadır və daşla tikilib. Damı şiferlə örtülüb. Məscidin bir giriş qapısı var. Giriş qapısının önündə dəhliz yerləşib. Dəhlizin sahəsi 5x3 metrdir. Mehrabın hündürlüyü 2 metr, döşəmədən tavana qədər hündürlüyü 3,5 metrdir.

Sovetlər dövründə, daha dəqiq desək, 1937-ci ildən 1990-cı ilə qədər anbar kimi istifadə olunub.



### SURRA KƏND MƏSCİDİ

Məscid Dəvəçi rayonunun Surra kəndində yerləşib. İnşa tarixi XIX əsrin axırlarına aid edilir.

Düzbucaqlı formadadır və bişmiş kərpicdən inşa olunub. Damı dəmir təbəqə ilə örtülüb. Tavanı taxtadandır. Tavan üç sütun üzərində dayanıb.

Məscid hər zaman fəaliyyətini davam etdirib. 1925-ci ildə burada tikinti-abadlıq işləri aparılıb.

## ÇÖLQUŞÇU KƏND MƏSCİDİ



Məscid Dəvəçi rayonunun Çölquşçu kəndindədir. İnşa tarixi 1892-ci ilə aid olunur. Əsas ibadət zalının sahəsi 10x6 metrdir.

Çölquşçu kənd məscidi kərpic və daşla tikilib. Damı dəmir təbəqə ilə örtülüb. Döşəmə və tavanı taxtadandır. Tavan iki dəmir sütun üzərində dayanıb. İki qapısı və üç pəncərəsi var.

Çölquşçu kənd məscidi kənd sakini Hacı Vəli tərəfindən tikilib. Sovetlər dövründə anbar qismində istifadə olunub. 1990-cı ildə məscid yenidən tikilib.

## XIRDAOYMAQ KƏND MƏSCİDİ



Məscid Dəvəçi rayonunun Xırdaoymaq kəndində yerləşib. İç sahəsi 10x6 metrdir.

Düzbucaqlı formaya malik olan bu məscid çiy kərpiclə tikilib. Damının örtüyü dəmir təbəqə ilə işlənib. Günbəzi dördguşəli olub, üstü dəmir təbəqə ilə işlənib. Məscidin döşəməsi torpaq, tavanı isə taxtadandır. Döşəmədən tavanadək hündürlüyü 2,5 metrdir.

Hal-hazırda məscid bərbad vəziyyətdə olduğundan istifadə edilmir. Yaxın vaxtlarda burada təmir-bərpa işlərinin aparılması nəzərdə tutulub.

## XƏLFƏ SEYİD ƏHMƏD PİRİ



Bu ocaq Dəvəçi rayonunun Xəlfələr kəndinin kənarında, yüksək bir yerdə tikilib. Abidə düzbucaqlı formadadır və divarları çaylaq daşı ilə hörülüb. Abidənin iç sahəsi 5x3 metrdir. Hündürlüyü isə 2,5 metrdir. Damı şiferlə örtülüb. Döşəmə torpaq, tavan isə taxtadandır. Tavan dörd taxta sütun üzərində yerləşib.

Pir-abidənin içərisində Xəlfə Seyid Əhmədin və onun övladlarının qəbri yerləşir. Xəlfə Seyid Əhmədin qəbrinin ölçüsü 2,2x1 metrdir. Qəbr daşı əhənglə ağardılıb. İkinci qəbrin ölçüsü isə 2x0,80 metrdir. Pirin divarlarının qalınlığı 70-80 sm-dir. Divarlar içəri tərəfdən samanlı palçıqla suvanaraq ağardılıb.

Camaatın qeyd etdiyinə görə, Xəlfə Seyid Əhməd ərəb ölkələrindən gəlmişdir. O, pirin mövcud olduğu yerdə yaşamış və orada dəfn olunmuşdur. Buna görə də pir onun adını daşıyır.



## AXUND BABA TÜRBƏSİ



Türbə Dəvəçi rayonunun Zağlı kəndində 1880-ci ildə inşa edilib.

Bu türbəyə ziyarət üçün əsasən Dəvəçi rayonunun sakinləri gəlirlər. Türbə 1880-ci ildə tikilərkən kənd sakini Axund Baba sağ olmuşdur. Kənd camaatının bildirdiyinə görə, Axund baba 1890-cı ildə vəfat edib. Türbənin damının örtüyü şiferdəndir. Bir giriş qapısı var. İç sahəsi 3x1m.30sm-dir.

1994-cü ildə Axund Babanın bacısı nəvəsi Sadıq Xəlilov türbənin üstünü bərpa etdirib.

## KƏRBƏLAYI AĞASALAM MƏSCİDİ



Məscid Dəvəçi rayonunun Sarvan kəndində yerləşir. İnşa tarixi XX əsrə aiddir. İç sahəsi 6,5x10,5 metrdir.

Düzbucaqlı formaya malik olan bu məscid çaylaq daşı ilə tikilib. Bir giriş qapısı və beş pəncərəsi vardır. Qapı və pəncərələr taxtadandır.

Kərbəlayı Ağasalam məscidi yerli memarlıq üslubunda tikilib. O, böyük həyətyanı sahəyə malikdir. Kərbəlayı Ağasalam tərəfindən tikdirildiyinə görə məhz onun adını daşıyır.

Sovetlər dövründə anbar kimi istifadə olunub. Məscid son dövrlərdə uçub-dağıldığından onu rekonstruksiya etmişlər.

# ƏLİ BAYRAMLI ŞƏHƏR MƏSCİDLƏRİ

## ƏLİ BAYRAMLI ŞƏHƏR CÜMƏ MƏSCİDİ





Məscid şəhərin köhnə hissəsində yerləşib. Əsas ibadət zalının kişilər üçün ayrılmış hissəsi 11x8 metrdir, qadınlar şöbəsinin sahəsi 8x4 metrdir.

Əli Bayramlı şəhər Cümə məscidi 1990-cı ildə inşa edilmiş və 1992-ci ildən etibarən fəaliyyət göstərməyə başlamışdır. Məscidin bünövrəsi yerli sakin, mömin Ağaqasım Qasımov tərəfindən qoyulub. Tikinti işləri isə yerli sakin Eldar Soltanovun başçılığı və camaatın vəsaiti hesabına başa çatdırılıb. Memarı yerli sakin Xanbaladır.

Məscidin yan tərəfində minarələr ucaldılmışdır. Minarələr qırmızı kərpicdən inşa olunub. Onlar dəyirmi formada olub, birinin hündürlüyü 20 metr, o birisinin hündürlüyü isə 10 metrdir. Minarələrin üstündə və habelə günbəzin üstündə bürüncdən aypara rəmzi qoyulub. Günbəzin diametri 4 metrdir.

Əli Bayramlı şəhər Cümə məscidi yonulmamış sal daşlardan tikilib və divarlarının qalınlığı 0,80 metrdir. Yerdən tavanadək hündürlüyü 6 metr, yerdən günbəzədək isə 9 metrdir.

Məscidin axundu Hacı Baloğlan Əşrəfoğludur.

### HACI QƏHRƏMANLI QƏSƏBƏ MƏSCİDİ



Məscid Əli Bayramlı şəhərinin Hacı Qəhrəmanlı qəsəbəsində 1990-cı ildə yerli sakin Məşədi Əzizxan Sahib oğlu Bağırovun təşəbbüsü və şəxsi vəsaiti ilə tikilib. Həyətyanı sahəsi və habelə məscidin yerləşdiyi yer şəxsən onun özünə məxsus olan torpaq sahəsidir.

Hacı Qəhrəmanlı qəsəbə məscidi başdan-başa mişar daşı ilə tikilib. Döşəmədən tavanadək hündürlüyü 5 metr, günbəzədək hündürlüyü isə 8 metrdir.

### MEHDİ SAHİBƏZZAMAN MƏSCİDİ



Məscid Əli Bayramlı şəhərindədir. İç sahəsi 22x11 metr, həyətyanı sahəsi isə 1500 kv.metrdir.

1991-ci ildə tikilməyə başlanmış və 1993-cü ildə istifadəyə verilmişdir. Məscid Adəm Kamil oğlu Cavadovun təşəbbüsü və camaatın vəsaiti ilə inşa olunub.

Döşəməsi daş plitə, tavanı isə beton plitələrlə işlənib. Günbəzi betondandır. Günbəzin diametri 4,20 metrdir. Məscidin binası mişar daşı ilə tikilib.

## ZƏRDAB RAYON MƏSCİDLƏRİ

### ZƏRDAB ŞƏHƏR CÜMƏ MƏSCİDİ

Məscid Zərdab rayonunun (Kür çayının yaxınlığında) mərkəzindədir. 1991-ci ildə tikilməyə başlanmış və 1994-cü ildə istifadəyə verilmişdir. Məscid rayon ağsaqqallarından Bəylər Həmidov, Rəsul Rəsulov, Namaz Cəfərov, İsmayıl İsmayılov və Madal Kərimovun başçılığı və təşəbbüsü ilə tikilib başa çatdırılıb. Ustaları mərhum Ağasəlim Hüseynoğlu, Fazil Mikayılov və Həsən Məmmədovdur.



Zərdab şəhər Cümə məscidinin həyətyanı sahəsi 1200 kv.metr, iç sahəsi isə 22x11 metrdir. Məscid bişmiş kərpiclə tikilib. Günbəzi fasad tərəfdən ağ dəmir təbəqə ilə, içəri tərəfdən isə fanerlə işlənmişdir. Minbəri taxtadandır və yeddipillədir. Mehrabı divarın içindədir və tağvari formadadır. Mehrabın ölçüsü 2 metrdir. Məscidin döşəməsi beton, tavanı fanerdəndir. İbadət zalında 12 pəncərə qoyulmuşdur. Pəncərələr tağvari formadadır. Məscidin bir əsas və iki əlavə giriş qapısı vardır. Məscidə bitişik olan bir yardımçı otaq da vardır. Bu, xidmət üçün nəzərdə tutulmuşdur. Onun sahəsi 14 kv.metrdir. Bundan başqa, daha iki yardımçı otaq da tikilmişdir. Əsas giriş qapısının çöl tərəfində eyvan yerləşmişdir. Eyvanın (sahəsi 22x3,5 metr) döşəməsi daş plitə, tavanı isə taxtadandır.

Məscidin axundu Feyzulla Məzahiroğlu, əfəndisi isə Yusif Məmmədrəsuloğludur.



### QARAVƏLLİ KƏND İMAM HÜSEYN MƏSCİDİ



Zərdab rayonunun Qaravəlli kəndində yerləşən bu məscidin inşa tarixi 1993-cü ilə aiddir. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi isə 22x15 metrdir.

Məscid düzbucaqlı formada olub, qoşa minarəyə və günbəzə malikdir. Minarələr (hündürlüyü 16 metr) qırmızı kərpicdən tikilmiş və qübbəsi ağ dəmir təbəqə ilə işlənmişdir. Məscidin tağvari formalı iki giriş qapısı və 6 pəncərəsi vardır. Giriş qapılar olan tərəfdə eyvan yerləşmişdir. Eyvanın sahəsi 3x10 metrdir.

Qaravəlli kənd İmam Hüseyn məscidi Göyüş Aslan oğlu tərəfindən tikilmişdir.

### İSHAQBAĞI KƏND MƏSCİDİ



Məscid Zərdab rayonunun İshaqbağı kəndində tikilib. İnşa tarixi 1993-cü ildir. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 14x10 metrdir.

Formaca düzbucaqlı olan bu məscid başdan-başa mişar daşı və bişmiş kərpiclə işlənmişdir. Həyətyanı sahəsi yaşıllıqlar içərisindədir. Minarəsi dəmir borudan olub, hündürlüyü 14 metrdir. Mehrabının hündürlüyü 2 metrdir. Məscidin damının örtüyü və günbəzi ağ dəmir təbəqə ilə işlənmişdir. Əsas giriş qapısı dəmirdəndir və tağvari formaya malikdir. Qapıdan içəridə dəhliz yerləşmişdir. Sahəsi 4x3 metrdir. Dəhlizin həm sağ, həm də sol tərəfində yardımçı otaq var. İbadət zalına keçid dəhlizdəki qapıdandır. Məscidin döşəməsi torpaq, tavanı fanerdir. Yerdən tavana qədər hündürlüyü 3,5 metr, yerdən günbəzədək hündürlüyü 8 metrdir. Günbəz iç tərəfdən fanerlə işlənmişdir. İbadət zalında tağvari formalı 6 pəncərə qoyulmuşdur. Məscidin iç divarları qum-sementlə suvanmışdır.

### ÇALLI KƏND MƏSCİDİ



Məscid Zərdab rayonunun Çallı kəndində yerləşib. Tikintisinə 1995-ci ildə başlanmışdır. İç sahəsi 20x9 metrdir.

Çallı kənd məscidi formaca dördbucaqlı olub, bişmiş kərpicdən tikilmişdir. Damının örtüyü şiferlə işlənmişdir. Günbəzi damının üstündədir və dəmir təbəqə ilə işlənmişdir. Günbəzin üstündə ağ dəmir təbəqədən aypara rəmzi qoyulmuşdur. Məscidin giriş qapısının ön tərəfində açıqşəkilli eyvan (sahəsi 21x2 metr) yerləşmişdir. Eyvan dörd dəmir boru sütun üstündə dayanmışdır. İbadət zalı mişar daşından götürülmüş arakəsmə ilə iki hissəyə-kişilər və qadınlar şöbəsinə bölünmüşdür. İbadət zalında qoyulmuş pəncərə və qapılar tağvari formadadır.

Məscid yerli kənd sakinlərinin təşəbbüsü ilə tikilməyə başlanmışdır. Lakin hal-hazırda yerli sakin Hacı Zülfi Əbdülkərim oğlunun şəxsi vəsaiti hesabına inşa edilir.

Burada əvvəllər də məscid mövcud olmuşdur. Sovetlər vaxtında həmin məscid dağıdılmışdır.

## GƏLMƏKƏND İMAM HÜSEYN MƏSCİDİ

Məscid Zərdab rayonunun Gəlməkənd kəndində inşa edilib. İnşa tarixi 1903-cü ilə aiddir. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 12x7 metrdir.



Gəlməkənd İmam Hüseyn məscidi 1936-cı ildə bağlanmış və xəstəxana, dəlləkxana, inzibati bina, gübrə anbarı və nəhayət, broyler kimi istifadə edilmişdir. 1989-cu ildə məscidin dam örtüyü yerli camaat tərəfindən təmir edilmişdir. 1990-cı ildə isə istifadəyə verilmişdir. Günbəzi güldəstə formasında olub, altıguşəlidir. Həyətyanı sahə mişar daşından hörülmüş hasara alınmışdır. Məscidin ətrafı asfaltla döşənmişdir. Məscidin iki giriş qapısı vardır. Giriş qapılarının önündə eyvan yerləşmişdir. Sahəsi 12x4 metrdir. Eyvanın döşəməsi beton, tavanı isə fanerdəndir. Məscidin divarları bişmiş kərpiclə hörülmüşdür. Tavanı fanerdəndir və düzbucaqlı formadadır. Hündürlüyü 4 metrdir. İbadət zalında 12 pəncərə qoyulmuşdur. Tağvari formalı pəncərələri taxtadan düzəldilmişdir. Məscidin divarları (qalınlığı 60 sm.) iç və fasad tərəfdən qum-sementlə suvanmış və əhənglə ağardılmışdır. Döşəməsi torpaqdan olub, üstünə palçıq şirə çəkilmişdir. Məscidin iç divarları yerdən bir metr hündürlükdə fanerlə üzlənmişdir.

## MƏMMƏDQASIMLI KƏND MƏSCİDİ

Məscid Zərdab rayonunun Məmmədqasımlı kəndindədir. 1991-ci ildə tikintisi başlanan bu məscid 1992-ci ildə camaatın istifadəsinə verilib. Məscid yerli sakin Müzəfərov Nurəhməd Nurməmməd oğlunun təşəbbüsü ilə inşa edilib. Məscidin ustası isə Ömər Məmmədrəhim oğludur.



Məscidin həyətyanı sahəsi 3 min kvadrat metr olub, yaşıllıqlar içərisindədir. Həyətyanı sahə daş hasara alınıb. Məscid mişar daşı və kərpiclə işlənib, damının örtüyü isə ağ dəmir təbəqədəndir. Əsas ibadət zalının sahəsi 6x16 metr olub, mehrabı və minbəri yoxdur. Günbəzi ağ dəmir təbəqə ilə işlənib.

*Qeyd:*

Zərdab rayonunun daha 7 kəndində- Alcanlı, Lələ Ağacı, Böyük Dəklə, Məlikli, Dəli Quşçu, Pərvanlı, Körpükəndlə də məscidlər vardır.



# ZAQATALA RAYON MƏSCİDLƏRİ

## ZAQATALA RAYON CÜMƏ MƏSCİDİ

Məscid Zaqatala rayonunun Aşağı Tala kəndində yerləşib. İnşa tarixi 1901-1911-ci illərə aiddir. Həyətyanı sahəsi 5 min kv.metr, iç sahəsi 32,5x45 metrdir.

Məscid formaca dördbucaqlı olub, çaylaq daşı və bişmiş kərpiclə inşa edilib. Məscidin döşəməsi gil və kirəcdən, tavanı isə taxtadandır. Düzbucaqlı formada olan tavan 24 sütun üstündə dayanıb. Sütunlar bişmiş kərpicdən tikilib və 8 guşəyə malikdir. İbadət zalı 30 tağdan ibarətdir. Minbər taxtadandır və 5 pilləlidir. Minbər üzərində onun düzəldilmə tarixi və ustanın adı qeyd olunub. Minbərin, habelə mehrabın üstündə ərəb əlifbası ilə yazılar vardır. Məscidin hündürlüyü 8 metrdir. Damın örtüyü ağ dəmir təbəqədəndir. Günbəzi fasad tərəfdən olub, hündürlüyü 3 metrdir. Yaşıllıqlar içərisində olan həyətyanı sahə daş hasara alınıb.

Bu məscid keçmiş SSRİ ərazisində, habelə müasir Azərbaycanda iç sahəsinə görə ən böyük məscid hesab olunur. Məscid yerli sakin və vaxtilə bütün Qafqazda, Orta Asiyada, habelə Türkiyədə tanınmış Şeyx Əhməd Mustafa oğlu tərəfindən tikdirilmişdir. İnşaat işləri yerli camaatın vəsaiti hesabına həyata keçirilmişdir.

Məscid eynən tikildiyi kimi qalmışdır. O, 1929-cu ildə bağlanmış və 1994-cü ildə açılıb. Bu dövr ərzində məscid anbar kimi istifadə edilib. Bundan sonra məscid həmişə fəaliyyətdə olub.

Məscidin hazırkı imamı Şakir Əfəndi İbrahim oğludur. Əvvəlki imamları isə İmam Məhəmməd Ramazan oğlu, İmam Süleyman İsa oğlu, Ramazan Mohuma oğlu, İmam Şaban Əli oğlu olublar.

## KƏPƏNƏKÇİ KƏND MƏSCİDİ

Məscid Zaqatala rayonunun Kəpənəkçi kəndindədir. Hicri-qəməri təqvimi ilə 1329-cu ildə inşa olunub. Həyətyanı sahəsi 600 kv.metrdir, iç sahəsi isə 7,5x16 metrdir.



Məscid dördbucaqlı formada olub, başdan-başa çaylaq daşı və bişmiş kərpiclə inşa edilib. Həyətyanı sahəsi yaşıllıqlar içərisindədir və daş hasara alınıb. Döşəməsi və tavanı taxtadandır. Tavan 2 sütun üzərində dayanıb. Hündürlüyü 4,80 metrdir. Minbəri taxtadandır və beşpillədir. Məscidin bir giriş qapısı və 8 pəncərəsi vardır. Qapı və pəncərələr tağvari şəkildədir və taxtadan düzəldilib.

Sovetlər dövründə məscid anbar kimi istifadə edilib. 1988-ci ildə burada bərpa işləri görülüb. Bərpa işləri kolxozun vəsaiti, habelə Türkiyənin Gənclərə Yardım Fondunun vəsaiti hesabına icra edilib. 1998-ci ildə məscid fəaliyyətə başlayıb.

## CAR KƏND MƏSCİDİ



Məscid Zaqatala rayonunun Car kəndində yerləşib. Tarixi dəqiq məlum deyil. Lakin həyətdəki mədrəsə h.q. təqvimi ilə 1323-cü ildə inşa edilib. Həyətyanı sahəsi 5 min kv.metr, iç sahəsi isə 19x10 metrdir.

Məscid çaylaq daşından tikilib. Dam örtüyü qırmızı kirəmitdəndir. Formaca düzbucaqlıdır, hƏyətyanı sahəsi yaşıllıqlar içərisində olub və hasara alınıb. Məscidin iki giriş qapısı vardır. Məscidin qabaq tərəfində eyvan (sahəsi 51 kv.metr) jerləşib. İbadət zalı ikimərtəbəlidir. İkinci mərtəbə qadınlar üçün nəzərdə tutulub. Minbəri taxtadandır və üçpilləlidir. Mehrabın hündürlüyü 2,5 metrdir. İbadət zalında 10 pəncərə qoyulub. Məscid sovetlər dövründə anbar kimi istifadə edilib. 1990-cı ildə məsciddə yerli camaatın vəsaiti hesabına təmir-bərpa işləri aparılıb. İbadət zalı içəridən qum-sementlə suvanıb və rənglənib. Tavanı taxtadandır. 1-ci və 2-ci mərtəbə arasındakı arakəsmə də taxtadan işlənib. Məscidin döşəməsi kirəcdir. Divarlarının qalınlığı 80 sm.-dir. Məscidin divarlarının yuxarı hissəsində gözlüklər qoyulmuşdur. Bu gözlüklər bayır tərəfdən ensiz, içəri tərəfdən isə genişdir. Onların müdafiə məqsədi ilə qoyulduğu qeyd olunur.



## MUĞANLI KƏND MƏSCİDİ



Məscid Zaqatala rayonunun Muğanlı kəndindədir. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1279-cu ilə aiddir. Bununla belə, 1990-92-ci illərdə məsciddə təmir işləri aparılıb. Həyətyanı sahəsi 1500 kv.metrdir. İç sahəsi 18x7 metrdir.

Məscid bişmiş kərpicdən tikilib. İç divarı qum-sementlə suvanıb və yaşıl rənglə işlənib. Düzbucaqlı formadadır. Məscidin iki giriş qapısı vardır. Minbər taxtadan olub, 6 pilləlidir. Qapıları taxtadandır və tağvari formadadır. Döşəmədən tavana qədər hündürlüyü 4,5 metrdir. Giriş qapısının ön tərəfində eyvan yerləşib. Eyvan 5 tağdan ibarətdir, sahəsi 18x3 metrdir. Məscidin tavanı faner, döşəməsi isə kafeldəndir. Dam örtüyü şiferlə işlənib.

Məscidin bərpa işləri yerli sakinlərin vəsaiti hesabına həyata keçirilib.

## YUXARI TALA MƏSCİDİ



Məscid Zaqatala rayonunun Yuxarı Tala kəndində yerləşib. İnşa tarixi XIX əsrin ortalarına aid edilir. Həyətyanı sahəsi 3 min kv.metr, iç sahəsi 32x12 metrdir.

Məscid formaca dördbucaqlı olub, başdan-başa çay daşı və bişmiş kərpiclə inşa edilib. Həyətyanı sahəsi yaşıllıqlar içərisindədir və daş hasara alınıb. Məscidin dam örtüyü qırmızı kirəmitlə işlənib. Giriş qapısının qarşısında eyvan yerləşib. Mehrabı divarın içərisindədir. Hündürlüyü 3,5 metrdir. Döşəmədən tavana qədər hündürlüyü 7 metrdir. Tavan taxtadan işlənib və 10 taxta sütun üzərində dayanıb. Divarlar ağ və göy rənglə işlənib. Məscidin iki giriş qapısı vardır. Onlar taxtadan düzəldilib və tağvari formadadır. İbadət zalında 8 pəncərə qoyulub. Divarlar iç tərəfdən qum-sement məhlulu ilə suvanıb. İbadət zalının döşəməsi betondur.

Sovetlər dövründə məscid anbar kimi istifadə edilib. 1993-cü ildən etibarən məscid bərpa edilib və fəaliyyətə başlayıb.



## MAMRUX KƏND MƏSCİDİ

Məscid Zaqatala rayonunun Mamrux kəndində tikilib. 1994-cü ildə inşa olunub. Həyətyanı sahəsi 400 kv metr, ibadət zalının sahəsi 13x10 metrdir.

Məscid yüksəklikdə yerləşir. Mişar daşı və bişmiş kərpiclə tikilib. Damının örtüyü və minarəsinin qübbəsi ağ dəmir təbəqə ilə örtülüb. İki giriş qapısı var. Qapılar tağvari formada olub, taxtadan düzəldilib. İbadət zalının hündürlüyü 4,5 metrdir. Mənbəri taxtadandır və üçpilləlidir. Mehrabın hündürlüyü 2 metrdir. Məscidin ibadət zalında 5 ədəd pəncərə qoyulub. Pəncərələr taxtadan olub, tağvari formadadır. Tavanı düzbucaqlı formadadır. Döşəməsi betondur. Məscidin interyeri çox sadədir. Məscidin ön hissəsində sahəsi 16x3 metr olan eyvan yerləşir. Həyətyanı sahəsi hasara alınıb.



Buradakı köhnə məscid də qorunub saxlanılıb. Hal-hazırda həmin məscid istifadə olunmur. Köhnə məscid XIX əsrin əvvəllərində tikilib.

## TALA KƏND MƏSCİDİ



Məscid Zaqatala rayonunun Tala kəndində yerləşib. 1993-cü ildə inşa edilib.

Yerli sakin Əli Nəbi oğlu Quliyevin təşəbbüsü və şəxsi vəsaiti hesabına tikilmişdir. Əsas etibarilə yoldan ötən möminlərin, qonaqların və digərlərinin ibadət etmələri üçün nəzərdə tutulub. Məscid bişmiş kərpiclə tikilib, formaca dördbucaqlıdır. Damı üstündə qoşa günbəzi vardır. Dam örtüyü və günbəzlər ağ dəmir təbəqə ilə işlənib. Məscidin döşəmədən tavana qədər hündürlüyü 3 metrdir.

## MATSEX KƏND MƏSCİDİ



Məscid Zaqatala rayonunun Matsex kəndində inşa olunub . Dəqiq tarixi məlum deyil. Lakin 1989-cu ildə təmir-bərpa işləri aparıldıqdan sonra yenidən istifadəyə verilmişdir. Həyətyanı sahəsi 5 min kv.metrdir. İç sahəsi 19x10 metrdir.

Dördbucaqlı formada olan bu məscid çaylaq daşı və bişmiş kərpiclə tikilib. Həyətyanı sahəsi yaşıllıqlar içində olub, hasara alınıb. Dam örtüyü ağ dəmir təbəqə ilə işlənib. Damın üstündə hündürlüyü 1,5 metr olan günbəz yerləşib. Günbəzin üstündə isə ağ dəmir təbəqədən düzəldilmiş aypara və beşulduz rəmzi qoyulub. Məscidin giriş tağlarının üstündə yan divarda, habelə giriş qapısının üstündə üç yerdə daş kitabə həkk olunub. Minbəri taxtadandır və beşpilləlidir. Mehrabı çox sadə formada olub, hündürlüyü 2,5 metrdir. Məscidin iç divarları sement məhlulu ilə suvanıb. Döşəməsi kirəc, tavanı isə taxtadır. Tavan dördbucaqlıdır, 3 böyük sütun üzərində dayanıb. Məscidin giriş qapısı ikidir. Onlar taxtadandır və dördbucaqlı formadadır. İbadət zalının döşəmədən tavana qədər hündürlüyü 6 metrdir. Məscid sovetlər dövründə anbar kimi istifadə olunub.

## ƏLİABAD KƏND MƏSCİDİ



Məscid Zaqatala rayonunun Əliabad kəndindədir. Hicri-qəməri təqvimi ilə 1293-cü ildə inşa edilib. Həyətyanı sahəsi 3000 kv.metr, iç sahəsi isə 30x15 metrdir.

Məscid çaylaq daşı və bişmiş kərpiclə inşa edilib. Damının örtüyü ağ dəmir təbəqə ilə işlənib. Həyətyanı sahə yaşıllıqlar içərisində olub, daş hasara alınıb. Məscidin giriş qapıları olan tərəfində eyvan yerləşib. Eyvan on tağdan ibarətdir, sahəsi 34x2 metrdir. Məscidin əsas binasının qarşı tərəfində minarə ucaldılıb. Minarə bişmiş kərpiclə işlənib. Məscidin döşəməsi beton, tavanı fanerdir. Tavan 26 sütun üzərində dayanıb. Sütunlar bişmiş kərpicdəndir. Döşəmədən tavana qədər hündürlüyü 6 metrdir. Minbər taxtadandır, doqquzpilləlidir və şəbəkələrlə işlənmişdir. Minbərin üstündə onu düzəldən ustaların adı - usta Habil və usta Məhəmmədəli qeyd olunub. Məscidin qadınlar şöbəsinin sahəsi 30x7 metrdir. Şöbəyə giriş fasad tərəfdəndir.





Mehrabı da nəfis şəkildə işlənib və onun sağ tərəfində hicri-qəməri tarixi ilə düzəldiyi tarix - 1311-ci il qeyd edilib. Giriş qapısından sağ tərəfdə, yuxarıda böyük bir daş kitabə həkk edilib. Burada Quran ayəsi və məscidin inşa tarixi qeyd edilib. Sovetlər dövründə məscid anbar kimi istifadə edilib. 1988-ci ildə məscid istifadəyə verilmiş və 1989-cu ildə orada təmir-bərpa işləri aparılmışdır.

## ÇÖKƏK KƏND MƏSCİDİ



Məscid Zaqatala rayonunun Çökək kəndində yerləşib. Hicri-qəməri təqvimi ilə 1324-cü ildə inşa olunub. İbadət zalının sahəsi 10x14 metr, həyətyanı sahəsi isə 700 kv.metrdir.

Məscid düzbucaqlı formada olub, başdan-başa çaylaq daşı ilə tikilmişdir. Məscidin 2 giriş qapısı var. Giriş qapıları olan tərəfdə - divardakı daş kitabədə məscidin inşa tarixi haqda məlumat var. Minbəri taxtadandır və 3 pilləlidir. Mehrabın hündürlüyü 2,5 metrdir. Döşəmədən tavanadək hündürlüyü 3,5 metrdir. Düzbucaqlı formada olan tavan fanerlə işlənib. Tavan 5 sütun üzərində dayanıb. Damın örtüyü ağ dəmir təbəqə ilə işlənib. Həyətyanı sahəsi daş hasara alınıb.



## MOSUL KƏND MƏSCİDİ



Zaqatala rayonunun Mosul kəndində yerləşən bu məscid hicri-qəməri təqvimilə 1307-ci ildə inşa olunub. İç sahəsi 29x14 metr, həyətyanı sahəsi isə 3000 kv.metrdir.

Məscid dördbucaqlı formada olub, bişmiş kərpic və çaylaq daşı ilə tikilmişdir. Həyətyanı sahəsi yaşıllıqlar içərisindədir və daş hasara alınmışdır. Damı ağ dəmir təbəqə ilə örtülmüşdür. Minarəsi bişmiş kərpiclə tikilib və hündürlüyü 26 metrdir. Bir giriş qapısı var. Dördbucaqlı formalı tavanı fanerlə işlənib və 4 sütun üzərində dayanıb. Sütunlar bişmiş kərpiclə götürülüb. 7 pilləli minbəri taxtadandır. Minbər çox nəfis şəkildə işlənmişdir.

Məscid sovetlər dövründə anbar kimi istifadə edilib. Burada 1989-cu ildən bərpa işləri görülmüşdür və 1995-ci ildən məscid istifadəyə verilib.

## ÇOBANKOL KƏND MƏSCİDİ



Məscid Zaqatala rayonunun Çobankol kəndində yerləşib. Hicri-qəməri təqvimi ilə 1330-cu ildə inşa olunub. Həyətyanı sahəsi 800 kv.metr, iç sahəsi isə 20x10 metrdir.

Məscid başdan-başa çaylaq daşı və bişmiş kərpiclə inşa edilib. Həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, daş hasara alınıb. Damının örtüyü ağ dəmir təbəqə ilə işlənib. Məscidin tağvari formalı bir giriş qapısı var. Giriş qapısının ön tərəfində eyvan yerləşib. Eyvan 7 tağdan ibarət olub, tavanı faner, döşəməsi asfaltla işlənib. Minbər taxtadandır və 5 pilləlidir. 4 sütun üstündə dayanmış tavan fanerlə işlənib. Məscidin arxa divarında daş kitabə həkk edilib.



Məsciddə 1989-cu ildə təmir-bərpa işləri aparılmış və istifadəyə verilmişdir. Bu məscid 1988-ci ilədək anbar kimi istifadə edilib.

## YENGİYAN KƏND MƏSCİDİ



Məscid Zaqatala rayonunun Yengiyan kəndində tikilib. İnşa tarixi dəqiq məlum deyil. Həyətyanı sahəsi 700 kv.metr, əsas ibadət zalının sahəsi isə 9x9 metrdir.

Məscid bişmiş kərpic və çaylaq daşı ilə tikilmişdir. Damının örtüyü ağ dəmir təbəqədəndir. Damın üstündə ağ dəmir təbəqədən aypara və səkkizguşəli ulduz rəmzi qoyulub. Məscid səkkizguşəlidir və hər bir guşəsində iki pəncərə qoyulub. Bir guşəsində isə giriş qapısı yerləşib. Pəncərələr tağvari formada olub, taxtadan düzəldilib. Məscidin tavanı fanerdir. 4 pilləli minbər taxtadandır. Mehrabı müxtəlif nəbati ornamentlərlə işlənib. Giriş qapısından içəridə dəhliz yerləşib.

Məscid Hacı Abdulla Əfəndi tərəfindən tikilib, 1995-ci ildə yenidən bərpa edilib və möminlərin istifadəsinə verilib.

### MUXOX KƏND MƏSCİDİ



Məscid Zaqatala rayonunun Muxox kəndində yerləşib. Hicri-qəməri təqvimi ilə 1260-cı ildə inşa olunub. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi isə 34x15 metrdir.

Bu məscid də rayondakı digər məscidlər kimi, eyni memarlıq üslubunda inşa edilib. Həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, daş hasara alınıb. Giriş qapısı üçdür. Qapılar tağvari formada olub taxtadan düzəldilib. Tavan düzbucaqlıdır. Beşpilləli minbər taxtadandır. Minbər hicri-qəməri təqvimi ilə 1344-cü ildə düzəldilib. Məscidin mehrabı çox sadə şəkildə işlənib. Tavanı 16 sütun üzərində dayanıb. İbadət zalında 16 tağvari formalı pəncərə qoyulub.

Məscidi tikdirən Mustafa Hacı Abdulladır.



*Qeyd:*

Zaqatala rayonunun daha 20 kəndində- Yuxarı Çardaqlar, Gözbarah, Suvagil, Bəhmədli, Lahıc, Talabikələr, Danaçı, Makov, Uzunqala, Paşan, Yolayrıcı, Kebeloba, Aşağı Çardaqlar, Cımcımax, Qapan, Qaraçay, Qaskənd, Əli Bayramlı, Qandax və Meşləş kəndlərində də məscidlər var.

## İSMAYILLI RAYON MƏSCİDLƏRİ

### İSMAYILLI ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Məscid İsmayıllı şəhərinin mərkəzindədir. Hicri-qəməri təqvimi ilə 1303-cü ildə inşa edilib. Həyətyanı sahəsi 5000 kv.metr, iç sahəsi isə 10x15 metrdir. Məscid formaca dördbucaqlı olub, divarları çaylaq daşı ilə hörülmüşdür. Yaşıllıqlar içərisində olan həyətyanı sahə daş hasara alınıb. Məscidin qarşı tərəfi asfaltla döşənib. 3 giriş qapısı var. Onlardan birinin üstündə daş kitabə həkk olunub. Məscidin döşəməsi və habelə eyvanının döşəməsi daş plitə ilə işlənib. İbadət zalında 10 tağvari formalı pəncərə qoyulub. Minbəri taxtadandır və səkkizpillelidir. Günbəz səkkizguşəli güldəstə formasındadır. Məscidin üstündə aypara və beşguşəli ulduz qoyulmuşdur.

Məscidin həyətində mədrəsə binası var. Hal-hazırda mədrəsə üçün başqa bir bina da tikilir.



Sovetlər dövründə - 1937-ci ildən 1988-ci ilə qədər məktəb, hərbi kazarma, həbsxana və anbar kimi istifadə edilib. 1989-90-cı illərdə burada təmir-bərpa işləri aparılıb və məscid istifadəyə verilib. Bu işlər Azərbaycan Mədəniyyət Nazirliyinin Bərpa İdarəsi və yerli şəhər camaatı tərəfindən həyata keçirilmişdir.

Məscidin nəzdində fəaliyyət göstərən mədrəsədə 4 il ərzində 70 nəfər tələbə təhsil alıb. Bu mədrəsə rəsmi olaraq qeydiyyatdan keçib. Hal-hazırda burada 30 tələbə təhsil alır.

Məscidin imamı Şahzadə Nufaqoğludur.



### BƏDÖYÜN MƏSCİDİ



Məscid İsmayıllı rayonunun Bədöyün məhəlləsində yerləşir. İnşa tarixi hicri-qəməri ilə 1295-ci ildir. İç sahəsi 16x16 metrdir.

Məscid başdan-başa çaylaq daşı ilə tikilib. Damının örtüyü, habelə günbəzi ağ dəmir təbəqə ilə işlənmişdir. Məscidin giriş qapısının üstündə və yan tərəflərində daş kitabələr həkk edilib. Döşəməsi və tavanı taxtadandır. Tavan düzbucaqlı formada olub, altı taxta sütun üzərində dayanıb. Günbəz məscidin fasad tərəfindəndir. Beşpilləli minbər taxtadandır. Qadınlar şöbəsi 2-ci mərtəbədə yerləşib. Məscidin divarlarının qalınlığı 70-80 sm.-dir. Döşəmədən tavana qədər olan hündürlüyü 5 metrdir. Bütün qapı və pəncərələri taxtadan düzəldilib. İbadət zalı açıq-mavi rənglə işlənib.

Məscidin giriş qapısından sol tərəfdəki otaqda əvvəlki axundlarından birinin qəbri yerləşib.

Məscid vaxtilə Hacı Qurban adlı bir şəxs tərəfindən tikilib. Sovetlər dövründə bu məsciddən xalça sexi kimi istifadə edilib. 1990-cı ildə məscidin fəaliyyəti bərpa olunmuşdur. Sonralar burada təmir işləri aparılmışdır. Lakin təmir işlərini axıracan aparmaq mümkün olmamışdır. 1997-ci ildə məsciddə yenidən təmirə başlanmışdır. Bu iş məsciddə yığılan nəzir-niyaz hesabına həyata keçirilib.

### İSMAYILLI ŞƏHƏR MƏHƏMMƏDİYYƏ MƏSCİDİ



Məscid İsmayıllı şəhərinin M.Orucov küçəsindəki qəbristanlıqdadır. İnşa tarixi 1989-1994-cü illərə aiddir. İç sahəsi 16x9 metrdir.

Formaca dördbucaqlı olan bu məscid mişar daşı və bişmiş kərpiclə tikilib. Damının örtüyü şiferlə işlənib. Məscidin iki giriş qapısı var. Giriş qapıları tərəfdə eyvan yerləşib. Məscidin döşəməsi torpaq, tavanı isə fanerdir. İbadət zalında 4 pəncərə qoyulub. Yeddipilləli minbər taxtadan düzəldilib. İbadət zalının yan tərəfində yardımçı otaq yerləşib.

Məscidin inşasında yerli sakinlər yaxından iştirak etmişlər.

### MİCAN KƏND MƏSCİDİ



Məscid İsmayıllı rayonunun Mican kəndində yerləşir. İbadət zalının sahəsi 11x16 metrdir.

Məscid başdan-başa çaylaq daşı ilə tikilib. Düzbucaqlı formada olan giriş qapılarının sayı üçdür və taxtadan düzəldilib. Məscidin ön tərəfində eyvan yerləşib. Eyvanın döşəməsi daş plitə, tavanı isə taxtadandır. Eyvan 6 azbest sütun üzərində dayanıb. Məscidin damının örtüyü dəmir təbəqə ilə işlənib. Günbəzi dəyirmi, güldəstə formasındadır, hündürlüyü 3 metrdir və üstü ağ dəmir təbəqə ilə işlənmişdir. Tavan düzbucaqlı formada olub, 6 taxta sütun üzərində dayanıb. Minbər taxtadandır və altıpillelidir. Döşəmədən tavanadək hündürlüyü 6 metrdir. Mehrabı divarın içindədir və ucu sivri formalıdır.

Məscid yerli sakin Hacı Mahmud Əfəndinin şəxsi vəsaiti hesabına tikilib. Məscidin tikintisində yerli camaat da yaxından iştirak etmişdir. Məscid 1930-cu ilə kimi istifadə edilib. Daha sonra məscid çox bərbad vəziyyətə düşdüyündən 1966-cı ildə yerli camaatın köməkliyi sayəsində nisbətən təmir edilib. Lakin bundan sonra da 1987-ci ilədək anbar kimi istifadə olunub. 1988-ci ildə məscid yenidən təmir edilmiş və 1992-ci ildən fəaliyyətə başlamışdır. Məscidin təmir-bərpa işlərində yerli sakinlərdən Mahmud Rəsulov, Ələsgər Məmmədovla Fəda Ağayevin xidmətləri böyük olmuşdur.

## TİRCAN KƏND MƏSCİDİ



İsmayıllı rayonunun Tircan kəndində yerləşən bu məscidin iç sahəsi 9x12 metr, həyətyanı sahəsi 1500 kv.metrdir.

Məscid mişar daşı ilə tikilmişdir. Damının, günbəzinin və minarəsinin üstü ağ dəmir təbəqə ilə işlənib. Minarəsi dəyirmi formada olub, hündürlüyü 10 metrdir. İç və fasad divarları qum-sement məhlulu ilə suvanmışdır. Giriş qapılarının ön tərəfində eyvan jerləşmişdir. İbadət zalında 6 tağvari formalı pəncərə qoyulmuşdur. Həyətyanı sahə daş hasara alınıb.

## BASQAL QƏSƏBƏ MƏSCİDİ (I)



Məscid İsmayıllı rayonunun Basqal qəsəbəsinin Dəmirçi-Bazar məhəlləsində yerləşib. İç sahəsi 12x9 metrdir.

Məscid 1848-ci ildə Hacı Bədəl Məşədi ağa oğlu tərəfindən və onun şəxsi vəsaiti hesabına tikilib. Məscidin günbəzi fasad tərəfdəndir, hündürlüyü 4 metrdir. Minbər taxtadan düzəldilib. Tavanı taxta, döşəməsi daş plitə ilə işlənib. İbadət zalında 8 ədəd pəncərə qoyulub. Onlardan ikisi tağvari, altısı isə düzbucaqlı formadadır. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanmışdır. Qadınlar şöbəsinin sahəsi 9x6 metrdir.

Məscidin həyətində türbə yerləşmişdir. Türbənin divarında daş kitabə həkk edilib. Seyid Ümbülbanu çox mömin bir insan olduğundan onu bu məscidin həyətində dəfn etmişlər.

Məsciddə hər il dini mərasimlər keçirilir. Sovetlər dövründə 1924-cü ildən 1990-cı ilə qədər məsciddən anbar kimi istifadə edilmişdir. 1957-ci ildə bir qrup yerli sakin Bədəl məscidini və onun həyətində yerləşən Seyid Ümbülbanu türbəsini təmir etdirmişdir. 1985-ci ildə Azərbaycan Mədəniyyət Nazirliyinin Tarixi Abidələri Bərpa İdarəsi Hacı Bədəl məscidində əsaslı bərpa işləri aparmışdır. 1990-cı ildə yerli sakin və İtaliyanın milli qəhrəmanı Məmməd Bağırovun təşəbbüsü ilə məscidin fəaliyyəti bərpa edilmişdir. Sonrakı dövrdə dövlətin vəsaiti hesabına burada təmir-bərpa işləri həyata keçirilmişdir. Məscidin iç divarlarına suvaq çəkilmiş, dam örtüyü yenidən işlənmiş və ağ dəmir təbəqə ilə örtülmüşdür.

## BASQAL QƏSƏBƏ MƏSCİDİ (II)



Bu qəsəbədə ikinci bir məscid də vardır. O, Basqal qəsəbəsinin Kələküçə məhəlləsində yerləşmişdir. Bu məscid hicri-qəməri təqvimi ilə 475-ci ildə əl-Fəqir Şeyx Səfayi ibn Şeyx Məhəmməd tərəfindən tikilmişdir. Məsciddə daş kitabə həkk olunub. Məscid bərbad vəziyyətə düşdüyündən burada 1983-cü ildə yerli əhalinin vəsaiti hesabına təmir işləri aparılmışdır. Bütün bu təmirlərdən sonra məscid ilkin memarlıq üslubunu və ümumi görkəmini itirmişdir.



## AŞAĞI ƏRƏGİT MƏSCİDİ



Məscid İsmayıllı rayonunun Lahıc qəsəbəsinin Ərəgit məhəlləsindədir. Bünövrəsi 1843-cü ildə qoyulub.

Məscid qədimliyinə baxmayaraq çox yaxşı vəziyyətdədir. Lakin qəsəbədə məscidlər çox olduğundan ondan istifadə edilmir. Minarəsi, günbəzi yoxdur. Minarə sovetlər dövründə sökülüb dağıdılıb. Günbəz də bərbad vəziyyətdədir. Buradakı digər məscidlər kimi bu məsciddə də daş kitabələr var.

Sovetlər dövründə xalça sexi kimi istifadə olunub.

## AĞOLU MƏSCİDİ



Məscid İsmayıllı rayonunun Lahıc qəsəbəsinin Ağolu məhəlləsində yerləşir. Hicri-qəməri ilə 1332-ci ildə inşa edilib.

Məscid yerli sakin Məşədi Fərzi tərəfindən tikdirilmişdir. O, başdan-başa çaylaq daşı ilə inşa edilib. Məscid hündürlüyü 1 metr olan səki üzərində yerləşmişdir. Sovetlər dövründə əsasən anbar kimi istifadə olunmuşdur. 1987-ci ildə bərpa edilmiş və həmin vaxtdan bu günədək məscid binası Lahıc Tarix Diyarşünaslıq Muzeyi kimi fəaliyyət göstərir.

## LAHIC QƏSƏBƏSİ ZƏVARO MƏHƏLLƏ MƏSCİDİ



Məscid İsmayıllı rayonunun Lahıc qəsəbəsinin Zəvaro məhəlləsindədir. 1805-ci ildə inşa olunub.

Məscid yerli camaat tərəfindən tikilmişdir və öz ilkin görkəmini qoruyub saxlayıb. Formaca dördbucaqlı olan bu məscid çaylaq daşı ilə inşa olunub. Minarəsi ağ dəmir təbəqə ilə işlənmişdir. Minarə damın üstündə yerləşib, onun hündürlüyü 5 metrdir. Məscid hündürlüyü 1 metr olan səki üstündə inşa edilib. Giriş qapısı tərəfdə - divarda daş kitabələr həkk olunub. Damının örtüyü ağ dəmir təbəqədəndir.

Sovetlər dövründə məscid Mədəniyyət evi kimi istifadə olunub. 1980-ci illərin axırlarında Mədəniyyət evi ləğv edilib və məsciddə təmir işlərinə başlanıb.

## LƏLƏSİ MƏSCİDİ

Məscid İsmayıllı rayonunun Lahıc qəsəbəsinin Ağolu məhəlləsində yerləşmişdir. Angaq müharibə dövründə (1941-45) tamamilə dağıdılıb. Hal-hazırda ondan heç bir əsər-əlamət yoxdur.

## YUXARI ƏRƏGİT (RƏHİMLİLƏR) MƏHƏLLƏ MƏSCİDİ



Məscid İsmayıllı rayonunun Lahıc qəsəbəsinin Rəhimlilər məhəlləsində yerləşib. İnşa tarixi hicri-qəməri ilə 1311-ci ildir. İç sahəsi 11x11 metrdir.

Məscid dördbucaqlı formada olub, damının örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir.

Məscidin ön tərəfində eyvan yerləşib. Eyvanın döşəməsi yonulmuş çaylaq daşı ilə döşənmişdir. Məscidin 2-ci mərtəbəsində qadınlar üçün xüsusi yer nəzərdə tutulub. Buranın sahəsi 11x2 metrdir. İbadət zalında 12 tağvari formalı pəncərə qoyulub. Günbəz damın üstündədir və hündürlüyü 4 metrdir. Günbəz ağ dəmir təbəqə ilə işlənib. Minbər taxtadan düzəldilib və altıpilləlidir. Məscidin həm iç divarları, həm də fasad tərəfi suvanmışdır. Döşəməsi beton, tavanı isə taxtadandır.



Məscid sovetlər dövründə taxıl anbarı kimi istifadə edilib. 1993-cü ildə məscidin fəaliyyəti bərpa edilmiş və eyni vaxtda burada yerli camaatın vəsaiti hesabına təmir işləri aparılıb.

## QUŞİNCƏ KƏND MƏSCİDİ

Məscid İsmayıllı rayonunun Quşincə kəndindədir. 1997-ci ildə inşa olunub. Həyətyanı sahəsi 2000 kv.metr, əsas ibadət zalının sahəsi 9x7 metr, qadınlar şöbəsinin sahəsi 7x2 metrdir.

Məscid başdan-başa mişar daşı ilə tikilib. Həyətyanı sahəsi də mişar daşından hörülərək hasara alınıb. Qoşa minarəyə malik olan bu məscidin damının örtüyü və günbəzi ağ dəmir təbəqə ilə işlənmişdir. Minarələr mişar daşı ilə inşa edilib. Formaca dəyirmi olan minarələrin qübbəsi ağ dəmir təbəqə ilə örtülüb. Minarələrin və günbəzin üstündə ağ dəmir təbəqədən aypara rəmzi qoyulub. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanmış və göy rənglə rənglənmişdir. Minbəri taxtadandır, dördpilləlidir. Mehrabın hündürlüyü 4,5 metr, döşəmədən tavana qədər hündürlüyü isə 5, 5 metrdir. Düzbucaqlı formalı tavan fanerlə işlənib. İbadət zalında 8 pəncərə qoyulub. Onlar taxtadan düzəldilib, tağvari formaya malikdir.



Məscidin həyətində mədrəsə də var. Mədrəsənin binası mişar daşı ilə hörülmüşdür. Damının örtüyü isə ağ dəmir təbəqədən işlənmişdir.

Məscid Küveyt İslam İrsinin Dirçəlişi Cəmiyyətinin vəsaiti hesabına tikilib istifadəyə verilib.



## DİYALLI KƏND MƏSCİDİ

Məscid İsmayıllı rayonunun Diyallı kəndindədir. 1997-ci ildə inşa olunub. Həyətyanı sahəsi 4000 kv.metrdir.

Məscid mişar daşı ilə tikilmişdir. O, dördbucaqlı formada olub, damının örtüyü, günbəzi və minarəsinin qülləsi ağ dəmir təbəqə ilə işlənib. Məscid hündürlüyü 1 metr olan səki üzərində yerləşib. Dəyirmi formalı minarənin hündürlüyü 11 metrdir. İbadət zalının hündürlüyü 4,5 metrdir. Məscidin yaxınlığında mədrəsə binası da tikilmişdir. Mədrəsə artıq fəaliyyətə başlamışdır.

Məscidin tikintisinin təşəbbüskarı yerli sakin Hikmət Əlövsət oğludur.



# İMİŞLİ RAYON MƏSCİDLƏRİ

## İMİŞLİ ŞƏHƏR VƏLİYULLAH MƏSCİDİ



Məscid İmişli şəhərinin mərkəzində yerləşib. Məscid binası 1991-94-cü illərdə tikilib. Bünövrəsi isə 1987-ci ildə rayonun İcra başçısı Hacı Xanhüseyn tərəfindən qoyulub. Həyətyanı sahəsi 3000 kv.metr olub, başdan-başa daş plitələrlə döşənmişdir. Məscid həmçinin, daş hasara alınıb. Əsas ibadət zalının sahəsi isə 15x15 metrdir. Əsas ibadət zalının sağ və sol tərəflərində daha iki ibadət zalı var. Onların sahələri isə 6x28 metrə bərabərdir.

Məscid özünəməxsus memarlığı ilə səciyyələnir və nəfis formada işlənib. Onun mişar daşından tikilmiş qoşa minarəsi məscidin əzəmətini daha da artırır. Minarələrin qüllə hissəsi də daşla işlənmiş və üstündə aypara və səkkizguşəli ulduz rəmzi qoyulub. Minarələr daş plitələrlə üzlənmiş və aşağı hissəsi düzbucaqlı, yuxarı hissəsi isə dəyirmi formadadır. Minarələr həmçinin, tək şərəfəyə malikdir və şərəfələr daşla işlənib. Şərəfələrin aşağı hissəsi də üçqat stalaktitlərlə işlənib. Minarələrin hündürlüyü isə 27 metrdir. Əsas giriş qapısı nəfis şəkildə işlənib və dərhal nəzər-diqqəti cəlb edir.

Məscidin günbəzinin diametri 15 metrdir və onu 16 ədəd tağvari pəncərə bəzəyir. Minbəri taxtadandır və altıpillədir. Məscidin divarlarının qalınlığı isə 1 metrdir.

Məscid binasının döşəmə və tavanı betonla işlənib.

İmişli şəhər Vəliyullah məscidinin axundu Hacı Adıgözəl Hacı Cəmiloğludur.

## OTUZİKİLƏR KƏND MƏSCİDİ

Bu məscid İmişli rayonunda, Araz çayının Qaradonlu tərəfində inşa edilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 8x28 metr, hündürlüyü isə 3,5 metrdir. Məscidin tikilmə tarixi 1988-ci ildir. Bütün tikinti kənd camaatının vəsaiti ilə başa gəlmişdir. Forma etibarilə düzbucaqlı olan məscid binasının divarları, habelə döşəməsi betonla işlənib. Pəncərələri və qapıları düzbucaqlı formadadır.

Məscid tək minarəyə (15 metr) malikdir.



## XANÇOBANLI KƏND MƏSCİDİ

Bu məscid İmişli rayonunun Xançobanlı kəndində tikilib. İnşa edildiyi tarix 1989-cu ilə aiddir. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi 10x30 metrdir.

Düzbucaqlı formada olan məscid binası başdan-başa mişar daşı ilə işlənib. Dam örtüyü təxminən 2 metr enində irəli çıxıb.

Məscidin yan tərəfində iki (dəmir borudan) minarə (15 metr) ucaldılıb. Minarələrin şərəfə hissəsi ağ dəmir təbəqə ilə işlənib.



## QARALAR KƏND MƏSCİDİ (I)

Məscid İmişli rayonunun Qaralar kəndindədir. Məscidin ilkin tarixi dəqiq məlum deyildir. 1990-cı ildə burada əvvəlki məscid sökülmüş və yerində indiki məscid inşa olunmuşdur. Tikinti işləri kənd camaatı tərəfindən yerinə yetirilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 28x7,5 metr, hündürlüyü isə 2,5 metrdir.

Qaralar kənd məscidinin yan tərəfində ucaldılmış (dəmir boru) minarənin hündürlüyü 16 metrə çatır.

Məscid düzbucaqlı formaya malikdir.



## QARALAR KƏND MƏSCİDİ (II)

Məscid İmişli rayonunun Qaralar kəndində yerləşib. Formaca düzbucaqlı olub, başdan-başa mişar daşı ilə tikilib. Həyətyanı sahəsi 1200 kv. metr, iç sahəsi isə 21x8 metrdir.

Məscidin tikintisinə 1996-cı ildə başlanılıb. Yerli kənd camaatının təşəbbüsü və vəsaiti hesabına tikilən bu məscidin damının örtüyü dəmir təbəqə ilə işlənib. Yerdən tavana qədər hündürlüyü 4 metr, günbəzin diametri isə 3 metrdir. Günbəzin üstündə dəmirdən aypara və səkkizguşəli ulduz qoyulub.





## BƏCİRAVAN KƏND MƏSCİDİ (I)

Bu məscid İmişli rayonunun Bəciravan kəndində tikilib. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi 8x19 metrdir.

Məscidin ilkin tarixi 1940-cı ilə aiddir. 1990-cı ildə həmin məscidin yerində indiki məscid tikilib. Divarları mişar daşından hörülüb. Damı dəmir təbəqə ilə örtülüb. Bütün qapı və pəncərələri tağvari formadadır. Məscidin forması düzbucaqlıdır. Damının üstündə hündürlüyü 6 metr olan günbəz vardır.



## AĞCÜYÜR KƏND MƏSCİDİ

Məscid İmişli rayonunun Ağcüyür kəndində inşa edilib. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi 6x20 metrdir.

Məscid 1997-ci ildə tikilməyə başlanıb. Divarları mişar daşından hörülüb. Damının örtüyü şiferlə işlənib. Məscidin günbəzinin aşağı hissəsi dəyirmi formada, yuxarısı isə sivri formadadır. Günbəzin üstündə dəmir aypara və səkkizguşəli ulduz rəmzi qoyulub.

Məscidin həyətyanı sahəsi daş hasara alınıb.



## MƏZRƏLİ KƏND MƏSCİDİ

Bu məscid İmişli rayonunun Məzrəli kəndindədir. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 23x7 metrdir.

Məscid XX əsrin əvvəllərində tikilib. 1984-cü ildə sökülərək yenidən inşa edilib. Düzbucaqlı formaya malik olan bu məscidin dam örtüyü ağ dəmir təbəqə ilə işlənib. Günbəz ağ dəmir təbəqə ilə örtülüb. Günbəzin üstündə dəmirdən aypara rəmzi qoyulub. Döşəmə torpaq, tavan isə taxtadandır. Pəncərələr tağvari formaya malikdir və taxtadan düzəldilib.

Məscidin həyətyanı sahəsi dəmir hasara alınıb.



## BƏCİRAVAN KƏND MƏSCİDİ (II)



Bu məscid İmişli rayonunun Bəciravan kəndində yerləşib. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi 34x7,5 metrdir. Məscidin bünövrəsi 1987-ci ildə qoyulub. Maliyyə vəsaiti çatışmadığından tikinti 1997-ci ilə qədər dayandırılıb. 1997-ci ildən məscidin tikintisi davam etdirilir.

Məscid binası mişar daşı ilə tikilib. Damı ağ dəmir təbəqə ilə işlənib. Damın üstündə iki kiçik, bir böyük günbəz qoyulub. Əsas günbəzin üstündə "Allah" kəlməsi yazılıb. Məscidin giriş qapılarının qarşısında iki açıqşəkilli eyvan da yerləşib.

## MİRSALEHAĞA TÜRBƏSİ



Kərbəlayı Mirsalehağa türbəsi İmişli rayonunun Çahar kənd qəbristanlığındadır. Düzbucaqlı formada olan bu türbə mişar daşı ilə tikilib, damının üstü isə dəmir təbəqə ilə işlənib. Türbənin damının üstündə hündürlüyü 1 metr olan kiçik günbəz qoyulub. Türbənin iç sahəsi 7x4 metr, hündürlüyü isə 3 metrdir.

## SEYİD NƏSİHƏTAĞA OCAĞI



Ocaq İmişli rayonunun Çahar kəndinin qəbristanlığında tikilib. Mişar daşından tikilən bu ocaq 1980-ci ildə yerli camaat tərəfindən inşa olunub. Formaca düzbucaqlı olan abidənin damının üstü ağ dəmir təbəqə ilə işlənib. Ocağın giriş qapısından içəridə, sol tərəfdə Seyid Nəsihətağanın qəbri qoyulub. Başdaşının üstündə "Mirsalehova Seyid Nəsihətağa Mirsarı qızı - 1900-31/10. 1974" yazılıb.

Bu qəbirdən sol tərəfdə Seyid Nəsihətağanın qız nəvəsi Əlisalam Pencəli oğlunun (1938-1992) qəbri qoyulub. Sağ tərəfdə isə Seyid Nəsihətağanın qardaşı arvadı Mirsalehova İnci Ağa qızının (1926-1989) qəbri yerləşib.

Ocağın iç sahəsi 6x12 metr, hündürlüyü isə 3 metrdir.



## MİRQİYASAĞA TÜRBƏSİ



Bu türbə də İmişlinin Çahar kənd qəbristanlığındadır. Yerli camaatın söylədiklərinə görə, o, Seyid Nəsihətağanın kiçik qardaşıdır. Türbə də Mirqiyasağanın xatirəsinə ucaldılıb. Qeyd edək ki, bu türbə Mirqiyasağanın oğlanları Seyid Sarı, Seyid Qara, Seyid Mirdaməd, Seyid Rəsul və Mirqabil tərəfindən tikilib. Mişar daşından inşa olunan bu abidə səkkizguşəli olub, damının örtüyü və günbəzi dəyirmi formadadır. Türbənin yerdən günbəzədək hündürlüyü 9 metrdir. Abidənin içərisində Mirqiyasağanın qəbri yerləşib.

*Qeyd:*

İmişli rayonunun Qaravəlli, Bəhramtəpə, Sərxanlı, Yalavac, Qaradonlu, Qızılkənd, Şahverdili, Xəlfəli, Cavadxanlı, Qarağaçlı (10 kənd) kəndlərində də məscidlər fəaliyyət göstərir.

# YARDIMLI RAYON MƏSCİDLƏRİ

## YARDIMLI ŞƏHƏR MƏSCİDİ



Məscid Yardımlı rayonunun mərkəzindədir. İnşa tarixi 1991-ci ilə aiddir. Həyətyanı sahəsi yoxdur. Giriş qapısından içəridəki dəhlizin sahəsi 3x3 metrdir. Əsas ibadət zalının sahəsi 14x8 metrdir.

Məscid birmərtəbəlidir. Damının üstü dəmir təbəqə ilə işlənib. Dam üzərində iki kiçik minarə qurulub. Minarələrin hündürlüyü 2 metr olub, düzbucaqlı şəklindədir. Minarələrin də üstü dəmir təbəqə ilə işlənib. Məscidin hündürlüyü 4 metrdir. Məscid 1991-ci ildə inşa edilsə də, əvvəllər də onun yerində məscid olmuşdur. Çiy kərpic və çaylaq daşı ilə hörülmüş əvvəlki məscid bərbad vəziyyətdə olduğundan sökülərək yerində yeni məscid inşa edilib. Həmin məscid sovetlər dövründə bağça, anbar kimi istifadə edilib. Məscid yerli sakinlər Buludxan Abıyev, Miriş Süleymanov və Əliheydər Qədirovun təşəbbüsü ilə yerli camaat tərəfindən tikilib.

İbadət zalı 2 hissəyə bölünüb. Arakəsmə taxta ilə işlənib. Məscidin döşəməsi daş plitə, tavanı isə taxtadandır. Tavanı dəmirdən olan bir boru sütun üzərində dayanmışdır. Məscidin iki giriş qapısı, üç tağvari pəncərəsi var. Minbəri taxtadandır və dördpillədir. Mehrabı yoxdur. Məscidin iki əlavə otağı da vardır ki, bundan da xidmət məqsədilə istifadə edirlər. Divarları mişar və çaylaq daşı ilə hörülüb.

Məscidin rəisi Kərbəlayı Baxış Abazalıoğludur.

## ŞƏFƏQ KƏND MƏSCİDİ

Məscid Yardımlı rayonunun Şəfəq kəndində 1994-cü ildə inşa olunub. Həyətyanı sahəsi yoxdur. İç sahəsi 19x14 metrdir.

Məscid tamamilə mişar daşından tikilib. Divarın qalınlığı 0.40 metrdir. Damın örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Günbəzi güldəstə formasındadır. Günbəzin üstünü dəmir təbəqədən hazırlanmış aypara bəzəyir. Məscidin tikinti işləri kənd sakinləri tərəfindən görülüb. İbadət zalı iki hissədən - kişilər və qadınlar şöbəsindən ibarətdir. Məscidin tavanı 4 azbest boru sütun üstündə dayanmışdır.

## OSTAYIR KƏND MƏSCİDİ



Məscid Yardımlı rayonunun Ostayır kəndində inşa olunub. Bu məscidin yerində vaxtilə axund Molla Cəfər tərəfindən XIX əsrin axırlarında tikilmiş məscid olmuşdur. Məscid 60-cı illərdə bərpa edilib. Nəhayət, üçüncü dəfə 1996-cı ildə sökülüb yenidən tikilib. Həyətyanı sahəsi yoxdur. İç sahəsi isə 9x21 metrdir.

Məscid kəndin yüksək bir yerində yerləşmişdir. Tikildiyi gündən bəri həmişə fəaliyyətdə olmuşdur. Məscidi ikinci dəfə abadlaşdıran Hacıbaba Bəhram oğlu Ağayev, 3-cü dəfə isə Hacı Ağagül Nəbiyev olmuşdur. Yerli camaat da bu işə yaxından kömək göstərmişdir. Giriş qapısı önündə eyvan yerləşib. Məscidin dam örtüyü şiferdəndir. Eyvanın tavanı ağ dəmir təbəqə ilə işlənib. Məscidin döşəməsi torpaq, tavanı isə taxtadandır. Məscidin iki giriş qapısı var və hər ikisi taxtadan hazırlanıb. Ümumiyyətlə, məscidin bütün pəncərələri tağşəkillidir, taxtadan düzəldilib. Məscidin mehrabı divarın içindədir, hündürlüyü 3 metrdir. İbadət zalı iki hissəyə bölünmüşdür. Divarlar iç tərəfdən əhənglə ağardılmışdır və döşəmədən bir metr hündürlüyündə faner taxta ilə işlənmişdir.

## SIRIQ KƏND AĞA MİRBAĞIR TÜRBƏSİ



Türbə Yardımlı rayonunun Sırıq kəndinin qəbristanlığındadır. 1992-ci ildə inşa edilib. Səkkizguşəli türbənin içərisində bir qəbir vardır. Qəbrin üstü qara qranitlə işlənib. İç divarları qum-sementlə suvanıb. Bir giriş qapısı var. Qapı dəmirdən olub, tağvari formadadır. Türbənin giriş qapısının üstündə ərəb və latın əlifbası ilə yazılar var.

Türbənin içindəki qəbir Mirbağır Mirəhməd oğlunundur. O, 1870-1962-ci illərdə yaşamışdır. Sırıq kəndindən olan Mirbağır ağa çox mömin bir adam olmuş, kimsəsizlərə, imkansızlara həmişə yardım etmişdir.

Türbə Mirbağır ağanın qızları, qohumları və yerli kənd camaatı tərəfindən tikilmişdir.

Bu abidə mişar daşından inşa olunub.



## CERİNBEL KƏND MƏSCİDİ



Məscid Yardımlı rayonunun Cerinbel kəndində yerləşib. 1994-cü ildə inşa edilib. İç sahəsi 9x15 metrdir.

Məscid düzbucaqlı formadadır. Damının örtüyü şiferdəndir. Məscidin bir giriş qapısı və 3 pəncərəsi var. Döşəməsi torpaq, tavanı isə taxtadandır. İbadət zalı iki hissəyə bölünüb. Məscidin divarları iç tərəfdən palçıqla suvanıb.

## ƏSƏDABAD KƏND MƏSCİDİ



Məscid Yardımlı rayonunun Əsədabad kəndində yerləşib. Əvvəllər Mirmövsüm ağanın evi olmuşdur. Mirmövsüm ağa 80-90 yaşında vəfat etmişdir və hazırda qəbri kənd qəbristanlığındadır. 1994-cü ildən etibarən sözügedən ev məscid kimi istifadə edilir.

Məscid çiy kərpic və çaylaq daşı ilə tikilmişdir. Dam örtüyü şiferdəndir. Damın üstündə altıguşəli günbəz qurulmuşdur. Günbəzin xarici tərəfi və üstü ağ dəmir təbəqə ilə işlənib. Məscidin bir giriş qapısı var. Döşəməsi torpaqdan, tavanı fanerdəndir. Tavanı düzbucaqlı formada olub, bir ədəd dəmir boru sütun üzərində dayanıb. Məscid ortadan iki hissəyə bölünüb: kişilər və qadınlar şöbəsi. Divarları içəridən palçıqla suvanıb. Məscidi qadınlar və kişilər şöbələrinə ayıran arakəsmə çiy kərpicdəndir.

## DƏLLƏKLİ KƏND MƏSCİDİ



Məscid Yardımlı rayonunun Dəlləkli kəndində tikilib. Yerli sakinlərin dediyinə görə, bu məscid XIX əsrin axırlarında tikilmişdir. 1965-ci ildə məscidə daha bir otaq əlavə edilmişdir. Həyətyanı sahəsi 220 kv.metrdir. XIX əsrin axırlarında tikilən hissəsinin sahəsi 4x15 metrdir. 1965-ci ildə buraya daha bir otaq əlavə edilmişdir ki, onun da sahəsi 4x14 metrdir.

Məscidin divarları çaylaq daşı və mişar daşı ilə hörülmüşdür. Dam örtüyü şiferlə işlənib. Döşəməsi torpaq, tavanı taxtadır. Divarları palçıq suvaqla suvanmışdır. Məscid düzbucaqlı formadadır. Günbəzi taxtadandır Məscidin qapı və pəncərələri də taxtadan düzəldilib. Tikinti işlərində yerli camaat yaxından iştirak etmişdir.

*Qeyd:*

Yardımlı rayonunun Ünəc, Urağaran, Çayüzü, Daşkənd, Qabaqdibi, Dəryavar, Bozayran, Osnağaran, Anzov, Hamarkənd, Vərgədüz, Horavar, Zəngələ, Əngöül, Bercan, Gendərə, Zevin, Arus, Abidinli, Dağüzü, Peştəsər, Arvana, Gavran, Şılavangəh, Ökü, Mamılğan, Ərsilə və Əfcədulan (28 kənd) kəndlərində də hal-hazırda məscid vardır.

# YEVLAX RAYON MƏSCİDLƏRİ

## YEVLAX ŞƏHƏR MƏSCİDİ



Məscid Yevlax şəhərində yerləşir. Məscidin tikintisinə 1996-cı ildə başlanmış, 1998-ci ilin əvvəllərində başa çatdırılmışdır. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi isə 15x19 metrdir.

Məscidin əsas binası mişar daşları ilə, minarəsi isə bişmiş kərpiclə tikilib. Məscidin döşəmədən tavanadək hündürlüyü 3 metr, döşəmədən günbəzədək hündürlüyü isə 14 metrdir. Günbəzin diametri 15 metrdir. Məscidin giriş qapısının ön tərəfində baştağ yerləşmişdir. Baştağ 7 tağdan ibarətdir. Minarənin qübbəsi dəmir təbəqə ilə işlənmişdir və üstündə aypara rəmzi qoyulub. Məscid 1 böyük günbəz və 12 kiçik günbəzə malikdir. Bir giriş qapısı vardır. O, taxtadan olub, tağvari formadadır. İbadət zalında 101 pəncərə qoyulub. Günbəzində 16 pəncərə var. Günbəz başdan-başa nəbati ornamentlərlə işlənib. Minbər taxtadandır və 9 pilləyə malikdir. Məscidin divarlarına və həbelə günbəzinə müxtəlif Quran ayələri yazılıb. Mehrab kaşı ilə işlənib. Mehrabın hündürlüyü 4,5 metrdir. Məscidin ikinci mərtəbəsi qadınlar üçün nəzərdə tutulub. Buranın sahəsi 100 kv.metrdir.

Məscid Türkiyənin Diyanət Vəqfinin vəsaiti hesabına tikilmişdir.

## XALDAN KƏND MƏSCİDİ

Məscid Yevlax rayonunun Xaldan kəndindədir. İnşa tarixi 1992-96-cı illərə aiddir. İbadət zalının sahəsi 18x12,5 metrdir.



Məscid bişmiş kərpiclə inşa edilib. Gözəl memarlıq üslubunda tikilmiş bu məscid tək minarəyə malikdir. Minarənin hündürlüyü 22 metrdir və qübbəsi ağ dəmir təbəqə ilə işlənib. Minarənin üstündə ağ dəmir təbəqədən düzəldilmiş aypara və 8 guşəli ulduz qoyulub. Məscidin giriş qapısının ağzında artırma yerləşib. İbadət zalında 12 tağvari formalı və 15 dəyirmi formalı pəncərə qoyulub. Məscidin damının örtüyü ağ dəmir təbəqələrlə işlənib. Minbəri taxtadan olub, 7 pilləlidir. Giriş qapısından içəridə yardımçı otaqlar yerləşib. Qadınlar şöbəsi ikinci mərtəbədədir. Məscidin döşəməsi beton, tavanı fanerlə işlənib. Yerdən günbəzədək olan hündürlüyü 12 metr, günbəzin diametri 5,5 metrdir. Mehrab divarın içində olub, hündürlüyü 3 metrdir.

Məscid Türkiyənin Gənclərə Yardım Fondunun başçılığı və maliyyə vəsaiti hesabına tikilmişdir.



# KÜRDƏMİR RAYON MƏSCİDİ

## KARLAR STANSİYASI SEYİD ƏHMƏD MƏSCİDİ

Məscid Kürdəmir rayonunun Karlar stansiyasındadır. 1990-cı ildə tikilməyə başlanıb və 1994-cü ildə istifadəyə verilib. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi 17x22 metrdir.



Məscid mişar daşı ilə hörülüb. İki giriş qapısı var. Qapılar tağvari formadadır. Dam örtüyü və günbəzi ağ dəmir təbəqədəndir. Minbəri dəmirdəndir və beşpilləlidir. Döşəməsi və tavanı betondandır. İç divarları qum-sementlə suvanmışdır. Əsas ibadət zalı qadınlar və kişilər şöbəsinə ayrılmışdır. Məscidin döşəmədən tavana qədər hündürlüyü 4 metrdir. Yerdən günbəzədək hündürlüyü isə 8 metrdir. Məscid qoşa minarəyə malik olub, minarələrin hündürlüyü 14 metrdir. Dəmir borudan ucaldılmış bu minarələr tək şərəfəyə malikdir.

Məscid yerli sakinlər Məşədi Sarıoğlan Tağıoğlu, Məşədi Xeyrulla Carıoğlu, Məşədi Gülabbas Mirabbasoğlu, Elman Məmmədhüseyn oğlu və mərhum Eynulla Baxşəlioğlunun təşəbbüsü ilə tikilib. Onu da qeyd edək ki, məscidin ustaları da məhz həmin şəxslər olublar.

Hal-hazırda əslən şamaxılı olan Seyid Əhmədin adını daşıyan bu məscidin mollası Məşədi Xeyrulla Carıoğludur.

## SEYİD ƏHMƏD PİRİ



Kürdəmir rayon Seyid Əhməd məscidinin həyətində yuxarıda qeyd etdiyimiz kimi, Seyid Əhmədin qəbrinin üstündə hal-hazırda məqbərə tikilməkdədir. Buradakı tikinti işləri də yerli camaatın, eləcə də ocaqda yığılan nəzir-niyazın hesabına həyata keçirilir. Pir-məqbərə bişmiş kərpicdən tikilir. Camaatın qeyd etdiyinə görə, Seyid Əhməd son dərəcə möcüzəli bir insan olduğundan onun dəfn edildiyi yer ziyarətgah sayılır.

*Qeyd:*
Kürdəmir rayonunun mərkəzi Kürdəmir şəhərində, həbelə rayonun Axtaçı, Xəlisə, Qocalı, Pirli Ərəb Qubalı, Köhünlü və Muradxan kəndlərində (8 kənddə) də məscidlər hal-hazırda fəaliyyət göstərir.

# GORANBOY RAYON MƏSCİDLƏRİ

## QIZILHACILI KƏND MƏSCİDİ



Məscid Goranboy rayonunun Qızılhacılı kəndində tikilib. İnşa tarixi XVIII əsrin axırlarına aiddir. İç sahəsi 18x20 metrdir.

Məscid bişmiş kərpiclə inşa edilib. Damının örtüyü qara dəmir, günbəzi isə ağ dəmir təbəqə ilə işlənib. Qoşa minarəyə malikdir. Minarələr dəyirmi formalı olub, bişmiş kərpicdən götürülmüşdür. Həm minarənin, həm də günbəzin üstündə ağ dəmir təbəqədən aypara rəmzi qoyulub. Giriş qapısının sağ və sol tərəfində ərəbcə yazılar həkk olunub. Giriş qapısının sağ və sol tərəfində iki yardımçı otaq da vardır. Həmin otaqlardan məscidin damına çıxış var. Məscid 1 böyük və 3 kiçik günbəzə malikdir. Məscidin altı pəncərəsi və iki giriş qapısı var. Onlar taxtadan düzəldilib.

## RƏHİMLİ KƏND TÜRBƏSİ



Goranboy rayonunun Rəhimli kəndində vaxtilə 4 türbə olub. Lakin həmin türbələrdən biri sökülüb dağıdılıb. Hal-hazırda burada üç türbə qalıb.

Birinci türbənin içərisində iki qəbir var. Türbənin içərisi dörd tağlı divardan ibarətdir. Yerdən günbəzədək hündürlüyü 7 metrdir. Sahəsi isə 5x5 metrdir. Türbə başdan-başa bişmiş kərpiclə tikilmişdir. Divarları içəridən dördbucaqlı, fasad tərəfdən isə səkkizguşəlidir. Divarlar içəri tərəfdən kəclə suvanıb.

İkinci türbə də bişmiş kərpiclə tikilib. Türbə həm fasad, həm də içəri tərəfdən dördguşəlidir. Türbənin sahəsi 5x5 metrdir. Hündürlüyü isə 9 metrdir. İçərisində 7 qəbir yerləşib. Qəbirlərin üstündə kalliqrafik üslubda yazılar və tarixlər həkk olunmuşdur. Türbənin bir giriş qapısı və üç pəncərə yeri var. Divarlarının qalınlığı 1 metrdir.

Üçüncü türbə də başdan-başa bişmiş kərpiclə inşa edilib. İçərisində 4 qəbir yerləşib. Hündürlüyü 7 metrdir. Divarlarının qalınlığı 1 metrdir. Qəbir daşlarının üstündə daş kitabələr həkk olunub.





Bu məqbərələrin tarixi XVIII-XIX əsrə aid olunur və Rəhimli kənd sakini Mirzə Adıgözəl bəyin ailəsinə məxsus olub. Türbələr o dövr Azərbaycanda, xüsusilə bu ərazidə bişmiş kərpicdən tikilmiş məmarlıq abidələrinin ən bariz nümunəsidir.







# GÖYÇAY RAYON MƏSCİDLƏRİ

## GÖYÇAY ŞƏHƏR YUXARI MƏSCİDİ



Məscid Göyçay şəhərinin mərkəzindədir. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 360 kv.metr, hündürlüyü isə 7 metrdir. Məscidin layihəsini mülki mühəndis Zivər bəy Əhmədbəyov vermişdir. Layihə Nəcəf şəhərindən gətirilib. Tikilmə tarixi 1902-ci ilə aiddir. Məscidin günbəzi dəyirmi formada olub, hündürlüyü 2 metrdir. Günbəzin üstü dəmir təbəqə ilə işlənmişdir. Minbəri taxtadandır və doqquzpilləlidir. Mehrabı isə divarın içərisində olub, hündürlüyü 2 metrdir. Məscidin iç divarları sement məhlulu ilə suvanıb və açıq yaşılı rənglə işlənib. Divarlarda isə ərəb dilində Quran ayələri yazılıb. Dam dəmir təbəqə ilə örtülüb. Məscidin fasad tərəfdən divarları bişmiş kərpiclə işlənib. Divarlarda "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn" sözləri yazılıb.

1996-cı ildə məscidin yan tərəfində ikimərtəbəli daha bir bina tikilib. Məsciddə ibadət üçün bütün şəraitlər mövcuddur.

1921-ci ildə məscidin bağlanılması barədə göstəriş verilib. Bundan sonra anbar kimi istifadə edilib. 1930-cu ildə məscid yenidən açılıb. 1944-cü ildə rəsmi olaraq məscidin fəaliyyətinə icazə verilib. Qeyd edək ki, bu məscidin yerində vaxtilə də palçıqdan tikilmiş məscid olmuşdur. Lakin həmin məscid 1896-cı ildə dağıdılıb.

Bu məsciddə Axund Hacı, Qazi Hacı Xanməhəmməd, Molla Şirəli, Kərbəlayı Ağasəlim, Kərbəlayı Ağa Nuh, Mirfazil ağa, Molla Bülbül, Axund Hacı Mirqəzənfər ağa kimi məşhur adamlar axundluq etmişlər.

Məscidin axundu Hacı Mircavad Mirələkbəroğludur.

## ÇAXIRLI KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Çaxırlı kəndində yerləşib. Həyətyanı sahəsi 4000 kv.metr, iç sahəsi 8x14 metrdir. Məscid düzbucaqlı formada olub, başdan-başa mişar daşı ilə tikilmişdir.

Minarə məscid binasına bitişikdir. Minarə (hündürlüyü 10 metr) səkkizguşəlidir və üstü dəmir təbəqə ilə örtülmüşdür.

Məscid 1997-ci ildə Səudiyyə Ərəbistanının İslam Nicat Təşkilatının yerli şöbəsi tərəfindən tikilməyə başlanmış və elə həmin ildə istifadəyə verilmişdir.

## YEKƏXAN KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Yekəxan kəndində tikilib. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 7x15 metrdir. Məscid düzbucaqlı formaya malik olub, çaylaq və mişar daşları ilə tikilmişdir. Günbəzi güldəstə formasındadır və dəmir təbəqə ilə işlənmişdir. Yerdən günbəzədək hündürlüyü 12 metrdir. Məscidin damı dəmir təbəqə ilə örtülmüşdür. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Məscidin önündə açıqşəkilli eyvan yerləşib.

## YUXARI QARAMƏRYƏMLİ KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Yuxarı Qaraməryəmli kəndində inşa olunub. Həyətyanı sahəsi 300 kv.metr, iç sahəsi 19x7 metrdir. Məscid düzbucaqlı formaya malik olub, başdan-başa mişar və çaylaq daşlarından tikilib.

Məscidin divarları fasad və iç tərəfdən sement məhlulu ilə suvanıb. Döşəmə torpaq, tavan isə taxtadandır. Dam örtüyü dəmir təbəqə ilə işlənib. Günbəz səkkizguşəlidir. Yerdən günbəzin üstünədək hündürlüyü 10 metrdir.



## MALLI-ŞIXLI KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Mallı-Şıxlı kəndində yerləşib. Yol qırağında tikilmiş bu məscid düzbucaqlı formaya malik olub, başdan-başa mişar daşı ilə tikilmişdir. İç sahəsi 5x10 metr, hündürlüyü 4 metrdir.

Məscidin giriş qapısından çöl tərəfə açıqşəkilli eyvan yerləşib. Eyvanı beş ədəd tağlı sütun bəzəyir. Günbəzi səkkizguşəlidir və yuxarı hissəsi sivri ucludur. Günbəz dəmir təbəqə ilə işlənib. Məscidin damı da dəmir təbəqə ilə örtülüb.

Bu məscid 1990-91-ci illərdə tikilib.

## ÇƏRƏKƏ KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Çərəkə kəndinin mərkəzində, yol qırağındadır. Düzbucaqlı formaya malik olub, başdan-başa mişar daşları ilə tikilib. İç sahəsi 6x11 metr, hündürlüyü 4 metrdir. Məscidin qapı və pəncərələri taxtadan düzəldilib və tağvari formaya malikdir.

Məscidin giriş qapıları tərəfində açıqşəkilli eyvan yerləşib. Eyvan beş tağlı sütundan ibarətdir.

Məscidin dam örtüyü dəmir təbəqə ilə işlənib. Günbəzi səkkizguşəlidir. Onun aşağı hissəsi dəyirmi, yuxarısı isə sivri formadadır. Günbəzin üstü ağ dəmir təbəqə ilə işlənib. Yerdən günbəzin üstünədək hündürlüyü 12 metrdir.

Məscid 1997-ci ildə Səudiyyə Ərəbistanının İslam Nicat Təşkilatının Azərbaycan şöbəsi tərəfindən tikilib.

## MÜSKÜRLÜ KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Müskürlü kəndində tikilib. Həyətyanı sahəsi 400 kv.metr, ibadət zalının sahəsi 9x10 metr, hündürlüyü isə 4 metrdir.

Məscid düzbucaqlı formadadır və mişar daşından inşa edilmişdir. Damı dəmir təbəqə ilə örtülüb. Günbəzi dördguşəlidir və ağ dəmir təbəqə ilə işlənib. Günbəzin aşağısı dəyirmi, yuxarı hissəsi isə sivri ucludur.

Məscid 1996-cı ildə Səudiyyə Ərəbistanının İslam Nicat Təşkilatı tərəfindən tikilib.

Bu məscidin həyətində XIX əsrin axırlarında tikilmiş başqa bir məscid də qorunub saxlanılır. Həmin məscid çiy kərpicdən tikilib və sahəsi 5x7 metrdir.

## ALHOUD KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Alhoud kəndində inşa edilib. Həyətyanı sahəsi 5000 kv.metr, iç sahəsi 10x20 metrdir. Məscid düzbucaqlı formada olub, başdan-başa qırmızı kərpiclə işlənib.

Məscid çox sadə memarlıq üslubu ilə seçilir. Belə ki, dam örtüyü dəmir təbəqə ilə işlənib. Günbəz güldəstə formasındadır. Səkkizguşəli günbəzdə gözlüklər qoyulub. Qübbə hissəsi isə dəmir təbəqə ilə işlənib. Məscidin döşəməsi daş plitə, tavanı isə taxtadandır. İbadət zalındakı tağvari pəncərələr məscidə xüsusi gözəllik verir.

Məscid XIX əsrin axırlarında yerli sakin Hacı Cəmil tərəfindən tikilib. 1993-cü ildə burada təmir işlərindən sonra məscid yenidən fəaliyyətə başlayıb.

## QARAYAZI KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Qarayazı kəndində tikilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 6x20 metrdir. Forma etibarilə düzbucaqlıdır. Damı şiferlə örtülüb. Tavanı taxta ilə vurulub. Tavan altı dəmir boru sütun üzərində dayanıb.

Məscidin divarları iç və fasad tərəfdən sement məhlulu ilə suvanıb. Camaatın bildirdiyinə görə, burada vaxtilə XIX əsrdə tikilmiş məscid olub. Lakin həmin məscid sökülmüş və 1990-cı ildə kənd sakinlərinin vəsaiti və təşəbbüsü ilə indiki məscid tikilib.

## BIĞIR KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Bığır kəndindədir. İç sahəsi 7x15 metr, həyətyanı sahəsi 1000 kv.metrdir. Düzbucaqlı formaya malik olan bu məscid başdan-başa mişar daşı ilə tikilib.

Məscidin minarəsi birbaşa damın üstündən ucaldılıb. Minarə də mişar daşı ilə hörülüb. Həm minarənin üst hissəsi, həm də məscidin damı dəmir təbəqə ilə işlənib. Qübbənin üst hissəsində dəmir təbəqədən aypara rəmzi qoyulub.

Məscidin mehrabı divarın içindədir. İbadət zalında qoyulmuş pəncərələr tağvari formadadır və taxtadan hazırlanıb.

Məscidin içərisi ağ və açıq-mavi rənglə işlənib.

Bu məscid 1997-ci ildə tikilib.



## ŞƏKƏRLİ KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Şəkərli kəndindədir. Dördbucaqlı formaya malik olan məscid binası mişar daşından tikilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 100 kv.metr, hündürlüyü 3,5 metrdir.

Damı şiferlə örtülüb. Tavanı taxtadan işlənib. Qapı və pəncərələr düzbucaqlı formadadır.

Bu məscid 1993-cü ildə kənd camaatı tərəfindən tikilmişdir.

## POTU KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Potu kəndində tikilib. Həyətyanı sahəsi 2500 kv.metr, iç sahəsi 8x14 metrdir. Məscid mişar daşından tikilib. Tavanı taxta ilə işlənib və iki ədəd taxta sütun üzərində dayanıb. Döşəmədən tavanadək hündürlüyü 4 metrdir. Damı şiferlə örtülüb. Həyətyanı sahəsi daş hasarla əhatələnir. Məscidin ön tərəfində açıqşəkilli eyvan var. Onun sahəsi 32 kv.metrdir.

## AŞAĞI QARAMƏRYƏMLİ KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Aşağı Qaraməryəmli kəndində yerləşib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 17x6 metrdir. Məscid düzbucaqlı formada olub, divarları çiy kərpicdən hörülüb. Məscidin tavanı da düzbucaqlı formaya malikdir və 12 taxta sütun üzərində dayanıb.

Məscidin ön tərəfində açıqşəkilli eyvan yerləşib.

## ÇƏRƏKƏ KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Çərəkə kəndində inşa olunub. Düzbucaqlı formaya malik olan məscid binası tamamilə mişar daşından tikilib. Dam örtüyü dəmir təbəqə ilə işlənib.

Məscidin günbəzi səkkizguşəli formadadır. Günbəzin aşağı hissəsi dəyirmi, yuxarı hissəsi isə sivri formadadır. Məsciddəki pəncərələr tağvari formada olub, taxta materialdan hazırlanmışdır. Məscidin ön tərəfində açıqşəkilli eyvan yerləşib.

Məscidin iç sahəsi 8x12 metr, hündürlüyü isə 4 metrdir.

Məscid binası Səudiyyə Ərəbistanı Krallığının "Əl-Hərəmeyn" Xeyriyyə təşkilatının Bakı ofisi tərəfindən 1997-ci ildə tikilib. Təşkilat məscidin həyətində artezian quyusu da qazdırmışdır.

## QARAMAN KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Qaraman kəndində yerləşib. İç sahəsi 16x16 metr, həyətyanı sahəsi 2000 kv.metrdir. Məscidin tikilmə tarixçəsi belədir: Əslən Göyçayın Alhoud kəndindən olan Hacı Rəhim Əfəndi 1889-cu ildə Türkiyəyə səfər edir. O, buradakı möhtəşəm məscidləri, ibadət evlərini görüb, öz doğma yurdunda məscid tikdirmək qərarına gəlir. O, 1891-ci ildə vətənə qayıdır və kənd camaatının köməkliyi ilə Qaraman kəndində məscidin tikintisinə başlayır. 1891-ci ildə kənd camaatı və şəxsən onun iştirakı ilə məscidin təntənəli açılışı olur. Məscidin açılmasında onun əsas məqsədi müsəlmanlar üçün ibadət evi yaratmaq, habelə uşaqlara ilahiyyatdan və ümumiyyətlə, İslam elmlərindən bilik vermək idi. Lakin çox təəssüf ki, Hacı Rəhim Əfəndinin tikdirdiyi və öz memarlıq üslubu ilə Göyçay qəzasında yeganə olan bu məscid sovetlər dövründə bərbad hala salınıb. Belə ki, o, anbar kimi istifadə olunaraq uzun müddət baxımsız vəziyyətdə qalıb. Yalnız möhkəm memarlıq keyfiyyətinə görə məscid tamamilə uçub-dağılmamış, bu günə gəlib çatmışdır. Hal-hazırda məscid binası Hacı Rəhim Əfəndinin nəvəsi Elxan Süleymanovun şəxsi vəsaiti hesabına təmir olunur.

Məscidin 16 metr hündürlüyü olan minarəsi də var. Minarə bişmiş kərpicdən tikilib. Lakin o, axıra qədər tikilməyərək yarımçıq qalıb. Məscidin damı dəmir təbəqə ilə örtülüb. Bütün qapı və pəncərələri düzbucaqlı formadadır.

## ŞIXLI KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Şıxlı kəndində tikilib. Həyətyanı sahəsi 150 kv.metr, iç sahəsi isə 5x10 metrdir. Düzbucaqlı formaya malik olan bu məscidin divarları çaylaq daşları ilə hörülüb. Divarlar iç və fasad tərəfdən sement məhlulu ilə suvanıb. Tavan taxta, döşəmə isə betondur. Damı şiferlə örtülüb.

Məscidin ön tərəfində açıq şəkilli eyvan da var.

Bu məscid 1992-ci ildə yerli kənd camaatı tərəfindən tikilib.



## MİRZƏ HÜSEYNLİ KƏND MƏSCİDİ



Məscid Göyçay rayonunun Mirzə Hüseynli kəndində inşa olunub. Həyətyanı sahəsi 1200 kv.metr, iç sahəsi isə 10x14 metrdir. Məscid düzbucaqlı formalıdır və başdan-başa bişmiş kərpiclə tikilib.

Camaatın bildirdiyinə görə, bu məscidin tikildiyi yerdə vaxtilə məscid olub. Həmin məscidin tarixi XVIII əsrə aid imiş. 1990-cı ildə həmin məscid sökülmüş və onun yerində indiki məscid tikilmişdir. Bu məscid 1990-97-ci illərdə Hacı Mahmud tərəfindən inşa edilib. Həyətyanı sahəsi daş hasara alınıb.

Günbəzi səkkizguşəlidir. Günbəzin qübbəsi və məscidin dam örtüyü dəmir təbəqə ilə işlənmişdir.

# GƏNCƏ ŞƏHƏR MƏSCİDLƏRİ

## GƏNCƏ ŞƏHƏR ŞAH ABBAS MƏSCİDİ



Məscid Gəncə şəhərindədir. İbadət zalının sahəsi 14x17 metrdir.

1606-cı ildə Şah Abbasın göstərişi ilə tikilib. Məscidin bünövrəsi möhkəm olduğundan 1826, 1861, 1867, 1870, 1896, 1900, 1903, 1907, 1908, 1910, 1938-ci illərdə Gəncədə baş vermiş zəlzələlərin dağıntısına məruz qalmamışdır. O, məşhur memar Şeyx Bəhaəddin Məhəmməd Amilinin planı üzrə tikilmişdir. Bu məscidin diqqət çəkən əlamətlərindən biri də budur ki, günün günorta çağı binanın günbatan divarına düşən kölgə itir ki, bu da günorta namazına başlamağın vaxtını bildirir. Məscidin binasında 12 kiçik hücrə də vardır ki, onların hamısı bir-biri və ibadət zalı ilə tağlı dəhlizlər vasitəsilə əlaqələndirilmişdir. Məscidin damının metal örtüyü XX əsrin əvvəllərində Gəncə Müsəlmanlarının Xeyriyyə Cəmiyyətinin vəsaiti hesabına tikilib.

Məscidin yanında qoşa minarələr ucaldılmışdır. Minarələr ayrı-ayrı tarixlərdə inşa edilib. Onlardan birinin inşa tarixi hicri-qəməri təqvimlə 1271-ci ilə aiddir. Yerli sakinlərin qeyd etdiyinə görə, bir vaxt minarələr Çar Rusiyası ordusunun artilleriya atəşinə tutulub və nəticədə zədələnib. Lakin sonralar minarə bərpa edilib. Onlar bişmiş kərpiclə hörülüb. Minarələrin hündürlüyü 22 metrdir. Məsciddə qadınların ibadət etməsi üçün xüsusi yer ayrılmışdır. Döşəmə torpaqdır. Minbəri taxtadan olub doqquzpilləlidir. Mehrabı divarın içərisindədir və tağvari formadadır. İç divarları qum-sement məhlulu ilə suvanmış və göy rənglə işlənib. Məscidin həyətində Şah Abbas dövründə tikilmiş hamam da qalmışdır. İndi o, muzey kimi qorunur. Məscidin pəncərələri rəngli şüşələr və şəbəkələrlə işlənib. Günbəzin və minarələrin üzərində aypara qoyulub.



1936-cı ildən 1944-cü ilə qədər məscidin fəaliyyəti dayanıb. Lakin 1944-62-ci illərdə məscidin fəaliyyəti rəsmi olaraq bərpa edilib. 1990-cı ildə yerli camaatın təşəbbüsü nəticəsində Qafqaz Müsəlmanları Ruhani İdarəsinin rəhbərliyi ilə məscid yenidən fəaliyyətə başlamışdır.

1991-92-ci illərdə məsciddə təmir-bərpa işləri aparılıb.

Gəncənin Şah Abbas meydanına bəzən Böyük Meydan da deyirlər. Bu meydanın quzey hissəsini Cümə məscidi kompleksi tamamlayırdı. Kompleksin həyəti dördbucaqlı formada olub, Gəncə Cümə məscidini təşkil edirdi. Burada bir çox dini və ictimai ocaqlar var idi. Həmin ərazi indi məscid hücrələrdən ibarət birmərtəbəli bina formasında hörülüb ki, orada da ruhanilər, dərvişlər, müsafirlər, mərsiyəxanlar və qismən mədrəsədə oxuyan tələbələr qalırdılar. 1804-cü ildə bu cür hücrələrin sayının 47-yə çatması xəbər verilir. Hücrələrin yaxınlığında uzunsov bir bina da yerləşmişdi. Bu, mədrəsə idi. Mədrəsənin sinifləri hücrə tipli kiçik otaqlardan ibarət idi. Mədrəsə və məscidin müştərək kitabxanası olmuşdur. Həmin kitabxana əsrin 30-cu illərində məhv edilib. Məscidin güney tərəfində Xan qəbiristanlığı yerləşib. Cavad xanın qəbri də buradadır.

Ümumiyyətlə, bu məscidin Ərdəbildəki Adna məscid kompleksi ilə oxşar komponentləri çoxdur. Təsadüfi deyil ki, belə məscid İsfahan və Qəzvin şəhərlərində də vardır.

Məscidin axundu Məhəmməd Həmzəyevdir.

## GƏNCƏ İMAMZADƏ PİRİ



Orta əsrlərə aid edilən bu memarlıq abidəsi Gəncə şəhərinin təqribən 7 kilometrliyində, qədim Gəncənin xarabalıqları yaxınlığındadır. Kərpicdən tikilmiş imam türbəsinin ətrafında məscid, sərdabə, digər türbələr, karvansaraya oxşar evlər və yarımçıq tikililərdən, həmçinin XVIII-XIX əsr bədii daşyonma sənəti ustalarının - xəttat-həkkak, nəqqaş, şairlərin əsərlərini, dünyagörüşünü əks etdirən məzarüstü abidələri özündə qoruyub saxlamış böyük qəbiristanlıqdan ibarət dini kompleks yaradılmış, ətrafında isə daş və kərpicdən hasar çəkilmişdir. Kompleksin ən qiymətli abidəsi olan düzbucaqlı plana malik İmamzadə türbəsi rəngarəng kaşılı, kərpic örtüklü günbəzlə tamamlanır. Günbəz silindrvari kürsüyə oturdulmuşdur. Türbəyə cənub-şərq fasadından başqa, qalan digər tərəflərindən binalar ilhaq edilib. Bütün bu tikililərə əsasən demək olar ki, İmamzadə binası ayrı-ayrı vaxtlarda yenidən qurulub, bərpa və təmir edilib.



1878-ci ildə abidələrin naməlum şəxs tərəfindən çəkilmiş fotoşəkillərindən aydın olur ki, İmamzadə türbəsinin günbəz və silindr hissəsinin örtüyü təmir işləri zamanı xeyli dəyişib.

Silindr hissəsinin şərq yarısını kufi xətli kitabə tamam örtübmüş. Bu da türbənin bina olunma tarixinin XIII-XIV əsrin əvvəlinə aid edənlərin fikrini təsdiq edir. Türbənin birinci mərtəbədə, iç divarına hörülmüş kiçik mərmər lövhədə ərəbcə yazılmış kitabənin məzmunu belədir: "O Allah əbədidir. Bu, imam Məhəmməd Bağırın - ona salam olsun - oğlu mövlana İbrahimin müqəddəs məkanı yerləşmiş şərəfli cənnət bağıdır. Öz babasının köçməsindən 120 il sonra vəfat etmişdir - Allahın ona salavatı olsun. Ona görə də bu yüksək məqamlı yerin bərpa olunmasını tiflisli general-mayor İsrafil bəy Yadigarzadə hicri 1296-cı ildə əmr etmişdir".

Kitabədə adı çəkilən general-mayor İsrafil bəy Yadigarzadə rus ordusunun 2-ci atlı müsəlman polkunun sərkərdəsi olmuşdur. İsrafil bəy İmamzadə kompleksində öz hesabına 1878-ci ildə təmir və bərpa işləri aparmışdır. O, Rusiyada təhsil almasına, rus ordusu sıralarında yüksək rütbəli hərbi vəzifədə işləməsinə baxmayaraq, mədəni əqidəsinə, ata-babalarımızın adət-ənənəsinə sadiq qalan, mədəni irsimizə sonsuz dərəcədə hörmət və etimad göstərən azərbaycanlı ziyalılardan biri olmuşdur. İmamzadə kompleksində İsrafil bəy Yadigarzadənin yaxın qohumları da dəfn edilmişdir.



Azərbaycan ərazisindəki digər imamzadələrdə olduğu kimi, Gəncə imamzadəsində də imam övladı İbrahimin dəfn olunma tarixini göstərən ilkin kitabə yoxdur.

Türbə yaxınlığında XIX əsrdə Gəncədə yaşayıb-yaratmış tanınmış təbib, şair, nəqqaş, xəttat Mirzə Mehdi də dəfn olunmuşdur. İmamzadə kompleksində onun sağlığında özü və başqaları üçün düzəltdiyi başdaşlarına rast gəlmək mümkündür. Kompleksdə Mirzə Mehdidən başqa digər bir xəttatın - Şeyx Zamanın da işləri qalmışdır. Bunlardan biri Axund Mövlana Hüseynin abidəsidir. Başdaşının haşiyəsində 14 məsuma Allahın salavat və salamından sonra xəttat haqqında kiçik bir qeyd var: "Həkkak günahkar bəndə Zaman ibn Məhəmməd Əli".

Daha sonra mərhumun haqqında verilən məlumatda deyilir: "1279-cu ilin rəcəb ayında Gəncədə məskunlaşmış, əsli Lahicanlı rəhmətlik Hacı Məhəmmədin oğlu, əzəmətli, mərhəmətli və ləyaqətli alimlərin ən biliklisi, nəcib, ali şəriət qanunlarının əsasını yaradan, məscid və minbərlərin yaraşığı, ən böyük və ən şöhrətlilərin fəxri, peyğəmbərin hər iki dünyaya aid təlimini yayan, mövlana, pişnamaz, axund, molla Hüseyn fani dünyadan köçdü. Onun torpağı pak olsun, yeri cənnətdə yüksəlsin".

Kitabədən göründüyü kimi, XIX əsrdə Gəncədə yaşamış böyük alim Mövlana Hüseyn fiqh elmləri ilə yanaşı, başqa elmləri də bilmiş, ən yüksək dərəcəli alimlərin başçılarının daşıdıqları "mövlana" ləqəbini daşımış, sufilik ideyalarını təbliğ etmişdir. Axund Mövlana Molla Hüseynin fəaliyyəti Gəncə camisi ilə yanaşı, eyni zamanda imamzadə ilə də sıx bağlı olmuşdur.



## SƏFƏRABAD MƏHƏLLƏ MƏSCİDİ



Məscid Gəncə şəhərinin Səfərabad məhəlləsindədir. İnşa tarixi XX əsrin əvvəllərinə aiddir.

Günbəzsiz formada tikilən məscidin binası indi də Qəmbər Hüseynli və Nizami küçələrinin kəsişdiyi yerdə qalmaqdadır. Yerli camaatın vəsaiti və təşəbbüsü hesabına tikilmişdir.

## ŞAHSEVƏNLƏR MƏHƏLLƏSİ CÜMƏ MƏSCİDİ



Məscid Gəncə şəhərinin Şahsevənlər məhəlləsində yerləşib. İç sahəsi 570 kv.metr, həyətyanı sahəsi isə yoxdur.

Məscidin inşa tarixi barədə onu qeyd etmək olar ki, bu tikili albanlara aid tarixi abidə olmuşdur və şübhəsiz ki, İslamdan əvvəlki tarixə aiddir. Bu məbəd İslam dininin intişar tapdığı ilk dövrlərdə İslama dəvət ocağı kimi fəaliyyət göstərmişdir. Xəlifə Ömər ibn Xəttabın dövründə onun fəaliyyəti daha geniş olmuşdur. Azərbaycanda islami təbliğat nəticəsində albanların bir qismi İslam dinini qəbul etmişlər. Elə həmin vaxtlar yerli albanlar xristian məbədini yenidən quraraq onu məscidə çevirmişlər.

Vaxtilə məscid-abidənin damı üstündə minarələr olmuşdur. Hündürlüyü 5-6 metr olan bu minarələr sonralar dağıdılıb. Hal-hazırda minarələrin yeri qalmaqdadır. Məsciddən sovetlər dövründə anbar kimi istifadə edilib. O vaxtkı I katib H.Həsənovun başçılığı ilə burada təmir-bərpa işləri aparılıb və məscid Xalqlar Dostluğu Muzeyinə çevrilib. 1989-cu ildə muzey ləğv edilmiş və 1995-ci ildə yerli İH-nin qərarı ilə məscid fəaliyyətə başlamışdır. Məscid Ədliyyə Nazirliyində qeydiyyatdan keçmişdir.



Məscidin ibadət zalı 8 tağdan ibarətdir. Tavanı 6 sal sütun üzərində dayanıb. Sütunların hündürlüyü 2,5 metrdir. Məscidin yerdən günbəzədək hündürlüyü isə 10 metrdir. Döşəməsi betondur. Divarlar içəridən suvanmışdır. Hal-hazırda burada bərpa işləri davam etdirilir.

## BALA BAĞMAN MİRZƏ KƏRİM MƏSCİDİ



Məscid Gəncə şəhərinin Bala Bağman məhəlləsindədir. 1884-cü ildə məhəllə camaatının vəsaiti ilə tikilib. İç sahəsi 12x13 metrdir.

Məscid bişmiş kərpiclə inşa edilib. Minarəsizdir. Günbəz 8 guşədən ibarət olan tağlar üzərində yerləşib. Məscidin iç divarları suvanıb və yaşıl rənglə işlənib. Günbəzi isə ağ rənglə işlənib. Mehrab əsas giriş qapısı ilə üzbəüz yerləşib. O, tağvari formada olub, hündürlüyü 4 metrdir. Döşəmə taxtadandır. Döşəmədən tavana qədər hündürlüyü 10 metrdir. Məscid sanki Şah Abbas məscidinin kiçik formada təkrarıdır. Burada ibadət üçün bütün lazımi şərait mövcuddur. Hal-hazırda bina qismən məscid kimi istifadə olunur. Belə ki, məscidin binasında Fatimeyi-Zəhra adına Müsəlman Qadınlar Cəmiyyəti də yerləşmişdir.

Məscid Gəncə şəhərinin 1-ci katibi Həsən Həsənovun dövründə bərpa edilib.

## ZƏRRABİ MƏSCİDİ



Məscid Gəncə şəhərinin Zərrabi məhəlləsindədir. İnşa tarixi XIX əsrin axırlarına aid edilir.

İki günbəzi olan Zərrabi məscidi xalq memarlığının qiymətli nümunəsi hesab olunur. Eyvanlı məscidlər tipinə aid olan məscid Zərrabi məhəlləsinin ağsaqqallarının təşəbbüsü və məhəllə sakinlərinin vəsaiti hesabına tikilmişdir. 1989-90-cı illərədək poeziya teatrı binası kimi istifadə edilib. Hal-hazırda bağlı olub, istifadə edilmir.

## HACI SEYİD BAĞIR TÜRBƏSİ



Türbə Gəncə şəhərində yerləşir. Tamamilə bişmiş kərpiclə işlənib. Üstü qübbə formasında olan bu türbənin üç giriş qapısı var. Türbənin içərisində heç bir qəbir yoxdur. Deyilənə görə, qəbrin üstünü torpaq örtüb. Türbənin içərisindəki qəbrin baş daşı hal-hazırda Gəncə şəhər Dövlət Tarix Muzeyində saxlanılır.



## XƏLFƏLİ MƏSCİDİ



Məscid Gəncə şəhərinin Böyük Bağbanlar məhəlləsinin Təbriz küçəsindədir. İnşa tarixi XIX əsrə aiddir.

Məscid hal-hazırda klub kimi istifadə edilir. Düzbucaqlı formada olan bu məscidin üstü qırmızı kirəmitlə işlənib. Minarəsi, günbəzi yoxdur.

## OZAN MƏSCİDİ



Məscid Gəncə şəhərinin Ozan məhəlləsində tikilib. İnşa tarixi XVIII əsrə aid olunur. O, Şah Abbas məscidinin sadələşdirilmiş formasını xatırladır. Bu məscidə həm də Hacı Abbaslı məscidi deyilir. Yerli məhəllə sakinlərinin dediyinə görə, Hacıkənd də Hacı Abbasın mülkü olub. Məscidin Hacı Abbasın adı ilə xatırlanması bir daha onu göstərir ki, bu məscid onun şəxsi vəsaiti hesabına tikilmişdir. Deyilənlərə görə, məscidin tikintisində yerli sakinlər də fəal iştirak etmişlər. Məscid binası hal-hazırda kitabxana kimi fəaliyyət göstərir.

## ŞƏRƏFXANLI MƏSCİDİ

Məscid Gəncə şəhərinin Şərəfxanlı məhəlləsindədir.

Yerli camaatın qeyd etdiyinə görə, vaxtilə Şərəfxanlı məscidinin nəzdində ibtidai məktəb fəaliyyət göstərirmiş. Burada təhsil ancaq oğlan uşaqları üçün nəzərdə tutulubmuş. Vaxtilə Gəncə qazisi olmuş Məşədi Molla İbrahim də Şərəfxanlıdan olmuşdur.

## ƏTTARLAR MƏSCİDİ

Məscid Gəncə şəhərinin Əttarlar məhəlləsində yerləşib.

Günbəzsiz məscidlər tipinə aiddir. Məhəllə camaatının ümumi vəsaiti hesabına tikilmişdir. Məscidin binası hazırda Əli Bayramov küçəsindəki Gəncə şəhər Prokurorluğunun binasına verilmişdir. Qeyd edilməlidir ki, XX əsrin əvvəllərində Gəncədə açılmış İran səfirliyi Əttarlar məscidi ilə üzbəüz yerləşirdi.

Hal-hazırda məscidin binası inzibati binaya qatıldığından onun fəaliyyət göstərməsi mümkünsüz olub.

## SOFULU MƏHƏLLƏ MƏSCİDİ

Məscid Gəncə şəhərinin Sofulu məhəlləsində inşa edilib. Formaca günbəzsiz olan bu məscid məhəllənin imkanlı adamlarından biri sayılan Hacı Qədimin vəsaiti hesabına tikilib. Odur ki, çox zaman ona Hacı Qədim məscidi də deyirlər.

***Qeyd:***

Məhəllədə başqa bir məscid də mövcuddur. Hal-hazırda həmin məscid uçub-dağılıb.

## ŞAHSEVƏNLƏR MƏSCİDİ



Məscid Gəncə şəhəri Şahsevənlər məhəlləsindədir. Milli memarlığımızın orijinal nümunəsi olan Şahsevənlər məscidinin tikintisinə 1880-ci ildə başlanıb. 1882-ci ildə məscid tikilib başa çatdırılmışdır. Məscidin iç sahəsi 13x15 metrdir.

Məscidin bütün binası, eləcə də günbəzi bişmiş kərpiclə tikilib. İbadət zalı 2 hissəyə - qadınlar və kişilər şöbəsinə bölünüb. Qadınlar şöbəsi iki mərtəbədən ibarətdir. Hər bir mərtəbənin sahəsi 2,5x11 metrdir. Məscidin döşəməsi taxtadandır. Məscidin bir giriş qapısı var. Qapı dördbucaqlı formada olub, taxtadan düzəldilib. İbadət zalında 10 pəncərə qoyulub. Pəncərələr taxtadandır və tağvari formaya malikdir. Mehrabın hündürlüyü 3,5 metrdir. Mehrabın yan tərəfində və yuxarı hissədə 12 imamın adı yazılmışdır. Məscidin günbəzi 8 ədəd tağ şəkilli divar üstündə dayanıb. Döşəmədən günbəzədək hündürlüyü 10 metrdir. Məscidin iç divarları sement məhlulu ilə suvanıb və göy rənglə işlənib. Məscidin qadınlar şöbəsinin ikinci mərtəbəsinin məhəccəri amfiteatr formasındadır.



Məscidin dam örtüyü bişmiş kərpicdən olub, iki laydan ibarətdir. Belə ki, günbəzin birinci layı ilə ikinci layı arasındakı məsafə 1,50 metr ölçüsündədir. Məscidin günbəzinin diametri 12 metrdir.

Sovetlər dövründə bu məsciddən yaşayış evi, kitabxana kimi istifadə edilib. 1994-cü ildən məscidin fəaliyyəti bərpa edilib. Qeyd etmək lazımdır ki, 1970-ci ildə Gəncə Şəhər KP-nin birinci katibi Həsən Həsənovun başçılığı ilə burada təmir-bərpa işləri aparılıb.

Məscidin tikilməsi zərurəti vaxtilə şəhər əhalisinin sayının çoxalması və məhəllənin böyüməsi ilə bağlı olmuşdur. Məscidin tikintisinin təşəbbüskarları yerli məhəllə sakinləridir.



Camaatın qeyd etdiyinə görə, məscidin inşasına təbrizli bir şəxs rəhbərlik edirmiş. Tikinti materiallarının daşınması üçün məhəllə camaatı 200 araba ayırıbmış.

Məscid kompozisiya və konstruksiyası ilə digər məscidlərdən xeyli fərqlənir. Onun minarəsi yoxdur. Minarəni məscidin quzey divarlarında özünəməxsus tikilmiş və günbəzin lap yuxarı hissəsinə kimi uzanan pillələr əvəz edir.



## MOLLA CƏMİLLİ MƏSCİDİ



Məscid Gəncə şəhərinin Molla Cəmilli məhəlləsindədir. 1916-cı ildə inşa olunub.

Günbəzsiz məscidlər tipinə aid olub, Gəncə Müsəlmanları Xeyriyyə Cəmiyyətinin və yerli camaatın köməkliyi sayəsində tikilib.

## BÖYÜK BAĞMAN QAZAXLAR MƏSCİDİ



Məscid Gəncə şəhərinin Qazaxlar məhəlləsində tikilib. İnşa tarixi dəqiq məlum deyil. Yerli sakinlərin dediyinə görə, məscid təxminən bir əsr bundan əvvəl tikilib. Məscidin həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi isə 15x15 metrdir.

Məscid bişmiş kərpiclə inşa edilib. İç divarları qum-sement məhlulu ilə suvanmış və açıq göy rənglənib. Damının örtüyü ağ dəmir təbəqədəndir. Mehrabı əsas giriş qapısı ilə üzbəüz yerləşib. Mehrab tağvari formada olub, hündürlüyü 3,5 metrdir. Məscidin divarlarının qalınlığı 0,80-1,20 metrdir. Əsas giriş qapısının ön tərəfində baştağ yerləşib. Baştağdan sağ və sol tərəfdə iki yardımçı otaq var. Baştağdan içəridə isə ibadət zalı yerləşib. Məscidin binası düzbucaqlı formadadır. Minbər taxtadandır və altıpilləlidir. İbadət zalında 9 müxtəlif ölçülü pəncərə qoyulub. Pəncərələr tağvari formadadır. Həyətyanı sahədə yardımçı otaqlar yerləşib. Məscidin günbəzinin fasad hissəsi ağ dəmir təbəqə ilə işlənib.



Sovetlər dövründə də fəaliyyətini dayandırmayıb. Məscidin tikintisinə yerli sakin Məşədi Allahverdi Kərbəlayı Rüstəm oğlu rəhbərlik etmişdir. Onun qəbri məscidin həyətindədir.

## QIRIXLI MƏSCİDİ

Məscid Gəncə şəhərinin Qırıxlı məhəlləsində yerləşir. 1650-ci ildə tikilib. Hal-hazırda məscid binası "Şəfa çiçəyi" əczaxanası kimi fəaliyyət göstərir. Bu məscid XIX əsrin 80-ci illərində məhəllə sakini Hacı Qasımın vəsaiti hesabına bərpa edilib.



Məscid bişmiş kərpiclə inşa olunub. Damının örtüyü və günbəzi dəmir təbəqə ilə işlənib. Məscidin əsas giriş qapısından içəridə dəhliz yerləşib. Dəhlizdən sağ və sol tərəfdə yardımçı otaqlardır.

İbadət zalının sahəsi 17x18 metrdir. Yerdən günbəzə qədər olan hündürlük 12 metrdir.

Məscidin döşəməsi taxtadandır. İç divarları qum-sement məhlulu ilə suvanmışdır. Divarların qalınlığı 1 m.20sm.-dir. Mehrabı giriş qapısı ilə üzbəüz divarda yerləşib və tağvari formaya malikdir.

Məscid sovetlər dövründə anbar, yeməkxana kimi istifadə edilib.

### COMƏRDİ-QƏSSAB MƏQBƏRƏSİ



Comərdi-Qəssab Məqbərəsi Gəncənin VII yüzilliyin ortalarında artıq möhtəşəm şəhər olmasına şəhadət verən ən güclü sübutdur. Yerli əhali arasında yayılmış rəvayətə görə, bu məqbərə Məhəmməd peyğəmbərin əmisi oğlu, 4-cü xəlifə Əli ibn Əbu Talibin (ə) xəlifəliyi dövründə yaşamış çox namuslu, insaflı və doğrucul bir qəssabın qəbri üstündə tikilib. Rəvayətdə deyilir ki, şəhərin ən qədim sakinləri bütpərəst imişlər və onlardan biri olan Comərdi-Qəssab gizlincə Məhəmmədin təliminə - İslama iman gətiribmiş. Onun xatirəsinə hörmət əlaməti olaraq camaat bu məqbərəni ucaltmışdır.

Bu materiallar mərhum etnoqraf alim Fərrux Əhmədovun "Gəncənin tarix yaddaşı" kitabından götürülüb. Kitab 1998-ci ildə "Şirvannəşr" nəşriyyatı tərəfindən çap olunub.

### GƏNCƏ ŞƏHƏR TÖYOXÇU MƏHƏLLƏ MƏSCİDİ



Gəncə şəhərinin Töyoxçu məhəlləsində yerləşən bu məscidin inşa tarixi 1915-ci ilə aiddir.

Məscid məhəllə sakinlərinin vəsaiti hesabına tikilib. Şahsevənlər məscidindən fərqli olaraq, Töyoxçu məscidi günbəzsiz, eyvanlı məscid tiplərinə aid olub məşhur Göyçay məscidini xatırladır. Məscidin binası hazırda nigah evi kimi istifadə olunur.

"Töyoxçu" "Tuyuğçu" toponiminin dialektdə dəyişmiş formasıdır. Yerli camaat bunu Toyuqçu kimi də tələffüz edir.

### QIZIL HACILI MƏSCİDİ



Məscid Gəncə şəhərinin Qızıl Hacılı məhəlləsində yerləşib. Bu tarixi abidə 1877-ci ildə məhəllə camaatının vəsaiti hesabına tikilib.



### TATDAR MƏSCİDİ



Məscid Gəncə şəhərinin Tatdar məhəlləsindədir. 1870-ci ildə Birja küçəsində (indiki Hüseyn Cavid küçəsi) tikilən bu məscid hal-hazırda fəaliyyət göstərmir.

# GƏDƏBƏY RAYON MƏSCİDLƏRİ

### GƏDƏBƏY RAYON SEYİD ƏHMƏD TÜRBƏSİ



Türbə Gədəbəy rayonunun Xarxar kəndindədir. Türbə başdan-başa qaya daşları ilə tikilib. O, dəyirmi formada olub, bir giriş qapısına malikdir. Türbənin diametri 2,5 metr və hündürlüyü 5 metrdir. Günbəzin üstündə ağ dəmir təbəqədən aypara rəmzi qoyulub.

Seyid Əhməd 1996-cı ildə vəfat edib. Türbəni onun oğlu Seyid Sakit tikdirib. Yerli camaat Seyid Əhmədə dərin hörmət bəsləmiş və seyid olduğu üçün həmişə ona nəzir-niYaz veriblər.

*Qeyd:*

Kitab çapa göndərildiyi müddətdə Gədəbəydə bir məscid də möminlərin istifadəsinə verilib.

# LƏNKƏRAN RAYON MƏSCİDLƏRİ

## ƏBÜLFƏZL ABBAS CÜMƏ MƏSCİDİ



Məscid Lənkəran şəhərində yerləşib. Həyətyanı sahəsi 1200 kv.metr, iç sahəsi 23x26 metrdir. Məscid düzbucaqlı formada olub, əsasən mişar daşı və kərpiclə tikilib. Məscidin döşəməsindən tavanadək hündürlüyü 5 metr, günbəzədək isə 15 metrdir. Günbəzi dəyirmi formada və betonla işlənib. Günbəzdə 12 dəmir pəncərə qoyulub. Pəncərələr tağvari şəkildədir. Məscidin qoşa minarəsi bişmiş kərpicdən inşa olunub. Minarələr tək şərəfəyə malikdir. Şərəfədən aşağıda "Allahu əkbər" sözü ərəbcə iki dəfə (kaşı ilə) həkk olunmuşdur. Minarənin hündürlüyü 25 metrdir.

Məscidin əsas giriş qapısının qarşısında açıq eyvan var. O, mişar daşından tikilib. Eyvanın ön tərəfi 3 açıq şəkilli tağdan ibarətdir.

Bu məscid hündürlüyü 2 metr olan səki üzərində yerləşib.

1990-cı ildən burada tikinti işləri aparılır. Tikinti işlərinə yerli sakin Hacı Tehran başçılıq edir. Qeyd etmək yerinə düşərdi ki, bu məscid məhz onun təşəbbüsü ilə açılıb.

## HƏZRƏT ƏLİ (Ə) MƏSCİDİ



Məscid Lənkəran şəhərinin Böyük Bazar məhəlləsindədir. 1864-cü ildə yerli sakin Hacı Mirağa Mirtağızadə tərəfindən tikilən məscid binası öz ilkin formasını bu günə kimi qoruyub saxlayıb. Məscid düzbucaqlı formaya malik olub, həyətyanı sahəsi 800 kv.metr, iç sahəsi 33x10 metr, hündürlüyü isə 5 metrdir. Döşəməsi bişmiş kərpic, tavanı isə taxta ilə işlənib. Tavan düzbucaqlı formadadır və altı taxta sütun üzərində dayanıb. Məscidin giriş qapısının üst tərəfində rənglə ərəbcə "La İlahə illəllah" yazılıb. Minarə bişmiş kərpiclə tikilib. Hündürlüyü 30 metrdir. Tək şərəfəyə malik olan minarənin məhəccər hissəsi dəmirlə işlənib. Şərəfənin aşağı hissəsində kaşı ilə "Allahu əkbər" sözü ərəbcə yazılıb. Məsciddə Axund Mirzə Məhəmməd ibn Molla Həmid (1870-1960), Mirzə Məhəmməd ibn Molla Həsən (1851-1940), Hacı Şeyx Məhəmməd ibn Mirzəcan (1861-1934), Molla Abbasqulu ibn Molla Məlik (1870-1932), Molla Qulaməli, Molla İbrahim, Mirzə Əbdürrəhim Şükür oğlu (1870-1932), Molla Baba ibn Molla Ağa (1883-1948), Şeyx Məhəmməd ibn Molla Həsən (1879-1940), Şeyx Molla Yusif ibn Əmir (1860-1948), Tağı Mirmustafa ağa ibn Mirəlixan (1856-1932), Molla Vəli ibn Şeyx Vəli (1865-1957), Hacı Şeyx Molla Həsən Şeyx Hacı Məhəmmədqulu oğlu Şıxakərani (1845-1946), Seyid Məhəmməd ibn Seyid Mirəli (1860-1932), Hacı Mircavad ibn Ağa Mirəli (1900-1991), Axund Kərbəlayı Ağamirməhərrəm Mirdadaş oğlu Mirməhəmməd (1862-1958), Mirzə Əziz ibn Molla Əli (1830-1910), Axund Ağa Mirsadıq Mirqənbər oğlu (1880-1933) kimi çoxlu axundlar olublar.



## HÜSEYNİYYƏ MƏSCİDİ



Lənkəran şəhərinin Kiçik Bazar məhəlləsində tikilən bu məscidin həyətyanı sahəsi 350 kv.metr, iç sahəsi 25x8 metrdir.

Məscidin tarixi hicri-qəməri təqvimi ilə 1322-ci ilə aiddir. Məscid özünün ilkin formasını indiyədək qoruyub saxlayıb. Sovetlər dövründə bağlanaraq anbar kimi istifadə edilib. 1987-ci ildən etibarən məscid fəaliyyətə başlayıb.

Hüseyniyyə məscidinin divarları ancaq bişmiş kərpiclə işlənib. Damın örtüyü qırmızı kirəmitdəndir. Məscidin içəri divarları qum-sementlə suvanıb və ağardılıb. Mehrabın üstündə daş üzərində ərəbcə "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn" sözləri yazılıb.

Məscid sadə quruluşa və iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir. Qadınlar şöbəsi ikimərtəbəlidir və ayrıca giriş qapısına malikdir.

## İMAM HÜSEYN MƏSCİDİ



Məscid Lənkəran şəhərinin Qalayçı məhəlləsindədir. Həyətyanı sahəsi 300 kv.metr, iç sahəsi 18x9 metr, hündürlüyü isə 4 metrdir. Məscid 1991-ci ildə tikilib. Minarəsinin hündürlüyü 15 metrdir. Formaca dəyirmidir. Döşəməsi bişmiş kərpic, tavanı isə taxtadır. Məscid qadınlar və kişilər şöbəsinə bölünüb. Bütün qapı və pəncərələr tağvari formadadır və taxtadan işlənib.

## ŞAĞLASER KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Şağlaser kəndində tikilib. İnşa tarixi XIX əsrin axırlarına məxsusdur.

Məscid kənd camaatı tərəfindən tikilib. Sovetlər dövründə gübrə anbarı kimi istifadə olunub. 1997-ci ildə camaatın vəsaiti hesabına məsciddə inşaat işlərinə başlanılıb.

## GİRDƏNİ KƏND MƏSCİDİ

Lənkəran rayonunun Girdəni kəndində yerləşən bu məscidin bünövrəsi 1912-ci ildə qoyulub. Həyətyanı sahəsi 300 kv.metr, İç sahəsi isə 20x8 metrdir.

Damı qırmızı kirəmitlə örtülüb. Güldəstə formasında olan günbəzi dördguşəlidir və hər bir guşədə gözlük qoyulub. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan 4 azbest boru üzərində dayanıb. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanıb. Məscidin hər bir tərəfi 1,80 metr eninə daş plitə ilə döşənib. Həyətyanı sahəsi isə asfaltla döşənib. Məscidin üç qapısı və 8 pəncərəsi var. Onlar düzbucaqlı formadadır və taxtadan düzəldilib.

1997-ci ildə kənd camaatının vəsaiti hesabına burada yardımçı otaq inşa edilib, həyətdə quyu qazılıb və habelə həyətyanı sahə mişar daşından götürülmüş hasara alınıb.

Məscid Sovetlər dövründə anbar kimi istifadə olunub və 1988-ci ildə kənd camaatının təşəbbüsü nəticəsində fəaliyyətə başlayıb. Elə həmin vaxtlar məsciddə təmir-bərpa işləri aparılıb və yenidən abadlaşdırılıb.

## DİGAH KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Digah kəndindədir. İnşa tarixi XIX əsrin axırlarına aid edilir. İç sahəsi 13x7 metr, həyətyanı sahəsi 800 kv.metrdir.

Düzbucaqlı formada olan bu məscid bişmiş kərpiclə tikilib. Damı qırmızı kirəmitlə örtülüb. Günbəzi dördguşəli olub, güldəstə formasındadır və üstü qırmızı kirəmitlə işlənib. Məscidin ibadət zalında iki giriş qapısı vardır. Onlar taxtadan düzəldilib və tağvari formadadır. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Minbəri də taxtadan olub, beşpilləlidir. İbadət zalında 5 ədəd tağvari formalı pəncərə qoyulub. Məscidin divarlarının qalınlığı 0,50 metrdir.

Qadınlar şöbəsi əsas ibadət zalına birləşib, arakəsməsi şəbəkə ilə işlənib. Qadınlar şöbəsi iki mərtəbədən ibarətdir. Sahəsi 7x2,5 metrdir.

Məscid öz ilkin formasını olduğu kimi saxlayıb. Burada yalnız cüzi təmir işləri aparılıb. Sovetlər dövründə anbar kimi istifadə olunub və 1988-ci ildə onun anbar kimi istifadə olunmasına son qoyulub. 1993-cü ildə təmir-bərpa işləri aparılaraq məscid abadlaşdırılıb.



## PORT QƏSƏBƏ MƏSCİDİ



Məscid Lənkəran rayonunun Port qəsəbəsindədir. Bünövrəsi 1991-ci ildə qoyulub. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi isə 10x22 metrdir.

Formaca düzbucaqlı olan bu məscid qırmızı kərpiclə inşa edilib. Bununla bərabər məscidin tikintisində İrandan gətirilmiş ağ kərpicdən istifadə olunub. Damı ağ dəmir təbəqə ilə örtülüb. Günbəzi 8 guşəlidir və üstü ağ dəmir təbəqə ilə işlənib. Günbəzin tikintisində ağ və qırmızı kərpicdən istifadə olunub. Günbəzin üstündə aypara qoyulub. Bundan başqa günbəzdə tağvari formada 8 pəncərə qoyulub. Məscidin əsas giriş qapılarının önündə iki sütun üzərində dayanmış arkalar tikilib. Arkaların üstü ağ dəmir təbəqə ilə örtülüb. Məscidin hər birinin hündürlüyü 18 metr olan qoşa minarəsi var. Minarələrin hər biri tək şərəfəlidir və şərəfələr dəmir təbəqə ilə işlənib. Minarələr də ağ və qırmızı kərpicdən tikilib. Minarələrin üstündə aypara rəmzi qoyulub. Minarələrə giriş ibadət zalındandır.

Məscidin döşəməsi torpaq, tavanı isə taxtadandır. Günbəz altı dəmir boru sütun üzərində dayanıb.

Məsciddə hal-hazırda inşaat işləri davam etdirilir.

## ŞIXAKƏRAN KƏND MƏSCİDİ



Lənkəran rayonunun Şıxakəran kəndində tikilən məscidin inşa tarixi XVIII əsrin axırlarına aid edilir. İç sahəsi 16x7 metrdir.

Məscid bişmiş qırmızı kərpiclə inşa edilib. Formaca düzbucaqlı olan məscid binasının damı qırmızı kirəmitlə örtülüb. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan 3 taxta sütun üzərində dayanıb. Güldəstə formasında olan günbəzinin hündürlüyü 2 metrdir. O, dördguşəlidir, üstü kirəmitlə örtülüb. Guşələri qırmızı şüşələrlə işlənib. Minbər taxtadandır, yeddipilləlidir. Mehrab divarın içindədir. Mehrabdan sağ tərəfdə qadınlar şöbəsi yerləşib. Şöbə ikimərtəbəli olub, ayrıca giriş qapısına malikdir. Qadınlar şöbəsinin sahəsi 2,5x7 metrdir.

Məscidin əsas ibadət zalında 4 pəncərə qoyulub. Pəncərələr taxtadan düzəldilib və tağvari formalıdır.

Məscid hündürlüyü 1 metr olan səki üzərində yerləşib. 1976-cı ildə kənd camaatı tərəfindən məscidin dam örtüyü sökülərək yenidən işlənib və bundan sonra bina məscid formasını alıb.

Sovetlər dövründə məscid binası sökülərək forması deyişdirilib və məktəb binası kimi istifadə edilib. Sonralar bura idarə və anbar kimi istifadə olunub. 1988-ci ildə məsciddə yenidən təmir işləri aparılıb.

## TÜRKƏKƏRAN KƏND MƏSCİDİ (I)



Məscid Lənkəran rayonunun Türkəkəran kəndində yerləşir. Bünövrəsi 1990-cı ildə qoyulub. Həyətyanı sahəsi 2000 kv.metr, iç sahəsi 200 kv.metrdir.

Düzbucaqlı formadadır və bişmiş qırmızı kərpicdən tikilib. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanaraq, əhənglə ağardılıb. Döşəməsi və tavanı taxtadandır. Tavan 4 azbest boru sütun üzərində dayanıb. Sütunlar taxta ilə üzlənib. Damı qırmızı kirəmitlə örtülüb.

Məscidin divarlarının qalınlığı 50 sm-dir. Məscidin 3 qapısı və 14 pəncərəsi var.

Məscid kənd camaatının vəsaiti hesabına tikilib.

## SƏPNƏKƏRAN KƏND MƏSCİDİ (I)



Məscid Lənkəran rayonunun Səpnəkəran kəndindədir. 1872-1875-ci illərdə tikilib. Həyətyanı sahəsi 6000 kv.metr, kişilər üçün nəzərdə tutulmuş şöbəsinin sahəsi isə 9x3 metrdir.

Düzbucaqlı formaya malik olan bu məscid bişmiş kərpicdən inşa olunub. Döşəməsi də bişmiş kərpicdən, tavanı isə taxtadandır. Tavan 4 taxta sütun üzərində dayanıb. Məscidin pəncərə və qapıları tağvari formadadır. Qadınlar şöbəsi iki mərtəbəlidir. Qadınların ibadət zalı ikinci mərtəbədə yerləşib. Onun birinci mərtəbəsində isə mətbəx yerləşib.

Güldəstə formasında olan günbəzi dördguşəlidir və üstü qırmızı kirəmitlə örtülüb.

Məscid Sovetlər dövründə anbar və kitabxana kimi istifadə olunub. 1989-cu ildə onun fəaliyyəti bərpa olunub. Məsciddə həm də dini təhsil verilir.

## SƏPNƏKƏRAN KƏND MƏSCİDİ (II)

Məscid Lənkəran rayonunun Səpnəkəran kəndində yerləşir. 1983-cü ildə inşa edilib. Həyətyanı sahəsi 200 kv.metr, iç sahəsi isə 6x15 metrdir.

Formaca düzbucaqlı olan bu məscidin divarları çaylaq daşı ilə hörülüb. Divarların qalınlığı 0,40 metrdir. Döşəməsi torpaq, tavanı isə taxtadır. Tavan iki azbest boru sütun üzərində dayanıb. Döşəmədən tavanadək hündürlüyü 3 metrdir. Məscidin bir giriş qapısı və üç pəncərəsi var.

Səpnəkəran məscidinin giriş qapısının sol tərəfində yardımçı otaq yerləşib. Onun sahəsi 4,5x6 metrdir. Giriş qapısının önündə açıqşəkilli eyvan da inşa olunub. Eyvanın döşəməsi beton, tavanı isə şiferdir. Məscid divarları iç və fasad tərəfdən qum-sement məhlulu ilə suvanıb. Məscid kənd camaatının vəsaiti hesabına tikilib.

## ŞAĞLAKÜÇƏ KƏND MƏSCİDİ



Lənkəran rayonunun Şağlaküçə kəndində yerləşir. Hicri-qəməri təqvimi ilə 1322-ci ildə inşa edilib. Həyətyanı sahəsi 600 kv.metr, ibadət zalının sahəsi 20x10 metrdir.

Düzbucaqlı formada olan bu məscid bişmiş kərpiclə tikilib. Damının örtüyü qırmızı kirəmitlə işlənib. İki giriş qapısı var. Qapılar tağvari formadadır və taxtadan düzəldilib. Məscid hündürlüyü 1,10 metr olan səki üstündə yerləşib.

Məscidin döşəməsi bişmiş kərpic, tavanı isə taxtadandır. Tavan beş taxta sütun üstündə dayanıb. Minbər taxtadandır, yeddiguşəlidir. Mehrab divarın içində olub, hündürlüyü 3 metrdir. Mehrabın sağ tərəfində qadınlar şöbəsi yerləşib. Qadınlar şöbəsi ilə kişilər şöbəsi taxta şəbəkə ilə ayrılıb. Qadınlar şöbəsinin sahəsi 3x9 metrdir. Məscidin divarlarının qalınlığı 1 metrdir. İbadət zalında dörd pəncərə qoyulub. Pəncərələr rəngli şüşələrlə işlənib.



Məscid sovetlər dövründə, daha dəqiq desək, 1936-cı ildən 1989-cu ilə qədər istifadəsiz qalıb. 1984-cı ildə burada təmir işləri aparılıb. 1986-cı ildən 1990-cı ilə qədər kitabxana kimi istifadə olunub. 1990-cı ildə yerli kənd camaatının vəsaiti ilə başqa bir yerdə kitabxana tikilərək məsciddəki kitablar ora daşınıb. Elə həmin il məsciddə təmir işləri aparılmış və onun fəaliyyəti yenidən bərpa olunmuşdur.



## HƏFTONOH KƏND MƏSCİDİ



Türbə Lənkəran rayonunun Həftənoh kəndində tikilib. 1990-cı ildə inşa olunub. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi 8x24 metrdir.

Forma etibarilə düzbucaqlıdır və bişmiş qırmızı kərpicdən inşa olunub. Damı kirəmitlə örtülüb. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan altı azbest boru sütun üzərində dayanıb. Məscid hündürlüyü 1,50 metr olan səki üzərində yerləşib. Məscidin tağvari formalı iki qapısı var. Həyətyanı sahə yaşıllıqlar içərisindədir.

Məscid kənd sakini Molla Məstəlinin vəsaiti və təşəbbüsü ilə tikilib. Tikinti hələlik tam başa çatmayıb.

## HAVZAVA KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Havzava kəndində yerləşir. Bünövrəsi 1995-ci ildə qoyulub. İç sahəsi 8x18 metrdir.

Yol kənarında yerləşən bu məscid başdan-başa mişar daşı ilə tikilib. Formaca düzbucaqlı olan məscidin damı kirəmitlə örtülüb. İki giriş qapısı və altı pəncərəsi vardır. Qapı və pəncərələri taxtadan düzəldilib tağvari formadadır. Mehrabı divarın içindədir. Döşəmədən tavanadək hündürlüyü 3,5 metrdir.

Məscid hündürlüyü yerdən 1 metr olan səki üzərində yerləşib.

## ŞEYX ZAHİD TÜRBƏSİ



Ərdəbil şeyxlərinin istər Lənkəran, Astara və istərsə də Şirvanda sufiliyi yaymaqda əsas rol oynadıqlarını göstərən abidələrdən biri də, Şeyx Zahid türbəsinin qalıqları və onunla əlaqədar olan abidələrdir. Şeyx Zahid piri bu gün belə Lənkəranda ziyarətgah, həm də ən müqəddəs məkan hesab olunmaqdadır.

Lənkəran rayonunun Şıxakəran kəndində Seyid Cəmaləddinin müridi Şeyx Zahid adı ilə tanınmış Taceddin İbrahimin məqbərəsidir. Şeyx Taceddin İbrahim əs-sencani Şeyx Zahid kimi daha məşhur olmuşdur. Hicri 700 (miladi 1300/1301)-ci ildə vəfat etmiş, indiki Lənkəran rayonunun Şıxakəran kəndində dəfn olunmuşdu. O, gilan dilində şerlər yazmışdı. Ömrünün çox hissəsini Gilanda, sonralar isə Muğanda yaşamışdır. Onun Azərbaycanda, əlelxüsus Muğan, Şirvan, Marağada çoxlu mürşüdləri olmuşdur. O, 25 il Səfəvilərin ulu babası müqəddəs Şeyx Səfiəddinin mürşüdü olmuşdur. Şeyx Səfiəddin öz mürşüdü Şeyx Zahidin qızı Bibi Fatimə ilə evlənmişdi. Bu səbəbdən Səfəvilər ana tərəfdən Şeyx Zahidin nəslindən hesab olunurlar.



Şeyx Zahid ölərkən yaratdığı dərviş cəmiyyətinin başçılığına doğma oğlu, varisi Şeyx Cəmaləddin Zahidini yox, kürəkəni Şeyx Səfiəddini təyin etdi. Şeyx Səfiəddinin nəsli "Səfəviyyə" adlanan yeni cəmiyyətin başçıları oldular: Şeyx Səfiəddin (vəfatı 1446/1447), Şeyx Xoca Əli (vəfatı 1426/1427), Şeyx İbrahim Şeyx Şah (vəfatı 1446/1447), Şeyx Cüneyd (vəfatı 1488), Şeyx Heydər (1495) şah sultan titulu daşımışlar. Şeyx Zahidin törəmələri isə səfəvilərdən asılı vəziyyətdə qalmışdır. Lakin onlar müridlər və vassallar içərisində hörmətli yer tutmuşlar. Şeyx Heydərin Şeyx Qütbəddin Zahidiyə hicri-qəməri tarixi ilə rəcəb ayı 1483-cü ildə təqdim etdiyi vəsiqədən aydın olur ki, Şeyx Zahidin nəslini Muğanda -Cur, Macur və Urunqad adlı kəndləri - mülkləri olmuşdur. Qeyd olunan sənəddə həmin torpaqların sahiblərindən Səfiəddinin dayısı Şeyx Şəmsəddin Zahidin, Şeyx Həmid və Şeyx Rəfiəddinin də adları çəkilir.

Zahidlər nəslindən olan Şeyx Hüseynin yazdığı "Silsilət-ən-nəsəb" risaləsinə görə, sonralar bütün Səfəvi şahları həmin torpaqları öz fərmanları ilə zahidlərin mülkiyyəti kimi təsdiqləmişdi. Səfəvilər hətta İran, Şirvan və Ermənistanı aldıqdan sonra da həmin torpaqların zahidlər nəslinə aid olduğunu müxtəlif fərmanlarla təsdiq etmişlər.

Səid Əli ibn Kazım bəy "Cəvahirnaməyi-Lənkəran" əserində Şıxakəran haqqında yazır: "Hayləkəran qədim adıdır. Şeyx Zahidin irşad etdiyi kənddir. Şeyxin zühurundan sonra, onun adıyla Şeyxakəran adlandırılmışdır".

## MAMUSTA KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Mamusta kəndindədir. 1885-1890-cı illər arasında inşa edilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 22x9 metrdir.

Formaca düzbucaqlıdır qırmızı kərpicdə tikilmişdir. Damı qırmızı kirəmitlə örtülüb. Məscid hündürlüyü 1 m.20 sm. olan səki üzərində yerləşib. Məscidin iç tərəfi qum-sementlə suvanaraq əhənglə ağardılıb. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan beş sütun üzərində dayanıb. Məscidin iki qapısı və altı pəncərəsi vardır. Mehrab divarın içərisində olub, sadə şəkildə işlənmişdir.

Mamusta kənd məscidindən sovetlər dövründə anbar, klub, idarə və nəhayət, son zamanlar kitabxana kimi istifadə olunub. Məscid müəyyən qədər öz ilkin formasını dəyişib. Belə ki, vaxtilə damın üstündə güldəstə formasında günbəz olmuşdur. Lakin repressiya illərində həmin güldəstə götürülmüşdür. Bu məscid vaxtilə kənd camaatı tərəfindən tikilib. 1989-cu ildə burada təmir-bərpa işləri aparılıb.



## ZÖVLƏ KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Zövlə kəndində yerləşir. Məscidin ilkin binası XIX əsrin axırlarında tikilib. Lakin 1994-cü ildə məscidin ətrafı və divarları əsaslı təmir və bərpa olunub. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi 7x19 metrdir. Məscid bişmiş kərpiclə tikilib. Hündürlüyü 0,60 metr olan səki üzərində yerləşib. Həyətyanı sahə daş hasara alınıb. Damı qırmızı kirəmitlə örtülüb. Güldəstə formasında olan günbəzi dördguşəlidir və hər tərəfində gözlük qoyulub. Döşəmədən tavana qədər hündürlüyü 3,5 metrdir. İki giriş qapısı vardır.

## ŞİLƏVAR KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Şiləvar kəndində tikilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi isə 10x19 metrdir.

Düzbucaqlı formaya malikdir. Damının örtüyü qırmızı kirəmitlə işlənib. Döşəmədən tavanadək hündürlüyü 5 metrdir. Günbəzədək hündürlüyü 10 metrdir. Günbəz dairəvi formalıdır və səkkiz guşəyə malikdir. Günbəzin yuxarı hissəsində səkkiz gözlük qoyulmuşdur. Minbər beşpilləlidir. Mehrabı divarın içində olub çox sadə şəkildə işlənmişdir. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanaraq ağardılıb. Həyətyanı sahə hasara alınıb. İbadət zalında iki qapı və dörd pəncərə qoyulub. Qapı və pəncərələr taxtadandır. Pəncərələr şəbəkə ilə işlənib. Tavan iki dəmir boru sütun üzərində dayanıb. Qadınlar şöbəsi ikimərtəbəlidir. Qadınlar və kişilər şöbəsi şəbəkəli arakəsmə ilə ayrılır.

## SEYİD ƏHMƏD PİRİ

Lənkəran-Astara şose yolunun sağ tərəfində meşəlikdə, Maşxan kəndi qəbristanlığında yerli əhalinin "Seyid Əhməd piri" adlandırdığı bir məqbərədə Soltan Əhmədin epitafiyası mühafizə olunur. Yerli əhali həmin məqbərənin müqəddəs şəxsə aid olduğunu söyləyir.

Ərəb-fars dillərində yazılmış kitabələrin tərcüməsi belədir.

"Bu qəbir Sultan Əhməd ibn Kərimindir. 876-cı il tarixində vəfat etmişdir".

Hicri-qəməri 876-cı il 1471-1472-ci miladi ilinə müvafiqdir.

Fars kitabəsi mənzumdur. Soltan Əhmədin cavan öldüyünü göstərir.

Məqbərə ətrafında böyük qəbristanlıqda bir sıra sənduqə formalı məzar daşlarının bu günə kimi qalması, kəndin "Maşxan"-"biz şeyxlər" adlanması Seyid Əhmədin Seyid Camalın müridi - Şeyx Zahidin davamçılarından olmasını güman etməyə əsas verir.

## TÜTƏPEŞTƏ KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Tütəpeştə kəndində tikilib. 1978-ci ildə inşa edilib. Həyətyanı sahəsi 300 kv.metr, iç sahəsi 4x10 metrdir.

Forma etibarilə düzbucaqlıdır və divarları çaylaq daşı ilə tikilib. Damı şiferlə örtülüb. İnteryeri çox sadədir. Döşəməsi torpaq, tavanı taxtadandır. Məscid bir qapı və iki pəncərəyə malikdir. Qapı və pəncərələr taxtadan düzəldilib. Giriş qapısı tərəfdə eyvan da var.

Tütəpeştə kənd məscidi camaatın təşəbbüsü və maddi vəsaiti hesabına tikilib.

## XOLMİLİ KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Xolmili kəndində yerləşir. Hicri-qəməri təqvimi ilə 1306-cı ildə inşa edilib. Həyətyanı sahəsi 800 kv.metr, iç sahəsi 22x10 metrdir. Xolmili kənd məscidi düzbucaqlı formadadır və qırmızı kərpicdən inşa olunur. Damı kirəmitlə örtülüb. Döşəməsi kərpic, tavanı isə taxtadandır. Tavan beş taxta sütun üzərində dayanıb. Günbəzin hündürlüyü iki metrdir və dörd guşəyə malikdir. Guşələr rəngli şüşələrlə işlənib. Məscidin hündürlüyü beş metrdir.

Məscidin həyətində hüseyniyyə binası da vardır. O, hicri-qəməri təqvimi ilə 1327-ci ildə tikilib. Məscidin qarşı tərəfində vaxtilə burada mollalıq etmiş Molla Məhəmmədəlinin qəbri yerləşib. Qəbir türbə şəklindədir. Molla Məhəmmədəli təhsili Nəcəfül-Əşrəfdə almış və müctəhid dərəcəsinə çatmışdır.

## KƏNARMEŞƏ KƏND MƏSCİDİ (I)



Lənkəran rayonunun Kənarmeşə kəndində yerləşən bu məscidin bünövrəsi 1996-cı ildə qoyulub. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 9x24 metrdir. Kənarmeşə kənd məscidi bişmiş kərpiclə tikilib. Divarlarının qalınlığı 40 sm-dir. Damı qırmızı kirəmitlə örtülüb. Güldəstə formasında olan günbəzi altıguşəlidir və hündürlüyü 2 metrdir. Məscidin iki giriş qapısı var. İbadət zalından səkkiz tağvari formalı pəncərə qoyulub. Döşəmə torpaq, tavan isə taxtadandır.

Məscid Fazil Xəlil oğlu Bağırovun təşəbbüsü və Bağırovlar ailəsinin vəsaiti hesabına tikilməkdədir.



## KƏNARMEŞƏ KƏND MƏSCİDİ (II)



Məscid Lənkəran rayonunun Kənarmeşə kəndindədir. 1940-cı ilin əvvəllərində inşa edilib.

Bu məscid çox darısqal olub, kənd camaatının tələbatına cavab vermir. Buna görə də kənddə yeni məscid inşa olunur. Həmin məscidin divarları artıq hörülüb. Divarlar başdan-başa bişmiş kərpiclə işlənib.

## QUMBAŞI QƏSƏBƏ MƏSCİDİ



Məscid Lənkəran rayonunun Qumbaşı kəndindədir. 1988-ci ildə inşa edilib. İç sahəsi 18x8 metrdir.

Düzbucaqlı formada olan bu məscid başdan-başa bişmiş kərpiclə inşa edilib. Damının örtüyü qırmızı kirəmitlə işlənib. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan üç ədəd azbest boru sütun üzərində yerləşib. Döşəmədən tavanadək 4,5 metrdir. Güldəstə formasında olan günbəzi dördguşəlidir. Məscidin iki giriş qapısı var. Onlar taxtadandır və tağvari formadadır. İbadət zalında dörd böyük pəncərə və iki kiçik pəncərə qoyulub. Pəncərələr də taxtadandır. Məscidin iç divarları kəclə suvanıb. Bu məscid qəsəbə camaatı tərəfindən inşa edilib.

## CİL KƏND HÜSEYNİYYƏ MƏSCİDİ



Məscid Lənkəran rayonunun Cil kəndindədir. 1903-cü ildə inşa edilib. Həyətyanı sahəsi 300 kv.metr, iç sahəsi 18x8 metrdir.

Məscid formaca düzbucaqlı şəklindədir və başdan-başa qırmızı kərpiclə inşa olunub. Damı kirəmitlə örtülüb. Məscid hündürlüyü 1 metr olan səki üzərində tikilib. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan düzbucaqlı formadadır və 5 taxta sütun üzərində dayanıb. Məscidin iki giriş qapısı vardır. Qapılar taxtadan düzəldilib və tağvari formaya malikdir. Həyətyanı sahəyə asfalt döşənib.

Məscid sovetlər dövründə anbar kimi istifadə olunub. 1994-cü ildə burada təmir işləri aparılıb.

## SEPARADİ KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Separadi kəndində tikilib. 1901-ci ildə inşa edilib. Həyətyanı sahəsi yoxdur, iç sahəsi 7x16 metrdir. Məscid başdan-başa bişmiş kərpiclə inşa olunub. 2 giriş qapısı var. Döşəməsi torpaq, tavanı isə taxtadandır. İbadət zalında 6 tağvari formalı pəncərə qoyulub. Tavan 3 taxta sütun üzərində dayanıb. İç divarları qum-sement məhlulu ilə suvanıb. Məscid hündürlüyü 1,20 metr olan səki üzərində tikilib. Sovetlər dövründə məscid anbar kimi istifadə olunub. Bu məscid kənd ağsaqqallarının təşəbbüsü ilə yerli sakinlər tərəfindən tikilib.

## SİNOVLU KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Sinovlu kəndində inşa olunub. 1994-cü ildə bünövrəsi qoyulub. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 7x14 metrdir.

Məscid yüksəklik üzərindəki dağ kəndində yerləşib. Düzbucaqlı formada olan bu məscidin divarları çaylaq və mişar daşları ilə hörülüb. Damı şiferlə örtülüb, döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan 2 ədəd dəmir boru sütun üzərində dayanıb. Döşəmədən tavanadək hündürlüyü 3,5 metrdir. İbadət zalında 6 tağvari formalı pəncərə qoyulub. Məscidin 2 giriş qapısı var. Giriş qapıları önündə artırmalar düzəldilib. Artırmaların üstü qırmızı kirəmitlə işlənib. Minbəri taxtadan düzəldilib və üçpilləlidir.

Məscid kənd sakinlərinin vəsaiti hesabına tikilib.

## XAXARTAN KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Xaxartan kəndindədir. 1990-95-ci illərdə inşa edilib. Həyətyanı sahəsi 120 kv.metr, iç sahəsi 10x24 metrdir.

Məscidin damı kirəmitlə işlənib.

Minbəri taxtadan olub, dördpilləlidir. Döşəməsi bişmiş kərpic, tavanı isə taxtadandır. Tavan düzbucaqlı formadadır və 3 ədəd dəmir boru sütun üzərində dayanıb. Döşəmədən tavanadək hündürlüyü 4 metrdir. Məscidin 2 giriş qapısı var və ətrafı daş plitələrlə döşənib. İbadət zalında 6 pəncərə qoyulub. Pəncərələr şəbəkə ilə işlənib. Şəbəkə hissəsində aypara və səkkizguşəli ulduz rəmzi də qoyulub. Məscid hündürlüyü 1,70 metr olan səki üzərində yerləşib. İç divarları sement məhlulu ilə suvanıb.

Məscid kənd sakinlərinin vəsaiti hesabına tikilib.



## SÜTƏMURDOV KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Sütəmurdov kəndində, qəbristanlıqda yerləşir. İnşa tarixi dəqiq məlum deyil. İç sahəsi 7,5x15 metrdir.

Formaca düzbucaqlı olan bu məscid bişmiş kərpiclə işlənib və hündürlüyü 1 metr olan səki üzərində yerləşib. Səki və məscid binasının ətrafı daş plitələrlə döşənib. Damının örtüyü qırmızı kirəmitlə işlənib. Döşəmə torpaq, tavanı isə taxtadır. Tavan üç taxta sütun üzərində dayanıb. Döşəmədən tavanadək hündürlüyü 4 metrdir. Qadınlar şöbəsi 4x7,5 metrdir. Şöbədə 1 qapı və 3 pəncərə qoyulub.

Minbər taxtadan düzəldilib və 4 pilləlidir. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanıb. Həyətdə Hüseyniyyə binası da tikilib.

Sovetlər dövründə məsciddən taxıl anbarı kimi istifadə olunub. 1990-cı ildən etibarən fəaliyyəti bərpa edilib.

Kənd ağsaqqallarının bildirdiyinə görə, məscid 3-4 dəfə sökülərək yenidən tikilib. Məscid ilkin formasında həcmcə indikindən xeyli kiçik olub.

## SEYDƏKƏRAN KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Seydəkəran kənd qəbristanlığındadır. Bünövrəsi 1994-cü ildə qoyulub. Həyətyanı sahəsi 200 kv.metr, iç sahəsi 9x25 metrdir.

Formaca düzbucaqlı olan bu məscid bişmiş kərpicdən tikilib. Damı qırmızı kirəmitlə örtülüb. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Məscidin 3 qapısı və 6 pəncərəsi vardır. Pəncərələrin dördü tağvari, ikisi isə düzbucaqlı formadadır. Günbəz dördguşəli olub, hündürlüyü 2 metrdir.

Məscid kənd camaatının vəsaiti hesabına tikilməkdədir.

İndiki məscidin yerində vaxtilə başqa bir məscid olmuşdur.

## VELƏDİ KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Velədi kəndində yerləşir. 1988-ci ildə inşa edilib. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi isə 9x17 metrdir.

Forma baxımından düzbucaqlı olan bu məscid qırmızı kərpiclə tikilib. Damının örtüyü qırmızı kirəmitlə işlənmişdir. Günbəzin üstü də qırmızı kirəmitlə örtülüb. Güldəstə formasında olan günbəzi dördguşəlidir. Məscidin divarlarının qalınlığı 0,60 metrdir. Məscidin 2 giriş qapısı var, ön tərəfində artırmalar tikilib. Artırmaların üstü dəmir təbəqə ilə işlənib. Məscid hündürlüyü 1 metr olan səki üzərində yerləşib. Döşəmə kərpic, tavan isə taxtadandır. Tavan 3 taxta sütun üzərində dayanıb. Minbər 8 pilləlidir, taxtadandır və şəbəkə ilə işlənib. Məscidin ibadət zalında 4 pəncərə qoyulub. Qadınlar şöbəsi iki mərtəbədən ibarətdir. Kişilər və qadınlar şöbəsi bir-biri ilə şəbəkə arakəsmə ilə ayrılıb. Qadınlar şöbəsinin ayrıca giriş qapısı var.

Məscid kənd camaatının vəsaiti hesabına tikilib. Həyətində 4 nəfərlik dəstəmazxana və Hüseyniyyə binası da var.

Vaxtilə burada həcmcə kiçik başqa bir məscid olub. Həmin məscidin tarixi XX əsrin əvvəllərinə aid olunur. Lakin o, çox bərbad vəziyyətdə olduğundan sökülərək bu məscid tikilib.

## TÜRKƏKƏRAN KƏND MƏSCİDİ (II)



Məscid Lənkəran rayonunun Türkəkəran kəndinin Seyidlər məhəlləsindədir. Bünövrəsi 1988-ci ildə qoyulub və hələlik tikinti işləri başa çatmayıb. İç sahəsi 10x17 metr, həyətyanı sahəsi 10x17 metrdir.

Formaca düzbucaqlı olan bu məscid mişar daşı və çaylaq daşı ilə tikilib. Məscidin iki giriş qapısı vardır. İbadət zalında 6 tağvari formada pəncərə qoyulub. Döşəməsi torpaq, tavanı taxta, damının örtüyü şiferlə işlənib. Məscidin həyətyanı sahəsi yaşıllıqlar içərisindədir.

## TÜRKƏKƏRAN KƏND MƏSCİDİ (III)



Məscid Lənkəran rayonunun Türkəkəran kəndində yerləşib. 1990-cı ildə inşa edilib. Həyətyanı sahəsi 3000 kv.metr, iç sahəsi isə 6x12 metrdir.

Məscid düzbucaqlı formadadır və divarları mişar daşı ilə hörülüb. Damı ağ dəmir təbəqə ilə örtülüb. Məscidin bir giriş qapısı və iki pəncərəsi var. Qapının önündə açıq eyvan yerləşib. Eyvanın tavanı taxta, döşəməsi torpaqdır. Məscidin ayrıca bir otağında qadınlar şöbəsi yerləşib. Sahəsi 5x6 metrdir. Şöbənin bir qapısı və bir pəncərəsi var.

Bu məscid kənd ağsaqqallarının təşəbbüsü ilə tikilib.

## BALABIR KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Balabır kəndində tikilib. 1988-ci ildə inşa edilib. İç sahəsi 8x24 metrdir.

Düzbucaqlı formada olan bu məscid bişmiş kərpiclə tikilib. Damının örtüyü qırmızı kirəmitlə, güldəstə formasında olan günbəzi isə ağ dəmirlə örtülüb. Günbəzi dördguşəlidir. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanıb. İki giriş qapısı var, ibadət zalında 8 pəncərə qoyulub. Məscid hündürlüyü 1,20 metr olan səki üzərində yerləşib. Mehrabı çox sadə şəkildə işlənib. Tavan 4 azbest boru sütun üzərində dayanıb. Yerli camaatın qeyd etdiyinə görə, burada əvvəllər məscid olmayıb. Məscidin yerləşdiyi torpaq sahəsi yerli sakin Əzim Əmir oğlu tərəfindən vəqf olunub. Məscid camaatın köməkliyi və yerli sakin Məmməd Ağadədə oğlunun təşəbbüsü ilə tikilib.



## AŞAĞI NÜVƏDİ KƏND MƏSCİDİ (I)



Məscid Lənkəran rayonunun Aşağı Nüvədi kəndində yerləşib. Həyətyanı sahəsi 200 kv.metr, iç sahəsi isə 19x8 metrdir.

Düzbucaqlı formada olan bu məscid bişmiş kərpiclə tikilib. Hündürlüyü 0,80 metr olan səki üzərində yerləşib. Səki və ümumiyyətlə, məscidin ətrafı daş plitələrlə döşənib. Məscidin divarlarının qalınlığı 0,60 metrdir. Damının örtüyü qırmızı kirəmitlə işlənib. Günbəzi altıguşəlidir və onun üstü dəmir təbəqə ilə işlənib. Məscidin iki giriş qapısı var və tağvari formadadır. Döşəmə torpaq, tavan isə taxtadır. Tavan dörd taxta sütun üzərində dayanmışdır. Minbər də taxtadandır və dördpilləlidir. Minbərin üstündə onun düzəldilmə tarixi qeyd olunub: hicri-qəməri təqvimilə 1332-ci il. Minbər üzərində ərəbcə yazılar da var. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanıb. Mehrab çox sadə düzəldilib və tağvari formadadır.



Məsciddən sovetlər dövründə anbar kimi istifadə olunub və 1985-ci ildən etibarən fəaliyyətə başlayıb.

Məscidin giriş qapısından sağ tərəfdə qəbir yerləşib. Həmin qəbirdə bu məsciddə axund olmuş Şeyx Yusif Kərbəlayı Əmir oğlu Viyənli (1860-1948) dəfn olunub.

## AŞAĞI NÜVƏDİ KƏND MƏSCİDİ (II)



Məscid Lənkəran rayonunun Aşağı Nüvədi kəndindədir. Həyətyanı sahəsi 200 kv.metr, iç sahəsi isə 7x17 metrdir.

Düzbucaqlı formada olan bu məscid qırmızı kərpiclə tikilib. Həyətyanı sahəsi daş plitələrlə döşənib və daş hasara alınıb. Məscid hündürlüyü 1 metr olan səki üzərində yerləşib. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan 3 azbest boru sütun üzərində dayanmışdır. Minbəri taxtadandır və üçpilləlidir. İki giriş qapısı vardır. Döşəmədən tavana qədər olan hündürlüyü 4 metrdir.

Hal-hazırda məscidin həyətində inşaat işləri aparılır. Tikinti işlərinə ixtisasca həkim Yusif İbadov başçılıq edir.

İndiki məscidin yerində vaxtilə başqa bir məscid olub. Həmin məscidin inşa tarixi XIX əsrin əvvəllərinə aid olunur. Lakin məscid çiy kərpicdən inşa edildiyindən və bərbad vəziyyətdə olduğundan 1960-cı ildə kənd sakinləri Əliheydər Qasımov və Xaliq Əliyevin təşəbbüsü ilə sökülərək yerində indiki məscid tikilməyə başlanıb və 1977-ci ildə istifadəyə verilib.

## VİYƏN KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Viyən kəndində yerləşib. XIX əsrin axırlarında (h.q. təqvimi 1302-ci il) inşa edilib. İç sahəsi 8x17 metr, həyətyanı sahəsi yoxdur. Məscid düzbucaqlı formadadır və başdan-başa bişmiş kərpiclə tikilib. Məscidin iki giriş qapısı və 4 pəncərəsi var. Qapı və pəncərələr taxtadan düzəldilib. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Qadınlar üçün nəzərdə tutulmuş ibadət zalı ikinci mərtəbədədir. Onun sahəsi 8x2,5 metrdir. Məscidin divarlarının qalınlığı 0,80 metrdir. Qadınlar şöbəsinə giriş məscidin yan tərəfindəndir. Mehrabı divarın içindədir və hər tərəfi bişmiş kərpiclə işlənib. Məscid hündürlüyü 1,20 metr olan səki üzərində yerləşir.

Məscidin damı qırmızı kirəmitlə işlənib. Güldəstə formasında olan günbəzinin hündürlüyü 2 metrdir və dördguşəlidir.

Sovetlər dövründə məscid bağlanaraq taxıl anbarı kimi istifadə olunub. 1987-ci ildə kənd ağsaqqallarının təşəbbüsü ilə məscidin fəaliyyəti bərpa olunub.

## LÜVƏSƏR KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Lüvəsər kəndində yerləşib. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi isə 6,5x15 metrdir.

Düzbucaqlı formaya malik olan bu məscid bişmiş kərpiclə tikilib. Damının örtüyü kirəmitlə işlənib. Məscidin ön tərəfində eyvan yerləşib və onun damı şiferlə örtülüb. Məscid hündürlüyü 1,20 metr olan səki üzərində yerləşib. Döşəmə torpaq, tavan isə taxtadandır. Döşəmədən tavanadək hündürlüyü 3,5 metrdir. Güldəstə formasında olan günbəzinin hündürlüyü 2 metrdir, dördguşəlidir və gözlükləri rəngli şüşələrlə işlənib. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanaraq əhənglə ağardılıb. İbadət zalında iki qapı və 6 pəncərə qoyulub. Minbər taxtadan olub dördpilləlidir. Mehrab divarın içindədir və çox sadə formaya malikdir.

## TÜKƏVİLƏ KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Tükəvilə kəndindədir. 1988-ci ildə inşa edilib. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi isə 2 hissədən (kişilər və qadınlar) ibarət olub, hər biri ayrı-ayrılıqda 7x5 metrdir.

Tükəvilə kənd məscidi formaca düzbucaqlı olub, divarları mişar daşı ilə hörülmüşdür. Döşəməsi və tavanı taxtadandır. Qapıları və pəncərələri taxtadan düzəldilib. Ön tərəfdə açıq eyvan yerləşib. Onun sahəsi 14x5 metrdir. Məscidin damı şiferlə örtülüb. Həyətyanı sahəsi yaşıllıqlar içərisindədir. Məscid Şumayi ev Hacı Barat tərəfindən tikilib.



## RVO KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Rvo kəndində tikilib. XIX əsrin ortalarında inşa edilib. İç sahəsi 18x5 metrdir.

Düzbucaqlı formada olan bu məscid bişmiş kərpiclə tikilib. Damı qırmızı kirəmitlə örtülüb. Məscidin eyvanı 80-ci illərdə tikilib. Eyvanın damının örtüyü şiferdəndir. Məscid iki hissəyə - qadınlar və kişilər şöbəsinə ayrılıb. İki giriş qapısı var. Döşəməsi torpaq, tavanı isə taxtadır. Divarların qalınlığı 0,60 metrdir. Minbəri üç pilləlidir və taxtadan düzəldilib. Məscidin içərisində üç pəncərə qoyulub. Pəncərələr taxtadan düzəldilib və şəbəkələrlə işlənib.

Rvo kənd məscidi sovetlər dövründə bağlanmamış və möminlərin istifadəsində olmuşdur.

## ŞOVU KƏND BABA RƏHMAN TÜRBƏSİ



Türbə Lənkəran rayonunun Şovu kəndində inşa olunub. XV əsrin abidəsi hesab olunur. İç sahəsi 5x3 metrdir. Türbə düzbucaqlı formadadır və başdan-başa mişar daşı ilə tikilmişdir. Damının örtüyü qırmızı kirəmitdəndir. Bir giriş qapısı var. Giriş qapısının sağ tərəfində daş lövhə üzərində türbənin tarixi göstərilir. Türbə 1995-ci ildə bərpa edilib. Bu zaman iç divarlar qum-sement məhlulu ilə suvanaraq, əhənglə ağardılıb.

Türbənin döşəməsi torpaq, tavanı isə taxtadandır. Türbənin ortasında qəbir yerləşib. Qəbir iri daşla götürülüb. Sinə daşı isə mərmərlə örtülüb.

## LƏJ KƏND MƏSCİDİ



Lənkəran rayonunun Ləj kəndində yerləşən bu məscid 1972-ci ildə inşa edilib. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi isə 15x5 metrdir. Ləj kənd məscidi düzbucaqlı formadadır. Damı şiferlə örtülüb. Döşəməsi torpaq, tavanı isə taxtadır. Minarəsi, minbəri, günbəzi və mehrabı yoxdur.

Məscid kənd sakinləri Məşədi Babəli Bəhmənoğlu və Məşədi Gülağa Sərhədoğlunun təşəbbüsü ilə tikilib. Ustası Nəhmət Əhədovdur.

*Qeyd:*

Hal-hazırda kəndin girəcəyində iç sahəsi 22x11 metr, hündürlüyü isə 5 metr olan daha bir məscid tikilməkdədir. Məscidin tikintisinə 1994-cü ildən başlanıb və onun təşəbbüsçüləri kənd sakinləri Cəfər Bayramov, usta Əliabbas Çıraqoğlu və Şirəli Aslanovdur.

## GƏRMƏTÜRK QƏSƏBƏ MƏSCİDİ



Məscid Lənkəran rayonunun Gərmətürk qəsəbəsindədir. Məscid XIX əsrin axırlarında inşa edilib. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi 10x22 metrdir.

Məscid bişmiş qırmızı kərpiclə tikilib. Divarlarının qalınlığı 60 sm-dir. Damı qırmızı kirəmitlə örtülüb. Məscidin güldəstə formasında olan günbəzi dördguşəlidir. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan beş taxta sütun üzərində dayanıb. Məscidin 3 qapısı var. Onlar taxtadan düzəldilib. Minbər də taxtadan hazırlanıb və şəbəkə ilə işlənib. Mehrab divarın içindədir və sadə formaya malikdir. İbadət zalında yeddi pəncərə qoyulub. Məscidin qadınlar şöbəsi ikimərtəbəlidir. İkinci mərtəbə kişilər şöbəsindən taxta şəbəkə ilə ayrılıb.

Qeyd edək ki, bu məscid 1934-1980-ci illərdə zavod, kazarma, anbar və nəhayət, kitabxana kimi istifadə olunub.

## BALA ŞURİK KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Bala Şurik kəndindədir. XIX əsrin ortalarında inşa edilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi isə 7x17 metrdir.

Bala Şurik kənd məscidi düzbucaqlı formaya malikdir və qırmızı kərpiclə inşa olunub. Məscidin damı və güldəstə formasında olan günbəzinin üstü qırmızı kirəmitlə işlənib. Günbəzin hündürlüyü iki metrdir. Məscidin iki qapısı vardır. Onlar tağvari formaya malik olub taxtadandır. Məscid özü düzbucaqlı formada olduğu kimi, tavanı da düzbucaqlıdır. Tavanı taxta, döşəməsi isə torpaqdır. Tavan iki taxta və bir kərpicdən tikilmiş sütun üzərində dayanıb.

Məscid vaxtilə kənd sakini Kərbəlayı İbadulla Mirmusa oğlunun təşəbbüsü ilə tikilib.

Sovetlər dövründə məsciddən anbar kimi istifadə olunub. 1991-ci ildən etibarən burada təmir-bərpa işləri aparılmış və məscid yenidən fəaliyyətə başlamışdır.

## BÖYÜK ŞURİK KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Böyük Şurik kəndində, Seyidzadə qəbristanlığında yerləşir. 1991-ci ildə inşa edilib. İç sahəsi 8,5x12 metrdir.

Düzbucaqlı formada olan bu məscid mişar daşı ilə tikilib. Damı qırmızı kirəmitlə örtülüb. İç və fasad tərəfi qum-sement məhlulu ilə suvanıb və əhənglə ağardılıb. Bir giriş qapısı var. Giriş qapısının önündə dəhliz yerləşir. Onun sahəsi 3x3 metrdir. Giriş qapısının yanında əlavə bir otaq tikilib. Onun sahəsi 4x4 metrdir. Məscid səkkiz pəncərəyə malikdir. Pəncərələr düzbucaqlı formaya malikdir. Döşəmədən tavana qədər hündürlüyü 3 metrdir.

Məscid kənd sakinləri tərəfindən tikilib.



## GÖYŞABAN KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Göyşaban kəndində tikilib. Düzbucaqlı formaya malik olan bu məscid başdan-başa bişmiş kərpicdən tikilib. Məscid binası hündürlüyü 1 metr olan səki üzərindədir. Damı kirəmitlə örtülüb. Güldəstə formasında olan günbəzi dördguşəli olub, dəmir təbəqə ilə işlənib.

Göyşaban kənd məscidinin döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan dörd dəmir borudan olan sütun üzərində dayanıb.

Məscid XIX əsrin axırlarında tikilib. Sovetlər dövründə anbar kimi istifadə olunan məscid binasının 1989-cu ildən yenidən fəaliyyəti bərpa edilib.

## TƏNGİVAN KƏND MƏSCİDİ



Lənkəran rayonunun Təngivan kəndində yerləşən bu məscidin bünövrəsi 1996-cı ildə qoyulub. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 8x17 metrdir.

Düzbucaqlı formada olan bu məscid bişmiş kərpiclə inşa edilib. Məscid hündürlüyü 1 metr olan səki üzərində yerləşib. Damının örtüyü qırmızı kirəmitlə işlənib. İbadət zalında iki giriş qapısı və yeddi pəncərəsi vardır. Qapı və pəncərələr taxtadan olub, tağvari formadadır. Pəncərələr şəbəkə ilə işlənib. Məscidin döşəməsi torpaq, tavanı isə taxtadandır.

Məscid kənd camaatının vəsaiti hesabına tikilir.

## DƏRQUBA KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Dərquba kəndindədir. XIX əsrin axırlarında inşa edilib. İç sahəsi 13x7 metrdir.

Düzbucaqlı formada olan bu məscid bişmiş kərpiclə inşa edilmişdir. Divarlarının qalınlığı 0,60 metrdir. Məscid hündürlüyü 1,20 metr olan səki üzərində yerləşib. Səki və ətrafı daş plitələrlə döşənib. Damının örtüyü qırmızı kirəmitdəndir. İbadət zalında iki giriş qapısı qoyulub. Onlar taxtadan düzəldilib və tağvari formadadır. Məscidin döşəməsi torpaq, tavanı isə taxtadır. Tavan düzbucaqlı formada olub, üç taxta sütun üzərindədir. Məscidin pəncərələri tağvari formadadır. Qadınlar şöbəsi məscidin birinci və ikinci mərtəbəsində yerləşib, ümumi sahəsi 42 kv.metrdir. Məscid kənd ağsaqqallarının təşəbbüsü ilə yerli kənd camaatı tərəfindən tikilmişdir. Sovetlər dövründə bir müddət anbar kimi istifadə olunub. 1965-ci ildə burada təmir-bərpa işləri aparılıb. 1987-ci ildə fəaliyyətə başlayıb.

## BİRİNCİ NƏRİMANABAD MƏSCİDİ



Məscid Lənkəran rayonunun Nərimanabad qəsəbəsindədir. İnşa tarixi 1990-93-cü illərə aiddir. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 24x11 metrdir.

Düzbucaqlı formada olan məscid başdan-başa bişmiş kərpiclə inşa edilib. Məscidin hündürlüyü 4,5 metrdir. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan düzbucaqlı formada olub, dörd bütöv taxta üzərində dayanmışdır. İbadət zalında üç qapı və on bir pəncərə qoyulub. Onlar taxtadan düzəldilib və tağvari formadadır. Mehrab divarın içindədir. Minbər taxtadandır və yeddi pilləlidir. Məscidin iç divarları suvanmış və ağardılıb. Məscid hündürlüyü 2,50 metr olan səki üzərində yerləşib. Damı dəmirlə örtülüb. Əsas ibadət zalının altında yardımçı otaqlar yerləşib.

Məscid kənd sakini Məhəmməd Qulamhüseyn oğlu Nəsirovun təşəbbüsü və qəsəbə sakinlərinin vəsaiti hesabına tikilib.

## İKİNCİ NƏRİMANABAD QƏSƏBƏ MƏSCİDİ



Məscid Lənkəran rayonunun İkinci Nərimanabad qəsəbəsində tikilib. 1990-cı ildə inşa edilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 18x8 metrdir.

Məscid düzbucaqlı formada olub, başdan-başa bişmiş kərpiclə inşa edilib. Məscidin iki giriş qapısı və yeddi pəncərəsi var. Tağvari formalı qapılar və pəncərələr taxtadan düzəldilib. Döşəməsi torpaq, tavanı isə fanerdir. Tavan iki sütun üzərində dayanıb. Damı ağ dəmir təbəqə ilə örtülüb. Güldəstə formasında olan səkkizguşəli günbəzi dəmir təbəqə ilə işlənmişdir. Günbəzin üstündə ağ dəmir təbəqədən aypara və ulduz rəmzi qoyulub.

Məscid qəsəbə sakinləri tərəfindən tikilib.

*Qeyd:*

Bu qəsəbədə 1952-ci ildə tikilmiş məscid də saxlanmışdır. Hazırda həmin məscid qadınların istifadəsinə verilib.



## KƏRGƏLAN KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Kərgəlan kəndinin Həsənoba məhəlləsindədir. İnşa tarixi XIX əsrin ortalarına aiddir. İç sahəsi 9,5x16,5 metrdir.

Məscid düzbucaqlı formada olub başdan-başa bişmiş kərpiclə işlənib. Damının örtüyü qırmızı kirəmitlə işlənib. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan üç taxta sütun üzərində dayanıb. Döşəmədən tavana qədər olan hündürlüyü 3 metrdir. Məscidin iç divarları əhənglə ağardılıb. Mehrabı divarın içindədir. Çox sadə şəkildə işlənib. Dördpilləli minbər taxtadandır. Məscidin ibadət zalında iki qapı və altı pəncərə qoyulmuşdur.

## BOLADİ KƏND MƏSCİDİ (I)



Məscid Lənkəran rayonunun Boladi kəndində yerləşir. Hicri-qəməri təqvimilə 1345-ci ildə inşa edilib. İç sahəsi 160 kv.metr, həyətyanı sahəsi isə yoxdur.

Boladi kənd məscidi düzbucaqlı formada olub, başdan-başa qırmızı kərpiclə inşa edilib. Üç giriş qapısı vardır. Onlardan ikisi tağvari, biri isə düzbucaqlı formadadır. Məscidin minarəsi, günbəzi yoxdur. Mehrabı divarın içindədir. İç divarlar palçıq suvaqla suvanmış və rənglənmişdir. Əsas ibadət zalında altı tağvari formalı pəncərə qoyulmuşdur. Onlar taxtadan düzəldilib. Döşəmə torpaqdan, tavan isə taxtadandır. Tavan düzbucaqlı formada olub, dörd taxta sütun üzərində dayanıb. Məscidin iç divarları yerdən 1,50 metr hündürlükdə taxta ilə işlənib. Minbər də taxtadandır və dördpilləlidir. Məscidin giriş qapısı üstündəki taxta üzərində onun inşa tarixi haqqında yazı həkk edilib. Damının örtüyü qırmızı kirəmitdəndir.

Məscid hündürlüyü 1 metr olan səki üzərində yerləşib.

## ŞİRİNSU KƏND MƏSCİDİ (I)



Məscid Lənkəran rayonunun Şirinsu kəndindədir. 1997-ci ildə bünövrəsi qoyulmuşdur. Hal-hazırda tikinti işləri davam edir. İç sahəsi 10x22 metr, həyətyanı sahəsi 400 kv.metrdir.

Şirinsu kənd məscidi düzbucaqlı formada olub, başdan-başa bişmiş kərpiclə tikilib. Damının örtüyü şiferlə işlənib. Dördguşəli günbəzi ağ dəmir təbəqədəndir. Güldəstə formasında olan günbəzinin üstündə ağ dəmir təbəqədən aypara və ulduz rəmzi qoyulub. Məscidin tavanı düzbucaqlı formada olub, iki azbest boru sütun üzərində dayanıb. Döşəmədən tavana qədər hündürlüyü 4,5 metrdir. Məscidin iki giriş qapısı və dörd pəncərəsi vardır. Pəncərə və qapılar tağvari formadadır. Məscid hündürlüyü 1 metr olan səki üzərində yerləşmişdir.

Şirinsu kənd məscidi camaat tərəfindən tikilir.

## ŞİRİNSU KƏND MƏSCİDİ (II)



Məscid Lənkəran rayonunun Şirinsu kəndində yerləşib. Düzbucaqlı formada olan bu tikili başdan-başa qırmızı kərpiclə işlənib. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi isə 8x18 metrdir. Məscidin yerdən tavana qədər hündürlüyü 4,5 metr olub, minbəri taxtadandır və dördpilləlidir. Mehrabı sadədir və divarın içərisindədir.

Şirinsu kənd məscidi 1990-cı ildə kənd camaatı tərəfindən inşa edilib. Ustası Məşədi Qurbanəlidir. İbadət zalındakı şəbəkələr isə usta Rza tərəfindən işlənib. Məscid hündürlüyü 1,50 metr olan səki üzərində tikilib. Məscidin damının örtüyü qırmızı kirəmitlə işlənib, günbəzi dördguşəlidir. Məscidin mollası Molla Hacəmidir.

## BOLADİ KƏND MƏSCİDİ (II)



Məscid Lənkəran rayonunun Boladi kəndinin Seyidoba məhəlləsində yerləşir. İnşa tarixi 1920-1923-cü illərə aiddir. Həyətyanı sahəsi 800 kv.metr, iç sahəsi isə 15x6 metrdir.

Forma etibarilə düzbucaqlı olan bu məscid kənd camaatının vəsaiti hesabına tikilmişdir. İki giriş qapısı vardır. Damının örtüyü qırmızı kirəmitlə işlənmişdir. Minarəsi, günbəzi, mehrabı və minbəri yoxdur. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan düzbucaqlı formadadır və dörd taxta sütun üzərində dayanmışdır.

Məscid Sovet dövründə anbar kimi istifadə edilmişdir. 1945-ci ildə məscidin anbar kimi istifadə edilməsi dayandırılsa da, ibadət etməyə imkan verilməmişdir. 1987-ci ildə məscidin fəaliyyəti bərpa edilmişdir.

## VERƏVUL KƏND MƏSCİDİ (I)



Məscid Lənkəran rayonunun Verəvul kəndində yerləşir. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi 20x8 metrdir.

Məscid düzbucaqlı formada olub, başdan-başa bişmiş kərpiclə tikilmişdir. Məscid hündürlüyü 0,80 metr olan səki üzərində yerləşib. Mehrabı divarın içindədir və hündürlüyü 3 metrdir. Üçpilləli minbəri taxtadan düzəldilib. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan düzbucaqlı formada olub, 4 taxta sütun üstündə dayanmışdır. Divarlar içəridən suvanmış və ağardılmışdır. Məscidin ibadət zalında iki qapı və yeddi pəncərə qoyulmuşdur. Onlar taxtadan düzəldilmişdir və tağvari formadadır.



## VERƏVUL KƏND MƏSCİDİ (II)



Məscid Lənkəran rayonunun Verəvul kəndindədir. Həyətyanı sahəsi 300 kv.metr, iç sahəsi isə 8,5x18,5 metrdir. Başdan-başa qırmızı kərpiclə işlənmiş bu məscidin həyətyanı sahəsi dəmir hasara alınıb. Formaca düzbucaqlı olan məscidin damının örtüyü qırmızı kirəmitlə işlənib. Güldəstə formasında olan günbəzi dördguşəli olub, üstündə aypara və səkkizguşəli ulduz qoyulub.

Məscid hündürlüyü 1 metr olan səki üzərində yerləşib. Onun yerdən tavana qədər hündürlüyü 4 metrdir. Məscidin minarəsi yoxdur. Mehrabı divarın içərisindədir.

Verəvul kənd məscidi 1990-cı ildə istifadəyə verilib.

## VİLVAN KƏND MƏSCİDİ (I)



Məscid Lənkəran rayonunun Vilvan kəndinin Mollaoba məhəlləsindədir. 1992-ci ildə inşa olunub. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 20x8 metrdir.

Vilvan kənd məscidi formaca düzbucaqlı olub, damının örtüyü qırmızı kirəmitlə işlənmişdir. Dördguşəli günbəzi dəmir təbəqə ilə işlənmişdir. Güldəstə formasında olan günbəzinin üstündə aypara rəmzi qoyulmuşdur. Tavan taxtadandır və 3 taxta sütun üzərində dayanmışdır. İbadət zalında iki qapı və altı pəncərə qoyulmuşdur. Məscidin iç divarları suvanmış və rənglənmişdir. Mehrab divarın içərisində olub, hündürlüyü 4 metrdir. Mehrabın üstündə rənglə ərəbcə yazı vardır.

Məscidin inşasını maliyyələşdirən kənd sakini Məşədi Bəhluldur.

## VİLVAN KƏND MƏSCİDİ (II)



Məscid Lənkəran rayonunun Vilvan kəndində tikilib. 1922-ci ildə inşa olunub. Həyətyanı sahəsi 200 kv.metr, iç sahəsi 20x8 metrdir.

Məscid kənd camaatı tərəfindən tikilmişdir. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan 3 taxta sütun üzərində dayanmışdır. Məscid düzbucaqlı formadadır və damının örtüyü qırmızı kirəmitlə işlənmişdir. Minbər taxtadan olub, üç pillәlidir. Məscid hündürlüyü 1,30 metr olan səki üstündə yerləşmişdir. İç divarlar qum-sement məhlulu ilə suvanmış və ağardılmışdır.

Sovetlər dövründə bu məsciddən taxıl anbarı kimi istifadə edilmişdir və 1987-ci ildən etibarən fəaliyyəti bərpa edilmişdir. 1990-cı ildə məscidin damında təmir işləri aparılmışdır. Təmir işləri camaatın vəsaiti hesabına həyata keçirilmiş və ona yerli sakin Məşədi Sabir başçılıq etmişdir. 1997-ci ildə məscidin ön tərəfində kənd sakini Kərbəlayı Nəriman İbrahim oğlunun vəsaiti hesabına açıqşəkilli eyvan (sahəsi 20x3) inşa edilmişdir.

### YUXARI NÜVƏDİ KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Yuxarı Nüvədi kəndində yerləşib. 1984-cü ildə inşa edilib. İç sahəsi 16x4 metrdir.

Məscid formaca düzbucaqlıdır. Divarları çaylaq daşı və kərpiclə hörülüb. Məscidin iki qapısı və dörd pəncərəsi var. Pəncərələr və qapılar düzbucaqlı formasındadır. Damı şiferlə örtülüb. Məscidin iç və çöl tərəfi qum-sement məhlulu ilə suvanıb və əhənglə ağardılıb. Divarların qalınlığı 40 sm-dir. Döşəmədən tavanadək hündürlüyü 2,5 metrdir.

Məscid kənd camaatının vəsaiti hesabına inşa olunub.

### BABA KƏRİM TÜRBƏSİ



Türbə Lənkəran rayonunun Yuxarı Nüvədi kəndinin qəbristanlığındadır.

Qəbir türbənin içərisindədir. Baba Kərim yerli camaatın dediyinə görə, seyid olmuşdur.

Türbə əsas etibarilə taxtadan işlənib. Formaca düzbucaqlı olan bu türbənin damı şiferlə örtülüb. Baba Kərim türbəsinin iç sahəsi 12 kv. metrdir. Türbənin yaxınlığında daşdan yonulmuş bir qoç heykəli qoyulub. Türbənin heç bir giriş qapısı yoxdur.

### KƏRGƏLAN KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Kərgəlan kəndində tikilib. İnşa tarixi 1991-ci ilə aiddir. Həyətyanı sahəsi 3000 kv.metr, iç sahəsi isə 11x26 metrdir.

Formaca düzbucaqlı olan bu məscid qırmızı kərpiclə tikilmişdir. Məscid divarlarının qalınlığı 0,60 metrdir. Tağvari formada iki giriş qapısı vardır və onlar taxtadan düzəldilmişdir. Tavan taxtadandır və üç sütun üzərində dayanır. Döşəmədən tavana qədər hündürlüyü 5 metrdir. Məscid hündürlüyü 1,50 metr olan səki üzərində yerləşmişdir. Damının örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Giriş qapılarının yaxınlığında qoşa minarə ucaldılmışdır. Minarələr bişmiş kərpicdən tikilmişdir və hər birinin hündürlüyü 17 metrdir. Minarənin üstü dəmir təbəqə ilə işlənmişdir.

*Qeyd:*

Yerli camaatın bildirdiyinə görə, burada XIX əsrin ortalarında məscid tikilmişdir. Lakin həmin məscid bərbad vəziyyətə düşdüyündən indiki məscidin inşa edilməsi zəruri olmuşdur.



### OSAKÜÇƏ KƏND MƏSCİDİ



Məscid Lənkəran rayonunun Osaküçə kəndində yerləşib. İnşa tarixi dəqiq məlum deyil.

Osaküçə məscidi formaca düzbucaqlıdır və başdan-başa bişmiş kərpiclə tikilib. Damı qırmızı kirəmitlə işlənib. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan üç taxta sütun üzərində dayanıb. İç divarları qum-sement məhlulu ilə suvanıb. Minbəri taxtadan düzəldilib və üçpilləlidir. Məscidin divarlarının qalınlığı 0,70 metrdir. İbadət zalında iki qapı və altı pəncərə qoyulub. Məscidin qabaq tərəfi asfaltla döşənib. Məsciddə 1997-ci ildə təmir-bərpa işləri aparılıb.

## LERİK RAYON MƏSCİDLƏRİ

### LERİK ŞƏHƏR MƏSCİDİ



Məscid Lerik rayonunun mərkəzindədir. Həyətyanı sahəsi 3000 kv.metr, iç sahəsi 11x29 metr, hündürlüyü 3,8 metrdir. Məscidin tikintisinə 1990-cı ildə başlanmışdır. Əsas binanın inşası başa çatdırılmışdır. Damı ağ dəmir təbəqə ilə işlənib.

Məscid binası, eləcə də minarəsi mişar daşından tikilmişdir. Minarənin aşağı hissəsi düzbucaqlı, orta hissəsi səkkizguşəli, yuxarı hissəsi isə dəyirmi formadadır. Minarənin tikintisi tam başa çatdırılmasa da, hal-hazırda onun hündürlüyü 12 metrdir.

Bu məscid yerli sakin Hacı Akif və digər yerli şəhər sakinlərinin vəsaiti hesabına tikilməkdədir.

Məscidin axundu İlham Əliyevdir.

### CƏNGƏMİRAN KƏND MƏSCİDİ



Lerik rayonunun Cəngəmiran kəndində yerləşən məscidin həyətyanı sahəsi 2500 kv.metr, iç sahəsi 5x17,5 metrdir.

Məscidin tikilmə tarixi XIX əsrin ortalarına aiddir. Damın örtüyü qırmızı kirəmitlə işlənmişdir. İbadət zalının döşəmə və tavanı taxta ilə vurulub. Bütün qapı və pəncərələr düzbucaqlı formadadır. Məscidin ön tərəfində açıqşəkilli eyvan yerləşib.

Sovetlər dövründə anbar kimi istifadə edilib. 1970-ci illərdən sonra kolxoz sədri Ataxan Şiriyevin başçılığı ilə burada təmir işləri aparılıb.

## BABAGİL PİRİ



Lerik rayonunun Babagil kəndi yaxınlığında müqəddəs sitayiş yeri olan bir pir var. Pir kənd qəbristanlığındadır. Kənd öz adını həmin pirdə dəfn olunan şəxsdən almışdır. Lənkəran və Lerik rayonlarındakı yaşlı adamların dediyinə görə, "Babagil" sözü "Gilanlı baba" deməkdir. Babagil adlanan şəxs isə ruhani alim olmuşdur. Vaxtilə Gilandan Astara Talışına gəlmiş, Asnaqaran (Dəmirçilər) kəndində yaşamış və orada vəfat etmişdir.

Babagil məqbərəsində yazılı kitabə qalmamışdır. Azərbaycan Respublikası Elmlər Akademiyasının Tarix İnstitutunun elmi arxivində Babagil məqbərəsindən götürülmüş, həmin ziyarətgahın üç yüzillik (1509-1788) tarixinə dair maraqlı məlumat verən 6 sənədin əsli saxlanılmaqdadır. Sənədlərdə Babagil kəndinin, Sultan Babanın həmin kəndə gəlib imamın təbliğinə başlamazdan əvvəl əsl adının talışca Asnaqaran (farsca Ahəngəran) olması və bu kəndin aşağıda qeyd olunan əmlaka-məqbərəyə vəqf edilməsindən söhbət gedir və onun hüdudları göstərilir.



Sənədlərdən göründüyü kimi, Babagilin övladları Asnaqaran kəndində yaşamış və məqbərənin vəqflərindən olaraq istifadə hüquqlarına malik olmuşlar. Qədim zamanlardan bəri vəqf əmlakının bütün vergilərdən azad edilməsi və Babagil xələflərinin bu malikanəyə nəslən sahib olmaları Səfəvi şahlarının, Şeyx Səfiəddin məqbərəsi mütəvelliliyi və digər hökmdarların fərman və hökmləri ilə təsdiqlənmişdir.

Sənədlərdə "Sultan əl-arifeyn, Sultan Babagil qəddəsə sərahu-Ariflərin sultanı Babagil, torpağı müqəddəs", və yaxud "Seyid Babagil" deyə qeyd edilmişdir. "Sultan Babagil-Gilanlı baba" sözləri məqbərədə dəfn olunmuş müqəddəs sufi şeyxinin -alimin ancaq ləqəblərindəndir. Adı isə məlum deyil.

## LÜLƏKƏRAN KƏND MƏSCİDİ



Məscid Lerik rayonunun Lüləkəran kəndində yerləşmişdir. Bu məscidin giriş qapısından çöl tərəfdə - divarda dəmir lövhədə onun tarixinin XIX əsrə aid olduğu göstərilib. Məscidin köhnə binası sovetlər dövründə anbar kimi istifadə edilib. 1994-cü ildə həmin bina sökülmüş və yeni məscid tikilmişdir. Bu məscidin tikintisi başlıca olaraq əvvəlkinin materialları əsasında aparılıb. İç sahəsi 17x7 metr, hündürlüyü 4,5 metr, həyətyanı sahəsi yoxdur.

Lüləkəran kənd məscidi bişmiş kərpicdən inşa olunub. Damının örtüyü qırmızı kirəmitlə işlənib. Formaca düzbucaqlı olan məscid binasında tikinti işləri hələlik başa çatmayıb. Tavanı da düzbucaqlı formadadır və fanerlə işlənib.



## XƏLFƏKÜÇƏ KƏND MƏSCİDİ



Bu məscid Lerik rayonunun Xəlfəküçə kəndindədir. Məscidin ilkin variantı çiy kərpicdən olmuşdur. Həmin məscid 1997-ci ildə sökülmüş və yerində indiki məscid inşa olunmuşdur. Burada tikinti işləri hələlik tam başa çatmayıb.

Məscid divarları çaylaq və mişar daşından hörülüb. Dam örtüyü dəmir təbəqə ilə işlənib. Həyətyanı sahəsi 150 kv.metr, iç sahəsi 13x4 metr, hündürlüyü isə 2,70 metrdir.

Məscidin həyətyanı sahəsində "Seyid Xəlifə Zəkəriyyə" adına ocaq yerləşib. Ocaqda bir qəbir var. Kəndin qəbristanlığı da "Xəlifə Zəkəriyyə" qəbristanlığı adlanır. Camaatın bildirdiyinə görə, bu qəbristanlığın salındığı sahə vaxtilə Xəlifə Zəkəriyyəyə məxsus olmuşdur.

## ANBU KƏND MƏSCİDİ



Məscid Lerik rayonunun Anbu kəndində tikilib. İç sahəsi 14x5 metr, hündürlüyü isə 2,80 metrdir. Bu məscid 1970-ci illərin əvvəllərində yerli sakinlər tərəfindən tikilib. Çaylaq daşlarından hörülmüş məscidin divarları palçıqla suvanıb və ağardılıb. Damı şiferlə örtülüb.

## SEYİD İBRAHİM İBN CABİR ƏNSAR TÜRBƏSİ



Türbə Lerik rayonunun cənub tərəfində yerləşib. Türbənin üstü 1994-cü ildə inşa edilib. Bu vaxta kimi burada sadəcə olaraq bir qəbir mövcud olmuşdur. Qəbrin üstündəki türbədən başqa burada ibadət və dini mərasimlərin keçirilməsi üçün bir yardımçı otaq tikilib. Onun sahəsi 6x5 metrdir. Hal-hazırda digər yardımçı otağın tikintisi gedir. Həmin otaq isə qadınlar şöbəsi kimi nəzərdə tutulub.

### *BULABAND KƏND MƏSCİDİ*



Məscid Lerik rayonunun Bulaband kəndində tikilib. Həyətyanı sahəsi yoxdur, iç sahəsi 16x7 metrdir. Düzbucaqlı formada olan bu məscid binası əsasən mişar daşından tikilib. Dam örtüyü qırmızı kirəmitlə işlənib. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanmş və ağardılmışdır.

### *MANDİGAH KƏND MƏSCİDİ*



Məscid Lerik rayonunun Mandigah kəndində yerləşir. Həyətyanı sahəsi 30 kv.metr, iç sahəsi 12x6 metr, hündürlüyü isə 3 metrdir.

Burada məscid XIX əsrin axırlarında tikilmişdir. Sovetlər dövründə anbar kimi istifadə olunaraq bərbad vəziyyətə düşən həmin məscid 1979-cu ildə sökülmüş və yenidən inşa edilmişdir.

Damı şiferlə örtülüb. Damı və tavanı taxta ilə işlənib. Çox sadə konstruksiyaya malikdir. İbadət zalında beş ədəd düzbucaqlı formalı pəncərəsi var.

### *AZƏRBAYCAN KƏND MƏSCİDİ*



Məscid Lerik rayonunun Azərbaycan kəndindədir. 1989-cu ildə inşa olunub. İç sahəsi 12x4, həyətyanı sahəsi 2000 kv.metrdir.

Məscid dördbucaqlı şəklə malik olub, damının örtüyü şiferlə işlənmişdir. Güldəstə formasında olan günbəzi dördguşəlidir. Güldəstənin yuxarı hissəsi dəmir təbəqə ilə örtülüb. Məscidin giriş qapısı önündə eyvan (13x2,5 metr) yerləşir. O, 6 taxta sütun üzərində qurulub.

Məscidin döşəməsi torpaq, tavanı isə taxtadır. Tavan dördbucaqlı formadadır. İbadət zalı iki hissəyə bölünüb: qadınlar və kişilər şöbəsi.

Məscidin divarları ağac çərçivə və samanlı palçıqla işlənmişdir. Məscid yerli əhalinin vəsaiti hesabına tikilmişdir.

*Qeyd:*

Lerik rayonunun daha 9 kəndində-Rvarud, Çeyrud, Barzavu, Vizəzəmin, Xanəgah, Noda, Kıncavu, Təngəbin və Ağuşədə də məscidlər fəaliyyət göstərir.



# LAÇIN RAYONU

### *MALİK ƏJDƏR TÜRBƏSİ*

Türbə Laçın rayonunun Cicimli kəndində, yüksək dağlıq ərazidə yerləşib. Tikilmə tarixi XII-XIII əsrlərə aid edilən bu abidə səkkizbucaqlı fasada və dairəvi iç plana malik olmaqla bərabər, öz arxaikliyi ilə oxşar planlı türbələrdən seçilir. Türbənin istər bayır tutumu, istərsə də iç məkanı bütöv olub, gövdəsilə örtüyü arasında keçid zonası yoxdur. Müxtəlif araşdırıcıların müşahidə etdiyi kimi, Cicimli türbəsi yuxarıya doğru əyilib dayanan prizmatik tutumu, parabolik biçimli günbəzi, tinlərində çubuğa bənzər incə sütuncuqları ilə köçəri çadırının yamsılanması yolu ilə yaradılmışdır. Malik Əjdər türbəsi monumental əsər olmasa da, xalq memarlığının-memarlıq folklorunun dəyərli örnəyidir. Bunu onun yığcam plan-məkan həlli, bölünməz tutumu, bəzəksiz daş kütlələrinin yabanı gözəlliyi əks etdirir.

# MASALLI RAYON MƏSCİDLƏRİ

### *MASALLI ŞƏHƏR CÜMƏ MƏSCİDİ*



Məscid Masallı rayonunun mərkəzindədir. İnşa tarixi 1846-cı ilə aiddir. Məscid yerli sakin Mirabdulla bəy, oğlu Mircavad bəy və Masallı hacılarının təşəbbüsü ilə tikilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 18x9 metrdir.

Məscid qırmızı kərpiclə hörülüb. Dam örtüyü qırmızı kirəmitlə işlənib. Güldəstə formasında olan günbəzinin üstü qırmızı kirəmitlə işlənib. Günbəz dördguşəlidir. Məscidin iki giriş qapısı var. Qapıların ön tərəfində eyvan yerləşib. Eyvan məscidə 1989-90-cı illərdə əlavə edilib. 1983-cü ildə məscidin dam örtüyü dəyişdirilib. Həmin bərpa işi dövlət tərəfindən yerinə yetirilib. Sovetlər dövründə bu məsciddən anbar kimi istifadə edilib. 1983-cü ildən sonra məscid Masallı rayonu Tarix Muzeyi kimi istifadə olunub. 1989-cu ildə şəhər sakinlərinin təşəbbüsü ilə məscidin fəaliyyəti bərpa edilib. 1997-ci ildə şəhərin hacı və kərbəlayılarının təşəbbüsü ilə məsciddə təmir-bərpa işləri aparılıb. Bərpa zamanı məscidin ön divarına İrandan gətirilmiş mərmərdən üz çəkilmiş və iç divarlarında bəzək işləri görülmüşdür.

Məscidin həyətyanı sahəsi asfaltla örtülüb. Döşəmədən tavana qədər hündürlüyü 6 metrdir. Döşəmə kərpic, tavanı isə taxtadandır. Minbər beşpilləli taxtadan düzəldilib. İç divarlar gəclə suvanıb. Tavan düzbucaqlı formada olub, 4 ədəd taxta sütun üzərində dayanıb. Məscidin ibadət zalı taxta arakəsmə ilə iki hissəyə - qadınlar və kişilər şöbəsinə ayrılıb. Məscidin tağvari formalı mehrabı divarın içindədir. Hündürlüyü 5 metrdir.

Məscidin axundu Hacı Malik İslamoğludur.

## YUXARIBAŞ MƏHƏLLƏ MƏSCİDİ

Məscid Masallı şəhərinin Yuxarıbaş məhəlləsində yerləşib. Geniş həyətyanı sahəyə malik olan bu məscid bişmiş qırmızı kərpiclə tikilib. Damının örtüyü qırmızı kirəmitlə işlənib. Güldəstəsi dördguşəli olub, üstü dəmir təbəqə ilə örtülmüşdür. Məsciddə tikinti işləri tamamilə başa çatdırılmayıb.



## DADVA MƏHƏLLƏ MƏSCİDİ [I]



## DADVA MƏHƏLLƏ MƏSCİDİ [II]



## QALADİBİ KƏND MƏSCİDİ



Məscid Masallı rayonunun Qaladibi kəndində yerləşir. Hicri-qəməri təqvimi ilə 1343-cü ildə tikilmişdir. 1993-cü ildə yerli camaat tərəfindən sökülüb yenidən inşa olunmuşdur. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi isə 20x10 metrdir.

Məscid tamamilə bişmiş kərpiclə tikilmişdir. Məscidin divarlarının iç tərəfi sementlə malalanmış və əhənglə ağardılmışdır. Döşəməsi torpaq, tavanı isə taxtadır. Günbəzin diametri 7 metr, hündürlüyü isə 10 metrdir. Günbəz fasad tərəfdən dəmir təbəqə ilə işlənmişdir. Məscidin minbəri taxtadandır. Mehrabı divarın içindədir. Məscidin iki giriş qapısı var. Qapılar taxtadandır. İbadət zalında 7 pəncərə qoyulmuşdur. Tavan taxta ilə işlənmişdir. Məscidin giriş qapılarının önündə artırmalar da tikilmişdir. Artırmaların üstü ağ dəmir təbəqə ilə işlənmişdir. Məscidin dam örtüyü dəmir təbəqə ilə örtülmüşdür. Məscid hündürlüyü 1 metr olan səki üstündə tikilmişdir.



## YOLKƏNARI MƏSCİD



Məscid Masallı-Lənkəran yolunun üstündə -sol tərəfindədir. 1996-cı ildə inşa olunub. Həyətyanı sahəsi 600 kv. metrdir. Məscidin ibadət zalı iki hissəyə bölünüb. Kişilər üçün nəzərdə tutulmuş ibadət zalının sahəsi 5x10 metr, qadınlara aid hissəsinin sahəsi 4x5 metrdir.

Divarları mişar daşı ilə hörülüb. Birmərtəbəlidir. Məscid qoşa minarə və günbəzə malikdir. Giriş qapısı vardır. Qapılar tağvari formada olub, taxtadan düzəldilmişdir. Minarələrin hündürlüyü 10 metrdir. Məscidin giriş qapılarının ön tərəfində artırmalar vardır. Artırmaların üstü ağ dəmir təbəqə ilə işlənmişdir.

Məscid Masallı rayonunun Yeddioymaq kənd sakini Hacı Əşrəf Hüseyn oğlunun başçılığı ilə yerli camaatın vəsaiti hesabına tikilmişdir.

## ƏRKİVAN KƏND MƏSCİDİ [I]



Məscid Masallı rayonunun Ərkivan kəndinin Göllü məhəlləsindədir. Bünövrəsi hicri-qəməri təqvimi ilə 1330-cu ildə qoyulub. Həyətyanı sahəsi 600 kv. metr, iç sahəsi isə 17x7 metrdir.

Ərkivan kənd məscidi bişmiş kərpiclə tikilmişdir. Həyətyanı sahəsi mişar daşı ilə hasara alınmışdır. Məscid hündürlüyü 1 metr olan səkinin üstündə yerləşmişdir. Güldəstə formasında olan günbəzi dördguşəlidir və üstü dəmir təbəqə ilə işlənmişdir. Məscidin giriş qapıları tərəfdə eyvan yerləşmişdir. Eyvanın döşəməsi beton, tavanı isə taxtadandır. Tavan düzbucaqlı formada olub, altı dəmir boru üstündə dayanmışdır. Məscidin döşəmədən tavana qədər olan hündürlüyü 5 metrdir. Döşəməsi və tavanı taxtadır. Düzbucaqlı formada olan tavan 3 taxta sütun üzərində yerləşmişdir. Məscidin əsas ibadət zalı iki hissəyə (kişilər və qadınlar şöbəsi) bölünmüşdür. İbadət zalında qoyulmuş (4 ədəd) pəncərələr tağvari formadadır. Məscidin altıpilləli minbəri taxtadandır. Mehrab divarın içindədir və hündürlüyü 3 metrdir. Məscidin memarlığı yerli üslubdadır.

## QIZILAVAR KƏND CÜMƏ MƏSCİDİ



Məscid Masallı rayonunun Qızılavar kəndində yerləşir. 1987-ci ildə kənd sakinləri Hacı Təhməz, Hacı Sadığın və digər yerli sakinlərin vəsaiti hesabına tikilmişdir. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi 20x10 metrdir.

Düzbucaqlı formaya malik olan bu məscid bişmiş kərpiclə işlənmişdir. Dam qırmızı kirəmitlə örtülüb. Güldəstə formasında olan günbəzi dördguşəlidir və üstü dəmir təbəqə ilə işlənmişdir. Tavan taxta olub düzbucaqlı formasındadır və üç dəmir boru sütun üzərində dayanmışdır. Məscidin ön tərəfində açıqşəkilli eyvan (sahəsi 18x3) yerləşmişdir. Eyvanın döşəməsi daş plitə, tavanı və dam örtüyü dəmir təbəqə ilə işlənmişdir. Məscidin iki giriş qapısı var və tağvari formadadır. Dördpilləli minbər taxtadan düzəldilib. Məscidin ibadət zalında tağvari formada dörd pəncərə vardır. Pəncərələr şəbəkələrlə bəzədilmişdir.

## QIZILAVAR KƏND MƏSCİDİ

Məscid Masallı rayonunun Qızılavar kəndinin Dəllekoba məhəlləsində yerləşir. Bu məscid 1985-ci ildə tikilib.



## ƏRKİVAN KƏND MƏSCİDİ [II]



Məscid Masallı rayonunun Ərkivan kəndinin Pelengküçə məhəllesindədir. 1996-cı ilin əvvellerində tikilməyə başlanmışdır. Tikinti hələlik başa çatmamışdır.

Həyətyanı sahəsi 90 kv.metr, iç sahəsi isə 12x8 metrdir.

Məscid bişmiş kərpic və mişar daşı ilə tikilib. Məscidin dam örtüyü qırmızı kiremitlə işlənmişdir. Həyətyanı sahəsi mişar daşı ilə hasara alınmışdır. Məscidin tavanı düzbucaqlı formada olub, iki taxta sütun üzərində dayanmışdır. Döşəmə torpaqdır. Döşəmədən tavana qədər hündürlüyü 4 metrdir. İki giriş qapısı vardır. İbadət zalında tağvari formada dörd pəncərə qoyulmuşdur. Minbər taxtadandır və beşpillelidir. Məscidin iç divarları sement məhlulu ilə suvanmış və əhənglə ağardılmışdır. İbadət zalı iki hissəyə (qadınlar və kişilər şöbəsinə) bölünmüşdür. Məscid yerli camaatın vəsaiti hesabına tikilmişdir.

Məscidin memarlıq işləri yerli üslubdadır.

## SIĞDAŞ KƏND MÜRTƏZA ƏLİ OCAĞI



Ocaq Masallı rayonunun Sığdaş kəndində yerləşir. Bu ocaq-məscidin ilkin inşa tarixi məlum deyildir. 1985-ci ildə axırıncı dəfə sökülmüş və yeni məscid tikilmişdir. İç sahəsi 108 kv.metrdir.

Ocaq hal-hazırda məscid qismindədir. Deyilənlərə görə, bu yer karvan yolunun üstündə olduğundan Əli ibn Əbu Talib nə vaxtsa buradan keçmişdir. Məscidin giriş qapısının sağ tərəfində quyu mövcuddur. Bir müddət quyunun suyu qurumuş və sonralar yenidən qazılmışdır. Ocağa Azərbaycanın müxtəlif yerlərindən ziyarətə gəlirlər. Ocaqda tarixin yaddaşını qoruyub saxlayan bəzi əlamətlər və nümunələr vardır. Bu ocaq-məscidin döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan düzbucaqlı şəkildə olub, 4 taxta sütun üzərində dayanmışdır. Minbəri taxtadan düzəldilmişdir. Divarlar bişmiş kərpicdən hörülmüşdür. Bura Sovetlər dövründə belə həmişə fealiyyət göstərmişdir.



## ƏRKİVAN KƏND MƏSCİDİ [III]

Məscid Masallı rayonunun Ərkivan kəndinin Qızılayküçə məhəllesində yerləşib. XIX əsrin axırlarında tikilmişdir. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi isə 13x6 metrdir.



Məscid bişmiş kərpiclə tikilmişdir. Dam örtüyü qırmızı kirəmitlə işlənmişdir. Güldəstə formasında olan günbəzinin üstü kirəmitlə işlənmişdir. Həyətyanı sahəsi mişar daşı ilə hasara alınmışdır. Məscid hündürlüyü 0,50 metr olan səki üstündə yerləşmişdir. Məscidin tağvari formada iki giriş qapısı vardır. Qapılar taxtadan düzəldilmişdir. Məscidə yerli sakin Məşədi Abbas Şükür oğlu tərəfindən torpaq sahəsi verilmişdir. Məscid 1991-ci ildə dövlət tərəfindən təmir edilmişdir.

Döşəməsi torpaq, tavanı isə taxtadandır. İç divarları sementlə suvanmışdır. İbadət zalı bütöv olub, bir hissəsi qadınlar üçün ayrılmışdır (sahəsi 5x3 metrdir).

Məscidin minbəri taxtadandır. Pəncərə və qapıları da taxta ilə işlənmişdir.

## LÜRƏN KƏND MƏSCİDİ

Məscid Masallı rayonunun Lürən kəndində tikilib. İnşa tarixi XIX əsrin əvvəllərinə aiddir. Həmin məscid bərbad vəziyyətə düşdüyündən 1992-ci ildə sökülüb yerində indiki məscid tikilmişdir. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi isə 9,5x17 metrdir. Döşəmədən tavana qədər hündürlüyü 5 metrdir.



Məscid əsas etibarilə qırmızı, qismən isə ağ kərpicdən tikilmişdir. Hündürlüyü 1,20 metr olan səki üstündə yerləşmişdir. Məscid yerli kənd camaatı tərəfindən inşa edilmişdir. Döşəməsi torpaq, tavanı taxtadır. Məscidin iki giriş qapısı və 6 pəncərəsi vardır. Güldəstə formasında olan günbəzinin üstündə dəmirdən aypara rəmzi qoyulmuşdur.

## QƏRİBLƏR KƏND MƏSCİDİ



Məscid Masallı rayonunun Qəriblər kəndindədir. Bünövrəsi 1989-cu ildə qoyulub. 1995-ci ildə məscid istifadəyə verilib. Həyətyanı sahəsi yoxdur. İç sahəsi 23x11 metr, hündürlüyü 5 metrdir.

Məscid kənd sakinlərinin vəsaiti hesabına tikilmişdir. Məscidin dam örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Dördguşəli günbəzi güldəstə formasındadır. Minbəri taxtadandır. Məscidin döşəməsi torpaq, tavanı taxtadır. Tavan düzbucaqlı formada olub, 3 taxta sütun üzərində dayanmışdır. Mehrabı divar içindədir və hündürlüyü 2,5 metrdir. Məscidin tağvari formada iki giriş qapısı vardır. Məscid divarlarının çöl tərəfi suvaqsız olub, iç tərəfi isə sement məhlulu ilə suvanmışdır.

## ƏRKİVAN KƏND MƏSCİDİ [IV]



Məscid Masallı rayonunun Ərkivan kəndinin Bağlaküçə məhəlləsində yerləşir. Onun ilkin tarixi çox qədimdir. Bu barədə dəqiq məlumat da yoxdur. Lakin hazırkı məscidin bünövrəsi 1988-ci ildə qoyulmuş və 1989-cu ildə tikilib başa çatdırılmışdır. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi 23x13 metr, yerdən tavana qədər hündürlüyü 6 metrdir.

Məscidin divarları bişmiş kərpiclə hasarı isə mişar daşı ilə hörülmüşdür. Məscid divarları qırmızı kərpiclə yanaşı ağ kərpiclə də işlənmişdir. Dam örtüyü qırmızı kirəmitlə döşənmişdir. Günbəz dördguşəli olub, güldəstə formasındadır. Üstü ağ dəmir təbəqə ilə düzəldilmişdir. Məscidin giriş qapılarının ön tərəfində açıq formada artırmalar işlənmişdir. Artırmalar dörd dəmir sütun üzərində dayanmışdır. Giriş qapıları taxtadan düzəldilib və tağvari formaya malikdir.

Məscidin döşəməsi daş plitələrlə, tavanı isə taxta ilə işlənmişdir. Tavan düzbucaqlı şəkildə olub, 4 sütun üzərində dayanmışdır. İç divarları qum-sementlə suvanmış və ağardılmışdır. Minbər taxtadan düzəldilib və dördpilləlidir. Mehrabı divarın içindədir və hündürlüyü 3 metrdir. Əsas ibadət zalı taxta arakəsmə ilə iki şöbəyə bölünüb: qadınlar və kişilər şöbəsi.

Məscid yerli camaat tərəfindən inşa edilmişdir.

## ÇAXIRLI KƏND MƏSCİDİ

Məscid Masallı rayonunun Çaxırlı kəndində yerləşir. Burada XIX əsrin əvvəllərində də məscid olmuşdur. Lakin XX əsrin 30-cu illərində bu məscid sökülüb dağıdılmışdır. 1995-ci ildə yerli camaatın təşəbbüsü və vəsaiti sayəsində indiki məscid tikilib istifadəyə verilmişdir. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi isə 2x10 metrdir.

Məscid bişmiş kərpiclə tikilmişdir. Dam örtüyü qırmızı kirəmitdir. Məscid hündürlüyü 1,30 metr olan səki üzərində yerləşmişdir. Döşəmə torpaq, tavan isə taxtadandır. Tavan düzbucaqlı formada olub, 3 sütun üzərində dayanmışdır. İbadət zalı iki şöbəyə-qadınlar və kişilər şöbəsinə bölünmüşdür. Məscidin pəncərələri şəbəkə və rəngli şüşələrlə işlənmişdir. Minbər taxtadandır və altıpilləlidir.

## AXUND FƏTULLA TÜRBƏSİ



Türbə Masallı rayonunun Qızılağac kəndinin qəbristanlığındadır. İnşa tarixi dəqiq məlum deyil. Lakin tikinti materiallarının qədimiliyinə görə, onun 700 illik tarixi olduğu ehtimal edilir. Türbənin iç sahəsi 3x3 metrdir.

Türbə bişmiş kərpiclə tikilmişdir. Dam örtüyü qırmızı kirəmitlə işlənmişdir. Türbə dördbucaqlı formada olub, bir qapıya və üç pəncərəyə malikdir. İçərisində qəbir və başdaşı qoyulmuşdur. Başdaşında farsca yazı vardır. Türbənin tavanı taxta, döşəməsi isə torpaqdır. Tavan düzbucaqlı formadadır.



## SULTANPİR OCAĞI



Ocaq Masallı rayonunun Qızılağac kəndinin qəbristanlığında yerləşir. İnşa tarixi dəqiq məlum deyil. Ocağın iç sahəsi 5x8 metrdir.

Ocaq düzbucaqlı formaya malikdir. Ocağın divarları taxta ilə işlənmişdir. Divarlar içəri və fasad tərəfdən suvanmışdır. Dam örtüyü kirəmit, tavanı taxta, döşəməsi torpaqdır.

Yerli camaatın söylədiyinə görə, ocağın tarixi çox qədimdir. Hətta camaat arasında ocağın necə əmələ gəlməsi haqda rəvayət də mövcuddur.

Ocağın içərisində iki qəbir var.

## ƏRKİVAN KƏND MƏSCİDİ [V]



Məscid Masallı rayonunun Ərkivan kəndinin Zeynioba məhəlləsindədir. 1990-cı ildə inşa edilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi isə 16x8 metrdir.

Ərkivan kənd məscidi bişmiş kərpiclə inşa edilmişdir. Dam örtüyü qırmızı kirəmitlə işlənmişdir. Günbəzi güldəstə formasındadır və dördguşəlidir. Günbəzin üstü dəmir təbəqə ilə işlənmişdir. Məscidin qapıları və pəncərələri tağvari formadadır. Döşəmə torpaq, tavan isə taxtadandır. Düzbucaqlı formalı tavan 8 dəmir boru sütun üzərində dayanmışdır. Məscidin pəncərələri şəbəkə ilə işlənmişdir.

Məscid yerli sakinlər tərəfindən tikilib.

## MUSAKÜÇƏ KƏND MƏSCİDİ



Məscid Masallı rayonunun Musaküçə kəndində yerləşir. XIX əsrin axırlarında tikilmişdir. 1995-ci ildə yerli camaat tərəfindən təmir edilmiş və dam örtüyü yenidən işlənmişdir. Məscidin həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 14x7 metrdir.

Məscid bişmiş kərpiclə tikilmişdir. Damının örtüyü qırmızı kirəmitlə işlənmişdir. Məscid hündürlüyü 1 metr olan səkinin üstündə yerləşmişdir. Memarlığı ənənəvi yerli üslubdadır. Məscidin ön tərəfində açıqşəkilli eyvan tikilmişdir. Eyvanın (sahəsi 5x14 metr) döşəməsi beton, tavanı və damının örtüyü dəmir təbəqədəndir.

Məscidin tağvari formada 3 giriş qapısı vardır. Döşəməsi beton, tavanı isə taxtadır. Tavan düzbucaqlı formada olub, dörd şalban sütun üzərində dayanmışdır. Məscidin minbəri də taxtadan düzəldilmişdir. Tağvari formalı mehrabı divarın içindədir. Mehrabın hündürlüyü iki metrdir.

## ƏRKİVAN KƏND ŞEYX SƏFİ OCAĞI



Ocaq Masallı rayonunun Ərkivan kəndinin Miyandi məhəlləsində yerləşir. Yerli camaatın dediyinə görə, bu ocağın tarixi XII əsrə gedib çıxır.

Deyilənlərə görə, ocaq Şeyx Səfinin Dağıstana yürüşü zamanı təşəkkül tapmışdır. Yerli camaat buranı müqəddəs bir ocaq kimi qəbul edir. Ocağın içərisində quyu, ələm və qara daş mövcuddur. Ocaqda hal-hazırda bərpa işləri gedir.

## QIZILAĞAC KƏND MƏSCİDİ



Məscid Masallı rayonunun Qızılağac kəndində inşa olunub. İnşa tarixi XVI əsrə aid edilir. 1990-cı ildə yerli camaat tərəfindən sökülüb və yerində hazırkı məscid tikilib. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 24x9 metrdir.

Məscid başdan-başa bişmiş kərpiclə tikilib. Məscidin minbəri taxtadandır və üçpilləlidir. Döşəməsi qırmızı kərpic, tavanı taxtadır. Tavan düzbucaqlı formadadır və 5 taxta sütun üstündə dayanıb. Məscidin iç və fasad divarları suvanıb. Mehrabı divarın içindədir. Məscidin üç giriş qapısı və beş pəncərəsi var. Qapı və pəncərələr tağvari formadadır. Pəncərələr şəbəkə və rəngli şüşələrlə işlənib. Hazırkı məscidin yerində olan köhnə məscid Sovet dövründə taxıl və tərəvəz anbarı kimi istifadə olunub. Bu da məscidin bərbad vəziyyətə düşməsinə gətirib çıxarıb. Odur ki, 1990-cı ildə sökülüb yenidən inşa edilib. Damının örtüyü qırmızı kirəmitdəndir. Güldəstə formasında olan günbəzi dördguşəlidir. Məscid 1,5 metr hündürlüyündə olan səki üstündə yerləşib.

Məscidin həyətində vaxtilə mədrəsə olub. Lakin həmin mədrəsə binası 1934-cü ildə sökülüb. Buna baxmayaraq, 1994-cü ildə həmin yerdə yerli sakin Hacı Həsənağa Hüseynpaşa oğlunun şəxsi vəsaiti hesabına yeni mədrəsə binası tikilib.

## ƏRKİVAN KƏND MƏSCİDİ [VI]



Məscid Masallı rayonunun Ərkivan kəndinin Həsənə məhəlləsindədir. 1990-cı ildə bünövrəsi qoyulub. Hal-hazırda tikinti işləri başa çatmaq üzrədir. Həyətyanı sahəsi 3500 kv.metrdir. İç sahəsi isə 3,5x20 metrdir.

Məscid bişmiş kərpiclə tikilib. Döşəməsi torpaq, tavanı isə taxtadır. Məscid düzbucaqlı formadadır. Tavanı da düzbucaqlı formada olub, üç taxta sütun üzərində dayanıb. Məscidin iç divarları qum-sementlə suvanıb. Minbəri altıpilləlidir, taxtadandır və çox nəfis şəkildə işlənib. İbadət zalı iki şöbəyə bölünüb. İki giriş qapısı var. Onlar tağvari formada olub, taxtadan düzəldilib. İbadət zalında 8 tağvari pəncərə qoyulub. Mehrab divarın içində olub, ölçüsü 2 metrdir. Dam örtüyü qırmızı kirəmitlə işlənib. Günbəzi güldəstə formasındadır.

Məscid yerli məhəllə camaatı tərəfindən tikilib. Məscidin mollası Hacı Həsən Şeyx Bəkir oğlu tikintinin başa çatdırılmasında fəal iştirak edib.



## BORADİGAH KƏND MƏSCİDİ



Məscid Masallı rayonunun Boradigah kəndindədir. 1853-54-cü illərdə inşa edilib. 1990-cı ildə məscidin dam örtüyü yenidən işlənib. Bu zaman təmir-bərpa işləri dövlət tərəfindən yerinə yetirilib. 1997-ci ildə yerli camaatın vəsaiti hesabına burada yenidən təmir işləri aparılıb. Həyətyanı sahəsi 24x6 metr, iç sahəsi isə 22x8 metrdir.

Məscid kəndin mərkəzi hissəsində yerləşib. Sovetlər dövründə taxıl anbarı qismində istifadə edilib. 1989-cu ildə məscidin bu cür təyinatına son qoyulub. Tavanı taxta, döşəməsi torpaqdır. Yerdən tavana qədər olan hündürlüyü 4,5 metrdir. Tavan düzbucaqlı formada olub, 5 taxta sütun üzərində dayanıb. Məscidin mehrabı divarın içindədir və hündürlüyü 3,5 metrdir. Minbər taxtadan olub, dördpilləlidir. Məscidin iki giriş qapısı var. Onlar taxtadan düzəldilib və tağvari formaya malikdir. Divarlar bişmiş kərpiclə hörülüb. Tavan qəhvəyi rənglə işlənib.

İbadət zalı taxta arakəsmə ilə iki hissəyə bölünüb: qadınlar və kişilər şöbəsi. Məscidin iç divarları döşəmədən 1 metr hündürlükdə taxta ilə işlənib. Pəncərələri şəbəkə və rəngli şüşələrlə bəzədilib.

## GƏYƏÇÖL KƏND MƏSCİDİ (I)



Məscid Masallı rayonunun Gəyəçöl kəndində yerləşib. Bişmiş kərpiclə işlənmiş və formaca düzbucaqlı olan bu məscidin damının örtüyü qırmızı kirəmitlə işlənib. Günbəzi güldəstə formasında olub, üstü ağ dəmir təbəqə ilə örtülüb. Günbəzin üstündə aypara və beşguşəli ulduz qoyulub. Məscidin həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 22x6 metrdir. Məscidin hündürlüyü 4 metr olub, minbəri taxtadandır və beşpilləlidir. Mehrabı divarın içərisindədir. Məscidin minarəsi yoxdur.

Bu məscid 1989-cu ildə yerli camaat tərəfindən tikilib.

## GƏYƏÇÖL KƏND MƏSCİDİ (II)



Bu məscid də Masallının Gəyəçöl kəndinin Aşağıbaş məhəlləsində yerləşib. Həyətyanı sahəsi 250 kv.metr, iç sahəsi isə 6x15 metrdir. Məscidin hündürlüyü 3,5 metr olub, divarları bişmiş kərpiclə tikilib. Məscidin minarəsi və minbəri yoxdur. Mehrabı parabola formasındadır.

Hündürlüyü 1 metr olan səkinin üstündə tikilmiş bu məscid yerli kənd camaatı tərəfindən 1990-cı ildə istifadəyə verilib. Mollası Qüdrət Qardaşxan oğludur.

# MİNGƏÇEVİR ŞƏHƏR MƏSCİDLƏRİ

## MİNGƏÇEVİR ŞƏHƏR HEYDƏR MƏSCİDİ



Məscid Mingəçevir şəhərinin mərkəzindədir. Həyətyanı sahəsi 4000 kv.metrdir.

Məscidin həyətyanı sahəsi daş hasara alınıb. Məscid böyük günbəzə və qoşa minarəyə malikdir. İbadət zalı iç və fasad tərəfdən ağ mərmərlə üzlənib. Minarələr dəmir borudan olub, dəyirmi formadadır. Məscidin giriş qapısının ön tərəfində yerləşmiş eyvan 3 tağdan ibarətdir. Günbəz ağ dəmir təbəqə ilə işlənib. Günbəzin üstündə dəmirdən ərəb əlifbası ilə "Allah" kəlməsi yazılıb.

## MİNGƏÇEVİR KƏND MƏSCİDİ



Mingəçevir şəhərinin yaxınlığındakı Mingəçevir kəndində yerləşən məscid 1990-cı ildə inşa olunub.

Formaca dördbucaqlı olan bu məscidin dam örtüyü şiferdəndir. İki giriş qapısı var. Döşəməsi və tavanı taxtadandır. Məscidin divarları içəridən qum-sementlə suvanıb və açıq-göy rənglə işlənib. İbadət zalı birdir. Burada 3 ədəd düzbucaqlı formada pəncərə qoyulub. Minarə dəyirmi formada olub, hündürlüyü 10 metrdir. Minarənin qübbəsi ağ dəmir təbəqə ilə işlənmiş və üstündə aypara və 5 guşəli ulduz rəmzi qoyulub. Məscidin həyətyanı sahəsi asfaltla döşənib.



# NAXÇIVAN M.R MƏSCİDLƏRİ

## NAXÇIVAN ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Naxçıvan şəhər Cümə məscidi şəhərin mərkəzində, Nizami küçəsi 4-də yerləşib. Məscidin iç saheci 736 kv. metr, ümumi sahəsi isə 6324 kv.metrdir. Minarəsinin hündürlüyü 25 metr olub, 55 pillelidir. Məscid 1960-cı illərdə bişmiş kərpiclə üzlənmişdir. Məscidin axundu Hacı Sultan Məhəmməd oğlunun verdiyi məlumata görə, bu məscidin 400 ilə yaxın tarixi var.

Şeyx Nazim, Mir Abdulla, Molla Məhəmməd, Molla Ələsgər, Şeyx Rza, Şeyx Hüseyn bu məscidin əvvəlki axundları olmuşlar. Məsciddə eyni zamanda 500 möminin ibadət etməsi mümkündür. Məscidin üstündə heç bir kitabə yoxdur. Minarəsi isə dairəvi formada olub, tək şərəfəyə malikdir. Sovetlər dövründə cəmisi 2 il- 1946-47-ci illərdə bağlı qalmışdır.

Məscidin minarəsi tamamilə bişmiş kərpicdəndir. Minarənin günbəzi taxta və dəmir təbəqədəndir.

1995-ci ildən etibarən məscidin həyətində axundun şəxsi təşəbbüsü ilə ikimərtəbəli mədrəsə binası da tikilir. Mədrəsə binası 4 dərs otağı, yataqxana, yeməkxana və zaldan ibarətdir.

Naxçıvan Cümə məscidinin sərlövhəsindəki yazıya görə bu məscid 100 il bundan əvvəl tikilmişdir. Məscid Hüseyn Təbrizi qardaşları tərəfindən tikilib başa çatdırılmışdır.

## İMAMZADƏ KOMPLEKSİ



Kompleks Naxçıvan şəhəri Dəmiryol vağzalının yaxınlığındadır.

Buranın çox qədim tarixi vardır. 1984-87-ci ilədək əczaxana kimi istifadə olunub. 1988-ci ildən etibarən burada Fatma Səfərəlı qızının təşəbbüsü ilə bərpa işləri aparılıb. Hal-hazırda bura qəbir-ziyarətgah kimi, habelə dini tədbirlər keçirmək üçün istifadə olunur. Şəhərdə yaşayan ayrı-ayrı insanlar özlərinin nəzərdə tutduqları məclisləri də burada keçirirlər: ehsanlar verilir, kimsəsizlərə yardımlar edilir.

Qəbir İmam Rzanın (səkkizinci imamın) nəvəsi Seyid Səffanın qəbridir. Kompleksin giriş hissəsi böyük zaldan ibarətdir. Buradakı günbəz göy rəngdə olub, dörd yarımçıq günbəzdən və bir əsas günbəzdən təşkil edilmişdir. Əsas zalda on taxça vardır.

Sərdabə imamzadədən bir qədər aralıda yerləşib. O qədər də böyük ölçüyə malik olmayan bu abidə bişmiş kərpiclə işlənmişdir. Aşağı hissəsi düzbucaqlı, yuxarı hissəsi isə günbəz şəkillidir.

Hazırda kompleks-abidədə təmir-bərpa işləri aparılır.

## PİRQƏMİŞ MƏSCİDİ



Məscid Naxçıvan şəhərindədir. Ümumi həyətyanı sahəsi 3000 kv.metr, iç sahəsi isə 22x22 metrdir. Pirqəmiş məscidinin ilkin variantı palçıqdan tikilib. Müharibə illərində burada əsgərlər qalıb. Sonralar bina hamam kimi istifadə olunub. Hal-hazırda məsciddə rekonstruksiya işləri aparılır. Məscid İrandan gətirilmiş bişmiş kərpicdən inşa edilib. Forma etibarilə düzbucaqlı şəkildə olan məscid binası iki mərtəbədən ibarətdir. Döşəmədən günbəzədək hündürlüyü 13 metr, məscidin minarəsinin hündürlüyü isə 18 metrdir.

Pirqəmiş məscidindəki rekonstruksiya işləri 1996-cı ildən başlanıb və hal-hazırda başa çatıb. Şəhərin mərkəzində ucaldılan bu məscid öz zahiri görkəmi ilə adamı heyran edir. Onun tikintisində kərpic tikililərinin üslubundan böyük məharət və bacarıqla istifadə edilib.

## XANAĞA KƏND PİRİ



Məqbərə XIII əsrə aid olunur. Abidə yerli kərpicdən tikilib. Onun damında altı dairəvi və bir sivriuclu günbəz vardır. Abidə iki böyük otaqdan ibarətdir. Əsas otaqda qəbir yerləşib. Abidənin hündürlüyü 8 metrdir. Onun dörd küncündə yarımgünbəzlər, ortasında isə əsas günbəz var. Qəbrin yanında və əks tərəfdə iki kitabə həkk edilib. İkinci otaqda on iki böyük sütun var. Sütun tağlar vasitəsilə bir-biri ilə əlaqələnib.

## KAZIM QARA BƏKİR PAŞA CAMİSİ



Məscid Naxçıvan şəhərində 57-ci bazarla üzbəüz yerləşib. 1997-ci ildə əsası qoyulan bu məscid oktyabr 1999-cu ildə Azərbaycan prezidenti Heydər Əliyev və Türkiyənin dini və siyasi dairələrinin, habelə bəzi təşkilatlarının iştirakı ilə rəsmi olaraq açılıb.

Mövqeyi baxımından məscid şəhərin ən yaxşı və izdihamlı nöqtələrindən birində yerləşib: bazara yaxın olmaqla yanaşı, magistral yolun kənarındadır.

Kazım Qara Bəkir Camisi Osmanlı memarlığı üslubunda inşa olunub. Bir günbəz və iki uca minarəyə malikdir. Məscidin tikintisinə təqribən 1 milyon dollar sərf olunub. İbadət zalında eyni zamanda 250 mömin ibadət edə bilər. Məscidin divarlarının tikintisində mişar daşı, ağ və qırmızı mərmərdən istifadə olunub.

Kazım Qara Bəkir Cümə məscidində konfrans, toplantı keçirilməsi üçün yeraltı salon, qəbul otağı, dini dərslər keçmək üçün otaqlar (amfiteatr şəklində) və bir çox şəraitlər vardır. Burada ibadət və rahatlıq üçün bütün şərait var. Məscidin mehrabı ağ və qırmızı mərmərlə işlənib. Ətrafında "Ayətül-kürsi"nin birinci ayəsi həkk olunub. Mehrabın sol tərəfində minbər yerləşib.

## HƏZRƏTİ-ZƏHRA (Ə) MƏSCİDİ



Məscid Naxçıvan şəhərinin mərkəzində, məhkəmə binasının qonşuluğundadır. 29 avqust 1992-ci ildə Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin İrana səfəri zamanı ölkənin dini rəhbəri Ayətulla Xameneyi ilə qarşılıqlı razılaşma əsasında məscidin tikilməsi planlaşdırılıb. Elə həmin il məscidin bünövrəsi qoyulmuş və 1999-cu ildə İmam Xomeyninin anadan olmasının 100 illiyi münasibətilə hər iki ölkənin rəhbərlərinin iştirakı ilə rəsmi olaraq açılıb.

Həzrəti-Zəhra (ə) məscidinə aid ümumi sahə 6000 kv.metr, daxili sahəsi isə 3300 kv.metrdir. Binanın tikintisi üçün səkkiz yüz milyon tüməndən çox vəsait xərclənib. Tikinti İran memarlığı üslubunda həyata keçirilib. Mehrabın ətrafı xüsusi kaşı ilə işlənmiş və süls xəttilə "Nur" ayəsi yazılmışdır. Məscidə Maku ostandarı tərəfindən beşpilləli minbər də hədiyyə olunub. Məscidin pəncərələri dəmirdən, qapıları isə taxtadan işlənib.

Həzrəti-Zəhra (ə) məscidinin ikinci mərtəbəsində geniş mehmanxana yerləşib. Burada iki mətbəx, dörd böyük otaq da var.

Günbəz və dördguşəli qoşa minarə məscidə xüsusi təmtəraq verir. Günbəzin altında şüşənin içinə on iki imamın adı və kaşı ilə "Cümə" surəsi yazılıb və ornamentlərlə işlənib. Məscidin əsas zalında iri (ağırlığı təxminən 1 ton olan) çılçıraq asılıb. Bundan başqa, digər otaqlarda da səkkiz kiçik çılçıraq asılıb. Döşəmə mərmərlə işlənmiş və üstü fərşlə örtülmüşdür. Məsciddə ibadət və rahatlıq üçün bütün lazımi şərait var.



## MÖMÜNƏ XATUN TÜRBƏSİ



Bu türbə 1186-1187-ci il tarixinə məxsus tarixi bir abidədir. Yurdumuzun qədim və ulu diyarı sayılan Naxçıvan Şərqin gözəli hesab edilir Naxçıvan sözünün mənası haqqında müxtəlif fikirlər mövcuddur. Bəziləri bu adın mənasını Nuhun gəmisi ilə əlaqələndirirlər. Yəni "ilk dayanacaq", yaxud da insanların "ilk köç yeri" olduğunu göstərirlər. Əfsanələrdə Naxçıvan bəşəriyyətin beşiyi kimi təsvir edilir. Naxçıvan XI əsrdə Naxçıvan şahlığının, XII-ci əsrdə isə Eldəgizlər dövlətinin paytaxtı olmuşdur. Naxçıvanda mövcud olan abidələrin əksəriyyəti də məhz Eldəgizlər dövlətinin yaşadığı dövrdən yadigardır.

Qızıl Arslandan sonra Eldəgizlər dövlətinin hakimi Məhəmməd Cahan Pəhləvan (Atabəy Şəmsəddin Eldəgizin oğlu) oldu. Zahidə Xatun Məhəmməd Cahan Pəhləvanın hərəmi və Nüsrətdin Əbubəkrin anasıdır. Bu bacarıqlı qadın dövrünün tanınmış şəxsiyyətlərindən olub. O, əsasən Naxçıvanda yaşamış və Azərbaycanın bu vilayətini idarə etmişdir. Hörmət və ehtiram əlaməti olaraq ona Mömünə Xatun deyə müraciət edirmişlər. O, vəfat etdikdən sonra Naxçıvanda dəfn olundu və onun şərəfinə burada əzəmətli türbə inşa edilmişdir. Türbənin üzərindəki kitabədə bir məlumat da verilir ki, Məhəmməd Cahan Pəhləvan vəfat etdikdən sonra o da həmin türbədə dəfn olunmuşdur. Anaya, Azərbaycan qadınının ləyaqət və şərəfinə ucaldılmış Mömünə Xatun türbəsi (memarı Əcəmi Naxçıvani) öz möhtəşəm görünüşü ilə bu gün də hamını heyrətdə qoymaqdadır.



Türbənin günbəz hissəsində, oynaq tağlarında, xalça süslü divarlarında kitabələr həkk edilmişdir. Onun ən yuxarı hissəsində iki misralıq şer həkk olunmuşdur:

"Biz gedirik, ancaq qalır ruzigar,
Biz ölürük, əsər qalır yadigar!"

Naxçıvanın tarixi şəhər mərkəzi olan böyük Atabəylər memarlıq ansanblından indiyə yalnız Mömünə Xatun türbəsi salamat qalmışdır. El yaddaşında "Atabəy günbəzi" adı ilə tanınan bu nadir memarlıq əsərinin uca gövdəsinin yuxarı hissəsindəki baş kitabədə yazılmışdır:

"... bu türbəni dunyanın elmli adamı, məliki, böyük qalib Şəmsəddin Nüsrət əl-islam və əl-müslimin Cahan Pəhləvan atabəy Əbu Cəfər Məhəmməd ibn Atabəy Eldəgiz dünyanın və dinin cəlalı, İslamın və müsəlmanların namusu Mömünə Xatunun xatirəsinə tikməyi əmr etdi! ..."

Bu türbə Yusif Küseyir oğlu türbəsindən 26 il sonra ücaldılmışdır. Türbənin sərdabəsi 10 bucaqlıdır. Türbənin hündürlüyü 25 metrdir. İlkin halında onun hündürlüyü 35 metrəyə çatırmış. Qüllənin düzbucaqlı formalı giriş qapısının üstündə kərpicdən küfi xətti ilə "bənna Əcəmi Əbubəkr oğlu Naxçıvaninin əməli" kitabəsi həkk olunmuşdur. Həmin abidənin tayı İranın Culfa şəhərinin Duzal kəndində tikilmişdir. Burada Həzrət İmam Musa Kazim (ə)ın neslindən olan Həzrət Şueyb dəfn edilmişdir.

## NÜSNÜS KƏNDİ "QARA KİMSƏNƏ" PİR-MƏSCİDİ



Pir-məscid çaydan 200 metr yuxarıda yerləşib. Binanın birinci mərtəbəsində pir, ikinci mərtəbəsində isə məsciddir.

Pirin ikinci mərtəbəsində yerləşən məscid iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir. Kişilər şöbəsinin sahəsi 7x16 m, qadınlar şöbəsi isə 5x16 metrdir. İkinci mərtəbənin yuxarı tərəfində 6 ədəd gözlük, nisbətən aşağı tərəfində isə 7 ədəd pəncərə qoyulub. Məscidin divarlarında ərəb dilində Quran ayələri yazılıb.

Pirdəki taxta qapının üstündə bu sözlər yazılıb: "Bu məscid İslam padşahı Əbu Səid Bahadur xanın səltənəti günlərində uca Tanrıya möhtac olan zəif qul və katib Fəzlullah ibn Sədr ibn Arslan ibn Səncər ibn Atabəyin qoruyucusu Aytəkinin əli ilə tikilib. 726-cı il(miladi tarixi ilə 1325-26)".

## YUSİF KÜSEYİR OĞLU TÜRBƏSİ





Atabəylər dövründə Naxçıvanın coşğun memarlıq inkişafı xatirə tikililərinin kəmiyyət və keyfiyyətində də əks olunub. Bu çoxsaylı, yüksək memarlıq həlli olan tikililərdən biri-el dilində "Ata baba günbəzi", elmi ədəbiyyatda "Yusif Küseyir oğlu" türbəsi adı ilə tanınan gözəl bir memarlıq əsəri şahid kimi indi Naxçıvanın mərkəzində yüksəlir.

Yusif Küseyir oğlu türbəsinin qapısı üstündəki kitabədə bildirilir: "Bu türbə xacə, adlı-sanlı rəis, dinin zəkası, islamın camalı, şeyxlər başçısı Yusif Küseyir oğlunundur". Həmin kitabədə isə (ərəbcə) "Bənna Əcəmi Əbubəkir oğlu Naxçıvaninin əsəri" məlumatı qeyd olunub.

Yusif Küseyir oğlu türbəsi ikiqatlı olub, hər iki qatı səkkizbucaqlı biçimdədir. Sərdabə yer altına salındığından türbə bayırdan birqatlı qüllə kimi görünür. Bu türbə ilk baxışdan tutumunun həndəsi təmizliyi, nisbətlərinin incəliyi və harmonik gözəlliyi ilə yadda qalır.

Bütün türbə bişmiş kərpicdən olması və yüksək tikinti mexanikası ilə seçilir. Yüksək mühəndis həllinin nəticəsidir ki, Yusif Küseyir oğlu türbəsi Azərbaycanın qüllevari türbələri içərisində üst piramidal örtüyü 800 ildən artıq bir müddətdə salamat qalan tək abidədir.

Yusif Küseyir oğlu türbəsinin interyeri bəzədilməyib. Onun bayır taxçalarının içərisi isə kərpicdən yığılmış sıx həndəsi naxış hörmələri ilə üzlənib.

Memar türbənin şimal tərəfinə baştağ kompozisiyası vermiş və onda yerüstü qülləyə giriş qapısı yerləşdirmişdir.

Yusif Küseyir oğlu türbəsinin həm əsas tikintisi, həm də bəzək hörgüsü bir materialla-keyfiyyətli bişmiş kərpiclə işlənib. Bu da abidənin aydın və təmiz həndəsi biçiminin bütövlüyünü gücləndirir, ona vahid, ifadəli qırmızımtıl kalorit verir. Abidənin hündürlüyü 5,2 metrdir.

## XƏDİCEYİ-KÜBRA PİRİ



Pir Naxçıvanda yerləşib. Xədiceyi-Kübra seyid qızı olub və burada yaşayıb. Sonradan bu yerdə pir tikilib. (1995-1997). Abidə səkkizguşəli olub, yuxarı hissəsi də səkkizguşəli günbəzlə tamamlanıb. Günbəz sivriucludur. Abidənin iç hissəsində qəbir yerləşib. Abidənin giriş qapısının yuxarısında "Xədiceyi-Kübra" sözləri latın əlifbası ilə qeyd olunub. Pirin hündürlüyü 9 metrdir.



## CAVİDABAD KƏND İMAM RZA MƏSCİDİ



Məscid Babək rayonunun Cavidabad kəndindədir. İnşa tarixi 1989-cu ilə aid edilir. Ümumi həyətyanı sahəsi 2000 kv.metr, iç sahəsi isə 40x20 metrdir.

Cavidabad kənd İmam Rza məscidi iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə kişilər üçün əsas ibadət zalı, ikinci mərtəbədə isə qadınlar şöbəsi yerləşib. Məsciddə eyni zamanda min nəfər mömin ibadət edə bilər. Məscidin minarəsinin hündürlüyü 13 metrdir. Minarənin yuxarısı dəmir təbəqə ilə örtülüb və üstündə aypara rəmzi qoyulub.

Cavidabad kənd İmam Rza məscidinin nəzdində mədrəsə də fəaliyyət göstərir. Mədrəsə 1993-cü ildə rəsmi qeydiyyatdan keçib.

Cavidabad kənd İmam Rza məscidinin tikintisinə sərf olunan vəsait yerli kənd əhalisi və İran İslam Respublikasının Naxçıvan şəhərindəki konsulluğu tərəfindən təmin olunub. Hələ də bəzi inşaat işləri davam etdirilir.

## SEYİD AQİL İMAMZADƏSİ



İmamzadə-məscid Babək rayonunun Nehrəm kəndində inşa olunub.

XIII əsrə aid olan bu abidə 1995-ci ildə xeyriyyəçi Hacı İbrahim tərəfindən bərpa və təmir olunub. Bu zaman iki minarə də tikilib. İmamzadənin sağ tərəfində ərəb əlifbası ilə "Allah", "Məhəmməd", "Əli" sözləri yazılıb. Fasad tərəfdən imamzadənin ən yuxarı hissəsində on iki imamın adları yazılıb. Günbəz kərpicdəndir. İmamzadə bişmiş kərpiclə işlənib. Minarələrinin hündürlüyü 20 metrdir.

Seyid Aqil İmamzadəsinin içərisində Seyid Aqilin qəbri yerləşib. Seyid Aqil İmam Museyi-Kazımın oğludur. İmamzadənin yerdən günbəzədək hündürlüyü 10 metrdir. Abidənin yuxarı hissəsində dörd kiçik (şəbəkəli) pəncərə var. İmamzadənin mehrabı və habelə bütünlüklə özü gecə işlənib və üzərində kərpic formasında müxtəlif rənglər çəkilib. Bütün divarlar və günbəz güzgü ilə işlənib. Mehrabın yuxarısında sağ və sol tərəfdə dişi və erkək şir şəkli var. Ortada isə kitabə həkk olunub. Təəssüf ki, həmin kitabənin üzərindəki yazı sonradan pozulub.

## NEHRƏM KƏND HÜSEYNİYYƏ MƏSCİDİ (I)



Məscid Babək rayonunun Nehrəm kəndindədir.

Bu məscid xeyriyyəçi Hacı İbrahim tərəfindən tikdirilib. Məscid iki mərtəbədən ibarətdir. Birinci mərtəbədə 14, ikinci mərtəbədə 16 pəncərə qoyulub. Bütünlükdə məscid kişilər və qadınlar şöbəsinə ayrılıb. Məscidin günbəz və minarəsi də var. Minarənin hündürlüyü 14 metrdir. Həm günbəz, həm də minarənin üstündə aypara rəmzi qoyulub.

Nehrəm kənd Hüseyniyyə məscidinin tikintisində istifadə olunan bişmiş kərpic İrandan gətirilib. Məscidin yerdən tavana qədər hündürlüyü 6 metr, yerdən günbəzə qədər isə 8 metrdir.

## NEHRƏM KƏND CÜMƏ MƏSCİDİ




Məscid Babək rayonunun Nehrəm kəndində tikilib. İnşa tarixi hicri-qəməri ilə 1310-cu ildir. Kişilər şöbəsinin sahəsi 12x12 metrdir.

Nehrəm Cümə məscidinin ibadət zalı iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir. İçəridə on beş sütun vardır. Sütun tağlarla bir-birinə bitişib. Məscidin hündürlüyü 5,5 metrdir.

Nehrəm Cümə məscidində cümə günləri ibadət edənlərin sayı xüsusilə çox olur. Xalq arasında bu məscidə Hacı Mehdi məscidi də deyilir. Hacı Mehdi vaxtilə bu məsciddə mollalıq edib və repressiya illərinin qurbanı olub.

Son illərdə məsciddə təmir işləri aparılıb.

## NEHRƏM KƏND GÜLLÜ MƏSCİDİ



Məscid Babək rayonunun Nehrəm kəndində tikilib. İnşa tarixi hicri-qəməri təqviminə əsasən 1312-ci ilə aid olunur. Ümumi sahəsi 20x12 metrdir.

Kəndin mərkəzi hissəsində yerləşən bu məscid kərpicdən tikilib. Məscidin minarəsi isə 1992-ci ildə ucaldılıb. Minarə dəmirdəndir və hündürlüyü 13 metrdir.

Nehrəm kənd Güllü məscidi kvadrat şəklinə malikdir. Damı şiferlə örtülüb. İnteryer müxtəlif güllü ornamentlərlə işləndiyindən bu məscidə "Güllü məscid" deyirlər. Məscid başdan-başa həndəsi ornamentlərlə bəzədilib. Məscid iki hissəyə-kişilər və qadınlar şöbəsinə bölünüb. Burada 300 adam eyni zamanda ibadət edə bilər.

## İKİNCİ HÜSEYNİYYƏ MƏSCİDİ



Məscid Babək rayonunun Nehrəm kəndində inşa edilib. Bünövrəsi 1994-cü ildə qoyulub. Sahəsi 14x14 metrdir.

Bu məscid xeyriyyəçi Hacı İbrahim tərəfindən tikilib. Məscidin əsas zalının hündürlüyü 6.5 metrdir. Məscidin günbəz və minarəsi (hündürlüyü 11 metr) də var.



## MƏMMƏDRZABƏY KƏND MƏSCİDİ



Məscid Babək rayonunun Məmmədrzabəy kəndində yerləşir. İnşa edildiyi tarix 1994-cü ilə aiddir. İç sahəsi 160 kv.metr, həyətyanı sahəsi 3000 kv.metrdir.

Məmmədrzabəy kənd məscidi düzbucaqlı formadadır və divarları çay daşları ilə tikilib. İçəri hissə gəclə suvanıb. Fasad tərəfi iran kərpici ilə işlənib. Məscid birmərtəbəli olub, səkkiz azbest sütun üzərində dayanıb. Döşəmədən tavana qədər 4,5 metr, günbəzə qədər isə 7 metrdir. Günbəz dairəvi formadadır və onda səkkiz gözlük qoyulub. Döşəmə torpaq, tavan isə betondandır. Dam dəmir təbəqə ilə örtülüb. İbadət zalında altı taxta pəncərə var. Məscidin kişilər üçün ibadət zalının sahəsi 100 kv.metr, qadınlar üçün isə 60 kv.metrdir.

Məmmədrzabəy kənd məscidi camaatın vəsaiti ilə tikilib.

Vaxtilə də burada məscid olub. Həmin məscid sonralar uçub-dağılıb və beləliklə, indiki məscidi inşa etmək zərurəti yaranıb.

## QAHAB KƏND MƏSCİDİ



Məscid Babək rayonunun Qahab kəndindədir. Bünövrəsi XX əsrin əvvəllərində qoyulub. İç sahəsi 16x16 metrdir.

Qahab kənd məscidi kvadrat şəklindədir. Divarlar çaylaq daşından hörülüb. Məscid iki mərtəbədən ibarətdir. Birinci mərtəbə kişilər üçün, ikinci mərtəbə isə qadınlar üçün nəzərdə tutulub. Minarənin hündürlüyü 13,5 metrdir. Tavan dəmirdəndir və 9 dəmir sütun üzərində dayanıb. Döşəmə gəclə işlənib. Damın örtüyü də dəmirdəndir.

Qahab kənd məscidinin əsas binasının ətrafında bişmiş kərpicdən əlavə otaqlar tikilib.

## ƏSHABİ-KƏHF



Ocaq Naxçıvanın Babək rayonunda yerləşir.

Bu tarixi abidə eramızdan əvvəl VII əsrə aid olunur. Deyilənə görə, qədim zamanlarda Ağrı dağı ilə İlanlı dağ arasında yerləşmiş bir şəhərdə Dağ-Yunis (Deqyanus) adlı hökmdar yaşayırmış. Çox zalım və qaniçən, həm də tədbirli imiş. Onun Təmleyxa adlı bir veziri var idi. Hökmdarın həddən artıq zülümkarlığı və özünü tanrı hesab etməsi veziri bərk narahat edirmiş. Bir gün o, bu hisslərini dostlarına danışır.

Nəhayət, gecələrin birində bu altı nəfər "biz həqiqi Tanrımızı axtarırıq" - deyə sarayı tərk edirlər. Yolda onlar bir çobanla rastlaşırlar. Çoban da onlara qoşulur. Bir azdan sonra qarşılarına it çıxır. Onlar itin hürəcəyini və beləliklə də onların yerlərinin məlum olacağından qorxaraq, iti vurub ayağını qırırlar. Bir qədər sonra yaralı it ölür və onlar iti basdırıb azca dincəlirlər.



Səhərçağı sarayda hay-küy qopur və onları axtarmağa başlayırlar. Axtaranlar bu yeddi nəfərin olduğu yerə gəlib çıxsalar da, parçalanmış qayaların qarşısında böyük bir hörümçək yuvası görüb, burada heç kəsin olmadığını zənn edirlər. Yuxudan ayılmış yolçular çox ac olduqlarından, onlardan biri yaxınlıqdakı Naxçıvan şəhərinə yollanır. Şəhərdə çörəkçiyə pul verəndə çörəkçi: "Köhnə pulu verib, məni aldatmaq istəyirsən. Bu 300 il əvvəlin puludur. Üstündə Dağ-Yunisin (Deqyanus) şəkli var"- deyir. Yolçu dostlarının yanına qayıdıb, əhvalatı olduğu kimi danışır. Onlar Allaha üz tutub, qeyb olmalarını istəyirlər. Dağ ortadan ayrılır və yeddi yoldaş yoxa çıxır. O zamandan bu yer "Əshabi-kəhf" adlanır.

İndi insanlar bu yeri ziyarət edir, qurbanlar kəsir. Müqəddəs kitabımız Qurani-Kərimin bir neçə surəsində lə bu yerin adı çəkilir.

## SİRAB KƏND BƏYDİLLİ MƏSCİDİ

Babək rayonunun Sirab kəndində yerləşən bu məscidin bünövrəsi XIX əsrin axırlarında qoyulub. İç sahəsi 15x15 metrdir.

Sirab kənd Bəydilli məscidinin bünövrəsi XIX əsrin axırlarında qoyulsa da, sonralar uçub-dağılmış və fəaliyyət göstərə bilməmişdir. 1989-cu ildə bura yenidən tikilməyə başlanıb. Tikintidə dağ daşlarından istifadə olunub. Sirab kənd Bəydilli məscidinin içərisi gəclə suvanıb. Döşəmə də kəclə işlənib, tavana taxta vurulub. Tavan üç ədəd sütun üzərində dayanıb.

İki mərtəbədən ibarət məscid 8 kvadratşəkilli pəncərəyə malikdir. İki giriş (kişilər və qadınlar üçün) qapısı var. Damı şiferlə örtülüb.

## ZEYNƏDDİN KƏND MƏSCİDİ



Məscid Babək rayonunun Zeynəddin kəndində tikilib. İç sahəsi 13x15 metrdir.

Bu məsciddə 1989-cu ildən etibarən inşaat-bərpa işləri aparılır. Məscid iki mərtəbədən ibarətdir. İkinci mərtəbə eyvan şəklindədir. Tavan dörd əsas sütun üzərində dayanıb. Dam dəmir təbəqə ilə örtülüb. Minarəsi dəmirdən olub, hündürlüyü 11 metrdir. Məscidin giriş qapısının fasad tərəfində şüşəbəndli eyvan da tikilib.

## GÜZNÜT KƏND MƏSCİDİ [I]



Məscid Babək rayonunun Güznüt kəndində inşa olunub. Bünövrəsi 1988-1995-ci illərdə qoyulub. İç sahəsi 12x14 metr, həyətyanı sahəsi isə 50x50 metrdir.

Güznüt kənd məscidi kvadrat formasına malik olub, iki mərtəbədən ibarətdir. Divarları yonulmamış daşlardan hörülüb. Damı və günbəzi dəmir təbəqə ilə örtülüb. Günbəzin üstündə aypara rəmzi qoyulub. Günbəzin diametri 11,5 metr, döşəmədən günbəzədək hündürlüyü isə 11 metrdir.

Bu məscid kənd ağsaqqallarının təşəbbüsü və camaatın vəsaiti hesabına tikilib.



## GÜZNÜT KƏND HÜSEYNİ MƏSCİDİ [II]



## HACI SÜLEYMAN MƏSCİDİ



Məscid Babək rayonunun Vayxır kəndindədir. İnşa tarixi dəqiq məlum deyil. İç sahəsi 12x12 metrdir.

Məscidin divarları mişar daşından hörülüb. Divarlar içəridən gəclə, fasad tərəfdən sement məhlulu ilə suvanıb. Məscidin günbəzinin diametri 5 metrdir. Yerdən günbəzədək hündürlüyü 10 metrdir. Günbəzdə dörd gözlük qoyulub. Günbəz və habelə məscidin damının örtüyü dəmir təbəqə ilə işlənib. Məscid iki mərtəbədən ibarətdir. İkinci mərtəbə eyvan şəklindədir.

Hacı Süleyman məscidindən Sovetlər dövründə anbar kimi istifadə olunub. 1989-cu ildə bərpa edilərək yenidən tikilib. Axırıncı dəfə 1991-1994-cü illərdə burada təmir -tikinti işləri aparılıb.

## CƏHRİ KƏND MƏSCİDİ



Məscid Babək rayonunun Cəhri kəndində yerləşir. Bünövrəsi 1995-ci ildə qoyulub. İç sahəsi 13x9 metrdir.

Cəhri kənd məscidi İrandan gətirilmiş bişmiş kərpiclə üzlənib. Yerdən günbəzədək hündürlüyü 9 metr, günbəzin diametri isə 5 metr, yerdən tavanadək hündürlüyü 5,5 metrdir. Tavan bir sütun üzərində dayanıb. Məscidin minarəsinin hündürlüyü 12 metrdir. Məscidin iki giriş (kişi və qadınlar üçün) qapısı var. Məscidin ön tərəfində eyvan yerləşib. Bu məscid yerli sakin İbrahimov Məmmədtağı İsmayıl oğlunun şəxsi vəsaiti hesabına tikilib.

## YUXARI UZUNOBA KƏND MƏSCİDİ



Məscid Babək rayonunun Yuxarı Uzunoba kəndində tikilib. Bünövrəsi 1992-1993-cü illərdə qoyulub. İbadət zalının sahəsi 8x11 metrdir.

Yuxarı Uzunoba kənd məscidinin döşəməsi gəc-torpaq, tavanı isə betondur. Damı şiferlə örtülüb. Məscidə giriş qapısından içəridə dəhliz (sahəsi 33 kv.metr) yerləşib. Məscidin ön hissəsində şüşəbəndli eyvan da var. İkinci mərtəbə də eyvan şəklindədir və üç sütun üzərində dayanıb. İbadət zalında bir qapı və düzbucaqlı şəklində iki pəncərə qoyulub.

Bu kənddə vaxtilə də məscid olub. Lakin sonralar həmin məscid uçulub dağılıb.

## CƏHRİ KƏND CİLOVXANLI MƏSCİDİ



Babək rayonunun Cəhri kəndində yerləşən bu məscidin inşa edildiyi tarix XV əsrə aid olunur. İç sahəsi 8x12 metrdir.

Cəhri kənd Cilovxanlı məscidi sovetlər dövründə gizli şəkildə istifadə edilib. 1988-ci ildə burada təmir-abadlıq işləri görülərək, abadlaşdırılıb və hazırkı vəziyyətə salınıb. Bu işlər camaatın vəsaiti ilə həyata keçirilib.

Cəhri kənd Cilovxanlı məscidinin damı və günbəzi dəmir təbəqə ilə örtülüb. Günbəzdə də (diametri 4 metrdir) dörd gözlük qoyulub. Yerdən tavana qədər hündürlüyü 6 metr, günbəzə qədər 11 metrdir.

Cəhri kənd Cilovxanlı məscidi iki mərtəbədən ibarətdir. Birinci mərtəbə kişilər, eyvan şəklində olan ikinci mərtəbə isə qadınlar üçün nəzərdə tutulub. Qadınlar şöbəsinə giriş həyətdəndir.

## HEYDƏR MƏSCİDİ



Məscid Babək rayonunun Çeşməbasar kəndində yerləşir. İnşa tarixi 1995-ci ilə aiddir. Sahəsi 9x9 metrdir.

Heydər məscidinin binası və minarə bişmiş kərpicdən inşa olunub. Minarənin hündürlüyü 15 metrdir və yuxarı hissəsində azan vermək üçün yeri var. Qübbəsinin üstündə aypara rəmzi var.

Heydər məscidinin döşəmədən tavana qədər olan hündürlüyü 9 metrdir. Günbəz fasad tərəfdən bişmiş kərpiclə işlənib. Mehrab ağ rəngdə işlənib və kənarları haşiyə ilə bəzənib. Mehrabdan sağ tərəfdə divarda ərəb dilində rənglə "Fatihə" surəsi həkk olunub.

Bu məscid Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Fəttah oğlu Heydərov tərəfindən tikdirilib.



## ORDUBAD ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Məscid Ordubad şəhərində tikilib. İnşa tarixi XVIII əsrə aid olunur. Ümumi sahəsi 520 kv.metr, kişilər şöbəsinin sahəsi 24x15 metr, qadınlar şöbəsinin sahəsi 24x11 metrdir.

Əvvəlcə alban kilsəsi olan bu bina sonradan məscid formasına salınıb və bir qədər də genişlənib. Dağ üstündə yerləşmiş bu məscidin divarları Ordubadda istehsal edilmiş bişmiş kərpicdən tikilib və üstü gəclə suvanıb. Məscid iki hissəyə-kişilər və qadınlar şöbəsinə bölünüb. Hər iki şöbə sütun və tağlarla rövnəqlənib.

Ordubad şəhər Cümə məscidinin mərkəzində mehrab qoyulub. Mehrabın üstündə, günbəzdə kvadrat formasında "Həşr" surəsinin axırıncı ayəsi həkk olunub. Mehrabın bir qədər yuxarısında Allah, Məhəmməd və 14 məsumun adı yazılıb. Mehrabın baş tərəfində isə "Ayətül-kürsi" yazılıb.

Ordubad şəhər Cümə məscidinin giriş qapısının üstündə ərəb və fars dillərində daş üzərində yazılar həkk olunub. Xüsusən mehrabın üstündəki dörd dəfə təkrarlanan "Əli" sözünün ornament işləməsi diqqətəlayiqdir. Bundan əlavə, mehrabdakı nəbati ornamentlər də xüsusi maraq doğurur.

Ordubad şəhər Cümə məscidinin üç giriş qapısı var. Bu qapılara dabanlı qapılar deyilir. Onlar qoz ağacından hazırlanıb.

## SƏRŞƏHR MƏSCİDİ



Məscid Naxçıvan MR-in Ordubad şəhərində yerləşib.

Məscidin bünövrəsi çaylaq daşları ilə, ondan yuxarı hissəsi isə bişmiş kərpiclə işlənib. Məscid kvadrat şəklinə malik olub, iki mərtəbədən ibarətdir. Zahiri görünüşü kifayət qədər cəlbedicidir. Tavanı taxta və fanerlə, döşəməsi isə taxta ilə işlənib. Tavan altı taxta sütun üzərində dayanıb. Bundan əlavə, məscidin kənarlarında 12 daş sütun da vardır və məscid əsas etibarilə həmin sütunların üzərində qərar tutub. Sərşəhr məscidinin ikinci mərtəbəsində kitabxana da var. Burada dini kitablar və əlyazmalar saxlanılır. Əlyazma əsərlərinin sayı otuzdan çoxdur.

Sərşəhr məscidinin tağlı pəncərələri ona xüsusi gözəllik verir. Pəncərələr həm də şəbəkələrlə bəzənib.

## ÜÇ TÜRLƏNGƏ MƏSCİDİ



Məscid Ordubad rayonunun Üç Türləngə kəndində inşa olunub. İnşa tarixi XX əsrin əvvəllərinə aid olunur. Sahəsi 12x9 metrdir.

Üç Türləngə məscidi kvadrat şəklinə malik olub, fasad tərəfi çiy kərpiclə, giriş qapısının yan tərəfləri isə bişmiş kərpiclə işlənib. Məscidin tavanı taxta və fanerlə işlənib. Tavan altı sütun üzərində dayanıb. Əsas ibadət zalının bir tərəfində eyvan şəklində ikinci mərtəbə yerləşib. Məscidin damı şiferlə örtülüb.

Üç Türləngə məscidinin interyeri çox sadə quruluşa malikdir. 1997-ci ildə məsciddə təmir işləri aparılaraq xeyli abadlaşdırılmışdır.

## YUXARI AMBARAS MƏSCİDİ

Məscid Ordubad rayonunun Yuxarı Ambaras kəndində yerləşib. Sahəsi 9x9 metrdir.

XVIII əsrin tarixi abidəsi hesab olunan bu məscid kvadrat şəklinə malikdir. Fasad dəmir və kərpiclə, interyeri isə daş və bişmiş kərpiclə işlənib. Məscidin ikinci mərtəbəsində qadınlar şöbəsi yerləşib. Tavan 6 sütun üzərində dayanıb. Döşəmə bişmiş kərpiclə döşənmişdir. Məscidin bütün pəncərə və qapıları şəbəkəlidir.

Bu məscid məhəllə məscidi hesab olunur.

## HACI HÜSEYNQULU MƏSCİDİ

Məscid Ordubad rayonunun Gənzə kəndindədir. Tarixi hicri-qəməri təqvimi ilə IX əsrə aid olunur.



Məscidin əvvəlki hissəsinin sahəsi 12x10 metr, hündürlüyü 3 metrdir. Bu hissədə 3 sütun və on iki tağ var. Divarlarının qalınlığı 1 metrdir. Buradakı altı şöbədən dördü kvadrat, ikisi isə günbəz formasındadır.

Məscidin ilkin hissəsinə əlavə olaraq ikinci bir hissə də tikilmişdir. Buranın sahəsi 8x10 metr, hündürlüyü isə 4 metrdir. Deyilənə görə, bu yeni hissə əsrin əvvəllərində tikilib. Yeni tikilmiş hissə əvvəlkindən xeyli fərqlənir.

Birinci hissə əhəng, yumurta qarışığı və adi çaylaq daşlarından hörülüb. İkinci isə çiy kərpicdən işlənib. Bütün məscidin iç divarlarının aşağı hissəsi taxta, yuxarı hissəsi gəclə işlənib. Divarlara ərəbcə rənglə Quran ayələri yazılıb.

Hacı Hüseynqulu məscidinin içərisində divarlarda beş divariçi taxça düzəldilib. Məscidin giriş hissəsindən fasad tərəfdə eyvan vardır. Eyvan on iki tağdan ibarətdir. Hacı Hüseynqulu məscidinin nəzdində qonaq otağı da var. Bura məscidə gələn qonaqlar üçün nəzərdə tutulub. Hacı Hüseynqulu məscidinə Əliəkbər Rzaqulu oğlu tərəfindən hədiyyə olaraq 500 kv.metr əlavə torpaq sahəsi verilib.

## DİLBƏR MƏSCİDİ

Məscid Ordubad rayonunun Dilbər kəndindədir. İnşa tarixi XVIII əsrə aiddir. Sahəsi 8x12 metrdir.

Məscid kvadrat şəklinə malik olub, fasad hissəsi mişar daşı və çiy kərpiclə işlənib. Məscidin tavanı da kvadrat şəklindədir. Tavan altı sütun üzərində dayanıb. Məscidin mehrabı ortada yerləşib və qövsvari şəkildədir. Minbər üç pillelidir və qoz ağacından düzəldilib.

Deyilənə görə, bu məscidi Kərim xanın qızı Dilbər xanım tikdirib.



## MALİK İBRAHİM PİRİ

Ordubad rayonunda Əbu Səid Əbülxeyrin nəzərlyyəsini yayan eyniadlı Şeyx Əbu Səidin rəhbərlik etdiyi mərkəz-sufi xanəgahı Malik İbrahimdə yerləşmişdir. "Malik İbrahim piri" və "Qara pir" Ordubad şəhərinin şərqində, Qaradağın ətəklərində yerləşmişdir. Burada bir məscid binası və cənuba doğru uzanan böyük bir qəbristanlıq vardır. Sahəsi təqribən 2 hektara yaxındır. İndi də istifadə olunmaqdadır.



Qəbristanlığa niyə Malik İbrahim deyildiyini izah etməkdən ötrü əldə elə bir epiqrafik sənəd yoxdur. Hələlik mənbələrdə də bu barədə heç bir məlumata rast gəlinmir. Lakin buranın niyə pir kimi ziyarət olunduğu, müqəddəs hesab edildiyi barədə qəbristanda hələ otuz il bundan əvvəl aparılan axtarışlar göstərir ki, hazırda ziyarət olunan yer nədənsə səhv düşmüşdür. Müqəddəs hesab olunan qəbirdə, üzərində qoyulmuş mərmər sənduqənin ərəbcə yazılarından məlum olur ki, hicri 962-ci (1554-1555) ildə vəfat etmiş Fərruxzad bəyin oğlu Məhəmməd bəy dəfn olunmuşdur. Lakin məqbərədən bir qədər aralı bir başdaşı da var. Üzərindəki ərəbcə süls xəttilə yazılmış kitabədə sufizmin banilərindən məşhur Əbu Səid Əbülxeyrin yeddi arxa övladlarından olan Şeyx Əbu Səidin haqqında məlumat verilir:

"Rəhimli və mərhəmətli Allahın adıyla. Bu qəbir xalqın mürşüdü, həqiqət sahiblərinin nümunəvisi, dünya və dinin tacı, Şeyx Əbu Səid adıyla tanınmış, xorasanlı Əbu Səid Əbülxeyrin- Allah onun əziz ruhunu müqəddəsləşdirsin -yeddi arxa övladlarından olan şeyxülislamındır. Ölüm tarixi yeddi yüz əlli doqquzuncu hicri ili, məhərrəm ayının səkkizi, cümə axşamı, günortadan sonra (21.XII.1357) oldu. Əbu Səid bu dar dünyadan köçdü. Cənnətdə babasının ruhuna qovuşdu.

Ustad Nəcməddin ibn ustad Hacı Pənahın işidir. Memar Məhəmməd bəy ibn Hacı dua ilə kömək istəyir".

Başdaşının kənarında qeyd olunan ustad Nəcməddini və ustad Hacı Pənahı abidənin xəttatı hesab etmək olar. Memar Məhəmməd bəy ibn Hacının qeyd olunmasına əsasən, demək olar ki, vaxtilə Şeyx Əbu Səidin qəbri üzərində türbə binası olmuşdur. Lakin türbədən heç bir əsər-əlamət qalmamışdır. Əbu Səidin sufi şeyxi və onun sufiliyin məşhur banisi xorasanlı Əbu Səidin övladlarından və davamçılarından olması haqqında kitabədə tam məlumat verilib. İndi qeyd olunan yerdə, qədim karvan ticarət yolu üzərində Əbu Səidin sufi xanəgahının olmasına heç bir şəkk-şübhə qalmır.

"Qara pir" binasının çox hissəsi təbii qayaya çapılmışdır. Ancaq baş fasaddan bir hissəsi (6,0x2,5x2,0) bina olunmuşdur. Qapının üzərində farsca rəğbətini qazanmaq məqsədilə bu şərəfli və mübarək bina cümadə əl-əxir ayının ikisində cənnətlik Hacı Ağacan Ordubadinin oğlu Hacı Zeynalabdinin səyilə 1264-cü ildə tamamlandı. (6.V.1848).

## ƏNGƏÇİ MƏSCİDİ

Məscid Ordubad rayonunun Əngəçi kəndində yerləşib. İnşa tarixi dəqiq məlum deyil. Sahəsi 8x8 metrdir.



Əngəçi məscidinin fasad hissəsi çiy kərpicdən tikilib. Fasad hissənin aşağı tərəfi isə bişmiş kərpiclə götürülüb. Məscidin damı şiferlə örtülüb. Tavanı dörd sütün üzərində dayanıb. Məscidin minarəsi və mehrabı yoxdur. Ümumiyyətlə, məscid sadə formaya malik olub, heç bir dekorasiya işləri ilə işlənməyib. Eləcə də burada yazı və ya qədim kitabə də yoxdur.

Əngəçi məscidinin əsas ibadət zalının bir tərəfində eyvan şəklində ikinci mərtəbə yerləşib. Bura qadınlar üçün nəzərdə tutulub.

## TƏKEŞİ MƏSCİDİ



Məscid Ordubad rayonunun Təkeşi kəndində tikilib. İnşa tarixi hicri-qəməri tarixi ilə 1242-ci ilə aid olunur. Yəhya adlı şəxs tərəfindən tikdirilib.

## MİNGİS MƏSCİDİ



Məscid Ordubad rayonunun Mingis kəndində yerləşir. İnşa tarixi hicri-qəməri tarixinə görə 188-ci ilə aid olunur.

Məscidin içərisindəki kitabədə ərəbcə yazılar və "Məhəmməd Hadi Ordubadi" sözləri və məscidin tarixi yazılıb.

Mingis məscidi bərbad vəziyyətdə olduğuna görə burada təmir işlərinə başlanılıb.

## DƏSTƏ KƏND CÜMƏ MƏSCİDİ



Məscid Ordubad rayonunun Dəstə kəndindədir. Hicri-qəməri təqvimi ilə 1019-cu ildə inşa olunub. İç sahəsi 23x15 metrdir.

Bu məscid 1927-ci ildən 1989-cu ilədək anbar kimi istifadə olunub. 1989-cu ildən burada rekonstruksiya və təmiir işləri aparılıb və istifadəyə verilib. Məscidin indiki binası kvadratşəkillidir. Divarları çiy kərpicdən tikilib. Bundan əlavə, divarlar bişmiş kərpic və plitələrlə də işlənib. Tavan 18 ədəd sütun üzərində dayanıb. İbadət zalında 13 kvadratşəkilli pəncərə və bir qapı var. Mehrabın üzərində ərəb əlifbası ilə yazı həkk olunub. Dam dəmir təbəqə ilə örtülüb.

1994-cü ildə məscid üçün bişmiş kərpicdən minarə də tikilib. Onun hündürlüyü 22,5 metrdir.

Bu kəndde üç məscid fəaliyyət göstərir. Onların ən böyüyü və əsası bu məsciddir.



## ORDUBAD MƏDRƏSƏSİ

Mədrəsə qədim dini ocaq olub və Cümə məscidinin nəzdində fəaliyyət göstərib. Onun fəaliyyət tarixi Cümə məscidinin tarixi ilə eynidir. Mədrəsədə oğlan və qızlara Quran və islam tarixindən dərslər keçilir. Dərs vəsaiti İran və Türkiyədən gətirilir.

## DƏSTƏ KƏND ŞİNGİLƏR MƏSCİDİ

Məscid Ordubad rayonunun Dəstə kəndində tikilib. İnşa tarixi XIX əsrin axırlarına aiddir. İç sahəsi 21x11 metrdir. Dəstə kənd Şingilər məscidi iki mərtəbədən ibarətdir. Qadınlar şöbəsi birinci və ikinci mərtəbədə yerləşib. Məscidin divarları (qalınlığı 80 sm) daşdan hörülüb. Dam dəmir təbəqə ilə örtülüb. Tavanı taxtadandır və rənglə işlənib. Əsas ibadət zalında 9 mehrabşəkilli pəncərə, iki qapı qoyulub.

Məscid 1938-ci ildən 1988-ci ilədək bağlı qalıb. Bundan sonra burada təmir-bərpa işləri başlanıb. 1991-ci ildən sonra məscid fəaliyyətə başlayıb. Bərpa zamanı burada minarə də ucaldılıb (hündürlüyü 13 metr.) Məscidin nəzdində hələlik inşaat işləri davam edir.

## NÜSNÜS MEYDAN MƏSCİDİ



Məscid Ordubad rayonunun Nüsnüs kəndində yerləşib. Sahəsi (10x15) 150 kv.metrdir.

Nüsnüs məscidinin fasad hissəsi çiy kərpicdən tikilib. Kvadrat şəklində olan bu məscid 12 sütun üzərində dayanıb.

Bu məscid hicri-qəməri təqvimi ilə 245-ci ildə Hacı Osman Nüsnüsi tərəfindən tikilib. 1335-ci ildə burada təmir-bərpa işləri aparılıb.

Nüsnüs meydan məscidi iki mərtəbədən ibarətdir. İnteryeri çox sadədir. Məscidin içərisində kitabələr vardır.

## SAHİBƏZZAMAN MƏSCİDİ



Məscid Culfa şəhərindədir. İnşa tarixi 1980-1996-cı illərə aid olunur. Ümumi sahəsi 2500 kv.metr, iç sahəsi 450 kv.metrdir.

Sahibəzzaman məscidi kvadrat şəklinə malikdir. Məscidin fasad hissəsi və minarələr bişmiş kərpicdən işlənib. Minarələrin hündürlüyü 16 metrdir. Döşəmədən tavana qədər hündürlüyü 6 m, günbəzə qədər 8 metr, günbəzin diametri isə 6 metrdir. Günbəzin fasad tərəfi betonla işlənib.

Sahibəzzaman məscidi Məşədi İslamın təşəbbüsü və camaatın vəsaiti ilə tikilib. Məscid istifadəyə verilsə də, tikinti işləri davam etdirilir.

## DİZƏ KƏND İMAMZADƏSİ



İmamzadə Culfa rayonunun Dizə kəndində inşa olunub. Bünövrəsi 1995-ci ildə qoyulub. Sahəsi 19x10 metrdir.

Dizə kənd imamzadə-məscidinin bütün divarları İran kərpici ilə işlənib. Binanın hər bir küncündə bir yardımçı otaq vardır. Hər bir yardımçı otağa əsas zaldan giriş qapısı qoyulub. Zalın döşəməsi daş plitələrlə işlənib. Tavan dörd sütun üzərində dayanıb. İmamzadənin günbəzinin diametri 4 metrdir.

Dizə kənd imamzadəsinin mərkəzi hissəsində qəbir yerləşib. Qəbrin üstü mərmərlə işlənib. Sinə daşında "Fatihə" surəsi həkk edilib. Ondan aşağıda isə "İmamzadə piri, 1995-ci il tarixi" yazılıb. İmamzadənin divarları səkkizguşəlidir. Divarlarda rənglə ərəb əlifbası ilə Quran ayələrindən nümunələr yazılıb.

İmamzadə İbadulla Musa oğlu tərəfindən tikilib.

## DİZƏ KƏND MƏSCİDİ

Məscid Culfa rayonunun Dizə kəndində yerləşir. Bünövrəsi 1887-ci ildə qoyulub.

Dizə kənd məscidi forma etibarilə kvadrat şəklinə malikdir. Divarları yonulmamış daşlardan hörülüb və üstü gəclə suvanıb. Divarlar fasad tərəfdən sement məhlulu ilə suvanıb. Məscidin damı şiferlə örtülüb.

Bu məscid öz ilkin formasını müəyyən qədər itirmişdir. Belə ki, o, 1940-1989-cu illərdə anbar kimi istifadə olunub. Bundan sonra yerli sakinlərin köməkliyi sayəsində burada təmir işləri aparılıb.

Fasad tərəfdən məscidin qapıları üstündə ərəb əlifbası ilə "Ya Allah", qapıların üst tərəfində isə "Bismillahir-rəhmanir-rəhim" sözləri yazılıb.

## BƏNƏNİYAR MƏSCİDİ



Məscid Culfa rayonunun Bənəniyar kəndində tikilib. Ümumi sahəsi 11x20 metr, hündürlüyü isə 5 metrdir.

Bənəniyar məscidinin tarixi XIX əsrin əvvəllərinə aiddir. 1905-ci ildə ermənilər tərəfindən yandırılıb. Sonralar məsciddə təmir işləri aparılıb. 1987-ci ildə yerli sakin İbrahim Nuriyevin təşəbbüsü və kənd camaatının vəsaiti hesabına yeni məscidin tikintisinə başlanmışdır. 1997-ci ildə tikintinin xeyli hissəsi başa çatmışdır. İki mərtəbədən ibarət olan bu məscid hal-hazırda istifadəyə verilmişdir. Hazırkı məscidin yerdən tavana qədər hündürlüyü 9 metr, yerdən günbəzədək hündürlüyü isə 15 metrdir. İç sahəsi isə 40x20 metrdir. Məscidin ikinci mərtəbəsi qadınlar üçün nəzərdə tutulub. Buranın sahəsi 15x10 metrdir. Məscidin günbəzinin iç tərəfində "Allah, Məhəmməd, Əli, Fatimə, Həsən, Hüseyn" sözləri, bir qədər aşağıda isə "La İlahə İllellah, Məhəmmədən Rəsulallah" sözləri yazılmışdır.





## ƏRƏFSƏ PİRİ



Pir Culfa rayonunun Ərəfsə kəndinin kənarında-dağ arasında yerləşib. Deyilənə görə, bu pirin tarixi birinci erməni-müsəlman davasına təsadüf edir. Pir əvvəlki formasını qismən dəyişib. Belə ki, burada təmir işləri aparılıb və xüsusən pirin dam örtüyü dəyişdirilib. Pirin divarları çaylaq daşlarından hörülüb və palçıqla üzlənib. Pirin içərisində bir neçə qəbir var.

## GÜLÜSTAN TÜRBƏSİ

Türbə Culfa rayonundadır. Gülüstan türbəsi bilavasitə Əcəmi yaradıcılığının təsiri altında yaranmış diqqətəlayiq abidələrdən biridir. Bu abidənin orijinallığı təkcə zahiri bəzəyində deyil, habelə onun həcm həllinin səciyyəsindədir. Türbə tünd qırmızı tufdan tikilib, həmçinin iki hissədən ibarətdir. Görünür, türbənin alt hissəsi sərdabə olmuş, üst hissəsi isə elə bir müəyyən əməli məqsəd daşımamışdır. Türbəni səciyyələndirən cəhət sərdabənin yerin üstündə olmasıdır.

Gülüstan türbəsinin daxili tərtibatı onun ahəngdarcasına zəngin bəzədilmiş zahiri həcminin əksinə olaraq çox sadə həll edilmişdir. Türbənin ümumi forması həddindən artıq mürəkkəbləşdirilmişdir. Onun 6x6 m ölçülü kvadrat kürsülüyü qoşa kəsikli künclər vasitəsilə özünün aşağı hissəsində üçyaruslu stalaktitlərlə əhatə olunan düzgün on iki üzlüyü keçir.

Türbənin əsas həcminin on iki üzlüyü qabarıq işlənib. Üzlərin ayrılmasına tələbat onların qonşu üzlərin rəsmlərindən fərqli olan ornamentlə bəzədilməsindən irəli gəlir. Sənətkar cəmi üç müxtəlif rəsmli ornamenti işləyib hazırlamış və üzündə onları elə növbələşdirmişdir ki, tamaşaçı eyni bir müşahidə nöqtəsindən həmişə müxtəlif rəsmli ornamentlər görür.

Gülüstan türbəsinin daş üzərində oyulmuş ornament bəzəkləri xronoloji cəhətdən Kiçik Asiya abidələrinin oyma daş bəzəklərindən əvvəl gəlməklə bu tip bəzəklərin ilk nümunəsi hesab olunur.

Gülüstan türbəsinin ornament bəzəyi üçün üzərində həkk olunmuş dərin, qabarıq ornament səciyyəvidir. Halbuki Möminə Xatun və Yusif Küseyir oğlu türbələrinin ornament bəzəyində qabarma təsadüf olunmur. Bu abidələrin qabarmasında fərq, şübhəsiz ki, materialın xassəsindən irəli gəlmişdir. Naxçıvan türbələrinin ayrı-ayrı kərpiclərdən yığılmış ornament bəzəyi kərpic özəyinin arasını məhlul ilə maksimal surətdə doldurmağı tələb etmişdir. Başqa cür desək, əgər bu türbələrin ornament bəzəyi kompozisiyasında kərpiclə doldurucu məhlul arasında boya fərqi müəyyən dərəcədə məna kəsb edirsə, Gülüstan türbəsinin ornament bəzəyində ornamenti oxumağa imkan verən yeganə amil qabarmadır. Türbənin yuxarı hissəsi çox dağılmışdır. Xarici örtüyə keçiddən yalnız toxuma formasında ensiz bir zolaq salamat qalmışdır. Türbənin yuxarı yarusunun daxili günbəzi də salamat qalmışdır.

Abidədə epiqrafik materialın olmaması türbənin tarixini dəqiq müəyyənləşdirməyə imkan vermir. Abidənin tarixinin XII-XIII əsrlərə aid olması barədə artıq irəli sürülmüş fikirlə razılaşmaq olar. Bununla belə, türbənin XIII əsrin əvvəllərində tikilməsi daha həqiqətə uyğundur. Doğrudan da əgər Əcəmi Əbubəkr oğlu əsərlərinin, ilk növbədə isə Möminə Xatun türbəsinin (1186-cı il) şəksiz təsirini nəzərə alsaq, habelə türbənin XIII əsr tikintiləri üçün daha çox səciyyəvi olan zəngin plastikliyinə diqqət yetirmiş olsaq, dəqiq tarixini XIII əsrin əvvəlləri hesab etmək, ehtimal ki, daha düzgün olar.

## KİRNƏ KƏND ŞEYX HÜSEYN MƏSCİDİ

Culfa rayonunun Kirnə kəndində yerləşən bu məscidin inşa tarixi XVIII əsrə aiddir. İç sahəsi 9x18 metrdir (kişilər şöbəsi 11x9 metr, qadınlar şöbəsi isə 7x9 metr).

Kirnə kənd Şeyx Hüseyn məscidi kəndin qurtaracağında, təpənin üstündə yerləşib. Zahiri görkəmi etibarilə düzbucaqlı formaya malikdir. Məscidin əvvəl tikilmiş binasına yeni artırma əlavə edilib. Artırmanın sahəsi 21 kv.metrdir və onun giriş qapısının üstündə ərəb əlifbası ilə "Allah, Məhəmməd və Əli" sözləri yazılıb.

Kirnə kənd Şeyx Hüseyn məscidi hündürlüyü 9 metr olan qoşa minarəyə malikdir. Bundan əlavə, məscidin damından ucaldılmış minarələrin hündürlüyü 3 metrdir. Döşəməsi gəclə, tavanı isə taxta ilə işlənib. Minbəri altıpilləlidir. Damının örtüyü şiferdəndir.

1991-ci ildən etibarən burada inşaat işləri aparılır. Məscidin mollası Məşədi Eldar Qəmbəroğludur.



## KİRNƏ TÜRBƏSİ

Türbə Culfa rayonu Kirnə kəndində yerləşib.

Abidə çaylaq daşı və bişmiş kərpicdən tikilib. Kvadratşəkilli formaya malikdir. Hündürlüyü 8 metrdir. Sahəsi 9x9 metrdir. Divarlarının qalınlığı 1,20 metrdir. Hal-hazırda bura bərbad vəziyyətdədir. Belə ki, abidənin yuxarı hissəsi və divarlarının bəzi yerləri sökülmüş vəziyyətdədir.

Turbə X əsrin tarixi abidələrinə aid olunur.



## SALTAQ MƏSCİDİ

Məscid Culfa rayonunun Saltaq kəndində yerləşir. İlkin tarixi dəqiq məlum deyil. İç sahəsi 12x15 metrdir.

Saltaq məscidi iki mərtəbədən ibarətdir. İkinci mərtəbə eyvan şəklindədir və qadınlar üçün nəzərdə tutulub. Tavan taxta, döşəmə isə gəc-torpaqdır. Yerdən tavanadək hündürlüyü 5 metrdir. Tavan 7 sütun üzərində dayanıb.

1991-ci ildə bu məsciddə təmir-bərpa işləri aparılıb. Bu zaman dam örtüyü tamamilə dəyişdirilib və yeni minarə (hündürlüyü 15 metr) ucaldılıb. Bu işlər camaatın vəsaiti hesabına həyata keçirilib.





## CAMALDIN KƏND ƏLİMƏHƏMMƏD PİRİ

Pir Culfa rayonunun Camaldın kəndində yerləşir.

Camaldın kənd Əliməhəmməd pirinin tarixi XVII əsrə aid olunur. Abidənin tutduğu sahə 32 kv. metrdir. Bura məscid kimi də istifadə edilir. Bundan əlavə, burada gecələmək üçün hər bir şərait var.



## CAMALDIN KƏND MƏSCİDİ

Culfa rayonunun Camaldın kəndində yerləşən bu məscidin bünövrəsi XIX əsrdə qoyulub. Əsas ibadət zalının sahəsi 15x10 metrdir.

Camaldın kənd məscidinin divarları çaylaq daşından hörülüb və gəclə suvanıb. Məscid kişi və qadın şöbəsinə ayrılıb. Damı şiferlə örtülüb. Tavan iki sütun üzərində dayanıb. Məscidin fasad hissəsində şüşəbənd vardır.

Camaldın kənd məscidinin hündürlüyü 14 metr olan minarəsi də var.

Məscid binası çox bərbad vəziyyətdə olduğundan 1987-1990-cı illərdə burada təmir-bərpa işləri aparılıb.

Camaldın kənd məscidinin divarlarının qalınlığı 1m.20 sm-dir.

Sovetlər dövründə məscid gübrə anbarı kimi istifadə edilmişdir.



## ŞƏRUR ŞƏHƏR CÜMƏ MƏSCİDİ

Məscid Şərur şəhərinin girəcəyindədir. 1996-cı ildə inşa olunub. İç sahəsi 64 kv.metrdir.

Şərur şəhər Cümə məscidi kənardan səkkizguşə formasını xatırladır. Divarları mişar daşından tikilib. İç tərəfi gəclə, fasad tərəfi isə İran kərpici ilə işlənib. Döşəmədən tavanadək hündürlüyü 6,5 metr, döşəmədən günbəzədək isə 13 metrdir. Tavan 4 sütun üzərində dayanıb. Günbəzin diametri 6 metr, hündürlüyü isə 6,5 metrdir. Günbəz fasad tərəfdən dəmir təbəqə ilə işlənib. Məscidin hündürlüyü 17 metr olan qoşa minarəsi də var.

Şərur şəhər Cümə məscidinin interyeri nəfis şəkildə işlənib.

Məscid İran İslam Respublikasının Urmiya ostandarlığı tərəfindən tikilib.



## İBADULLA KƏND MƏSCİDİ



Məscid Şərur rayonunun İbadulla kəndində tikilib. Bünövrəsi 1918-ci ildə qoyulub. İç sahəsi 16x15 metrdir.

İbadulla kənd məscidi kəndin mərkəzi hissəsində yerləşib. Divarlarının qalınlığı 1,50 metrdir. Məscidin öz hündürlüyü 6 metr, günbəzinin hündürlüyü isə 7 metrdir. Döşəməsindən günbəzin yuxarısınadək hündürlüyü 13 metrdir. Məscidin divarları fasad tərəfdən sement məhlulu ilə, içəridən isə gəclə suvanıb. Tavanı 9 taxta sütun üzərində dayanıb.

## KƏRİMBƏYLİ KƏND MƏSCİDİ



Bu məscid Şərur rayonunun Kərimbəyli kəndində 1991-ci ildən etibarən tikilməyə başlanıb. Məscidin layihəsinin müəllifi və ustası İldırım Cəfərovdur. Qeyd edək ki, məscid kənd camaatının və kənd sakini Faiq Rzayevin şəxsi vəsaiti hesabına tikilir. Tikintidə əsas etibarilə bişmiş kərpicdən istifadə olunur. Məscidin günbəzi İrandan gətirilmiş kərpiclə işlənilib.

## XOK CÜMƏ MƏSCİDİ



Məscid Şərur rayonunun Xok kəndində inşa edilib. Divarlarındakı yazılara görə, onun tarixi 600 il əvvələ gedib çıxır. Ümumi sahəsi 14x14 metrdir.

Xok Cümə məscidinin tarixi çox qədimdir. Əsrin əvvəllərində burada təmir-bərpa işləri aparılıb. Axırıncı dəfə 1988-1989-cu illərdə burada təmir işləri həyata keçirilib. Bu təmir zamanı məscidin damının örtüyü dəyişdirilib, eləcə də qoşa minarə ucaldılıb. Onlar dəmirdəndir və hündürlüyü 15 metrdir.

Xok Cümə məscidi yonulmamış daşlardan tikilib. İç tərəfdən divarlar gəclə suvanıb, fasad tərəfdən bişmiş kərpiclə üzlənib. Divarların qalınlığı 1 metrdir. Məscid iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir. Eyvan formasında olan qadınlar şöbəsi üç mərtəbəlidir. Hər mərtəbənin sahəsi 56 kv. metrdir. Məsciddə mədrəsə də fəaliyyət göstərir. Məscidin döşəməsindən tavanınadək hündürlüyü 7 metr, günbəzədək isə 11 metrdir, günbəzin diametri 5 metrdir. Günbəzdə 12 gözlük qoyulub.

Xok Cümə məscidinin interyeri çox sadə formaya malikdir.



## QIVRAQ KƏND CÜMƏ MƏSCİDİ



Məscid Şərur rayonunun Qıvraq kəndində yerləşir. 1917-ci ildə (XX əsrin əvvəllərində) inşa olunub. İbadət zalının sahəsi 22x16 metrdir.

Məscid adi dağ daşlarından inşa olunub. Məscidin əsas binasının qarşısında eyvan yerləşib. Onun sahəsi 3,5x26 metrdir.

Qıvraq kənd Cümə məscidinin damı dəmir təbəqə ilə örtülüb. İç divarları suvanıb. Minbəri beşpilləlidir və bişmiş kərpicdən hörülüb. Döşəməsi taxta, tavanı isə fanerdəndir. Döşəmədən tavanadək hündürlüyü 6,5 metrdir. Məscid iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir. Qadınlar şöbəsi ikimərtəbəlidir.

Qıvraq kənd Cümə məscidində 1988-1990-cı illərdə təmir-bərpa işləri aparılıb. Bu zaman damın örtüyü dəyişdirilib, içi gəclə suvanıb və damın üstündə minarə (6 metr) ucaldılıb.

## ÇOMAXTUR KƏND MƏSCİDİ



Məscid Şərur rayonunun Çomaxtur kəndində 1991-1993-cü illərdə inşa edilib. İç sahəsi 9x14 metrdir.

Məscidin divarları çaylaq daşından hörülüb və fasad tərəfdən odadavamlı bişmiş kərpiclə üzlənib. İçərisi gəclə işlənib. Döşəmə və tavan da taxta və fanerlə işlənib. Dam və günbəz dəmir təbəqə ilə örtülüb. Məscid forma etibarilə kvadratşəkilli olub, iki mərtəbədən ibarətdir. Birinci mərtəbə qadınlar, ikinci mərtəbə isə kişilər üçün nəzərdə tutulub. Çomaxtur kənd məscidinin minarəsinin hündürlüyü (damın üstündən) 5,5 metrdir.

Döşənəcəklər (xalçalar) camaat tərəfindən məscidə hədiyyə olunub.

Burada vaxtilə XIX əsrdə tikilmiş məscid olub. Sonradan həmin məscid uçub-dağılıb.

## ARALIQ KƏND HEYDƏR MƏSCİDİ



Məscid Şərur rayonunun Aralıq kəndində yerləşir. Məscid kvadratşəkillidir. Həyətyanı sahəsi bişmiş İran kərpici ilə hasara alınıb. Hasarın qapısının üstündə Allah, Məhəmməd, Əli, Həsən, Hüseyn sözləri yazılıb. Məscid iki mərtəbədən ibarətdir. Birinci mərtəbə kişilər, ikinci mərtəbə isə qadınlar üçün nəzərdə tutulub. İkinci mərtəbə eyvan şəklindədir. Məscidin çöl divarları İrandan gətirilmiş bişmiş kərpiclə üzlənib. Minarələrin hündürlüyü 14 metrdir. Dam dəmir təbəqə ilə örtülüb. Damın üstündə kvadratşəkilli otaq və onun üstündə günbəz yerləşib. Günbəz bişmiş kərpicdən işlənib. Günbəz və minarələrin üstündə aypara rəmzi qoyulub. Məscidin pəncərələri alüminiumdandır.

Aralıq kənd Heydər məscidi Hacı İbrahim tərəfindən tikilib.

## ÇƏRÇİBOĞAN KƏND MƏSCİDİ



Məscid Şərur rayonunun Çərçiboğan kəndindədir. İç sahəsi 11x12 metrdir.

Məscidin divarları çaylaq və mişar daşından hörülüb. Divarlar içəri tərəfdən gəclə işlənib. Damı dəmir təbəqə ilə örtülüb. Minarəsinin hündürlüyü 12 metr, məscidin öz hündürlüyü isə 5 metrdir. Tavanı 4 sütun üzərində dayanıb. Giriş qapısının sağ və sol tərəfində eyvan yerləşib.

Çərçiboğan kənd məscidindən sovetlər dövründə anbar kimi istifadə olunub. 1988-1990-cı illərdə burada təmir-bərpa işləri aparılıb.

## QARABAĞLAR TÜRBƏSİ



Orta əsr memarlıq abidələri içərisində mühüm yeri xatirə binaları-əyanların, hökmdarların qəbri üstündə ucaldılan, görkəmli şəxsiyyətlərin xatirəsini əbədiləşdirmək üçün tikilən türbələr tutur. Türbələr ümumi kompozisiyasına görə bir neçə növə ayrılır: bürcvari, səkkizüzlü, günbəzli-bürcvari və s. Bunlardan ən çox yayılanı bürcvari türbələrdir. Onlar ümumi kompozisiyanın yuxarıya meyli, şaquli bölümlərin üstünlüyü, daş kürsülük, kərpic gövdə və şiş günbəzin vəhdəti və s. ilə səciyyələnir.

Möminə Xatun, Gülüstan, Qarabağlar, Qazan xanın və Olcaytu xanın monumental türbələri kompozisiya bitkinliyi, dekorativ zənginliyi, konstruktiv yetkinliyi ilə tamaşaçını ovsunlayır. Bir çox hallarda türbələr ətrafında yaranan dini kompleksin kompozisiya özəyi rolunu oynayır.



Naxçıvan şəhərindən 49 km. şimal-qərbə doğru, Qarabağlar kəndində qismən salamat qalmış geniş bir orta əsr memarlıq kompleksi yerləşir. Hazırda kompleks XIV əsrə aid kərpic türbə, yarıdağılmış iki uca minarə və habelə minarələrlə türbə arasında yerləşən, çox ehtimal ki, dini binanın qalıqları ilə təmsil olunur. Güman etmək olar ki, minarələri birləşdirən baştağ da XIV əsrdə tikilmişdir.

Qarabağlar türbəsi qülləvari türbələr tipinə məxsus olmaqla yanaşı, onun salamat qalmış hissəsinin hündürlüyü 16 m, diametri isə 10 m-ə qədərdir. Daş kürsülük üzərində ucaldılmış kərpic qüllə özünün möhkəmliyi ilə seçilir. Türbənin bu möhtəşəmliyinə memar 12 ədəd yarımsilindrin bir-birinə dairəvi halda möhkəm rəbt edilməsi yolu ilə nail olmuşdur. Abidəni əhatə edən yarımsilindrlər dekorativ əlavə deyil, onun həcm quruluşunun tərkib hissələridir. Türbənin kvadratşəkilli mərkəz hissəsinə bitişən dörd dərin taxçalı salondan ibarət sərdabəsi Azərbaycanın XIV əsr türbələri üçün səciyyəvidir.

XIX əsrdən başlayaraq, abidələrin silindrvari gövdələrinin səthlərində, habelə günbəz örtüklərinə təkrar olunma üsulu ilə həkk edilən kitabə motivləri də diqqəti cəlb edir. Belə kitabələr bir söz və ya bir neçə dini söz qrupunun təkrarından alınırdı. Naxçıvan memarlıq məktəbinin şah əsərlərindən hesab olunan Qarabağlar türbəsinin bəzəklərində kitabə motivləri daha çox işlənmişdir. Kompleksin dörd portalının memarlıq bəzəklərində də eyni ilə baştağın kitabə motivlərindən istifadə olunmuşdur.



## QARABAĞLAR KƏND MƏSCİDİ



Məscid Şərur rayonunun Qarabağlar kəndində yerləşir. İnşa tarixi XX əsrin əvvəllərinə aid edilir. Kişilər şöbəsinin sahəsi 14x11 metrdir.

Qarabağlar kənd məscidi daşdan inşa olunub. Məscidin minarəsi 47 pillədən ibarətdir və hündürlüyü 13 metrdir. O, dəmir borudan hazırlanıb. Döşəmə torpaqdandır. Tavan altı dəmir boru sütun üzərində dayanıb.

Qarabağlar kənd məscidi formaca kvadratşəkilli olub, iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir.

Burada 1992-ci ildən etibarən bərpa və inşaat işləri aparılıb.

## ŞAHBUZ ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Məscidin bünövrəsi 1994-cü ildə qoyulub. İrandan gətirilmiş bişmiş kərpiclə tikilib. Tikintidə kərpicdən işləmənin ən zərif formalarından istifadə olunmuşdur ki, bu baxımdan məscid gözəl bir abidə hesab oluna bilər.

Əsas ibadət zalı əsasən bir mərtəbədən ibarətdir. Mehrabı əks tərəfdə-yuxarıda, ikinci mərtəbədə yerləşir. Fasad tərəfdən məscidin divarları 0,50 metr hündürlükdə mərmərlə üzlənib. Günbəzi 4 beton sütun üzərində dayanıb. Yerdən günbəzədək hündürlüyü 11,5 metrdir. Məscid qoşa minarəyə malikdir. Minarələr (hündürlüyü 26 metr) də bişmiş kərpicdən tikilib və xüsusi memarlıq üslubuna malikdir. Məscidin çöl tərəfdən iki giriş qapısı var. Qapılardan içəri tərəfdə dəhliz yerləşib. Dəhlizdən məscidin içərisinə daha iki qapı qoyulub. Çöl qapılar dəmirdən, iç qapılar isə taxtadan düzəldilib.



Şahbuz şəhər Cümə məscidinin hər iki tərəfində bişmiş kərpicdən səkkizguşəli ulduz forması işlənib. Bundan başqa, məscid divarlarını tağvari şəkilli 18 ədəd pəncərə bəzəyir.

Şahbuz şəhər Cümə məscidi İran İslam Respublikasının Təbriz şəhərinin ostandarı tərəfindən tikilib.

## SAHİBƏZZAMAN MƏSCİDİ



Məscid Şahbuz rayonunun Kolanı kəndində tikilib. Bünövrəsi 1991-ci ildə qoyulub. Birinci mərtəbənin ibadət zalının sahəsi 12x13 metr, ikinci mərtəbənin sahəsi isə 9x7 metrdir.

Sahibəzzaman məscidi kvadrat formasında olub, iki mərtəbədən ibarətdir. Birinci mərtəbə kişilər, ikinci mərtəbə qadınlar üçün nəzərdə tutulub. Məscidin binası mişar və çaylaq daşından tikilib. İçərisi gəclə suvanıb. Damı və günbəzi dəmir təbəqə ilə örtülüb. Məscidin üstündə-dörd tərəfində hündürlüyü iki metr olan kiçik minarələr qoyulub. Birinci mərtəbədə iki qapı və 4 pəncərə, ikinci mərtəbədə isə bir qapı və 10 pəncərə qoyulub. Məscidin iç tərəfdən günbəzi, eləcə də mehrabı yoxdur. Minbəri yeddipilləli olub, qırmızı kərpicdəndir. Məscidin giriş qapısının sağ və sol tərəflərində iki ədəd dairəvi minarə ucaldılmışdır. Minarələrin hündürlüyü 12 metrdir.

Sahibəzzaman məscidi kənd sakini Əziz Sadıqoğlunun təşəbbüsü və yerli camaatın vəsaiti ilə tikilib. Ustası usta Xeyrulladır.

Məscidin mollası əvvəlcə Zülfəli Həsənov olmuş, indi isə Ağca Yusifovdur.

## AŞAĞI QIŞLAQ CÜMƏ MƏSCİDİ



Məscid Şahbuz rayonunun Aşağı Qışlaq kəndinin qəbristanlığındadır. Bünövrəsi 1990-cı ildə qoyulub. Məscid yerli kənd sakinləri Şahhüseyn Cəlilov, Əsgər Quliyev və s. vəsaiti hesabına tikilir. İç sahəsi 11x11 metrdir. Aşağı Qışlaq Cümə məscidi kvadrat şəklindədir. Divarları daşlaq və mişar daşından tikilib. Məscid iki mərtəbədən ibarətdir. İkinci mərtəbə qadınlar üçün nəzərdə tutulub. Məscidin hündürlüyü 7 metrdir. Yerdən günbəzədək hündürlüyü 11 metrdir. Günbəz dəmir təbəqə ilə örtülüb. Məscidin hər küncündə hündürlüyü 2 metr olan minarə ucaldılıb. Tavan dörd sütun üzərində dayanıb.

Məscidin bünövrəsini qoymuş mərhum Seyidov Mirməhəmməd Kərbəlayı Mirhəmzə oğlunun (1924-1995) qəbri də buradadır. Qəbir türbə şəklindədir.

Aşağı Qışlaq Cümə məscidində tikinti işləri davam etdirilir. Məscidin ustaları Arif Rəcəbov, Şəmsi Məmmədov və Xudaverdi Təhməzovdur.





## AŞAĞI QIŞLAQ MƏSCİDİ



Şahbuz rayonunun Aşağı Qışlaq kəndində yerləşən bu məscidin bünövrəsi 1993-cü ildə qoyulub. İç sahəsi 39 kv. metrdir.

Məscid dairəvi formadadır. Döşəməsi betondur. Minarəsinin hündürlüyü 9 metrdir. Günbəzi dəmir təbəqə ilə işlənib. Günbəz və minarənin üstündə dəmirdən aypara rəmzi qoyulub. Məscidin hündürlüyü 5,5 metrdir.

Aşağı Qışlaq məscidi kənd camaatı tərəfindən tikilib.

## KÜKÜ KƏND MƏSCİDİ

Məscid Şahbuz rayonunun Kükü kəndində yerləşir. İnşa tarixi XX əsrin əvvəllərinə aiddir. İç sahəsi 13x15 metrdir. Kişilər üçün nəzərdə tutulan ibadət zalının sahəsi 125 kv. metr, qadınlar şöbəsinin sahəsi isə 70 kv.metrdir.

Kükü kənd məscidi kvadrat şəklindədir. Divarları mişar və çaylaq daşı ilə tikilib. Damı şiferlə örtülüb. Bir giriş qapısı və iki pəncərəsi vardır. Tavanı fanerlə işlənib. Tavan 9 sütun üzərində dayanıb. Məscidin forması çox sadədir. İçərisi gəclə işlənib. Divarların qalınlığı 1 metrdir.

Kükü kənd məscidi sovetlər dövründə fəaliyyət göstərməyib. 1987-1988-ci illərdə burada təmir işləri aparılıb.

## AŞAĞI REMEŞEN KƏND MƏSCİDİ

Məscid Şahbuz rayonunun Aşağı Remeşen kəndində inşa olunub. İç sahəsi 15x8 metrdir.

Aşağı Remeşen məscidi çox sadə formaya malikdir. Divarları çaylaq daşlarından tikilib. Məscid iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir. Kişilər şöbəsinin sahəsi 80 kv.metr, qadınlar şöbəsinin sahəsi isə 40 kv.metrdir. Məscidin damı şiferlə örtülüb. Döşəməsi torpaq, tavanı isə taxtadandır.

Bu məsciddən sovetlər dövründə anbar kimi istifadə olunub. 1989-cu ildə burada təmir-bərpa işləri aparılmış və məscid yenidən fəaliyyətə başlamışdır.

# NEFTÇALA RAYON MƏSCİDLƏRİ

## NEFTÇALA ŞƏHƏR MƏSCİDİ



Neftçala şəhərində yerləşən bu məscidin inşa tarixi 1998-ci ilə aiddir. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi 12x20 metrdir.

Məscid düzbucaqlı formaya malik olub, başdan-başa mişar daşı ilə işlənib. Məscid yerli sakin Əsgərov Əli tərəfindən tikilib. Damının örtüyü ağ dəmir təbəqə ilə işlənib. 8 guşəli minarəsi mişar daşı ilə hörülüb. Minarənin üstündə ağ dəmirdən aypara rəmzi qoyulub. Məscidin dam örtüyü üzərində də iki yerdə ajpara rəmzi qoyulub. Minbəri daşdan hörülüb və 12 pillələdir. Mehrabı ağ mərmərlə işlənib. Tağvari formadadır, hündürlüyü 3 metrdir. Məscid 2 mərtəbəlidir. Hər iki mərtəbədə 12 pəncərə qoyulmuşdur. Pəncərələr tağvari formadadır. Bütün pəncərə və qapılar taxtadandır. Məscidin döşəməsi daş plitə, tavanı taxtadır.

## SURRA KƏND İMAM ZAMAN MƏSCİDİ



Məscid Neftçala rayonunun Surra kəndində yerləşib. İç sahəsi 25x9 metr, hündürlüyü isə 2,5 metrdir.

Məscid birmərtəbəli olub, mişar daşı ilə tikilib. Dam örtüyü şiferdəndir. Minarəsi dəyirmi formadadır. Hündürlüyü 12 metrdir. Məscidin giriş qapısından içəridə dəhliz yerləşib. Məscidin döşəməsi daş plitədən, tavanı isə taxtadandır. Minbəri taxtadan və dördpillələdir. Tavanı düzbucaqlı formada olub, 6 dəmir sütun üzərində dayanıb. Əsas ibadət zalı pərdə ilə kişilər və qadınlar şöbəsinə bölünüb. İbadət zalında 6 pəncərə qoyulub. Məscidin mehrabı divarın içindədir, hündürlüyü 2 metrdir. Məscid divarları iç və çöl tərəfdən qum-sementlə suvanıb. Tavan ağardılıb.

## HƏZRƏT ƏBÜLFƏZL İBN ƏLİ (Ə) MƏSCİDİ



Məscid Neftçala rayonunun Aşağı Qaramanlı kəndindədir. İnşa tarixi 1992-ci ilə aiddir. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi isə 10x30 metrdir.

Məscidin əsas binası və minarələri mişar daşı ilə hörülüb. Dam örtüyü dəmir təbəqə ilə işlənib. Hər iki minarələr dəyirmi formada olub, hündürlüyü 16 metrdir. Həyətyanı sahəsi qırmızı kərpic və dəmirlə işlənmiş hasarla əhatə olunub. Məscid hündürlüyü 1 metr olan səki üzərində yerləşib. Səki daş plitə ilə işlənib. Məscidin döşəməsi də daş plitə ilə döşənib.

Məscid yerli kənd sakinlərinin təşəbbüsü və maliyyə vəsaiti hesabına tikilib. Məscidin divarlarında ərəb və latın əlifbası ilə bu sözlər qeyd edilib. "Qaramanlı kəndi Həzrət Əbülfəzl ibn Əli (ə) məscidi".

Bu məscid tikilməmişdən qabaq da burada məscid olub.



## XILLI QƏSƏBƏSİ FATİMEYİ-ZƏHRA MƏSCİDİ



Məscid Neftçala rayonunun Xıllı qəsəbəsindədir. İnşa tarixi XX əsrin əvvəllərinə aiddir. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi isə 17x35 metrdir. Həyətyanı sahə yaşıllıqlar içərisində olub, dəmir hasara alınıb. Məscidin ön divarında ərəb əlifbası ilə "Fatimeyi-Zəhra Cümə məscidi" sözləri yazılıb. İki giriş qapısı vardır. Minarəsi bişmiş kərpicdən və dəyirmi formadadır. Minarə tək şərəfəyə malik olub, hündürlüyü 18 metrdir. Minarənin üstündə aypara və 8 guşəli ulduz rəmzi qoyulub. Məscidin dam örtüyü isə dəmir təbəqə ilə işlənib. İbadət zalında 25 pəncərə qoyulub. Məscidin pəncərə və qapıları taxtadan düzəldilib. Döşəməsi daş, tavanı isə taxtadandır. Tavan düzbucaqlı formada olub, 16 ağac sütun üzərində dayanıb. Minbər taxtadan, 3 pillələdir. Mehrabı divarın içindədir. Mehrabın üstündə daşdan aypara və 5 guşəli ulduz rəmzi qoyulub.



Məscidin bünövrəsi molla Ağababa Axundzadə tərəfindən qoyulub. Sonradan məscid bərbad vəziyyətə düşdüyündən yerli sakinlər, xüsusən, Kərbəlayı Mirböyükağa və Həsənağa tərəfindən bərpa edilib.

**Qeyd:**

Neftçala rayonunun Bankə qəsəbəsi, Seyidlər, Qoltuqkənd, Həsənabad, Qədimkənd, Qarabulaq, Kür, Beş Xol, Qaraqaçdı, Qaçaqkənd, Müşfiqkənd, Boyat və Astanlı kəndlərində də (13 kənddə) məscidlər fəaliyyətdədir.

# OĞUZ RAYONU

## OĞUZ RAYON CÜMƏ MƏSCİDİ



Məscid Oğuz şəhərində yerləşib. İnşa tarixi 1990-95-ci illərə aiddir. Həyətyanı sahəsi 4000 kv.metr, iç sahəsi isə 16x10 metrdir.

Məscid mişar daşı və bişmiş kərpiclə inşa edilib. Məscid binası formaca dördbucaqlıdır. Damı ağ dəmir təbəqə ilə örtülüb. Minarəsi Osmanlı memarlıq üslubunda tikilib. Hündürlüyü 23 metrdir. Minarəni tikən usta Şahiddir. Döşəmədən tavana qədər olan hündürlük 6 metrdir. Döşəmə və tavan taxtadandır. İbadət zalında 14 pəncərə qoyulub. Pəncərələr tağvari formadadır və taxtadan düzəldilib. Bir əsas giriş qapısı var. Giriş qapısının qarşı tərəfində açıqşəkilli eyvan yerləşib. Bundan əlavə, məscidin yan tərəfində köməkçi otaqlar inşa edilib. Məscidin günbəzi və minbəri yoxdur.

Məsciddə tikinti işləri 1990-cı ildən başlansa da, maddi imkan olmadığından 1993-cü ilə qədər dayandırılıb. 1993-95-ci illərdə tikintini Türkiyənin Gənclərə Yardım Fondu davam etdirmiş və başa çatdırmışdır. Məscidin ustaları usta Məcnun Aslanov və Elman Nurlyevdir. Məscid 1996-cı ildə qeydiyyatdan keçmişdir. Oğuz rayon Cümə məscidinin imamı Əlyəsə Əşrəfoğludur.

**Qeyd:**

Oğuz rayonunun daha 7 kəndində-Xaçmaz, Sincan, Kərimli, Bayan, Daşağıl, Muxas və Qumlax kəndlərində də məscidlər fəaliyyət göstərir.

# SUMQAYIT MƏSCİDLƏRİ

## SUMQAYIT ŞƏHƏR CÜMƏ MƏSCİDİ



1988-ci ildə Sumqayıt şəhər Cümə məscidinin bünövrəsi qoyulsa da, sonradan onun tikintisi dayandırılıb. Lakin məscidin inşası yenidən davam etdirilmiş və 2001-ci ilin əvvəllərindən etibarən möminlərin ixtiyarına verilib.

Qeyd edək ki, geniş bir həyətyanı sahəyə malik olan Sumqayıt şəhər Cümə məscidi əsas etibarilə mişar daşından tikilib. Məscidin minarəsi yoxdur. İkimərtəbəyə malik olan bu məscidin günbəzinin aşağı hissəsi sanki ibadət zalının üçüncü mərtəbəsi rolunu oynayır. Məscidin qapı və pəncərələri tağvari formadır.

## SUMQAYIT ŞƏHƏR MƏSCİDİ



1989-cu ildə inşa edilib. Məscid kimi istifadə olunan bu bina Sumqayıt şəhər Ruhani İdarəsinə məxsusdur.

Məscidin əsas ibadət zalı 4 sütun üzərində dayanıb. Divarlar mişar daşından tikilib. Döşəməsi və tavanı betondur. Döşəmədən tavanadək hündürlüyü 6 metr, günbəzədək isə 10 metrə yaxındır. Günbəz dəmir təbəqə ilə örtülüb.

Bu məsciddə eyni vaxtda təqribən 100 nəfər adam ibadət edə bilər.

## HACI ZEYNALABDİN TAĞIYEV QƏSƏBƏSİ CÜMƏ MƏSCİDİ



Məscid Sumqayıtın H.Z.Tağıyev qəsəbəsindədir. Əsas ibadət zalının sahəsi 160 kv.metrdir.

İki mərtəbəli olan məscid mişar daşından tikilib. Qeyd etmək lazımdır ki, burada tikinti işləri davam edir. İkinci mərtəbə qadınlar üçün nəzərdə tutulur.

Məscid Kərbəlayı Bəyverdinin şəxsi vəsaiti ilə tikilir.



## CORAT KƏND CÜMƏ MƏSCİDİ



Məscid Sumqayıtın Corat qəsəbəsində yerləşib. H.q. təqvimi ilə 409-cu ildə inşa edilib. Sahəsi 16x5 metrdir.

Məscidin divarları sal daşlardan tikilib. İbadət zalı 4 tağdan ibarətdir. Tağlar günbəzdə bir-birinə birləşib. Günbəzin diametri 5 metrdir. Günbəzdə 4 düzbucaqlı pəncərə qoyulub.

Məscid sadə konstruksiyaya malikdir. 1937-76-cı illərdə anbar kimi istifadə olunub.

Məscidin yerləşdiyi ərazi vaxtilə qəbristanlıq olub. Hal-hazırda isə burada evlər inşa olunub.

# SİYƏZƏN RAYON MƏSCİDLƏRİ

## SİYƏZƏN CÜMƏ MƏSCİDİ



Məscid Siyəzən rayonunun mərkəzindədir. İnşa tarixi 1990-1994-cü illərə aiddir. Bu məscid Siyəzən rayon sakini Böyükağa Ağasəlimin təşəbbüsü və camaatın vəsaiti hesabına tikilib. Bununla bərabər rayonda fəaliyyət göstərən ayrı-ayrı təşkilatlar da məscidin tikintisinə yaxından köməklik göstərib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 19,5x13 metrdir.

Məscid forma etibarilə düzbucaqlıdır. Divarları mişar daşından hörülüb. Pəncərələrin kənarı fasad tərəfdən bişmiş kərpiclə işlənib. Damı dəmir təbəqə ilə örtülüb. Mehrab sadə formada olub, hündürlüyü 2 metr. 30 sm-dir. Minbəri daşdandır və altıpilləlidir. Günbəzin diametri 6 metr olub, səkkizguşəlidir. Günbəzdə səkkiz tağvari pəncərə qoyulub. Yerdən tavanadək hündürlüyü 6 metr, yerdən günbəzədək isə 8,5 metrdir. Məscidin minarəsi yoxdur. Məscidin bir əsas giriş qapısı var. Əsas ibadət zalının aşağı və yuxarı hissəsində 16 pəncərə qoyulub. Pəncərələrin kənarları müxtəlif nəbati ornamentlərlə işlənib. Məscidin giriş qapısından içəride-ikinci mərtəbədə qadınlar şöbəsi yerləşib. Həyətyanı sahəsi asfaltla döşənib. 1994-cü ildə məscid istifadəyə verilib.

Məscidin axundu Məşədi İbrahimdir.

## SƏDAN KƏND CÜMƏ MƏSCİDİ



Məscid Siyəzən rayonunun Sədan kəndində yerləşib. İnşa tarixi 1890-cı ilə aiddir. Həyətyanı sahəsi 800 kv.metr, iç sahəsi 9x8,5 metrdir.

Məscid yonulmuş sal daşlardan tikilib. Divarların qalınlığı 80 sm-dir. Bir giriş qapısı və dörd pəncərəsi var. Minbəri kərpicdən hörülüb və 3 pilləlidir. Mehrabı yonulmuş sal daşlardandır və hündürlüyü 2 metrdir.

Bu məscid kənd sakini Hacı Mehdi tərəfindən tikilib. Sovetlər dövründə anbar və mağaza kimi istifadə olunub. 1990-cı ildən etibarən məscid kimi fəaliyyətə başlayıb. 1991-92-ci illərdə burada təmir-bərpa işləri aparılıb. Bu zaman məscidin damı və tavanı yenidən işlənib.

### XIDIR-ZİNDƏ BABA PİRİ



Pir Siyəzən rayonunun Qara Şıxı kəndi yaxınlığında, Beşbarmaq dağındadır. Pirin yerləşdiyi yer dəniz səviyyəsindən təxminən 500 metr yüksəklikdə, qayalıq bir yerdədir. Pir-abidə bir neçə hissədən - ibadətgahdan, dəstəmazxanadan, habelə Xıdır-Zində babanın (ehtimal olunan) bacısının qəbrindən ibarətdir.

Yerli camaatın verdiyi məlumata görə, müxtəlif xəstəliklərə tutulan, eləcə də övladı olmayan adamlar bura pənah gətirdikdən sonra öz niyyətlərinə çatırlar.

### YENİKƏND MƏSCİDİ



Məscid Siyəzən rayonunun Yenikənd kəndində yerləşib. Bünövrəsi 1989-cu ildə qoyulub. İç sahəsi 291 kv.metr, həyətyanı sahəsi isə 500 kv.metrdir.

Məscid düzbucaqlı formadadır. Divarları yonulmuş sal daşlardan hörülüb. Məscid iki hissədən - qadınlar və kişilər şöbəsindən ibarətdir. Kişilər şöbəsinin sahəsi 156 kv.metr, qadınlar şöbəsinin sahəsi isə 135 kv.metrdir. Məscidin iki giriş qapısı və 12 pəncərəsi var. Döşəməsi torpaq, tavanı isə taxtadandır. İki minarəsi var. Onların hündürlüyü 10 metrdir. Məscidin damı dəmir təbəqə ilə örtülüb.

Məsciddə iki daş kitabə də həkk olunub.



## SALYAN RAYON MƏSCİDLƏRİ

### SALYAN ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Məscid Salyan şəhərinin mərkəzindədir. Əsas giriş qapısının sol tərəfində divara vurulmuş dəmir lövhədə kiril əlifbası ilə "1865. Məscidi usta Kərbəlayı Əli Əkbər Hacı Mehdinin oğlu Ağa Hüseynin adına tikmişdir." sözləri yazılıb

Divarları daş plitələrlə üzlənmiş bu məscidin həyətyanı sahəsi 21x20 metr, iç sahəsi isə 21x12 metrdir. Bu məscid vaxtilə 18 günbəzə malik olduğu halda, indi 15 günbəz qalmışdır. Yerli camaatın bildirdiüinə görə, həmin 3 günbəz 1930-cu ildə sökülmüşdür. Məscidin günbəzləri 10 ədəd daş sütun üstündə dayanıb. Sütunlar isə sal daşlardandır.



Giriş qapısının yan tərəflərində 2 daş kitabə, habelə giriş qapısından içəridə daha bir daş kitabə həkk olunub. Məscidin iç divarları qırmızı kərpiclə işlənib. Salyan Cümə məscidi əsasən olduğu kimi saxlanılsa da, vaxtilə tikilmiş minarəsi sökülmüşdür. İndiki minarənin hündürlüyü isə 8 metrdir. Minbəri taxtadandır və beşpilləlidir. Mehrabının kənarlarında ərəbcə kitabələr həkk edilib. Salyan Cümə məscidinin ustası Kərbəlayı Əli Əkbər Hindistanda, eləcə də Ərdəbildə də məscid tikmişdir. O, əslən ərdəbillidir.

### AĞA MİRƏŞRƏFAĞA MƏSCİDİ



Məscid Salyan şəhərinin mərkəzində, Seyidlər məhəlləsində yerləşib. Əsas giriş qapısından sağ tərəfdə, divarda daş kitabə həkk olunub. Kitabədə məscidin hicri-qəməri tarixi ilə 1324-cü ildə tikildiyi göstərilir. İki əsas giriş qapısı olan bu məscidin kişilər üçün ibadət zalının sahəsi 10x22 metrdir. Qadınlar şöbəsi isə iki mərtəbəli olub, birinci mərtəbəsi kişilər üçün nəzərdə tutulmuş ibadət zalından taxta arakəsmə ilə , ikinci mərtəbəsi isə şəbəkəli arakəsmə ilə ayrılır. Qadınlar şöbəsinin hər birinin iç sahəsi 10x5 metrdir. Məscidin həyətyanı sahəsi isə 800 kv.metrdir.

Məscidin kişilər üçün ibadət zalında dördpilləli və taxtadan minbər qoyulub. Mehrabı divarın içərisində olub, hündürlüyü 3 metrdir. Məscidin divarları bişmiş kərpiclə işlənib və həm fasad, həm də iç divarlar qum-sement məhlulu ilə suvanıb. Məscidin yerdən tavana qədər hündürlüyü 5 metr olub, tavanı düzbucaqlı formadadır. Tavan 6 ədəd taxta sütun üzərində dayanıb. Məscidin ibadət zalının ortasından isə qədimi çilçıraq asılıb. Bu çilçıraq ibadət zalına işıq verməklə yanaşı, həm də istilik verir.

Məscid Sovet dövründə anbar və hospital kimi istifadə edilib. Məscid vaxtilə Hacı Tağı tərəfindən Ağa Mirəşrəfağanın adına tikilib. Bu məscid Salyanda, ümumiyyətlə, kimsəsiz adamlara yardım göstərməsi ilə də seçilib. Həmçinin məscidin fəaliyyəti sayəsində 172 nəfər yerli sakin tövbə edib. Məscidin mollası Kərbəlayı Məhəmməd Əziz oğludur.

## HACI TAĞI MƏSCİDİ



Məscid hicri-qəməri tarixi ilə 1327-ci ildə Salyan şəhərinin mərkəzində tikilib. Həyətyanı sahəsi 700 kv.metrdir və mişar daşı ilə hasara alınıb. Məscidin iç sahəsi iki hissədən ibarət olub, kişilər üçün ibadət zalının sahəsi 8x18 metr, hündürlüyü isə 5 metrdir. İbadət zalının tavanı düzbucaqlı formada olub, 5 ədəd taxta sütun üstündə dayanıb. Minbəri taxtadandır və dördpilləlidir. Məscidin mehrabı divarın içərisindədir və hündürlüyü 3,5 metrdir. Məscidin ibadət zalının tavanından aşağı hissəsi, bütün divar boyu ərəbcə, rənglə Quran ayələri yazılıb.

Məscidin qadınlar şöbəsi isə ikimərtəbəli olub, hər birinin iç sahəsi 8x5 metrdir. Mişar daşı ilə ucaldılmış bu məscidin divarları fasad tərəfdən daş plitələrlə üzlənib. Damının örtüyü isə ağ dəmir təbəqə ilə işlənib. Minarəsi, günbəzi yoxdur. Məscidin iki əsas giriş qapısının ortasında divarda daş kitabə həkk edilib. Burada məscidin 1327-ci ildə tikildiyi göstərilir. Məscidin həyətində isə möminlərin ibadəti üçün bütün lazımi şərait yaradılıb.

Məscidin axundu Hacı Salman Babazadə Məhəmməd oğludur. 1979-cu ildən burada axundluq edir.

*Qeyd:*

Ağa Mirbağırağa Salyanlının bərə ağzında məscidi olub. İndi isə bu məscid yoxdur, sökülüb dağıdılıb. Qeyd edək ki, həmin şəxs vaxtilə buradan sürgün olunub və məscidin yerində sonradan ev tikilib..

## SEYİD SALƏDDİN ƏRDƏBİLİ MƏQBƏRƏSİ

Məqbərə Salyan rayonundadır. Sali Seydan ləqəbi ilə tanınan Seyid Saləddin miladi təqvimlə 1532-ci ildə Sali döyüşündə şəhid olmuşdur. Məqbərənin tikilmə tarixi 80 ilə yaxındır. Hal-hazırda məscidin vəsaiti hesabına burada təmir-bərpa işləri aparılır. Seyid Saləddin Ərdəbilinin yaxın qohumları Ərdəbildə yaşayır. (M.S.Ordubadinin "Qılınc və qələm" əsərində bu haqda məlumat vardır).

## DAYIKƏND KƏND MƏSCİDİ



Məscid Salyan rayonunun Dayıkənd kəndində yerləşib. 1991-ci ildə inşa olunub. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 12x22 metrdir.

Məscidin orijinal görünüşü var. Əsas ibadət zalı düzbucaqlı formadadır. Damın üstündə iki günbəz və 2 minarə qoyulub. Dəyirmi formalı minarələrin hündürlüyü 4 metrdir. Həyətyanı sahə dəmir hasara alınıb. Məscidin xarici divarları ağ rənglə işlənib. Tavanı düzbucaqlı formada olub, beton plitələrlə işlənib. Tavan 5 ədəd azbest sütun üzərində dayanıb. Məscidin əsas ibadət zalının hündürlüyü 4 metrdir. İbadət zalında iki giriş qapısı və 14 pəncərə qoyulub. Pəncərə və qapılar tağvari formadadır. İbadət zalı taxta arakəsmə ilə qadınlar və kişilər şöbəsinə ayrılıb. Mehrab divarın içində olub, taxta ilə üzlənmişdir. Məscidin döşəməsi torpaqdır.

Məscid Rəşad Seyranovun başçılığı altında kənd camaatı tərəfindən tikilib.



## QIZILAĞAC KƏND MƏSCİDİ



Məscid Salyan rayonunun Qızılağac kəndində 1990-cı ildə inşa edilib. Həyətyanı sahəsi 500 kv. metr, iç sahəsi isə 8x20 metrdir.

Məscidin divarları mişar daşı ilə hörülüb. Həyətyanı sahəsi mişar daşından tikilmiş hasara alınmışdır. Döşəməsi torpaq, tavanı isə taxtadandır. İbadət zalının hündürlüyü 3,5 metrdir. İç divarları sement məhlulu ilə suvanmış və əhənglə ağardılmışdır. Məscidin yanında qoşa minarə ucaldılıb. Onlar dəmir borudan olub, qırmızı kərpiclə üzlənib. Məscidin günbəzi bişmiş kərpiclə hörülüb və yaşıl rənglə işlənib. Günbəzin üstündə dəmir təbəqədən aypara rəmzi qoyulub. Məscidin damı şiferlə örtülüb. Giriş qapılarının ön tərəfində sahəsi 4x3 metr olan dəhliz yerləşib. İbadət zalında tağvari formada altı pəncərə qoyulub. Məscid yerli sakin Yusif Dadaşovun başçılığı ilə tikilib.

## KÜRKƏND KƏND İMAM HÜSEYN MƏSCİDİ



Məscid Salyan rayonunun Kürkənd kəndindədir. Yerli camaatın qeyd etdiyinə görə, burada 1969-cu ildən etibarən məscid fəaliyyət göstərir. Lakin 1978-ci ildə burada yeni bir məscidin bünövrəsi qoyulub. 1983-cü ildə isə daha bir məscidin tikintisinə başlanıb. Bu da məscidin yerləşdiyi həyətin sahibi Rəhimov Mirzəağa Rəşid oğlu, Kərimov Əli Firudin oğlu və Ramiz Abbasqulu oğlunun və digər kənd sakinlərinin maddi vəsaiti hesabına başa gəlmişdir. Məscidin iç sahəsi 19x9 metrdir.

Məscid bişmiş qırmızı kərpic və mişar daşı ilə tikilib. Forması düzbucaqlı şəklindədir. Giriş qapısının sol tərəfində bişmiş kərpicdən ucaldılan minarənin hündürlüyü 12 metrdir. Minarənin məhəccəri dəmirlə işlənib.

## ƏRƏB BƏDİRXANLI İMAM HÜSEYN MƏSCİDİ



Məscid Salyan rayonunun Ərəb Bədirxanlı kəndində yerləşib. İnşa tarixi dəqiq məlum deyil. Lakin yerli sakinlərin nəql etdiklərinə görə, məscid 3 dəfə bərpa edilib. İkinci bərpa işinin tarixi məscidin divarına həkk olunub. Bu h.q. tarixi ilə 1333-cü, miladi tarixlə 1911-1920-ci illərdə Səməd bəy Kərbəlayı Cəbrayıl oğlu tərəfindən həyata keçirilib. Məscidin üçüncü dəfə rekonstruksiyasına 1990-cı ildə başlanılıb. Köhnə məscid 1994-cü ilə qədər qismən sökülmüş və hazırkı məscidin içərisində qorunub saxlanılıb. Həyətyanı sahəsi 2000 kv.metr, iç sahəsi isə 20x10 metrdir.

Məscidin günbəzi dəmir təbəqədəndir. Hündürlüyü isə 9 metrdir. Məscidin yan divarlarında mərmər plitələrin üstündə ərəbcə "Allah, Məhəmməd, Əli" və s. sözlər yazılıb. Günbəzin üstündə 5 qəndil qoyulub. Ən yuxarıda dəmir təbəqə ilə ərəbcə "Allah" sözü yazılıb.





Məscidin tavanı düzbucaqlı formada olub, 3 ədəd sütun üzərində dayanıb. Məscidin tağvari formalı 3 giriş qapısı və 8 tağvari şəkildə pəncərəsi var. Lap yuxarı hissəsində isə 4 bucaqlı formada 5 pəncərəsi var. Minbər 4 pilləli taxtadandır. Mehrabı divarın içərisində olub, tağvari şəkildədir. Məscidin qadınlar şöbəsi iki mərtəbəlidir.

## XƏLƏC KƏND MƏSCİDİ

Salyan rayonunun Xələc kəndində yerləşən bu məscidin bünövrəsi 1991-ci ildə qoyulub. Həyətyanı sahəsi 1000 kv.metrdir.



Məscidin həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, dəmir hasara alınıb. 4 bucaqlı formaya malik olan bu məcid iki şöbədən - qadınlar və kişilər şöbəsindən ibarətdir. Həm qadınlar, həm də kişilər şöbəsinin giriş qapısının ön tərəfində mərmər lövhə üzərində bu sözlər yazılıb: "Məşədi Aslan məscidi - 1991-ci il". Məscidin dörd bir küncündə minarələr ucaldılıb. Minarələrin hündürlüyü 5 metrdir.

Məscid müsafirlərin, qonaqların və ümumiyyətlə, yoldan keçənlərin ibadət etməsi üçün nəzərdə tutulub.



## KÜRSƏNGİ KƏND MƏSCİDİ



Məscid Salyan rayonunun Kürsəngi kəndində yerləşib. Bünövrəsi 1991-93-cü illərdə qoyulub. İç sahəsi 13x5 metrdir.

Məscid mişar daşından tikilib. Tavanı faner, döşəməsi daş plitədəndir. Məscidin iki giriş qapısı və dörd pəncərəsi var. İnteryeri çox sadə quruluşa malikdir. Mehrabı da sadə formadadır. Damı dəmir təbəqə ilə örtülüb.

Düzbucaqlı formaya malik olan bu məscid kənd sakini Səftər Rəhim oğlu Rəhimovun şəxsi vəsaiti ilə tikilib. O, həmçinin kənddə bir çox xeyriyyə işlərində yaxından iştirak edib.

*Qeyd:*

Salyan rayonunun Şorsulu, Bayankənd, Sarvan, Seyid Sadıqlı, Qarabağlı və Marışlı kəndlərində də (6 kənd) məscidlər var.

# SAATLI RAYON MƏSCİDLƏRİ

## SAATLI ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Bu məscid Saatlı şəhərinin mərkəzindədir. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 25x34 metr, hündürlüyü isə 6 metrdir. Yerdən günbəzədək hündürlüyü isə 11 metrdir. Həyətyanı sahəsi daş və dəmirdən ucaldılmış hasara alınıb.

Düzbucaqlı formaya malik olan bu məscid 1995-ci ildə tikilmişdir. Tavanı betondan olub, 12 düzbucaqlı formalı sütun üzərində dayanıb. Sütunlar mişar daşından hörülüb. Məscidin qadınlar üçün nəzərdə tutulmuş hissəsi ikinci mərtəbədə yerləşir. Bura hücrələr şəklində olan 10 otaqdan ibarətdir və ümumi sahəsi 200 kv.metrə bərabərdir. Məscidin ibadət zalı dörd bir tərəfdən daş plitələrlə üzlənib.

Saatlı şəhər Cümə məscidinin iki böyük minarəsi var. Kərpicdən hörülmüş bu minarələrin hündürlüyü 20 metrdir. Minarələrin aşağı hissəsi düzbucaqlı, yuxarı hissəsi isə dəyirmi formadadır.

Minbəri taxtadandır və beşpillədir. Mehrabı isə divarın içərisində olub, hündürlüyü 3 metrdir.

Məscidin axundu Hacı Vadər Mirzəxanoğludur.

## SAATLI ŞƏHƏR MƏSCİDİ

Saatlı şəhərində yerləşən bu məscidin həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 12x42 metrdir.

Saatlı şəhər məscidi düzbucaqlı formaya malik olub, damı şiferlə örtülmüşdür. Divarları iç və fasad tərəfdən qum-sement məhlulu ilə suvanmış və ağ rənglə işlənmişdir. Məscidin ön tərəfində eyvan yerləşmişdir.

Bütün qapı və pəncərələr düzbucaqlı formaya malikdir.

Saatlı şəhər məscidinin tikilmə tarixi XX əsrin 60-cı illərinə aiddir.



## HACIQASIMLI KƏND MƏSCİDİ

Məscid Saatlı rayonunun Hacı Qasımlı kəndindədir.

Hacıqasımlı kənd məscidinin ilkin tarixi əsrin əvvəllərinə aiddir. 1961-ci ildə burada rekonstruksiya işləri aparılıb. Axırıncı dəfə 1992-ci ildə təmir olunmuşdur. Sovetlər dövründə bu məscid fəaliyyət göstərmişdir. Həyətyanı sahəsi 1200 kv.metr, iç sahəsi 10x15 metrdir.



## MƏZRƏLİ KƏND MƏSCİDİ

Məscid Saatlı rayonunun Məzrəli kəndindədir. Həyətyanı sahəsi 2000 kv.metr, iç sahəsi 20x8 metrdir.

İndiki məscidin yerində vaxtilə də məscid olub. Çiy kərpiclə tikildiyindən həmin məscid 1990-cı ildə sökülmüş və indiki məscid inşa olunmuşdur. Tikinti işləri indi də davam etdirilir. Məscid mişar daşından inşa olunub. Dam örtüyü və günbəzi dəmir təbəqə ilə örtülüb. Məscidin hündürlüyü 19,5 metr olan (dəmir borudan) minarəsi də var.





## NƏRİMANKƏND KƏND MƏSCİDİ

Məscid Saatlı rayonunun Nərimankənd kəndində yerləşib. Həyətyanı sahəsi 200 kv.metr, iç sahəsi 12x34 metr, hündürlüyü 3 metrdir. Düzbucaqlı formaya malik olan bu məscid 1993-1994-cü illərdə kənd camaatı tərəfindən tikilmişdir. Məscid binası başdan-başa mişar daşı ilə işlənmişdir. Damı şiferlə örtülüb. Döşəməsi taxta, tavanı fanerdir. Tavan düzbucaqlı formaya malikdir və dörd sütun üzərində dayanıb.

Nərimankənd kənd məscidinin ibadət zalını 14 tağvari pəncərə bəzəyir.



## QARACALAR KƏND MƏSCİDİ

Məscid Saatlı rayonunun Qaracalar kəndində tikilib. Həyətyanı sahəsi 2000 kv.metr, iç sahəsi 6x34 metrdir.

Qaracalar kənd məscidi 1990-cı ildə kənd camaatı tərəfindən tikilib. 1997-ci ildə burada əsaslı təmiir işləri aparılmışdır.

Qaracalar kənd məscidinin damı dəmir təbəqə ilə işlənib. Döşəməsi asfalt, tavanı isə taxtadır. Ön tərəfində açıqşəkilli eyvan yerləşib.

Qaracalar kənd məscidinin damı üstündə iki ədəd kiçik günbəz qoyulub. Minarə məscid binasının qarşısında olub, hündürlüyü 13 metrdir. O, dəmir borudan hazırlanıb və tək şərəfəyə malikdir.



## DƏLLƏR KƏND MƏSCİDİ

Məscid Saatlı rayonunun Dəllər kəndində yerləşib. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 11x33 metr, hündürlüyü 3 metrdir.

Dəllər kənd məscidi düzbucaqlı formada olub, mişar daşından tikilib. Damı ağ dəmir təbəqə ilə örtülüb. Döşəmə və tavan taxtadan işlənib. Pəncərələr düzbucaqlı şəkildədir.

Dəllər kənd məscidinin dəmir borudan olan tək minarəsi var. Minarənin hündürlüyü 10 metrdir və üstündə dəmirdən aypara və beşguşəli ulduz qoyulub.

Dəllər kənd məscidinin ön tərəfində açıqşəkilli eyvan yerləşib.



### QIRAQLI KƏND MƏSCİDİ

Məscid Saatlı rayonunun Qıraqlı kəndində tikilib. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 22x7 metr, hündürlüyü 4 metrdir. Qıraqlı kənd məscidinin divarları mişar daşından tikilib. Tavanı düzbucaqlı formadadır və altı taxta sütun üzərində dayanıb.

1970-ci ildə tikilən məscidin divarları iç və fasad tərəfdən sement məhlulu ilə suvanıb. Bütün pəncərə və qapıları düzbucaqlı formada olub, taxta ilə işlənib.



*Qeyd:*

Bu kənddə ikinci bir məscid də var. O, nisbətən əvvəl, XX əsrin əvvəllərində inşa olunub.

### MİNBAŞILAR KƏND MƏSCİDİ

Məscid Saatlı rayonunun Minbaşılar kəndində inşa edilib. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi 30x14 metr, hündürlüyü 3 metrdir.

Minbaşılar kənd məscidinin tarixi XX əsrin əvvəllərinə aiddir. Formaca düzbucaqlı olan bu məscid mişar daşı ilə tikilib. Damı şiferlə örtülüb. Tavan taxta ilə işlənib və doqquz daş sütun üstündə dayanıb.

Minbaşılar kənd məscidinin divarları iç və fasad tərəfdən qum-sement məhlulu ilə suvanıb və ağardılıb.



### MİNBAŞILAR KƏND HUN BABA PİRİ

Bu pir Saatlı rayonunun Minbaşılar kəndinin əsas qəbristanlığındadır. Düzbucaqlı formasında olan bu pirin damı şiferlə örtülüb. İç sahəsi 6x4 metrdir. Divarları çaylaq daşı ilə tikilib. Pirin içərisində-orta hissədə qəbir var. Burada dəfn edilmiş şəxs pirin adından göründüyü kimi, Hun tayfalarından olan məşhur bir şəxsə məxsusdur. Məlum olduğu kimi, Hun tayfaları şimaldan Azərbaycana hərəkət etmişdir. V əsrdə Azərbaycana gəlmiş Hunların mühüm izləri məhz Muğanda qorunub saxlanmışdır. Yerli əhali bu piri müqəddəs hesab edir.







### SABİRABAD ŞƏHƏR CÜMƏ MƏSCİDİ

Məscid Sabirabad şəhərinin mərkəzində yerləşib. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 211 kv.metrdir. Məscid düzbucaqlı formada olub, divarları bişmiş kərpicdən hörülüb. Damın üstü dəmir təbəqə ilə işlənib. Döşəmə və tavan da taxta ilə işlənib. Tavan səkkiz taxta sütun üzərində dayanıb. Döşəmədən tavanadək hündürlüyü 4 metrdir. Məscidin minbəri taxtadan olub, səkkizpilləlidir. Mehrabı divarın içərisindədir və hündürlüyü 2 metrdir.

Sabirabad şəhər Cümə məscidinin tavanı düzbucaqlı olub, damının üstündə günbəzi var. Günbəz dəmir təbəqə ilə işlənib və onun hündürlüyü 2,5 metrdir. Minarə dəmir borudan olub, hündürlüyü 12 metrdir.

Sabirabad şəhər Cümə məscidinin axundu Seyid Mirhəbib Mirağa oğludur.



### SABİRABAD ŞƏHƏR İMAM RZA MƏSCİDİ

Məscid Sabirabad şəhərindədir. İran İslam Respublikasının "Hilali-Əhmər" Cəmiyyəti ilə Sabirabad şəhər İcra Hakimiyyətinin birgə köməkliyi sayəsində 1993-cü ildə inşa edilib. Məscid şəhərdə məskunlaşmış qaçqın və köçkünlər üçün nəzərdə tutulub.

Sabirabad şəhər İmam Rza məscidinin iç sahəsi 14x12 metr, hündürlüyü isə 4 metrdir. Divarları mişar daşından hörülüb. Tavanı mişar daşından tikilmiş 3 sütun üzərində dayanıb. Damın üstündə hündürlüyü 3 metr olan iki qüllə ucaldılıb. Hər iki qüllənin üstündə ərəb qrafikası ilə "Allah" sözü yazılıb.



### YOLÇUBƏYLİ KƏND MƏSCİDİ (I)

Məscid Sabirabad rayonunun Yolçubəyli kəndində inşa edilib. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 28x9 metrdir.

Düzbucaqlı formada olan bu məscid 1980-ci ildə tikilib. 1990-cı ildə burada təmir-bərpa işləri aparılıb. Məscidin ön tərəfində eyvan yerləşib. İbadət zalı iki hissəyə-kişilər və qadınlar şöbəsinə bölünüb. Tavan və döşəməsi taxta ilə işlənib. Bütün qapı və pəncərələr düzbucaqlı formadadır.



## YOLÇUBƏYLİ KƏND MƏSCİDİ (II)

Məscid Sabirabad rayonunun Yolçubəyli kəndindədir. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 29x9 metrdir.

Yolçubəyli kənd məscidi 1996-cı ildə tikilmişdir. Hal-hazırda burada bəzi inşaat işləri aparılır. Dam örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Günbəz damın üstündən 2.5 metr hündürlükdədir.

Yolçubəyli kənd məscidi mişar daşından inşa olunub və formaca düzbucaqlıdır. Bu məscid kənd camaatının vəsaiti ilə tikilib.



## YOLÇUBƏYLİ KƏND MƏSCİDİ (III)

Məscid Sabirabad rayonunun Yolçubəyli kəndində tikilib. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi 22x9 metrdir, hündürlüyü 4,5 metrdir.

Yolçubəyli kənd məscidinin binası başdan-başa mişar daşından tikilib. Damı dəmir təbəqə ilə örtülüb. Tavan və döşəmə taxta ilə işlənib.

Yolçubəyli kənd məscidinin tikintisi 1986-cı ildə başlanıb. Hal-hazırda tikinti işləri davam etdirilir.



## QARALAR KƏND MƏSCİDİ

Sabirabad rayonunun Qaralar kəndində yerləşən bu məscidin həyətyanı sahəsi 6000 kv.metr, iç sahəsi 11x25 metrdir.

Qaralar kənd məscidi düzbucaqlı formadadır və başdan-başa mişar daşı ilə tikilmişdir. Damının örtüyü şiferdəndir. Döşəməsi torpaq, tavanı isə fanerlə işlənib. Məscidin əsas giriş qapısından sol tərəfdə minarə qoyulub. Minarə dəmir borudandır və hündürlüyü 12 metrdir.

Qaralar kənd məscidi 1996-cı ildə Rəcəb Hacı Abbas oğlunun təşəbbüsü ilə tikilmişdir.





## TÜRKƏDİ KƏND MƏSCİDİ

Məscid Sabirabad rayonunun Türkədi kəndindədir. Məscidin binası 1990-cı ildə tikilib istifadəyə verilmişdir. Məscid binası iki hissəyə-kişilər və qadınlar şöbəsinə bölünüb. Kişilər şöbəsinin sahəsi 240 kv.metr, qadınlar şöbəsinin sahəsi 120 kv.metr, həyətyanı sahəsi isə 2500 kv.metrdir.

Türkədi kənd məscidinin damı ağ dəmir təbəqə ilə işlənib. Yerli sakin Hacı Əlabbas məscid üçün qoz ağacından minbər düzəldib. Məscidin qoşa minarələri ayrı-ayrı tərəflərdə yerləşib. Onlar hər ikisi (hündürlüyü 10 metr) bişmiş kərpicdən inşa olunub və üstündə aypara rəmzi qoyulub.



## ƏLİCANLI KƏND MƏSCİDİ

Məscid Sabirabad rayonunun Əlicanlı kəndində inşa olunub. İki mərtəbədən ibarət olan bu məscid binası mişar daşından tikilib. Vaxtilə burada mövcud olan (1959-cu ildə tikilmiş) məscidin yerində inşa olunan bu məscid öz memarlığı baxımından rayondakı digər məscidlərdən seçilir. Həyətyanı sahəsi 2000 kv.metr, əsas ibadət zalının sahəsi 17x15 metr, döşəmədən tavanadək hündürlüyü 4 metr, günbəzədək isə 6,5 metrdir.

Əlicanlı kənd məscidinin tikintisinə 1996-cı ildə başlansa da, hələlik inşaat işləri tam başa çatmayıb. Lakin məscid fəaliyyət göstərir.

Əlicanlı kənd məscidinin damının üstündə hündürlüyü 4 metr olan dəmir borudan qoşa minarə ucaldılıb.



## SUQOVUŞAN KƏND MƏSCİDİ (I)

Məscid Sabirabad rayonunun Suqovuşan kəndində yerləşir. Həyətyanı sahəsi 300 kv.metr, iç sahəsi 9x20 metr, hündürlüyü isə 3 metrdir.

Suqovuşan kənd məscidi başdan-başa mişar daşı ilə tikilib. Dam örtüyü şiferlə işlənib. Giriş qapısının ön tərəfində sahəsi 170 kv.metr olan eyvan yerləşib. Tavan düzbucaqlı formaya malikdir və dörd daş sütun üzərində dayanıb. Minarə dəmirdən olub, hündürlüyü 15 metrdir. Məscidin divarları iç və fasad tərəfdən suvanıb.



## SUQOVUŞAN KƏND MƏSCİDİ (II)



Bu məscid Sabirabad rayonunun Suqovuşan kəndində yerləşib. Həyətyanı sahəsi 2500 kv.metr, iç sahəsi isə 10x20 metr, hündürlüyü isə 3 metrdir. Pəncərələr düzbucaqlı formaya malikdir. Məscidin iç quruluşu çox sadə konstruksiya ilə seciyyələnir. Minbəri taxtadan olub, altıpillələdir. Mehrabının hündürlüyü 2,5 metrdir. Tavanı taxta ilə işlənib. Məscidin giriş qapısının ön tərəfində sahəsi 20x3 metr olan eyvan yerləşib.

Bu məscid 1960-cı ildə kənd sakini mərhum Abbas Həsənovun rəhbərliyi və yerli camaatın vəsaiti hesabına tikilib.

## CAVAD KƏND MƏSCİDİ



Sabirabad rayonunun Cavad kəndində yerləşən məscidin həyətyanı sahəsi 4000 kv.metr, iç sahəsi isə 28x11 metrdir.

Cavad kənd məscidinin tikilmə tarixi 1981-ci ilə aiddir. Divarları mişar daşından hörülüb. Damı ağ dəmir təbəqə ilə işlənib. Damın üstündən qoşa minarə ucaldılıb. Onlar dəmir borudan olub, hər birinin hündürlüyü 7 metrdir. Tavan düzbucaqlı formadadır və taxtadan işlənib. Məscidin bütün qapı və pəncərələri də düzbucaqlı formaya malikdir.

## MÜRSƏLLİ KƏND İMAM HÜSEYN MƏSCİDİ



Məscid Sabirabad rayonunun Mürsəlli kəndində inşa edilib. İç sahəsi 18,5x18,5 metr, döşəmədən tavanadək hündürlüyü 4,5, döşəmədən günbəzədək isə 9 metrdir. Məscidin divarları başdan-başa mişar daşı ilə tikilib. İbadət zalında 21 tağvari formalı pəncərə qoyulub. Tavan dəmir təbəqə, döşəmə isə taxta ilə işlənib.

Mürsəlli kənd İmam Hüseyn məscidi 1993-cü ildə tikilməyə başlayıb. Tikinti işlərinə çəkilən xərclər camaatın vəsaiti hesabına ödənilir.



## MÜRSƏLLİ KƏND BABA SƏMİD PİRİ



Pir Sabirabad rayonunun Mürsəlli kəndinin qəbristanlığındadır.

Mürsəlli kənd Baba Səmid pirinin əsas binası kvadratşəkilli olub, üstünü 3 metr hündürlüyü olan günbəz bağlayır. Abidə iki hissədən-pir və namazgahdan ibarətdir.

Pirin tarixi 1525-ci ilə aid olunur. Deyilənə görə, bu pir Şah İsmayıl Xətainin yaxın adamları tərəfindən tikilib. Pirin sərdabə hissəsinin sahəsi 4x5 metrdir. Sərdabədə bir kitabə də həkk edilmişdir. Sərdabənin orta hissəsində qəbir yerləşib. Sərdabənin divarlarında müxtəlif nəbati ornamentlər və şəkillər (rənglə)-insan, heyvan, quş və digər həndəsi fiqurlar işlənib.

Sərdabənin giriş qapısının ön tərəfində divarda şüşə üzərində ərəbcə "La İlahə İlləllah, Əli, Məhəmməd" sözləri yazılıb.

## KÜRKƏND KƏND MƏSCİDİ



Məscid Sabirabad şəhəri yaxınlığındakı Kürkənd kəndində yerləşib. İlkin tarixi barədə dəqiq məlumat joxdur. Sovetlər dövründə gübrə anbarı kimi istifadə olunub. 1985-ci ildə məscid sökülərək yerində yeni məscidin tikintisinə başlanılmışdır. İç sahəsi 9x22 metr, həyətyanı sahəsi 1000 kv.metrdir.

Kürkənd kənd məscidi mişar daşından tikilmişdir. Damı şiferlə örtülüb. Qapı və pəncərələr düzbucaqlı şəkildədir. Məscidin ön tərəfində açıqşəkilli eyvan (22x2 metr) yerləşib.

## NƏRİMANABAD KƏND MƏSCİDİ



Məscid Sabirabad rayonunun Nərimanabad kəndində yerləşib. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi 17x17 metr olan bu məscidin tikintisinə 1997-ci ildə başlanılıb.

Bu məscid mişar daşı ilə tikilir. Damı ağ dəmir təbəqə ilə işlənib. Məscidi kənd sakini Hacı İlyas Muxtar oğlu Muxtarov öz vəsaiti ilə tikdirir. Tikinti işləri hal-hazırda davam edir. Məscidin ustası Ağababa Xanbala oğlu və usta Mustafadır.

Səkkizguşəli formada olan bu məscidin günbəzinin diametri 5 metr, yerdən tavana qədər hündürlüyü 5 metr, yerdən günbəzədək hündürlüyü isə 10 metrdir. Məscidin döşəməsindən günbəzədək dəmir sütun qoyulub.

Qeyd edək ki, bu məscidin yerləşdiyi torpaq sahəsi kənd sakini Rəfi Vəliyev tərəfindən vəqf olunub.

*Qeyd:*

Bu kənddə 1955-ci ildə çiy kərpicdən tikilmiş başqa bir məscid də var.

## QARALI KƏND MƏSCİDİ



Sabirabad rayonunun Qaralı kəndində yerləşən bu məscidin həyətyanı sahəsi 800 kv.metr, iç sahəsi 5x21 metrdir.

Kənd camaatının vəsaiti və təşəbbüsü ilə 1972-ci ildə tikilmişdir. Lakin kənd camaatının bildirdiyinə görə, bu kənddə əvvəllər də məscid olub.

Qaralı kənd məscidinin minarəsi onun yanında ucaldılıb. Hündürlüyü 14 metr olan minarənin qübbəsi dəmir təbəqə ilə işlənmişdir. Məscid binasının ön tərəfində geniş bir eyvan da var.

## ƏHMƏDABAD KƏND MƏSCİDİ



Məscid Sabirabad rayonunun Əhmədabad kəndindədir. 1992-ci ildə tikilib və iki mərtəbədən ibarətdir. İkinci mərtəbə qadınlar üçün nəzərdə tutulmuşdur.

Orijinal memarlıq üslubunda tikilən bu məscid düzbucaqlı formaya malikdir. Günbəzin üstü dəmir təbəqə ilə işlənib. Günbəzin damın üstündən hündürlüyü 3.5 metrdir. Minarə dəmirdən hazırlanıb və Osmanlı memarlıq üslubundadır (hündürlüyü 18 metr). Əhmədabad kənd məscidinin iç sahəsi 14x22 metrdir.

## KOVLAR KƏND MƏSCİDİ (I)



Məscid Sabirabad rayonunun Kovlar kəndində yerləşib. İnşa edilmə tarixi bilinmir. Lakin 1985-ci ildə təmir olunmuş və yenidən tikilmişdir. Məscidin damı şiferlə örtülüb. Minarə məsciddən əlahiddə ucaldılıb. Onun hündürlüyü 12 metrdir. Minarə tək şərəfəyə malik olub, məhəccəri dəmirdəndir.

Kovlar kənd məscidinin həyətyanı sahəsi 3000 kv.metr, iç sahəsi 5x18 metrdir.

## KOVLAR KƏND MƏSCİDİ (II)

Məscid Sabirabad rayonunun Kovlar kəndində yerləşib. Məscid mişar daşı ilə tikilib. Damı şiferlə örtülüb. Minarəsi və günbəzi yoxdur. Məscid formaca düzbucaqlıdır.

*Qeyd:*

Kovlar kəndində eyni ilə bu məscidi xatırladın başqa bir məscid də vardır.



## SURRA KƏND MƏSCİDİ



Məscid Sabirabad rayonunun Surra kəndində yerləşib. Onun həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 4x22 metrdir. Məscidin minarəsi dəmir borudandır və hündürlüyü 16 metrdir.

Surra kənd məscidi düzbucaqlı formaya malikdir. Bu ibadətgahın qədim tarixə malik olması söylənilir. Lakin 1980-ci ildə həmin məscid sökülmüş və hazırkı məscid tikilmişdir.

## AXISKA KƏND MƏSCİDİ



Məscid Sabirabad rayonunun Axıska kəndindədir. Başdan-başa mişar daşlarından tikilmiş bu məscidin həyətyanı sahəsi 2500 kv.metr, iç sahəsi 14x14 metrdir. Məscidin döşəməsindən tavana qədər hündürlüyü 5 metrdir. Tavanı fanerlə işlənib və dörd dəmir boru sütun üzərində dayanıb. Minarənin hündürlüyü 15 metrdir. Minarənin və günbəzin üstündə dəmirdən aypara və beşulduz rəmzi qoyulub. Məscidin divarlarında rənglə xeyli sayda həndəsi fiqurlar işlənib.

Axıska kənd məscidi 1993-cü ildə kənd camaatının vəsaiti və təşəbbüsü ilə tikilib.

## XƏLFƏLƏR KƏND MƏSCİDİ



Məscid Sabirabad rayonunun Xəlfələr kəndində tikilib. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi isə 22x11 metrdir.

Xəlfələr kənd məscidinin divarları mişar daşı ilə tikilib. Damı şiferlə örtülüb. Qapı və pəncərələri tağvari formadadır. Minarə dəmirdəndir və tək şərəfəyə malikdir. Minarənin üstündə dəmir materialdan aypara və səkkizguşəli ulduz rəmzi qoyulub.

Xəlfələr kənd məscidinin inşa tarixi XX əsrin 30-cu illərinə aiddir. 1995-ci ildə burada təmir-bərpa işləri aparılıb.

## ŞƏHRİYAR KƏND İMAM HÜSEYN MƏSCİDİ

Məscid Sabirabad rayonunun Şəhriyar kəndində yerləşir. Forma etibarilə düzbucaqlı olan bu məscid 1960-cı ildə tikilib. 1979-cu ildə burada təmir-bərpa işləri aparılıb.

Həyətyanı sahəsi 1.200 kv.metr, iç sahəsi 22x10 metrdir.

Döşəməsi və tavanı taxtadandır. Bütün qapı və pəncərələr düzbucaqlı formaya malikdir. Məscidin ön tərəfində eyvanı da var.



## ŞƏHRİYAR KƏND İMAM HƏSƏN MƏSCİDİ

Məscid Sabirabad rayonunun Şəhriyar kəndində yerləşib. Həyətyanı sahəsi 3000 kv.metr, iç sahəsi isə 20x10 metrdir. Döşəməsi və tavanı taxtadandır. Damı şiferlə örtülüb.

Şəhriyar kənd İmam Həsən məscidi 1979-cu ildə yerli sakin Kərbəlayı Təzəxan Fərrux oğlu Əhədovun başçılığı altında tikilib. Ustası Tanrıqulu Mirzobba oğludur. Düzbucaqlı formada tikilmiş bu məscidin minbəri taxtadan olub,dördpilləlidir. Məscidin minarəsi, günbəzi və mehrabı yoxdur.



## QƏZLİ KƏND MƏSCİDİ

Məscid Sabirabad rayonunun Qəzli kəndindədir. Həyətyanı sahəsi 5000 kv.metr, iç sahəsi 15x15 metrdir. Məscid 1989-cu ildə inşa edilib. Divarları mişar daşı ilə hörülüb. Damı dəmir təbəqə ilə örtülüb. Minarəsi dəmir borudan hazırlanıb və hündürlüyü 16 metrdir. Məscidin yerdən tavanadək hündürlüyü 4 metr, günbəzədək isə 12 metrdir.

Qəzli kənd məscidinin həyətində dini mərasimlərin keçirilməsi üçün lazım olan bütün şərait var. Məsciddə uşaqlar üçün dini dərslər də keçirilir. Həyətyanı sahədə cürbəcür meyvə ağacları əkilib.





## QALAQAYIN KƏND MƏSCİDİ

Məscid Sabirabad rayonunun Qalaqayın kəndində yerləşib. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1247-ci ilə aiddir. Həyətyanı sahəsi 5000 kv.metr, iç sahəsi 14x28 metr, hündürlüyü 4 metrdir. Məscidin hündürlüyü 17 metr olan minarəsi də var. Minarə dəmirdən hazırlanıb.

Qalaqayın kənd məscidinin divarlarına ərəb dilində Quran ayələri həkk edilib. Damın üstündə üç günbəz qoyulub. Günbəzlər dəmirdəndir.

Qalaqayın kənd məscidi sovetlər dövründə bağlanaraq anbar və başqa məqsədlər üçün istifadə olunub. 1990-cı ildə isə onun fəaliyyəti bərpa edilib.



## QARATƏPƏ KƏND MƏSCİDİ

Məscid Sabirabad rayonunun Qaratəpə kəndində inşa olunub. Həyətyanı sahəsi 3000 kv.metr, iç sahəsi 21x10 metrdir. Məscid 1968-ci ildə inşa edilib. Forma etibarilə düzbucaqlı olan məscidin damı şiferlə örtülüb. Döşəməsi və tavanı taxta ilə işlənib. Tavan altı sütun üzərində dayanıb. Divarları içəridən suvanıb və rənglə işlənib.



## QURUZMA KƏND MƏSCİDİ

Məscid Sabirabad rayonunun Quruzma kəndində tikilib. Məscidin damı şiferlə örtülüb. Minarəsi, günbəzi yoxdur. İç sahəsi 8x22 metrdir. Ön tərəfində yerləşən eyvanının sahəsi isə 23x2 metrdir.



### MƏMİŞLƏR KƏND MƏSCİDİ



Məscid Sabirabad rayonunun Məmişlər kəndində yerləşib. Həyətyanı sahəsi 2500 kv.metr, iç sahəsi 25x12 metr, yerdən tavanadək hündürlüyü 3,20 metrdir.

Məmişlər kənd məscidi XX əsrin ortalarında kənd camaatı tərəfindən inşa olunub. Düzbucaqlı formada olub, başdan-başa mişar daşı ilə tikilib. Damı şiferlə örtülüb. Minarə məscidin yan tərəfində yerləşib və hündürlüyü 12 metrdir. Minarə tək şərəfəlidir və dəmir borudan düzəldilib.

Məmişlər kənd məscidinin ön tərəfində açıqşəkilli eyvan yerləşib.

*Qeyd:*

Sabirabad rayonunun daha 17 kəndində-Əsgərbəyli, Novruzlu, Bulduq, Həşimxanlı, Ətcələr, Axtaçı, Qaratoğay, Şıxsalahlı, Qaragünə, Dadaşbəyli, Qarataşlı, Qarağac, Azadkənd, Çölbaşdəri, Xankeçə,Qasımbəyli, Muğan-Gəncəlidə də məscidlər vardır.

# TƏRTƏR RAYON MƏSCİDLƏRİ

### TƏRTƏR ŞƏHƏR MƏSCİDİ



Məscid Tərtər rayonunda yerləşmişdir. Məscidin binası ikimərtəbəlidir. Birinci mərtəbə kişilər şöbəsi (sahəsi 13x16 metr), ikinci mərtəbə isə qadınlar (sahəsi 4x16 metr) şöbəsinə məxsusdur.

Giriş qapısının üstündə onun tarixini göstərən daş kitabə həkk olunmuşdur. Belə ki, məscidin tarixi h.q. tarixi ilə 1334-cü ilə aiddir. Giriş qapısının sağ və sol tərəfində minarələr ucaldılmışdır. Minarələrin üstü dəmir təbəqə ilə örtülmüşdür. Qübbələrin üstündə dəmir təbəqədən düzəldilmiş aypara və ulduz rəmzi qoyulmuşdur. Minarələrin hündürlüyü 17 metrdir. Minarələrin birinin qülləsi ermənilər tərəfindən atılmış "qrad" mərmisi ilə zədələnib. Məscidin minbəri yoxdur. Mehrabı divarın içərisindədir. Mehrab tağvari formaya malik olub, müxtəlif rənglərlə işlənib. Məscidin ön tərəfinin divarı daş plitələrlə üzlənib. 1995-1996-cı ildə burada axırıncı dəfə təmir işləri aparılmışdır.

Tərtər şəhər məscidinin axundu Ağacan Ağacanovdur.

### QAYNAQ KƏND MƏSCİDİ



Məscid Tərtər rayonunun Qaynaq kəndində inşa olunub. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 8x8 metrdir.

Qaynaq kənd məscidinin tikilmə tarixi 200 ilə yaxındır. Bişmiş kərpiclə tikilmiş bu məscidin dam örtüyü dəmir təbəqə ilə işlənib. Divarları suvanmışdır və qalınlığı 1 metrdir. Tavanı və mehrabı tağvari formadadır. Məscidin minbəri, minarəsi və günbəzi yoxdur. Hal-hazırda bu məscid bərbad vəziyyətdədir və demək olar ki, baxımsız qalmışdır.



### AZAD QARAQOYUNLU KƏND MƏSCİDİ



Məscid Tərtər rayonunun Azad Qaraqoyunlu kəndindədir. Həyətyanı sahəsi 600 kv.metrdir. Düzbucaqlı formada olan bu məscid başdan-başa bişmiş kərpicdən işlənib. Damının üstü dəmir təbəqə ilə örtülüb.

Azad Qaraqoyunlu kənd məscidinin giriş qapısının sağ və sol tərəfində daş kitabələr həkk edilib. Hal-hazırda baxımsız vəziyyətdədir.

### KƏNGƏRLİ KƏND "ƏLƏM" OCAĞI



Ocaq Tərtər rayonunun Kəngərli kəndində yerləşib. Camaatın bildirdiyinə görə, bu ocağın 200 ilə qədər tarixi vardır. Ocağın binası bişmiş kərpiclə işlənib. Giriş qapısının üstündə daş kitabə həkk olunub.

Binanın içərisi tağvari formadadır və qum-sement məhlulu ilə suvanıb. Ocağın ortasında qəbir (2x1 metr) yerləşib.

Kəngərli kənd "Ələm" ocağının içi 5x5 metr, hündürlüyü isə 4 metrdir. Günbəzi bişmiş kərpiclə işlənib.

# TOVUZ RAYON

### TOVUZ RAYON MƏSCİDİ



Məscid Tovuz rayonunun mərkəzində-Şəhidlər xiyabanında yerləşib. 1996-cı ildən məscidin inşasına başlanmışdır. Tikinti işlərinin 1998-ci ildə başa çatdırılması nəzərdə tutulurdu.

Tovuz rayon məscidi başdan-başa bişmiş kərpiclə inşa edilmişdir. Məscid səkkizguşəli olub, günbəzi ağ dəmir təbəqə ilə işlənmişdir.

Tovuz rayon məscidini qoşa minarələr bəzəyir. Məscid Tovuz rayon Polis İdarəsinin rəisi, polis polkovniki İmran Hüseynəliyevin şəxsi vəsaiti hesabına tikilməkdədir. Qeyd edək ki, İmran Hüseynəliyev şəhərdə bir sıra xeyriyyə işlərinin də sahibidir.

Hal-hazırda burada tikinti işləri davam etdirilir. Məscidin ustası Əli İslamoğludur. Layihənin müəllifi də İ.Hüseynəliyevdir.

# UCAR RAYON MƏSCİDLƏRİ

## UCAR RAYON CÜMƏ MƏSCİDİ





Məscid Ucar şəhərinin mərkəzində yerləşib. İlkin tarixi XX əsrin əvvəllərinə aiddir. Həmin məscid 1953-cü ildə dağıdılmışdır. Bundan sonra Ucar şəhər camaatının vəsaiti ilə yeni məscidin inşasına başlanılıb. Bu məscid 1977-ci ilə qədər fəaliyyət göstərmiş və bundan sonra bağlanaraq anbar kimi istifadə olunmuşdur. 1989-cu ildən etibarən Rəhim Mütəllimovun başçılığı ilə yeni məscidin tikintisinə başlanılıb. 1990-cı ildən hazırkı məscid fəaliyyət göstərməkdədir. Məscidin layihəsinin müəllifi şəkili Durğunovdur. İç sahəsi 15x26 metrdir.

Düzbucaqlı formada olan Ucar rayon Cümə məscidinin divarları başdan-başa bişmiş kərpiclə işlənib. Məscidin minarəsi yoxdur, günbəzi fasad tərəfdən dəmir təbəqə ilə işlənib. Diametri isə 7 metrdir. Günbəz həmçinin dörd tağla əlaqələnib. Döşəməsi mərmər, tavanı isə taxtadandır. Döşəmədən tavanadək hündürlüyü 8,5 metrdir. Mehrab (hündürlüyü 5 metr) divarın içində yerləşib və tağvari formaya malikdir. Səkkiz pilləli minbər taxtadan düzəldilib.

Məscidin axundu Məşədi Əliəsgər Məcidoğludur.

## XƏLƏC KƏND MƏSCİDİ



Məscid Ucar rayonunun Xələc kəndindədir. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi 9x21 metrdir.

Xələc kənd məscidi düzbucaqlı formaya malik olub, başdan-başa mişar daşı ilə tikilib. Damının örtüyü şiferlə işlənib. Günbəzi dördguşəlidir. Günbəz hissə dəmir təbəqədəndir. Xələc kənd məscidinin qapı və pəncərələri düzbucaqlı formadadır və taxtadan düzəldilib. Giriş qapılarının önündə açıqşəkilli eyvan yerləşib.

Xələc kənd məscidi 1991-ci ildə kənd camaatının vəsaiti hesabına tikilib.

## ALHOUD KƏND HƏZRƏT ABBAS MƏSCİDİ



Məscid Ucar rayonunun Alhoud kəndində yerləşib. İç sahəsi 19x7 metr, həyətyanı sahəsi 2000 kv.metr, hündürlüyü isə 3 metrdir.

XX əsrin 50-60-cı illərində tikilmişdir. 1990-cı illərdə burada təmir işləri aparılıb. Düzbucaqlı formada olub, başdan-başa mişar daşı ilə tikilib. Ön tərəfində açıqşəkilli eyvan yerləşib. Məscidin damı şiferlə örtülüb. İç və fasad divarları sement məhlulu ilə suvanıb. Alhoud kənd Həzrət Abbas məscidinin həyətində əlavə yardımçı otaqlar da tikilib.



## ÇİYNİ KƏND MƏSCİDİ



Məscid Ucar rayonunun Çiyni kəndində inşa edilib. Həyətyanı sahəsi 4000 kv.metr, ibadət zalının sahəsi 9x20 metr, hündürlüyü 3 metrdir.

Çiyni kənd məscidinin divarları çaylaq daşlarından tikilib. Döşəmə və tavanı taxtadandır. Tavan düzbucaqlı formada olub, beş dəmir boru sütun üzərində dayanıb. Damı şiferlə örtülüb.

Çiyni kənd məscidi XX əsrin ortalarında kənd sakini Ağası kişinin başçılığı ilə tikilmişdir.

## QARADAĞLI KƏND MƏSCİDİ



Məscid Ucar rayonunun Qaradağlı kəndində tikilib. Həyətyanı sahəsi 3000 kv.metr, iç sahəsi 6x14 metrdir.

Düzbucaqlı formaya malik olan məscid binası mişar daşı ilə tikilmişdir və özünəməxsus memarlıq üslubu ilə seçilir.

Qaradağlı kənd məscidi qoşa minarəyə malikdir. Onlar dəmir borudandır və hündürlüyü 14 metrdir. Minarələr tək şərəfəlidir. Minarələrin üstü ağ dəmir təbəqə ilə işlənmişdir və orada aypara və səkkizguşəli ulduz rəmzi qoyulmuşdur.

Qaradağlı kənd məscidinin ön tərəfində açıqşəkilli eyvan da vardır. Giriş qapılarının yan tərəfində iki yardımçı otaq yerləşib.

Qaradağlı kənd məscidi 1997-ci ildə tikilib.

## RƏSTƏCƏ KƏND MƏSCİDİ



Məscid Ucar rayonunun Rəstəcə kəndində yerləşib. Həyətyanı sahəsi 5000 kv.metr, iç sahəsi 5,5x24,5 metrdir. Məscid düzbucaqlı formadadır. Divarları çaylaq daşı və çiy kərpiclə hörülüb. Damı şiferlə örtülüb. Tavan taxta ilə işlənib və yeddi taxta sütun üstündə dayanıb.

Rəstəcə kənd məscidinin bütün pəncərə və qapıları taxtadan düzəldilib və düzbucaqlı formaya malikdir.

Rəstəcə kənd məscidinin ön tərəfində taxta sütunlar üzərində dayanan açıqşəkilli eyvan yerləşir.

## QƏZYAN KƏND MƏSCİDİ (I)



Məscid Ucar rayonunun Qəzyan kəndindədir. Həyətyanı sahəsi 150 kv.metr, iç sahəsi 20x9 metrdir. Məscid düzbucaqlı formada olub, başdan-başa çaylaq daşı ilə tikilmişdir.

Qəzyan kənd məscidinin damı şiferlə örtülüb.Günbəzi altıguşəlidir və dəmir təbəqə ilə işlənib. Günbəzin üstündə aypara rəmzi qoyulub.

Qəzyan kənd məscidinin ön tərəfində açıqşəkilli eyvan yerləşib.

Vaxtilə burada başqa bir məscid olmuşdur. Həmin məscidin XIX əsrin axırlarında tikildiyi söylənir. Sonralar həmin məscid camaat tərəfindən sökülmüş və 1991-ci ildə yerli sakinlərin vəsaiti ilə indiki məscid tikilmişdir.

## QƏZYAN KƏND MƏSCİDİ (II)



Məscid Ucar rayonunun Qəzyan kəndində yerləşib. İç sahəsi 11x24 metr, həyətyanı sahəsi 2000 kv.metrdir.

Qəzyan kənd məscidi 1960-cı ildə kənd camaatının vəsaiti ilə tikilib. Damı şiferlə, günbəzi isə dəmir təbəqə ilə örtülüb. Tavan düzbucaqlı formaya malik olub, səkkiz taxta sütun üstündə dayanıb. Məscidin ön tərəfində eyvan yerləşib.

## LƏK KƏND MƏSCİDİ (I)



Məscid Ucar rayonunun Lək kəndində tikilib. Həyətyanı sahəsi 2000 kv.metr, İç sahəsi 10x20 metrdir.

Lək kənd məscidinin forması düzbucaqlı olub, başdan-başa mişar daşı ilə tikilib. Damının örtüyü şiferdəndir. Günbəzi səkkizguşəli formadadır. Günbəzin üstü dəmir təbəqə ilə işlənib və üstündə aypara rəmzi qoyulub.

Lək kənd məscidinin giriş qapısı önündə açıqşəkilli eyvan yerləşib. Eyvanın sahəsi 3x20 metrdir.

Lək kənd məscidinin tikilmə tarixi 1991-ci ilə aiddir. Buradakı qapı və pəncərələr düzbucaqlı formada olub, taxtadan düzəldilmişdir.



## LƏK KƏND MƏSCİDİ (II)



Məscid Ucar rayonunun Lək kəndində yerləşib. Forma etibarilə düzbucaqlı olub, çaylaq, mişar daşları və qırmızı kərpiclə tikilib. Həyətyanı sahəsi 3500 kv.metr, iç sahəsi isə 8x20 metrdir.

Lək kənd məscidinin damı şiferlə örtülüb. Günbəz güldəstə formasındadır və üstündə aypara və səkkizguşəli ulduz rəmzi qoyulub.

Lək kənd məscidinin bütün qapı və pəncərələri düzbucaqlı formadadır və taxtadan düzəldilib.

Lək kənd məscidinin tikintisi kənd camaatının vəsaiti ilə 1991-ci ildə başlanmış və 1994-cü ildə istifadəyə verilmişdir.

## BAYAT KƏND MƏSCİDİ



Məscid Ucar rayonunun Bayat kəndində inşa olunub. Həyətyanı sahəsi 2000 kv.metr, iç sahəsi 8x24 metrdir. Düzbucaqlı formaya malik olub, başdan-başa çaylaq daşı ilə tikilib. Məscidin ön tərəfində geniş eyvan yerləşib.

Bayat kənd məscidinin əsas binasının damı qırmızı kirəmitlə, artırma hissəsi isə şiferlə örtülüb. Tavanı və döşəməsi taxta ilə işlənib.

Bayat kənd məscidi 1990-cı ildə yerli kənd camaatının vəsaiti hesabına tikilib.

## QARABÖRK KƏND MƏSCİDİ



Məscid Ucar rayonunun Qarabörk kəndindədir. Həyətyanı sahəsi 3000 kv.metr, iç sahəsi 22x14 metrdir. Məscidin forması düzbucaqlıdır. Günbəzi altı guşəlidir və qübbə hissəsi dəmir təbəqə ilə örtülub.

Qarabörk kənd məscidi başdan-başa bişmiş kərpicdən tikilib. İbadət zalı iki yerə-kişilər və qadınlar şöbəsinə bölünüb.

Camaatın bildirdiyinə görə, burada vaxtilə də məscid olub. Həmin məscid sökülmüş və hazırkı məscid inşa edilmişdir.

# XANLAR RAYONU

## XANLAR CÜMƏ MƏSCİDİ



Məscid 1993-cü ilin may ayından etibarən yerli möminlərin təşəbbüsü ilə tikilməyə başlanıb. Xatırladaq ki, Xanlar Cümə məscidinin bünövrəsi keçmiş icra hakimiyyətinin başçısı Şalq Abbasovun vaxtında qoyulub. Bununla belə, bu məscid yerli sakin, lakin Rusiyada yaşayan Kərim Dilənovun və onun qardaşlarının şəxsi vəsaiti ilə inşa edilir.

6000 kv.metrlik sahədə hələlik yalnız məscidin divarları ucaldılıb.

# XAÇMAZ RAYON MƏSCİDLƏRİ

## XAÇMAZ ŞƏHƏR CÜMƏ MƏSCİDİ

Məscid Xaçmaz rayonunun mərkəzində yerləşib. 1950-1952-ci illərdə inşa edilib. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 11x13 metrdir.

Forma etibarilə düzbucaqlı olan bu məscidin divarları çiy kərpiclə hörülüb. Divarların qalınlığı 0,50 metrdir. Döşəməsi və tavanı taxta ilə işlənib. Döşəmədən tavanadək hündürlüyü 4,5 metrdir. Mehrabı sadə olub, hündürlüyü 3 metrdir. Minbər taxtadan düzəldilib və altıpilləlidir. Məscidin ibadət zalında səkkiz pəncərə qoyulub.

Qadınlar üçün nəzərdə tutulan şöbənin sahəsi 52 kv.metrdir. (13x4). Bu şöbə iki mərtəbədən ibarətdir. Məscidin dam örtüyü, eləcə də günbəzi ağ dəmir təbəqə ilə işlənib. Minarə dəmirdən olub , özünəməxsus formaya malikdir.

Həyətyanı sahəsi hasara alınıb. Məscidin giriş qapısı tərəfində eyvan da vardır. Məsciddə ibadət üçün bütün lazımi şərait yaradılıb.

Məscid yerli sakin Hacı Hüseynağanın təşəbbüsü və camaatın vəsaiti hesabına tikilib. Axundu isə Məşədi Yaşar Məhəmmədoğludur.

## XUDAT ŞƏHƏR ŞEYX MƏHƏMMƏD YARAQLI MƏSCİDİ



Xudat şəhərində yerləşən bu məscid 1993-1995-ci illərdə inşa edilib. Həyətyanı sahəsi 2000 kv.metr, iç sahəsi 130 kv.metrdir.

Mişar daşı ilə inşa edilib. Məscidin qarşı tərəfində eyvan yerləşib. Onun sahəsi 16 kv.metrdir. Məscidin altı pəncərəsi və iki qapısı var. Qapı və pəncərələr taxtadan düzəldilib və sivri uculudur. Minarəsi dəyirmi formadadır və bişmiş kərpicdən tikilib. Minarənin qübbəsi ağ dəmir təbəqə ilə işlənib. Onun hündürlüyü 13 metrdir. Məscidin tavanı beton, döşəməsi isə taxtadandır. Minbəri də taxtadan olub, dördpilləlidir. Mehrabının hündürlüyü 2 metrdir. Məscidin iç sahəsi çox sadədir və açıq-qəhvəyi rənglə işlənib. Məscidin tikintisinə Firudin Kərim oğlu Mürsəlovun təşəbbüsü ilə başlanmış və Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin köməkliyi ilə başa çatmışdır.



## XUDAT ŞƏHƏR MƏSCİDİ



Məscid Xaçmaz rayonunun mərkəzində Xudatda yerləşir. Bünövrəsi 1989-cu ildə qoyulub. Məscidin kişilər şöbəsinin sahəsi 14x7 metr, qadınlar şöbəsinin sahəsi isə 14x5 metrdir.

Düzbucaqlı formaya malikdir. Divarları çiy kərpiclə hörülüb. Damı şifer və dəmir təbəqə ilə örtülüb. Məscidin giriş qapısının üstündəki lövhədə onun inşa tarixi haqda məlumat verilib. Xudat şəhər məscidi iki hissəyə- qadınlar və kişilər şöbəsinə bölünüb. Şöbələr bir-biri ilə taxta şüşəbəndlə ayrılıb. Məscidin qadınlar şöbəsinin girəcəyində dəhliz yerləşib. Dəhlizin sahəsi 30 kv.metrdir.

Xudat şəhər məscidinin minbəri yeddipilləlidir və taxtadan düzəldilib. Mehrabı çox sadə formadadır və divarın içərisindədir.

## QARACIQ ZEYD KƏND MƏSCİDİ

Məscid Xaçmaz rayonunun Qaracıq məhəlləsindədir. Bünövrəsi 1996-cı ildə qoyulmuşdur.

Bakı şəhər sakini Qəzənfər tərəfindən inşa etdirilib. Məscid yol kənarında geniş bir sahədə tikilməkdədir. Məscid binası mişar daşı ilə inşa olunur. Hal-hazırda tikinti işləri davam edir.

## ÇARXI KƏND MƏSCİDİ (I)



Məscid Xaçmaz rayonunun Çarxı kəndində yerləşib. İç sahəsi 7x12 metr, həyətyanı sahəsi isə 700 kv.metrdir.

Çarxı kənd məscidi düzbucaqlı formada olub, fasad tərəfdən samanlı palçıqla suvanmışdır. Damının örtüyü şiferdəndir. Günbəzi də şiferlə örtülmüşdür və dördguşəlidir.

Çarxı kənd məscidinin iki giriş qapısı və altı pəncərəsi vardır.

## ÇARXI KƏND MƏSCİDİ (II)



Məscid Xaçmaz rayonunun Çarxı kəndində tikilib. Hal-hazırda burada tikinti işləri davam edir. Həyətyanı sahəsi 800 kv.metr, iç sahəsi isə 9x9 metrdir.

Çarxı kənd məscidi səkkizguşəli olub, başdan-başa mişar daşı ilə inşa edilmişdir. Yerdən günbəzədək hündürlüyü 14 metrdir. Döşəməsi torpaq, tavanı isə dəmir təbəqədəndir. Məscidin iki giriş qapısı və altı pəncərəsi vardır. Günbəz güldəstə formasında olub, səkkiz guşəyə malikdir. Günbəzin qübbəsi də səkkizguşəli olub, dəmir təbəqə ilə işlənmişdir. Günbəzin yuxarı hissəsində 8 ədəd düzbucaqlı formada gözlük qoyulmuşdur. Məscidin həyətində yardımçı otaqlar tikilməkdədir. Məscid kənd sakini Ramiz Qüdrət oğlu tərəfindən inşa etdirilir.

## HƏBİB KƏND MƏSCİDİ



Məscid formaca düzbucaqlıdır və divarları çaylaq daşı ilə hörülüb. Damı dəmir təbəqə ilə örtülüb. Tavanı və döşəməsi taxtadandır. Tavan bir taxta sütun üzərində dayanıb. Giriş qapısından içəridə dəhliz yerləşib. Dəhlizin sahəsi 8 kv.metrdir. Məscidin 4 pəncərəsi vardır.

## KÖHNƏ XAÇMAZ KƏND MƏSCİDİ

Məscid Xaçmaz rayonunun Köhnə Xaçmaz kəndində yerləşib. İnşa tarixi dəqiq məlum deyil. İç sahəsi 7x7 metrdir.

Köhnə Xaçmaz kənd məscidi çiy və bişmiş kərpicdən tikilib. İç və çöl divarları sement məhlulu ilə suvanıb. Döşəməsi asfalt, tavanı isə fanerdəndir. Damı şifer və kirəmitlə örtülüb. Mehrabı çox sadə formadadır və ağ rənglənib. Mehrabın hündürlüyü 3 metrdir. Döşəmədən tavana qədər hündürlüyü 3,5 metrdir. Əsas giriş qapısından bayırda eyvan yerləşib.

Köhnə Xaçmaz kənd məscidi 1937-ci ildən 1985-ci ilə qədər anbar kimi istifadə olunub. 1990-cı ildə təmir edilib.

## HƏSƏNQALA KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Həsənqala kəndindədir. 1991-1994-cü illərdə inşa edilib. Həyətyanı sahəsi 1600 kv.metr, iç sahəsi 6x14 metrdir.

Həsənqala kənd məscidi ağ kərpic və qismən çay daşları ilə tikilib. Həyətyanı sahəsi hasara alınıb. Giriş qapısından içəridə dəhliz yerləşib. Dəhlizin sahəsi 3x14 metrdir. Əsas ibadət zalında iki qapı və altı pəncərə qoyulub. İbadət zalının iki hissəsi qadınlar üçün ayrılıb. Məscidin döşəməsi taxta, tavanı betondur. Döşəmədən tavana qədər 4 metrdir. Minbər beşpillədir və taxtadan düzəldilib. Mehrab formaca sadədir, hündürlüyü 3 metrdir. Günbəz damın üstündə yerləşib və hündürlüyü 7 metrdir. Damının üstündə hər küncdə bir kiçik günbəz qoyulub. Məscidin minarəsi (hündürlüyü 16 metr) də var. Minarənin üstündə dəmir təbəqədən aypara qoyulub.

Bu məscid kənd camaatının vəsaiti hesabına tikilib.



## PİRQULUOBA KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Pirquluoba kəndindədir. 1990-1993-cü illərdə inşa edilib. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi 9x9 metrdir.

Formaca səkkizguşəlidir. Divarları mişar və çaylaq daşı ilə hörülüb. Damı dəmir təbəqə ilə örtülüb. Minbəri üçpilləlidir və taxtadan düzəldilib. Mehrabı sadə formaya malikdir.

Bu məscid camaatın vəsaiti hesabına tikilib.

*Qeyd:*

Burada başqa bir məscid də var. Həmin məscidin tarixi XIX əsrə aid olunur. O, sovetlər dövründə bağlanaraq anbar kimi istifadə olunub. Hal-hazırda bu məsciddə mədrəsə yerləşir.

## ALIC KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Alıc kəndində yerləşir. İnşa tarixi XIX əsrin axırlarına aid edilir. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 64 kv.metrdir.

Düzbucaqlı formaya malik olan bu məscid çiy kərpiclə inşa olunub. Damı və günbəzinin üstü dəmir təbəqə ilə işlənib. Günbəz güldəstə formasındadır və dördguşəlidir. Döşəmədən günbəzədək hündürlüyü 12 metrdir. Döşəmə və tavan taxtadandır. Tavan dörd taxta sütun üzərində dayanıb.

Alıc kənd məscidinin bir giriş qapısı və dörd pəncərəsi var. Divarlarının qalınlığı 0,60 metrdir. Giriş qapısının önündə eyvan yerləşib. Eyvanın döşəməsi torpaq, tavan hissəsi isə dəmirdəndir.

Hal-hazırda məscid çox bərbad vəziyyətdədir.

## ƏRƏB KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Ərəb kəndindədir. İnşa tarixi dəqiq məlum olmasa da, XIX əsrə aid olunur. Həyətyanı sahəsi 800 kv.metr, iç sahəsi 14x10 metrdir.

Düzbucaqlı formada olan bu məscid çiy kərpiclə tikilib. Fasad divarları samanlı palçıqla suvanıb. Məscidin içi dəhliz və ibadət zalından ibarətdir. Damının örtüyü şiferdəndir. İbadət zalında bir qapı və beş pəncərə qoyulub. Qapı və pəncərələr düzbucaqlı formadadır. Minbər taxtadan düzəldilib və beşpillədir. Döşəmədən tavanadək hündürlüyü 4 metrdir.

Ərəb kənd məscidi sovetlər dövründə anbar kimi istifadə olunub.

Yerli sakin Qəribağa Hüseynağa oğlu 1997-ci ildə məscidi təmir etdirmişdir.

## ÇAĞÇAĞLI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Çağçağlı kəndində tikilib. 1989-cu ildə inşa edilib. İç sahəsi 7x7 metrdir.

Mişar daşı ilə tikilib. Fasad tərəfi qırmızı rənglə işlənib. İç divarları sement məhlulu ilə suvanıb və sarı rənglə işlənib. Bir giriş qapısı var. Günbəzi sivri formadadır. Döşəmədən tavanadək hündürlüyü 2,20 metrdir.

Bu məscid kənd sakini Hacı Həsən Əfəndi tərəfindən tikilərək kənd camaatının istifadəsinə verilmişdir.

## QOÇAQLI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Qoçaqlı kəndində yerləşib. 1995-ci ildə inşa edilib. İç sahəsi 14x10 metrdir.

Formaca düzbucaqlıdır. Divarları mişar daşı ilə hörülüb. Damının örtüyü dəmir təbəqədəndir. Məscidin döşəməsi və tavanı taxtadandır. Döşəmədən tavanadək hündürlüyü 4 metrdir. Tavan iki dəmir sütun üzərində dayanıb. Məscidin bir giriş qapısı və altı pəncərəsi vardır. Minbəri dördpilləlidir və taxtadan düzəldilib. Minarə məscid binasına bitişik olub, hündürlüyü 6 metrdir. Minarə də mişar daşı ilə götürülüb.

Bu məscid Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin Bakı filialı tərəfindən tikilib.

## QARAÇI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Qaraçı kəndindədir. İnşa tarixi XIX əsrin əvvəllərinə aid olunur.

Qaraçı kənd məscidi çiy kərpicdən tikilib. Damı şiferlə örtülüb. Məscidin ön tərəfində dəhliz (2x2.5) yerləşib. Döşəmə taxta, tavan isə fanerlə işlənib. Tavan bir ədəd taxta sütun üzərində dayanıb. Döşəmədən tavana qədər hündürlüyü 2,5 metrdir. Minbər taxtadan düzəldilib və beşpilləlidir.

*Qeyd:*
Kənddə vaxtilə nisbətən daha qədim olan məscid də olmuşdur. Lakin həmin məscid sonralar dağıdılmışdır.



## QƏDİMALI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Qədimalı kəndində tikilib. Bünövrəsi 1992-ci ildə inşa edilib. Həyətyanı sahəsi 200 kv.metr, İç sahəsi 9x9 metrdir.

Qədimalı kənd məscidinin divarları çiy kərpiclə hörülmüşdür. Divarların qalınlığı 0,60 metrdir. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Döşəmədən tavana qədər 4 metr, yerdən günbəzədək 10 metrdir. Tavan iki dəmir boru sütun üzərində dayanmışdır. Məscidin damının örtüyü şifer, günbəzi isə dəmir təbəqə ilə işlənmişdir. İbadət zalında iki qapı (taxtadandır və düzbucaqlı formadadır) və dörd pəncərə (taxtadandır və düzbucaqlı formadadır) qoyulmuşdur.

Vaxtilə burada başqa bir məscid olmuşdur. Yerli camaatın bildirdiyinə görə, həmin məscidin tarixi qədim olub, sovetlər dövründə məktəb kimi istifadə edilmişdir. Məscid bərbad vəziyyətdə olduğundan 1990-cı ildə sökülmüşdür. Onun əvəzində hazırkı məscid tikilmişdir.

## QALAĞAN KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Qalağan kəndində yerləşir. İnşa tarixi dəqiq məlum deyil.

Başdan-başa çiy kərpiclə inşa edilib. Fasad tərəfdən divarları samanlı palçıqla suvanıb. Damın örtüyü şiferdəndir. Günbəzi dördguşəlidir və hündürlüyü 1 metrdir. Məscidin iki giriş qapısı və beş pəncərəsi vardır. Qapı və pəncərələr taxtadan olub, düzbucaqlı formadadır. Döşəməsi və tavanı da taxtadandır. Mehrabı çox sadə şəkildə işlənilib.

Bu məsciddən 1937-ci ildən 1993-cü ilə qədər ərzaq məhsulları anbarı kimi istifadə olunub. 1994-cü ildə yenidən fəaliyyətə başlayıb.

## XUDAT KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Xudat kəndindədir. 1990-1995-ci illərdə inşa edilib. İç sahəsi 10x10 metrdir.

Xudat kənd məscidi mişar daşından tikilib. Divarlar içəridən və fasad tərəfdən sement məhlulu ilə suvanıb və rənglənib. Döşəmə və tavanı taxtadandır. Dam dəmir təbəqə ilə işlənib. Minarənin hündürlüyü 9 metrdir və qübbəsi dəmir təbəqə ilə örtülüb. Minarə dəyirmi formadadır və şərəfəyə malikdir. Mehrabın hündürlüyü 2 metrdir və sivri ucludur. Məscidin giriş qapısından çöl tərəfdə eyvan yerləşib. Əsas ibadət zalında beş tağvari pəncərə qoyulub.

Məscidin ilkin tikintisi kənd camaatı tərəfindən başlanıb. Lakin sonralar, 1995-ci ildə Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin Azərbaycan bölməsi tərəfindən yekun inşaat işləri həyata keçirilib.

## QARAÇAY-ÇAYLI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Qaraçay-çaylı kəndində yerləşib. Tarixi XIX əsrə aiddir. Həyətyanı sahəsi 200 kv.metr, iç sahəsi 8x8 metrdir.

Qaraçay-çaylı kənd məscidi forma etibarilə düzbucaqlı şəklindədir və divarları çiy kərpiclə hörülüb. Mehrabı tağvari formadadır və sadə şəkildə işlənib. Günbəz güldəstə formasındadır. Üstündə dəmirdən hazırlanmış aypara və beşguşəli ulduz qoyulub. Məscidin giriş qapısının qarşısında açıqşəkilli eyvan yerləşib.

Məsciddə 1990-cı ildə təmir-bərpa işləri aparılıb.

Sovetlər dövründə heç vaxt bağlanmamış və həmişə fəaliyyətdə olmuşdur.

## AĞÇAYLI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Ağçaylı kəndində yerləşib. 1988-ci ildə inşa edilib. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 7x11 metrdir.

Ağçaylı kənd məscidi çiy kərpiclə inşa edilib və saman-palçıqla suvanıb. Damının örtüyü şiferdəndir. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan iki dəmir boru sütun üzərində dayanıb. İki giriş qapısı və 4 pəncərəsi var.

Məscid kənd sakini Şahin Əhmədoğlunun təşəbbüsü ilə kənd camaatı tərəfindən və onların vəsaiti hesabına tikilib.

## QARADAĞLI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Qaradağlı kəndində tikilib. XIX əsrin ortalarında inşa edilib.

Həyətyanı sahəsi 150 kv.metr, iç sahəsi isə 8x9 metrdir. Məscid düzbucaqlı formadadır və damı dəmir təbəqə ilə örtülüb. Yerdən günbəzədək hündürlüyü 12 metr, döşəmədən tavanadək isə 3 metrdir. Mehrabı sadə formada işlənib. Giriş qapısının ön tərəfində eyvan yerləşib. Məscidin divarları çiy kərpiclə hörülüb.



## ŞAHMALI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Şahmalı kəndində 1994-cü ildə inşa edilib. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 12x7 metrdir.

Şahmalı kənd məscidi forma etibarilə düzbucaqlı şəklindədir. İbadət zalında iki pəncərə qoyulub. Giriş qapısından içəridə dəhliz yerləşib. Onun sahəsi 3x5 metrdir. Minbər taxtadan düzəldilib və dördpillələdir. Məscidin döşəməsindən tavanadək hündürlüyü 2,5 metrdir.

## SUSAY KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Susay kəndində yerləşib. İnşa tarixi 1997-ci ilə aiddir. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 10x10 metrdir.

Susay kənd məscidi formaca düzbucaqlıdır və mişar daşından tikilib. Məscid içəridən və fasad tərəfdən sement məhlulu ilə suvanıb. Giriş qapısının önündə dəhliz yerləşib. Məscidin damı dəmir təbəqə ilə örtülüb. İbadət zalında dörd pəncərə qoyulub. Məscidin döşəməsindən tavana qədər hündürlüyü 3,80 metrdir. İnteryeri çox sadədir. Qapı və pəncərələri tağvari formadadır.

## BƏBƏLİ KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Bəbəli kəndində tikilib. Tarixi XIX əsrə aid olunur. İç sahəsi 4,5x6,5 metrdir.

Düzbucaqlı formada olan bu məscid çiy kərpiclə tikilib. Damı şiferlə örtülüb. Giriş qapısının ön tərəfində eyvan yerləşib. Eyvanın sahəsi 12 kv.metrdir. Məscidin döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan bir taxta sütun üzərində dayanıb. Döşəmədən tavana qədər hündürlüyü 2,5 metrdir. Mehrab çox sadə işlənib. Divarlar samanlı palçıqla suvanaraq əhənglə ağardılıb.

Kənd camaatının qeyd etdiyinə görə, tarixi XIX əsrə aid olunan bu məscid üç dəfə sökülüb yenidən tikilib. Sonuncu dəfə 1970-ci ildə kənd sakini Fərhad Əsədulla oğlu tərəfindən bərpa olunub.

## HACI QURBANOBA MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Hacı Qurbanoba kəndindədir. Tarixi XIX əsrə aid olunur. Həyətyanı sahəsi 300 kv.metr, iç sahəsi isə 10x10 metrdir.

Formaca səkkizguşəli olan bu məscidin divarları çiy kərpicdən hörülüb. Damı şiferlə örtülüb. Fasad tərəfi saman-palçıqla suvanıb. Güldəstə formasında olan günbəz dəmir təbəqə ilə işlənib. Döşəmədən günbəzədək hündürlüyü 12 metr, döşəmədən tavanadək isə 3,5 metrdir.

Hacı Qurbanoba məscidi kənd sakini Mütəllib Şalbuz oğlu tərəfindən və onun şəxsi vəsaiti hesabına tikilib. Ondan sovetlər dövründə anbar kimi istifadə olunub və təəssüflər olsun ki, indi də anbar kimi istifadə edilməkdədir.

## RƏHİMOBA KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Rəhimoba kəndində yerləşib. Həyətyanı sahəsi 100 kv.metr, iç sahəsi isə 9x9 metrdir.

Rəhimoba kənd məscidi düzbucaqlı formadadır və başdan-başa çiy kərpiclə tikilib. Damı dəmir təbəqə ilə örtülüb. Günbəzi güldəstə formasındadır. Yerdən günbəzədək hündürlüyü 12 metrdir. Günbəzin yuxarı hissəsi dairəvi formadadır. Onun üstündə aypara qoyulub. Məscidin iç və fasad divarları suvanaraq ağardılıb. İbadət zalında iki qapı və pəncərə qoyulub. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Divarlarının qalınlığı 0,70 metrdir. Giriş qapılarının önündə eyvan (9x1,5 m) yerləşib. Mehrabı divarın içərisindədir. Məscidin döşəməsindən tavanınadək hündürlüyü 3 metrdir.

## YERKÜC KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Yerküc kəndində 1910-cu ildə inşa edilib. İç sahəsi 5x10 metrdir.

Yerküc kənd məscidi düzbucaqlı formadadır və divarları çaylaq daşları ilə hörülüb. Divarlarının qalınlığı 0,50 metrdir. Damı və günbəzi ağ dəmir təbəqə ilə örtülüb. Məscidin fasad tərəfi samanlı palçıqla, iç tərəfi isə sement məhlulu ilə suvanıb. Bir giriş qapısı və iki tağvari formalı pəncərəsi vardır. Giriş qapı olan tərəfdə eyvan yerləşib. Onun sahəsi 5x2,5 metrdir. Məscidin döşəməsindən tavanadək hündürüyü 3,5 metrdir.

Bu kəndin tarixi 722-ci ilə təsadüf etsə də, burada qədim məscid yoxdur. Hazırkı məscid üç dəfə-1920,1955 və 1991-ci illərdə təmir olunub.



## GÜLALAN KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Gülalan kəndində 1989-cu ildə inşa edilib. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 6,5x6,5 metrdir.

Forma etibarilə düzbucaqlıdır və çiy kərpiclə tikilib. Damı dəmir təbəqə ilə örtülüb. Tavanı və döşəməsi taxtadandır. Döşəmədən tavana qədər hündürlüyü 3,5 metr, döşəmədən günbəzədək isə 8 metrdir. Günbəzi dördguşəlidir. Giriş qapısı tərəfdə eyvan yerləşib. İbadət zalında iki tağvari formalı pəncərə qoyulub. Mehrabı çox sadə formaya malikdir.

Gülalan kənd məscidi kənd sakini Feyzulla Mustafayevin təşəbbüsü və kənd sakinlərinin köməkliyi sayəsində tikilib.

Camaatın bildirdiyinə görə, burada vaxtilə də məscid olub. Həmin məscid sökülüb dağılmış və hazırkı məscidi inşa etmək zərurəti meydana çıxmışdır.

## CANAXLI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Canaxlı kəndində yerləşir. 1990-1991-ci illərdə inşa edilib. İbadət zalının sahəsi 7x7 metrdir.

Canaxlı kənd məscidinin önündə dəhliz yerləşib. Məscidin bir giriş qapısı və dörd pəncərəsi var. Qapı və pəncərələr taxtadan düzəldilib. Döşəməsi torpaq, tavanı isə taxtadır. Günbəz dördguşəlidir və üstündə dəmir təbəqədən aypara qoyulub. Məscidin divarları fasad tərəfdən qum-sement məhlulu ilə suvanaraq ağardılıb. İç divarlar da qum-sement məhlulu ilə suvanıb və ağardılıb.

Canaxlı kənd məscidi kənd sakini Ağakərim Ağayevin təşəbbüsü və kənd camaatının vəsaiti hesabına tikilib.

Camaatın qeyd etdiyinə görə, burada vaxtilə də məscid olub. Məscid XIX əsrin axırlarında tikilib və sovetlər dövründə anbar kimi istifadə olunub. Həmin məscid sökülərək (1990-1991) yerində indiki məscid tikilib.

## ÇILĞIR KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Çılğır kəndində XIX əsrin ortalarında inşa edilib. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi 7x8 metrdir.

Düzbucaqlı formadadır və divarları çiy kərpiclə hörülüb. Divarları iç və fasad tərəfdən suvanıb. Dam şiferlə örtülüb. Döşəmə torpaq, tavanı isə taxtadır. Məscidin bir qapısı və dörd pəncərəsi var. Qapı və pəncərələr taxtadan düzəldilib. Günbəzi dördguşəlidir və dəmir təbəqə ilə işlənib. Günbəzin üstündə aypara və ulduz rəmzi qoyulub. Yerdən günbəzədək hündürlüyü 8 metr, döşəmədən tavanadək isə 3 metrdir.

Çılğır kənd məscidi heç bir zaman bağlanmamış və həmişə fəaliyyət göstərə bilmişdir. 1990-cı ildə məsciddə camaatın vəsaiti hesabına təmir işləri aparılıb.

## QOBUQIRAĞI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Qobuqırağı kəndi yaxınlığında yerləşir. 1995-ci ildə inşa edilib. İç sahəsi 7x10 metrdir.

Qobuqırağı kənd məscidi düzbucaqlı formadadır və mişar daşı ilə inşa olunub. Məscidin ön tərəfində eyvan yerləşib. Eyvan da mişar daşı ilə tikilib, döşəməsi beton, tavanı isə taxtadandır. Məscidin minbəri taxtadandır və dördpilləlidir. Mehrabı göy rənglə işlənib və divarın içərisində yerləşib. Məscidin iki qapısı və dörd tağvari formalı pəncərəsi var. Tavan düzbucaqlı, mehrabı isə tağvari formadadır. Dam dəmir təbəqə ilə örtülüb. Günbəzi dördguşəlidir və hündürlüyü 2 metrdir. Günbəzin hər bir guşəsində gözlük qoyulub.

Yerli camaatın bildirdiyinə görə, burada vaxtilə də məscid olmuşdur. Həmin məscid 1870-ci ildə tikilmiş və 1918-ci ilə qədər fəaliyyət göstərmişdir.

## MƏCİDOBA KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Məcidoba kəndində XIX əsrin əvvəllərində inşa edilib. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi isə 10x10 metrdir.

Bişmiş kərpicdən inşa edilib. Damı dəmir təbəqə ilə örtülüb. Tavanı taxtadandır. Döşəmədən tavana qədər hündürlüyü 6 metrdir. Məscidin bir qapısı və altı pəncərəsi vardır. Onların hamısı tağvari formadadır. Giriş qapısının önündə eyvan yerləşib. Məscidin divarları fasad tərəfdən əhənglə ağardılıb. İç divarlar isə sement məhlulu ilə suvanıb.

Sovetlər dövründə bu məsciddən anbar, kitabxana və digər məqsədlər üçün isitifadə olunub. 1988-ci ildə burada təmir işləri aparılaraq istifadəyə verilib.

Bu məscid Şalbuz Hüseyn oğlu (o, 130 il yaşamış və 1943-cü ildə vəfat etmişdir) tərəfindən tikilib.

## MÜRŞÜDOBA KƏND MƏSCİDİ



Xaçmaz rayonunun Mürşüdoba kəndində yerləşən bu məscidin bünövrəsi 1995-ci ildə qoyulub. Həyətyanı sahəsi 100 kv.metrdir.

Formaca düzbucaqlı olan bu məscid mişar daşından inşa olunub. Damı ağ dəmir təbəqə ilə örtülüb. Döşəməsi və tavanı taxtadandır. İbadət zalında altı pəncərə qoyulub. Mehrabı çox sadə formaya malikdir. Pəncərələr düzbucaqlı, giriş qapısı isə tağvari formadadır. Minbər üçpilləlidir və taxtadan hazırlanıb. Həyətyanı sahəsi asfaltla örtülüb və hasara alınıb. Hal-hazırda məsciddə təmir işləri aparılır.

Mürşüdoba kənd məscidi Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin Azərbaycan filialı tərəfindən tikilib.



## NƏRƏCAN KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Nərəcan kəndində yerləşir. Hicri-qəməri təqviminə əsasən 1333-cü ildə bərpa olunub. İlkin tarixi haqda məlumat yoxdur. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 10x12 metrdir.

Nərəcan kənd məscidi forma etibarilə düzbucaqlıdır. Divarları çiy kərpiclə tikilib. Damı dəmir təbəqə ilə örtülüb. Məscidin döşəməsi torpaq, tavanı isə taxtadandır. Döşəmədən tavanadək hündürlüyü 4 metr, döşəmədən günbəzədək isə 14 metrdir. Mehrabı sadə olub, hündürlüyü 2 metrdir. Nərəcan kənd məscidi əsrin əvvəllərində ermənilər tərəfindən yandırılıb. Sonralar camaatın vəsaiti hesabına burada təmir-bərpa işləri aparılıb.

*Qeyd:*

Bu məscidin yanında 1996-cı ildə Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin Azərbaycan filialı tərəfindən başqa bir məscid də tikilib. Odur ki, köhnə məscid mədrəsə qismində istifadə olunur.

## LƏCƏT KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Ləcət kəndində, hicri-qəməri təqvimi ilə 1355-ci ildə inşa edilib.

Zahiri görünüşü səkkizguşəli olan bu məscidin divarlarının aşağı hissəsi çaylaq daşı, yuxarı hissəsi isə çiy kərpiclə tikilib. Divarları, fasadı samanlı palçıqla suvanıb. Tavan və döşəməsi taxtadandır. Damı şiferlə, günbəzin üstü isə dəmir təbəqə ilə örtülüb. Məscidin bir qapısı və beş pəncərəsi var. Qapı və pəncərələr düzbucaqlı formadadır. Döşəmədən tavana qədər hündürlüyü 5 metrdir. Tavan dörd taxta sütun üzərində dayanıb. Mehrab divarın içində olub, üzərində müxtəlif nəbati ornamentlər vardır.

## SEYİDLƏR KƏND ŞEYX MOLLA YUSİF MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Seyidlər kəndindədir. 1990-cı ildə inşa edilib. İç sahəsi 4,5x7,5 metrdir.

Düzbucaqlı formadadır və bişmiş kərpicdən tikilib. Tavanı və döşəməsi taxtadandır. Damı dəmir təbəqə ilə örtülüb. Divarlar fasad tərəfdən sement məhlulu ilə suvanıb və əhənglə ağardılıb. Giriş qapısı tərəfdə dəhliz yerləşib. İbadət zalında üç pəncərə qoyulub. Minbər sadə formaya malik olub ikipilləlidir. Mehrabı yoxdur.Məscidin güldəstə formasında olan günbəzi səkkizguşəli olub, dəmir təbəqə ilə işlənmişdir.

Seyidlər kənd Şeyx Molla Yusif məscidi kənd camaatının vəsaiti ilə tikilib.

Vaxtilə burada başqa bir məscid olub. Həmin məscidin tarixi təxminən 400 il bundan əvvələ aid edilirdi. Məscid bərbad vəziyyətdə olduğundan 1990-cı ildə sökülüb.

## MUROQOBA KƏND MƏSCİDİ

Məscid Xaçmaz rayonunun Muroqoba kəndində yerləşib. Hicri-qəməri təqvimi ilə 1297-ci ildə inşa edilib. Həyətyanı sahəsi 200 kv.metr, iç sahəsi 10x10 metrdir.

Muroqoba kənd məscidi düzbucaqlı formadadır və divarlarının aşağı hissəsi çaylaq daşları, yuxarı hissəsi çiy kərpiclə tikilib. Damı dəmir təbəqə ilə örtülüb. Divarları iç və fasad tərəfdən samanlı palçıqla suvanıb. Giriş qapısının qarşısında yerləşən eyvan şüşəbəndlə örtülüb. Məscidin döşəmədən tavana qədər hündürlüyü 5 metr, mehrabının hündürlüyü isə 2 metrdir. Tavan taxtadandır və 4 taxta sütun üzərində dayanıb.

Muroqoba kənd məscidi sovetlər dövründə anbar, klub və s. kimi istifadə olunub.



## QIMILQIŞLAQ KƏND MƏSCİDİ

Məscid Xaçmaz rayonunun Qımılqışlaq kəndindədir. 1996-cı ildə inşa edilib. İç sahəsi 10x12 metrdir.

Qımılqışlaq kənd məscidi mişar daşından inşa olunub. Məscidin ibadət zalında iki qapı və beş pəncərə qoyulub. Qapılar və pəncərələr taxtadan düzəldilib. Məscidin yan tərəfində ona bitişik formada minarə ucaldılıb. Minarə dairəvi formadadır və hündürlüyü 9 metrdir. Minarənin yerdən ilk yeddi metri daşla tikilib və məscidin əsas binasına bitişikdir. Minarənin yuxarı hissəsi dəmir təbəqə ilə işlənib. Döşəmədən tavanadək hündürlüyü 6 metrdir.

Qımılqışlaq kənd məscidi Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin Azərbaycan filialı tərəfindən tikilib.



## SƏYYAD KƏND MƏSCİDİ

Məscid Xaçmaz rayonunun Səyyad kəndində 1993-1995-ci illərdə inşa edilib. Həyətyanı sahəsi 600 kv.metrdir.

Səyyad kənd məscidi səkkizguşəli formadadır və mişar daşı ilə inşa olunub. Döşəməsi və tavanı taxta təbəqə ilə örtülüb. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanıb. Məscidin ibadət zalında beş tağvari formalı pəncərə qoyulub. İbadət zalında dəmirdən minarə vardır. Bu minarə məscidin günbəzindən ucalıb. Günbəz içəri tərəfdən ağ rənglə, fasad tərəfdən isə dəmir təbəqə ilə işlənib. Həyətyanı sahəsi hasara alınıb. Məscid kənd sakini İntiqam Tayfur oğlu Zərbəliyev tərəfindən tikilib.

Qeyd:
Burada yeni tikilmiş məscidlə yanaşı, köhnə bir məscid də qorunub saxlanıb. Həmin məscidin dəqiq tarixi barədə məlumat yoxdur. Məscid xeyli köhnəlib və bərbad vəziyyətə düşüb. Hal-hazırda ondan istifadə olunmur.



## MÜQTƏDİR QƏSƏBƏSİ ŞEYX ÖMƏR MƏSCİDİ

Məscid Xaçmaz rayonunun Müqtədir qəsəbəsindədir. 1996-cı ildə inşa edilib. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi 12x6 metrdir.

Birmərtəbəli bu məscid mişar daşından inşa olunub. Həyətyanı sahəsi də mişar daşı ilə hasara alınıb. Divarları iç tərəfdən sement məhlulu ilə suvanıb və ağ rənglə işlənib. Döşəməsi beton, tavan isə beton plitədəndir. Damı dəmir təbəqə ilə örtülüb. Məscidin iki giriş qapısı və səkkiz pəncərəsi var. Minbəri taxtadan düzəldilib və üçpillədir. Məscid düzbucaqlı formadadır və yerli üslubda tikilib.

Müqtədir qəsəbəsi Şeyx Ömər məscidi Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin Azərbaycan filialı tərəfindən tikilib.



## ÇİNARQALA KƏND MƏSCİDİ

Məscid Xaçmaz rayonunun Çinarqala kəndində yerləşir. 1990-cı ildə inşa edilib. Həyətyanı sahəsi 200 kv.metr, iç sahəsi 7x7 metrdir.

Səkkizguşəli formada olub, çiy kərpiclə inşa olunmuşdur. Damı dəmir təbəqə ilə örtülüb. İç və fasad tərəfdən məscidin divarları samanlı palçıqla suvanıb. Giriş qapısının önündə eyvan yerləşib. Mehrab tağvari formadadır və üstündə dəmirdən aypara qoyulub.



## QUSARÇAY KƏND HÜSEYN MƏSCİDİ

Məscid Xaçmaz rayonunun Qusarçay kəndində 1996-cı ildə inşa edilib. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 11x8 metrdir. Mişar daşından inşa olunub. Həyətyanı sahəsi hasara alınıb.

Formaca düzbucaqlıdır. Damı dəmir təbəqə ilə örtülüb. Döşəməsi torpaq, tavanı taxtadandır. Məscidin iki qapısı və altı pəncərəsi vardır. Məscidin ön tərəfində eyvan yerləşib. Bu məscid Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin vəsaiti hesabına tikilib.



## MÜŞGÜR KƏND MƏLİKŞAH MƏSCİDİ



Məlikşah məscidi Xaçmaz rayonunun Müşgür kəndində yerləşib. 1995-ci ildə inşa edilib. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 10x15 metrdir.

Formaca düzbucaqlı olan bu məscid mişar daşından tikilib. Damı dəmir təbəqə ilə örtülüb. Minarəsi dəmir borudan olub, hündürlüyü 8 metrdir. Döşəməsi asfalt, tavanı isə taxtadandır. Mehrabın hündürlüyü 2,5 metrdir və üstü nəfis şəkildə işlənib. Məscidin yeddi pəncərəsi var. Pəncərələrin hamısı tağvari formadadır. Məscidin iç və fasad divarları sement məhlulu ilə suvanıb.

## QARĞALIQ KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Qarğalıq kəndində 1948-ci ildə inşa edilib. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi 7x12 metrdir. Düzbucaqlı formadadır və damının örtüyü şiferdəndir. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan 5 taxta sütun üzərində dayanıb. Minbəri taxtadandır və beşpilləlidir. Divarları çox sadə formadadır. Bir giriş qapısı və dörd pəncərəsi vardır. Qapı və pəncərələr taxtadandır. Məscid kənd camaatı tərəfindən tikilib. Sovetlər dövründə anbar kimi istifadə olunub.

## İLXIÇI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun İlxıçı kəndində tikilib. Hicri-qəməri tarixi ilə 1343-cü ildə inşa edilib. Həyətyanı sahəsi 300 kv.metr, iç sahəsi 10x7 metrdir.

İlxıçı kənd məscidi düzbucaqlı formadadır və damının örtüyü şiferlə örtülüb. Günbəzi dördguşəlidir və dəmir təbəqə ilə işlənib. Günbəzin hər bir guşəsində bir ədəd taxta pəncərə qoyulub. Məscidin ön tərəfində açıqşəkilli eyvan yerləşib. Əsas ibadət zalı iki hissəyə bölünüb: qadınlar və kişilər şöbəsi. Döşəmədən günbəzədək hündürlüyü 12 metrdir. Döşəmə və tavan taxtadandır. Həyətyanı sahəsi hasara alınıb. Məscid kənd sakini Mirzəbala Mirzə oğlu tərəfindən tikilib. Sovetlər dövründə anbar kimi istifadə edilib.



## HACILAR KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Hacılar kəndində inşa edilib. Tarixi XVII əsrə aid olunur. Həyətyanı sahəsi 600 kv.metr, ibadət zalının sahəsi 6x10 metrdir.

Formaca düzbucaqlı olan bu məscidin damı dəmir təbəqə ilə örtülüb. Günbəzin hündürlüyü 4 metrdir və ağ dəmir təbəqə ilə işlənib. Günbəzin yuxarı hissəsi səkkizguşəlidir və üstündə dəmirdən aypara qoyulub. Məscidin döşəməsi və tavanı taxtadandır. Tavan bir taxta sütun üzərində dayanıb. Döşəmədən tavanadək hündürlüyü 3 metrdir. Məscidin fasad divarları suvanaraq əhənglə ağardılıb. Məscidin bir giriş qapısı və altı pəncərəsi vardır. Qapı və pəncərələr taxtadan düzəldilib, düzbucaqlı formadadır.

Hacılar kənd məscidi həmişə fəaliyyət göstərmiş və heç bir vaxt bağlanmamış və ya başqa məqsədlə istifadə olunmamışdır.

## MOLLA ƏHMƏD BABA PİRİ





Pir Xaçmaz rayonunun Yalama kəndində yerləşib.

Pirin əsas binası səkkizguşəli olub, bir giriş qapısına malikdir. Qapıdan içəridə dəhliz yerləşib. Əsas otaqda bir böyük və bir kiçik qəbir yerləşib. Buranın sahəsi 8x8 metr, hündürlüyü 4,5 metrdir. Döşəməsi betondur. Pirin içərisində iki pəncərə qoyulub. Həyəti yaşıllıqlar içindədir. Burada müxtəlif qəbirlər yerləşib. Pirin binası və hasarları ağ kərpicdən tikilib. 1992-ci ildə burada təmir-tikinti işləri aparılıb. Belə ki, buradakı tikililər son vaxtlar inşa edilib. Tikililərin damı dəmir təbəqə ilə örtülüb. Pəncərələr və qapılar sivri ucludur.

## CIĞATAY KƏND MƏSCİDİ

Məscid Xaçmaz rayonunun Cığatay kəndində 1935-ci ildə inşa edilib. Həyətyanı sahəsi 300 kv. metr, iç sahəsi 9x9 metrdir.

Cığatay kənd məscidi çiy kərpicdən tikilib və düzbucaqlı formadadır. Giriş qapısının önündə dəhliz yerləşib. Dəhlizin sahəsi 4x7 metrdir. Minbər taxtadan düzəldilib və beşpilləlidir. Dam şiferlə örtülüb. Məscidin içərisi samanlı palçıqla, çöl tərəfi isə sement məhlulu ilə suvanıb.

Cığatay kənd məscidindən sovetlər dövründə anbar kimi istifadə olunub.

## MİRZƏMƏHƏMMƏD KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Mirzəməhəmməd kəndindədir. 1989-cu ildə inşa edilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi isə 5x10 metrdir.

Divarları çiy kərpiclə hörülüb. Döşəməsi torpaq, tavanı isə taxtadandır. İbadət zalında bir qapı və iki pəncərə qoyulub. Divarlar fasad tərəfdən ağardılıb. İç divarlar ağ rənglə işlənib. Tavan bir taxta sütun üzərində dayanıb. Dam dəmir təbəqə ilə işlənib.

Bu məscid kənd camaatının vəsaiti hesabına tikilib.

Qeyd edək ki, vaxtilə burada başqa bir məscid olmuşdur. Həmin məscidin tarixi XIX əsrə aid olunur. Lakin o, bərbad vəziyyətə düşmüş və uçub-dağılmışdır. Ona görə də indiki məscidin tikilməsi zəruri olmuşdur.

## ƏBİLYATAĞI KƏND MƏSCİDİ



Məscid Xaçmaz raynunun Əbilyatağı kəndində yerləşib. 1990-cı ildə inşa edilib. Həyətyanı sahəsi 600 kv.metr, iç sahəsi 13x13 metrdir.

Səkkizguşəli formaya malik olan bu məscid çiy kərpiclə tikilib, içəridən və çöldən saman-palçıqla suvanıb. Damı dəmir təbəqə ilə örtülüb. Günbəzi güldəstə formasında olub, səkkizguşəlidir. Günbəzin üstündə dəmir təbəqədən aypara və səkkizguşəli ulduz qoyulub. Məscidin döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan üç taxta sütun üzərində dayanıb. Məscidin bir giriş qapısı və ibadət zalında altı tağvari pəncərəsi vardır.

Əbilyatağı kənd məscidi kənd sakini Camal Mürşid oğlunun təşəbbüsü və kənd sakinlərinin vəsaiti hesabına tikilir. Tikinti işləri hələlik tam başa çatmayıb.

## NABRAN QƏSƏBƏ MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Nabran qəsəbəsindədir. Həyətyanı sahəsi 150 kv. metr, əsas ibadət zalının sahəsi isə 7x7 metrdir.

Nabran qəsəbə məscidi düzbucaqlı formadadır. Divarları çöl və iç tərəfdən sement məhlulu ilə suvanıb. Damı dəmir təbəqə ilə işlənib. Döşəmədən tavanadək hündürlüyü 3,5 metr, döşəmədən günbəzə qədər isə 7 metrdir. Günbəzi güldəstə formasındadır. Məscidin iki giriş qapısı var. Məscidin qarşısında eyvan yerləşib. Eyvanın sahəsi 8 kv.metrdir. Həyətyanı sahəsi yaşıllıqlar içərisindədir.



## DƏDƏLİ KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Dədəli kəndində, 1995-ci ildə inşa edilib. Həyətyanı sahəsi 300 kv.metrdir.

Dədəli kənd məscidi formaca səkkizguşəli olub, başdan-başa mişar daşı ilə tikilib. Damı dəmir təbəqə ilə örtülüb. Günbəzi sivri ucludur və üstündə aypara vardır. Döşəməsi taxtadandır. Məscidin içərisi ağ rənglə işlənmişdir. Qapı və pəncərələr taxtadan düzəldilib.

Dədəli kənd məscidi Küveytin İslam İrsinin Dirçəlişi Cəmiyyətinin Azərbaycan bölməsi tərəfindən tikilib.

## ÇARXI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Çarxı kəndində XIX əsrin axırlarında tikilib. İç sahəsi 4x8 metrdir.

Çarxı kənd məscidi düzbucaqlı formada olub, çiy kərpiclə inşa edilmişdir. Məscidin divarları həm fasad, həm də iç tərəfdən suvanmışdır. Damının örtüyü dəmir təbəqədəndir. Günbəzi (hündürlüyü 2 metr) dəmir təbəqə ilə işlənmişdir. Günbəz dörd guşəlidir. Döşəmə və tavan taxtadandır. Döşəmədən tavana qədər hündürlüyü 3,5 metrdir.

Çarxı kənd məscidi 1937-ci ildən etibarən bağlanmış və anbar kimi istifadə edilmişdir. 1977-ci ildə məscidin fəaliyyəti bərpa olunmuşdur.

## XASPOLADOBA KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Xaspoladoba kəndində yerləşib. Bünövrəsi 1993-cü ildə qoyulub. İç sahəsi 12x12 metr, həyətyanı sahəsi isə 2500 kv.metrdir. Səkkizguşəli formada olan bu məscid çiy kərpiclə tikilib. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Damı şiferlə örtülüb. Bir giriş qapısı və dörd pəncərəsi vardır. Giriş qapısının sağ və sol tərəfində qoşa minarə tikilib. Minarələr çiy kərpiclə inşa edilib və hündürlüyü 4 metrdir. Dairəvi formada olan bu minarələrin diametri iki metrdir. Məscidin əsas binasının, habelə minarələrin üstündə aypara rəmzi qoyulub.

Xaspoladoba kənd məscidinin tikintisinə Məşədi Şah İsmayıl Ömərovun (o, 1996-cı ildə rəhmətə gedib) təşəbbüsü və şəxsi vəsaiti hesabına başlanılıb.

Sonralar kənd camaatı tikinti işlərini davam etdirib. Bu işə Həsən və Bakıxan Həsənovlar başçılıq ediblər. Hal-hazırda məscidin binası tam hazırdır.

## HÜLÖLÜ KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Hülölü kəndindədir. Bünövrəsi 1986-cı ildə qoyulub. İç sahəsi 11x11 metr, həyətyanı sahəsi 500 kv.metrdir.

Formaca düzbucaqlı olan bu məscid mişar daşı ilə inşa olunub. Damı dəmir təbəqə ilə örtülüb. Günbəzi dördguşəlidir, üstündə aypara qoyulub. Yerdən günbəzədək hündürlüyü 10 metr, döşəmədən tavana qədər isə 3 metrdir. Məscidin iki giriş qapısı və iki pəncərəsi var. Qapı və pəncərələr taxtadan düzəldilib. Məscidin həyətyanı sahəsi mişar daşı ilə hörülmüş hasara alınıb.

## Z.TAĞIYEV ADINA KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Zeynalabdin Tağıyev adına kəndində yerləşib. Bünövrəsi 1995-ci ildə qoyulub. İç sahəsi 20x12 metrdir.

Z.Tağıyev adına kənd məscidi mişar daşı ilə tikilib və döşəməsi asfaltla döşənib. Tavanı taxtadandır və tavan bir dəmir sütun üzərində dayanıb. Qapısı ikidir. Həyətyanı sahəsi daş hasara alınıb.

Z.Tağıyev adına kənd məscidi camaatın vəsaiti hesabına tikilib. Tikinti işləri hələlik tam başa çatmayıb.

## NİYAZABAD KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Niyazabad kəndində 1996-cı ildə inşa edilib. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 12x12 metrdir. Yerdən tavana qədər hündürlüyü 3,5 metrdir.

Niyazabad kənd məscidi düzbucaqlı formadadır və çiy kərpiclə inşa edilib. Döşəməsi torpaq, tavanı isə taxtadır. Məscidin bir giriş qapısı var və taxtadan düzəldilib. İbadət zalında dörd pəncərə qoyulub. Günbəzin üstü dəmir təbəqə ilə düzəldilib. Dördguşəli günbəzin üstündə dəmir təbəqədən aypara və beşguşəli ulduz da qoyulub. Məscidin minarəsi və minbəri yoxdur.



## AŞAĞI ZEYD KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Aşağı Zeyd kəndində 1870-cı ildə inşa edilib. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi isə 8x10 metrdir.

Düzbucaqlı formaya malik olan bu məscid çiy kərpiclə inşa olunub. Damı şiferlə örtülüb. Məscidin bir qapısı və üç pəncərəsi var. Onlar taxtadan düzəldilib. Məscidin döşəməsi və tavanı da taxta ilə işlənib. Döşəmədən tavanadək hündürlüyü 3 metrdir. Məscidin divarlarının qalınlığı 0,60 metrdir. Məscidin ön tərəfində eyvan yerləşib. Eyvanın sahəsi 15 kv.metrdir. Güldəstə formasında olan günbəzi dəmir təbəqə ilə işlənib.

Məscid sovetlər dövründə də fəaliyyət göstərib. 1990-cı ildə burada kənd camaatı tərəfindən təmir işləri aparılıb.

## QARABAĞLI KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Qarabağlı kəndində tikilib. Hicri-qəməri təqvimi ilə 1341-ci ildə inşa edilib. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 9x6 metrdir.

Qalınlığı 0,70 metr olan divarlar çiy kərpiclə hörülüb. Düzbucaqlı formada olan bu məscidin damının örtüyü dəmir təbəqədəndir. Məscidin ön tərəfində sahəsi 6x3 metr olan eyvan yerləşib. Eyvanın döşəməsi torpaq, tavanı isə şiferdir. Minbər taxtadan düzəldilib və beşpillədir. Məscidin döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan üç taxta sütun üzərində dayanıb. İbadət zalında beş taxta pəncərə və habelə bir qapı qoyulub. Döşəmədən tavanadək hündürlüyü 3 metrdir.

Qarabağlı kənd məscidi yerli kənd camaatı tərəfindən tikilib. Sovetlər dövründə anbar kimi istifadə olunub. 1985-ci ildən fəaliyyəti bərpa edilib. Qeyd etmək lazımdır ki, məscid ilkin formasını tam olaraq saxlayıb və heç bir dəyişikliyə məruz qalmayıb.

## GƏNCƏLİ KƏND MƏSCİDİ



Məscid Xaçmaz rayonunun Gəncəli kəndində yerləşir. Bünövrəsi 1990-cı ildə qoyulub. İç sahəsi 10x14 metrdir.

Yol kənarında yerləşən məscid yerli sakin Şamil Sadıqovun təşəbbüsü və rəhbərliyi ilə kənd camaatı tərəfindən tikilir.

Damı şiferlə örtülüb. Döşəməsi torpaq, tavanı isə taxtadandır. Əsas ibadət zalı taxta arakəsmə ilə iki yerə - kişilər və qadınlar şöbəsinə ayrılıb. İbadət zalında iki qapı və altı pəncərə qoyulub.

Hal-hazırda tikinti işləri davam edir.

### QARAQUTDU KƏND MƏSCİDİ



Xaçmaz rayonunun Qaraqutdu kəndində yerləşən bu məscidin inşa tarixi dəqiq məlum deyil. İç sahəsi 8x12 metrdir. Məscid forma etibarilə düzbucaqlı şəklindədir və qırmızı kərpiclə tikilib. Günbəzi də bişmiş qırmızı kərpiclə işlənib. Məscidin damının üstündə bir böyük və səkkiz kiçik günbəz var. Ön tərəfində son zamanlar geniş bir eyvan tikilib. Məscidin döşəməsi torpaqla, tavanı isə tağlarla işlənib. Tavan yeddi tağdan ibarətdir. Tavan iki böyük sütun üzərində dayanıb.

1993-cü ildə təmir-bərpa işləri aparılıb.

# XIZI RAYON MƏSCİDLƏRİ

### ƏMBİZLƏR KƏND MƏSCİDİ



Məscid Xızı rayonunun Əmbizlər kəndində yerləşib. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 7,5x22 metrdir.

Əmbizlər kənd məscidi xüsusi sal daşlardan hörülüb. Damı dəmir təbəqə ilə örtülüb. Döşəmə gil-torpaq, tavan isə taxtadandır. Tavan 10 taxta sütun üzərində dayanıb. Divarlar qum-sement məhlulu ilə suvanıb. Məscidin interyeri sadədir. Məscid iki hissəyə-qadınlar və kişilər şöbəsinə bölünüb. Hər şöbənin öz ayrıca giriş qapısı var. Məscidin ön tərəfində açıq eyvan yerləşib. Minarəsinin hündürlüyü 10 metrdir. Minbəri taxtadan düzəldilib və dördpilləlidir. Məscid düzbucaqlı formadadır.

### NƏCƏFABAD (ŞURABAD) CÜMƏ MƏSCİDİ



Xızı rayonunun Nəcəfabad kəndində yerləşən bu məscidin dəqiq tarixi məlum deyil.

1937-1989-cu illərdə anbar və dəyirman kimi istifadə olunub. 1989-cu ildə məscidin yenidən tikintisinə başlanılıb. Hazırkı məscid yonulmuş sal daşlardan tikilib və damı dəmir təbəqə ilə örtülüb. Məscid üçün hündürlüyü 22,5 metr olan minarə də ucaldılıb.



### ŞEYX HEYDƏR TÜRBƏSİ

Türbə Xızı rayonunun Tıxlı kəndindən 3-4 km şimal-şərq tərəfdə - Beşbarmaq dağının arxasında yerləşib.

Şah İsmayıl Xətainin atası Şeyx Heydərin burada dəfn olunduğu söylənilir. Deyilənə görə, buradakı Şıxlar kəndini də Şah İsmayıl Xətai saldırıb. Sonralar Şah İsmayıl Xətai babası Şeyx Cüneyd və atası Şeyx Heydərin sümüklərini Ərdəbil şəhərinə aparaaraq Şeyx Səfiəddin türbəsində dəfn etdirib.

### MƏŞƏDİ HƏSƏN MƏSCİDİ



Məscid Xızı rayonunun Məşədi Həsən kəndində tikilib. Həyətyanı sahəsi 2000 kv.metr, iç sahəsi 400 kv.metrdir.

Məscid iki mərtəbədən ibarətdir. Divarları daşla hörülüb və mərmərlə üzlənib. Döşəmə taxtadandır. Məscidin minarəsinin hündürlüyü 26 metrdir.

Məsciddə hazırda tikinti işləri davam etdirilir.

Məşədi Həsən məscidinin yerləşdiyi bu kənd yeni salınıb. Məscidi tikdirən Məşədi Həsənin nəvəsi Hacı Elman Həsənovdur. O, xeyriyyəçi olub. Hacı Elman Tatarıstanda da məscid tikdirib. Həmin məscid "Hacı Abuzər məscidi" adlanır. O, Azərbaycan Respublikasının prezidentinin sərəncamı ilə Azərbaycanın Tatarıstanda ticarət üzrə səlahiyyətli nümayəndəsi təyin olunub. Hacı Elman 1989-cu ildə Xızı rayonunun Məşədi Həsən kəndinin tikintisinə başlayıb. Buradakı məscidin inşası da onun adı ilə bağlıdır.

### ALTIAĞAC KƏND MƏSCİDİ



Məscid Xızı rayonunun Altıağac kəndində inşa olunub. Bünövrəsi 1993-cü ildə qoyulub. İç sahəsi 11x8 metrdir.

Altıağac kənd məscidi düzbucaqlı formaya malikdir. Divarları çaylaq daşı ilə hNrülüb. Məscidin iki giriş qapısı və 10 ədəd pəncərəsi var. Damı şiferlə örtülüb və üstündə aypara rəmzi qoyulub.

### TUDAR KƏND MƏSCİDİ



Məscid Xızı rayonunun Tudar kəndində tikilib. İç sahəsi 7x19 metr olub, hündürlüyü 4 metrdir.

Tudar kənd məscidi çaylaq daşlarından inşa olunub. Minarəsi dəmirdən olub, hündürlüyü 10 metrdir. Fasad tərəfdən ağ rənglənib. Damı qırla örtülüb.

### TÜRKOBA KƏND MƏSCİDİ



Xızı rayonunun Türkoba kəndində yerləşən məscidin bünövrəsi 1989-cu ildə qoyulub. Həyətyanı sahəsi 1200 kv.metr, əsas ibadət zalının sahəsi 7x4 metrdir.

Bu tikili əvvəlcə ev olmuşdur. Lakin sonradan dəyişdirilmiş və məscid kimi istifadəyə verilmişdir.

Türkoba kənd məscidi düzbucaqlı formadadır və mişar daşından tikilib. Əsas giriş qapısından içəri dəhliz yerləşib. Məscidin döşəməsi linolium, tavanı isə beton plitədəndir. Əsas ibadət zalında bir qapı və iki pəncərə var. Divarlar içəridən qum-sement məhlulu ilə suvanıb və divar kağızı ilə üzlənib.

### GİLƏZİ KƏND MƏSCİDİ



Məscid Xızı rayonunun Giləzi kəndində inşa edilib. Həyətyanı sahəsi 1500 kv.metr, iç sahəsi 23x4 metrdir.

Giləzi məscidi düzbucaqlı formadadır və mişar daşından tikilib. Damı şiferlə örtülüb. Minarəsi dəmirdəndir. Şərəfəsi bişmiş kərpiclə işlənib. Minarənin üstündə dəmirdən ay və səkkizguşəli ulduz rəmzi qoyulub. Məscidin iki qapısı və altı pəncərəsi var.



## HACIQABUL RAYON MƏSCİDLƏRİ

### QAZIMƏMMƏD ŞƏHƏR MƏSCİDİ



Məscid Hacıqabul rayonunun mərkəzində - Qazıməmməd şəhərində yerləşib. İbadət zalı iki hissədən-kişilər və qadınlar şöbəsindən ibarətdir. Kişilər şöbəsinin sahəsi 17x13 metr, qadınlar şöbəsinin sahəsi 17x5 metrdir. Məscidin yerdən tavana qədər hündürlüyü 4 metr, yerdən günbəzədək hündürlüyü isə 6 metrdir.

Qazıməmməd şəhər məscidi əsasən mişar daşı və betonla işlənmişdir. Beş günbəzə malikdir. İkisinin diametri 7 metr, qalanlarının diametri 3 metrdir.

Məscidin həyətində qoşa minarə üçün bünövrə qoyulub.

Məscid 1993-cü ildən etibarən yerli sakin Seyidəli Mirfəttah oğlunun şəxsi vəsaiti ilə tikilməkdədir.

### QAZIMƏMMƏD ŞƏHƏR MƏHƏLLƏ MƏSCİDİ



Məscid Qazıməmməd şəhərinin Xilə məhəlləsində tikilib. İç sahəsi 12x20 metr, həyətyanı sahəsi 400 kv.metrdir.

Qazıməmməd şəhər məhəllə məscidi məhəllə camaatının vəsaiti ilə 1992-ci ildə tikilmişdir. Başdan-başa mişar daşı ilə inşa olunan məscidin günbəzi dəmirlə işlənib. Minarələr də mişar daşıyla tikilir.

Məscidin qarşı tərəfində açıqşəkilli eyvan yerləşib.

Mollası Məşədi İntiqamdır.

### QUBALI KƏND MƏSCİDİ



Məscid Hacıqabul rayonunun Qubalı kəndində yerləşir. Həyətyanı sahəsi 1000 kv.metr, iç sahəsi 140 kv.metrdir. Məscid 1989-1990-cı illərdə yerli sakin Əsgərov Mirilyas Seyid Əsgər oğlu tərəfindən tikilib.

Qubalı kənd məscidinin divarları başban-başa mişar daşı ilə tikilib. Döşəmədən tavanadək hündürlüyü 3 metr, günbəzədək 6 metrdir. Günbəzin üstü dəmirlə işlənib və daha yuxarı hissəsində dəmirdən aypara və səkkizguşəli ulduz rəmzi qoyulub.

Qubalı kənd məscidinin ön tərəfində açıqşəkilli eyvan yerləşib.

## MUĞAN KƏND MƏSCİDİ

Məscid Hacıqabul rayonunun Muğan kəndində inşa olunub. İbadət zalının sahəsi 13x6 metr, həyətyanı sahəsi 300 kv.metrdir. Məscid düzbucaqlı formaya malik olub, başdan-başa mişar daşı ilə tikilmişdir. Dam örtüyü şiferlə işlənib. Günbəzi betonla işlənib və onun diametri 3 metrdir. Məscidin pəncərələri düzbucaqlı formaya malikdir və taxtadan düzəldilib. Bu məscid 1989-cu ildə inşa olunub.



## QARASU KƏND MƏSCİDİ

Məscid Hacıqabul rayonunun Qarasu kəndindədir. Həyətyanı sahəsi 500 kv.metr, iç sahəsi 150 kv.metrdir.

Qarasu kənd məscidi tamamilə mişar daşları ilə tikilib. Günbəzi dəyirmi formaya malikdir və ağ dəmir təbəqə ilə işlənmişdir.

Qarasu kənd məscidi səkkizguşəlidir. Hələlik istifadə edilmir. Bütün qapı və pəncərələrinin yeri tağvari formalıdır. Qarasu kənd məscidinin tikintisi 1993-cü ildən etibarən başlanmışdır. Tikinti kənd camaatının vəsaiti hesabına aparılır.



## RƏNCBƏR KƏND MƏSCİDİ

Məscid Hacıqabul rayonunun Rəncbər kəndində tikilib. İç sahəsi 24x12 metr, hündürlüyü isə 3,5 metrdir.

Rəncbər kənd məscidi XIX əsrin axırlarında tikilmişdir. Lakin sonradan ermənilər tərəfindən yandırılıb və nəhayət, yenidən əvvəlki formada bərpa edilib.

Rəncber kənd məscidi tamam mişar daşından tikilib. Damı şiferlə örtülüb. Bütün qapı və pəncərələri düzbucaqlı formadadır.





## PAŞALI KƏND MƏSCİDİ

Məscid Hacıqabul rayonunun Paşalı kəndində yerləşib. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi 18x18 metrdir.

Paşalı kənd məscidi 1995-ci ildə Hacı Məhəmməd Kərbəlayı Mirzə oğlunun şəxsi vəsaiti hesabına tikilib. Məscidin arxa tərəfində dəmir borudan qoşa minarə ucaldılıb. Minarələrin (hündürlüyü 10 metr) üstündə dəmir təbəqədən aypara və ulduz rəmzi qoyulub. Paşalı kənd məscidinin döşəməsi daş plitə, tavanı isə fanerdir. Yerdən tavanadək hündürlüyü 4 metr, yerdən günbəzədək isə 8 metrdir. Günbəzlərin sayı beşdir. Onların dördü kiçik, biri isə böyükdür.



Paşalı kənd məscidinin giriş darvazasının içəri tərəfində, divarda kiril əlifbası ilə belə yazılmışdır: "Məscid Hacı Məhəmməd Kərbəlayı Mirzə oğlu tərəfindən tikilmişdir". Bundan aşağıda 1995-ci il tarixi göstərilmişdir.

## PİRSAAT XANƏGAHI

Pirsaat xanəgahı Hacıqabul rayonunun Qubalı kəndindən 20 km. aralıda (Şamaxı istiqamətində) yerləşmişdir. XI-XIII yüzilliklə Cümə məscidlərində günbəzli məqsurələr geniş yayıldığı halda, Bakının məhəllə məscidləri başlıca olaraq tağbənd örtüklü yığcam tikililər idi. Bu məscid tipinin dəyərli örnəklərindən biri Pirsaat xanəgahı kompleksindədir. Vaxtilə bu abidə nüfuzu Şirvandan kənara çıxan bir ziyarətgah-pir olmuşdur.



Pirsaat çayının sahilində yerləşən bu memarlıq kompleksi Şirvanı xarici dünya ilə bağlayan ana karvan yolu üstündə tikilmişdir. Xanəgah möhkəm divarlarla qapalı, bürclərlə möhkəmləndirilmiş qalaçanı xatırladır. Kompleksin əsas tikililəri də bu dördbucaqlı "qalaçanın" içərisindədir.

Pirsaat xanəgahı əhalinin müqəddəs saydığı və pirə çevirdiyi Şeyx Pir Hüseyn Şirvaninin türbəsi ətrafında bir neçə yüz il ərzində yaranmışdır. Türbə,yəqin ki, XI yüzillikdə (Pir Hüseyn 1074-cü ildə vəfat etmişdir) tikilmişdir. Bu yerdə qədim tapınacağın, pirin olması da mümkündür.

Pir Hüseyn türbəsi güneydən məscid binasına bitişikdir. Üstündə tikilmə tarixi qalmayan məscidin plan-məkan quruluşu İçərişəhərdəki Aşur məscidi ilə eynidir. Düzbucaqlı planlı olub, sivri tağbəndlə örtülən uzunsov ibadət salonunun konstruksiyasına əlavə möhkəmlik üçün ortada tağ qurulmuşdur. Onun giriş qapısı doğu fasada asimmetrik çıxır. Bu qapı önündə vaxtilə Bakıdakı Məhəmməd məscidində olan sayaq vestibül varmış. Plan-məkan quruluşundakı bu xüsusiyyətlərə əsaslanıb Pirsaat məscidinin XI-XII yüzillərin qovşağında tikildiyini söyləmək olar.

XII yüzilliyin ortasından ziyarətgahın nüfuzunun artması ilə bağlı burada tikinti və bəzək işləri genişləndirilir. Xanəgahın giriş qapısı üstündə tikinti tarixi 1243-cü il göstərilib. Məscidin zəngin bədii yapma gec-naxışlı mehrabı və Pir Hüseyn türbəsinin çox rəngli kaşı bəzəyi həmin ilin əsərləridir. Xanəgah kompleksinin dominantı olan minarə məsciddən aralı olub, iki uzunsov tikilinin qovşağında ucalır. Üstündəki kitabədə ustad Mahmud Maqsud oğlunun minarəni 1256-cı ildə tikdiyi bildirilir.

Pirsaat minarəsi Şirvan minarələrinin Sınıq minarəsindən sonrakı inkişaf mərhələsinin örnəyidir. Onun yanındakı bina ilə fiziki bağlılığı yoxdur. Bununla belə, memar minarə ilə bina arasında bağlılığı gücləndirmək üçün yeni fənd işlətmişdir. Minarənin kürsülüyü yanındakı binalarla bir hündürlükdə olan kub şəklindədir. Onun üstündə səkkizguşəli tutum yerləşir.

Pirsaat xanəgahı özünün yüksək səviyyəli bəzək işləri ilə şərqşünasların nəzər-diqqətini cəlb etmişdir. Başdan-başa daşdan böyük ustalıqla tikilmiş abidənin interyerlərində bu bölgə memarlığı üçün səciyyəvi olmayan gec və çoxrəngli kaşı bəzəyinin nadir örnəklərinin olması ölkənin beynəlxalq əlaqələrinin Elxanilər çağında güclənməsi nəticəsi idi. Xanəgahın yüksək sənət dəyərinə görə talan edilib lövhələri yad muzeylərə daşınmış kaşı bəzəyinin h.q. 684-cü ildə (1285-1286) Ömər Məhəmməd oğlu Qəzvini yerinə yetirmişdi. Bəzək işlərinin bu sayaq yüksək keyfiyyəti ilə yanaşı, Pirsaat xanəgahı Şirvanın daş memarlığının dəyərli əsərlərindəndir və onun bitkin memarlıq-məkan həlli tam öyrənilməmişdir.

## HACIQABUL RAYONU ATBULAQ KƏND MƏSCİDİ



Məscid Hacıqabul rayonunun Atbulaq kəndində inşa edilib. Məscidin inşası 1997-ci ilin əvvəllərindən başlanmış və 1998-ci ilin əvvəllərində başa çatdırılmışdır. İç sahəsi 10x14 metrdir.

Hacıqabul rayonu Atbulaq kənd məscidi başdan-başa mişar daşı ilə tikilib. Əsas ibadət zalı dördbucaqlı formada olub, dam örtüyü ağ dəmir təbəqə ilə örtülmüşdür. Dəyirmi formalı minarə də mişar daşı ilə hörülmüşdür. Minarənin üstü ağ dəmir təbəqə ilə işlənib. Məscidin günbəzi damın üstündədir, hündürlüyü 2 metrdir. Minarə və günbəzin üstündə dəmir təbəqədən aypara rəmzi qoyulmuşdur. Məscidin giriş qapısı ikidir. Həm döşəməsi, həm də tavanı taxtadandır. Məscid 6 tağvari formalı pəncərəyə malikdir.

# CƏLİLABAD RAYON MƏSCİDLƏRİ

## CƏLİLABAD ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Məscid Cəlilabad rayonunun mərkəzindədir. XX əsrin əvvəllərində tikilib. 1988-ci ildə yerli camaatın təşəbbüsü ilə sökülərək yenidən inşa edilmişdir. Həyətyanı sahəsi 1400 kv.metrdir. İç sahəsi 17x36 metrdir. Cəlilabad şəhər Cümə məscidinin bərpasında yerli sakinlər yaxından iştirak etmişlər. Dövlət orqanları da bu işdə köməklik göstərmişdir. Həyətyanı sahəsi mişar daşından tikilmiş hasara alınmışdır. Məscidin binası bişmiş qırmızı kərpiclə işlənmişdir. Giriş qapılarının ön tərəfində sahəsi 4x36 metr olan eyvan yerləşmişdir. Eyvan İrandan gətirilmiş kərpiclə işlənmişdir. Tək minarəyə malikdir. Döşəməsi bişmiş kərpicdəndir. Döşəmədən tavana qədər hündürlüyü 5,5 metrdir. Tavan düzbucaqlı formada olub, taxta sütun üzərində dayanıb. Məscidin mehrabı giriş qapısı ilə üzbəüz divarda yerləşmişdir. Mehrab tağvari formadadır və hündürlüyü 3 metrdir. İbadət zalı iki hissədən ibarətdir (qadınlar və kişilər üçün). Qadınlar şöbəsi iki mərtəbəlidir. Məscidin əsas mollası və pişnamazı Hacı Əfqan Fərman oğludur.





## CƏLİLABAD RAYON GÖYTƏPƏ MƏSCİDİ



Məscid Cəlilabad rayonunun mərkəzindədir. 1992-ci ildə inşa olunub. Həyətyanı sahəsi 10000 kv.metr, iç sahəsi isə 30x30 metrdir.

Cəlilabad rayonu Göytəpə məscidinin əsas binası mişar daşı ilə tikilmişdir. Giriş qapısının ön tərəfində 3 tağdan ibarət arka yerləşmişdir. Arka bişmiş kərpicdən hörülmüşdür. Məscid yerli sakin Hacı Sərdar Məşədi Əsgər oğlunun təşəbbüsü ilə tikilib. (1993-cü ildə vəfat edib). Ustası Atababa İsayev, Cümşüd Ağayev və Xosrov Quliyevdir. Məscidin giriş qapısının sağ tərəfində qara mərmər lövhə asılmışdır ki, bunun da üzərində məscidin tikilməsinə başçılıq edən Hacı Sərdarın adı qeyd edilmişdir. Giriş qapısının ön tərəfində eyvan yerləşmişdir. Onun döşəməsi daş pilitə, tavanı isə taxtadır. Məscidin minarələrinin hündürlüyü 23 metrdir. Minarələr dəyirmi şəkildə olub, başdan-başa bişmiş ağ kərpiclə hörülmüşdür. Damın örtüyü ağ dəmir təbəqədəndir. Döşəmə bişmiş qırmızı kərpicdən, tavan isə taxtadandır. Döşəmədən tavana qədər hündürlüyü 7 metrdir. Minbəri taxtadandır, mehrab isə bişmiş kərpicdəndir. Məscidin iki əsas giriş qapısı vardır (bir əlavə giriş qapısı da mövcuddur). Qapıları taxtadan düzəldilmişdir.

## HASILLI KƏND MƏSCİDİ



Cəlilabad rayonunun Hasıllı kəndində yerləşən bu məscidin əsası XIX əsrin əvvəllərində qoyulmuş, 1918-ci il noyabrın 18-də isə yandırılmışdır. Sonradan məscidi yerli sakin Hacı Mirhüseyn ağa bərpa etdirmişdir. Qeyd etmək lazımdır ki, onun nəvəsi Mirhəsən Mirməhəmməd oğlu indiki kənddə Qurandan və şəriətdən dərs keçir. Atası Mirməhəmməd (1976-cı vəfat etmişdir). Nəcəfül- əşrəfdə dini təhsil almışdır. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi isə 8x14 metrdir.

Bundan başqa, bura ticarət məntəqəsi kimi də fəaliyyət göstərmiş və məşhur Hasıllı bazarı ilə tanınmışdır. Məscid bütünlükdə bişmiş kərpiclə tikilmişdir. Dam örtüyü qırmızı kirəmitlə işlənmişdir. Günbəzi güldəstə formasındadır. Məscidin dörd tağvari giriş qapısı, 7 tağvari pəncərəsi vardır. Məscidin yerdən tavana qədər hündürlüyü 4 metrdir. Məscidin döşəməsi bişmiş qırmızı kərpiclə işlənmişdir. Tavanı düzbucaqlı formadadır. Tavan 3 taxta sütun üzərində dayanmışdır. Pəncərələr şəbəkə və rəngli şüşələrlə işlənmişdir. Məscidin qadınlar şöbəsi ikimərtəbəlidir.

Mehrab divarın çöl tərəfindədir. Məscidin divarları fasad tərəfdən bişmiş kərpic, iç tərəfdən isə qum-sementlə suvanmış və rənglənmişdir. Qapı və pəncərələr taxtadan düzəldilmişdir. Məscidin minbəri də taxtadandır.

## HƏZRƏT ƏBÜLFƏZL ABBAS MƏSCİDİ



Məscid Cəlilabad rayonunun Adnalı kəndindədir. XX əsrin əvvəllərində inşa edilmişdir. Lakin çox bərbad halda olduğundan 1989-cu ildə sökülmüş və yenidən tikilmişdir. 1990-cı ildən etibarən məscid istifadəyə verilib.

Həyətyanı sahəsi 35 kv.metr, iç sahəsi 14x8 metrdir.

Həzrət Əbülfəzl Abbas məscidinin divarları mişar daşı ilə hörülmüşdür. Minarə də mişar daşı ilə tikilmişdir, hündürlüyü 10 metrdir. Minarənin üstündə dəmirdən aypara rəmzi qoyulmuşdur. Məscidin tavanı taxta, döşəməsi torpaqdandır. Məscidin giriş qapısının içərisində dəhliz yerləşmişdir. Dəhlizdən içəriyə daha bir giriş qapısı qoyulmuşdur. Tavan düzbucaqlı formada olub, 6 beton sütun üzərində dayanmışdır. Sütunlar taxta ilə üzlənmişdir. İbadət zalı taxta arakəsmə ilə iki hissəyə - kişilər və qadınlar şöbəsinə bölünüb. Günbəzi ağ dəmir təbəqə ilə örtülmüşdür. Məscidin günbəzi səkkizguşəlidir. Günbəz üzərində aypara rəmzi qoyulmuşdur.

## SƏRHƏDABAD KƏND MƏSCİDİ



Məscid Cəlilabad rayonunun Sərhədabad kəndində yerləşib. Bünövrəsi 1983-cü ildə qoyulub. İç sahəsi 8x13 metr, həyətyanı sahəsi isə 700 kv.metrdir.

Sərhedabad kənd məscidi kənd camaatının vəsaiti hesabına tikilmişdir.Düzbucaqlı formada olan iki giriş qapısı vardır. Qapılar taxtadan işlənmişdir. Məscidin döşəməsi torpaq, tavanı isə taxtadandır. Tavan düzbucaqlı formadadır. Dörd pəncərəsi vardır. Pəncərələr düzbucaqlı fomadadır, hər birinin ölçüsü 1,5x1,5 metrdir. Tavan üç dəmir sütun üzərində dayanmışdır. Divarları iç tərəfdən palçıqla suvanmışdır. Məscid forma etibarilə çox sadədir.

## HAMARQIŞLAQ KƏND MƏSCİDİ



Məscid Cəlilabad rayonunun Hamarqışlaq kəndində tikilib. 1985-ci ildə yerli kənd sakinlərinin təşəbbüsü və vəsaiti hesabına tikilmişdir. Həyətyanı sahəsi 800 kv.metr, iç sahəsi isə 18x10 metrdir.

Hamarqışlaq kənd məscidinin əsas divarları çiy kərpiclə hörülmüşdür. 1996-cı ildə məscidin divarları fasad tərəfindən bişmiş kərpiclə üzlənmişdir. Divarlarının hündürlüyü 3 metrdir. Dam örtüyü şiferdəndir. Döşəməsi qırmızı kərpic, tavanı isə taxtadandır. Əsas giriş qapısı birdir. İbadət zalı iki hissədən ibarətdir. Arakəsmə çiy kərpiclə hörülmüşdür.



## SULUÇEŞMƏ KƏND MƏSCİDİ



Məscid Cəlilabad rayonunun Suluçeşmə kəndində yerləşib. İnşa tarixi 1947-1948-ci illərə aid olunur. Həyətyanı sahəsi 1200 kv.metrdir.

Suluçeşmə kənd məscidi vaxtilə yaşayış evi olmuşdur. Evin sahibi Şükür Mirzəyev buranı məscidə vəqf etmişdir. Hal-hazırda kənd camaatı bu evi məscid hesab edir və orada ibadət edirlər. Məscidin həyətyanı sahəsində müxtəlif meyvə ağacları əkilmişdir. Birinci mərtəbədə yardımçı otaqlar, ikinci mərtəbədə isə əsas ibadət zalı yerləşmişdir. Məscidin divarları taxtadandır. Döşəməsi və tavanı da taxtadan işlənmişdir. Məscidin iki giriş qapısı vardır. Qapılar taxtadan olub düzbucaqlı formaya malikdir. Əsas ibadət zalında 6 pəncərə qoyulub. Pəncərələr taxtadan hazırlanıb və düzbucaqlı formasındadır. Məscidin əsas giriş qapılarının ön tərəfində açıqşəkilli eyvan yerləşmişdir. Eyvanın döşəməsi və tavanı taxtadandır.

## ŞİLƏVƏNGƏ KƏND İMAM MUSEYİ-KAZIM MƏSCİDİ



Məscid Cəlilabad rayonunun Şiləvəngə kəndindədir. 1995-ci ildə inşa olunub. Məscidin ibadət zalının sahəsi 20x4,5 metr, hündürlüyü 3 metrdir. Həyətyanı sahəsi yoxdur.

Məscid yerli kənd sakinləri tərəfindən tikilmişdir. Bu işdə Məmmədov Əjdər, Qəhrəmanov Aydın və Cəfərov Yavər xüsusi təşəbbüs göstərmişlər.

Məscidin iki giriş qapısı var. Giriş qapıdan sonra yardımçı otaq gəlir ki, bunun da sahəsi 3,5 x23 metrdir. Məscidin döşəməsi torpaq, tavanı isə taxtadır. Dam örtüyü isə şiferdəndir. Divarları çiy kərpiclə hörülmüşdür. Divarlar çöl və iç tərəfdən palçıqla suvanmışdır.

Məscidin minarəsi, günbəzi və mehrabı yoxdur. Minbəri isə taxtadan olub, üçpillədir.

***Qeyd:***

Cəlilabad rayonunun daha 30 kəndində- Alar, Hacı İsmayıl, Xəlilli, Sadaqlı, Qamışlıgöl, Xəlilabad, Qarağac, Ağdaş, Bəciravan, Allahverən, Həsənabad, Şıxlar, Cəfərli, Çinar, Zəhmətabad, Şatırlı, Xanəgah, Cəngan, Sultankənd, Dövlətbəyli, Kürdlər, Mollalı, Əliabad, Sabirabad, Bədirli, Gülməmmədli, Qarakazımlı, Cəfərxanlı, Təklə və Carinbaldə də məscidlər fəaliyyətdədir.

# ŞƏKİ RAYON MƏSCİDLƏRİ

## ŞƏKİ ŞƏHƏR CÜMƏ MƏSCİDİ

Məscid Şəki şəherinin mərkəzindədir. İnşa tarixi dəqiq məlum deyil, lakin deyilənlərə görə, məscid XIX əsrin axırlarında inşa edilmişdir. Həyətyanı sahəsi 700 kv.metr, iç sahəsi isə 14x30 metrdir.

Şəki şəhər Cümə məscidinin divarları çaylaq daşı və bişmiş kərpiclə hörülmüşdür. Minarəsi dəyirmi formadadır, hündürlüyü 24 metrə çatır. Minarənin üstü ağ dəmir təbəqə ilə örtülüb. Üstündə isə dəmir təbəqədən aypara və beşguşəli ulduz rəmzi qoyulmuşdur. Minbəri taxtadan düzəldilmişdir və şəbəkə ilə işlənmişdir. düzbucaqlı formadadır və 4 taxta sütun qapısı və 44 pəncərəsi vardır. İbadət zalında divarları qum-sement məhlulu ilə nəbati ornamentlərlə işlənmişdir. Məscidin







Minbər on pillelidir. Tavan taxtadan olub, üzərində dayanmışdır. İbadət zalının 3 ədəd giriş 6 böyük çilçıraq qoyulmuşdur. Məscidin iç suvanmışdır. Mehrabı (hündürlüyü 2 metr olan) ikinci mərtəbəsində qadınların ibadət zalı (sahəsi

30x3) yerləşir.

Sovetlər dövründə, daha doğrusu, 1937-ci ildən 1990-cı ilə qədər bu məsciddən anbar, idman zalı, ipək kombinatı texnikumu kimi istifadə olunmuşdur. 1990-cı ildə məscid ermeni-müsəlman davasında yandırılmışdır. 1990-cı ilin axırlarında burada Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyinin Bərpa İdarəsi tərəfindən təmir-bərpa işləri aparılmışdır. Lakin bu iş çox cüzi olmuşdur. 1993-cü ildən bu günədək Türkiyənin Diyanət Vəqfinin Gənclərə Yardım Fondu tərəfindən məsciddə təmir-bərpa işləri görülür. Bu dövr ərzində məscidin içərisi və fasad tərəfi tamamilə bərpa edilmiş və dam örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. 1937-ci ildə məscidin minarəsi də dağıdılmışdır. Həmin minarənin hündürlüyü 26 metr olmuşdur. (Yeni ucaldılan minarə isə 24 metrdir).



Məscidin nəzdində 1993-cü ildən mədrəsə fəaliyyət göstərir. Mədrəsədə təhsil müddəti 3 ildir. Burada azərbaycanlı müəllimlərlə yanaşı, türkiyəli müəllimlər də dərs deyirlər.

## HƏZRƏT ƏLİ MƏSCİDİ

Məscid Şəki şəhərinin Gəncəli məhəllesində tikilib. Tarixi dəqiq məlum deyil. Lakin yerli sakinlərin dediklərinə görə, məscid Nadir şahın hücumundan əvvəl də mövcud olmuşdur. Məscidin ibadət zalının sahəsi 26x13 metrdir. İbadət zalı ikinci mərtəbədə yerləşir. Birinci mərtəbədə isə yardımçı otaqlar var. Həyətyanı sahəsi isə 660 kv.metrdir.

Formaca dördbucaqlı olan bu məscid bişmiş kərpic və mədən daşı ilə hörülmüşdür. Divarların qalınlığı 75 sm-dir. Damın örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir.

Həzrət Əli məscidi ilkin vəziyyətini qoruyub saxlamışdır. Lakin minarəsi repressiya illərində dağıdılmışdır. 1997-ci ildə məscidin minarəsi və mehrabı yenidən tikilmişdir. Hazırkı minarənin hündürlüyü 22 metrdir. Minarə dəyirmi formada olub, bişmiş kərpiclə işlənmişdir.

Sovetlər dövründə məsciddən məktəb, idman zalı kimi istifadə edilmişdir. 1994-cü ildə fəaliyyəti bərpa olunmuşdur.

Həzrət Əli məscidi 1994-cü ildən etibarən İran İslam Respublikasının Bakıdakı Mədəniyyət Mərkəzi tərəfindən bərpa edilib. Bərpa zamanı məscidin ibadət zalı, eləcə də minarəsi yenidən tikilmişdir.

Həzrət Əli məscidi məşhur mollaları ilə tanınmışdır. Onlardan biri Axund Əbdülcabbar Zeynalabdin oğlu Pişnamazzadə olmuşdur. O,təhsilini Nəcəfül-əşrəfdə almış və "Misbahul-Hərəmeyn" kitabını yazmışdır. Onun qəbri məscidin ön tərəfindədir.

Hal-hazırda məscidin axundu Abdullah Müslüm oğlu Xəyyatidir.





## ŞƏKİ ŞƏHƏR YANIQ MƏSCİDİ

Məscid Şəki şəhərinin Çayqırağı məhəlləsində yerləşib. Divarlarındakı daş kitabəyə görə, məscid hicri-qəməri təqvimi ilə 1322-ci ildə inşa edilmişdir. Həyətyanı sahəsi 800 kv.metrdir.

Şəki şəhər Yanıq məscidi dördbucaqlı formadadır. Mədən daşları və bişmiş kərpiclə inşa edilmişdir. Dam örtüyü qırmızı kirəmitdəndir. Həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, daş hasara alınmışdır.

Hal-hazırda məscid uşaq bağçası kimi istifadə olunur.



## GÖDƏK MİNARƏ MƏSCİDİ

Məscid Şəki şəhərinin Ağvanlar məhəlləsindədir. Məsciddəki kitabə yazısından və yaxınlığındakı qəbir daş yazılarından məlum olur ki, o, hicri-qəməri təqvimi ilə XIII əsrdə inşa edilmişdir. Belə ki, qəbirlərdən birinin tarixi 1254-cü il göstərilmişdir. Bağça kimi istifadə olunan ibadət zalının qapılarından birinin üstündə daş kitabə həkk edilmişdir. Kitabədə hicri-qəməri təqvimi ilə 1324-cü il tarixi qeyd edilmişdir. Məscidin həyətyanı sahəsi 700 kv.metrdir.



Gödək Minarə məscidinin əsas binası çiy kərpiclə tikilmişdir. Damının örtüyü isə qırmızı kirəmitdəndir. Minarənin hündürlüyü 10 metrdir və dəyirmi formaya malikdir. Minarə bişmiş kərpiclə işlənmişdir. Yuxarıda qeyd edildiyi kimi, məscidin ibadət zalı bağça kimi istifadə edilməkdədir. İbadət zalının tavanı xüsusi qaydada işlənmişdir.

## ŞƏKİ ŞƏHƏR DODU MƏSCİDİ

Məscid Şəki şəhərinin Dodu məhəlləsində inşa olunub. İç sahəsi 9x18 metr, hündürlüyü isə 4 metrdir.

Şəki şəhər Dodu məscidi çaylaq daşı və bişmiş kərpiclə işlənmişdir. Məscidin iki giriş qapısı və 13 pəncərəsi vardır. Formaca dördbucaqlı olan bu məscidin damının örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Günbəzi güldəstə formasında olub, hündürlüyü 3 metrdir. Məscid sovetlər dövründə kitabxana kimi istifadə edilmişdir. 1993-cü ildən fəaliyyəti bərpa edilmişdir. Təmir-bərpa işləri yerli sakin Çingiz Əfəndiyevin şəxsi vəsaiti hesabına həyata keçirilmişdir.



## TOPQARAĞAC MƏSCİDİ



Məscid Şəki şəhərinin Topqarağac məhəlləsində tikilib. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1317-1320-ci illərə aiddir. İç sahəsi 24x12 metr, eyvanının sahəsi 24x4,5 metrdir. Bundan əlavə, 18x6 metr ölçüsündə yeni ibadət zalı tikilib başa çatmaq üzrədir.

Topqarağac məscidi mişar daşı, çaylaq daşı və bişmiş kərpiclə inşa edilmişdir. Damının örtüyü ağ dəmir təbəqə və şiferlə işlənmişdir.

Məscidin nəzdində mədrəsə də fəaliyyət göstərir. Burada qonşu rayonlardan - Ağdaş, Qax, Oğuz, Qəbələ və digərlərindən hal-hazırda 300-ə yaxın tələbə təhsil alır.

Sovetlər dövründə məsciddən anbar, tikiş sexi kimi istifadə edilmişdir. 1989-cu ildən etibarən məsciddə təmir-bərpa işləri aparılır.

## ŞƏKİ ŞƏHƏR GİLƏHLİ MƏSCİDİ



Məscid Şəki şəhərinin Giləhli məhəlləsindədir. İnşa tarixi XVIII əsrə aiddir.

Şəki şəhər Giləhli məscidinin binası uçub dağılmışdır. Hal-hazırda yalnız onun minarəsi qalmışdır. Formaca dəyirmi olan bu minarənin bünövrə hissəsi mədən daşından, yuxarı hissəsi isə bişmiş kərpicdəndir. Minarə hazırda tarixi abidə kimi dövlət tərəfindən mühafizə olunur.

Məscidin minarəsinin bir giriş qapısı vardır. Minarənin qübbə hissəsi taxtadan və dəmir təbəqədəndir, üstündə ağ dəmir təbəqədən aypara rəmzi qoyulmuşdur. Minarənin hündürlüyü 18 metrdir.

## ŞƏKİ ŞƏHƏR XAN MƏSCİDİ



Məscid Şəki şəhərinin Bazarbaşı məhəlləsində yerləşib.

Miladi təqvimlə 1745-1750-ci illərdə inşa edilmişdir. Həyətyanı sahəsi 1600 kv.metrdir.

Şəki şəhər Xan məscidi formaca düzbucaqlı olub, əsas binası və minarəsi başdan-başa bişmiş kərpiclə tikilmişdir. Memarlığı baxımından yerli üslubda olan bu məscidin üç giriş qapısı vardır və giriş qapısının ön tərəfində eyvan yerləşmişdir. Eyvan yeddi tağdan ibarətdir. Məscidin dam örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Həyətyanı sahəsi daş hasara alınmışdır və yaşıllıqlar içərisindədir. Minarəsi dəyirmidir, hündürlüyü 20 metrdir.

Məscidin arxa tərəfində - həyətdə 9 böyük başdaşı qoyulmuşdur ki, bunlar da Şəki xanlarının qəbirləridir.



Məsciddən sovetlər dövründə anbar kimi istifadə edilmişdir. 1978-ci ildən 1994-cü ilədək Ziyalılar evi olmuşdur. 1994-cü ildə yerli məhəllə əhalisi tərəfindən təmir və bərpa edilmişdir.



## ÖMƏR ƏFƏNDİ MƏSCİDİ



Məscid Şəki şəhərinin Axundov prospektində yerləşir. XIX əsrin əvvəllərində yerli sakin Ömər Əfəndi tərəfindən tikilmişdir. Həyətyanı sahəsi 15x35 metr, iç sahəsi 15x7 metrdir.

Ömər Əfəndi məscidi çaylaq daşı və bişmiş kərpiclə tikilmişdir. Damının örtüyü dəmirlə işlənmişdir. Minarəsi də bişmiş kərpicdən ucaldılıb və dəyirmi formaya malikdir. Minarənin hündürlüyü 14 metrdir. Məscidin döşəməsi və tavanı taxtadandır. Məscidin minbəri də taxtadan olub, çox nəfis şəkildə işlənmişdir. Mehrabın hündürlüyü 3 metrdir və nəbati ornamentlə işlənmişdir. İbadət zalında 14 pəncərə qoyulmuşdur. Məscidin əsas ibadət zalının ön tərəfində daha böyük bir ibadət zalı yerləşmişdir. Onun sahəsi 16x5 metrdir. Buranın 45 kvadrat metri qadınlar üçün, digər hissəsi isə dəhliz kimi istifadə edilir. Məscidin giriş qapısının ön tərəfində açıqşəkilli eyvan yerləşmişdir.





Ömər Əfəndi məscidi özünün ilkin variantını qoruyub saxlamışdır. Sovetlər dövründə bu məsciddən anbar kimi istifadə edilmişdir. 1950-ci illərdən sonra məscidin fəaliyyəti bərpa olunmuşdur. 1986-cı ildə məscid təbii fəlakət nəticəsində yanmışdır. 1987-ci ildə Şəki Cümə məscidinin imamı Hacı Səlim Əfəndinin rəhbərliyi və yerli camaatın maliyyə vəsaiti ilə təmir edilmişdir.

## DAĞDİBİ MƏHƏLLƏ MƏSCİDİ



Məscid Şəki şəhərinin Dağdibi məhəlləsində, 1989-1990-cı illərdə inşa edilib.

Dağdibi məhəllə məscidi başdan-başa çaylaq daşı və bişmiş kərpiclə tikilmişdir. Dam örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Məscid formaca düzbucaqlı şəklindədir.

## ŞƏKİ ŞƏHƏR YUXARI BAŞ MƏSCİDİ





Məscid Şəki şəhərinin Yuxarı Baş məhəlləsindədir. Hicri-qəməri təqvimi ilə məscidin tarixi XIII əsrin əvvəllərinə aid olunur. Həyətyanı sahəsi 600 kv.metrdir.

Sovetlər dövründə məscid uçub dağılmışdır. Yalnız məscidin həyəti və səkkizguşəli minarəsi qorunub saxlanmışdır. Həmin minarə qırmızı kərpicdəndir. Məscidin giriş qapısının sağ tərəfində qəbir və başdaşı yerləşmişdir. Bu, məscidin əfəndisinin qəbridir. O, hicri-qəməri təqvimi ilə 1299-cu ildə vəfat etmişdir. Şəki şəhəri Yuxarı Baş məscidinin bünövrəsi çaylaq daşındandır.

## KİÇİK DƏHNƏ KƏND MƏSCİDİ

Məscid Şəki şəhərinin Kiçik Dəhnə kəndində yerləşib. Tikilmə tarixi hicri-qəməri təqvimi ilə 1287-ci ilə aiddir. 1994-cü ildə kənd camaatı tərəfindən bərpa edilmişdir. Həyətyanı sahəsi 400 kv.metr, iç sahəsi isə 12x4 metrdir.

Məscidin həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, daş hasara alınmışdır. Məscid mişar daşı və bişmiş kərpiclə inşa edilmişdir. Bir giriş qapısı vardır. Giriş qapısının qarşısında eyvan (sahəsi 12 kv.metr) yerləşmişdir. Minarə dəmir borudandır, hündürlüyü 12 metrə çatır. Məscidin dam örtüyü qırmızı kirəmit və şiferlə işlənmişdir. İbadət zalında dörd pəncərə qoyulmuşdur. Pəncərələr dördbucaqlı formada olub, taxtadandır. qayrılmışdır.



## BÖYÜK DƏHNƏ MƏSCİDİ

Məscid Şəki rayonunun Böyük Dəhnə kəndindədir. İnşa tarixi XIX əsrin ortalarına aiddir. Həyətyanı sahəsi 2500 kv.metr, ibadət zalının sahəsi isə 8x28 metrdir.

Böyük Dəhnə məscidinin əsas ibadət zalı və minarəsi bişmiş kərpicdən inşa edilmişdir. Məscid formaca düzbucaqlı olub, həyətyanı sahəsi yaşıllıqlara qərq olmuşdur. Əsas ibadət zalının hündürlüyü 3 metrdir. Giriş qapısı ikidir və taxtadandır. Giriş qapıları tərəfində eyvan yerləşmişdir ki, onun da sahəsi 3x13 metrdir. Məscidin döşəməsi asfalt, tavanı isə fanerdir. Eyvanın dam örtüyü şiferdəndir. Damın örtüyü qırmızı kirəmitlə işlənmişdir.



## YEL BABA QƏBRİSTANLIĞI MƏSCİDİ

Məscid Şəki şəhəri Oxut kəndində (Yel Baba qəbristanlığında) yerləşib.

Məscid yalnız namazgahdan ibarətdir. Namazgahın sahəsi 5x5 metr, hündürlüyü isə 3 metrdir. Namazgahın döşəməsi və tavanı taxtadandır. Mehrabı tağvari formadadır. Burada hicri-qəməri təqvimi ilə 1329-cu il tarixi göstərilmişdir. Məscidin dam örtüyü qırmızı kirəmitlə işlənmişdir.





## ŞƏKİ ŞƏHƏR SOYUQDÖYƏN MƏSCİDİ

Məscid Şəki şəhərinin Dağdibi məhəlləsində yerləşib. İnşa tarixi hicri-qəməri təqvimi ilə 1318-1321-ci illərə aiddir.

Şəki şəhər Soyuqdöyən məscidi 1990-1991-ci illərdə bərpa edilmişdir. Lakin təmir işləri hələ başa çatmayıb.



## QURCANA KƏND MƏSCİDİ

Məscid Şəki şəhərinin Çayqırağı məhəlləsində yerləşir. İnşa tarixi Xan məscidinin tarixi ilə eynidir.

Qurcana çay məscidi bişmiş kərpic və çaylaq daşı ilə inşa edilib. Məscid düzbucaqlı formalı olub, iki giriş qapısına və üç mehraba malikdir. Giriş qapıları tərəfdə eyvan yerləşmişdir. Eyvan on dörd tağdan ibarətdir. Bişmiş kərpiclə işlənmişdir.

Məscid 1989-90-cı illərdə yerli camaat tərəfindən təmir edilmişdir. Təmir işləri hal-hazırda da davam etməkdədir.



## ORTA ZƏYZİD KƏND MƏSCİDİ

Məscid Şəki rayonunun Orta Zəyzid kəndində 1989-cu ildə tikilməyə başlanmış və 1994-cü ildə istifadəyə verilmişdir. İç sahəsi 18x8,6 metrdir. İbadət zalının hündürlüyü isə 4 metrdir.

Orta Zəyzid kənd məscidi əsasən bişmiş kərpiclə və qismən də çaylaq daşından tikilmişdir. Minarəsi (hündürlüyü 12,80 metr) dəyirmi formada olub, başdan-başa bişmiş kərpiclə işlənmişdir. Minarənin qübbəsi dəmir təbəqə ilə üzlənmişdir. Məscidin forması dördbucaqlıdır, damının örtüyü qırmızı kirəmitdəndir. Məscidin bir giriş qapısı, 10 pəncərəsi vardır. Pəncərələr düzbucaqlı formada olub, taxtadan düzəldilmişdir. Məscidin önündə eyvan (sahəsi 2,5x14 metr) yerləşmişdir.



## BABARATMA PİRİ



Babaratma piri Şəki rayonunun eyniadlı kəndindədir. Pir kompleksinə məqbərə, məscid binaları, ətrafda əmələ gəlmiş böyük bir qəbristanlıq daxildir. Xatirə abidələri başdaşı formasında olub, XIX və XX əsrin əvvəllərinə aiddir.

Kəndin adının meydana çıxmasını, kompleksin tarixini və bir sıra məsələləri dəqiqləşdirməkdən ötrü pirin kitabəsi tarixi mənbə kimi böyük əhəmiyyət kəsb edir. Həmin kitabə məscid-məqbərə binasının üzərindədir. Çay daşına həkk olunmuş (0,55x0,30 metr) kitabə binanın xarici divarında giriş qapısından sağda hörülmüşdür. Kitabə ərəbcədir, xətti sülsdür.

"Mərhəmətli və rəhimli Allahın adıyla!"

Bu qəbir məşhur alim, seyid... Hac-əl-Hərəmeyn (iki müqəddəs yerin) hacısı Hacı ağa Məhəmmədindir. Allahın və Allahın valisinin köməyi və onun müqəddəsliyi ilə bu binanı bərpa etməyə başladı. Hac əl-Hərəmeyn Seyid Hacı Ağa Məhəmməd Əfəndi ibn Seyid Qasım Çələbi ibn Seyid Qədaş Çələbi Əfəndi ibn Seyid Hacı Şeyx Dədə Mürsəl Şeyx Babarata 1005 ildə" (1596-1597).

Kitabədən göründüyü kimi, məşhur alim Hacı ağa Məhəmməd Əfəndinin məqbərəsi qeyd olunan həmin bu yerdədir. Bundan başqa, kitabədə binanın Hacı Məhəmməd Əfəndi tərəfindən bərpa olunmasından da söhbət gedir. Ağa Məhəmməd Əfəndinin üç-dörd arxa qohumlarının "seyid", "başçı", "rəhbər" ləqəbi ilə göstərilmələri və axırıncının - Şeyx Dədə Mürsəlin- "Şeyx Babaratma" - deyə qeyd olunması çox maraqlıdır.

Burada ribat-xanəgah olmuşdur ki, onun fəaliyyətinin başlanğıcı çox güman ki, XIII-XIV əsrlərə aiddir. Məscid -türbə binasının içərisində divara hörülmüş kitabənin ərəbcə mətninin tərcüməsi belədir: "Bu şərəfli məscidi divarları ilə birgə Babaratma kəndindən olan bu ziyarətgahda yaşayan Molla Abdulla ibn Molla Əbdül Müttəlib, Peyğəmbər əleyhissəlamın hicrətindən sonra 1100-cü ildə bərpa etdirdi və öz əlilə qəbrini qazdı" (1688-1689).

Kitabədən göründüyü kimi, Molla Abdullanın həyat və fəaliyyəti sosial-mədəni və siyasi mərkəz kimi bütün orta əsrlər boyu Şəkinin qaynar həyatında mühüm rol oynamış ticarət yolu üzərində həm ziyarət, həm ticarət məqsədilə fəaliyyət göstərmiş ribatla bağlı olmuşdur.

## ŞORSU KƏND MƏSCİDİ



Məscid Şəki rayonunun Şorsu kəndindədir. İnşa tarixi 1991-1992-ci illərə aiddir. Həyətyanı sahəsi 200 kv.metr, iç sahəsi isə 20x8 metrdir.

Şorsu kənd məscidi çaylaq daşı və bişmiş kərpiclə tikilmişdir. Həyətyanı sahəsi yaşıllıqlar içərisindədir. Məscidin giriş qapısının önündə eyvan (sahəsi 3x21 metr) yerləşmişdir. Eyvan beş dəmir boru sütun üzərində dayanmışdır.

Şorsu kənd məscidi dördbucaqlı formada olub, dam örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Həmin ağ dəmir təbəqələr Türkiyə vətəndaşı Osman Nurinin maliyyəsi hesabına alınmışdır. Minarəsi dəmir borudandır. Hündürlüyü 20 metrdir. Minarənin üstündə ağ dəmirdən aypara rəmzi qoyulmuşdur. Minbər taxtadandır, yeddipillədir.

Şorsu kənd məscidinin tikintisinin təşəbbüskarı və rəhbəri Qazi Zakir oğlu Ağaniyevdir. Məscidin tikintisində kənd camaatı da yaxından iştirak etmişdir.



## BAŞ ZƏYZİD KƏND MƏSCİDİ



Məscid Şəki rayonunun Baş Zəyzid kəndində yerləşir. 1995-ci ildə inşa olunub. Həyətyanı sahəsi 2000 kv.metrdir. Baş Zəyzid kənd məscidi kənd camaatı tərəfindən tikilmişdir. Formaca dördbucaqlı olan bu məscid əsasən çaylaq daşı və bişmiş kərpiclə inşa olunub. Damının örtüyü qırmızı kirəmit və dəmirlə işlənmişdir. Həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, daş hasara alınmışdır. Minarəsi dəmir borudan olub, hündürlüyü 14 metrdir. Minarənin üstündə ağ dəmir təbəqədən aypara və beşguşəli ulduz rəmzi qoyulmuşdur.

## OXUT KƏND MƏSCİDİ



Məscid Şəki rayonunun Oxut kəndində yerləşir. Yerli camaatın dediklərinə görə, məscidin inşa tarixi XIX əsrin ortalarına aiddir. İç sahəsi 24x9 metr, hündürlüyü isə 4 metrdir.

Məscid çaylaq daşı və bişmiş kərpiclə tikilmişdir. Məscidin tavanı düzbucaqlı formada olub, taxtadan işlənib və beş taxta sütun üzərində dayanmışdır. İbadət zalında 17 ədəd pəncərə qoyulmuşdur. Pəncərələr taxtadandır və düzbucaqlı formadadır. Məscidin dam örtüyü kirəmitlə işlənmişdir. Divarları iç tərəfdən qum-sementlə suvanmışdır.

Oxut kənd məscidindən sovetlər dövründə anbar, klub, tibb məntəqəsi və kitabxana kimi istifadə olunmuşdur. 1987-ci ildə məscidin fəaliyyəti bərpa edilmiş və yerli kənd camaatının maliyyə vəsaiti hesabına burada ilk dəfə təmir-bərpa işləri aparılmışdır.

## QOXMUX KƏND MƏSCİDİ



Məscid Şəki rayonunun Qoxmux kəndində yerləşir. İnşa tarixi dəqiq məlum deyil. Lakin Sovetlər dövründə bu məscidin sahəsi kolxoza verilmişdir. Sonra isə bura tibb məntəqəsi olmuşdur. 1991-ci ildən etibarən məscid kimi fəaliyyəti bərpa edilmişdir. İç sahəsi 6x12 metr, hündürlüyü isə 3 metrdir. Həyətyanı sahəsi 400 kv.metrdir.

Qoxmux kənd məscidinin sahəsi yaşıllıqlar içərisində olub, daş hasara alınmışdır. Döşəməsi taxtadan, tavanı isə plastik materialdan işlənib. Tavan dörd dəmir boru sütun üzərində yerləşmişdir. Məscidin bir giriş qapısı və dörd pəncərəsi vardır. Pəncərələr və qapı taxtadandır, düzbucaqlı formadadır. Fasad divarları və iç divarları qum-sementlə suvanmışdır. Məscidin giriş qapısı önündə eyvan (sahəsi 36 kv.metr) yerləşmişdir. Qoxmux kənd məscidinin günbəzi və minbəri yoxdur. Mehrabı çox sadə formada işlənib.

### BABİRƏHMƏT (BABARATMA) MƏSCİDİ



Məscid Şəki rayonunun Salmandərə məntəqəsindəki qəbrlstanlıqdadır. İnşa tarixi XVII əsrə aiddir. İç sahəsi 4x5 metrdir. Öz memarlığı baxımından bu məscid XVII əsrin tarixi abidəsi hesab oluna bilər.

Formaca dördbucaqlı olan bu məscid çaylaq daşından tikilmişdir. Məscidin içərisində-mehrabın sağ tərəfində daş kitabə həkk olunmuşdur. Məscidin bir giriş qapısı var. Qapı taxtadan olub, tağvari formadadır. Məscidin divarlarında iki gözlük qoyulmuşdur. Çöl tərəfdən dar və içəridən geniş olan bu gözlüklər məscidin işıqlandırılması üçün nəzərdə tutulmuşdur. Dam və minarəsinin üstü ağ dəmir təbəqə ilə işlənmişdir. Minarənin hündürlüyü 8 metr olub, dəyirmi formadadır.

*Qeyd:*

Şəki rayonunun Camışlıq, Baş Layski, Vərəzət, Cəfərabad, Suçma, Üzümçülük sovxozu kəndlərində də (6 kənddə) məscidlər fəaliyyət göstərir.

## ŞƏMKİR RAYON MƏSCİDLƏRİ

### ŞƏMKİR ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Bu məscid Şəmkir şəhərinin mərkəzində tikilir. Məsciddə qoşa minarə ucaldılır. Hal-hazırda tikinti işləri başa çatmadığından məscid haqda təfsilatı ilə yazmağa imkan yoxdur.

### İRMAŞDI KƏND MƏSCİDİ



Məscid Şəmkir rayonunun İrmaşdı kəndindədir. İnşa tarixi 1995-1997-ci illərə aiddir. Həyətyanı sahəsi 3000 kv.metr, üç sahəsi isə 144 kv.metrdir.

İrmaşdı kənd məscidi və minarələri mişar daşı ilə hörülmüşdür. İbadət zalında bir qapı və yeddi pəncərə qoyulmuşdur. Məscidin bütün qapı və pəncərələri taxtadandır. Döşəməsindən tavana qədər dörd metrdir. Giriş qapılarının sağ və sol tərəflərində qoşa minarə ucaldılmışdır. Həyətyanı sahəsi hasara alınmışdır. Minarələr (hündürlüyü 15 metr) səkkizguşəli olub, tək şərəfəyə malikdir. Məscidin dam örtüyü və minarələrin üstü dəmir təbəqə ilə işlənmişdir. Minarələr və günbəzin üstündə dəmirdən aypara rəmzi qoyulmuşdur. İbadət zalı səkkizguşəlidir. Əsas giriş qapısının üstündə aypara və səkkizguşəli ulduz rəmzi işlənmişdir.

İrmaşdı kənd məscidi Əlifxan Alı oğlu tərəfindən tikilmişdir. Bu barədə məscidin giriş qapısının sağ və sol tərəfində həm ərəb, həm də latın əlifbası ilə qara mərmər lövhə üzərində yazılmışdır.



### ƏLİYAQUBLU KƏND MƏSCİDİ



Məscid Şəmkir rayonunun Əliyaqublu kəndində yerləşib. İnşa tarixi 1996-1998-ci illərə aid edilir. Həyətyanı sahəsi 4000 kv.metr, iç sahəsi 15x10 metrdir.

Əliyaqublu kənd məscidi mişar daşı ilə hörülmüşdür. Minarələr də mişar daşı ilə hörülmüş və daş plitələrlə üzlənmişdir. Minarələrin hündürlüyü 15 metrdir. Minarələrin və günbəzin üstündə aypara və səkkizguşəli ulduz rəmzi qoyulmuşdur. Məscidin əsas giriş qapısının ön tərəfində üç tağlı baştağ yerləşmişdir. Giriş qapısının sağ və sol tərəfində isə yardımçı otaqlardır. İbadət zalının divarları qum-sement məhlulu ilə suvanmış və ağ rənglə işlənmişdir. İbadət zalının döşəməsi taxtadandır. Zalda 12 pəncərə qoyulmuşdur. Pəncərə tağvari formada olub, taxtadandır. Günbəzin diametri 4,5 metr, döşəmədən tavana qədər hündürlüyü 5 metrdir. Mehrab dördbucaqlı formada olub, ağ rənglə işlənmişdir.

### DÜYƏRLİ KƏND MƏSCİDİ



Məscid Şəmkir rayonunun Düyərli kəndində tikilib. İnşasına 1995-ci ilin dekabr ayında başlanmışdır. Həyətyanı sahəsi 3000 kv.metrdir. Məsciddə tikinti getdiyindən iç sahəsi hələlik qeyd edilməmişdir.

Düyərli kənd məscidi və minarələri (hündürlüyü 18 metr) mişar daşı ilə hörülmüşdür. Məscidin divarları, habelə minarələr daş plitələrlə üzlənmişdir. Günbəzi və fasad tərəfdən daş plitələrlə üzlənmişdir. Həyətyanı sahəsi isə daş hasara alınmışdır. Məsciddə hazırda tikinti işləri davam etdirilir.

Məscid yerli kənd sakinləri Cümşüd İmamverdi oğlu İmanov və Rəşid İmanovun şəxsi vəsaiti hesabına tikilir.

### KEÇİLİ KƏND MƏSCİDİ



Məscid Şəmkir rayonunun Keçili kəndində 1989-cu ildə tikilməyə başlanmış və 1993-cü ildə istifadəyə verilmişdir. İbadət zalının sahəsi 10x10 metrdir.

Keçili kənd məscidinin əsas binası mişar daşı ilə hörülmüşdür. Minarəsi tək olub, bişmiş kərpicdəndir. Minarənin hündürlüyü isə 15 metrdir. Məscidin əsas giriş qapısının sağ tərəfində mərmər lövhə də vurulmuşdur. Lövhədə məscidin kim tərəfindən tikildiyi və habelə Quran ayəsi həkk olunmuşdur. Məscidin giriş qapısından içəridə- sağ və sol tərəfdə köməkçi otaqlar yerləşmişdir. İbadət zalı səkkizguşəlidir. Günbəz divarların üstündə oturmuşdur. Döşəmədən günbəzədək hündürlüyü 7 metrdir. Günbəz fasad və iç tərəfdən ağ dəmir təbəqə ilə işlənmişdir. Məscidin döşəməsi taxtadandır. Tağvari formalı qapı və pəncərələri də taxtadan düzəldilib. Məscidin iç divarları qum-sement məhlulu ilə suvanmışdır.

Məscid ixtisasca həkim olan Mahir Əsədovun şəxsi vəsaiti hesabına tikilmişdir.

# ŞAMAXI RAYON MƏSCİDLƏRİ

## ŞAMAXI ŞƏHƏR CÜMƏ MƏSCİDİ



Məscid Şamaxı şəhərinin girəcəyində (qədim şəhərin mərkəzində) yerləşmişdir. İnşa tarixi VII əsrin axırı, VIII əsrin əvvəllərinə aiddir. İç sahəsi isə 43x14 metrdir.

Şamaxı şəhər Cümə məscidinin binası yonulmuş sal daşlarla tikilmişdir. Ətrafı daş plitələrlə döşənmişdir. Həyətyanı sahəsi daş hasara alınmışdır. Məscidin əsas giriş qapısı üçdür. Giriş qapılarının qarşısında eyvan (sahəsi 43x7 metr) yerləşmişdir. Eyvanın döşəməsi daş plitədəndir. Eyvan eni 1,20 metr olan sütunlar üstündə dayanmışdır. Bu sütunlar sal daşlarla hörülmüşdür. Məscidin əsas ibadət zalı 3 giriş qapısından, 3 böyük otaqdan və 3 mehrabdan ibarətdir.

Məscidin dörd divarı bir-biriləri ilə dəmirlərlə əlaqələndirilmişdir. Bu da binanın zəlzələyə qarşı davamlılığını artırır. Məscidin orta günbəzinin üstündə dördbucaqlı formada olan başqa bir mərtəbə yerləşmişdir. Günbəzin ətrafında 4 minarə vardır. Camaatın qeyd etdiyinə görə, şəhərdə vaxtilə 36 məscid olmuşdur. Həmin məscidlərdən yalnız bu məscid qalmışdır. Bu məscidlər Şamaxıda tez-tez baş verən zəlzələlər nəticəsində dağılmışdır.



Hal-hazırkı məscid də dəfələrlə dağıntıya məruz qalmışdır. Axırıncı dəfə 1902-ci ildə baş verən zəlzələdən zərər çəkmişdir. Sonralar məscid bərpa edilmişdir. Sovetlər dövründə məsciddə bərpa işləri zamanı onun milli koloriti korlanmışdır. 1905-ci ildə erməni-müsəlman davasında azərbaycanlılar bu məscidə doldurularaq yandırılmışlar. Nəhayət, 80-ci illərdə məscid muzey adı altında bərpa edilmiş və bərpa işi başa çatdıqdan sonra camaatın istifadəsinə verilmişdir. Lakin bərpa dövründə ermənilər məscidin orta günbəzini 5 metr aşağı salmışlar.

1980-ci ildə məscidin həyətində aparılan tikinti işləri zamanı onun iki minarəsinin və 8 hücrəsi olan mədrəsənin qalıqları aşkar edilmişdir. Məscid imamının müavininin bildirdiyinə görə, bu məscidin vaxtilə dörd minarəsi olmuşdur. Məscid xüsusi memarlıq üslubunda tikilmişdir. Belə ki, bu məscidin sağ tərəfi nə qədər böyüdülsə də, məscidin ümumi görünüşünə heç bir xələl gətirmir. Onun bildirdiyinə görə, 1905-ci ildə ermənilər şəhərin ən hündür təpəsində yerləşən Lalayanlar məhəlləsindən məscidi top atəşinə tutmuşlar. Mərmilərin izləri hal-hazırda da qalmaqdadır.

## ŞAMAXI ŞƏHƏR İMAMZADƏ MƏSCİDİ



İmamzadə Şamaxı şəhərində yerləşib. Məsciddə 1989-cu ildən tikinti işləri başlanmışdır və hal-hazırda davam etməkdədir.

İmamzadədə dördüncü imam Zeynül-Abdinin oğlunun qəbri yerləşmişdir. Buradakı kompleksin tikintisinə 1989-cu ildə kənd sakini Ağaməhdi Mirməhəmməd Tağı ağanın oğlunun təşəbbüsü və yerli camaatın vəsaiti hesabına başlanılmışdır. Hazırda isə İmamzadə məscidinin axundu Hacı Elşənin başçılığı altında tikinti işləri davam etdirilir. Nəzərdə tutulmuş kompleks məscid və İmamzadə məqbərəsindən ibarət olacaq.



## ŞAHXƏNDAN TÜRBƏSİ



Türbə Şamaxı şəhər qəbristanlığındadır.

Başdan-başa yonulmuş sal daşlarla tikilmişdir. Səkkizguşə formasında olan bu türbənin yuxarı hissəsi günbəz şəklindədir. Türbənin içərsində iki qəbir vardır. Camaatın qeyd etdiyinə görə, burada S.Ə.Şirvaninin qardaşının qəbri yerləşib. Türbənin üstündə heç bir kitabə yoxdur. İç sahəsi 5x5 metr, hündürlüyü isə 8 metrdir. Bir giriş qapısı vardır.

## YEDDİ GÜNBƏZ TÜRBƏLƏRİ

Türbələr Şamaxı rayonunun Kolaxanlı kəndində yerləşib.

Bu türbələrin hündürlüyü və formaları eynidir. Onların heç birində qəbir yoxdur. Hər birinin iç sahəsi 4x4 metrdir. Onlar səkkizguşəli olub, yonulmuş sal daşlarla işlənmişdir. Yalnız dördüncü türbədə giriş qapısının üstündə daş kitabə həkk olunmuşdur. Hər bir türbənin bir giriş qapısı vardır.

















## AVAXIL KƏND MƏSCİDİ



Məscid Şamaxı rayonunun Avaxıl kəndində 1873-cü ildə inşa olunub. İç sahəsi 10x10 metrdir.

Avaxıl kənd məscidi formaca dördbucaqlı olub, divarları yonulmuş sal daşlarla hörülmüşdür. Damı ağ dəmir təbəqə ilə örtülmüşdür. Giriş qapısının ön tərəfində eyvan (sahəsi 11x2 metr) yerləşmişdir. Eyvan 5 taxta sütun üzərində dayanmışdır. Məscidin iç divarları və ön tərəfi qum-sement məhlulu ilə suvanmışdır.

Avaxıl kənd məscidinin bir giriş qapısı və dörd pəncərəsi vardır. Tağvari formalı qapı və pəncərələr taxtadan düzəldilib. Mehrabı divarın içindədir və hündürlüyü 2 metrdir. Döşəmə beton, tavan isə taxtadandır. Tavan dörd taxta sütun üzərində dayanmışdır.

Məscid Hacı Seyidqulunun şəxsi vəsaiti ilə tikilmişdir. Məscidin vaxtilə günbəzi də olmuşdur. Lakin 1937-ci ildə günbəz sökülmüşdür. Sovetlər dövründə məsciddən 1996-cı ilə qədər anbar kimi istifadə olunmuşdur. 1997-ci ilin əvvəllərindən etibarən məscid fəaliyyətə başlamışdır.

## MƏDRƏSƏ QƏSƏBƏSİ CÜMƏ MƏSCİDİ



Məscid Şamaxı rayonunun Mədrəsə qəsəbəsində yerləşib. 1994-1995-ci illərdə inşa edilib. Həyətyanı sahəsi 1200 kv.metr, iç sahəsi isə 18x15 metrdir.

Məscidin binası mişar daşı ilə, minarəsi isə bişmiş kərpiclə inşa edilmişdir. Formaca dəyirmi olan tək minarənin hündürlüyü 27 metrdir. O, yerli memarlıq üslubunda tikilmişdir. Minarə tək şərəfəyə malikdir. Onun qülləsi və məscidin günbəzi, habelə damının örtüyü ağ dəmir təbəqə ilə işlənmişdir. Minarənin üstündə aypara və səkkizguşəli ulduz, günbəzin üstündə aypara və beşguşəli ulduz rəmzi qoyulmuşdur. İbadət zalında 1 qapı, 12 dördbucaqlı və 15 tağvari formalı pəncərə vardır. Qadınlar şöbəsi üçüncü mərtəbədə yerləşmişdir. Üçüncü mərtəbəyə giriş kişilərin ibadət zalındandır. Qadınlar şöbəsinin sahəsi 15x3 metrdir. Məscidin döşəməsi beton, tavanı isə taxtadır. Tavan iki dəmir boru sütun üzərində dayanmışdır. Mehrab (hündürlüyü 2,5 metr) divarın içindədir. Minbər taxtadan düzəldilmişdir. Həyətyanı sahəsi daş hasara alınmışır.

Hal-hazırda məscidin nəzdində mədrəsə də fəaliyyət göstərir. Burada 150 nəfər oğlan və 150 nəfər qız dini təhsil alır. Uşaqlara təlim verənlər yerli müəllimlərdir. Tədris pulsuz həyata keçirilir və uşaqlar pulsuz kitabla təmin edilirlər. Məscidin həyətində bütün lazımi şərait vardır.

Məscid Türkiyənin Gənclərə Yardım Fondunun vəsaiti hesabına tikilmişdir. Layihəsi də həmin fonda məxsusdur.

Qəsəbədə əvvəllər də məscid olmuşdur. Lakin həmin məscid kiçik olduğundan hazırkı məscidi tikmək zərurəti yaranmışdır.



## MEYSƏRİ KƏND MƏSCİDİ



Məscid Şamaxı rayonunun Meysəri kəndində yerləşib. Bünövrəsi 1992-ci qoyulmuşdur. Hal-hazırda tikinti işləri davam edir.

Həyətyanı sahəsi 200 kv.metr, iç sahəsi isə 10x10 metrdir.

Meysəri kənd məscidinin əsas binası və minarəsi mişar daşı ilə hörülmüşdür. Minarə dəyirmi formada olub, tək şərəfəyə malikdir. Minarənin hündürlüyü 14 metrdir. Məscidin həyəti çaylaq daşı ilə döşənmiş, həyətyanı sahəsi hasara alınmışdır. Məscidin günbəzinin aşağı hissəsi səkkizguşəli formada, yuxarı hissəsi isə dəyirmi formadadır.

Hər bir guşədə bir gözlük qoyulmuşdur. İbadət zalında bir qapı və səkkiz pəncərə var. Tavan dörd beton sütun üzərində dayanmışdır. Məscidin iç divarları ağ rənglə işlənmişdir. Meysəri kənd məscidi əslən bu kənddən olan Saday İsa oğlunun şəxsi vəsaiti hesabına tikilir.

## PİR MƏRDƏKAN TÜRBƏSİ



Türbə Şamaxı rayonunun Göylər kəndinin qəbristanlığındadır. İnşa tarixi XIII əsrə aid olunur.

Bu türbə abidə qismində dövlət tərəfindən qorunur. Abidənin aşağı sərdabə hissəsi dördbucaqlı formadadır. Türbə divarlarından birinin üstündə daş kitabə həkk olunmuşdur. Türbənin ikinci hissəsi səkkizguşəli, üçüncü hissəsi isə altıguşəlidir. Həm sərdabə, həm də günbəz daşla hörülmüşdür. Türbənin aşağı hissəsi yonulmuş daşlarla, yuxarı hissəsi isə mişar daşı ölçüsündə olan daşlarla tikilmişdir. Sərdabə hissəsində bir qəbir vardır. Buraya müxtəlif yerlərdən ziyarətə gəlir, nəzir-niyaz verir, müxtəlif niyyətlərlə türbəni ziyarət edirlər. Türbənin hündürlüyü 9 metrdir.

## GÖYLƏR KƏND MƏSCİDİ



Məscid Şamaxı rayonunun Göylər kəndində yerləşib. İnşa tarixi XIX əsrin axırlarına və XX əsrin əvvəllərinə aid edilir. Həyətyanı sahəsi 10x20 metr, iç sahəsi isə 5,5x20 metrdir.

Göylər kənd məscidi dördbucaqlı formada olub, mişar daşı ilə tikilmişdir. İki giriş qapısı vardır. Giriş qapılarının ön tərəfində eyvan (sahəsi 10x20 metr) yerləşmişdir. Məscidin həyətyanı sahəsi şiferlə örtülmüşdür. Həyətə giriş darvazası dəmirdəndir. Əsas binanın divarları fasad tərəfdən daş plitələrlə işlənmişdir. Damın örtüyü şiferdəndir. Günbəzi dəmirdəndir və hündürlüyü (damın üstündən) 3 metrdir. Eyvanın sağ və sol tərəfində iki yardımçı otaq yerləşmişdir. Bu otaqlar dərs otaqları kimi istifadə olunur. Məscidin səkkizguşəli minbəri taxtadandır.

Sovetlər dövründə bu məscid anbar kimi istifadə olunmuşdur. 1990-cı ildə burada bərpa işləri aparılmışdır. Bu zaman məscidin əvvəlki binası bərpa edilməklə yanaşı, digər işlər də həyata keçirilmişdir. Məscidin bərpasında yerli sakinlərin böyük xidməti olmuşdur.

## *YEDDİ GÜNBƏZ QƏBRİSTANLIĞI*



Günbəzlərin inşa tarixi təqribən 150 ildir.

Bu günbəzlər Şamaxı şəhərinin qəbristanlığındadır. Vaxtilə burada yeddi günbəz-türbə tikilmişdir. Lakin onlardan biri hal-hazırda tamamilə, digər üçü isə yarıyadək dağılmışdır. Digər üç günbəz -türbənin birində iki, o birində isə altı qəbir vardır. Camaatın qeyd etdiyinə görə, bu qəbirlər Mustafa xanın ailəsinə aiddir. Dağılmış günbəzlər-türbələr də səkkizguşəli olmuşlar.

Beşinci günbəz - türbə də səkkizguşəli olub, giriş qapısının üstündə bir daş kitabə həkk edilmişdir. Bu günbəz də sal daşlarla hörülmüşdür. İçərisində isə dörd qəbir vardır.

Altıncı günbəzin yarısı sökülüb dağıdılmışdır. Burada isə dörd qəbir vardır.

Yeddinci günbəz-türbə də səkkizguşəlidir. Giriş qapısının üstündə daş kitabə həkk edilmişdir. Burada üç qəbir yerləşmişdir.

Günbəz-türbələrin hündürlüyü 5 metr, iç sahəsi hamısında eyni olub, 4x4 metrdir.

## *PİRSAAT PİRİ*



olduğu deyilir. Digər iki qəbir isə əshabələrə aid olunur. Pirin iç sahəsi 4x4 metrdir. Pir Şamaxı rayonunun girəcəyində, yolun sağ tərəfindədir. Bünövrəsi 1993-cü ildə qoyulub.

Pir dördbucaqlı formada olub, divarları mişar daşı ilə hörülmüşdür. Günbəzi dəmir təbəqə ilə örtülmüşdür. Həyətyanı sahəsi yaşıllıqlar içərisində olub, daş plitələrlə döşənmişdir. Pirin binası da daş plitələrlə işlənmişdir. Məlumatlardan aydın olur ki, 1993-cü ilə qədər burada heç bir abidə olmamışdır. Yalnız bundan sonra pirə qoyulan nezir-niyazın hesabına burada qəbirüstü məqbərə götürülmüşdür. Hal-hazırda pirə ətraf yerlərdən ziyarətə gəlirlər. Məqbərənin içərisində üç qəbir vardır. Onlardan birinin adi qəbir

***Qeyd:***

Şamaxı rayonunun Sabir qəsəbəsində, Zarat, Cəbirli, Qaleybuğurt və Çaylı kəndlərində də (5 kənddə) məscidlər vardır.

## *ŞUŞA YUXARI GÖVHƏR AĞA MƏSCİDİ*

Şuşa şəhərinin mərkəzinin ümumi plan strukturunda Cümə məscidi, yaxud Yuxarı Gövhər ağa məscidi hakim mövqe tutur.

Məscid 1768-ci ildə İbrahim Xan Qarabağlının tapşırığı ilə tikilib. XIX əsrdə məscid bir neçə dəfə rekonstruksiya və təmirə məruz qalıb. İbrahim xanın bu köhnəlmiş məscidinin yerində onun qızı Gövhər ağanın göstərişi ilə 1837-1838-ci illərdə Qarabağ xanlarının əvvəlki şöhrətilə səsləşən, yaxşı bəzədilmiş və möhtəşəm yeni məscid tikilib. Təəssüf olsun ki, məscidin memarının kimliyi barədə əldə məlumat yoxdur.

Gövhər ağanın birinci məscidinin uçub-dağılmasının və Kərbəlayı Səfixan Qarabaği tərəfindən yeni məscidin inşasının səbəbləri məlum deyil. Xatırladaq ki, birinci məscid 1837-1838-ci, yeni məscid 1883-1884-cü illərdə tikilib. Belə ki, memar bu məscidin inşasında və memarlıq üslubunda köhnə sxemdən əl çəkərək Ağdam məscidi və Şuşadakı Gövhər ağa Aşağı məscidində istifadə edilmiş dini tikilinin həllindəki ideyaları inkişaf etdirib.



## *Ədəbiyyat :*


1. Fatullayev Ş.S. "Qradostroitelstvo i arxitektura Azerbaydjana XIX naçalo XX veka". Stroyizdat. Leninqrad -1986
2. Ə.V.Salamzadə, K.M.Məmmədzadə. "Azərbaycan memarlığının Naxçıvan məktəbi abidələri". Bakı-Elm-1985
3. Məşədixanım Nemət. "Azərbaycanda pirlər". Bakı. "Azərnəşr".-1992.
4. T.Q.Səlimov-Şağani "Abşeronlular" Bakı. "Elm" nəşriyyatı. 1993.
5. T.Q.Səlimov-Şağani "Abşeronun yer adları" Bakı. "Elm" nəşriyyatı. 1993.
6. R.İmaməliyev, T.Səlimov-Şağani "Bakı kəndləri". Bakı. "Boz Oğuz" nəşriyyatı. 1996.
7. Ə.İ.Novruzlu "Saatlının tarixi", Bakı, "Elm" nəşriyyatı. 1995.
8. M.S.Neymat "Korpus epiqrafiçeskix pamyatnikov Azerbaydjana", Baku. İzdatelstvo "Elm". 1991.


*****************

# MÜNDƏRİCAT


Müqəddimə....5
Ön söz....6
Abşeron rayon məscidləri....11
Ağcabədi rayon məscidləri....18
Ağdaş rayon məscidləri....21
Ağdam rayon məscidləri....25
Astara rayon məscidləri....28
Ağsu rayon məscidləri....38
Ağstafa rayon məscidləri....40
Bakı şəhər məscidləri....42
Balakən rayon məscidləri....91
Beyləqan rayon məscidləri....96
Biləsuvar rayon məscidləri....98
Bərdə rayon məscidləri....100
Qax rayon məscidləri....103
Qəbələ rayon məscidləri....107
Qazax rayon məscidləri....112
Qobustan rayon məscidləri....114
Quba rayon məscidləri....115
Qusar rayon məscidləri....123
Dəvəçi rayon məscidləri....128
Əli Bayramlı şəhər məscidləri....135
Zərdab rayon məscidləri....136
Zaqatala rayonməscidləri....139
İsmayıllı rayon məscidləri....144
İmişli rayon məscidləri....149
Yardımlı rayon məscidləri....153
Yevlax rayon məscidləri....156
Kürdəmir rayon məscidi....157
Goranboy rayon məscidləri....158
Göyçay rayon məscidləri....159
Gəncə şəhər məscidləri....165
Gədəbəy rayon Seyid Əhməd türbəsi....173
Lənkəran rayon məscidləri....174
Lerik rayon məscidləri....197
Laçın rayon Malik Əjdər türbəsi....201
Masallı rayon məscidləri....201
Mingəçevir şəhər məscidləri....210
Naxçıvan şəhər məscidləri....211
Neftçala rayon məscidləri....236
Oğuz rayon Cümə məscidi....237
Sumqayıt məscidləri....238
Siyəzən rayon məscidləri....239
Salyan rayon məscidləri....241
Saatlı rayon məscidləri....245
Sabirabad rayon məscidləri....249
Tərtər rayon məscidləri....258
Tovuz rayon məscidi....259
Ucar rayon məscidləri....260
Xanlar Cümə məscidi....264
Xaçmaz rayon məscidləri....264
Xızı rayon məscidləri....284
Hacıqabul rayon məscidləri....287
Cəlilabad rayon məscidləri....290
Şəki rayon məscidləri....294
Şəmkir rayon məscidləri....302
Şamaxı rayon məscidləri....304
Şuşa Yuxarı Gövhər Ağa məscidi....308
Ədəbiyyat....309